**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU**

https://doi.org/10.59849/idms.2026

*BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİ MÜNASİBƏTİLƏ*

# *"I TÜRKOLOJİ QURULTAYDAN BU GÜNƏ: ƏLYAZMAŞÜNASLIĞIN İNKİŞAF PROBLEMLƏRİ"*

mövzusunda
Respublika elmi-nəzəri konfransın

**M A T E R İ A L L A R I**

***PROCEEDINGS OF THE REPUBLICAN SCIENTIFIC-THEORETICAL***

***CONFERENCE ON THE THEME***

# *"FROM THE 1ST TURKOLOGICAL CONGRESS TO THE PRESENT DAY: ISSUES IN THE DEVELOPMENT OF MANUSCRIPT STUDIES"*

***HELD ON THE OCCASION OF THE 100TH ANNIVERSARY OF THE FIRST TURKOLOGICAL CONGRESS***

***"I Türkoloji Qurultaydan bu günə: əlyazmaşünaslığın inkişaf problemləri"*** mövzusunda Respublika elmi-nəzəri konfransın materialları. Bakı, 25 may 2026-cı il. -Bakı: Elm və Təhsil, 2026, - 343 s.

***© AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, 2026***

**Bakı şəhəri**
**25 may 2026-cı il**

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasının **19 may 2026-cı il, 04 saylı** iclasının qərarı ilə nəşr edilib.*

## ***FƏXRİ KOMİTƏ***

*Akad. İsa Həbibbəyli (sədr) - AMEA-nın prezidenti*
*Akad. Teymur Kərimli - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru*
*Birol Akgün - Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri*
*Kürşat Özdəmir - TİKA-nın Bakı təmsilçisi*
*Gökhan Seyhan - Bakı Yunus Əmrə İnstitutunun rəhbəri*
*Akad. Möhsün Nağısoylu - AMEA-nın müşaviri*
*Akad. Rafael Hüseynov – Milli Məclisin vitse-spikeri*
*Akad. Nizami Cəfərov - Azərbaycanda Atatürk Mərkəzinin müdiri*
*Prof. Nadir Məmmədli - AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru*

## ***TƏŞKİLAT KOMİTƏSİ***

*Akad. Teymur Kərimli - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru*
*Fil.e.d., dos. Aygül Hacıyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d, dos. Lamiyə Rəhimova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Tar.ü.f.d., dos. Aynur Hacıqədirli - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d., dos. Xatirə Yusifova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi Aysel Acalova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi Səadət Mürşüdova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi Nuranə Ələkbərova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Elmi işçi Jalə Hüseyn Rüstəmova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

## ***ELMİ KOMİTƏ***

*Tar.e.d., dos. Tahirə Həsənzadə - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.e.d., dos. Aygül Hacıyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.e.d., dos. Şəbnəm Həsənli-Qəribova - AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*Fil.e.d., dos. Qətibə Quliyeva - AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*Fil.e.d., dos. Eşqanə Babayeva - AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Fil.e.d., dos. Aygün Əlizadə - AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Fil.ü.f.d., dos. Lamiyə Rəhimova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

*Tar.ü.f.d., dos. Aynur Hacıqədirli - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d., dos. Xatirə Yusifova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d., dos. Aybəniz Rəhimova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d., dos. Əli Məmmədbağıroğlu - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fəl.ü.f.d, dos. Rübabə Şirinova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d., dos. Samirə Əliyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d., dos. Aygün Yusubova - AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Fil.ü.f.d. Şəhla Xəlilli - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fil.ü.f.d. Leyla Kərimova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi Aysel Acalova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi Sevinc Rəhnulla - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi Tahirə Əliyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

## ***İŞÇİ QRUPU***

*Böyük elmi işçi Gülər Əsədullayeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Türkdilli əlyazmaların tədqiqi" şöbəsi*
*Elmi işçi Gülüş Səfərzadə - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Türk dünyası əlyazmalarının tədqiqi" şöbəsi*
*Elmi işçi Natəvan Dadaşova - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Türkdilli əlyazmaların tədqiqi" şöbəsi*
*Kiçik elmi işçi Afaq Hacıyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Türkdilli əlyazmaların tədqiqi" şöbəsi*
*Kiçik elmi işçi Mələkxanım Əliyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Türk dünyası əlyazmalarının tədqiqi" şöbəsi*
*Böyük laborant Fatimə İsayeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu "Türk dünyası əlyazmalarının tədqiqi" şöbəsi*

**MÜNDƏRİCAT**

**AÇILIŞ MƏRUZƏLƏRİ**

**Teymur Kərimli**
BİRİNCİ TÜRKOLOJİ QURULTAYDAN MÜASİR TÜRKOLOGİYAYA: ƏSRLİK TƏCRÜBƏ VƏ ELMİ ƏNƏNƏLƏR.....9-10

**Tahirə Həsənzadə**
I TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİNƏ EHTİRAMLA.....11-13

**Aygül Hacıyeva**
BİRİNCİ TÜRKOLOJİ QURULTAYDAN ORTAQ TÜRK GƏLƏCƏYİNƏ.....14-15

**Lamiyə Rəhimova**
TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏDƏBİ ƏLAQƏLƏRİ VƏ ƏLYAZMA İRSİ (XVII-XVIII ƏSRLƏR).....16-23

**TÜRKOLOJİ QURULTAYIN TARİXİ VƏ ELMİ İRSİ**

**Aybəniz Rəhimova**
BİTMƏK BİLMƏYƏN GÜLLƏLƏRDƏN BİRİ DƏ.....24-30

**Hüsniyyə Çobanova**
BİR ƏSRİN İŞIĞINDA: BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TARİXİ VƏ GƏLƏCƏYİ.....31-35

**Ramilə Süleymanova**
I TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ TÜRK DİLLƏRİNİN TƏDQİQİ PROBLEMLƏRİ.....36-41

**İlahə Kazımova**
I TÜRKOLOJİ QURULTAY – 100: TÜRK DÜNYASININ ELMİ VƏ MƏDƏNİ İNTEQRASİYASININ TARİXİ TƏMƏLİ.....42-45

**Leyla Kərimova**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY İŞTİRAKÇILARINDAN XALİD SƏİD XOCAYEV VƏ ONUN TÜRKÇÜLÜK GÖRÜŞLƏRİ.....43-51

**Səbinə Cəfərova**
I TÜRK QURULTAYININ AZƏRBAYCAN XALQININ TƏHSİL TARİXİNDƏ ROLU.....52-56

**Təhminə Əliyeva**
I TÜRKOLOJİ QURULTAYDA ALINAN QƏRARLARIN TÜRK DÜNYASINA TƏSİRİ.....57-61

**Vəsilə Razimi**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ONUN TÜRK DÜNYASININ ELMİ VƏ MƏDƏNİ İNTEQRASİYASINA ROLU.....62-67

**Rüxsarə Məmmədova**
AZƏRBAYCAN ZİYALILARININ DİL MÜCADİLƏSI: MAARİFÇİLİK DÖVRÜNDƏN BAKI QURULTAYINA GEDƏN YOL.....68-73

**Arzu Abdulzadə**
I TÜRKOLOJİ QURULTAYIN TÜRK DİLLƏRİNİN ELMİ İNKİŞAFINDA FƏALİYYƏTİ.....74-78

**Ülviyyə Aslanova**
BİRİNCİ TÜRKOLOJİ QURULTAYDAN GÜNÜMÜZƏ TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ.....70-83

**Günel Pənahəli**

BƏKİR ÇOBANZADƏNİN İKİ MƏQALƏSİNƏ 100 İLDƏN SONRA CAVAB (“TÜRK ƏDƏBİYYATINDA TƏQLİD VƏ YARADICILIQ”, “ELMİ VƏ ƏDƏBİ DİL MƏSƏLƏSİ”).....84-88

**ƏLYAZMAŞÜNASLIQ, MƏTNŞÜNASLIQ VƏ MƏNBƏŞÜNASLIQ**

**Səbinə Əhmədova**
KLASSİK AZƏRBAYCAN POEZİYASININ BƏDİİ-ESTETİK SİSTEMİ VƏ ONUN MƏNBƏŞÜNASLIQ ƏSASLARI.....89-95
**Elnurə Babayeva**
MULTİDİSSİPLİNAR YANAŞMADA LİNQVİSTİK ƏLYAZMALARIN TƏDQİQİ.....96-100
**Əli Məmmədbağıroğlu**
“ƏMSAL VƏ NƏSAHEYİ-TÜRKİ”NİN ƏLYAZMASI.....101-106
**Rübabə Şirinova**
ORTA ƏSRLƏR AZƏRBAYCAN-TÜRKİYƏ YAZILI ABİDƏLƏRİNİN İLK TƏDQİQATÇISI.....107-110
**Bayram Quliyev**
“KİTABİ-DƏDƏM QORQUD” ABİDƏSİNİN “TÜRKMƏN-SƏHRA” ƏLYAZMA NÜSXƏSİNDƏ “AZƏRBAYCAN”.....111-116
**İradə Əliyeva**
ŞƏRQ VƏ QƏRB SİVİLİZASİYALARINDA QƏDİM BİBLİOQRAFİK ƏLYAZMALARIN QISA XARAKTERİSTİKASI.....117-120
**Samirə Əliyeva**
ŞƏRƏF XANIM YARADICILIĞINDA AZƏRBAYCAN KLASSİKLƏRİ İLƏ UYĞUN VƏ OXŞAR XÜSUSİYYƏTLƏR.....121-124
**Könül Sadıqova**
TÜRKƏSİLLİ SİBT İBN ƏL-CÖVZİNİN “MİRATUZ-ZAMAN” ƏSƏRİ: MƏNBƏ BAZASININ TƏHLİLİ.....125-129
**Nicabət İslamova**
ƏBDÜLQƏNİ NUXƏVİNİN ƏSƏRLƏRİNDƏN BƏZİLƏRİNƏ QISA BAXIŞ.....130-135
**Sevda Muradova**
SİRACƏDDİN URMƏVİNİN “MƏTALİ ƏL-ƏNVAR FİL-MƏNTİQ VƏL-HİKMƏ” ƏSƏRİ VƏ ONA HƏSR OLUNMUŞ ŞƏRHLƏR, HAŞİYƏLƏR.....136-140
**Sevinc Rəhnulla**
TATAR VƏ BULQAR TÜRKLƏRININ MƏŞHUR XANIMLARI (Rzaəddin bin Fəxrəddinin “Məşhur xanımlar” əsəri əsasında).....141-148
**Tahirə Əliyeva**
BURSALI MƏHƏMMƏD TAHİR BƏYİN “TÜRKLƏRİN ÜLUM VƏ FÜNUNA XİDMƏTLƏRİ” ƏSƏRİ.....149-153
**Yeganə Rəhnulla**
ŞƏRQ MUSİQİ MƏDƏNİYYƏTİNDƏ ANONİM MUSİQİ RİSALƏLƏRİNİN ROLU: AZƏRBAYCAN ƏLYAZMALARININ TƏDQİQİ.....154-158
**İsmayıl Hüseyinov**
“FƏZİLƏTLİ ŞƏHƏR ƏHLİNİN BAXIŞLARI" ƏSƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ VƏ MƏNBƏŞÜNASLIQ-TERMİNOLOJİ TƏHLİLİ.....159-163
**Pərviz Ağayev**
İMADƏDDİN İSFAHANİNİN TARİXİ ALİ SƏLCUQ SALNAMƏSİ NUSRATUL-FATRA VA USRATUL-FİTRA ƏSƏRİNİN PARİS ƏLYAZMASI ƏSASINDA.....164-169
**Yeganə Pirəliyeva**

QƏDİM MÜALİCƏ ƏNƏNƏLƏRİ HAQQINDA ƏLYAZMALAR İLKİN TİBBİ İNFORMASİYA RESURSLARI KİMİ.....170-176
**Nuranə Çələbiyeva**
MƏTNŞÜNASLIQ ELMİ HAQQINDA.....177-181

**TÜRK XALQLARININ TARİXİ VƏ MÜASİR PROBLEMLƏRİ**
**Aysel Əhmədova**
QƏDİM UYĞUR ABİDƏSİ "MAYTRISİMİT"DƏ MÜRƏKKƏB İSMİ BİRLƏŞMƏLƏR.....182-187
**Günay Quliyeva**
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FEİLLƏRDƏN FEİLLƏRİN DÜZƏLMƏSİ YOLLARI.....188-192
**İlahə Ələkbərova**
AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN TARİXİ MƏNBƏLƏRƏ SÖYKƏNƏN İNKİŞAFI.....193-197
**Kübra Vəliyeva**
AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNƏN BƏZİ ƏRƏB MƏNŞƏLİ TİBBİ TERMİNLƏR: MƏXMƏRƏK, SƏTƏLCƏM, ZÖKƏM.....198-203
**Çinarə Əkbər**
TÜRK DİLLƏRİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ.....204-210
**Gülşən Rzayeva**
AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA DİLÇİ ALİMLƏRİN ROLU.....211-217
**Nərminə Salmanlı**
TÜRKOLOGİYANIN TARİXİ-MÜASİR İNKİŞAF PERSPEKTİVLƏRİ.....218-222
**Leyla Məmmədzadə**
PAREMİOLOJİ VAHİDLƏRİN SİNTAKTİK TƏŞKİLİ VƏ OBRAZLILIQ PROBLEMİ.....223-227

**FİLOLOGİYA MƏSƏLƏLƏRİ**
**Fərman Xəlilov**
MİRZƏ SADIQ FANİNİN ÖYRƏNİLMƏ TARİXİNƏ BİR NƏZƏR.....228-233
**Könül Bağırova**
"QILINC VƏ QƏLƏM" ROMANININ TEKSTOLOJİ VƏ FİLOLOJİ ASPEKTLƏRİ.....234-239
**Gülər Abdullayeva**
"RUHNAMƏ"DƏN DOĞAN "HÜSN VƏ EŞQ".....240-244
**Rəna İskəndərli**
TƏNZİMAT DÖVRÜNDƏ MAARİFÇİ CƏMİYYƏTLƏR, TƏHSİL VƏ ƏDƏBİYYAT.....245-249
**Aysel Acalova**
MİLLİ KİMLİK VƏ ƏLİFBA İSLAHATI KONTEKSTİNDƏ FƏRHAD AĞAZADƏNİN BAXIŞLARI.....250-255
**Nuranə Ələkbərova**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ VİLHELM TOMSEN İRSİ.....256-261
**Səadət Mürşüdova**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ A.N.SAMOYLOVİÇİN TÜRKOLOJİ BAXIŞLARI.....262-268
**Böyükxanım Əsgərova**
TÖVRATDA VƏ QURANİ-KƏRİMDƏ ORTAQ ŞƏXS ADLARI.....269-274
**Gülüş Səfərzadə**
ƏLİ SƏRKAROV MAARİFÇİ REALİZM ƏDƏBİ CƏRƏYANININ NÜMAYƏNDƏSİ KİMİ.....275-279
**Jalə Hüseyn Rüstəmova**
HƏSƏN İMANOVUN FƏALİYYƏTİ VƏ DÖVRÜN İCTİMAİ-SİYASİ REALLIQLARI.....280-285
**Afaq Hacıyeva**

"KİTABİ-DƏDƏ QORQUD"DA FƏLSƏFİ BAXIŞLAR VƏ MÜASİR TÜRK BİRLİYİ.....286-289
**Mələkxanım Əliyeva**
MİRZƏ BAXIŞ NADİM VƏ XIX ƏSR AZƏRBAYCAN SATİRİK ƏDƏBİYYATI.....290-294
**Baba Əlibabaoğlu**
TÜRK DASTAN ƏNƏNƏSİNDƏ QUTUN ƏLDƏ EDİLMƏSİ: MİFOLOJİ, DİNİ-MİSTİK VƏ SİYASİ-İDEOLOJİ SƏVİYYƏLƏR.....295-300
**Fatimə İsayeva**
ETNİK YADDAŞIMIZ – TÜRK FOLKLORU.....301-304

**TÜRK TARİXİ MƏDƏNİYYƏTİ VƏ ETNOLOGİYASI**

**Salidə Şərifova**
ORXON-YENİSEY KİTABƏLƏRİNİN NƏSR VƏ NƏZM JANRLARINA AİD EDİLMƏSİ.....305-310
**Ulduz Qəhrəmanova**
ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN NƏZƏRİ GÖRÜŞLƏRİNDƏ "KİTABİ-DƏDƏ QORQUD" EPOSU TÜRK XALQLARININ MİLLİ KEÇMİŞİNİ, MİLLİ KİMLİYİNİ ÜZƏ ÇIXARAN TARİXİ SƏNƏD KİMİ.....311-315
**Günel Hümmətova (Pəniyeva) Saleh**
TÜRK XALQLARI ƏDƏBİYYATINDA QARŞILIQLI ƏLAQƏLƏRİN İNKİŞAFI: ORTAQ MİFOLOJİ VƏ KLASSİK ƏDƏBİYYAT ƏNƏNƏLƏRİ.....316-320
**Bəxtiyar Tuncay**
"KURQAN ETNOSU" HAQQINDA.....321-327
**Cəmilə Məhərrəmova**
K.N.SMİRNOVUN "NAXÇIVAN DİYARININ TARİXİ VƏ ETNOQRAFİYASINA DAİR MATERİALLAR" (1934) ƏSƏRİNDƏKİ TOPONİMLƏRİNİN ETİMOLOJİ TƏHLİLİ.....328-332
**Şəmsiyyə Zalova**
CAVİD İSMAYILOV ƏSƏRLƏRİNDƏ NAXÇIVAN MEMARLIQ ABİDƏLƏRİNƏ YARADICI YANAŞMA.....333-337
**Ülkər Cəmilli**
XVIII ƏSRİN 20-Cİ İLLƏRİNDƏ SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCANIN GEOSİYASİ VƏZİYYƏTİ (OSMANLI TARİXŞÜNASLIĞI VƏ ARXİV SƏNƏDLƏRİ İŞIĞINDA).....338-343

# BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2026-cı ilin fevral ayında Bakı şəhərində Birinci Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur.

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır.

Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6–7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinin təmin olunması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

# BİRİNCİ TÜRKOLOJİ QURULTAYDAN MÜASİR TÜRKOLOGİYAYA: ƏSRLİK TƏCRÜBƏ VƏ ELMİ ƏNƏNƏLƏR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixində imzaladığı "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı türkologiyanın zəngin irsinə yeni müstəvidə nəzər salmaq və qarşıda duran mühüm vəzifələri reallaşdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısının bu Sərəncamı Azərbaycanın zəngin elmi-mədəni irsinə, türkologiya elminin inkişafına və Türk dünyasının ortaq dəyərlərinin qorunmasına göstərilən yüksək diqqətin ifadəsidir. Bu təşəbbüs Azərbaycan dövlətinin türkologiya sahəsində tarixən formalaşmış mövqeyinin, elmi ənənələrinin və Türk dünyasının mədəni-mənəvi birliyinə verdiyi töhfələrin dövlət səviyyəsində yüksək qiymətləndirildiyini nümayiş etdirir.

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və ictimai fikir tarixində mühüm dönüş nöqtələrindən biri olmuşdur. XX əsrin əvvəllərində mürəkkəb siyasi və ictimai şəraitdə baş tutan bu beynəlxalq əhəmiyyətli toplantı türk xalqlarının dil, ədəbiyyat, tarix, etnoqrafiya, əlifba və mədəniyyət məsələlərinin elmi əsaslarla müzakirə edildiyi mühüm bir platformaya çevrilmişdir. Qurultayda Sovetlər Birliyinin müxtəlif ərazilərində yaşayan türk xalqlarının milli-mədəni inkişafı ilə bağlı məsələlər geniş şəkildə nəzərdən keçirilmiş, türkologiya elminin qarşısında duran prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Bu Qurultay yalnız öz dövrünün elmi problemlərinə münasibət bildirməklə kifayətlənməmiş, həm də gələcək tədqiqatların inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Birinci Türkoloji Qurultayın Vasili Radlov və İsmayıl bəy Qaspıralı kimi görkəmli şəxsiyyətlərin xatirəsinə həsr olunması da təsadüfi deyildi. Hər iki mütəfəkkirin türk xalqlarının dili, mədəniyyəti, maariflənməsi və qarşılıqlı əlaqələrinin inkişafında mühüm xidmətləri olmuşdur. Onların elmi və ictimai irsi bu gün də türkologiya araşdırmalarının mühüm istiqamətlərindən biri olaraq qalır. Qurultayda iştirak edən tanınmış alimlərin, dilçi və ədəbiyyatşünasların, mütəfəkkir və ziyalıların irsi bütövlükdə Türk dünyasının elmi-mədəni tarixinin qiymətli tərkib hissəsidir. Həmin şəxsiyyətlərin irəli sürdüyü fikirlər, apardıqları araşdırmalar və formalaşdırdıqları elmi yanaşmalar müasir tədqiqatçılar üçün əhəmiyyətli mənbə rolunu oynayır. Bir əsr əvvəl səsləndirilmiş elmi ideyaların bu gün də araşdırılması və yeni elmi yanaşmalar əsasında qiymətləndirilməsi türkologiya elminin davamlı inkişafını göstərən mühüm amillərdəndir.

Azərbaycanın türkologiya elminə verdiyi töhfələr çoxəsrlik tarixə və zəngin elmi ənənələrə əsaslanır. Ölkəmizdə dilçilik, ədəbiyyatşünaslıq, folklorşünaslıq, tarix və etnoqrafiya sahələrində aparılan araşdırmalar türk xalqlarının ortaq irsinin öyrənilməsinə mühüm töhfələr vermişdir. Azərbaycan alimlərinin yaradıcılığı və elmi fəaliyyəti yalnız milli elmi mühitlə məhdudlaşmamış, beynəlxalq türkologiyanın inkişafında da özünəməxsus yer tutmuşdur. Bu ənənənin qorunması və yeni tədqiqatlarla zənginləşdirilməsi müasir elmi ictimaiyyətin qarşısında duran əsas vəzifələrdən biridir. Dövlət səviyyəsində türkologiyaya göstərilən diqqət və qayğı bu elmi istiqamətin inkişafı üçün yeni imkanlar açır. Azərbaycan Respublikasının Prezidentinin 18 fevral 2016-cı il tarixli "Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı, eləcə də 22 oktyabr 2025-ci il tarixli 100 illik yubileylə bağlı Sərəncamı tarixi elmi hadisələrə verilən yüksək qiymətin mühüm nümunələridir. Bu sənədlər Birinci Türkoloji Qurultayın irsinin tədqiqinə, elmi əhəmiyyətinin təbliğinə və onunla bağlı araşdırmaların genişləndirilməsinə dövlət səviyyəsində dəstəyin ifadəsidir. Eyni zamanda həmin təşəbbüslər Türk dünyasının ortaq elmi-mədəni irsinin

öyrənilməsinə, alimlər arasında əməkdaşlığın gücləndirilməsinə və qarşılıqlı elmi əlaqələrin inkişafına xidmət edir. Yubiley tədbirləri çərçivəsində keçirilən bu konfrans da həmin məqsədlərin reallaşdırılması baxımından əhəmiyyətli elmi platformadır.

Birinci Türkoloji Qurultayın yüzillik yubileyi çərçivəsində aparılan elmi tədqiqatların əsas qayəsi yalnız tarixi bir hadisənin ildönümünü qeyd etməklə məhdudlaşmır. Başlıca vəzifə Qurultayın zəngin elmi irsini müasir metodoloji yanaşmalar əsasında təhlil etmək, onun türkologiya elminin inkişafındakı fundamental rolunu dəyərləndirmək və gələcək tədqiqat istiqamətlərini müəyyənləşdirməkdir. Dilçilik, ədəbiyyatşünaslıq, tarix, folklorşünaslıq, mənbəşünaslıq və əlifba məsələləri üzrə aparılan kompleks araşdırmalar elmi əməkdaşlığın və nəzəri fikir mübadilələrinin daha da genişlənməsinə zəmin yaradır.

Qurultayda irəli sürülmüş ideya və təkliflər təkcə XX əsrin əvvəllərindəki elmi fikrin mənzərəsini əks etdirmir, həm də müasir türkologiyanın nəzəri-metodoloji əsaslarını formalaşdıran mühüm bazadır. Bu irsin müasir humanitar elmlərin başlıca istiqamətləri baxımından yenidən dəyərləndirilməsi ortaq elmi terminologiyanın, eləcə də vahid mədəni-mənəvi məkanın inkişafına əhəmiyyətli töhfə verir. Beləliklə, yüzillik elmi təcrübənin sistemli təhlili türk xalqlarının mənəvi və intellektual irsinin öyrənilməsində yeni nəzəri yanaşmaların tətbiqinə yol açır.

Müasir dövrdə türkologiya qarşısında yeni elmi və metodoloji vəzifələr dayanır. Türk dillərinin tarixi-müqayisəli tədqiqi, dialektoloji araşdırmaların inkişafı, ortaq mədəni irsin sistemli şəkildə öyrənilməsi, rəqəmsal texnologiyaların elmi tədqiqatlara tətbiqi və gənc alimlərin bu sahəyə cəlb olunması diqqət tələb edən istiqamətlər sırasındadır. Bu baxımdan elmi konfranslar yalnız əldə olunmuş nəticələrin təqdim edildiyi tədbirlər deyil, həm də yeni ideyaların formalaşdığı, müxtəlif elmi məktəblər arasında əlaqələrin yarandığı və gələcək əməkdaşlıq imkanlarının müəyyənləşdirildiyi mühüm müzakirə məkanlarıdır.

Birinci Türkoloji Qurultayın yüzillik yubileyi bizə yalnız keçmişə nəzər salmaq imkanı vermir. Bu əlamətdar tarix eyni zamanda gələcəyə baxışımızı müəyyənləşdirir, elmi irsimizin qorunması və inkişaf etdirilməsi ilə bağlı məsuliyyətimizi artırır. Bir əsr əvvəl Bakıda toplaşan alim və mütəfəkkirlərin irəli sürdüyü ideyalar bu gün də elmi düşüncəmizin mühüm istiqamətlərindən biri olaraq qalır. Həmin irsin davam etdirilməsi, yeni nəsil tədqiqatçılara çatdırılması və müasir elmin tələbləri əsasında inkişaf etdirilməsi bizim ümumi elmi borcumuzdur. Bu baxımdan, Qurultayın ideallarını yaşatmaq təkcə tarixi ehtiram deyil, həm də Türk dünyasının elmi və mədəni inteqrasiyasını möhkəmləndirən strateji bir amildir. Keçmişin zəngin təcrübəsi ilə müasir elmin imkanlarını birləşdirərək bu elmi məşəli gələcəyə daşımaq hər birimizin mənəvi borcudur. Əminliklə demək olar ki, yüz il əvvəl Bakıda atılan bu təməl bundan sonra da türkologiyanın yeni inkişaf üfüqlərinə yol açacaqdır.

**Akademik Teymur Kərimli**

*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru*

**Tahirə Həsənzadə**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Tarix elmləri doktoru, dosent*
*E-mail: tahira.hasanzadeh@gmail.com*
*ORCİD: 0009-0003-1604-3072*

# I TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİNƏ EHTİRAMLA

**Xülasə**

1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilmiş I Türkoloji Qurultayın türk xalqlarının nümayəndələrinin də məruzə və çıxışları dinlənilmişdir. Filologiya elmləri doktoru, professor Vilayət Quliyevin "Türkoloji Qurultayın Çuvaş-Azərbaycan nümayəndəsi" adlı məqaləsi 1923-1926-cı illərdə Bakı Universiteti Tarix-Filologiya fakültəsinin Türkologiya kafedrasının professoru Nikolay İvanoviç Aşmarinə, onun dilçi kimi fəaliyyətinə həsr olunmuşdur. Aşmarinin qurultayda səslənmiş məruzəsi "Lüğət üçün Azərbaycan-türk şivəsinin toplanmasına dair" adlanır. Həmin məruzənin mətninin ərəb əlifbasından transliterasiyası təqdim olunur.
***Açar sözlər:*** *Nikolay İvanoviç Aşmarin, Çuvaş, dilçilik, Bakı Universiteti, lüğət*

# IN RESPECT OF THE 100TH ANNIVERSARY OF THE 1ST TURCOLOGY CONGRESS

**Abstract**

The reports and speeches of the representatives of the Turkic peoples of the First Turkological Congress held in Baku in February-March 1926 were also heard. The article by Doctor of Philology, Professor Vilayat Guliyev entitled "Chuvash-Azerbaijani Representative of the Turkological Congress" is dedicated to Nikolai Ivanovich Ashmarin, professor of the Turkology Department of the Faculty of History and Philology of Baku University in 1923-1926, and his activities as a linguist. Ashmarin's report delivered at the congress is entitled "On the Collection of Azerbaijani-Turkish Dialects for a Dictionary". The transliteration of the text of that report from the Arabic alphabet is presented.
***Key words:*** *Nikolay Ivanovich Ashmarin, Chuvash, linguistics, Baku University, dictionary*

## Giriş

*2026-cı ildə 100 illiyi qeyd olunan I Türkoloji Qurultayda səsləndirilən dilçilik, əlifba məsələləri barədə məruzə və çıxışlar geniş əks-səda doğurmuş, yubiley ərəfəsində bu mövzuda xeyli sayda məqalələr işıq üzü görmüşdür. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev AMEA-nın 80 illik yubileyi ilə əlaqədar ziyalılar qarşısındakı çıxışında Azərbaycan dilinin saflığının qorunması məsələsinə toxunmuş, bu vacib və əhəmiyyətli mövzunu daha aktual etmişdir. Professor Vilayət Quliyevin Çuvaş türkoloq-alimi Aşmarinə həsr etdiyi məqaləsi Prezidentin çıxışını bizə bir daha xatırladır.*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin AMEA-nın 80 illik yubileyində alimlər, ziyalılar qarşısında çıxışını dinlədikdən qısa bir müddət keçdikdən sonra, hörmətli ziyalımız ədəbiyyatşünas-alim və diplomat, Azərbaycanın Bosniya və Hersoqovinada fövqəladə və səlahiyyətli səfiri, filologiya elmləri doktoru, professor Vilayət

Quliyevin “525-ci qəzet”də növbəti məqaləsini, “həyatının bəlli bir dövrünü Azərbaycanda dilçilik elminin, xüsusən də dialektologiyanın inkişafına həsr etmiş, 1923-1926-cı illərdə Bakı Universiteti Tarix-Filologiya fakültəsinin Türkologiya kafedrasının professoru vəzifəsində çalışmış türk dillərinin qrammatikasını tədris edərək, “Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti”nin sıx əməkdaşı olmuş Nikolay İvanoviç Aşmarin”ə... həsr etdiyi “Türkoloji Qurultayın Çuvaş-Azərbaycan nümayəndəsi” adlı məqaləsini oxudum və Qurultayın məruzəçilərindən biri olmuş Aşmarinin həyatı, elmi yaradıcılığı məni bu nəticəyə gətirdi: “Aşmarinin ağır həyat şəraiti ilə üzləşərək 1933-cü ildə dünyasını dəyişməsi, onu 37-ci ilin repressiya qurbanları sırasından azad etmiş oldu.”

Hörmətli Vilayət müəllimin bu dəyərli məlumatı məndə N.İ.Aşmarinin “Maarif və Mədəniyyət” dərgisinin 1924-cü il 1-ci sayında dərc etdirdiyi “Lüğət üçün Azərbaycan türk şivəsinin toplanmasına dair” adlı məqaləsini ərəb əlifbasından çevirib oxucunun ixtiyarına vermək istəyini yaratdı. Məqalədə deyilir:

“Mədəniyyətin lazım olan dərəcə tərəqqisinə yüksəlmək istəyən bir qövm mütləq islah edilmiş bir dilə, bir lisanə malik olmalıdır. Bir millət nə qədər mədəni, onun dili nə qədər zəngin olursa, insan fikrinin bütün incəliklərini də bir o qədər gözəl ifadəyə qabil olur. Çünki bir qövm ruhən yüksəldikcə onun kəlamı da bir o qədər islah edilmiş, mətanət və zərafət kəsb etmiş olur.

Dilin istiqlaliyyəti demək, bir qövmün müstəqil olması deməkdir. Halbuki ruhun istiqlaliyyətdən məhrum olması dilin əsarətini mucəb olur. Yalnız o dil bir qövmün hissiyyat və ruhunun ən gözəl bir tərcümanı ola bilir ki, xəlqin özü tərəfindən istemal edilmiş, yəni xəlqin özü o dildə, o lisanda danışmış ola.

Buna görə xəlqə doğru özü üçün bir yol aramaqda olan bir elm və bir ədəbiyyat dilini, gücünü öz qüvvətini xəlqin həyatından fəvvarə edən tərzi-təkəllüm və ifadədən almalıdır.

Başqa bir yol təqib edən ədəbi bir dil lazım olan qüvvəti, vəhdəti və gözəlliyi haiz olamaz, səfil və cılız bir həyata məhkum olub qalar. Geniş kütlələr heç bir vəqt ondan istifadə edəməz, xəlq öylə bir dildə yazılan əsərlərlə ülfət və ünsiyyət edəməz. O, daima ona yad və biganə olub qalar. Böylə bir halə meydan verilməməsi üçün xəlqin dili, dilinin şivəsi, ahəng öyrənməsi, ədəbiyyatın tarixi vücudə gətirilməli, bu dilə daxil olan sözlər, istilahlar toplanmalı, onun tərzi-ifadə və təkəllümünü öyrənməli, iştə böylə bir lüğat tərtib etmək istəyənlərin ilk vəzifəsi bundan ibarət olmalıdır. Ədəbiyyat məqsədilə lisanın münfərid şəxslər tərəfindən öyrənilməsi bu xüsusdakı ehtiyacatı qətiyyən rəf və izalə edəməz. Bizdən hər birimizin malik olduğumuz təcrübələr mövqe və zaman etibarilə son dərəcə namüsaid olduğundan bu yolda hamı əl birligilə çalışmalı və musai müştərəkə ilə lisanın hər bir tərəfini əhatə etməlidir.

İştə böylə bir lüğat üçün lazım olan sözlər ancaq buna maraq və həvəs edənlərin bir arada çalışmalarilə toplanıla bilir. Azərbaycan dilinə məxsus böylə bir lüğətin tərtibinə təşəbbüs edən Azərbaycanı Tədqiqat və Tətəbböat Cəmiyyəti, onun işlərində iştirak eləmək arzusunda bulunanların, lüğat toplamaq fikrində olanların nəzəri-diqqətini yaxınlarda ayrıca bir risalə şəklində nəşr olunacaq proqrama cəlb edər. Toplanması lazım gələn materialların cins və mahiyyətinə, bu xüsusda təqib olunması lazım gələn üsul və qəvaid haqqında nafe bir parə məlumat veriləcəkdir.

Azərbaycan üçün ədəbi bir dil vücudə gətirmək arzusunda bulunanların işbu əsərdən böyük fayda götürə biləcəkləri gün kibi aşkardır. Fəqət eyni zamanda bundan ədiblər, lisanşünaslar və əlhasil Azərbaycanın+ Tədqiqat və Tətəbböatilə iştiğal edənlərlə bərabər ülumi-bəşəriyyənin müxtəlif cəhətlərilə aşina olmaq istəyənlərin cümləsi istifadə etmiş olurlar.

Lisan məsələlərilə qədim Roma dövründə bir çoxları maraqlandıqları kibi Şərqin özündə də buna maraq edən az deyildir. Bu cümlədən olaraq ərəbləri, iranlıları, Osmanlı türklərini, çinliləri göstərə biləriz. Bunlar lisan haqqında bir çox böyük əsərlər yazmışlardır. Bu kibi əsərlərin ən mükəmməlləri və ən yenisi olmaq üzrə qayət az tapılan Şəmsəddin Saminin "Qamusi-türki"si göstərilə bilir. Bu lüğatdən kəlmələrin şərh və təfsiri fövqəladə gözəl gətirilərək misallar son dərəcə münasib olduğundan, doğrudan da xəlqin tərcümanı-həyat və heysiyyatını dinləməyə layiqdir; buna görə də xəlqin həyata cəhəti-təəllüqü olan hər bir hadisə və təbəddülatın onun tarixi-mədəniyyəsinə böyük təsiri vardır. Məlum olduğu üzrə xalq arasında dövran edən zərbül-məsəllərin o xəlqin istər keçmiş və istərsə gələcək nöqteyi-nəzərindən böyük əhəmiyyəti vardır.

Əğləb ehtimala görə sözlər, istilahlar müxtəlif yerlərdə toplanmış olacaqdır. Çünki qəzalarda, çöllərdə işlənən sözlərin, kəlmələrin əslini, kökünü daha doğru və düzgün olaraq göstərə bilirlər.

Bir zaman ismi-xass ikən indi ismi-cins yerinə istemal olunan bir çox sözlər vardır ki, onlar da çöllülərin işlətməkdə olduqları sözlərin arasında buluna bilir. Bundan savayı asari-qədimədən ədd olunan bir çox əsərlərin dəxi adları ögrənilmiş, tarixləri, əhəmiyyətləri təqdir edilmiş və bu sayədə fəzlə olaraq türk dili də bundan böyük faidələr görmüş olur. Çöl dilinin səyyar lisanı zənginləşdirdiyi qədimdən bəri müşahidə olunmaqdadır.

Lisanşünaslardan birisinin dediyinə görə yerli şivələr ümum arasında işlənən dilə təbii bir ruh, təbii bir can veriyorlar.

Lüğat toplanmış olan sözləri mühafizə edər də, onların qeyb və nabud olmalarına meydan verməz və bu surətlə bir qövmün keçmiş xəlqdəki tarixi xatirələrin, hadisələrin olduğu kibi qalıb yaşamalarına bais olur."

Professor Aşmarin

**Nəticə**

*I Türkoloji Qurultayın məruzəçilərindən biri olmuş, 1923-1926-cı illərdə Bakı Universiteti Tarix-Filologiya fakültəsinin Türkologiya kafedrasının professoru vəzifəsində çalışmış və burada türk dillərinin qrammatikasını tədris etmiş Aşmarinin ağır həyatını işıqlandıran professor Vilayət Quliyev "Aşmarinin 1933-cü ildə dünyasını dəyişməsi, onu 37-ci ilin repressiya qurbanları sırasından azad etmiş oldu" deyə bildirmişdir.*

*N.İ.Aşmarinin yuxarıda adı çəkilən məqaləsinin ərəb əlifbasından transliterasiyasını təqdim edirik.*

**Aygül Hacıyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya elmləri doktoru, dosent*
*E-mail: aygul.akhundoff@gmail.com*
*ORCİD: 0009-0007-0324-1239*

# BİRİNCİ TÜRKOLOJİ QURULTAYDAN ORTAQ TÜRK GƏLƏCƏYİNƏ

Tarixin elə dönüş nöqtələri var ki, bir xalqın, yaxud bütöv bir xalqlar ailəsinin sonrakı taleyini müəyyən edir. 1926-cı il fevralın 26-dan martın 6-nadək Bakıda keçirilən Birinci Türkoloji Qurultay da türk dünyası üçün belə bir tarixi dönüş nöqtəsi oldu. Zahirən bu qurultay əlifba islahatına həsr olunmuş elmi tədbir kimi görünsə də, mahiyyət etibarilə onun gündəliyində daha dərin bir sual dayanırdı: "Biz kimik və gələcəyə hansı ortaq hədəflərlə getməliyik?"

Qurultayda SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, etnoqrafiyası və mədəniyyəti ilk dəfə vahid elmi müstəvidə müzakirə edildi. Latın qrafikalı vahid əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlandı. Lakin burada əlifba yalnız bir vasitə idi. Əsas məqsəd coğrafi cəhətdən pərakəndə salınmış türk xalqlarının ortaq yaddaşını və milli kimliyini yenidən kodlaşdırmaqdan ibarət idi.

Bu mənada, Birinci Türkoloji Qurultay bizim üçün üç mühüm tarixi dərs qoydu: **Birincisi,** dil birliyi və vahid ünsiyyət vasitəsi olmadan bütöv bir kimlik formalaşa bilməz; **İkincisi,** elmi və intellektual əməkdaşlıq istənilən dayanıqlı siyasi-mədəni inteqrasiyanın təməlidir; **Üçüncüsü,** Türk dünyasının taleyüklü məsələləri yalnız bir masa arxasında, birgə müzakirələrlə həllini tapa bilər.

Bu hadisədən düz bir əsr sonra, bu gün — 100 illik yubileyin tamam olduğu 2026-cı ildə həmin dərslər bizim üçün nə dərəcədə aktualdır? Cavab birmənalıdır: bu gün həmin dərslər artıq sadəcə elmi arzular deyil, real dövlət strategiyalarıdır.

Əgər 1926-cı ildə "türk birliyi" ideyası daha çox əlifba, dil və folklor çərçivəsində müzakirə olunurdusa, XXI əsrdə bu anlayış artıq ciddi geosiyasi və geoiqtisadi məzmun kəsb edib. O zaman məqsəd vahid yazı sisteminə və elmi koordinasiyaya nail olmaq idisə, bu gün hədəf birbaşa "ortaq gələcək" qurmaqdır. Yüz il əvvəl Bakı kürsüsündən səslənən bu mənəvi çağırış müasir dövrdə artıq real siyasi iradəyə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu strateji hədəfi fəlsəfi və siyasi cəhətdən tamamlayan bəyanatı sadəcə mənəvi bir rəmz deyil, XXI əsrin strateji doktrinasıdır. Dövlət başçısının vurğuladığı kimi: "Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".

Göründüyü kimi, Türk Dövlətləri Təşkilatı və TÜRKSOY-un timsalında formalaşan bu böyük çoxşaxəli platformalar coğrafiyamızın sadəcə bu gününü deyil, sabahını da təminat altına alır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi: "Bizim birliyimiz təkcə siyasi və iqtisadi maraqlara əsaslanmır. Bu birliyin fundamental əsasını bizim ortaq tariximiz, dilimiz, mədəniyyətimiz və mənəvi dəyərlərimiz təşkil edir. Elm və təhsil sahəsindəki əməkdaşlığımız bu sarsılmaz təməli gələcək nəsillərə daşıyan ən mühüm vasitədir".

Dövlət başçısının bu konseptual yanaşması bir daha təsdiq edir ki, Birinci Türkoloji Qurultay bütöv bir coğrafiyanın gələcək inkişaf modelini elmi şəkildə proqnozlaşdıran ilk böyük platformadır. O dövrdə qoyulan nəzəri məsələlər bu gün artıq hüquqi və siyasi reallığa, ən əsası

isə gələcək nəsillərin yol xəritəsinə çevrilmişdir. Siyasi müstəvidəki inteqrasiya, öz gücünü məhz bu elmi-mədəni birliyin sarsılmaz təməlindən alır.

Əminliklə deyə bilərik ki, 1926-cı ildə Bakıda vahid əlifba üçün birləşən ziyalılarımızın arzuları, bu gün Şuşa Bəyannaməsində, Zəngəzur dəhlizi layihəsində, ortaq hərbi təlimlərdə və ən əsası, bütöv bir Türk dünyasının ortaq gələcək fəaliyyətinə çevrilmişdir.

Məhz bu tarixi varislik kontekstində, bu gün bizim üzərimizə düşən əsas elmi və mənəvi məsuliyyət də elə budur: Birinci Qurultayın bizə miras qoyduğu o intellektual bünövrəni qorumaq, müasir çağırışlar işığında inkişaf etdirmək və bu böyük ailənin ortaq gələcəyinə konkret elmi platformalarda xidmət etmək.

Çağdaş dövrdə bu proseslərin elmi bünövrəsini gücləndirmək üçün dilçilik və mətnşünaslıq sahəsində birgə araşdırmaların miqyası genişləndirilməlidir. Xüsusilə, ortaq terminologiyanın yaradılması, əlyazma irsinin və klassik mətnlərin müştərək tədqiqi bu gün də aktuallığını qoruyur. Çünki qloballaşma şəraitində milli varlığı qorumağın yeganə yolu dilin və elmi yaddaşın daxili imkanlarını inkişaf etdirməkdir.

Son olaraq qeyd edə bilərik ki, 1926-cı il Bakı qurultayı sadəcə keçmişimizin elmi uğuru deyil, həm də ortaq gələcəyimizin strateji yol xəritəsidir. Bu yol xəritəsini müasir qloballaşma çağırışları işığında addım-addım gerçəkləşdirmək, dilimizin daxili imkanlarını inkişaf etdirmək və bu böyük ailənin elmi yaddaşını yaşatmaq hər birimizin həm peşəkar, həm də milli borcudur.

**Lamiyə Rəhimova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: lamiarahimova75@gmail.com*
*ORCİD: 0000-0003-0952-4452*

# TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏDƏBİ ƏLAQƏLƏRİ VƏ ƏLYAZMA İRSİ (XVII-XVIII ƏSRLƏR)

**Xülasə**

Bu tədqiqatda Birinci Türkoloji Qurultay kontekstində türk xalqlarının ədəbi irsinin formalaşması, anadilli abidələrin rolu və Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişaf istiqamətləri araşdırılır. Tədqiqatda erkən dövr yazılı abidələr, əlyazma nüsxələrinin qorunması və XVII–XVIII əsr Osmanlı ədəbiyyatının nümayəndələrinin yaradıcılığı müqayisəli şəkildə təhlil edilir. Məqalədə göstərilir ki, Türkoloji Qurultay türk xalqlarının ortaq ədəbi-mədəni irsinin sistemli şəkildə öyrənilməsinə və Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin elmi əsaslarla tədqiqinə mühüm təkan vermişdir.

***Açar sözlər:*** *Türkoloji Qurultay, anadilli abidələr, əlyazma irsi, Azərbaycan ədəbiyyatı, Osmanlı ədəbiyyatı, ədəbi əlaqələr*

# AZERBAIJANI-TURKISH LITERARY RELATIONS AND MANUSCRIPT HERITAGE IN THE CONTEXT OF THE TURKOLOGY CONGRESS (17TH–18TH CENTURIES)

**Abstract**

This study examines the formation of the literary heritage of Turkic peoples, the role of monuments written in the native language, and the developmental trajectories of literary relations between Azerbaijan and Turkey within the context of the First Turkological Congress. It presents a comparative analysis of early written monuments, the preservation of manuscript copies, and the works of representative figures of 17th and 18th-century Ottoman literature. The article demonstrates that the Turkological Congress provided significant impetus for the systematic study of the shared literary and cultural heritage of Turkic peoples and for the scholarly investigation of literary ties between Azerbaijan and Turkey.

***Key words:*** *Turkological Congress, native-language monuments, manuscript heritage, Azerbaijani literature, Ottoman literature, literary relations*

## Giriş

Birinci Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni tarixində mühüm mərhələ təşkil edən hadisələrdən biri kimi qiymətləndirilir. 1926-cı il 26 Fevral- 6 Mart tarixlərində Bakıda keçirilmiş bu qurultay yalnız dil və əlifba problemlərinin müzakirəsi ilə məhdudlaşmamış, eyni zamanda türk xalqlarının ortaq tarixi, ədəbiyyatı və mədəni irsinin sistemli şəkildə öyrənilməsi üçün fundamental elmi platforma yaratmışdır. *Bu baxımdan SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarların qəbul edildiyi qurultay* (Самойлович, 2005:1026), türkoloji fikrin institusionallaşması və metodoloji əsaslarının formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə Qurultayın 100 illik yubileyi onun elmi irsinin yenidən nəzərdən keçirilməsini zəruri edir. Xüsusilə, türk xalqlarının ədəbi yaddaşının əsas komponentləri olan anadilli abidələrin, əlyazma mənbələrinin və müxtəlif ədəbi mühitlər arasındakı qarşılıqlı əlaqələrin kompleks şəkildə tədqiqi bu istiqamətdə prioritet məsələlərdən biri kimi çıxış edir. Bu kontekstdə Azərbaycan və Türkiyə ədəbiyyatları arasında formalaşmış tarixi və tipoloji yaxınlıq xüsusi diqqət tələb edir.

Azərbaycan–Türkiyə ədəbi əlaqələri təkcə ortaq dil və dini-mədəni mühitlə məhdudlaşmır, bu əlaqələr eyni zamanda əsrlər boyu davam edən qarşılıqlı təsir, ədəbi ənənələrin ötürülməsi və poetik sistemlərin uyğunluğu ilə səciyyələnir. Klassik divan ədəbiyyatının ortaq poetik prinsipləri, ümumi süjet və motivlər, eləcə də əlyazma ənənəsi bu əlaqələrin maddi və mənəvi əsasını təşkil edir. Xüsusilə əlyazma nüsxələri müxtəlif ədəbi mühitlər arasında əlaqələrin konkret faktoloji sübutu kimi çıxış edir və ədəbi prosesin tarixi dinamikasını izləməyə imkan verir.

Bu baxımdan AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu kimi elmi müəssisələrdə qorunan zəngin əlyazma fondu Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin öyrənilməsi üçün mühüm mənbə bazası yaradır. Burada saxlanılan həm yerli, həm də Osmanlı müəlliflərinə aid əlyazmalar ortaq ədəbi irsin mövcudluğunu və qarşılıqlı təsir mexanizmlərini aydın şəkildə nümayiş etdirir.

Təqdim olunan məruzənin məqsədi Türkoloji Qurultayın yaratdığı elmi kontekst daxilində anadilli abidələrin və əlyazma irsinin rolunu müəyyənləşdirmək, eyni zamanda Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin tarixi inkişafını və tipoloji xüsusiyyətlərini araşdırmaqdır. Bu məqsədlə həm erkən dövr yazılı abidələrə, həm də sonrakı mərhələlərdə formalaşmış klassik ədəbi ənənəyə istinad edilərək, ortaq ədəbi-mədəni sistemin inkişaf qanunauyğunluqları təhlil olunur.

Beləliklə, məruzə türkoloji tədqiqatlar çərçivəsində ədəbi irsin kompleks şəkildə öyrənilməsinə və Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin daha dərin elmi əsaslarla dərk edilməsinə xidmət edir.

**Türkoloji Qurultay və elmi-mədəni inteqrasiya**

Qurultay türk xalqları arasında elmi əməkdaşlığın güclənməsinə və ortaq elmi platformanın formalaşmasına səbəb olmuşdur. Müqayisəli-tarixi metodun tətbiqi və ortaq terminoloji bazanın yaradılması müxtəlif ədəbi ənənələrin vahid sistem daxilində öyrənilməsinə imkan vermişdir.

Bu proses nəticəsində türk xalqlarının ədəbi irsi ümumtürk kontekstində qiymətləndirilməyə başlanmışdır.

**İlk anadilli abidələr və yazılı ədəbiyyatın formalaşması**

Türk xalqlarının yazılı ədəbiyyatı ərəb və fars dillərinin təsiri altında formalaşmışdır. Bununla yanaşı, anadilli ədəbiyyat tədricən inkişaf edərək milli-mədəni identikliyin ifadəsinə çevrilmişdir.

Bu mərhələdə Kitabi-Dədə Qorqud, Divanü Lüğat-it-Türk və Kutadqu Bilig kimi abidələr mühüm rol oynamışdır.

XIII–XIV əsrlərdə isə anadilli ədəbiyyatın inkişafı daha da genişlənmiş və ümumi Şərq ədəbi ənənəsi ilə sıx bağlı olmuşdur. Azərbaycan xalqının zəngin yazılı irsinin mühüm hissəsini təşkil edən anadilli əlyazma abidələri dilimizin tarixi inkişaf mərhələlərinin, ədəbi dil normalarının təşəkkülü və sabitləşməsi prosesinin öyrənilməsi baxımından müstəsna elmi əhəmiyyətə malikdir. Bu əlyazmalar Azərbaycan ədəbi dilinin formalaşma tarixinin, onun fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərinin, eləcə də ümumtürk dil mühiti ilə qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsində əsas mənbələrdən biridir.

Azərbaycan ərazisində qorunub saxlanılan ən qədim türkdilli əlyazma nümunələrinin bir qismi XIII əsrə aiddir. Həmin dövrdə Təbriz, Marağa, Ərdəbil kimi iri mədəni və iqtisadi mərkəzlərdə formalaşmış zəngin elmi-ədəbi mühit yazılı ənənələrin inkişafına əlverişli zəmin yaradıb. Sözügedən əlyazmalar Azərbaycan dilinin ilkin inkişaf mərhələlərini əks etdirməklə yanaşı, qədim ümumtürk yazı ənənəsi ilə bilavasitə bağlıdır. Bu baxımdan "Göytürk yazılı abidələri" və "Divanü lüğətit türk" kimi fundamental abidələr türk dillərinin erkən leksik, qrammatik və üslubi xüsusiyyətlərinin öyrənilməsi üçün mühüm müqayisəli material təqdim edir və Azərbaycan ədəbi dilinin tarixi köklərinin ümumtürk kontekstində araşdırılmasına imkan yaradır. Azərbaycan dilində yaradılmış erkən poetik abidələr sırasında XIII əsr müəllifi Əlinin "Qisseyi-Yusif", XIV əsr müəllifləri Suli Fəqihin "Yusif və Züleyxa" ,Yusif Məddahın "Vərqa və Gülşah", Ümmi İsanın "Mehr və Vəfa" poemaları, Şəms Təbriziyə aid şeirlərin tərcümələri, həmçinin İmadəddin Nəsiminin dövrünə yaxın köçürülmüş "Divan"ın nüsxəsi mühüm yer tutur. Xüsusilə Yusif Məddahın "Vərqa və Gülşah" poemasının filiqranlı İtaliya kağızı üzərində XVI əsrdə köçürülmüş əlyazma nüsxəsi erkən anadilli poetik ənənənin öyrənilməsi baxımından qiymətli mənbədir və dilimizin klassikləşmə prosesinin ilkin mərhələlərini əks etdirir.

Azərbaycan ədəbi dilinin klassik mərhələsinin inkişafında Məhəmməd Füzulinin yaradıcılığı xüsusi rol oynamışdır. Onun anadilli Divanının əlyazma nüsxələri Azərbaycan türkcəsinin poetik imkanlarının genişliyini, üslubi zənginliyini və normativ xüsusiyyətlərini aydın şəkildə nümayiş etdirir. Eyni zamanda XIX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Xurşidbanu Natəvanın "Gül dəftəri" albomu da dilimizin poetik-üslubi inkişafının mühüm göstəricilərindəndir. Hər iki abidənin UNESCO tərəfindən dünya əhəmiyyətli sənədli irs nümunələri kimi tanınması onların yalnız milli deyil, ümumbəşəri mədəni irs baxımından da yüksək dəyərə malik olduğunu təsdiq edir.

**Əlyazma nüsxələri və ədəbi irsin qorunması**

Əlyazmalar ədəbi irsin qorunması və öyrənilməsi üçün əsas mənbələrdir. Onlar mətnlərin ilkin variantlarını və dil xüsusiyyətlərini əks etdirir.

Bu baxımdan AMEA Əlyazmalar İnstitutu mühüm elmi mərkəz kimi çıxış edir və zəngin əlyazma fonduna malikdir. Türkdilli əlyazma irsinin tərkib hissəsi kimi qorunub saxlanılan Əlişir Nəvainin, eləcə də Osmanlı ədəbiyyatının görkəmli nümayəndələri olan Mustafa Naili, Əlaəddin Sabit və Əhməd Nədimin "Divan"larının nüsxələrinin müəlliflərin yaşadığı dövrə yaxın köçürülməsi, xüsusilə son iki şairin əsərinin avtoqraf nüsxə olması türkdilli ədəbi mühitin inkişaf xüsusiyyətlərini, mətnlərin autentikliyini və dil xüsusiyyətlərinin ilkin formasını öyrənmək baxımından mühüm elmi əhəmiyyətə malikdir. Bu cür əlyazmalar Azərbaycan dilinin ümumtürk ədəbi sistemi daxilində tutduğu mövqeyi müəyyənləşdirmək üçün də qiymətli mənbə rolunu oynayır. Türkdilli əlyazma abidələrinin aşkara çıxarılması, qorunması, sistemləşdirilməsi və elmi əsaslarla tədqiqi istiqamətində bir sıra görkəmli alimlərin müstəsna xidmətləri olub. Bu sahənin formalaşması və inkişafında Əliabbas Müznib, Salman Mümtaz, Həmid Araslı, Mirzağa Quluzadə, Məmmədağa Sultanov, Cahangir Qəhrəmanov, Araz Dadaşzadə, Əzizağa Məmmədov, Şamil Cəmşidov, Məmməd Adilov, Zəminə Hacıyeva, Paşa Kərimov və Nəzakət Məmmədova kimi alimlər mühüm elmi nailiyyətlər əldə etmişlər. Müasir dövrdə isə bu ənənə Teymur Kərimli, Azadə Musayeva, Möhsün Nağısoylu, Raqub Kərimov, Əkrəm Bağırov, Nailə Səmədova, Əli Əliyev və Aybəniz Rəhimova kimi tədqiqatçılar tərəfindən uğurla davam etdirilir.

**XVII–XVIII əsr Osmanlı ədəbiyyatı və əlyazma irsi**

*Azərbaycanla Türkiyə arasındakı tarixən dərin kökləri olan əlaqələr başqa bir sıra sahələrlə yanaşı mənəvi bağlılıqları əks etdirən mədəni-ədəbi dəyərlərdə – əlyazmalarda da*

*əsrlərdir yaşayır*.(Musayeva,2002:152) Rəngarəng mövzu və məzmunları ilə seçilən əlyazmalar içərisində Mustafa Naili, Yusif Nabi, Baba Zərifi,Əhməd Mürşid Əfəndi, Əhməd Nədim kimi müəlliflərin əsərlərinin əlyazma nüsxələri də yer alır. Onların əsərlərinin əlyazma nüsxələri Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin real göstəricisi kimi çıxış edir. Əlyazmaşünas alim və tanınmış kitab kolleksiyaçısı Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin şəxsi kitabxanasında Türkiyə ədəbiyyatına aid zəngin əlyazma irsi mühafizə olunur. Bu kitabxanada on beş türk müəllifinin əsərlərinin əlliyə yaxın əlyazma nüsxəsinin qorunub saxlanılması Azərbaycan–Türkiyə ədəbi-mədəni əlaqələrinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Bununla yanaşı, İnstitutun əlyazma və nadir kitab fondlarında türk ədəbiyyatının görkəmli nümayəndələri olan Namiq Kamal, Əbdülhəq Hamid, Şəmsəddin Sami, Tofiq Fikrət və digər müəlliflərin həm əlyazma, həm də çap nümunələri mühafizə edilməkdədir. Bu materiallar XIX–XX əsr türk ədəbi fikrinin Azərbaycanda yayılması və qəbul olunması prosesini izləməyə imkan verir.

Eyni zamanda Türkiyə kitabxanalarında Azərbaycan və ümumtürk ədəbiyyatının tanınmış nümayəndələri – Füzuli, Nəsimi, Ruhi Bağdadi, Saib Təbrizi, Vəhid Qəzvini, Qövsi Təbrizi, Seyyid Mirhəmzə Nigari Qarabağı, Sədi Qarabağı, Seyyid Şirvani, Şövqi, Ağdaşi, Giryan, Seyyid Cəmaləddin Qazağı və İsmayıl Nakamın əsərlərinin çoxsaylı əlyazma nüsxələri geniş şəkildə yayılmışdır. Bu fakt Azərbaycan və Türkiyə arasında mövcud olan ortaq ədəbi-mədəni irsin qarşılıqlı təsir və inteqrasiya proseslərinin mühüm göstəricilərindən biri kimi dəyərləndirilə bilər.

XVII əsr Osmanlı divan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Mustafa Nailinin (vəf. 1666) "Divan"ının ən qədim və eyni zamanda ən kamil əlyazma nüsxələrindən birinin Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda M-69 şifri ilə mühafizə olunması xüsusi elmi əhəmiyyət kəsb edir. Sözügedən nüsxə mətnşünaslıq və əlyazmaşünaslıq baxımından dəyərli mənbə hesab olunur.

"Səbki-hindi" ədəbi cərəyanının görkəmli nümayəndələrindən olan şairin "Divan"ı qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür (Naili,2024:8). Əlyazmanın mətninin XVIII əsrə aid filiqranlı, ahərli Avropa kağızı üzərində yazılması onun paleoqrafik və kodikoloji xüsusiyyətlərini müəyyənləşdirmək, həmçinin nüsxənin yaranma tarixi və yayılma arealını araşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Əlyazmanın ikinci hissəsində isə Birgivili Məhəmməd Əfəndinin nəvəsi və Şeyx Fəzlullah Əfəndinin oğlu olan İsmətinin (vəf. 1611–1613) "Divan"ı yer almışdır. Şeyxlər, qazilər və alimlər yetişdirmiş nüfuzlu bir ailənin elmi və mədəni mühitində böyüyən İsməti ilk təhsilini ailə çevrəsində almış, sonrakı illərdə Şeyxülislam Zəkəriyyəzadə Yəhya Əfəndinin (vəf. 1644) xidmətində bulunaraq onun rəğbət və təqdirini qazanmışdır. Dövrünün tanınmış alimlərindən dərs alan şair daha sonra müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

İnstitutumuzda qorunan əlyazma nüsxəsində müəllifin bir nəəti, bir qitəsi, 64 qəzəli, 5 rübaisi, 9 beyti və digər poetik nümunələri toplanmışdır. Əsərin 1663-cü ildə, müəllifin sağlığında köçürülməsi onun etibarlı mətn qaynağı kimi dəyərini daha da artırır.

İsmətinin poeziyası dil və üslub sadəliyi ilə seçilir. Şairin əsərlərində nadir işlənən əcnəbi sözlərə və mürəkkəb ifadələrə demək olar ki, rast gəlinmir. Bəzi şeirlərində rindanə və qələndəri həyat tərzinin izləri müşahidə olunsa da, onun poetik dünyası əsasən incə zövqə, yüksək estetik duyuma və səmimi hisslərin ifadəsinə söykənir. İsməti yaradıcılığının diqqətəlayiq xüsusiyyətlərindən biri də şeirlərində təsəvvüfi ideyaların nəzərəçarpacaq dərəcədə yer almamasıdır. Bu xüsusiyyətlərinə görə onu XVII əsr Osmanlı ədəbiyyatının görkəmli nümayəndələri olan Şeyxülislam Yəhya və Bəhai ilə eyni estetik xətti paylaşan sənətkar kimi

dəyərləndirmək mümkündür. “Divan”ı Əlyazmalar İnstitutunda mühafizə olunan digər Osmanlı-türk şairlərindən biri də əsl adı Həsən olan Qəimidir (vəf. 1691). Rəvayətə görə, qırx gün xəlvətdə və tənhalıqda qaldığı üçün özünə “Qəimi” təxəllüsünü götürmüşdür. İlk təhsilini başa vurduqdan sonra Sofiyaya, daha sonra isə İstanbul və Konyaya səfər etmiş, bir müddət sonra Sarayevaya qayıdaraq Sinan Ağa təkkəsinin şeyxi vəzifəsini icra etmişdir. Mənbələrdə Qəiminin bu təkkənin adı məlum olan ilk şeyxi olduğu qeyd edilir. Şairin türbəsi uzun müddət bölgənin mühüm ziyarət məkanlarından biri kimi tanınmışdır.

Əlyazmalar İnstitutunda M-48 şifri altında qorunan nüsxədə ümumilikdə 6367 beyt yer almışdır. Əlyazmaya daxil olan münacat, nəət, mədhiyyə və digər poetik nümunələr qara mürəkkəblə rüqə xətti ilə XIX əsr kağızı üzərinə köçürülmüşdür. Əsər həm Osmanlı təsəvvüf ədəbiyyatının, həm də Balkan bölgəsində formalaşmış türk ədəbi mühitinin öyrənilməsi baxımından mühüm mənbələrdən hesab edilə bilər.

Qəimi Babanın əsərinin daxil olduğu əlyazmanın ikinci hissəsində isə mənbələrdə Şeyx Ömər, Ömər Zərifi, Zərifi Baba, Ömər Baba, Əhməd Zərifi Baba və Əhməd Baba kimi müxtəlif ad və titullarla tanınan Zərifinin (vəf. 1795) “Pəndnamə” əsəri verilmişdir. Didaktik-mənəvi məzmun daşıyan bu əsər müəllifin sufi-fəlsəfi dünyagörüşünü əks etdirməklə yanaşı, XVIII əsr Osmanlı dini-təsəvvüfi ədəbiyyatının mühüm nümunələrindən biri kimi diqqəti cəlb edir. Mənbələrə görə, Ruscuq şəhərində anadan olan Zərifi Sadiyyə təriqətinə mənsub olmuş və zamanla bu təriqətin tanınmış şeyxlərindən birinə çevrilmişdir. Sadiyyə təriqəti İslam təsəvvüf ənənəsinə aid sufi məktəblərindən biri olub, adını banisi Səddəddin Cəbavidən (vəf. 1258) almışdır. Şam bölgəsində yaşamış görkəmli sufi olan Səddəddin Cəbavi öz dövründə elmi və mənəvi nüfuzu ilə seçilmiş, təsəvvüf tarixində dərin iz qoymuşdur. Onun Şam yaxınlığında yerləşən məzarı bu gün də ziyarət olunan müqəddəs məkanlardan hesab edilir. Sadiyyə təriqəti ilkin mərhələdə Şam və Misirdə yayılmış, sonralar Anadoluya qədər geniş bir coğrafiyada təsir göstərmişdir.

Ruscuqlu Zərifinin yaradıcılığına “Divan”, “Pəndnamə” (və ya “Nəsihətnamə”) və “Təsəvvüfnamə” əsərləri daxildir. Müəllifə ən böyük şöhrəti qazandıran əsər isə qırxa yaxın əlyazma nüsxəsi məlum olan “Pəndnamə”dir. Bu əsər Fəridəddin Əttarın (vəf. 1221) eyni adlı əsərinin təsiri ilə “fAilətün fAilətün fAilün” vəznində qələmə alınmışdır.

Didaktik və mənəvi məzmun daşıyan “Pəndnamə”də müəllif lütf, mərhəmət və anlayış prinsiplərinə əsaslanaraq dini və əxlaqi nəsihətlərini sistemli şəkildə təqdim etmişdir. Əsərdə insanın Allah qarşısındakı məsuliyyəti, cəmiyyət daxilində davranış qaydaları və insani münasibətlərin mənəvi əsasları geniş şəkildə şərh olunur. Müəllif qonşuluq hüququ, əmanətə sədaqət, yetimlərin himayəsi, danışıq mədəniyyəti, aşiq və məşuq münasibətləri, sirr saxlamağın əhəmiyyəti, hədiyyə vermək və qəbul etmək qaydaları, süfrə ədəbi, az yemək və az yatmağın fəziləti, dost və yoldaş seçimi, dünyanın faniliyi və taleyin vəfasızlığı, eləcə də qonaq hüquqları kimi mövzulara xüsusi diqqət yetirmişdir.

Əsərin kompozisiyası giriş hissəsi və 140 başlıqdan ibarətdir. Hər bir başlıq müəyyən bir əxlaqi və dini məsələyə həsr olunmuş, müəllif öz nəsihətlərini sadə, anlaşıqlı və təsirli bir üslubda təqdim etmişdir. Bu xüsusiyyətlərinə görə “Pəndnamə” Osmanlı didaktik-təsəvvüfi ədəbiyyatının mühüm nümunələrindən biri hesab edilə bilər. Əlyazmalar İnstitutunda mühafizə olunan digər osmanlı müəllifi Əlaəddin Sabitdir. Əlyazmanın müxtəlif vərəqlərində Sabitə məxsus şəxsi möhür və imzaların mövcudluğu bu nüsxənin müəllifin öz əli ilə köçürdüyü avtoqraf nüsxə kimi dəyərləndirilməsinə əsas verir (Sabit, v.10b,20b,138b,143b). Bu cəhət əlyazmanın həm mətnşünaslıq, həm də paleoqrafik baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini göstərir.

Avtoqraf nüsxə olması əsərin mətni, müəllifin redaktə prinsipləri, yaradıcılıq laboratoriyası və əsərlərinin tərtib xüsusiyyətlərinin öyrənilməsi üçün etibarlı mənbə rolunu oynayır. Buna görə də Sabit Bosnəvinin Əlyazmalar İnstitutunda qorunan külliyyatı yalnız Azərbaycan əlyazma irsinin deyil, bütövlükdə Osmanlı ədəbi-mədəni irsinin öyrənilməsi baxımından da böyük elmi dəyərə malikdir. Bosnəvi Sabitin Əlyazmalar İnstitutunda mühafizə olunan irsi yalnız "Divan"ı ilə məhdudlaşmır. Şairin "Əthəmnamə", "Bərbərnamə" və "Dərənamə" kimi əsərləri də həmin külliyyatın tərkib hissəsini təşkil edir. Əlyazma XVII əsrə aid filiqranlı Avropa kağızı üzərinə qara tuşla nəstəliq xətti ilə köçürülmüşdür. Bununla yanaşı, nüsxənin başlanğıc hissəsinin naqis olması onun tədqiqi zamanı müəyyən mətnşünaslıq problemləri yaratmışdır.

XVIII əsr Osmanlı ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Əhməd Nədim (vəf. 1730) dövrünün tanınmış şairlərindən hesab edilir. O, yüksək mədrəsə təhsili almış, bir tərəfdən atası və babasının peşəsini davam etdirərək ənənəvi elmi mühitdə yetişmiş, digər tərəfdən isə ədəbiyyata xüsusi maraq göstərərək şeir yaradıcılığı ilə məşğul olmuşdur. Şair ilk dəfə III Sultan Əhmədin sədrəzəmlərindən olan Əli Paşaya təqdim etdiyi qəsidələr vasitəsilə tanınmağa başlamışdır. Sonralar Növşəhərli İbrahim Paşanın sədrəzəm vəzifəsinə təyin olunmasından sonra ona və Sultan III Əhmədə həsr etdiyi qəsidələr Nədimə daha böyük şöhrət qazandırmışdır. O, saray əyləncələrində iştirak etmiş, xüsusilə Lalə Dövrünün ən sevilən və ən çox himayə olunan şairlərindən biri kimi məşhurlaşmışdır.

Əlyazmalar İnstitutunda Əhməd Nədimin "Divan"ının iki əlyazma nüsxəsi mühafizə olunur. M-62 şifrəli nüsxədə şairin mədhiyyələri, tarixi hadisələrə həsr olunmuş qəsidələri, rübailəri (Nədim, v.91b-94a), müxtəlif qəzəl və qəsidələrdən seçilmiş beytlərdən ibarət müqəttəələri, ərəb dilində bir qəzəli və sonda iki şeiri yer almışdır. Əlyazmada mətnin Mustafa nəslindən olan Əhməd Nədim tərəfindən Sultan İbrahim Qazi dövründə 1726-cı ildə yazıldığını təsdiq edən qeyd və imzalar mövcuddur (Nədim, 1726:v. 29b, 46a, 89b, 94a). Bundan əlavə, əlyazmanın müxtəlif vərəqlərində şairin şəxsi möhürünün olması bu nüsxənin avtoqraf olma ehtimalını daha da gücləndirir.

Mətn qara mürəkkəblə nəstəliq xətti ilə sadə kağız üzərinə köçürülmüşdür. İnstitutda qorunan B-317 şifrəli ikinci nüsxə isə Osman bin Məhəmməd tərəfindən qara tuşla nəstəliq xətti ilə yarı ahərli kağıza köçürülmüşdür.

**Azərbaycan–Türkiyə ədəbi əlaqələri**

Azərbaycan və Türkiyə ədəbiyyatları ortaq dil və mədəni mühit əsasında formalaşmışdır. Ortaq süjetlər, poetik formalar və üslub xüsusiyyətləri bu əlaqələrin əsas göstəriciləridir.

Əlyazmalar isə bu qarşılıqlı təsirin konkret sübutlarıdır. *"Bu əlaqələri doğuran və qüvvətləndirən səbəblərdən biri hər iki xalqın türk sistemli dillərdə danışması bir-birinin ədəbi-bədii irsini tərcüməsis anlaya bilmələri olmuşdur"*(Quluzadə, 1965: 438). Osmanlı və Səfəvi dövlətləri XVI–XVIII əsrlərdə təkcə siyasi qüdrətləri ilə deyil, həm də zəngin mədəni mühitləri ilə türk-islam dünyasının aparıcı mərkəzləri sırasında yer alırdılar. İki dövlət arasında zaman-zaman siyasi rəqabət yaşansa da, ədəbi və mədəni əlaqələr heç vaxt tamamilə kəsilməmiş, əksinə, qarşılıqlı təsir və mənəvi yaxınlıq şəraitində inkişaf etmişdir. Bu əlaqələr nəticəsində hər iki ölkənin ədəbi mühitində ortaq poetik meyillər, bədii zövq və estetik prinsiplər formalaşmışdır.

Azərbaycan və Osmanlı şairləri yaradıcılıqlarında eyni klassik ədəbi ənənədən bəhrələnir, əsərlərini əsasən türk dilində qələmə alırdılar. Dilin ümumi xüsusiyyətləri və ortaq mədəni kodlar əsərlərin geniş coğrafiyada yayılmasına və qarşılıqlı şəkildə mənimsənilməsinə imkan yaratmışdır. Bununla yanaşı, hər iki ədəbi mühitin nümayəndələri ərəb və fars ədəbiyyatının poetik ənənələrindən də faydalanaraq özünəməxsus bədii üslub yaratmışlar.

Janr baxımından da nəzərəçarpacaq oxşarlıqlar mövcuddur. Həm divan, həm də xalq ədəbiyyatı ənənələrinə məxsus qəzəl, qəsidə, məsnəvi, qoşma, varsağı və digər poetik formalar Azərbaycan və Osmanlı şairlərinin yaradıcılığında geniş yayılmışdır. Bu ortaq ədəbi irs iki xalqın əsrlər boyu eyni mədəni məkanın daşıyıcıları olduğunu və onların ədəbi əlaqələrinin qarşılıqlı təsir əsasında inkişaf etdiyini aydın şəkildə nümayiş etdirir.

**Türkoloji Qurultay və ədəbi əlaqələrin elmi tədqiqi**

Birinci Türkoloji Qurultay türk xalqlarının ədəbi irsinin öyrənilməsində yeni mərhələ yaratmışdır. Qurultaydan sonra ədəbi əlaqələrin tədqiqində sistemli yanaşma tətbiq olunmuş və əlyazmaların elmi dövriyyəyə daxil edilməsi genişlənmişdir. Mustafa Nailinin "Divan"ının Bakı nüsxəsi tərəfimizdən transliterasiya edilərək ayrıca kitab şəklində nəşr edilmişdir (Naili, 2024). Aparılan müqayisəli tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Bakı nüsxəsində Türkiyə kitabxanalarında mühafizə olunan əlyazma nüsxələrində rast gəlinməyən bir qəsidə və bir qəzəl mövcuddur. Bu fakt sözügedən nüsxənin mətnşünaslıq baxımından müstəsna əhəmiyyətini bir daha təsdiqləyir. Bosnəvi Sabitin "Külliyyat"ı AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsinin böyük elmi işçisi Şəhla Xəlilli tərəfindən hərtərəfli şəkildə araşdırılmışdır (Xəlilli, 2022). Tədqiqatçı əsəri poetik və tekstoloji baxımdan təhlil etmiş, Sabit Divanının avtoqraf nüsxəsini Türkiyə kitabxanalarında qorunan yeddi əlyazma nüsxəsi ilə müqayisəli şəkildə öyrənmişdir. Araşdırmada əlyazmanın qrafik və orfoqrafik xüsusiyyətləri, dil və üslub məsələləri, eləcə də vəzn və janr xüsusiyyətləri geniş şəkildə işıqlandırılmışdır.

Bununla yanaşı, Şəhla Xəlilli şairin "Ədhəm və Hüma" məsnəvisini transliterasiya edərək elmi nəşrə hazırlamış və onu kitab şəklində çap etdirmişdir. Həmin nəşr Bosnəvi Sabitin ədəbi irsinin elmi dövriyyəyə daxil edilməsi və Osmanlı klassik ədəbiyyatının tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Əhməd Nədimin həyatı, yaradıcılığı və onun "Divan"ının Azərbaycanda qorunan nüsxələri akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Mənbəşünaslıq, yazılı abidələrin tədqiqi və nəşri" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aygün Yusubova tərəfindən filoloji və tekstoloji baxımdan ətraflı tədqiq edilmişdir. Tədqiqatçı Nədimin həyat və yaradıcılıq mühiti haqqında geniş məlumat verməklə yanaşı, "Divan"ın Azərbaycan və Türkiyə kitabxanalarında saxlanılan nüsxələrini müqayisəli şəkildə araşdırmış, nüsxələr arasındakı fərqləri müəyyənləşdirmiş və bu fərqlərin yaranma səbəblərini elmi cəhətdən əsaslandırmışdır. Müəllif, həmçinin, Nədimin poetik xüsusiyyətlərini, dil və üslubunu, bədii ifadə vasitələrini dərindən təhlil edərək apardığı araşdırmaların nəticələrini "Nədimin Poetikası" adlı monoqrafiyada nəşr etdirmişdir (Yusubova, 2023).

**Nəticə**

Türkoloji Qurultayın elmi irsi türk xalqlarının ortaq ədəbi-mədəni yaddaşının öyrənilməsində mühüm rol oynayır. Anadilli abidələr və əlyazma irsi bu prosesin əsas komponentləridir. Azərbaycan–Türkiyə ədəbi əlaqələri isə bu ortaq irsin davamlılığını təmin edən əsas amillərdən biridir.

**Ədəbiyyat siyahısı**

Xəlilli Ş. (2022) *Sabit Divanının filoloji-tekstoloji tədqiqi.* Filologiya üzrə fəlsəfə doktoru dis. Bakı.

Quluzadə M. (1965) *Füzuli lirikası*.Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.

Musayeva A.(2002) *Əlyazma Kitabı və XV-XIV əsrlər Azərbaycan Ədəbiyyatı: Problemlər, Araşdırmalar (Tekstoloji, Filoloji Tədqiqat)* Bakı: Nurlan.

Naili M. *Divan* (Bakı nüsxəsi)(2024) (transfon. və tərt. ed. L.Rəhimova) Bakı: Elm və təhsil.
Yusubova A. (2023) *Əhməd Nədimin Poetikası* Bakı:Elm.
Самойлович А. Н. (2005) *Тюркское языкознание, филология, руника.* М.: Восточная литература.
AMEA,ƏYİ. M-21 (I)عصمتی دیوان
AMEA,ƏYİ.M-21(II)نائلی دیوان
AMEA,ƏYİ M-48(I) قائمی دیوان
AMEA,ƏYİ M 48-(II) بابا ظریفی پند نامه
AMEA,ƏYİ. M-25 ثابت کلیات
AMEA,ƏYİ M-62 احمد ندیم دیوان

**Aybəniz Rəhimova**
*AMEA Məhəmməd Füzul adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: aybenizragimova@gmail.com*
*ORCİD: 0000-0003-4334-8157*

# BİTMƏK BİLMƏYƏN GÜLLƏLƏRDƏN BİRİ DƏ…

**Xülasə**

Məqalədə, azərbaycanlı ədib, fədakar repressiya qurbanı, görkəmli ədəbiyyatşünas, mətnşünas Salman Mümtazın şərəfli həyatı, zəngin yaradıcılığı və 1926-cı ildə Bakıda keçirilmiş tarixi Birinci Türkoloji Qurultaydakı fəal iştirakı elmi aspektlərdən işıqlandırılmışdır. Onun fəaliyyəti, xüsusən klassiklərimizin əsərlərinin toplanıb nəşr edilməsi ədəbi irsimizin qorunması gələcək nəsillərə ötürülməsində müstəsna əhəmiyyət daşıyır.

Salman Mümtazın Birinci Türkoloji Qurultaydakı iştirakı onun elmi bioqrafiyasının ən parlaq səhifələrindən biridir. O, 1926-cı ildə Bakıda keçirilən tarixi qurultayda iştirak etmiş, həmçinin tədbir iştirakçılarına özünün tərtib etdiyi "İmadəddin Nəsimi" adlı yeni kitabını təqdim etmişdir. Sovet dövründə Nəsiminin "panteist, inqilabçı şair" kimi yenidən kəşf edilməsinin başlanğıcı məhz bu məruzə oldu. Qurultay çərçivəsində akademik Vasili Bartold və Sergey Olenburq kimi dünya şöhrətli şərqşünaslarla görüşən Salman Mümtaz onlara "Kitabxaneyi-Mümtaziyə" adlandırdığı zəngin şəxsi kitabxanasını və nadir əlyazma kolleksiyasını nümayiş etdirmişdir. Bu il 100 illik yubileyi qeyd olunan Birinci Türkoloji Qurultayın miras qoyduğu elmi idealların işığında Salman Mümtazın həm qurultaydakı fəaliyyəti, həm də çoxcildli ədəbi-tənqidi yaradıcılığı türk xalqlarının mədəni inteqrasiyasına, milli ortaq dil və əlifba şüurunun inkişafına verdiyi əvəzsiz töhfələrin yubiley kontekstində yenidən, eləcə də daha dərindən dəyərləndirilməsinə xidmət edir.

***Açar sözlər:*** *Salman Mümtaz, türkoloji qurultay, repressiya, türk xalqları*

# ONE OF THE BULLETS THAT NEVER STOP COMING...

**Abstract**

This article examines, from a scholarly perspective, the distinguished life, prolific body of work, and active participation in the historic First Turkological Congress (held in Baku in 1926) of Salman Mumtaz - an Azerbaijani man of letters, a dedicated victim of political repression, and a prominent literary scholar and textual critic. His contributions - particularly the collection and publication of works by classical Azerbaijani authors - are of exceptional importance for the preservation and transmission of our literary heritage to future generations.

Salman Mumtaz's participation in the First Turkological Congress represents one of the most brilliant chapters of his scholarly biography. He took part in the historic 1926 congress in Baku and presented a new book he had compiled, titled "Imadaddin Nasimi", to the event's participants. This presentation marked the beginning of Nasimi's rediscovery during the Soviet era as a "pantheist, revolutionary poet." During the congress, Mumtaz met with world-renowned Orientalists such as Academician Vasily Bartold and Sergey Oldenburg, showcasing to them his rich personal library - which he called "Kitabkhaneyi-Mumtaziya" - and his collection of rare manuscripts. In light of the scientific ideas bequeathed by the First Turkological Congress - which

is celebrating its centenary this year - Salman Mumtaz's activities at the congress and his multi-volume body of literary-critical work are being re-evaluated and examined more deeply within the context of this anniversary, highlighting his invaluable contributions to the cultural integration of Turkic peoples and the development of a consciousness regarding a shared national language and alphabet.
***Key words:*** *Salman Mumtaz, Turkological congress, repressions, Turkic peoples*

"Molla Qasım ilə Yunus Əmrənin "Məqabirdən güzər etdim" şeirini məzmun baxımından qarşılaşdıran Salman Mümtaz, əslində, Yunusun bu əsərinin Molla Qasımın eyni rədifli şeirinə nəzirə olduğunu inandırıcı şəkildə ortaya qoymuşdur".

Bir insanın taleyi eyni zamanda həm uğurlu, həm də uğursuz ola bilərmi?! Uşaqlıqdan uğursuzluqlarla üzləşən bir insan öz istedadı, əzmi və iradəsi sayəsində elmin ən yüksək pilləsinə yüksəldiyi halda, bu yüksəliş hansı səbəbdən və nə vaxtdan etibarən tam əks istiqamətə dönərək bir ömrü alt-üst edə bilər?!

Əgər Stalin diktaturasının 1937-ci ili Azərbaycanın milli şüura sahib ziyalılarını məhv etmək üçün əvvəlcədən yazılmış lənətli bir tarix idisə, bu tarix niyə və kimlər tərəfindən yazılmışdı?! Bir millətin kimliyinin formalaşdığı ən həssas dövrdə onun ziyalı təbəqəsi əqli sağlamlığı şübhə doğuran bir diktatorun iradəsi hesabına bütövlükdə "günahkar" elan oluna bilərdimi?! Əgər diktator belə hesab edirdisə, bunun mahiyyəti nə idi?!

Aydındır ki, səbəb nə millətin özündə, nə də həmin ziyalılarda idi. Faciənin əsas səbəbi, heç bir yerdə yeri olmayan bir diktatorun rəhbərlik etdiyi lənətli rejimin bir milləti məqsədyönlü şəkildə məhv etmə siyasətinin amansızcasına icrası idi. Üstəlik, bu qətliam həmin millətin öz daxilində ona düşmən münasibət bəsləyən və onu məhv etmə missiyasını məmnuniyyətlə öz üzərinə götürən başqa bir etnik qrupun cəlladları tərəfindən həyata keçirilirdi.

Bu gün torpaqlarımızın işğalçılardan, bölücü qüvvələrdən, soyqırım törədənlərdən təmizlənməsi məqsədilə dövlətimizin həyata keçirdiyi qətiyyətli əməliyyat, həm də 1937-ci ilin faciəsini xalqımıza yaşadanların yurdumuzdan əbədi silinib atılması prosesinin simvolik davamıdır. İnsan həyatının geri dönməyəcəyini bilsək də, İlahi ədalətin təcəlli etməsi qəlbimizə bir qədər təsəlli verir.

Bəli, bunun adı dövlət terroru idi və təəssüf ki, Moskvadan gələn göstərişlər əsasında "Sosialist Azərbaycan"ın polis orqanlarının, prokurorluq və məhkəmə strukturlarının ən yüksək vəzifələrinə hakim kəsilən erməni qrupları tərəfindən həyata keçirilirdi.

Göz önünə bir folklor ədəbiyyatı tərtibçisi, əlyazma mütəxəssisi və klassik ədəbiyyat bilicisi gətirin ki, Rusiya şərqşünaslıq məktəbinin akademik tituluna sahib alimləri belə onun çalışmalarına qibtə ilə baxsın və heyranlıq ifadə etsinlər. Onlar Mümtazın işlərindən yararlandıqca, o, xəzinə dəyərindəki arxivindən yeni nümunələr üzə çıxarıb nəşr etdirirdi. Topladığı, arxivinə daxil etdiyi və nəşr etdirdiyi klassik ədəbiyyat nümunələrinin zənginliyi onu hər kəsin müraciət etdiyi ən etibarlı ünvan halına gətirmişdi.

Çarizm dövründən qalan rus mənşəli alimlər 1930-cu illərdə daha da təqdir olunaraq elmdəki mövqelərini möhkəmləndirdikləri halda, türk mənşəli ziyalılar əsassız, absurd və tamamilə uydurma ittihamlarla güllələnmişdi. Rus elminin Bartoldu, Bertelsi, Samoyloviçi, türk elminin isə Fuad Köprülüsü ilə müqayisə etsək, əminliklə söyləmək olar ki, Salman Mümtaz topladığı, arxivinə daxil etdiyi və nəşr etdirdiyi əsərlərin sayı və məzmun baxımından onların hamısından irəlidə idi.

Salman Mümtazın adı dünya şərqşünaslıq elmi üçün bir xəzinə, milli kitabxana və tədqiqat mərkəzi qədər dəyər daşıyır. O, milli mövqeyindən bir addım belə geri çəkilməmiş, gördüyü işlərdən heç vaxt peşman olmamış, ən ağır işgəncələr altında belə özünü inkar etməmiş, əyilməzliyiilə yaddaşlara həkk olmuşdur. Bu keyfiyyətləri ilə o, millətimiz üçün örnək şəxsiyyətə çevrilmişdir. Onun həyatı, fəaliyyəti, saxta məhkəməsi və ölümü haqqında danışmazdan əvvəl, kitablarım arasında xüsusi əhəmiyyət verdiyim "Qulam Məmmədli və təzkirəsi" adlı kitabımın ön sözündə vurğuladığım bir məqamı xatırlatmaq istərdim: "Salman Mümtazın 1916-1917-ci illərdə Aşqabadda yaşadığı dövrdə Qulam Məmmədlinin bir alim kimi yetişməsində böyük rolunun olduğu danılmazdır" (Rəhimova, 2012: 4-5).

19 aprel 1906-cı ildə Tiflisdə nəşrə başlayan "Molla Nəsrəddin" dərgisi ilə Salman Mümtaz ilk dəfə 1908-ci ildə tanış olmuş, orada yazılar dərc etdirməklə yanaşı, jurnalın Türküstanda yayılmasında da fəal rol oynamışdır. Həmin dövrdə "Molla Nəsrəddin"in Türküstanda yayılmasına dəstək göstərən Qulam Məmmədlinin, sonradan jurnalın imtiyaz sahibi, məşhur yazıçı və naşirimiz Cəlil Məmmədquluzadə ilə tanış olmasında da Mümtazın əhəmiyyətli rolunu vurğulamaq olar (Tağıyev, 1986: 5-22).

Bəlkə də, bu, dünyanın ən enişli-yoxuşlu və çətin həyat yollarından keçmiş bir insanın ömür kitabından yalnız bir neçə səhifədir…

Salman Mümtaz 20 sentyabr 1883-cü ildə Şəkidə anadan olmuşdur. Şəki Azərbaycan ədəbiyyatı və mədəniyyətinin çoxsaylı görkəmli simalarının doğulduğu şəhərdir; Mirzə Fətəli Axundzadədən Bəxtiyar Vahabzadəyə qədər, həmçinin "Suyu axtaran adam" kitabının müəllifi Şevkət Sürəyya Aydəmir də bir vaxtlar burada müəllimlik etmişdir.

Salmanın atası zəngin tacir idi, lakin o, Salmanın 4 yaşı olanda vəfat etmiş, elə o zamanlarda da evləri yanmışdır. Anası onu Aşqabada, dayısının yanına göndərmək məcburiyyətində qalmışdır. Uşaqlıqdan ədəbiyyata və elmi işlərə böyük maraq göstərən Salman Mümtaz 1893-cü ildə ədəbiyyatımıza "millət" anlayışını gətirmiş və 1908-1911-ci illər Cənubi Azərbaycan Məşrutə Hərəkatına "bir ordudan ziyadə xidmət göstərmiş" Mirzə Ələkbər Sabir ilə görüşmüşdür. Bu görüş Salmanın həyat yolunun formalaşmasında mühüm rol oynamış, onda ədəbiyyata böyük həvəs yaratmışdır. İkinci dəfə Salman Mümtazın Sabirlə görüşü on yeddi ildən sonra 1910- cu ildə baş tutmuşdur. Bu görüşdə Sabirin Salman Mümtaza verdiyi müsahibə Əlyazmalar İnstitutunda yerləşən şəxi arxivindədir (Salman Mümtazın publisistikası arxiv sənədlərində, 2021: 180-196).

Bu dövrdə Salman Mümtaz Mirzə Ələkbər Sabirlə iki həftə bir mehmanxanada gecələmişlər. Mümtaz öz yatağını Sabirə vermiş, özü isə "kuşetka" da yatmışdır. O yazır: "Sabiri öz nömrəmə gətirdim və qalmağı təklif etdim. Sabir razı oldu. Əlahidə krovat qoymaq mümkün olmadığından krovatımı ona verərək özüm kuşetkanın üstündə uzandım… Gecə gec yatmağımıza görə səhər bir az gec durmalı idik. Lakin konkaların zənginin səsi və bazar əhlinin hay-küyü buna mane oldu və o gün Sabirlə aşağıdakı müsahibəmiz oldu". Bu xatirədən aydın olur ki, o zaman "Molla Nəsrəddin"lə əməkdaşlıq edən Mümtaz Bakının mərkəz küçəsində yerləşən Metropol mehmanxanasında qalırdı və Salman Mümtazın Mirzə Ələkbər Sabirlə olan məşhur müsahibəsi də bu mehmanxanada baş tutmuşdur (Salman publisistikası arxiv sənədlərində, 2021: 186-191).

17-18 yaşlarında Aşqabada gedən Salman Mümtaz ədəbi və ziyalı mühitinin təsiri altında özünü inkişaf etdirmiş, eyni zamanda orada ticarətlə məşğul olmağa başlamışdır. Beləliklə, gənc Salmanın həm maddi imkanları artmış, həm də əlaqələr şəbəkəsi genişlənmişdir. Əlinə keçən pulun böyük hissəsini klassik Azərbaycan ədəbiyyatının önəmli əsərlərinin alınmasına xərcləyən Salman Mümtaz, Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalının Türkmənistan vasitəsilə Orta Asiya və Hindistana yayılmasında böyük rol oynamış və daha sonra dərginin fəal yazarı olmuşdur.

Jurnalın ilk sayında Mirzə Ələkbər Sabirin də şeiri dərc olunmuş, müsəlman Şərqinin ziyalıları bu şeirləri vasitəsilə onu tanımış və sevməyə başlamışdılar. Sabirin həmşəhrlisi və yaxın dostu, şair Abbas Səhhətlə dost olan Salman Mümtaz 1913-cü ildə Tiflisdə Səhhətlə görüşdükdə, Səhhət ona Sabirin ölümündən bir gün əvvəl bağlı zərfdə bir neçə şeirini verdiyini və on il sonra açması üçün and içdiyini bildirmişdir. Abbas Səhhət zərfi açmamış və bu söhbətdən sonra ona bir daha Salman Mümtazla görüşmək müyəssər olmamışdır (Salman Mümtazın publistikası arxiv sənədlərində, 2021: 196-198).

Aşqabadda olduğu illərdə maddi vəziyyəti yaxşı olan Salman Mümtaz, Çar Rusiyasının müxtəlif şəhərlərində təhsil alan soydaş tələbələrə və onların qurduğu cəmiyyətlərə dəstək göstərmişdir. "Molla Nəsrəddin" dərgisinin naşiri Cəlil Məmmədquluzadənin məşhur "Ölülər" tragikomediyasının Aşqabadda səhnələşdirilməsi üçün də böyük zəhmət çəkmişdir. Məmmədquluzadəni Aşqabada dəvət etməsinə baxmayaraq, yerli polis idarəsi əsərin ifasına icazə verməmişdir.

Bu nümunə göstərir ki, Salman Mümtaz Türküstanın təhsil və mədəniyyət sahəsində inkişafında necə böyük xidmətlər göstərmişdir.

28 may 1918-ci ildə Şərqdə ilk Cümhuriyyətin qurulmasından sonra Azərbaycana köçən Mümtaz, Osmanlı ordusunun son baş komandanı vəkili Ənvər Paşa və Bakını işğaldan azad edən Qafqaz İslam Ordusunun komandiri Nuri Paşaya şeirlər həsr etmişdir. Bu şeirlər 1930-cu illərdə sovet diktatoru Stalin rejiminin ziyalılara qarşı tətbiq etdiyi repressiyaların pik həddə çatdığı dövrdə, Salman Mümtazın həbs olunaraq ağır cəzaya məhkum edilməsində və daha sonra güllələnməsində onun əleyhinə istifadə ediləcək "sübutlar" kimi qiymətləndirilcəkdi.

Hələ gənclik illərində Azərbaycan ədəbiyyatı klassiklərinin əlyazmalarını və çap kitablarını toplayaraq arxivinə və kitabxanasına daxil edən Salman Mümtaz, 27 aprel 1920-ci ildə milli dövlətimizin bolşeviklər tərəfindən ləğv edilməsindən sonra da bu işə böyük həvəs və şövqlə davam etmişdir. O eyni zamanda qəzet və jurnallarda topladığı ağız ədəbiyyatı nümunələri dərc etdirmiş, klassik ədəbiyyatın öncül simalarına dair məqalələr yazmış və onların kitablarını nəşrə hazırlamışdır. Bu baxımdan Salman Mümtaz Firidun bəy Köçərlinin açdığı yolun ardınca gedən ikinci böyük ədəbiyyatşünas hesab olunur. O yalnız bayatılarımızı ilk dəfə toplayan bir şifahi xalq ədəbiyyatı mütəxəssisi olmaqla kifayətlənməmiş, həm də İmadəddin Nəsimi və Şah İsmayıl Xətainin əsərlərini ilk dəfə bir araya gətirərək kitab şəklində nəşr etmişdir (Tağıyev, 1974: 3-44)

1926-cı il 26 fevral-5 mart tarixində Bakıda keçirilən I ümumittifaq Türkoloji Qurultay təkcə elimi deyil, həm də siyasi taleyi həll edən hadisə idi. Salman Mümtaz orada həm təşkilatçı, həm ideoloq kimi çıxış edir, həm də Təşkilat Komitəsinin rəsmi üzvü rolunda iştirak edirdi. Qurultayın hazırlığında fəal iştirak edən Salman Mümtaz, xüsusən əlyazma sərgisini təşkil etmiş, qurultay günlərində Azərbaycanın ədəbi irsini nümayiş etdirmək üçün şəxsi kolleksiyasından və topladığı 200-dən çox nadir əlyazmanı sərgiləmək, türk xalqlarının ortaq mədəni kökünü faktlarla sübut etmək onun öhdəsinə düşmüşdü. Nizami, Nəsimi, Xaqani, Füzuli irsinin ümumtürk konteksti olduğunu əsaslandıraraq, "Azərbaycan ədəbiyyatının qədim nümunələri" mövzusunda geniş məruzə etmişdi. Mümtaz bu qurultayı birmənalı şəkildə "türk xalqlarının intibah qurultayı" kimi qəbul edirdi. Əsas tezisləri ortaq əlifba məsələsi idi. Ərəb əlifbasının türk dillərinə uyğun olmadığını, savadsızlıq yaratdığını deyir, amma bunu ruslaşdırma kimi yox, "özümüzkiləşdirmə" kimi görürdü. Onun fikri: rusların kiril əlifbasını məcburi qəbul etdirməkdən qabaq tez və müstəqil şəkildə latın qrafikasını qəbul etməyimiz idi. Türk ləhcələrinin yaxınlaşması üçün termin birliyinin tərəfdarı idi. "Bir millət, bir dil olmasa da, bir-birini anlayan dillər ailəsi olmalıyıq" deyirdi. Sovetlər birliyində yaşasaq da, Qurultayı Moskvanın yox, Bakının, türk dünyasının öz işi sayırdı.

Məqsəd çarizmin qadağan etdiyi "türk birliyi" ideyasına elmi don geyindirib leqallaşdırmaq idi. Salman Mümtaza aid edilən bu sözlər tədqiqatçıların əsərlərində şifahi rəvayət kimi təqdim olunsa da, şəxsi arxivində bu fikrin yazılı variantına rast gəlinməyib. Rəvayətə görə isə, o Qurultaydan sonrakı illərdə uzaqgörənliklə və başlıcası eyhamla demişdi: "Qurultayda bir-birinin üzünə gülənlərin bəzisi 10 il sonra bir-birini güllələdəcək" (Ədəbiyyat qəzeti, 2017, 11 noyabr: 4). Həqiqətən də qurultay iştirakçılarının yetmiş faizi 1937-38-də repressiya qurbanı oldu.Salman Mümtaz qurultaya "türk xalqlarının özünü tanıma məclisi" kimi baxırdı. Qurultaydan bir qədər sonra "Kommunist" qəzetinə verdiyi musahibəsində "Qurultay türklərin elmi oyadılışının başlanğıcıdır" deyirdi. S.Mümtaz qurultayın işinə böyük ümüdlərlə yanaşırdı. Bu müsahibə I qurultayın yekunlarına olunur. Onun üçün bu, elmi yığıncaqdan çox, 1000 illik mədəniyyəti siyasi təzyiqdən qoparıb dünyaya göstərmək şansı idi. Bu şansı istifadə etdi, amma bədəlini canı ilə ödədi. Qurultay türk xalqlarının bir əsr davam edən tarixi sükutuna son qoydu. Mümtaz orada qurultayı "bir əsrlik sükutdan sonra türk xalqlarının öz elmi ilə dünyaya çıxması" kimi dəyərləndirir. (Türkoloji Qurultay və bizim vəzifələrimiz, 1954: 2). Biz danışdıq, qoy indi tarix yazsın" Salman Mümtaz qurultaydan sonra belə qeyd edirdi (Ədəbiyyat qəzeti, 2017: 4).

Salman Mümtaz qurultaydan bir il əvvəl, 1925-ci ildə "Şeyx Nizami Gəncəvi" adlı monoqrafiyasını ayrıca kitab kimi nəşr etdirmişdi. Qurultayda isə bu işini 2 formada təqdim etdi: "Azərbaycan ədəbiyyatının qədim nümunələri" adlı məruzəsində Nizaminin türk dünyası üçün əhəmiyyətini xüsusi vurğuladı. Nizamini farsdilli şair yox, "türk ruhlu, Gəncə mühitinin yetirməsi kimi təqdim etdi. Təşkil etdiyi əlyazma sərgisində Nizaminin "Xəmsə"sinin nadir əlyazmalarını nümayiş etdirdi. Nizami irsinin Azərbaycana məxsusluğunu əyani şəkildə sübutunu məqsədli ortaya çəkdi. S.Mümtaz Nizamini "türk intibahının ilk bayraqdarı" sayırdı. Qurultayda latın əlifbası, ortaq termenlər müzakirə olunanda o Nizami nümunəsi ilə deyirdi: "Bizim 800 iləvvəl Nizami kimi dahilərimiz olub. Əlifbanı, dili ona görə yeniləyirik ki, Nizamini öz xalqımız oxuya bilsin". Bu mövqe sonradan onun "pantürkist" kimi ittiham olunmasının səbəblərindən biri oldu. Çünki Nizamini "fars ədəbiyyatı"ndan qoparıb "türk ədəbiyyatı" kontekstnə salırdı. Qurultayda fəallığı, "türkçülük" çıxışları, topladığı əlyazmalar sonradan onun ittiham aktının əsas bəndləri oldu. 1937-də "əks inqilabçı millətçi, pantürkist" damğası ilə həbs edildi. Evindən 238 adda əlyazma müsadirə olundu və 1941-ci ildə güllələndi.

Mümtazın "Azərbaycan ədəbiyyatı" seriyasında yalnız türk, ərəb və fars dillərində klassik ədəbiyyatın tanınmış simaları deyil, həm də o dövrədək tanınmayan bir çox şairin həyatı və əsərlərinə dair həm məlumatlar, həm də dərin analitik ədəbiyyat təhlilləri yer almışdır. Bu mənada Salman Mümtazın çalışmaları, Firidun bəy Köçərlinin yarımçıq qalmış işlərini tamamladığı kimi, xüsusilə klassik ədəbiyyatın o dövrədək tanınmayan simalarını elmi ictimaiyyətə tanıtmaq baxımından gələcəyə açılan qapı rolunu oynamışdır. Məsələn, ikicildlik "El şairləri" kitabında Yunus Əmrənin çağdaşı olan Molla Qasım Şirvaninin üç şeirini nəşr etməklə yanaşı, Molla Qasım ilə Yunus Əmrənin "Məqabirdən güzər etdim" şeirini məzmun baxımından müqayisə etmiş və əslində Yunusun əsərinin Molla Qasıma nəzirə olduğunu ortaya qoymuşdur.

1920-ci ildə bolşeviklər tərəfindən sorğusuz-sualsız güllələnmiş Firidun bəy Köçərli kimi Salman Mümtaz da yeni Azərbaycan ədəbiyyatının əsas siması Mirzə Fətəli Axundzadəni təsdiqləmiş, həmçinin Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev və digər yazıçı və ədəbiyyatçıların fəaliyyətlərinə dair düzgün qiymətləndirmələr vermişdir. Salman Mümtaz Azərbaycan maarifçilik və müstəqillik ideyalarının sarsılmaz müdafiəçisi olmuşdur.

1920-1937-ci illər arasında özünü tamamilə xalqının ədəbiyyatını toplamağa, tədqiq və nəşr etməyə həsr etmiş, bütün sərvətini bu yolda xərcləmiş bir ziyalı, 1937-ci ildə həbs olunaraq ağır həbs cəzasına 10 il həbsə məhkum edilmişdir. Cəzasını çəkmək üçün Rusiyanın Orenburq şəhərinə, oradan isə Oryol şəhərinə göndərilmiş, lakin sovet diktatoru 6 sentyabr 1941-ci ildə güllələmək yolu ilə onun həyatına son hökmünü vermişdir.

Başda Azərbaycan Milli Elmlər Akademiyasının xüsusi fondu və Əlyazmalar İnstitutunun arxivi olmaqla, ölkəmizin digər arxivlərində də Salman Mümtaza aid materiallar saxlanılır. Onun adı Türkiyədə 1960-cı illərdən tanınmağa başlamış, Azərbaycan ədəbiyyatı ilə bağlı nəşrlərdə (Akpınar, 1994), Atatürk Mədəniyyət Mərkəzinin 2004-cü ildə nəşr etdiyi "Türk Dünyası ədəbiyyat tarixi" kitabında (Türk Dünyası Edebiyat Tarihi, 2004), Türkiyə Dəyanət Vəqfinin hazırladığı "İslam Ensiklopediyası"nda həyatına və fəaliyyətinə dair məlumatlar yer almışdır. Eyni zamanda Salman Mümtazın Bakıda nəşr olunmuş kitabları və onun haqqında yazılmış araşdırmalar daima yol göstəricisidir. Bu qısa yazıda Salman Mümtazın "Azərbaycan ədəbiyyatı qaynaqları" kitabına mərhum dos. Rasim Tağıyev tərəfindən yazılmış ön sözdən (sovet dövründə hazırlanan bu kitab 2006-cı ildə Avrasiya Press tərəfindən latın əlifbası ilə də nəşr edilmişdir; Redaktoru Əlyazmalar İnstitutunun sabiq direktoru Məmməd Adilovdur. (Mümtaz, 2006) və həmçinin sabiq əməkdaşımız Ədalət Tahirzadənin kitabından istifadə etmişik. Ədalət müəllimə təşəkkür borcum vardır (Tahirzadə, 2002).

31 dekabr 1934-cü ildə vəfat edən məşhur dramaturq Cəfər Cabbarlı, 2 yanvar 1935-ci ildə torpağa tapşırılır. Salman Mümtaz 2 yanvar "Ədəbiyyat qəzeti"ndə Cəfər Cabbarlıya həsr etdiyi "Ölməyən şair" nekroloq-məqaləsində hisslərini belə ifadə edirdi: "Ölü var bir rayonu, bir qəzanı, ölü var bir şəhəri, bir məmləkəti yandırır. Cəfərin ölümü bütün şuralar ölkəsini matəmə batırmışdır. Əlim titrəyə-titrəyə bu sətrləri qaralarkən inana bilmirəm ki, Cəfər ölmüşdür. Əqidəmcə, Cəfər ölməmiş və ölməyəcəkdir. O bizim qəlblərimizdə yaşayacaq və böyük bolşeviq firqəsi onu daimi və əbədi yaşadacaqdır". (Ədəbiyyat qəzeti, 2 yanvar 1935-ci il). Hələ də "şuralar ölkəsinə" ümidlər bəsləyən böyük ədəbiyyatşünas Salman Mümtazın bu fikirini Onun özünə aid edərək, yazımızı eyni cümlə ilə bitiririk: Bəli, "Salman Mümtaz ölmədi, ölməyəcək və xalqımız onu əbədi yaşadacaqdır"...

**Ədəbiyyat siyahısı**


Akpınar, A. Y. (1994). Azeri edebiyatı araştırmaları. İstanbul: Dergâh Yayınları.

Hacıyeva, Z., & Paşayeva, M. (2005). Salman Mümtaz arxivinin təsviri. Bakı.

Məmməd Füzuli adına Əlyazmalar İnstitutu. (s. f.). Salman Mümtaz arxivi (Fond № 24, s/v. 412). Azərbaycan Milli Elmlər Akademiyası.

Məmməd Füzuli adına Əlyazmalar İnstitutu. (1926). Ümumittifaq Türkoloji Qurultayı iclaslarının stenoqramları və mətbuat reaksiyaları. S. Mümtazın çıxışı barədə məlumat (Fond № 157).

Nəcəfov, N. (1978). Salman Mümtazın ədəbi və elmi fəaliyyəti. Bakı: Maarif.

Rəhimova, A. (2012). Qulam Məmmədli təzkirəsi. Bakı.

Tağıyev, R. (1974). Salman Mümtaz. Bakı.

Tağıyev, R. (Tərt.). (1986). Salman Mümtaz: Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı.

Tağıyev, R. (Tərt.). (2006). Salman Mümtaz: Azərbaycan ədəbiyyatı qaynaqları. Bakı.

Molla Nəsrəddin ensiklopediyası. (2020). Elm. (S. Mümtazın bioqrafiyası və 1925-ci ildə çap etdiyi Şeyx Nizami Gəncəvi kitabı haqqında məlumat, s. 346–347).

Mümtaz, S. (1925). Şeyx Nizami Gəncəvi. Bakı.

Mümtaz, S. (2005). Azərbaycan ədəbiyyatı (El şairləri). Bakı.

Mümtaz, S. (1935, 2 yanvar). Cəfər Cabbarlı ölmədi, ölməyəcək və əbədi yaşayacaqdır. Ədəbiyyat qəzeti, (2), 3.
Tahirzadə, Ə. (2002). Salman Mümtaz (Tərcümeyi-hal oçerki). Bakı: Kür.
Tural, S. K. (Ed.). (2004). Türk Dünyası edebiyat tarihi (Cilt 11, s. 506). Ankara: Atatürk Kültür Merkezi Başkanlığı.
Türkoloji Qurultay və bizim vəzifələrimiz. (1926, 7 mart). Kommunist, (54), 2.
Yeni yol. (1926). Yeni yol, № 51.
Mümtaz, S. (2006). Azərbaycan ədəbiyyatının qaynaqları. R. Tağıyev (Tərtib edən və ön sözün müəllifi), M. Adilov (Red.). Bakı: Avrasiya Press.

**Hüsniyyə Çobanova**
*Milli Müdafiə Universiteti, Heydər Əliyev adına Hərbi İnstitut*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: cobanovahusniyye@gmail.com*
*ORCİD: 0009-0007-6858-3547*

# BİR ƏSRİN İŞIĞINDA: BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TARİXİ VƏ GƏLƏCƏYİ

**Xülasə**

Məqalədə 1926-cı ildə Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultaydan, türk xalqlarının elmi, mədəni və dil birliyinin təşəkkül tapmasından söhbət açılır. Bu qurultay, Sovet İttifaqının müxtəlif bölgələrində və xarici ölkələrdə yaşayan türk mənşəli xalqların nümayəndələrini bir araya gətirərək, onların ortaq problemlərini müzakirə etmək və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək məqsədi daşıyırdı. Bu qurultay yalnız dilçilik və filologiya baxımından deyil, eyni zamanda **Türk dünyasının intellektual və mədəni birliyi** üçün mühüm mərhələ halını aldı.

Qurultayın ən mühüm qərarlarından biri ərəb əlifbasından imtina edərək latın qrafikasına keçid məsələsinin gündəmə gətirilməsi oldu. Türk dillərinin qohumluğu, dialektlərin təsnifatı, ortaq terminologiyanın yaradılması və tədris proqramlarının uyğunlaşdırılması kimi mövzular gündəmdə idi. Bu, türk xalqları arasında elmi əməkdaşlığın və ortaq elmi platformanın formalaşmasına zəmin yaratdı.

Qurultay, eyni zamanda, türk xalqları arasında milli kimliyin və ortaq tarixi yaddaşın möhkəmləndirilməsi baxımından da mühüm rol oynadı. Mədəni irsin qorunması, folklorun toplanması və öyrənilməsi, milli ədəbiyyatın inkişafı kimi məsələlər də diqqət mərkəzində idi. Bu, türk xalqları arasında həmrəyliyin və qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət etdi.

***Açar sözlər:*** *Türkoloji qurultay, Türk xalqları, tarix, əlifba, elmi-mədəni*

# IN THE LIGHT OF A CENTURY: THE HISTORY AND FUTURE OF THE FIRST TURCOLOGY CONGRESS

**Abstract**

The article discusses the First Turkological Congress held in Baku in 1926, the formation of the scientific, cultural and linguistic unity of the Turkic peoples. This congress brought together representatives of the Turkic peoples living in various regions of the Soviet Union and foreign countries, aimed to discuss their common problems and determine the directions of their future development. This congress became an important stage not only in terms of linguistics and philology, but also for the intellectual and cultural unity of the Turkic world.

One of the most important decisions of the congress was to put on the agenda the issue of switching from the Arabic alphabet to the Latin script. Topics such as the kinship of Turkic languages, the classification of dialects, the creation of a common terminology and the harmonization of educational programs were on the agenda. This laid the foundation for the formation of scientific cooperation and a common scientific platform among the Turkic peoples.

The congress also played an important role in strengthening national identity and common historical memory among the Turkic peoples. Issues such as the preservation of cultural heritage,

the collection and study of folklore, and the development of national literature were also in the spotlight. This served to deepen solidarity and mutual understanding among the Turkic peoples.
***Key words:*** *Turkological Congress, Turkic peoples, history, alphabet, scientific and cultural*

Birinci Türkoloji Qurultay **Türk birliyinin simvoludur və** bu gün də türk dünyasında dil, mədəniyyət və tarixi sahələrdə əməkdaşlığın inkişafı üçün mühüm rol oynayır.

1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay dünya elmi və mədəni həyatında mühüm dönüş nöqtələrindən biri kimi tarixə düşmüş, türk xalqlarının elmi, mədəniyyətinin, tarixinin və dil birliyinin təşəkkül tapmasında mühüm mərhələ olmuşdur. Bu qurultay, Sovet İttifaqının müxtəlif bölgələrində və xarici ölkələrdə yaşayan türk mənşəli xalqların nümayəndələrini bir araya gətirərək, onların ortaq problemlərini müzakirə etmək və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək məqsədi daşıyırdı. Bu qurultay yalnız dilçilik və filologiya baxımından deyil, eyni zamanda **Türk dünyasının mədəni birliyi** üçün mühüm mərhələ halını aldı. Birinci Türkoloji Qurultayda çoxsaylı elmi məruzələr dinlənilmişdir. Qurultay materialları sübut edir ki, müzakirə mövzuları **dilçilik, əlifba, terminologiya, etnoqrafiya və tarix** sahələrini əhatə etmişdir.

Birinci Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni həyatı üçün **əsaslı bir dönüş nöqtəsi** idi. Qurultayın elmi müzakirələri 20-ci əsrin sonunda və 21-ci əsrin əvvəllərində yenidən aktuallaşmış, onun əsas ideyaları və töhfələri bu gün də türkoloqlar tərəfindən tədqiq edilir. Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Türk xalqlarının mədəni inteqrasiyasında mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyıb.

Qurultayın işində Sovet birliyi məkanında yaşayan türk xalqları ilə yanaşı xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - aparıcı alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar və digər görkəmli müttəfəkirlər iştirak etmişlər.

Qurultayın 100-illiyi mövzusunda geniş elmi konfranslar təşkil etmək Türk dünyasında əməkdaşlığın güclənməsinə xidmət edəcəkdir.

Qurultayın 100 illik yubileyi isə tarixi hadisənin yalnız bir keçmiş fakt kimi qalmadığını, həm də müasir dövrdə türk dünyası elmi fikrinin inkişafı üçün yeni perspektivlər açdığını göstərir. Qurultayda 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. Qurultaya Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğlu sədrlik etmişdir.

Qurultay iştirakçılarının sonrakı fəaliyyəti fəciəvi olmuşdur. Qurultayda iştirak edən 100-dən artıq iştirakçı sonradan pantürkizmdə ittiham edilərək represiyaya uğramışdır. Əksər alim və müttəfəkirlər həbs və fiziki məhvlə üzləşdilər.

Birinci Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı:

- Əlifba məsələsi;
- İmla-orfoqrafiya problemi;
- Termin məsələsi;
- Tədris-metodika məsələsi;

- Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
- Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
- Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Qurultayda müzakirə edilən mühüm məsələlərdən biri də türk xalqlarının ərəb əlifbasından imtina edərək latın qrafikasına keçid məsələsinin gündəmə gətirilməsi və türk dillərinin ümumi yazı sisteminin yaradılması məqsədini güdürdü. Qurultayın qərarına əsaslanaraq 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. Qurultayın qərarı ilə Sovetlər birliyinə daxil olan digər türk respublikalarında da ərəb əlifbasının yerinə latın qrafikalı yazıya keçildi.

Ərəb əlifbası türk dillərinin fonetik xüsusiyyətlərini tam əks etdirmədiyindən, bu dəyişiklik həm savadlılığın artırılması, həm də türk xalqları arasında yazılı ünsiyyətin asanlaşdırılması baxımından əhəmiyyətli idi. Qurultay bu istiqamətdə vahid əlifbanın hazırlanması üçün komissiya yaradılmasını qərara aldı.

Qurultay, eyni zamanda, türk xalqları arasında milli kimliyin və ortaq tarixi yaddaşın möhkəmləndirilməsi baxımından da mühüm rol oynadı. Mədəni irsin qorunması, folklorun toplanması və öyrənilməsi, milli ədəbiyyatın inkişafı kimi məsələlər də diqqət mərkəzində idi. Bu, türk xalqları arasında həmrəyliyin və qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət etdi.

Birinci Türkoloji Qurultay, türk dünyasının elmi və mədəni inteqrasiyası yolunda atılmış ilk sistemli və məqsədyönlü addım kimi tarixə düşmüşdür. Qurultayda qəbul edilən qərarlar sonrakı illərdə türk xalqları arasında əməkdaşlığın inkişafına, ortaq mədəni dəyərlərin formalaşmasına və milli özünüdərkin güclənməsinə ciddi təsir göstərmişdir. Bu tədbir, həm də Azərbaycanın türk dünyasında oynadığı mədəni və elmi liderlik rolunun bariz nümunəsidir.

Birinci Türkoloji Qurultay türkoloqlar üçün böyük elmi əhəmiyyətə malik olmuşdur. Həmçinin, qurultay gələcəkdə təşkil olunacaq türkoloji qurultaylar üçün nümunə olmuş, Türkoloji elmin təməllərinin möhkəmlənməsinə təkan vermişdir.

2025-ci il oktyabrın 22-də Prezident İlham Əliyev tərəfindən Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə bağlı sərəncam imzaladı.

Qurultay türk xalqları arasında mədəni əlaqələrin gücləndirilməsi və ortaq mədəni irsin qorunması baxımından simvolik əhəmiyyət daşıyır. Bugünkü dövrdə türk dünyasının birliyi və ortaq dəyərlərinin təbliği üçün bir nümunə təşkil edir. Qısaca desək, Birinci Türkoloji Qurultay yalnız tarixdə qalmayıb, bu gün də türk dilləri, mədəniyyəti, elmi əlaqələr üçün əsaslı dönüş nöqtəsi rolunu oynayır.

Qurultayın latın qrafikasına keçid ideyası XX əsrdə sovet dövründə dayandırılsa da, müasir türk dünyasında bu məsələ yenidən aktualdır**.** Bu istiqamətdə türk dövlətləri arasında əlifbanın ümumiləşdirilməsi üçün işlər aparılır və qurultayda müzakirə olunan ideyalar bugünkü ortaq əlifba təşəbbüsləri üçün əhəmiyyətlidir. Bu da göstərir ki, qurultayın qərarlarının təsiri müasir dövrdə də özünü göstərməkdədir.

Dilçi alim Möhsün Nağısoylu yazır: "Yeni əlifbanın həyata keçirilməsi təkcə Azərbaycanla məhdudlaşa bilməzdi. Ona görə ki, məqsəd yeni əlifbanı qəbul etməklə türk xalqlarını birləşdirməyə nail olmaq idi. Məhz türk xalqlarının bir-birinə yaxınlaşmasını təmin etmək üçün əsaslı islahatlardan biri əlifba ilə bağlı idi. Yəni yeni əlifbaya keçmək mümkün qədər türk xalqlarının bir-biri ilə yaxınlaşmasını, birləşməsini təmin edə bilərdi. Doğrudan da, əlifba məsələsi mühüm məsələ idi. Həm də həyati məsələ idi" [Elmi sessiyanın materialları, 2016: 156].

Fazil Köprülü-zadə qurultaydakı çıxışında vurğulamışdı ki, "Türk xalqlarının ədəbi dillərinin inkişafı və ümumi terminologiyanın formalaşması gələcək türkologiyanın əsasını təşkil

edəcək" [Elmi sessiyanın materialları, 2016: 155]. Dilçi alim Elçin İbrahimovun fikrincə, bu qurultayın təsiri həm də ona görə əhəmiyyətlidir ki, "Qurultayda müzakirə olunan ümumi ədəbi dil və əlifba məsələləri müasir türkologiyanın hələ də aktual olduğu problemlərdir."

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 18 fevral 2016-cı il tarixində Birinci Türkoloji Qurultayın 90 illik yubileyini keçirmək haqqında xüsusi tədbirlər planı imzalayıb. 2016-cı il türkoloji qurultayın 90 illik yubileyinin layiqincə keçirilməsi haqqında müvafiq institutlara və qurumlara göstərişlər verilmişdir.

XX əsrin əvvəllərində türk xalqları arasında milli oyanış prosesi güclənmiş, dil, mədəniyyət, ədəbiyyat sahələrində islahatlara ehtiyac yaranmışdı. Qurultayın əsas məqsədi türk dillərinin elmi təsnifatını aparmaq, ortaq əlifba məsələsini müzakirə etmək və mədəni əməkdaşlığı gücləndirmək idi. Muxtar Kazımoğlu İmanov yazır: "Bildiyiniz kimi, dil problemi qurultayda müxtəlif aspektlərdən müzakirəyə cəlb olunurdu. Məsələn, türk dillərinin qohumluğunun sistematik araşdırılması, türk dillərində ədəbi dil məsələsi və s. Dil məsələsi Qurultayda yazı məsələsi ilə bir yerdə müzakirə edilib. Yazı məsələsi isə, təbii ki, ilk növbədə əlifba, orfoqrafiya, imla, tədris məsələləri ilə bağlıdır. Yəni demək olar ki, bu Qurultayın baş mövzusu dil və dillə bağlı məsələlər olubdur" [Elmi sessiyanın materialları, 2016: 11].

Akademik İsa Həbibbəyli qeyd edir ki, Birinci Türkoloji Qurultay türk xalqlarının milli oyanış və özünüdərkində mühüm rol oynayıb.

Tariximizə öz əbədi möhürünü vuran, dəyərli töhfələrini verən I Türkoloji Qurultayda qaldırılan ortaq türk əlifbası, ortaq türk dili, ortaq türk tarixi, ortaq türk ədəbiyyatı, ortaq türk terminologiyası kimi qlobal məsələlər bu gün də olduqca aktualdır, əhəmiyyətlidir və bu sahədə artıq müəyyən işlərə start verilmişdir. "I Türkoloji Qurultayın Bakıda keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir çox elmi-mədəni sahələrdə olduğu kimi türkologiya elmində də Azərbaycan öndə gedirdi, birinci idi. Ölkədə bu istiqamətdə tanınmış və nüfuzlu söz sahibləri, elm adamları çoxdan bəri səmərəli fəaliyyət göstərirdi" [Elmi sessiyanın materialları, 2016: 21].

Bu gün Türkiyə ilə Azərbaycanın, eləcə də başqa türk ölkələrinin əlaqələri hər bir sahədə olduğu kimi elm sahəsində də genişlənməyə başlamışdır. [Elmi sessiyanın materialları, 2016: 276].

Birinci Türkoloji Qurultay yalnız bir tədbir kimi qalmadı, o, sonrakı illərdə dilçilik və türkologiya elminin inkişafına təsir göstərdi. Əslində, qurultayın qərarları əsasında Latin əlifbasına keçid siyasəti Sovet dövründə çoxsaylı türk respublikalarında həyata keçirildi.

2026-cı ildə keçiriləcək Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş tədbirlər bu tarixi hadisənin elmi və mədəni əhəmiyyətini yenidən gündəmə gətirdi. Azərbaycan və digər Türk dövlətləri bu yubileyi yüksək səviyyədə qeyd edir və bu, bir daha türkologiyanın elmi baxımdan hüquqi və mədəni əsaslarının yenidən nəzərdən keçirilməsinə zəmin yaradır.

30-cu illərin sonunda Sovet İttifaqı rəhbərliyi tərəfindən latın qrafikalı əlifbanın dəyişdirilməsi yönündə işlərə başlanıldı [Çobanzadə, 1928]. Rəsmi açıqlamaya görə latın əlifbasından kiril qrafikasına keçid "zəhmətkeşlərin ümumi istəyi" adı altında pərdələndi [Çobanov, 2006].

Birinci Bakı Türkoloji Qurultayına dövlət səviyyəsində hüquqi qiymət Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra verildi. 2005-ci ilin noyabr ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mötəbər tarixi hadisənin 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı [Xəlilov, 2001]. Həmin sərəncama uyğun olaraq 2006-cı ildə Bakıda Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirildi [Çobanov, 2006].

**Ədəbiyyat siyahısı**

Çobanov, M. (2006) I Türkoloji Qurultay və türk dillərinin müasir problemləri, Bakı.
Çobanzadə, Б. (1928) Türk dili, Bakı, Azərnəşr, 219 s.
Hacıyev, T, (2013) Türklər üçün ortaq ünsiyyət dili, Bakı.
Xəlilov, B, (1999) Birinci Beynəlxalq türkoloji qurultay, Bakı, Elm.
Xəlilov, B. (2001) Türkologiyanın intibah dövrü, Bakı.
Elmi sessiyanın materialları (2016) Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Bakı, Elm və təhsil nəşriyyatı, (PDF).

**Ramilə Süleymanova**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: ramile_suleymanova@list.ru*
*ORCİD: 0009-0006-3008-2854*

# I TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ TÜRK DİLLƏRİNİN TƏDQİQİ PROBLEMLƏRİ

**Xülasə**

Məqalədə 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın türk xalqlarının elmi-mədəni inteqrasiyasındakı rolu və bu tarixi hadisənin müasir türkoloji tədqiqatların inkişaf istiqamətlərinə təsiri təhlil olunur. Tədqiqatın əsas obyektini Qurultayda qaldırılan fundamental məsələlər — ortaq əlifba, terminologiya, ədəbi dilin unifikasiyası və türk ləhcələrinin tədqiqi problemlərinin bugünkü kontekstdə aktuallığı təşkil edir. Qurultayda iştirak edən görkəmli alimlər: B.Çobanzadə, N.Aşmarin, A.Samoyloviç, S.Malov, F.Ağazadə müasir türkologiya elminin qarşısında duran əsas vəzifələri və dilçilik konsepsiyalarını araşdıraraq, türk dillərinin öyrənilməsi zamanı ortaya çıxan metodoloji çətinlikləri və perspektivləri diqqət mərkəzinə çəkmişlər. Məqalədə, həmçinin, ortaq türk dili və qrammatik sistemlərin müasir dilçilik paradiqmaları işığında yenidən qiymətləndirilməsi məsələləri öz əksini tapmışdır. Tədqiqatın nəticəsi olaraq qeyd edilir ki, I Türkoloji Qurultayın qərarları təkcə keçmişin elmi irsi deyil, həm də müasir qloballaşma dövründə türk dillərinin özünəməxsusluğunu qoruması üçün mühüm yol xəritəsidir.

***Açar sözlər:*** *I Türkoloji Qurultay, türk dilləri, dilçilik problemləri, dialektlər, inteqrasiya, müqayisəli dilçilik*

# PROBLEMS IN THE STUDY OF TURKIC LANGUAGES IN THE CONTEXT OF THE FIRST TURKOLOGICAL CONGRESS

**Abstract**

The article analyzes the role of the First Turkological Congress, held in Baku in 1926, in the scientific and cultural integration of Turkic peoples and the impact of this historic event on the development trends of modern Turkological research. The primary focus of the study is the contemporary relevance of the fundamental issues raised at the Congress, such as a common alphabet, terminology, unification of literary languages, and the investigation of Turkic dialects. By examining the linguistic concepts and the primary tasks facing modern Turkology, prominent scholars who participated in the Congress—such as B. Chobanzade, N. Ashmarin, A. Samoylovich, S. Malov, and F. Aghazade—highlighted the methodological challenges and prospects arising in the study of Turkic languages. Furthermore, the article reflects on the re-evaluation of a common Turkic language and grammatical systems in light of modern linguistic paradigms. As a conclusion of the research, it is noted that the decisions of the First Turkological Congress are not merely a scientific heritage of the past, but also a vital roadmap for preserving the distinctiveness of Turkic languages in the era of modern globalization.

***Key words:*** *First Turkological Congress, Turkic languages, linguistic problems, dialects, integration, comparative linguistics*

Türk dilləri ailəsi dünya dilləri içərisində həm tarixi dərinliyi, həm də geniş coğrafiyaya yayılması ilə seçilən mühüm dil qruplarından biridir. Bu dillərin sistemli şəkildə öyrənilməsi və elmi əsaslarla tədqiqi isə xüsusilə I Türkoloji Qurultaydan sonra yeni mərhələyə qədəm qoymuşdur. 1926-cı ildə keçirilən bu Qurultay türk xalqlarının dil, əlifba və mədəniyyət məsələlərinin müzakirəsi baxımından mühüm dönüş nöqtəsi olmuşdur. Həmin dövrdən etibarən türk dillərinin tədqiqində həm nəzəri, həm də praktik problemlər daha aydın şəkildə üzə çıxmışdır.

Türk dillərinin tədqiqində əsas problemlərdən biri onların təsnifatı məsələsidir. Müxtəlif alimlər tərəfindən fərqli təsnifat modelləri irəli sürülmüşdür. Məşhur şərqşünas və türkoloq alimlərin "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", "Türkologiyanın keçmişi və onun hazırkı vəziyyəti haqqında bəzi məlumatlar", "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", "Türk xalqlarının ədəbi dillərinin inkişafı", "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri", "Türk dillərində düzgün yazı" və digər mövzularda çıxışları I Türkoloji Qurultaya rəng qatmış və türkologiya elminin inkişafına təkan vermişdir.

Bəkir Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında" adlı məruzəsində qeyd edirdi ki, türk ləhcələri Orxon yazılarından əvvəl də mövcud olmuşdur. Bu, şübhə doğurmayan bir faktdır. Orxon yazılarının (Tukyu dövlətinə aid olan abidələrin) şərq və qərb (yaxud şimal və cənub) qruplarına bölünməsi, bu yazılarda karluklar, uyğurlar, tokuz-oğuzlar, qırğızlar və digər türk tayfalarının adlarının çəkilməsi, eləcə də həmin yazıların dili bu fikri təsdiq edir. Türk tayfalarının özlərini "türk" adlandırmaları da şübhə doğurmur. Tarix boyu bunun üçün kifayət qədər dəlillər mövcuddur. Müxtəlif dövrlərə aid əsərlərə – məsələn, "Qutadqu-Bilik", "Divan-ı Hikmət", "Divanü lüğat-it-türk" kimi mənbələrə nəzər salsaq, görərik ki, bu əsərlər müxtəlif ləhcələrdə yazılmışdır və müəlliflər həm əsərlərini "türk dili", həm də özlərini "türk" adlandırmışlar (ПВТС, 2011: 129).

B.Çobanzadə bildirir ki, əgər irəli sürdüyümüz bu müddəa doğru hesab edilərsə, belə nəticə çıxır ki, türk ləhcələrinin əsasını və ilkin mənbəyini Orxon yazılarından əvvəlki dövrlərdə axtarmaq lazımdır. Lakin əlimizdə Orxon abidələrindən başqa kifayət qədər yazılı mənbə olmadığından, bu sahədə tədqiqat aparmaq hələlik məhduddur (ПВТС, 2011: 129).

Eyni zamanda Bəkir Çobanzadə bu məruzəsində Türk ləhcələrinin tədqiqi sahəsində aparılmış işlərdə mövcud olan çatışmazlıqları vurğulamışdır: 1)tədqiqatlar çox vaxt tarixi və ya siyasi məqsədlərə xidmət etmişdir; 2)ləhcələrin müqayisəsi əksər hallarda məhdud çərçivədə qalmışdır; 3)təsnifatlar əsasən yalnız fonetik xüsusiyyətlərə əsaslanmışdır (ПВТС, 2011:135).

O, məruzəsində qeyd edir ki, Vasili Radlov, Vilhelm Tomsen və digər alimlərin xidmətləri böyükdür. Onların topladığı materiallar gələcəkdə müqayisəli tarixi qrammatikanın yaradılmasına imkan verə bilər. Hazırkı mərhələdə türk ləhcələrinin tam və dolğun müqayisəli qrammatikasını yaratmaq mümkün olmasa da, bu istiqamətdə müəyyən əsaslar qoyulmuşdur. Gələcəkdə bu sahədə aparılacaq tədqiqatlar türk dillərinin qarşılıqlı əlaqələrini daha aydın şəkildə ortaya qoyacaq və Ural-Altay nəzəriyyəsi kimi nəzəriyyələrin dəqiq qiymətləndirilməsinə kömək edəcəkdir.

N.Aşmarin də "Türkologiyanın keçmişi və onun hazırkı vəziyyəti haqqında bəzi məlumatlar" məruzəsində türk ləhcələrinin öyrənilməsində mövcud olan çatışmazlıqları qeyd etmiş və onları belə qruplaşdırmışdır: 1) Türk ləhcələrinin səs sistemi kifayət qədər öyrənilməmişdir; 2) Əksər ləhcələrin morfologiyası az araşdırılıb, ayrı-ayrı monoqrafiyalar yoxdur; 3) Dialektlərin böyük hissəsində sintaksisin fərdi xüsusiyyətləri ümumiyyətlə araşdırılmamışdır. Hadisələr yalnız məntiqi baxımdan izah edilir və türk dillərində son dərəcə

mühüm rol oynayan psixoloji amillər nəzərə alınmamışdır; 4 )Şivələrin böyük əksəriyyətinin leksik tərkibi zəif tədqiq edilmişdir; 5) Bir çox tayfaların xalq yaradıcılığı nümunələri toplanmamış və öyrənilməmişdir (ПВТС, 2011: 194); 6) Türk nitqinin musiqi tərəfi, eləcə də türk şeir quruluşunun qanunları yetərincə aydınlaşdırılmamışdır; 7) Bu günədək türk ləhcələrinin müqayisəli qrammatikasına dair bir dənə də olsun əsər mövcud deyildir; 8) Dildə mövcud olan qədim prototürk (bəlkə də ilkin ural-altay) element – yəni təqlidi sözlər – demək olar ki, öyrənilməmiş və tədqiqatçılar tərəfindən diqqətdən kənarda qalmışdır (ПВТС, 2011: 196).

Eyni zamanda N.Aşmarin vurğulayır ki, hazırda türkologiyanın "qəhrəmanlıq dövrü" sona çatıb və bundan sonra elmi yanaşma ilə yerli dialektlərin və türk dillərinin tədqiqinə daha çox diqqət yetirilməlidir. Həmçinin, yerli alimlərə bu işləri davam etdirmək üçün lazımi dəstək verilməlidir ki, bu işlər daha sürətlə irəliləsin və türk dilçilik elmi daha da inkişaf etsin (Türk, 2012: 33).

I Türkoloji Qurultayda "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri" adlı məruzə ilə çıxış edən Aleksandr Samoyloviç bildirir ki, müasir dövrdə artıq əsas türk dilləri və dialektləri haqqında ümumi təsəvvür mövcuddur. Lakin gələcək tədqiqatların istiqaməti bu ilkin məlumatların dərinləşdirilməsi və genişləndirilməsi olmalıdır.

Yakutlardan başlayaraq Sibir türkləri, Altay xalqları, Orta Asiyanın qazax, qırğız, özbək və türkmənləri, Şərqi Avropadakı başqırdlar, tatarlar, çuvaşlar, həmçinin Qafqaz və Azərbaycan türkləri müəyyən dərəcədə öyrənilmişdir. Məsələn, yakut dili üzrə Eduard Pekarski tərəfindən hazırlanmış lüğət və Otto Bötlinqk tərəfindən yazılmış qrammatika mühüm elmi əhəmiyyətə malikdir (ПВТС, 2011: 178). Bununla yanaşı, bir sıra sahələr hələ də kifayət qədər öyrənilməmişdir. Xüsusilə türkmən dialektləri, özbək şivələrinin daxili fərqləri, eləcə də Azərbaycan türkcəsinin müxtəlif şivələri yalnız son dövrlərdə sistemli şəkildə tədqiq olunmağa başlanmışdır. O, qeyd edir ki, bir çox materiallar toplanmış olsa da, onların böyük hissəsi hələ də nəşr olunmamışdır. Bu isə elmi dövriyyəyə daxilolmanı ləngidir və tədqiqatların inkişafına mane olur.

A.Samoyloviç öz çıxışında türkologiya elminin qarşısında duran əsas vəzifələr haqqında məlumat vermişdir: 1) canlı türk dillərinin sistemli və dərin şəkildə öyrənilməsi; 2) dialektoloji tədqiqatların genişləndirilməsi; 3) müqayisəli tədqiqatların inkişaf etdirilməsi; 4) ümumtürk etimoloji lüğətinin hazırlanması; 5) türk xalqları və dilləri üzrə elmi biblioqrafiyanın yaradılması; 6) beynəlxalq əməkdaşlıq əsasında kollektiv tədqiqatların təşkili. Bu vəzifələrin həyata keçirilməsi üçün işlərin beynəlxalq səviyyədə və kollektiv əsasda təşkili xüsusi əhəmiyyət kəsb edir. Yalnız bu halda türkoloji tədqiqatların intensivliyi artırıla və qarşıya çıxan maneələr minimuma endirilə bilər (ПВТС, 2011: 186).

"Türk xalqlarının ədəbi dillərinin inkişafı" adlı məruzə ilə çıxış edən Fuad Köprülüzadə qeyd edir ki, türk dili islamın qəbulundan xeyli əvvəl bir sıra dialektlərə parçalanmışdır. Hazırda mənbələrin çatışmazlığı səbəbindən bu dialektləri dəqiq müəyyənləşdirmək və təsnif etmək mümkün deyildir. Hətta Vilhelm Banq tərəfindən Orxon yazılarının dili ilə sonrakı Anadolu türkcəsi arasında əlaqə qurmaq cəhdlərinə baxmayaraq, hələlik qəti nəticələrə gəlmək mümkün olmamışdır. Şübhəsizdir ki, islamdan əvvəl də türklər arasında müəyyən əlifbalar mövcud olmuşdur və bu əlifbalardan istifadə edən bəzi dialektlər "ədəbi dil" kimi səciyyələndirilə bilər. Orxon yazılarının dili inkişaf etmiş bir ədəbi dili təmsil edir. Bununla yanaşı, Sasani dövrünə qədər gedib çıxan və türk dilində yazılmış digər əsərlərin mövcudluğunu təsdiqləyən tarixi dəlillər də vardır (ПВТС, 2011: 422). Bu məsələ müəllifin "Türk ədəbiyyatında ilk mütəsəvviflər" və "Türk ədəbiyyatı tarixi" adlı əsərlərində kifayət qədər ətraflı şəkildə işıqlandırılmışdır. Ümumiyyətlə,

Fuat Köprülüzadəyə görə, Türkiyat (Türkologiya) Türklüyün bütün qollarına aid hər növ bilik sahələrini əhatə etməsi baxımından çox geniş və hər tərəflidir. Tarixin bütün sahələri, dil və ədəbiyyat, arxeologiya, etnoqrafiya — bir sözlə, Türk millətinin maddi və mənəvi həyatından bəhs etmək, yəni Türklərə aid olmaq şərtilə müxtəlif elm sahələri "Türkiyat" ifadəsi altında birləşə bilər (Oral, 2004: 109).

F. Köprülüzadə çıxışında bildirir ki, müsəlman təqviminin V əsrinə qədər türk dialektləri haqqında Çin və müsəlman mənbələrinin verdiyi parçalı məlumatlar əsasında qəti nəticələr çıxarmaq mümkün deyildir. Yalnız Mahmud Kaşğarinin qiymətli əsərini digər tarixi və dilçilik mənbələri ilə müqayisəli şəkildə araşdırmaqla müəyyən nəticələr əldə etmək mümkündür. Bu təhlillər göstərir ki, Oğuz ləhcəsi müxtəlif tarixi amillərin təsiri nəticəsində hicri təqvimin VIII əsrində iki qrupa – şərq və qərb qruplarına ayrılmışdır. Şərqi oğuz ləhcəsi, yəni "azəri" ləhcəsi, məlum olduğu kimi, VIII əsrdən etibarən formalaşmağa başlamışdır. Qərbi oğuz ləhcəsinə, yəni Anadolu türkcəsinə gəldikdə isə, o, monqol istilasından əvvəl artıq ədəbi nümunələr yaratmağa başlamış və səkkiz əsr ərzində ərəb və fars dillərində yazılmış əsərlərdən heç də geri qalmayan minlərlə elmi və ədəbi əsər meydana gətirmişdir (ПВТС, 2011: 423).

I Türkoloji Qurultayda yaddaqalan məruzələrdən biri də S.Malovun "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri" məruzəsi idi. Bu məruzədə S.Malov Orxon-Yenisey abidələri və onun tarixi haqqında ətraflı məlumat vermişdir. S.Malov qeyd edir ki, İran mənşəli soqdlar türk xalqlarına çox böyük təsir göstərmişlər. İndi aydın olur ki, təkcə uyğur əlifbası deyil, hətta türk runik yazısı da eramızın I əsrinə aid olan qədim soqd əlifbasına gedib çıxır. Bu yazı nümunələri bizdə hələ I Pyotr dövründən Yenisey çayı hövzəsindən məlum idi. 1889-cu ildə Nikolay Yadrintsev tərəfindən Monqolustanda, Orxon çayı sahilində tapılmış Kültigin abidəsi bu abidələr sırasına əlavə edildi. Lakin 1893-cü ilə qədər bu məlumatlar yalnız zahiri xarakter daşıyırdı: biz bu abidələrin kimə məxsus olduğunu, hansı dildə yazıldığını və məzmununu bilmirdik. Yalnız 1893-cü ildə Vilhelm Tomsenin kəşfi sayəsində müəyyən olundu ki, bu abidələr türk mənşəlidir və onların oxunuşu mümkün oldu. Hal-hazırda bu abidələrin həm Finlandiya, həm də Rusiya nəşrlərində atlasları, tərcümələri və tədqiqatları mövcuddur. Yenisey abidələri ölçü baxımından kiçik olub, bir neçə sözdən ibarət qısa epiqrafik mətnləri olan qəbirüstü yazılardır. Orxon abidələri isə nəhəng obelisklər şəklindədir və təxminən 5000-ə qədər türk runik işarəsini ehtiva edir. Daş üzərində yazılmış bu abidələrdən başqa, Çin Türküstanında aparılan arxeoloji qazıntılar nəticəsində kağız üzərində yazılmış nümunələr və hətta 102 səhifədən ibarət bütöv bir kitab da aşkar edilmişdir (hazırda Britaniya Muzeyində saxlanılır). Həmçinin Leninqraddakı Asiya Muzeyində professor Sergey Oldenburq ekspedisiyası tərəfindən gətirilmiş nadir fraqment mövcuddur (ПВТС, 2011: 187-188).

S.Malov çıxışının sonunda bildirir ki, qədim türk dillərinin öyrənilməsi üçün material kifayət qədər genişdir. Yenisey abidələrinin dili qədim qırğızlara, Orxon və Selenqa abidələrinin dili isə qədim oğuzlara aiddir. Runik əlifbanın kifayət qədər mükəmməl olması sayəsində bu yazıların fonetik sistemi yaxşı öyrənilmişdir. Bununla belə, Yenisey abidələrinin dili hələ də bəzi qeyri-müəyyənliklər daşıyır; ehtimal olunur ki, bu yazı sistemi hələ tam formalaşmamışdı və bu abidələr Orxon-Selenqa abidələrindən 2–3 əsr daha qədimdir (Orxon abidələri VIII əsrin 30-cu illərinə aiddir). Yaxın gələcəkdə bu sahədə daha çox nailiyyətlərin əldə olunacağı ehtimal edilir. Hələ nəşr edilməmiş və tədqiq olunmamış bir çox abidələr Minusinskdə saxlanılır. Həmçinin Çin Türküstanından yeni sənədlərin tapılacağına da ümid etmək olar (ПВТС, 2011: 188).

Fərhad Ağazadə "Türk dillərində düzgün yazı" məruzəsində Azərbaycan dilinin (o dövrün terminologiyası ilə "türk dili") yazı sisteminin islahatı, ərəb qrafikasından yeni latın əlifbasına

keçid və orfoqrafiya prinsiplərinin müəyyənləşdirilməsi kimi fundamental məsələlərdən bəhs etmişdir. O birdirir ki, türk dilinin qrammatikasında yazılışla bağlı bəzi qanunlar göstərilmişdir. Bu qanunların əksəriyyəti ərəb sözlərinin yazılışına aiddir. Məsələn, burada "hərəkə", "tənvin" və "təşdid" kimi ərəb sözləri üzərində qoyulan işarələrdən və bir dəfə yazılıb qoşa tələffüz olunan hərflərindən bəhs edilir. Həmçinin bəzi məqamlarda oxunan, bəzilərində isə tamamilə düşən "əlif-lam"lar göstərilir. Sonra, bəzi qrammatikalarda ərəb sözlərində cəm şəkilçisinin və kişi, qadın cinslərinin göstərilməsinə xüsusi diqqət yetirilir. Əsl türk sözlərinə və xüsusən onların qrammatikasına nəzər salsaq görərik ki, bir tərəfdən türk qrammatikasının qanunları ərəb sözlərinə tətbiq olunmamış, digər tərəfdən isə bu qanunlar xalis türk sözlərinin orfoqrafiyasında öz əksini tapmamışdır. Hər halda, qədim türk yazılışında ikili orfoqrafiya mövcuddur: birincisi ərəb, digəri isə türk sözlərinə aiddir. Türk dilinin orfoqrafiyasını vahid sistemə salmağa çalışarkən, ilk növbədə hansı prinsipə üstünlük verməli olduğumuzu müəyyənləşdirməliyik (ПВТС, 2011: 527). Biz belə bir fikrə sahibik: türk dilində ərəb sözlərinin sayı nə qədər çox olursa-olsun, hətta onlar üstünlük təşkil edib lüğət tərkibinin doxsan faizini təşkil etsə belə, bu sözlər türk dilinə daxil olduqları andan etibarən mütləq türk qrammatikasının qanunlarına tabe olmalıdırlar. Digər dillərə nəzər salsaq görərik ki, onlara daxil olan əcnəbi sözlər həmin dilin qrammatik qanunlarına uyğunlaşdırılır (ПВТС, 2011: 528).

Fərhad Ağazadə məruzədə tarixi, morfoloji, fonetik, differensiasiya prinsiplərini və bu prinsiplərin türk dilinə tətbiqi məsələlərini izah etmişdir. Digər dillərdə olduğu kimi, bütün bu prinsiplərin türk dilinə tətbiq edilməsi mümkün deyil. Məsələn, tarixi prinsip türk dilinə tətbiq oluna bilməz, çünki türk dilinə daxil olan ərəb sözləri, türk qrammatikasının qanunlarına tabe olduqda, öz "hərəkə"lərini, "tənvin"lərini, "təşdid"lərini və digər işarələrini itirəcəklər (ПВТС, 2011: 528). İkinci prinsip morfoloji prinsipdir. Bu prinsip türk orfoqrafiyasında dar çərçivədə mövcuddur. Məsələn, "qardaş", "adaş" kimi sözlər morfoloji prinsipə əsasən "qarındaş", "addaş" kimi yazılmalıdır. Lakin, müasir türk dili tədricən bu köhnə yazılışdan imtina edir. Eyni zamanda qeyd etmək lazımdır ki, canlı terminlər və sözlər arasındakı ziddiyyətlər yalnız morfoloji prinsip ilə həll oluna bilər. Məsələn, bəziləri "torpaq", "yarpaq" deyir, digərləri isə çox hallarda "topraq", "yapraq" tələffüz edir. Biz morfoloji prinsipi ilə bu suala yanaşsaq, ikinci formaya üstünlük verəcəyik. Bu cür səhvlər yalnız mütəxəssislərin müdaxiləsi ilə aradan qaldırıla bilər. Lakin, nəzərə almaq lazımdır ki, türk dilinin yazılışı üçün uyğun olan prinsip fonetik prinsipdir. Bəzi elmi əsərlərdə bu metod "sillabik" metod olaraq da adlandırılır. Əgər türk dilinin yazılışı fonetik prinsip əsasında qurulacaqsa, zamanla bu metod morfoloji metodla birləşəcək, bu da bəzi dillərdə, məsələn, qədim dillərdə olduğu kimi fonetikadan heç bir iz qalmadığı hallarda tətbiq olunur. Bunun səbəbi ondan ibarətdir ki, dilin tələffüzü intensiv şəkildə dəyişir, lakin yazılış qaydaları dəyişməz qalır. Əgər biz türk dilinin yazısını fonetik prinsipə əsaslasaq, bu prinsipi ilk növbədə saf türk sözlərinə tətbiq etməliyik, sonra isə türk dilinə daxil olmuş ərəb və fars sözlərinə, daha sonra isə avropa dillərindən türk dilinə keçmiş sözlərə tətbiq etməliyik (ПВТС, 2011: 529).

F.Ağazadə çıxışını bu fikirlərlə tamamlayır. Türk dilində yazılışın təkamülü uzun və mürəkkəb bir proses olacaq. Bu prosesdə əsas hədəf, dilin özünü daha dəqiq və düzgün şəkildə ifadə etməsini təmin etmək olmalıdır. Bu məqsədə çatmaq üçün həm fonetik, həm də morfoloji prinsiplərdən istifadə edilməli, xarici sözlər türk dilinin fonetik və qrammatik xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır. Professor Uşakovun dediyi kimi: "Orfoqrafiya dilin geyimidir; o, rahat və ya narahat ola bilər, lakin yadda saxlamaq lazımdır ki, bu yalnız xarici görünüşdür və onun dəyişməsi ilə dilin özü dəyişmir". Bəli, orfoqrafiya dəyişə bilər, lakin bu, türk dilinin sarsılmaz mahiyyətini dəyişməyəcəkdir (ПВТС, 2011: 539).

Aparılan tədqiqatlar göstərir ki, I Türkoloji Qurultay sadəcə tarixi bir hadisə deyil, həm də müasir türkologiyanın inkişaf istiqamətlərini müəyyən edən strateji proqramdır. Qurultay çərçivəsində müzakirə olunan məsələlər türk dillərinin yalnız tarixi-müqayisəli aspektdə deyil, həm də müasir dilçilik yanaşmaları kontekstində tədqiqinə geniş imkanlar açır. Xüsusilə dialektologiya, leksikologiya və müqayisəli qrammatika sahəsindəki problemlər qurultayın qərarları işığında yeni çalarlar qazanır. Müasir türkologiyanın əsas vəzifələri qurultay ideallarından çıxış edərək, rəqəmsal dövrün tələblərinə uyğun ortaq bir elmi platforma formalaşdırmaqdır. Bu isə türk xalqlarının dil birliyinin elmi əsaslarla daha da möhkəmlənməsinə xidmət edir. I Türkoloji Qurultay isə bu prosesdə istiqamətləndirici və birləşdirici əsas institut kimi öz aktuallığını qoruyub saxlayır.

**Ədəbiyyat siyahısı**

Oral, M. (2004). “Türkoloji Tarihinde 1926 Bakü Türkiyat Kongresi”. Türk Dünyası Dil ve Edebiyat Dergisi, (17), 105-121.

Первый Всесоюзный Тюркологический Съезд: Стенографический отчет (2011). Bakı: Нагыл Еви, 550.

Türk, V. (2012). “1926 Bakü Türkoloji Kurultayı”. Türkiz: Siyaset və Kültür Dergisi. Cilt 3 (17), 25-42.

**İlahə Kazımova**
*ADMİU-nun nəznində humanitar kollec*
*Filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: ilahe.aliyeva.ava@gmail.com*
*ORCİD: 0000-0001-8296-1940*

# I TÜRKOLOJİ QURULTAY – 100: TÜRK DÜNYASININ ELMİ VƏ MƏDƏNİ İNTEQRASİYASININ TARİXİ TƏMƏLİ

**Xülasə**

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının tarixində sadəcə elmi deyil, həm də taleyüklü siyasi və mədəni hadisədir. Bu qurultay türk dünyasının ortaq elmi təfəkküründün, dil və əlifba birliyinin formalaşmasında müstəsna rol oynamışdır. 2026-cı ildə 100 illik yubileyini qeyd etdiyimiz bu tarixi toplantı, Azərbaycanın türkologiya elminin mərkəzi kimi statusunu beynəlxalq səviyyədə təsdiq etmişdir. Qurultayda qəbul edilən qərarlar, xüsusilə latın qrafikalı əlifbaya keçidlə bağlı irəli sürülən ideyalar türk xalqlarının modernləşməsi və bir-birinə yaxınlaşması üçün strateji əhəmiyyət kəsb etmişdir.

Məqalədə I Türkoloji Qurultayın tarixi konteksti, Fuad Köprülü, bəy Bartold, İsmayıl Hikmət və Bəkir Çobanzadə kimi görkəmli alimlərin qurultaydakı fəaliyyəti təhlil olunur. Qurultayda müzakirə olunan ortaq terminologiya, ədəbi dilin formalaşması və ortaq tarix konsepsiyası kimi məsələlərin müasir dövr üçün aktuallığı araşdırılır. Vurğulanır ki, qurultay iştirakçılarının əksəriyyətinin sonradan represiya qurbanı olmasına baxmayaraq, onların qoyduğu elmi miras bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən inteqrasiya proseslərinin mənəvi və elmi bazasını təşkil edir. Qurultayın 100 illik təcrübəsi göstərir ki, dil və mədəniyyət birliyi türk dünyasının gələcək inkişafının ən mühüm qarantıdır.

***Açar sözlər:*** *I Türkoloji Qurultay, Bakı 1926, Türkologiya, Əlifba islahatı, Ortaq türk dili, Bəkir Çobanzadə, Mədəni inteqrasiya*

# THE FIRST TURKOLOGICAL CONGRESS – 100: THE HISTORICAL FOUNDATION OF SCIENTIFIC AND CULTURAL INTEGRATION OF THE TURKIC WORLD

**Abstract**

The First Turkological Congress, held in Baku in 1926, is not merely a scientific gathering but a pivotal political and cultural milestone in the history of Turkic peoples. This congress played an exceptional role in shaping the common scientific thinking, linguistic unity, and alphabet integration of the Turkic world. As we celebrate its centenary in 2026, this historic assembly remains a testament to Azerbaijan's international status as a central hub for Turkology. The decisions adopted during the congress, particularly the transition to the Latin script, held strategic importance for the modernization and rapprochement of Turkic nations.

The article analyzes the historical context of the First Turkological Congress and the contributions of eminent scholars such as Fuad Köprülü, Vasily Bartold, Ismayil Hikmet, and Bekir Chobanzade. It examines the contemporary relevance of issues discussed at the congress, including common terminology, the formation of a literary language, and the concept of a shared history. Despite the tragic fate of many participants who later fell victim to political repression, their scientific legacy continues to provide the moral and intellectual framework for the integration

processes currently carried out within the Organization of Turkic States. The 100-year experience of the congress demonstrates that linguistic and cultural unity is the most vital guarantee for the future development of the Turkic world.

***Key words:*** *First Turkological Congress, Baku 1926, Turkology, Alphabet reform, Common Turkic language, Bekir Chobanzade, Cultural integration*

XX əsrin əvvəlləri türk xalqlarının milli oyanışı, mədəni dirçəlişi və elmi əməkdaşlıq təşəbbüslərinin yüksəliş dövrü kimi xarakterizə olunur. Bu baxımdan, 1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilmiş I Türkoloji Qurultay türkdilli xalqların dil, mədəniyyət və elm sahəsində birgə gələcəyini müzakirə etdikləri ilk genişmiqyaslı beynəlxalq toplantı olmuşdur. Qurultay yalnız bir elmi hadisə deyil, həm də türk dünyasının mədəni-intelektual həmrəylik səviyyəsinin bariz nümunəsi idi.

I Türkoloji Qurultay türk xalqlarının dili, əlifbası, tarixi və mədəniyyəti ilə bağlı mühüm qərarların qəbul edildiyi beynəlxalq elmi toplantı idi. Qurultay 26 fevral – 6 mart 1926-cı ildə Bakı şəhərində keçirilmişdir.

Qurultayın keçirilməsini XX əsrin əvvəllərində bir neçə mühüm amil zəruri etmişdi:

1. Dil və əlifba problem. Türk xalqları müxtəlif əlifbalardan istifadə edirdilər (əsasən ərəb qrafikası). Bu isə savadlanmanın zəif olmasına, elmi və mədəni əlaqələrin çətinləşməsinə, ortaq ədəbi dil formalaşdırılmasında problemlərə səbəb olurdu.

Yeni, daha sadə və müasir əlifbaya keçid məsələsi gündəmdə idi.

2. Milli oyanış və özünüdərk. XIX əsrin sonu – XX əsrin əvvəllərində türk xalqları arasında milli kimlik, dil birliyi və mədəni dirçəliş ideyaları güclənmişdi. Bu ideyaların elmi əsaslandırılması və istiqamətləndirilməsi lazım idi.

3. Elmi koordinasiya ehtiyacı. Türkologiya sahəsində müxtəlif bölgələrdə tədqiqatlar aparılsa da, vahid elmi platforma yox idi. Qurultay alimləri bir araya gətirmək, ortaq terminologiya yaratmaq, elmi əməkdaşlığı gücləndirmək məqsədi daşıyırdı.

Qurultayın keçirilməsində əsas məqsədləri aşağıdakılar idi:

-Türk dillərinin elmi əsaslarla öyrənilməsi

-Ortaq əlifba layihəsinin müzakirəsi (latın qrafikasına keçid məsələsi)

-Terminologiyanın vahidləşdirilməsi

-Türk xalqları arasında mədəni və elmi əlaqələrin möhkəmləndirilməsi

Bu qurultay faktiki olaraq türk xalqları arasında ilk genişmiqyaslı elmi əməkdaşlıq təşəbbüsü idi. İnsanları düşündürən başqa bir məsələ isə belə bir məclisin məhz Azərbaycanda keçirilməsi məsələsi idi. Bunun bir neçə mühüm ***səbəbi*** var idi:

1. Azərbaycanın qabaqcıl mövqeyi. XX əsrin əvvəllərində Azərbaycan türk dünyasında maarifçilik hərəkatının, mətbuatın, dünyəvi təhsilin inkişaf etdiyi aparıcı mərkəzlərdən biri idi.

2. Əlifba islahatında təşəbbüskarlıq. Azərbaycan artıq 1920-ci illərdə latın qrafikalı əlifbaya keçid istiqamətində ciddi addımlar atmışdı və bu sahədə öncül mövqedə idi.

3. Coğrafi və mədəni körpü rolu. Bakı həm Qafqaz, Orta Asiya, Volqaboyu bölgələri arasında mühüm mədəni və nəqliyyat mərkəzi idi.

4. Elmi mühit və təşkilati imkanlar. Bakıda güclü ziyalı təbəqə və elmi potensial mövcud idi ki, bu da belə beynəlxalq tədbirin keçirilməsini mümkün edirdi.

I Türkoloji Qurultay tarixi baxımdan türk xalqlarının dil və mədəni birliyinin möhkəmləndirilməsi, əlifba islahatının sürətləndirilməsi, türkologiyanın sistemli elmi sahə kimi formalaşması baxımından dönüş nöqtəsi olmuşdur.

Çar Rusiyası dönəmində türkdilli xalqların dili, mədəniyyəti və maarifi uzun müddət təzyiqlərə məruz qalmış, türkologiya, əsasən, Avropa mərkəzlərində, Rusiyada və Osmanlıda inkişaf etmişdi. 1917-ci il oktyabr inqilabından sonra SSRİ ərazisində yaşayan türklər üçün nisbi imkanlar yaransa da, bu imkanların uzunmüddətli və sistemli şəkildə reallaşması üçün vahid elmi platformalara ehtiyac duyulurdu. Məhz bu ehtiyacdan I Türkoloji Qurultay təşkil olundu. Azərbaycanda türkologiya istiqamətində elmi potensial formalaşdığı üçün belə bir qurultayın Bakıda keçirilməsi qərara alınmışdı.

Qurultayın tərkibi və iştirakçıların kimliyi məsələsi də hər zaman diqqət mərkəzində olan məsələlərdən olmuşdur.

Qurultayda müxtəlif ölkə və bölgələrdən- Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Tatarıstan, Krım, Sibir, Dağıstan və sair türk regionlarından 100-dən artıq alim və nümayəndə iştirak etmişdir. Onların sırasında tanınmış türkoloqlar, dilçi alimlər, ziyalılar və maarifçilər var idi. Bəkir Çobanzadə, Əhməd Baytursun, Səməd Ağamalıoğlu, Hüseyn Cavid kimi simalar bu qurultayın ideya daşıyıcıları olmuşlar. Amma ümumi şəkildə Azərbaycandan iyirmi üç nəfər rəsmi (qeyri-rəsmi isə 30 nəfər) qurultayda iştirak etmiş, məruzələrlə çıxış etmişdir.

Qurultayda ən çox müzakirə olunan məsələlərdən biri latın qrafikasına keçid idi. Bu keçid, bir tərəfdən elmin və maarifin inkişafı üçün vacib sayılırdı, digər tərəfdən isə türkdilli xalqlar arasında ortaq kommunikasiya platforması yaradacağı düşünülürdü. Müzakirələr nəticəsində latın əlifbası əsasında ortaq türk əlifbasının yaradılması qərara alındı (Əliyev, 2006).

Bu qurultay təkcə dilçilik sahəsində deyil, etnoqrafiya, folklor, ədəbiyyat və mədəni irsin tədqiqi baxımından da böyük əhəmiyyət daşıyırdı. Qurultay türkologiyanın yeni mərhələsini-milli əsaslı, lakin beynəlmiləl dəyərlərə əsaslanan yanaşma modelini ortaya qoydu. Elmlə ideologiyanın çarpazlaşdığı bu dövrdə qurultay həm sovet rəhbərliyi tərəfindən nəzarət edilən, həm də ziyalılar tərəfindən irəlilədilən ikili xarakter daşıyırdı (Zeynalov, 2011).

Qurultaydan sonra bir sıra mühüm hadisələr baş verdi:

- Bir sıra türkdilli respublikalarda latın qrafikalı əlifbaya keçid sürətləndi.
- Türk dillərinin təsnifatı və elmi əsaslandırılması istiqamətində ilk sistemli yanaşmalar ortaya çıxdı.
- Türkologiya sahəsində beynəlmiləl elmi əməkdaşlıq genişləndi.
- Bir çox türkoloq alimlər üçün bu qurultay elmi mövqelərinin gücləndirilməsi baxımından mühüm platforma oldu.

Təəssüf ki, 1930-cu illərin repressiya siyasəti bu elmi yüksəlişin qarşısını aldı. Qurultayda iştirak edən bir çox alim- o cümlədən Bəkir Çobanzadə, Əhməd Baytursun, Hüseyn Cavid və başqaları- repressiyaya məruz qaldılar, türkologiya isə ideoloji təzyiqlər altında inkişaf etməyə məcbur edildi. Lakin onların I Qurultayda qoyduqları elmi və milli əsaslar bu gün də müasir türkologiyanın bünövrəsini təşkil edir.

Tarixi I Türkoloji Qurultay yalnız bir elmi simpozium deyil, türkdilli xalqların ortaq gələcəyinə dair mühüm strateji sənəd kimi qiymətləndirilməlidir. Qurultayda səsləndirilən ideyalar, qəbul olunan qərarlar və elmi nəticələr türkologiyanın müstəqil elmi sistem kimi formalaşmasına və milli-mədəni identikliyin qorunmasına xidmət etmişdir.

**Ədəbiyyat**

Əliyev, R. (2006). Azərbaycan türkologiyası tarixi. Bakı: Elm nəşriyyatı.
Zeynalov, Q. (2011). Bəkir Çobanzadə və türkoloji irs. Bakı: Şərq-Qərb.
Sultanov, H. (2010). Türkoloji görüşlər və Çobanzadə. Bakı: Nurlan.

Baytursun, Ə. (1926). Qurultay çıxışları. Türkologiya Arxivi.
Mahmudov, N. (2014). Türkoloji Qurultaylar və milli oyanış. Bakı: Elm və Təhsil.

**Leyla Kərimova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: cool.kerimova@bk.ru*
*ORCİD: 0009-0009-2914-786X*

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY İŞTİRAKÇILARINDAN XALİD SƏİD XOCAYEV VƏ ONUN TÜRKÇÜLÜK GÖRÜŞLƏRİ

**Xülasə**

Birinci Türkoloji Qurultayın iştirakçılarından biri də özbək əsilli türkoloq Xalid Səid Xocayevdir. O, qurultayın tərkibində yer almaqla yanaşı, türkologiya sahəsində bir sıra mütərəqqi addımlar atmışdır. Türk xalqlarının inteqrasiyası naminə əlifba dəyişlikliyinin tərəfdarı olan görkəmli alim bunun tərəfdarları və əleyhdarları arasında görüşlər keçirmişdir. Hələ 1924-cü ildə azərbaycanlı nümayəndə heyəti ilə birlikdə türk dünyasının müxtəlif ərazilərinə səyahət edən X.S.Xocayev vaxtaşırı ziyalılarla görüşlər keçirir, yeni əlifbaya keçidin müsbət tərəflərindən bəhs edirdi. X.S.Xocayev dilimizin ilk tədqiqatçılarından biri olmuşdur. Dilimizin qrammatik quruluşu haqqında dəyərli kitabların müəllifi olan X.S.Xocayev müqayisəli dilçilik kitablarının da müəllifidir. Türk, ərəb, fars dillərini və klassik ədəbiyyatı mükəmməl bilən alim elmi və pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Təxminən 15-dək müxtəlif elmi kitabların və dərsliklərin müəllifi olan türkoloq alim həm də böyük tərcüməçidir.

Xalid Səid Xocayevin sonrakı taleyi bir çox qurultay iştirakçıları kimi acınacaqlı oldu və görkəmli alim repressiya caynağından xilas ola bilmədi. Əks-inqilabi fəaliyyətdə ittiham edilərək güllələnməyə məhkum edilən alim sonralar bəraət almışdır. Cəmi 49 il yaşamasına baxmayaraq, X.S.Xocayev türkologiya sahəsində mühüm işlər görmüşdür və onun yazdıqları, tədqiqləri bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

***Açar sözlər:*** *Xalid Səid Xocayev, qurultay, dilçilik, əlifba, türkoloq*

# KHALED SAID KHOJAYEV ONE OF THE PARTICIPANTS OF THE FIRST TURKOLOGY CONGRESS AND HIS TURKISH VIEWS

**Abstract**

One of the participants of the First Turkological Congress was the turkologist of uzbek origin Khalid Said Khojayev. In addition to taking part in the congress, he took a number of progressive steps in the field of turkology. The prominent scientist, who was a supporter of the alphabet change for the sake of the integration of the turkic peoples, held meetings between its supporters and opponents. As early as 1924, Kh.S. Khojayev, who traveled to various regions of the turkic world with an Azerbaijani delegation, periodically held meetings with intellectuals and spoke about the positive aspects of the transition to a new alphabet. Kh.S.Khojayev was one of the first researchers of our language. Kh.S.Khojayev, who is the author of valuable books on the grammatical structure of our language, is also the author of comparative linguistics books. The scientist, who perfectly knows the turkish, arabic, persian languages and classical literature, was also engaged in scientific and pedagogical activities. The author of about 15 different scientific books and textbooks, is a turkologist and a great translator.

The subsequent fate of Khalid Said Khojayev, like that of many other congress participants, was tragic, and the prominent scientist could not escape the clutches of repression. Accused of counter-revolutionary activities and sentenced to be shot, the scientist was later acquitted. Despite living only 49 years, Kh.S. Khojayev did important work in the field of turkology, and his writings and researches retain their significance even today.
***Key words:*** *Khaled Said Khojayev, congress, linguistics, alphabet, turkologist*

**Giriş**

Birinci Türkoloji Qurultay XX əsr Azərbaycan ictimai-siyasi, mədəni, elmi, ədəbi həyatında baş verən ən mühüm hadisələrdən biridir. Bu qurultay türk xalqlarının görkəmli nümayəndələrinin bir araya gəldiyi, türkologiya sahəsində bir sıra mühüm qərarların qəbul edildiyi mühüm tədbirdir. Artıq XX əsrin əvvəllərində geniş vüsət alan milli özünüdərkin, milli kimliyin sübutu kimi keçirilən bu mühüm mədəni tədbir türk xalqlarının həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi yer alır. Bu qurultay təxminən 131 ziyalının bir araya gəldiyi, türkçülük naminə mühüm addımların atıldığı mötəbər bir tədbir olaraq tarixin yaddaşında qərarlaşmışdır. 1926-cı il fevralın 26-da açılış mərasimi keçirilən qurultay çərçivəsində 17 iclas keçirilmiş, təxminən 38 məruzə və çıxış söylənmişdi. Bu məruzə və çıxışlar sıradan deyil, türk xalqlarını narahat edən bir sıra məsələləri özündə ehtiva edirdi və türk xalqlarının tarixi, mədəniyyəti, etnik tərkibi, əlifbası və s. məsələlərə həsr olunmuşdu.

**Əsas mətn**

Birinci Türkoloji Qurultayın keçirilməsinin ilk növbədə əsas məqsədi latın əlifbasına keçid məsələsi olmuşdur. Əlifba islahatı məqsədilə keçirilməsi nəzərdə tutulan qurultayın əhatə dairəsi genişlənərək, türkologiyanın problemləri, orfoepiya, orfoqrafiya qaydaları, terminologiya, folklor, ədəbiyyat və s. məsələləri özündə əks etdirdi. Növbəti qurultayın 1927-ci ildə Özbəkistanın Səmərqənd şəhərində keçirilməsi planlansa da, bu plan həyata keçirilmədi. Bakıda baş tutan Birinci Türkoloji Qurultay həm də böyük türkoloq alimlər Vasili Radlov və İsmayıl bəy Qaspiralının xatirəsinə həsr olunmuşdu.

Qurultayın əsas məqsədlərindən biri türk xalqları arasında inteqrasiya məsələləri idi. Özlüyündə Sovet İttifaqı daxilində yaşayan türk xalqlarını bir araya gətirərək onların inkişafına töhfə verəcək məsələlərə dair qərarların qəbul edilməsini nəzərdə tutan Birinci Türkoloji Qurultay çərçivəsində, həqiqətən də, sonralar öz bəhrəsini verəcək bir sıra mühüm qərarlar qəbul olunmuşdur. Türk xalqlarının əlifba məsələsi, orfoqrafiya, terminologiya, tədris, metodika, ortaq ədəbi dil, dil nəzəriyyəsi, kompratvistika, fonetika, morfologiya, türk dillərinin tarixi problematikasına dair bir sıra mühüm qərarların qəbul olunduğu qurultayın nəticəsi olaraq, ilk növbədə türk dövlətləri ardıcıl olaraq latın qrafikalı yeni əlifbaya keçid etdi. Artıq 1927-ci ildən etibarən SSRİ tərkibində yaşayan türkdilli dövlətlər latın qrafikalı yeni əlifbaya keçid etdilər. Azərbaycanda bu proses 1929-cu ildə baş tutdu. Birinci Türkoloji Qurultayın nəticəsi olaraq, türk dövlətlərində 1929-1939-cu illərdə latın qrafikalı yeni əlifba tətbiq olundu. Lakin bu proses çox uzun çəkmədi, 30-cu illərdən başlayaraq Sovet İttifaqı rəhbərliyi kirill əlifbasından istifadəyə dair göstəriş verdi və əlifba dəyişdirilərək, bütün SSRİ miqyasında kirill əlifbasından istifadə olunmağa başlandı. Bu proses ötən əsrin 90-cı illərinədək davam etdi və SSRİ dağıldıqdan sonra türkdilli dövlətlər öz müstəqilliyini bərpa edərək yenidən latın qrafikalı əlifbanı tətbiq etdi. Ümummilli liderimiz Heydər Əliyev Birinci Türkoloji Qurultayı yüksək qiymətləndirmiş, bu barədə dəyərli fikirlər söyləmişdir: "Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədi ilə 1921-ci ildə Əlifba Komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikası əsasında olan

əlifba tərtib etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi. Qurultayın Bakıda keçirilməsini 1920-30-cu illər Azərbaycanın dilçilik sahəsindəki elmi potensialına verilə qiymət kimi səciyyələndirmək olar" (Babayev, 2016: 14).

Birinci Türkoloji Qurultayın iştirakçılarının hamısının taleyi sonralar heç də uğurlu olmadı. Onların əksəriyyəti əks-inqilabi fəaliyyətdə ittiham edilərək məhv edildi. Ötən əsrin 30-cu illərindən başlayan repressiya dalğası bu insanlardan da yan keçmədi. Türk dünyasının düşünən beyinləri millətçiliklə ittiham edilərək, pantürkist, panislamist damğası ilə öldürüldü, bir qismi isə Sibirin "buzlu cəhənnəm"inə sürgün edildi. Birinci Türkoloji Qurultayın bəzi iştirakçıları SSRİ-nin repressiyasından xilas ola bilsə də, 100-dən artıq alim, ziyalı bundan canını xilas edə bilmədi və nəticə etibarilə SSRİ rəhbərliyi türkçülük düşüncəsini, milli özünüdərki məhv etməyə çalışdı.

Birinci Türkoloji Qurultayın iştirakçılarından biri özbək əsilli Azərbaycan alimi Xalid Səid Xocayev idi. Xalid Səid Xocayev bu qurultayda Azərbaycanı təmsil etməklə yanaşı, qurultayın redaksiya komissiyasının tərkibində idi. Taleyini Azərbaycana bağlayan bu böyük türkoloq çağdaş Azərbaycan dilçiliyinin banilərindən biri hesab edilir. Türk dillərinin tədqiqində, xüsusilə Azərbaycan dilinin araşdırılmasında Xalid Səid Xocayev müstəsna xidmətlər göstərmişdir. Xalid Səid Xocayev müəllifi olduğu "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi" kitabında türk dillərinin qrammatikasını araşdırmış, bu barədə dəyərli fikirlər ərsəyə gətirmişdir. Ədib türk dillərini müqayisə edərkən, ortaq türk dilinin mümkünlüyünü vurğulamağı unutmurdu. Onun fikrincə, türk xalqları arasında ortaq dil quraraq inteqrasiya mümkündür, lakin bu prosesdə diqqətli olmaq lazımdır.

Xalid Səid Xocayevin Azərbaycan elmi qarşısındakı ən böyük xidmətlərindən biri böyük mütəfəkkir Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərini dilimizə tərcümə etməsidir. X.S.Xocayev bu əsəri təkcə tərcümə etməmiş, bu barədə bir sıra mühüm tədqiqatlar aparmışdır: Ömrünün iki ilini bu işə həsr edən X.S.Xocayevin tərcüməsi, təəssüf ki, işıq üzü görməmişdir. "Divanü lüğat-it-türk"ün Sovetlər dönəmində, xüsusilə də stalinizm dövründə tərcüməsinə icazə verilsə də, nəşrinə icazə verilməmişdir. Belə ki, 1935-37-ci illərdə SSRİ-də "Divan"ı ilk dəfə Azərbaycan dilinə tərcümə edən Xalid Səid Xocayev həbs edilərək güllələndi və tərcümənin nəşri dayandırıldı. Araşdırmalar göstərir ki, Xalid Səid "Divanü lüğat-it-türk"ün nəinki ilk tərcüməçisi, hətta ilk tədqiqatçılarından biri idi" (Qasımov, 2021: 234).

Bununla yanaşı, X.S.Xocayev elmi-pedaqoji fəaliyyət ilə də məşğul olmuşdur. İstanbul Universitetində təhsil aldıqdan sonra Qafqaz İslam Ordusu ilə birlikdə ölkəmizə gələn alim sonralar Özbəkistana geri qayıtmış, 1920-1922-ci illərdə Daşkənd şəhərində pedaqoji fəaliyyətini davam etdirmişdir. Daşkənddə fəaliyyət göstərdiyi müddətdə X.S.Xocayev türkçülük sahəsində bir sıra mütərəqqi addımlar atmış, ziyalılar arasında yeni əlifbaya keçidin labüd olması təbliğatını aparmışdır. X.S.Xocayev 1922-ci ildə Özbəkistandan qayıtdıqdan sonra Gəncə, Qusar və Bakı şəhərlərində çalışmışdır. Eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetində türk, ərəb və fars dillərini tədris edən Xalid Səid Xocayev klassik ədəbiyyatın dərin bilicisi idi. Daha sonralar X.S.Xocayev SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında işə başlayır, elmi fəaliyyətini davam etdirir.

Xalid Səid Xocayev böyük türkçü idi. Müəllifi olduğu "Dilimizə hörmət edilsin" adlı məqaləsində türk dili haqqında dəyərli fikirlər sərgiləyən alim türk dilini aşağılayan əcnəbi alimlərə cavab verərək, türk dilinin möhtəşəmliyindən söz açmışdır. Bu məqalədə alim milli özünüdərk mövqeyindən çıxış edərək, mənsub olduğu millətin dilini yüksək dəyərləndirmişdir. O, türk dilinin gözəlliyindən danışaraq, İslam mədəniyyətinin formalaşmasında türk dilinin

mövqeyindən bəhs edir. Bununla yanaşı, X.S.Xocayev məqaləsində türk dilinin rus dilinin basqısı altında olmasını xüsusi vurğulayırdı. O bildirirdi ki, dünya millətləri rəsmi sənədləşmələrini öz dillərində aparır, lakin bizlər yazı-pozu işlərimizi rus dilində aparırıq: "Əgər biz özümüzü müstəqil sayırıqsa, milli varlığımız olan dilimizə sahib çıxmalıyıq" (Xocayev, 1919: 3).

Xalid Səid Xocayevin elmi fəaliyyəti bununla bitmir. O, "Müxtəsər üslubiyyat", "Müfəssəl sintaksis", "Türk dilinin tarixi qrammatikası", "Cığatay ədəbiyyatı haqqında mühazirələr", "Türk ədəbiyyatı nəzəriyyəsi", "Türküstan tarixinin qısa icmalı", "Orxon kitabələrinin izahlı tədqiqi", "Türk məktəbi üçün rus dili", "Yeni əlifba yollarında əski xatirə və duyğularım", "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi" kimi fundamental və dəyərli elmi əsərlərin müəllifidir. Xalid Səid Xocayev ümumilikdə 15-ə yaxın elmi kitabın müəllifidir. Bu kitabların hər biri Azərbaycan və ümumilikdə türk dünyası üçün mühüm əhəmiyyətə malikdir. Burada türk dillərinin qrammatikası, sintaksisi, morfologiyası, tarixi, linqvistikası haqqında maraqlı məlumatlar verilir, Azərbaycan dilinin qrammatikası müfəssəl şəkildə tədqiq edilirdi.

X.S.Xocayevin türk dillərinin müqayisəli qrammatikası haqqında yazdığı dəyərli elmi kitablardan biri "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi" kitabıdır. Bu kitab 1926-cı ildə işıq üzü görmüş və 128 səhifədən ibarətdir. Qeyd edək ki, kitab türk dillərinin müqayisəli qrammatikası haqqında yazılmış ən qiymətli kitablardan biri hesab edilir. Burada türk dillərinin tarixi köklərini araşdıran alim bu qohum dillərdən ibarət ortaq dilin yaradılması haqqında danışarkən bu işin mümkünlüyündən və eyni zamandan çətinliyindən bəhs etməyi unutmurdu: "Binaye-əliye 70-80 milyon xalq tərəfindən oxunacaq olan bir ədəbi türk dilinin yaradılmasına qarşı duran kimsə bulunamaz. Bunu hər kəs ürəkdən istər, ancaq burada zehnimizə bir sual gəlir: Əcaba türk uruğları arasında böylə bir dil yaratmaq mümkünmüdür? Mümkün olduğu təqdirdə, bu dil təbii bir dilmi olacaq və yaxud yapma bir şeymi olur? Sualımızı bir az daha aydınlaşdıralım: Türk dillərinin müxtəlif şivələri arasında öylə bir dil düzəlinə bilirmiyiz ki, onu bütün türk uruğları anlasınlar və yaxud düzəltiləcək ədəbi dil bütün türk uruğlarına yabancı olaraq hər biri tərəfindən ayrıca öyrənməyə lüzumlu olacaq" (Xocayev, 1926: 3). Kitabda X.S.Xocayev osmanlı, özbək, qazax dillərini təsnif edərək, Azərbaycan dilinin osmanlıcaya çox bənzədiyini də vurğulayırdı. Kitabda türk dilləri təkcə tədqiq edilməmiş, qrammatikası müqayisə edilərək ortaq cəhətləri üzə çıxarılmışdır.

1929-cu ildə X.S.Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitabı işıq üzü gördü. Kitab memuar xarakteri daşıyır və alimin əlifba islahatı uğrunda apardığı mübarizələrdən, bu yolda etdiyi səyahətlərdən, qarşılaşdığı çətinliklərdən bəhs edir. Kitab ümumlikdə üç hissədən ibarətdir. Birinci hissə Bakı-Krım-Moskva, ikinci hissə Moskva-Türküstan, üçüncü hissə Türkoloji qurultay. Bakı-Türkmənistan-Özbəkistan adlanır: "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsərinin daha bir özəlliyi bundan ibarətdir ki, Xalid Səid bu əsərlə yalnız öz əməyini, fəaliyyətini deyil, tarix səhifəmizdə özünəməxsus rolu olan simaların – Səmədağa Ağamalıoğlunun, Mirzə Cəlilin, Vəli Xuluflunun, Dağıstanın, Türkmənistanın elm və siyasət adamlarının fəaliyyətini, bu məsələlər ətrafında etdikləri çıxışları, onların düşüncə və davranışlarını xüsusi boyalarla əks etdirmişdir" (Babayeva, 2020: 275-276). Qeyd etmək lazımdır ki, 1924-cü ildə türk xalqları arasında əlifba ilə bağlı təbliğat və təşviqat aparılması məqsədilə xüsusi nümayəndə heyəti yaradılmışdı. Bu nümayəndə heyəti arasında Səməd Ağamalıoğlu, Cəlil Məmmədquqluzadə, Vəli Xuluflu, Xalid Səid Xocayev yer alırdı. Onlar təxminən bir ay müddətində türk xalqlarının sıx yaşadığı şəhərlərə səyahət etmiş, yeni əlifbaya keçidlə bağlı təbliğat aparmış, əlifbanın tərəfdarları və əleyhdarları arasında görüşlər keçirərək, yeni əlifbaya keçidin müsbət tərəflərindən bəhs etmiş, bunun vacibliyini vurğulamışlar. Ümumilikdə

X.S.Xocayevin müəllifi olduğu "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitabı Birinci Türkoloji Qurultaya hazırlıq prosesi, alimlərin bu yoldakı mübarizəsi, keçdikləri yol barədə yazılmış ən dəyərli kitabdır.

Xalid Səid Xocayevin 1933-1934-cü illərdə çap etdirdiyi "Müxtəsər üslubiyyat" kitabı Azərbaycan dilinin üslubiyyatına həsr olunmuş ilk kitab hesab edilir. 91 səhifədən ibarət olan bu kitabda X.S.Xocayev dilimizin üslubi imkanlarından bəhs etmişdir. 1934-cü ildə alimin daha bir kitabı işıq üzü görür. "Türk məktəbi üçün rus dili" adlanan bu kitab adından göründüyü kimi, rus dilinin tədrisi haqqındadır. Alimin "Müfəssəl sintaksis" adlı kitabı türk dilçiliyi sahəsində yazılmış dəyərli kitablardan hesab edilir. Burada dilimizin sintaksisi elmi cəhətdən tədqiq olunaraq dərs kitabı halında hazırlanmışdı. X.S.Xocayevin "Türk dilinin tarixi qrammatikası" kitabı da olduqca mühüm əhəmiyyətə malikdir və kitabda qaynaq kimi böyük türkoloq Mahmud Kaşğarlının "Divani lüğət-it-türk" əsərindən istifadə olunmuşdur.

Xalid Səid Xocayev tərcüməçilik fəaliyyəti ilə də ədəbiyyatımıza xidmət etmişdir. Görkəmli türk və özbək ədiblərinin əsərlərini Azərbaycan dilinə müvəffəqiyyətlə tərcümə etmişdir. Onun tərcümə etdiyi əsərlərdən Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərini, Abdulla Qədirinin, Rəşad Nuri Güntəkinin əsərlərinin tərcümələrini göstərmək olar.

X.S.Xocayev Azərbaycanda da yeni əlifbaya keçidin fəallarından idi. Ziyalılarla keçirdiyi görüşlərdə yeni əlifbaya keçid haqqında məlumat verir, bunun mümkünlüyünü, əhəmiyyətini izah edirdi. O, yeni əlifba ilə yanaşı, ortaq türk dilinin yaradılmasının təşəbbüskarlarından biri idi. Sözsüz ki, bu yanaşma SSRİ rəhbərliyinin xoşuna gəlmirdi və irəlidə onu ağır ittihamlar və cəza gözləyirdi. 1937-ci ildə həbs olunan görkəmli alim əksinqilabi fəaliyyətdə, pantürkizmdə və Türkiyəyə casusluqda ittiham edilərək, güllələnməyə məhkum edilmişdir. Həbs olunan zaman qiymətli əşyaları, əlyazmaları müsadirə olunan alimin bir çox dəyərli yazılarının aqibəti bugünədək bəlli deyil. X.S.Xocayevin həyat yoldaşı Sara xanım ötən əsrin 50-ci illərində işə yenidən baxılması üçün müraciət etmiş, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 16 may 1957-ci il qərarı ilə 1937-ci il oktyabrın 12-də çıxarılan hökm ləğv olunmuşdur.

**Nəticə**

Xalid Səid Xocayev Azərbaycan elminə, ümumilikdə türk dünyasına elə dəyərli töhfələr bəxş etmişdir ki, onun tədqiqləri, kitabları, məqalələri hər zaman öz dəyərini qoruyub saxlamaqdadır. Maddi, mənəvi və fiziki təzyiqlərə məruz qalmasına baxmayaraq, o, heç bir zaman öz əqidəsindən dönmədi, türkçülük yolunda yorulmadan mübarizə apardı. Həbs olunduğu dövrdə adı SSRİ Elmlər Akademiyasının elmi əməkdaşları sırasından çıxarılır, evi, əmlakı, əlyazmaları, dəyərli əşyaları müsadirə edilir, ailəsi evdən çıxarılır, bir sözlə, ən ağır təzyiqlərə məruz qalır. Bunula belə, böyük türkoloq X.S.Xocayevin istintaq qovluğundakı sənədlərə əsasən, demək olar ki, ölüm anında belə o, əqidəsindən dönməmiş, öz mənliyini, qürurunu qoruyub saxlamışdır. Türk dünyasının bir çox ziyalıları kimi ölümə məhkum edilən Xalid Səid Xocayev Azərbaycan dilçilik elminin əsasını qoyanlar sırasında qərarlaşmaqla yanaşı, türk dünyasına əvəzsiz töhfələr bəxş edən alim, ziyalı, tərcüməçi kimi tarixin yaddaşında əbədi yaşayacaqdır.

**Ədəbiyyat siyahısı**

Babayev, A. (2016). *Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya*. Bakı: Elm nəşriyyatı

Babayeva, Ş. *Xalid Səid Xocayev və onun "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri.* Müqayisəli ədəbiyyatşünaslıq, 2020, №1

Xocayev, X. S. (1919). "Dilimizə hörmət edilsin". "Azərbaycan" qəzeti, №101

Xocayev, X. S. (1926). *"Osmanlı, özbək, kazak dillərinin müqayisəli sərfi"*. Bakı

Xocayev, X. S.(1929). *“Yeni əlifba yollarında əski xatirə və duyğularım”*. Bakı
Qasımov, C. (2021). *Xalid Səid Xocayev*. Bakı: Şirvannəşr Nəşriyyatı
Turan, A. (2009). *Xalid Səid Xocayev*. *Şəhid türkşünas*. Bakı, Elm və Təhsil Nəşriyyatı

**Səbinə Cəfərova**
*Bakı Slavyan Universiteti*
*Pedaqogika üzrə fəlsəfə doktoru*
*E-mail: sabina_16_86@mail.ru*
*ORCİD: 0000-0001-5095-592X*

# I TÜRK QURULTAYININ AZƏRBAYCAN XALQININ TƏHSİL TARİXİNDƏ ROLU

**Xülasə**

I Türk Qurultayı türk dünyasının inkişaf tarixində mühüm dönüş yaradan hadisələrdən biri kimi qiymətləndirilir. Bu qurultay yalnız elmi müzakirələrin aparıldığı bir toplantı deyil, eyni zamanda türk xalqlarının ortaq kimliyinin, mədəni dəyərlərinin və mənəvi bağlılığının daha aydın şəkildə ifadə olunduğu genişmiqyaslı bir platforma olmuşdur.Qurultay çərçivəsində dil, əlifba, tarix və mədəniyyət məsələləri sistemli şəkildə müzakirə edilərək türk xalqlarının gələcək inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Bu baxımdan qurultay həm elmi, həm də ictimai-siyasi əhəmiyyət daşıyaraq, türk dünyasında inteqrasiya və əməkdaşlıq ideyalarının güclənməsinə mühüm təkan vermişdir.

***Açar sözlər:*** *xalq, təhsil, tarix, Azərbaycan, türk, dil*

# THE ROLE OF THE FIRST TURKIC CONGRESS IN THE EDUCATIONAL HISTORY OF THE AZERBAIJANI PEOPLE

**Abstract**

The First Turkish Congress is regarded as one of the pivotal events in the development history of the Turkic world. This congress was not merely a forum for scientific discussions; it also served as a broad platform where the common identity, cultural values, and spiritual unity of Turkic peoples were more clearly expressed. Within the framework of the congress, issues related to language, alphabet, history, and culture were systematically discussed, and the future development directions of Turkic peoples were determined. In this regard, the congress held both scientific and socio-political significance, providing a crucial impetus for strengthening integration and cooperation among Turkic communities.

***Key words****: people, education, history, Azerbaijan, Turkish, language*

Çar Rusiyasının müsəlman xalqlarına qarşı apardığı siyasət, xüsusilə təhsil sahəsində daha sərt və açıq şəkildə özünü göstərirdi. Əsrlər boyu formalaşmış, zəngin ənənələrə və özünəməxsus tədris üsullarına malik olan mədrəsə sistemi bu siyasətin əsas hədəflərindən birinə çevrilmişdi. Min ildən artıq tarixə malik olan, müəllim və şagirdlərə müəyyən azadlıq verən bu təhsil ocaqlarının fəaliyyətinə müxtəlif yollarla maneələr yaradılır, yeni mədrəsələrin açılması süni şəkildə məhdudlaşdırılırdı.

Bununla yanaşı, rəsmi dairələr və ideoloji mərkəzlər tərəfindən mədrəsələr köhnəlmiş, geridə qalmış və faydasız təhsil müəssisələri kimi təqdim olunur, onların nüfuzdan salınması üçün davamlı təbliğat aparılırdı. Bu proses yalnız inzibati tədbirlərlə deyil, həm də informasiya və ideoloji təsir vasitələri ilə həyata keçirilirdi.

Təəssüf ki, Avropanın sürətli inkişafı və texnoloji tərəqqisi qarşısında heyranlıq hissi keçirən bəzi yerli ziyalılar da bu təbliğatın təsiri altına düşürdülər. Onlar bəzən vəziyyətin

mahiyyətini tam dərk etmədən, ənənəvi təhsil sistemini tənqid edir və beləliklə, istər-istəməz imperiya siyasətinin həyata keçirilməsində dolayı rol oynayırdılar. Bu isə milli təhsil ənənələrinin zəifləməsinə və cəmiyyət daxilində fikir ayrılıqlarının yaranmasına gətirib çıxarırdı.

Çarizmin əsas siyasətlərindən biri Azərbaycan xalqını ruslaşdırmaq, milli dili sıxışdıraraq onun ictimai və mədəni həyatda rolunu azaltmaq və rus dilini aparıcı ünsiyyət vasitəsinə çevirmək idi. Bu məqsədlə təhsil sistemi, idarəçilik və rəsmi yazışmalar əsasən rus dili üzərində qurulur, yerli əhalinin ana dilində inkişaf imkanları məhdudlaşdırılırdı. Milli dilin sıxışdırılması yalnız dil məsələsi deyil, həm də xalqın kimliyinə və mədəni yaddaşına yönəlmiş məqsədyönlü siyasətin tərkib hissəsi idi.

Məhz bu səbəbdən XIX əsrin sonu – XX əsrin əvvəllərində imperiya tərəfindən genişmiqyaslı köçürmə siyasəti həyata keçirilirdi. Rus əhalisinin Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürülməsi təşviq olunur, onlara müxtəlif imtiyazlar verilirdi. Bu proses bölgənin etnik tərkibini dəyişdirməyə, yerli əhalini sosial-iqtisadi və mədəni baxımdan sıxışdırmağa xidmət edirdi (Rüstəmov, 1992: 140).

Yeni köçürülən əhali ilə yanaşı rusdilli məktəblərin açılması, inzibati strukturlarda rus dilinin üstün mövqeyə çıxarılması və yerli kadrların bu sistemə uyğunlaşdırılması siyasəti daha da gücləndirilirdi. Göründüyü kimi ana dilində təhsilin imkanları məhdudlaşır, milli təhsil ənənələri zəiflədilir və cəmiyyətin rus dilinə və mədəniyyətinə inteqrasiyası sürətləndirilirdi.

Bu şəraitdə Azərbaycanın ziyalı təbəqəsini ən çox narahat edən məsələlərdən biri ana dilinin taleyi idi. Çarizm siyasətinin təsiri altında təhsil müəssisələrində rus dilinin üstün mövqeyə çıxarılması, ana dilində tədrisin məhdudlaşdırılması milli düşüncəli ziyalıları ciddi şəkildə düşündürürdü. Onlar anlayırdılar ki, dilin arxa planda olması xalqın milli kimliyinə və mədəni inkişafına birbaşa təhlükə yaradacaq.

Hələ 1906-cı ildə keçirilən Azərbaycan Müəllimlərinin I Qurultayı bu baxımdan mühüm hadisə olmuşdur. Qurultayda ana dili məsələsi geniş şəkildə müzakirə edilmiş, onun məktəblərdə icbari fənn kimi tədris olunmasının vacibliyi xüsusi vurğulanmışdır. Qurultayı iştirakçılar qeyd edirdilər ki, uşaqların ilkin təhsili məhz ana dilində aparılmalı, bu dil onların təfəkküründün və dünyagörüşünün formalaşmasında əsas rol oynamalıdır.

Qurultayda çıxış edən nümayəndələr rus məktəb inspektoru Litivskinin məktəblərdə Azərbaycan dilində danışığa qoyduğu qadağanı kəskin şəkildə tənqid etmişdilər. Onlar bu cür yanaşmanın həm pedaqoji baxımdan yanlış, həm də milli hüquqların pozulması olduğunu bildirirdilər (Süleymanov, 1989: 178).

Eyni zamanda, qurultay iştirakçıları Qafqaz canişinliyinə müraciət edərək ana dilinin məktəblərdə sərbəst şəkildə tədris olunmasını, onun təhsil prosesində layiqli yer tutmasını tələb etmişdilər. Bu təşəbbüs Azərbaycan ziyalılarının milli təhsil uğrunda apardıqları mübarizənin mühüm mərhələlərindən biri kimi tarixə düşmüşdür.

Bu hadisələrdən sonra I Türk Qurultayı çağırılması və türk xalqlarının dil, təhsil və mədəniyyət məsələlərinin müzakirəsi təhsil sahəsində ana dilininin inkişafına böyük təsir göstərmiş mühüm tarixi hadisədir. Bu qurultay, xüsusilə ana dili probleminin həlli, əlifba islahatı və milli təhsilin inkişafı istiqamətində yeni mərhələnin başlanğıcını qoydu. Birinci Türkoloji Qurultaydan çıxan digər ibrətamiz nəticə ondan ibarətdir ki, bu qurultay türk xalqları arasında elmi-mədəni inteqrasiyanın zəruriliyini meydana qoyub (Həbibbəyli, 2016: 4)

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 2001-ci il iyun ayının 18-də imzaladığı "*Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında*" Fərmanda Birinci Türkoloji Qurultayın fəaliyyətini, eləcə də qurultayın türk xalqlarının tarixində və taleyindəki rolunu yüksək

qiymətləndirərək göstərirdi: "*Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədilə 1921-ci ildə əlifba komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tətbiq etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi*" (Sadıqlı, 2010: 54).

Həqiqətən dünya elmi üçün, xüsusilə türk dünyası baxımından mühüm əhəmiyyət kəsb edən Birinci Türkoloji Qurultayı həm tarixi kontekstdə, həm də müasirlik prizmasından dəyərləndirilən böyük elmi hadisədir. 1926-cı il fevralın 26-dan martın 5-dək Azərbaycanda keçirilmiş bu qurultay türk xalqları arasında elmi və mədəni inteqrasiyanın gücləndirilməsi, ortaq milli-mənəvi dəyərlərin sistemli şəkildə inkişaf etdirilməsi və qarşılıqlı əməkdaşlıq perspektivlərinin genişləndirilməsi baxımından mühüm ictimai-siyasi platforma rolunu oynamışdır.

Birinci Bakı Türkoloji Qurultayı 1926-cı il fevralın 26-dan martın 6-dək Bakı şəhərində keçirilərək, ilk növbədə türk dünyasının inkişaf tarixində mühüm dönüş yaradan böyük mədəni hadisə kimi dəyərləndirilir. Bu qurultay yalnız elmi toplantı deyil, eyni zamanda türk xalqlarının ortaq kimliyinin, mənəvi bağlılığının və mədəni birliyinin yeni tarixi mərhələdə qarşısında duran vəzifələri sistemli şəkildə müəyyənləşdirən genişmiqyaslı intellektual platforma olmuşdur.

Türk xalqların tarixində və taleyində ən böyük elmi, ədəbi-mədəni hadisələrdən biri olan Birinci Türkoloji Qurultay XIX əsrdən başlayaraq ziyalıların həyata keçirmək istədikləri maarifçilik hərəkatının zirvə məqamıdır. Türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin əsasını qoyan Türkoloji Qurultay ümumtürk maarifçi ziyalılarının arzu və istəklərinin ifadəsi idi.

Birinci Bakı Türkoloji Qurultay türk dünyasında elmi-mədəni inteqrasiyanın istiqamətlərini müəyyən edən fundamental forum kimi çıxış etmişdir. Qurultayda XX əsrin əvvəllərində türkoloji mühitin ən aktual problemləri geniş şəkildə müzakirə olunmuşdur. Bu problemlər sırasında dilçilik, latın qrafikalı əlifbaya keçid, orfoqrafiya normalarının formalaşdırılması, tarix və ədəbiyyatın elmi əsaslarla tədqiqi, folklorun toplanması və sistemləşdirilməsi, incəsənət və etnoqrafiyanın öyrənilməsi, terminologiyanın vahidləşdirilməsi, həmçinin tədris metodikasının təkmilləşdirilməsi kimi sahələr xüsusi yer tutmuşdur. Qurultay bu istiqamətlərdə mövcud vəziyyəti təhlil etməklə yanaşı, gələcək inkişaf üçün konkret elmi-nəzəri və praktik tövsiyələr irəli sürmüşdür.

Bununla yanaşı, qurultay türk xalqları arasında mədəni inteqrasiyanın dərinləşdirilməsi və maarifçilik ideyalarının geniş yayılması baxımından mühüm rol oynamışdır . O, ortaq elmi məkanın formalaşdırılması, intellektual əməkdaşlığın genişləndirilməsi və milli-mənəvi dəyərlərin qorunaraq inkişaf etdirilməsi istiqamətində həm nəzəri əsasları müəyyən etmiş, həm də bu ideyaların praktik həyata keçirilməsi üçün real imkanları ortaya qoymuşdur.

Birinci Bakı Türkoloji Qurultayının nə dərəcədə möhtəşəm və nüfuzlu bir elmi forum kimi tarixə düşdüyünü aydın təsəvvür etmək üçün onun miqyasını və məzmununu əks etdirən faktlar xüsusi əhəmiyyət kəsb edir. Belə ki, qurultayda 134 nümayəndə iştirak etmiş, ümumilikdə 17 iclas təşkil olunmuşdur. I Türk Qurultayı çərçivəsində keçirilən iclaslar olduqca zəngin elmi müzakirələrlə yadda qalmışdır. Qurultay zamanı türk xalqlarının dili, tarixi inkişaf yolu, etnogenezi, etnoqrafiyası, ədəbiyyatı və ümumilikdə mədəni irsi ilə bağlı geniş spektri əhatə edən 38 elmi məruzə dinlənilmiş və ətraflı müzakirə olunmuşdur. Bu məruzələr yalnız mövcud vəziyyəti təhlil etməklə kifayətlənmir, həm də gələcək elmi-təhsil istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edirdi.

Qurultaya rəhbərlik Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu tərəfindən həyata keçirilirdi. Onun sədrliyi ilə keçirilən iclaslar yüksək təşkilatçılıq və elmi obyektivlik prinsipləri əsasında aparılırdı. Rəyasət Heyəti isə həm Azərbaycan, həm də müxtəlif ölkələrdən dəvət olunmuş görkəmli alim və mütəxəssislərdən formalaşdırılmışdı ki, bu da qurultayın beynəlxalq nüfuzunu daha da artırırdı.

Heyətin tərkibində Azərbaycandan Ruhulla Axundov və Həbib Cəbiyev kimi tanınmış şəxslər təmsil olunurdu. Bununla yanaşı, dünya şöhrətli şərqşünas alimlərdən Vasili Bartold və Sergey Oldenburq, Avropanı təmsil edən professor Teodor Menzel, eləcə də İosif Naqovitsin qurultayın işində fəal iştirak edirdilər.

Türk dünyasının müxtəlif bölgələrindən qatılan nümayəndələr arasında Bəkir Çobanzadə, Aleksandr Samoyloviç, Əhməd Baytursun, İsidor Baraxov, İlya Borozdin, Mixail Pavloviç kimi elm və ictimai fikir xadimləri də yer almışdılar.

Bundan əlavə, Qalimcan İbrahimov, Kərim İdelqujin, Fuad Köprülüzadə, Cəlaləddin Qorxmazov, Rəhim İnoqamov, Qasım Tınıstanov, Bekki Berdiyev, Hüseyn Ağçokraklı, Həbibulla Odabaş və Umar Əliyev kimi müxtəlif regionları təmsil edən nüfuzlu şəxslər də qurultayın işinə töhfə vermişdilər.

Belə geniş və çoxmillətli tərkib I Türk Qurultayının yalnız regional deyil, beynəlxalq elmi əhəmiyyətə malik olduğunu göstərir. Qurultay türk xalqları arasında elmi əməkdaşlığın gücləndirilməsi, ortaq problemlərin müzakirəsi və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm bir mərhələ kimi tarixə düşmüşdür.

Bu göstəricilər qurultayın yalnız say baxımından deyil, həm də elmi məzmun və əhatə dairəsi etibarilə son dərəcə zəngin və çoxşaxəli bir tədbir olduğunu nümayiş etdirir.

Birinci Bakı Türkoloji Qurultayı çərçivəsində türk dillərinin inkişafı və sistemləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyan bir sıra fundamental problemlər geniş müzakirə olunmuş və bu istiqamətlər üzrə mühüm elmi qərarlar qəbul edilmişdir. Qurultayda xüsusilə aşağıdakı yeddi əsas məsələ diqqət mərkəzində olmuşdur: əlifba məsələsi, imla və orfoqrafiya problemləri, terminologiyanın formalaşdırılması, tədris və metodika məsələləri, qohum və qonşu dillərlə qarşılıqlı əlaqə və interferensiya problemləri, türk dillərinin ədəbi dil normaları, o cümlədən ortaq ədəbi dilin yaradılması məsələsi, həmçinin ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi inkişaf problemləri.

Bu məsələlərin kompleks şəkildə müzakirəsi türkoloji elminin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və vahid elmi yanaşmanın formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın görkəmli mütəfəkkirləri tarix boyu ana dili məsələlərinə xüsusi həssaslıqla yanaşmış və onun qorunması ilə inkişaf etdirilməsini milli varlığın əsas şərtlərindən biri kimi dəyərləndirmişlər. Birinci Bakı Türkoloji Qurultayı isə bu istiqamətdə mövcud olan ideyaları daha da möhkəmləndirmiş, ana dilinin elmi əsaslarla öyrənilməsi, normalaşdırılması və geniş tətbiqi üçün sistemli yanaşmanın formalaşmasına mühüm təkan vermişdir.

Qurultayda qəbul edilən qərarlar ana dilinin ictimai həyatın bütün sahələrində mövqeyinin gücləndirilməsinə, təhsil sistemində daha geniş istifadə olunmasına və elmi terminologiyanın milli əsaslar üzərində inkişaf etdirilməsinə şərait yaratmışdır. Bu baxımdan qurultay ana dili siyasətinin gələcək istiqamətlərinin müəyyənləşdirilməsində mühüm mərhələ kimi çıxış etmişdir.

**Ədəbiyyat siyahısı**

Rüstəmov, F.A. (1992). XX əsrin əvvəllərində Azərbaycanda milli istiqlal ideologiyasının formalaşdırlması. Etnopsixologiya və etnopedaqogika: mənbələr və müasir problemlər // – Bakı: ADPU.
Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). Bakı: Elm və təhsil.
Tağıyev, Ə.C. (1993). Azərbaycan məktəb tarixi (XIX əsrin sonu XX əsrin əvəllərində). Bakı: Maarif.
Sadıqlı A.Ə. (2011). Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. – Bakı: Mütərcim.
Süleymanov, M.F. (1989). Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: Azərnəşr.
Süleymanova, S.Y. (2003). XIX sonu XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. Bakı.

**Təhminə Əliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı)*
*Tarix üzrə fəlsəfə doktoru*
*E-mail: tehmine.eliyeva@quba.adpu.edu.az*
*ORCID: 0009-0001-2520-4371*

# I TÜRKOLOJİ QURULTAYDA ALINAN QƏRARLARIN TÜRK DÜNYASINA TƏSİRİ

**Xülasə**

XX əsrin əvvəlləri türk xalqları üçün "milli özünüdərk" dövrü kimi səciyyələndirilir. 1926-cı il Bakıda I Türkoloji Qurultay keçirilmişdir. 1926-cı ildə Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultay türk dillərinin vahidləşdirilməsi, əlifba islahatı və ortaq elmi terminologiyanın formalaşdırılması baxımından mühüm mərhələ olmuşdur. Qurultayda Vasili Bartold, Aleksandr Samoyloviç və Fuad Köprülü kimi alimlərin iştirakı türkoloji tədqiqatlara beynəlxalq xarakter qazandırmışdır. Latın qrafikalı əlifbaya keçidlə bağlı qərarlar həm SSRİ daxilində, həm də Türkiyə üçün ciddi təsir yaratmış, xüsusilə Mustafa Kamal Atatürk tərəfindən aparılan dil islahatlarına ideya dəstəyi vermişdir. Sonrakı repressiyalar, o cümlədən Bəkir Çobanzadə kimi ziyalıların təqibi, elmi inkişafı ləngitmişdir. Bununla belə, qurultayın irsi bu gün də ortaq türk əlifbası təşəbbüslərində yaşayaraq mədəni inteqrasiyanın elmi əsasını təşkil edir. Bu qurultay türk xalqlarının tarixində sadəcə elmi konfrans deyil, Avrasiya məkanında baş verən geosiyasi və mədəni dəyişikliklərin elmi-nəzəri təməlini qoyan bir hadisədir. Bu məqalədə qurultayın tarixi irsi, qəbul etdiyi qərarların XX əsrin mədəniyyət və elm tarixinə təsiri akademik müstəvidə təhlil edilir.
***Açar sözlər:*** *Birinci Türkoloji Qurultay; Bakı; türk dilləri; əlifba islahatı; latınlaşdırma; terminologiya; milli özünüdərk; türkologiya; elmi irs; mədəni inteqrasiya; repressiyalar; Mustafa Kamal Atatürk*

# IMPACT OF THE DECISIONS TAKEN AT THE 1ST TURCOLOGY CONGRESS ON THE TURKISH WORLD

**Abstract**

The early twentieth century is characterized as a period of “national self-awareness” for Turkic peoples. In 1926, the First Turkological Congress was held in Baku. The congress constituted an important milestone in the unification of Turkic languages, alphabet reform, and the formation of a common scientific terminology. The participation of scholars such as Vasily Bartold, Aleksandr Samoylovich, and Fuad Köprülü gave Turkological studies an international dimension. Decisions concerning the transition to a Latin-based alphabet had a significant impact both within the USSR and in Turkey, particularly supporting the language reforms led by Mustafa Kemal Atatürk. Subsequent repressions, including the persecution of intellectuals such as Bekir Chobanzade, hindered scholarly progress. Nevertheless, the legacy of the congress continues to live on in contemporary initiatives for a common Turkic alphabet, forming a scientific foundation for cultural integration. This congress was not merely an academic meeting but an event that established the theoretical basis for geopolitical and cultural transformations across Eurasia. This article analyzes its historical legacy and the impact of its resolutions on twentieth-century cultural and scientific history from an academic perspective.

***Key words:*** *First Turkological Congress; Baku; Turkic languages; alphabet reform; Latinization; terminology; national self-awareness; Turkology; scientific legacy; cultural integration; repressions; Mustafa Kemal Atatürk*

**Giriş**

XX əsrin əvvəlləri türk xalqları üçün milli özünüdərk və modernləşmə dövrü kimi səciyyələnir. Bu dövrdə siyasi, sosial və mədəni dəyişikliklər türk dünyasında geniş miqyasda intellektual fəallığı stimullaşdırmış, dil və mədəniyyət sahəsində unifikasiya və islahat çağırışlarını gündəmə gətirmişdir. Rusiya imperiyasının süqutundan sonra formalaşan yeni siyasi və inzibati mühit, türk xalqlarının tarix, mədəniyyət və dil sahəsində özünü ifadə etmə imkanlarını artırmaqla yanaşı, elmi-tədqiqat proseslərini də intensivləşdirmişdir. Bu şəraitdə, türkologiya elminin sistemləşdirilməsi və türk dillərinin vahidləşdirilməsi məsələləri aktual mövzuya çevrilmişdir.

1926-cı ildə Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultay bu ehtiyacın ən önəmli elmi-təşkilati ifadəsi olmuşdur. Qurultay türk dillərinin ortaq elmi terminologiyasının formalaşdırılması, əlifba islahatları və tarixi-etnoqrafik araşdırmalar baxımından mühüm mərhələ təşkil etmiş, türk xalqlarının mədəni və intellektual inteqrasiyasına elmi əsas yaratmışdır. Qurultayın təşkilatçılıq səviyyəsi və beynəlxalq əhəmiyyəti onu yalnız SSRİ məkanında deyil, eyni zamanda Türkiyə və digər türk dünyası ölkələrində də təsirli etmişdir. Alimlər Vasili Bartold, Aleksandr Samoyloviç, Fuad Köprülü və digər görkəmli türkologların iştirakı bu tədbiri regional deyil, qlobal elmi kontekstdə mühüm hadisəyə çevirmişdir.

Birinci Türkoloji Qurultayın qərarları arasında ən fundamental məsələlərdən biri ərəb qrafikalı əlifbadan latın qrafikasına keçid olmuşdur. Bu qərar təkcə dilçilik baxımından deyil, həm də siyasi və mədəni kontekstdə böyük əhəmiyyət kəsb etmişdir. Latın qrafikasına keçid, savadsızlığın aradan qaldırılması və elmi-texniki tərəqqiyə çıxış üçün bir "mədəni inqilab" kimi dəyərləndirilmiş, Türkiyə Cümhuriyyətində Mustafa Kamal Atatürk tərəfindən aparılan dil islahatlarının ideya əsasını gücləndirmişdir. Eyni zamanda, qurultay türk xalqları arasında "dildə, fikirdə və işdə birlik" ideyasını elmi platformaya çıxarmış, milli kimliyin və mədəniyyətin elmi əsaslarla bərpasını təşviq etmişdir.

Lakin qurultayın uğurları sonrakı repressiyalarla müşayiət olunmuşdur. Bəkir Çobanzadə, Ruhulla Axundov və digər iştirakçıların təqibi, SSRİ türk respublikalarında türkologiyanın inkişafını onilliklərlə ləngitmişdir. Buna baxmayaraq, qurultayın irsi yalnız akademik və elmi kontekstdə yaşamamış, həm də müasir dövrdə türk dünyasının ortaq əlifba təşəbbüslərində, elmi və mədəni inteqrasiya proseslərində öz əksini tapmışdır. 2024-cü ildə qəbul edilən 34 hərfdən ibarət Ortaq Türk Əlifbası, məhz Birinci Türkoloji Qurultayın yarımçıq qalmış ideyalarının davamı kimi qiymətləndirilə bilər.

Bu məqalənin məqsədi Birinci Türkoloji Qurultayın tarixi irsini və qəbul etdiyi qərarların XX əsr boyunca türk dünyasının mədəniyyət və elmi inkişafına təsirini akademik müstəvidə təhlil etməkdir. Tədqiqatın elmi yeniliyi isə qurultayın yalnız dil və əlifba sahəsindəki nəticələrini deyil, eyni zamanda türk xalqları arasında geosiyasi və mədəni inteqrasiya üçün nəzəri əsas yaratmasını göstərməsindədir. Məqalədə tarixi-müqayisəli metod, mənbəşünaslıq və analitik təhlil yanaşmaları tətbiq edilmiş, qurultayın stenoqram materialları, arxiv sənədləri və müasir türkologiya ədəbiyyatı əsasında nəticələr çıxarılmışdır.

Beləliklə, Birinci Türkoloji Qurultay təkcə elmi tədbir deyil, türk dünyasında mədəni inteqrasiya, dil və əlifba birliyi, eləcə də intellektual əməkdaşlıq üçün strateji əhəmiyyət kəsb edən hadisə olaraq XX əsrin mühüm dönüş nöqtələrindən biri olmuşdur.

**Əsas hissə**

Rusiya imperiyasının süqutundan sonra formalaşan yeni siyasi sistem, türk dillərinin vahidləşməsi və modernləşdirilməsi məsələsini gündəmə gətirdi. 26 fevral - 6 mart 1926-cı il tarixlərində Bakıda keçirilən Birinci Türkoloji Qurultay (1926-CI İL I Bakı, 2007: 5), bu ehtiyacın elmi-təşkilati təzahürü idi. Bakının mərkəz seçilməsi, şəhərin həmin dövrdə türk-islam dünyasının ən böyük intellektual və iqtisadi mərkəzlərindən biri olması ilə birbaşa bağlı idi.

Qurultay öz miqyasına görə dünya şöhrətli alimləri bir araya gətirmişdi. İştirakçılar arasında yalnız SSRİ-də yaşayan türk xalqlarının nümayəndələri deyil, həmçinin dünya türkologiyasının korifeyləri — V.Bartold, S.Oldenburq, İ.Krımski, A.N.Samoyloviç, Fuad Köprülü, İ.Meszaroş və başqaları yer alırdı. 131 nümayəndənin iştirakı ilə keçirilən bu tədbir, türkologiyanın bir elm sahəsi kimi strukturlaşmasında həlledici rol oynadı. Qurultayda müzakirə olunan məsələlər XX əsrin sonrakı onilliklərində türk xalqlarının inkişaf vektorunu müəyyən etdi:

1. Əlifba İslahatı və Latınlaşdırma: Qurultayın ən fundamental qərarı ərəb qrafikalı əlifbadan latın əsaslı yeni türk əlifbasına keçidlə bağlı idi. Bu, savadsızlığın aradan qaldırılması və elmi-texniki tərəqqiyə çıxış üçün "mədəni inqilab" aktı kimi dəyərləndirilirdi.
2. Terminologiya və Orfoqrafiya: Türk dillərinin ortaq terminoloji bazasının yaradılması, elmi dilin standartlaşdırılması və dialektlər arasındakı fərqlərin elmi yolla sistemləşdirilməsi əsas prioritetlər idi.
3. Tarixi və Etnoqrafik Araşdırmalar: Türk xalqlarının mənşəyi, ortaq folklor elementləri və qədim yazılı abidələrin (məsələn, Orxon-Yenisey abidələri) tədqiqi milli kimliyin elmi əsaslarla bərpasına xidmət edirdi.

Qurultay türk xalqları arasında "dildə, fikirdə, işdə birlik" idealının elmi platformasını yaratdı. Bu, sonradan Türkiyədə həyata keçirilən dil və əlifba islahatlarına (1928) da ciddi təsir göstərdi. (Nağısoylu, 2016, 24) Bakı qurultayından sonra bir çox türk respublikalarında milli Elmlər Akademiyalarının və türkologiya kafedralarının əsası qoyuldu. Dilçilikdə strukturizm və müqayisəli-tarixi metodun türk dillərinə tətbiqi məhz bu dövrdən etibarən sistemli xarakter aldı. 1926-cı il Bakı qurultayı yalnız Sovet ittifaqı daxilindəki türk xalqları üçün deyil, həm də yeni qurulmuş Türkiyə Cümhuriyyəti üçün mühüm bir elmi-siyasi oriyentir rolunu oynamışdır. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən modernləşmə prosesində "dil inqilabı" və "əlifba dəyişikliyi" Bakıda qəbul edilən qərarlarla sıx metodoloji və ideoloji bağlılıq təşkil edirdi.

Qurultayın elmi uğurları sovet totalitarizmi tərəfindən təhdid kimi qəbul edildi. 1930-cu illərin sonunda qurultayın demək olar ki, bütün rəhbər heyəti və fəal iştirakçıları (məsələn, Bəkir Çobanzadə, Ruhulla Axundov, Vəli Xuluflu) "pantürkist" və "casus" damğası ilə repressiyaya məruz qaldılar. Bu, XX əsr türkologiya elminin inkişafını onilliklərlə ləngidən bir faciə oldu.

Türkiyəni qurultayda təmsil edən görkəmli alim Fuad Köprülü və digər nümayəndələr Bakıdakı müzakirələri yaxından izləmiş, latın əsaslı yeni əlifbaya keçidin zəruriliyini elmi arqumentlərlə Ankaraya çatdırmışdılar. Bakıda latın qrafikasına keçidlə bağlı əldə olunan konsensus, Türkiyədəki mühafizəkar dairələrin "ərəb əlifbasından imtina etmək olmaz" tezisini zəiflətmiş və islahatın legitimliyini artırmışdır.

1926-cı ildə Bakıda qəbul edilən "Yeni Türk Əlifbası" (Yanyalif) prinsipləri, 1928-ci ildə Türkiyədə qəbul edilən latın qrafikalı əlifba üçün bir növ "pilot layihə" funksiyasını yerinə yetirdi. Azərbaycanın həmin dövrdə artıq latın qrafikasına qismən keçmiş olması və qurultayda bu təcrübənin uğurlu nəticələrinin təqdim edilməsi Atatürkün 1 noyabr 1928-ci il tarixli "Hərf İnqilabı" (Harf Devrimi) qərarını sürətləndirən əsas xarici amillərdən biri idi. Beləki, Türkiyə Cümhuriyyətinin 1928-ci ildə keçirilən üçüncü çağırış millət vəkili seçkiləri əlifba islahatı dövrünə

təsadüf etdiyindən və həmin ilin əvvəlindən etibarən qəzetlərin yeni əlifba ilə nəşrinə başlanıldığından, parlamentə daxil olacaq millət vəkillərinin şəxsiyyətləri də məhz bu baxımdan xüsusi diqqətlə qiymətləndirilmişdir.(Dönmez, 2009: 356)

Bakı qurultayında vurğulanan "dillərin təmizlənməsi və ortaq elmi terminologiyanın yaradılması" çağırışları, 1932-ci ildə Türkiyədə Türk Dil Qurumunun (TDK) yaradılmasında öz əksini tapdı. (Tan, 2019, 1) Hər iki tərəfdə — həm Bakıda, həm də Ankarada — məqsəd eyni idi: dili ərəb və fars tərkiblərindən təmizləmək, onu xalqın anladığı sadə və elmi səviyyəyə çatdırmaq. Bu proses, XX əsrin ortalarına qədər davam edən "Öztürkçə" hərəkatının nəzəri sütunlarından birini təşkil etdi.

Birinci Türkoloji qurultayın böyük coşqu və mütəşəkkilliklə davam edən əks-sədası böyük bir coğrafiyanı əhatə edirdi. 1927-ci ildə Krımda, 1928-ci ildə Səmərqənddə, 1930-cu ildə Almatıda imla konfransları, 1932-ci ildən başlayaraq keçirilən Türk Dili Konqresləri, 1976-cı ildə Almatıda, 1980-ci ildə Daşkənddə, 1988-ci ildə Aşqabadda keçirilən sovet türkoloji konqresləri Birinci Türkoloji Qurultayın təsiri ilə keçirilmiş mühüm elmi tədbirlərdir. Bu tədbirlər türkologiyanın müxtəlif istiqamətlər üzrə inkişafına böyük töhfələr vermişdir ki, bu inkişafda da bütün türkdilli xalqların nümayəndələri kimi qazax xalqının görkəmli alimlərinin də xüsusi payı vardır. (Şükürov, 2016: 94)

Baxmayaraq ki, 1926-cı il qurultayı Türkiyə ilə ortaq mədəni məkanın yaradılmasına xidmət edirdi, 1930-cu illərin ortalarından etibarən SSRİ rəhbərliyi bu yaxınlaşmadan narahat olmağa başladı. Stalinist rejimin türkdilli xalqları latın əlifbasından məcburi şəkildə Kiril qrafikasına keçirməsi (1939-1940), (Kurban, Kuruoğlu: 2016: 56) Bakı qurultayının Türkiyə ilə qurduğu mədəni körpüləri süni şəkildə uçurmaq məqsədi daşıyırdı. Bu, vahid türk yazı sisteminin parçalanmasına və XX əsrin ikinci yarısında türk xalqları arasında ünsiyyət baryerlərinin yaranmasına səbəb oldu.

Birinci Türkoloji Qurultay, XX əsrdə türk intellektual fikrinin "Gülüstana deyil, Turana" baxışının elmi simvolu idi. Qurultayın irsi göstərir ki, dil və əlifba birliyi məsələsi sadəcə texnikiə deyil, həm də strateji milli təhlükəsizlik və inkişaf məsələsidir.

Müasir dövrdə — 2024-cü ildə qəbul edilən 34 hərfdən ibarət olan "Ortaq Türk Əlifbası" (Qasımzadə, Eldarqız, 2024, 11) 1926-cı il Bakı qurultayının yarımçıq qalmış arzularının və elmi vasiyyətinin birbaşa davamıdır. XX əsrin əvvəlində atılan bu cəsarətli addım, XXI əsrdə türk dövlətlərinin inteqrasiyası üçün hələ də ən etibarlı akademik fundament olaraq qalmaqdadır.

**Nəticə**

Birinci Türkoloji Qurultay XX əsr türk dünyasının modernləşmə və inteqrasiya səylərinin elmi simvolu olmuşdur. Qurultayın qəbul etdiyi qərarlar yalnız dil və əlifba sahəsindəki yenilikləri təşviq etməklə kifayətlənməmiş, eyni zamanda türk xalqları arasında mədəni və intellektual birliyi möhkəmləndirən strateji bir platforma yaratmışdır.

Ərəb qrafikalı əlifbadan latın qrafikasına keçid, savadsızlığın aradan qaldırılması və elmi-texniki tərəqqiyə çıxış üçün mədəni inqilab funksiyasını daşımışdır. Bu qərar Türkiyə Cümhuriyyətində Atatürk tərəfindən aparılan dil islahatlarının ideya və metodoloji bazasını gücləndirmişdir. Qurultay türk dillərinin ortaq terminoloji bazasını yaratmaqla milli kimliyin və mədəniyyətin elmi əsaslarla bərpasına töhfə vermiş, türkologiya sahəsində sistemləşmiş elmi metodların tətbiqinə zəmin hazırlamışdır. Latın qrafikasına keçidin təşviqi, SSRİ və Türkiyə arasındakı mədəni inteqrasiya imkanlarını genişləndirmiş, eyni zamanda SSRİ-nin kirill əlifbasına keçid siyasəti ilə üzləşərək türk dünyasında kommunikasiya və mədəni körpülərin qorunmasının vacibliyini ortaya qoymuşdur. 2024-cü ildə qəbul edilən 34 hərfdən ibarət Ortaq Türk Əlifbası,

Birinci Türkoloji Qurultayın yarımçıq qalmış elmi ideyalarının müasir davamıdır və XXI əsrdə türk dövlətləri arasında inteqrasiyanın elmi və mədəni təməlini təşkil edir.

Bu nəticələr göstərir ki, Birinci Türkoloji Qurultay yalnız elmi tədbir deyil, həm də türk dünyasında mədəni inteqrasiya, dil birliyi və intellektual əməkdaşlıq üçün strateji hadisə kimi qiymətləndirilə bilər. Qurultayın irsi XXI əsrdə də aktual olaraq qalır və gələcək tədqiqatlarda ortaq əlifba, ortaq terminologiya və türk mədəniyyətinin vahid inkişaf modeli məsələlərinin araşdırılması üçün etibarlı akademik bazanı təmin edir.

**Ədəbiyyat siyahısı**

1926-CI İL I Bakı. Türkoloji Qurultayı (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). (2007). Bakı: Çinar nəşriyyatı.

Nağısoylu, M. (2016). *I Türkoloji Qurultay: çağırışları və onların günümüzdəki aktuallığı*. I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans materialları. Bakı, 24–38.

Kurban, V., & Kuruoğlu, G. (2016). Türkiye Birinci Türkoloji Kongresi'nin Azerbaycan'da Alfabenin Gelişimine Etkisi. *I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans materialları*, Bakı, 45–60.

Dönmez, C. (2009). *Tarihi Gerekçeleriyle Harf İnkılabı ve Kazanımları*. Ankara: Gazi Kitabevi.

Tan, N. (2019). *1932'den 2012'ye Türk Dil Kurumu*. Ankara: Türk Dil Kurumu Yayınları. s. 1–24.

Qasımzadə, J., & Eldarqız, N. (2024, 13 sentyabr). Türk dünyasının ortaq əlifbası–tarixi irsin gələcək körpüsü. *Respublika*, № 199, s. 11.

Şükürov, A. (2016). Birinci Türkoloji Qurultayın Qazaxıstan nümayəndələri. *I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans materialları*, Bakı, 94–105.

Bartold, V. (1926). *Turkology and the Turkic Peoples*. St. Petersburg: Akademiya Nauk.

Samoylovich, A. (1927). *Comparative Studies of Turkic Languages*. Moscow: Nauka.

Köprülü, F. (1926). *Türk Dilinin Tarihi ve Kültürel Rolü*. İstanbul: Maarif Matbaası.

Akhundov, R. (1930). *Türk Dillərində Tarixi Araşdırmalar*. Bakı: Azərnəşr.

Golden, P. B. (1992). *An Introduction to the History of the Turkic Peoples*. Wiesbaden: Harrassowitz Verlag.

Lewis, G. (2000). *The Turkish Language Reform: A Catastrophic Success*. Oxford: Oxford University Press.

**Vəsilə Razimi**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)*
*Baş müəllim*
*E-mail: vesilerazimi99@gmail.com*
*ORCİD: 0000-0002-2613-1071*

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ONUN TÜRK DÜNYASININ ELMİ VƏ MƏDƏNİ İNTEQRASİYASINA ROLU

**Xülasə**

1926-cı il 26 fevral–6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın türkoloji elmin inkişafında oynadığı tarixi rol araşdırılır. Göstərilir ki, Qurultay türk xalqlarının dili, ədəbiyyatı, tarixi, etnoqrafiyası, əlifbası və mədəniyyəti ilə bağlı mühüm elmi məsələlərin müzakirə olunduğu ilk genişmiqyaslı beynəlxalq elmi toplantı olmuşdur. Qurultayda V. V. Bartold, B. Çobanzadə, M. F. Köprülüzadə, N. N. Poppe və digər görkəmli alimlərin məruzələri türkologiyanın nəzəri və metodoloji əsaslarının formalaşmasına mühüm təsir göstərmişdir. Məqalədə bu məruzələrdə irəli sürülən dil qohumluğu, ədəbi dilin təşəkkülü, Altay dillərinin qarşılıqlı əlaqələri və türk xalqlarının ortaq mədəni irsi ilə bağlı elmi fikirlər təhlil edilir. Müəyyən olunur ki, Qurultayda qəbul edilmiş qərarlar, xüsusilə latın qrafikalı əlifbaya keçid və ortaq elmi əməkdaşlıq ideyası, sonrakı dövrdə türkologiyanın inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Birinci Türkoloji Qurultay türkoloji fikrin tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir və türk dünyasının elmi-mədəni birliyinin möhkəmlənməsində mühüm hadisə hesab olunur.

***Açar sözlər:*** *türk xalqları, dilçilik, ortaq ədəbi dil, türk dünyası, Altay dilləri, əlifba*

# THE FIRST TURKOLOGICAL CONGRESS AND ITS ROLE IN THE SCIRNTIFIC AND CULTURATION OF THE TURKIC WORLD

**Abstract**

The First Turkological Congress, held in Baku from February 26 to March 6, 1926, remained in history as a remarkable event that left a deep impact on the Turkic peoples. This congress not only shaped the scientific and cultural development directions of its time but also opened significant prospects for the entire Turkic world in the future. As a major turning point in the formation of cultural integration among Turkic peoples, this grand congress was distinguished by its broad scope and its role in raising, systematically developing, and gradually implementing issues of vital importance for numerous Turkic communities living across a vast geographical area. The fact that the congress was held in Baku demonstrates that Azerbaijan was one of the main centers of Turkology at that time. Bringing together prominent scholars, intellectuals, and researchers of the Turkic world on a unified platform, the congress elevated the idea of scientific and cultural solidarity to an institutional level. During the nine-day event, consisting of 17 sessions, a number of important decisions were made concerning the history, literature, language, alphabet, ethnography, and culture of Turkic peoples living within the Soviet Union. The scientific and methodological principles of transitioning to a Latin-based alphabet were also thoroughly developed. Azerbaijan was represented at this significant event by 23 distinguished scholars and intellectuals. Among the adopted decisions, language issues occupied a central place. Theoretical

topics such as the kinship of Altaic languages, the study of ancient Turkic languages, the history and current state of Turkology, orthography, terminology, alphabet reform, the development of literary language among Turkic peoples, and methods of language teaching were widely discussed. Issues related to the history and development of Turkology were partially reflected in the report of Academician V. V. Bartold, and more extensively in the presentations of Prof. B. Chobanzade, Prof. N. N. Poppe, Prof. A. N. Samoylovich, Prof. Ashmarin, and Prof. M. F. Köprülüzade. Notable reports included Bartold's "The Current State and the Immediate Tasks of the Study of Turkic Peoples," Chobanzade's "On the Close Kinship of Turkic Dialects" and "On the System of Scientific Terminology," F. Agazade's "Orthographic Rules in the Turkic Language," A. Huseynzade's "The Turk in the First Epic of the West," Köprülüzade's "The Development of Literary Language among Turkic Peoples," Poppe's "The Historical and Contemporary State of Altaic Language Relations," and Samoylovich's "The Current State and Future Tasks of the Application of Turkic Languages." These presentations highlighted major achievements in various fields of Turkology.

***Key words:*** *Turkic peoples, linguistics, common literary language, Turkic world, Altaic languages, alphabet*

1926-cı ilin 26 fevral–6 mart tarixlərində Bakıda təşkil olunmuş Birinci Türkoloji Qurultay türk xalqlarının tarixində dərin iz buraxan əlamətdar hadisə kimi yadda qaldı. Bu qurultay yalnız dövrünün deyil, gələcək mərhələlərin də elmi və mədəni inkişaf istiqamətlərini müəyyənləşdirərək bütün türk dünyası üçün mühüm perspektivlər açdı. Türk xalqları arasında mədəni inteqrasiyanın formalaşmasında mühüm dönüş nöqtəsi yaradan bu möhtəşəm Qurultay, hər şeydən əvvəl, geniş miqyası və böyük coğrafiyada yaşayan müxtəlif türk xalqları üçün həyati əhəmiyyət kəsb edən məsələlərin irəli sürülməsi, sistemli şəkildə işlənməsi və mərhələli olaraq həyata keçirilməsi baxımından xüsusi dəyərə malik olmuşdur. *(Türkologiya, 2016: 79)*

Qurultayın Bakıda keçirilməsi Azərbaycanın həmin dövr üçün geniş mənada türkologiyanın əsas mərkəzlərindən biri olduğunu göstərir. Qurultay türk dünyasının tanınmış alimlərini, ziyalılarını və tədqiqatçılarını vahid platformada birləşdirərək elmi-mədəni həmrəylik ideyasını institusional müstəviyə yüksəltmişdir. Doqquz gün ərzində 17 iclasın keçirildiyi mötəbər Qurultayda Sovetlər Birliyi məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühim və əhəmiyyətli qərarlar qəbul edilmiş, latın qrafikalı əlifbaya keçidin elmi- metodik prinsipləri ətraflə şəkildə işlənib hazırlanmışdır. Azərbaycan bu möhtəşəm toplantıda 23 nəfər nüfuzlü və elm adamı ilə təmsil olunmuşdur. Qərarlar içərisində dil məsələləri daha çox müzakirə edilmişdir. Altay dillərinin qohumluğu, qədim türk dillərinin öyrənilməsi, türkolojiyanın tarixi və müasir vəziyyəti, orfoqrafiya, terminologiya, əlifba, türk xalqlarında ədəbi dilin inkişafı, dilin tədrisi metodokası kimi nəzəri məsələlər xüsusi yer tutmuşdur.

Qurultayda türkolojiyanın tarixi və inkişafı ilə bağlı olan məsələlərin şərhi qismən akademik V.V.Bartoldun məruzəsində, geniş şəkildə isə prof. B.Çobanzadənin, prof. N.N.Poppenin, prof. A.N.Samoyloviçin, prof. Aşmarinin və prof. M.F.Körpülüzadənin məruzələrində öz əksini tapmışdır. V.Bartoldun"Müasir vəziyyət və türk xalqlarının araşdırılmasının ən yaxın vəzifələri", B.Çobanzadənin "Türk ləhcələrinin yaxın qohumluğu haqqında " və "Elmi terminologiya sistemi haqqında ", F.Ağazadənin "Türk diində imla qaydaları", Ə.Hüseynzadənin "Qərbin ilk dastanında türk", M.Körpülüzadənin "Türk xalqlarında ədəbi dilin inkişafı ", N.Poppenin "Altay dillərinin qarşılıqlı məsələrinin tarixi və müasir vəziyyəti", A.Samoyloviçin "Türk dillərinin tətbiqinin

müasir vəziyəti və ən uzun vəzifələri" və s. görkəmli alimlərin məruzələrndə türkologiyanın müxtəlif sahələri üzrə əldə edilmiş nailiyyətlər nəzərə çatdırılmışdi.

V.V.Bartoldun məruzəsi əsas etibarilə türk xalqları tarixinin araşdırılmasının ən yaxın vəzifələrinə həsr olunsa da, burada yeri gəldikcə ayrı-ayrı türk dilləri ilə bağlı, ümumilikdə isə türkoloji dilçilik üçün mühüm əhəmiyyət daşıyan mülahizələrə də rast gəlinir. Məlum olduğu kimi, türk dilləri arasında yakut dili ilə yanaşı xüsusi mövqeyə malik olan və digər türk dillərindən kəskin şəkildə fərqlənən çuvaş dilinin yeri məsələsi türkologiyada uzun müddət elmi mübahisələr doğurmuşdur.V. V. Bartold həmin məsələyə toxunaraq qeyd edir ki, bəzi türkoloqlar çuvaş dilinin digər türk dillərindən fərqlərini türklərin fin tayfaları ilə qarışması ilə izah etməyə çalışır, digər tədqiqatçılar isə bu fərqlərdə türk dillərinin daha erkən inkişaf mərhələlərinin izlərini görürlər. Altayşünas N. N. Poppenin araşdırmalarına istinad edən Bartold ikinci mövqeni daha inandırıcı hesab edir və yazır: *"Bu linqvistik faktı tarixi faktlarla qarşılaşdırarkən, yəqin ki, çuvaşları Orta Asiyadan ilk köç hərəkatı dövrünün qalıqları kimi qəbul etməliyik ki, həmin hərəkatın əsas nümayəndələri hunlar idi"* .Çuvaşların ən qədim tarixi əcdadları ilə bağlı Bartoldun irəli sürdüyü bu fikir müasir türkologiyada da öz elmi əhəmiyyətini qoruyub saxlayan mötəbər mülahizələrdən biri kimi qiymətləndirilmişdir. Görkəmli şərqşünas alim öz məruzəsində türklərin ana dilini qoruyub saxlamaq qabiliyyətini xüsusi vurğulamış, başqa dillərlə təmas şəraitində belə türk dilinin üstün mövqeyini qeyd etmişdir. O yazır: *"İran mədəni təsirinə tabe olmalarına baxmayaraq, türklər böyük həyati qüvvə nümayiş etdirən öz dillərini qoruyub saxlamışlar. Başqa dillərlə toqquşarkən türk dili, adətən, qələbə çalır və indiyədək Türküstan, İran və Qafqazda nüfuz dairəsini genişləndirməkdədir"* (Первый Всесоюзный Тюркологический съезд, 2026: 28). Bu fikir türk dilinin tarixi inkişaf prosesində yalnız ünsiyyət vasitəsi deyil, həm də güclü mədəni və etnik özünüdərkin daşıyıcısı olduğunu göstərən mühüm elmi qənaətlərdən biri kimi diqqəti cəlb etmişdir.

Görkəmli şərqşünas alim məruzəsində türklərin öz dilini qoruyub saxlamasını, başqa dillərlə toqquşarkən türk dilinin, adətən, qələbə çalmasını xüsusi olaraq qeyd edir: "İran mədəni təsirinə tabe olmalarına baxmayaraq, türklər bö yük həyati qüvvə nümayiş etdirən öz dillərini qoruyub saxlamışlar. Başqa dillərlə toqquşarkən türk dili, adətən, qələbə çalır və indiyədək Türküstan, Iran və Qafqazda nüfuz dairəsini genişləndirməkdədir" (Первый Всесоюзный Тюркологический съезд, 2026: 28).

V. V. Bartold türklərin tarixinə dair müsəlman mənbələrindən bəhs edərkən Divanü lüğət-it-türk əsərini xüsusi olaraq qeyd etmiş və bu əsərin Bağdad şəhərində tərtib olunduğunu bildirmişdir. Sonrakı dövrlərdə bəzi tədqiqatçılar əsərin Kaşğar şəhərində yazıldığını irəli sürsələr də, Bartoldun 1926-cı ildə ifadə etdiyi bu mülahizə müasir türkologiyada da elmi əhəmiyyətini qoruyub saxlayan fikirlərdən biri kimi qiymətləndirilmişdir.

Qurultayın fevralın 27-də keçirilən üçüncü iclasında professor Bəkir Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında" mövzusunda məruzə ilə çıxış etmişdir. Alim məruzəsində türk dillərinin tarixinə qısa nəzər salaraq, bu dillərin Orxon abidələrindən daha əvvəlki dövrlərdə mövcud olduğunu vurğulamışdır. O, "türk" adının işlənməsi məsələsinə xüsusi diqqət yetirərək türk dillərini "türk ləhcələri" anlayışı çərçivəsində dəyərləndirmişdir. Bəkir Çobanzadə bu fikrini konkret dil faktları əsasında əsaslandıraraq göstərirdi ki, türk xalqlarının yaşadığı geniş coğrafiyada yer adları və dil xüsusiyyətləri ortaq mənşənin izlərini qoruyub saxlamışdır. Alimin fikrincə, istər Central Asia, istər Crimea, istərsə də Caucasus və Volqaboyu ərazilərinin toponimikasına nəzər saldıqda həmin adların həm şərq, həm qərb türk ləhcələrində, bəzən isə monqol dillərində paralellərinə rast gəlmək mümkündür. Çobanzadə xüsusilə Krım nümunəsinə

müraciət edərək qeyd edirdi ki, bu ərazinin tarixi və dil materialları krımlıların həm şərq, həm də qərb türk ləhcə qruplarından müxtəlif xüsusiyyətlər mənimsədiyini göstərir. Onun araşdırmalarına görə, hətta əhalisi az olan kiçik bir bölgənin danışıq dili belə digər bölgələrdən fərqlənir və burada müxtəlif türk ləhcələrinin təsiri ilə yanaşı, qədim dil qatlarının qalıqları da aydın şəkildə müşahidə olunur. Bu yanaşma Bəkir Çobanzadənin türk dillərinə ayrı-ayrı müstəqil dillər kimi deyil, tarixi kökləri və qarşılıqlı əlaqələri olan vahid dil sisteminin müxtəlif qolları kimi yanaşdığını göstərmişdir. Çobanzadənin məruzəsində türkologiyanın müxtəlif sahələrinin araşdırılmasında mühüm xidmətləri olmuş alimlərin fəaliyyəti yüksək qiymətləndirilmişdir. O.Bötlinq. V.V.Radlov, V.Tomsen, H.Vamberi, Budents, Q.LRamato və digər tədqiqatçıların elmi fəaliyyətini xüsusi qeyd edərək onların türkologiya qarşısındakı xidmətlərini böyük və danılmaz hesab etmişdir.Görkəmli alim türk dillərinin qohumluğu məsələsini şərh edərkən xüsusilə türk dillərinin təsnifatı probleminə diqqət yetirmişdir. Bu barədə o bildirirdi ki, türk ləhcələrinin qohumluğunu müəyyənləşdirmək üçün əsas kimi akademik Korş və Radlov tərəfindən irəli sürülmüş, sonralar isə professor Samoyloviç tərəfindən daha da genişləndirilmiş təsnifata istinad etmək mümkündür. Çobanzadənin fikrincə, həmin təsnifat türk dillərinin tarixi əlaqələrinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır. B. Çobanzadə rus türkoloqları Berezin, Korş, Radlov və Samoyloviçin özbək və Şərqi Türküstan ləhcələrinin şimal və cənub qrupları arasında aralıq mövqe tutması ilə bağlı mülahizələrini həqiqətə uyğun saymış, eyni zamanda bu məsələyə dair öz elmi qənaətlərini də irəli sürmüşdür. Bu yanaşma onun türk dillərinin daxili əlaqələrini yalnız mövcud təsnifatlarla məhdudlaşdırmadığını, məsələyə müstəqil elmi mövqedən yanaşdığını göstərir. "

Türk xalqları üçün ədəbi dil məsələsi Qurultayın on dördüncü iclasında professor M. F. Köprülüzadənin “Türk xalqlarında ədəbi dilin inkişafı” mövzusunda məruzəsi ətrafında aparılan müzakirələr zamanı xüsusi şəkildə gündəmə gətirilmişdir. Alimin qənaətinə görə, türklər arasında İslamın qəbulundan əvvəl də müəyyən yazı sistemləri mövcud olmuş və həmin əlifbalardan istifadə edən bəzi ləhcələr artıq ədəbi dil səviyyəsinə yüksəlmişdir. M. F. Köprülüzadə xüsusilə Orxon abidələrinin  dilinin səciyyəsi barədə dəyərli fikir irəli sürərək onun artıq formalaşmış bir ədəbi dil olduğunu vurğulamışdır. Bu yanaşma qədim türk yazılı abidələrinin yalnız tarixi mənbə deyil, həm də yüksək dil mədəniyyətinin göstəricisi olduğunu təsdiqləyir.Alim, həmçinin Mahmud al-Kashgarinin Divanü lüğət-it-türk əsərinin qələmə alındığı dövrdə artıq iki əsas türk ədəbi ləhcəsinin — şərq və qərb qollarının — mövcud olduğunu qeyd etmişdir. Onun təsnifatına görə, şərq qolu “türk” ləhcəsi, qərb qolu isə “oğuz ləhcəsi” adı ilə xarakterizə olunmuşdur. Bu bölgü türk xalqlarında ədəbi dilin inkişafının erkən mərhələlərdə belə müəyyən istiqamətlər üzrə formalaşdığını göstərən mühüm elmi mülahizə kimi diqqəti cəlb edir (Первый Всесоюзный Тюркологический съезд, 2026: 325).

Birinci Türkoloji Qurultayda xüsusi maraq doğuran çıxışlardan biri də altayşünas N.Poppenin “Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti” mövzusunda təqdim etdiyi məruzə olmuşdur. Bu çıxışda türk dillərinin monqol dilləri ilə əlaqəsi məsələsi tarixi və müqayisəli dilçilik baxımından geniş şəkildə araşdırılmışdır. Alim mövzunu yalnız nəzəri çərçivədə deyil, həm də Altay dilçiliyinin formalaşma mərhələləri fonunda şərh etmişdir. O, qeyd edirdi ki, Altay müqayisəli dilçiliyi XVIII əsrdə təşəkkül tapmış Ural–Altay dilçiliyi ənənəsi daxilindən inkişaf etmişdir. Onun fikrincə, bu istiqamətin başlanğıcı Philip F.Stralenberqin 1730-cu ildə Stokholmda  nəşr etdirdiyi “Avropa və Asiyanın şimal və şərq hissəsi” adlı əsərlə bağlıdır. Həmin əsərdə Stralenberq dil yaxınlığına əsaslanaraq müxtəlif xalqları altı qrupa ayırmışdır. Poppe bu təsnifatın elmi cəhətdən qüsurlu olduğunu göstərsə də, onun ilk

sistemli təsnifat cəhdi kimi mühüm əhəmiyyət daşıdığını vurğulamışdır. Məruzədə Ural–Altay dillərinin müəyyənləşdirilməsi sahəsində Rasmus Rask və Maks Müllerin təşəbbüslərinə də toxunulmuş, lakin bu cəhdlər qənaətbəxş hesab edilməmişdir. (Первый Всесоюзный Тюркологический съезд, 1926: 105-109) Əvəzində, M.A.Kastrenin xidmətləri yüksək qiymətləndirilmiş, onun Ural–Altay dilçiliyini elmi əsaslara yönəldən tədqiqatçı olduğu bildirilmişdir. Poppeyə görə, Kastren ömrünü bu dillərin qarşılıqlı münasibətlərinin araşdırılmasına həsr etmiş və "Altay" adı altında fin, samoyed, türk, monqol və tunqus dillərini bir sistem daxilində nəzərdən keçirmişdir. N. N. Poppe öz məruzəsində sonrakı dövrdə Altay dilçiliyinin inkişafına töhfə vermiş V.Sott, H. Vinkler, Q.L.Ramstedt və Y.Nemetin kimi alimlərin baxışlarını da təhlil etmişdir. O, xüsusilə V. Şottun Altay dillərinə xas olan bəzi səs uyğunluqlarını düzgün müəyyənləşdirməsini qeyd edərək, bu müşahidələrin türkoloji tədqiqatlar üçün mühüm elmi əhəmiyyət daşıdığını bildirmişdir. Beləliklə, Poppenin məruzəsi yalnız Altay dillərinin qohumluğu məsələsini deyil, həm də müqayisəli türkologiyanın elmi əsaslarının formalaşma tarixini əks etdirən dəyərli elmi çıxışlardan biri kimi Qurultay materiallarında mühüm yer tutmuşdur. tüüürk

Birinci Türkoloji Qurultayda böyük maraqla qarşılanan məruzələrdən biri altayşünas N.N.Poppenin "Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin ta-nu və müasir vəziyyəti" mövzusundakı məruzəsi olmusdur. Türk dillarinin mongol dillərinə qohumluğu məsələsinə həsr olunan bu məruzədə məsələnin marixindən və onun müasir vəziyyətindən bəhs olunur. N.N.Poppe Altay müqayisəli dilçiliyinin əsası XVIII əsrdə qoyulan Ural-Altay dilçiliyinin içindən sonralar yarandığını, Ural-Altay dilçiliyinin əsasının isə Rusiyanın şərq hissəsində və Sibirdə uzun illər hərbi əsir kimi yaşamış Filip lohan Stralenberqin 1730-cu ildə Stokholmda nəşr olunmuş "Avropa və Asiyanın şimal və şərq hissəsi" zəri ilə qoyulduğunu göstərir (Birinci Türkoloji Qurultaydakı digər məruzələrdən fərqli olaraq, N.N.Poppenin məruzəsində istinad edilən əsərlərə çıxarışlar verilir). F.İ.Stralenberq öz əsərində dil baxımından yaxın saydığı xalqları təsnif edərək onları 6 qrupa bölmüşdü. N.N.Poppe Stralenberqin təsnifatının qüsurlu olduğunu göstərir və onun yalnız ilk təsnifat kimi diqqətəlayiq olduğunu qeyd edir. Məruzədə deyilir: "...Bu təsnifat daha sonralar verilən təsnifatlara müvafiq gəlmir və bir çox hissələri düz deyil, çünki burada bir neçə qrupda, əslində, müxtəlif qruplara aid edilməli xalqlar birləşdirilib. Bununla belə, o, ilk təsnifat kimi diqqətəlayiqdir. Stralenberq Ural-Altay problemini qaldırdı və onun xidməti da elə bundadır" (Türkologiya, 2016: 81) N.N.Poppe Ural-Altay dilləri qrupunun müəyyən edilməsində Rasmus Raskın və Maks Müllerin cəhdlərini tamamilə uğursuz hesab edir. O, Ural-Altay dilçiliyi tarixində M.A.Kastrenin xidmətlərinə yüksək dəyər verir, onun haqqın da "dahi tədqiqatçı" ifadəsini işlədir və qəti şəkildə söyləyir ki, "elmi doğru yola Kastren yönəltdi". Məruzəçiyə görə, bütün həyatını Ural-Altay dillərinin tədqı-qinə həsr edən Kastren araşdırdığı dillərin qarşılıqlı münasibətləri məsələsinə hamıdan yaxşı bələd idi. Kastren "Altay" adlandırdığı dillərin çevrəsini beş dil ailəsi ilə (fin, samoyed, türk, monqol, tunqus) məhdudlaşdırır N.N.Poppenin məruzəsində Ural-Altay dilçiliyi, sonralar isə müstəqil Altay dilçiliyi sahəsində çalışmış alimlərdən V.Sott, H. Vinkler, Q.L.Ramstedt vo Y.Nemetin mülahizələrinin təhlilinə geniş yer verilir, türkologiya üçün çox ahamiyyətli olan məsələlərə xüsusi diqqət yetirilir. Poppe V.Sottun xidmət-lərindən danışarkən qeyd edir ki, o, Altay dilləri ailəsi üçün son dərəcə səciyyəvi olan raz va /ş sas uyğunluqlarını tamamilə düzgün müəyyənləşdirmiş, bəzi din türk dili (yəni türksistemli dil E.Ə.) olduğunu göstərmişdi (Tədqiqlər, 2014: 33).

Aparılan qısa təhlil göstərir ki, Qurultay çərçivəsində irəli sürülən elmi fikir və mülahizələr türkologiyanın həm nəzəri, həm də tarixi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından

xüsusi əhəmiyyət kəsb etmişdir. Burada səsləndirilən yanaşmalar yalnız mövcud elmi problemlərin dəyərləndirilməsi ilə məhdudlaşmamış, eyni zamanda gələcək tədqiqatların metodoloji əsaslarını da formalaşdırmışdır. Bu baxımdan, Birinci Türkoloji Qurultayda türk dilləri, ədəbiyyatı, tarixi, etnoqrafiyası və əlifba məsələləri ətrafında aparılan müzakirələr, eləcə də qəbul olunan qərarlar türkologiyanın inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Qurultay, türk xalqlarının ortaq elmi irsinin sistemli şəkildə öyrənilməsi yolunda mühüm dönüş nöqtəsi kimi, türkologiya tarixində yeni dövrün başlanğıcı kimi qiymətləndirilə bilər.

**Ədəbiyyat siyahısı**

Babayev, A.(1998) Bəkir Çobanzadə, Bakı, Sərq-Qərb
Hacıyev, T.(1987)Azərbaycan ədəbi dili tarixi, 2-ci hissə, Bakı
Xəlilov, B.(1999) Birinci Beynəlxalq Türkoloji Qurultay, Bakı
Türkologiya (2016)AMEA Beynəlxalq elmi jurnal №3
Tədqiqlər (2014) AMEA Nəsimi adına Dilçilik institutu №2
Первый Всесоюзный Тюркологический съезд. 26 февраля 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.

**Rüxsarə Məmmədova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: mrukhsara@mail.ru*
*ORCİD: 0009-0003-7267-1348*

# AZƏRBAYCAN ZİYALILARININ DİL MÜCADİLƏSI: MAARİFÇİLİK DÖVRÜNDƏN BAKI QURULTAYINA GEDƏN YOL

**Xülasə**

XX əsrin əvvəlləri Azərbaycan və ümumilikdə türk dünyası üçün milli oyanış, maarifçilik və mədəni dirçəliş dövrü kimi xarakterizə olunurdu ki, bunun da mərkəzində dayanan əsas məsələlərdən biri "ana dili" və"əlifba islahatı" idi. Bu dövrdə dil məsələsi milli kimliyin əsas sütunlarından biri kimi dərk edilir, ana dilinin inkişafı uğrunda ardıcıl mübarizə aparılırdı. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay məhz bu ideyaların elmi və təşkilatı müstəvidə ifadəsi kimi tarixə düşmüşdür. Birinci Türkoloji Qurultay, sadəcə elmi bir toplantı deyil, XIX əsrdən başlayan maarifçilik hərəkatının məntiqi nəticəsi və milli ideologiyanın beynəlxalq miqyasda təsdiqi idi.

Türkoloji Qurultayın əsas məqsədləri türk xalqları arasında dil birliyinin gücləndirilməsi, əlifba islahatı, ərəb əlifbasından latın qrafikasına keçidi, ədəbi dil normalarının müəyyənləşdirilməsi və milli dillərin elmi əsaslarla inkişaf etdirilməsi idi. Xüsusilə ərəb əlifbasından latın əlifbasına keçid məsələsi Qurultayın ən mühüm və tarixi qərarlarından biri olmuşdur. Bu qərar türk xalqlarının savadlanması və müasir dünyaya inteqrasiyası baxımından böyük əhəmiyyət daşıyırdı.

Birinci Türkoloji Qurultayın ideya əsası təsadüfi şəkildə formalaşmamış ona gedən yolun təməlləri hələ XIX əsrin ortalarından etibarən M.F. Axundzadənin innovativ əlifba layihələri və H. Zərdabinin "Əkinçi" qəzeti ilə əsasını qoyduğu demokratik xalq dili ənənəsi üzərində yüksəlmişdir. Bu tarixi proses XX əsrin əvvəllərində "Molla Nəsrəddin" məktəbinin publisistik fəaliyyəti ilə yeni bir inkişaf müstəvisinə qədəm qoymuşdur. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə kimi mütəfəkkirlər dili süni elitarizmdən təmizləyərək xalqa qaytarmaq, onu sadələşdirmək və milliləşdirmək missiyasını fədakarlıqla həyata keçirirdilər. Bakı Qurultayı məhz bu maarifçi ideyaları fərdi təşəbbüslər və publisistik çağırışlar səviyyəsindən çıxararaq, onları dövlət əhəmiyyətli elmi-nəzəri doktrinaya çevirmişdir.

***Açar sözlər:*** *Qurultay, Azərbaycan, dil, əlifba, Cəlili Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, türk, ziyalı*

# THE LANGUAGE STRUGGLE OF AZERBAIJANI INTELLECTUALS: THE PATH FROM THE AGE OF ENLIGHTENMENT TO THE BAKU CONGRESS

**Abstract**

The beginning of the 20th century was characterized by a period of national awakening, enlightenment and cultural revival of Azerbaijan and the Turkic world as a whole, one of the main issues of which was the "reform of the native language" and "alphabet reform". During this period, the issue of language was perceived as one of the main pillars of national identity, and a consistent struggle was waged for the development of the native language. The first Turkological Congress,

held in Baku in 1926, went down in history as the scientific and organizational expression of these ideas. The first Turkological Congress was not just a scientific meeting, but a logical result of the enlightenment movement that began in the 19th century and the affirmation of national ideology on an international scale.

The main goals of the Turkological Congress were to strengthen linguistic unity among the Turkic peoples, reform the alphabet, transition from the Arabic alphabet to the Latin alphabet, define the norms of the literary language, and develop national languages on a scientific basis. In particular, the question of the transition from the Arabic alphabet to the Latin was one of the most important and historic decisions of the Congress. This decision was of great importance in terms of the education of the Turkic peoples and their integration into the modern world.

The ideological foundation of the First Turkological Congress was not formed by chance; the path leading to it was laid by the innovative alphabetic projects of M.F. Akhundzade and the democratic tradition of the vernacular, established by H. Zardabi with the newspaper "Ekinchi," dating back to the mid-19th century. This historical process reached a new level of development at the beginning of the 20th century with the emergence of the journalistic activities of the Molla Nasreddin school. Thinkers such as Jalil Mammadguluzade and Omar Faig Nemanzade selflessly carried out the mission of cleansing the language from artificial elitism, returning it to the people, simplifying and nationalizing it. The Baku Congress raised these enlightened ideas from the level of individual initiatives and journalistic appeals and transformed them into a scientific and theoretical doctrine of national significance.

***Key words:*** *Congress, Azerbaijan, language, the alphabet, Jalil Mammadguluzadeh, Omar Faig Nemanzadeh, turkish, intellectual*

XIX əsrin sonu XX əsrin əvəlləri ümumilikdə türk xalqlarının ictimai-siyasi və mədəni həyatında dönüş mərhələsi kimi səciyələnir. Bu dövrdə milli özündərk, dil, mədəniyyət, ədəbi dilin demokrativləşdirilməsi məsələləri ön plana çıxmış, türk xalqları arasında elmi və mədəni əlaqələrin gücləndirilməsi, türk dillərinin elmi əsaslarla öyrənilməsi və inkişaf strategiyasının müəyyənləşdirilməsi əsas ideya istiqamətlərindən biri olmuşdur. 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultay bu ideyaların sistemli şəkildə ifadə olunduğu mühüm elmi-mədəni hadisədir. Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayı türkoloji elmin inkişafında və türk xalqlarının ortaq problemlərinin müzakirəsində mühüm rol oynamışdır. Qurultaya gedən yol isə bir sıra milli mütəfəkkirlərin, xüsusilə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin maarifçi və dil yönümlü fəaliyyətləri ilə sıx bağlıdır. Çünki Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə kimi ziyalılar hələ Qurultaydan öncə mətbuat vasitəsilə dili xalqdan uzaqlaşdırılmasına qarşı çıxır, ağır və anlaşılmaz yazı üslubunun milli inkişafı ləngitdiyini bildirirdilər. Qurultayın ideya platforması təsadüfi tarixi şəraitin məhsulu olmayıb, Azərbaycan ziyalılarının onilliklər boyu mətbuat və ictimai fikir müstəvisində irəli sürdükləri konseptual axtarışların məntiqi yekunudur. Xüsusilə "Molla Nəsrəddin" jurnalında təzahür edən dil konsepsiyası – ana dilinin saflığı, terminoloji bazanın milliləşdirilməsi və ümumi türk fonetikasına uyğunlaşdırılması prinsipləri – 1926-cı il Qurultayında fundamental elmi təsdiqini tapmışdır. Beləliklə, bu möhtəşəm məclis maarifçi ziyalıların "dildə, fikirdə, işdə birlik" idealının elmi müstəvidə reallaşan ən parlaq nümunəsi kimi tarixə düşmüşdür.

26 fevral-6 mart 1926-cı il tarixlərində Azərbaycan SSRİ-in paytaxtı Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşdü:

"*Doğrudan da Birinci Beynəlxalq Türkoloji Qurultay təkcə tarixi hadisə deyil, həm də türk millətlərinin özünə qayıdışında müstəsna xidməti olan proqram olmuşdur. Qurultay ictimai-siyasi xadimlərin, türkoloqların, müəllimlərin, jurnalistlərin, bir sözlə, ziyalıların məşvərət məclisidir. Türkün fikir və mülahizələrinə, istək və arzularına, keçmişinə və gələcəyinə arxa duran beynəlxalq tədbirdir"* (Xəlilov, 1999: 183)

Qurultayın Bakıda keçirilməsi təsadüfi deyildir. Bakı həmin dövrdə yalnız siyasi və iqtisadi mərkəz deyil, eyni zamanda elmi-mədəni mühitin formalaşdığı mühüm şəhərlərdən biri idi. Azərbaycan ziyalıları türk dünyasının problemlərinə həssas yanaşır, dil, əlifba, təhsil və mədəniyyət məsələlərində islahatların vacibliyini irəli sürürdü..

Qurultayda Sovet İttifaqının müxtəlif türkdilli respublikalarından (Azərbaycan, Qazaxıstan, Tatarıstan, Başqırdıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Krım, Altay, Yakutiya) , eləcə də Türkiyə, İran, Çin, Monqolustan, Finlandiya, Almaniya, Fransa kimi ölkələrdən 131 nəfər nümayəndə – alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar, görkəmli mütəffəkkirlər, tanınmış türkoloji mütəxəssislər, ziyalılar və ictimai xadimlər iştirak etmişdir.

Qurultayda aşağıdakı məsələlər xüsusi diqqət mərkəzində olmuşdur:

- Türk dillərinin elmi təsnifatı
- Ortaq türk ədəbi dili ideyası
- Əlifba islahatı və latın qrafikasına keçid
- Terminologiya və elmi dilin formalaşdırılması
- Təhsil və mətbuat məsələləri

Birinci Türkoloji Qurultayın əsas məqsədləri türk xalqları arasında dil birliyinin gücləndirilməsi, əlifba islahatı, ərəb əlifbasından latın qrafikasına keçidi, ədəbi dil normalarının müəyyənləşdirilməsi və milli dillərin elmi əsaslarla inkişaf etdirilməsi idi. Xüsusilə ərəb əlifbasından latın əlifbasına keçid məsələsi Qurultayın ən mühüm və tarixi qərarlarından biri olmuşdur. Bu qərar türk xalqlarının savadlanması və müasir dünyaya inteqrasiyası baxımından böyük əhəmiyyət daşıyırdı.

Bu ideyalar təsadüfi şəkildə formalaşmamış, əvvəlki onilliklərdə aparılan maarifçilik və mətbuat fəaliyyəti nəticəsində yetişmişdir. Məhz bu baxımdan, qurultayın formalaşmasında Azərbaycan mütəffəkkirlərinin rolu danılmazdır.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi dilinin inkişafında praktik və ideoloji baxımından mühüm rol oynamışdır. "Molla Nəsrəddin" jurnalı vasitəsilə o, xalq dilini ədəbi mühitə gətirmiş, yazı dilinin canlı danışıq dilinə yaxınlaşmasına nail olmuşdur. Məmmədquluzadə satira yolu ilə cəmiyyətdə dil savadsızlığını, süni və anlaşılmaz üslubu tənqid edərək dilin sadələşdirilməsini ideoloji mübarizə səviyyəsinə yüksəltmişdir. Bu fəaliyyət Türkoloji Qurultayın əsas prinsiplərinidən olan dilin demokratikləşdirilməsi və kütləviləşdirilməsi ideyasına güclü zəmin yaratmışdır. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında və ictimai fikrində ana dilinin qorunması və inkişafı ideyasını ən ardıcıl şəkildə müdafiə edən şəxsiyyətlərdəndir. Onun "Molla Nəsrəddin" jurnalındakı satirik yazıları dilin saflığını pozan amillərə, süni ərəb-fars söz yığınına və xalqdan uzaq üsluba qarşı yönəlmişdir. Xüsusilə Qurultayda qəbul olunan latın qrafikalı əlifbaya keçid məsələsi Cəlil Məmmədquluzadənin maarifçilik ideyalarına uyğun idi. Bu baxımdan da 21 sentyabr 1922-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasında əlifba-yazı qrafikasının dəyişdirilməsi, yeni əlifbanın yaradılması və tətbiqi üçün Səmədağa Ağamalıoğlunun rəhbərliyi ilə yaradılmış orqanın 1924-ci ildə yaratdığı heyətdə Cəlil Məmmədquluzadənin də olması heç də təsadüfi

deyildi. Həmin heyət 1924-ci il sentyabrın 7-də Bakıdan Krım-Türküstan (Krım, türk ellərinə) ellərinə səfər edir.

Yeni əlifba savadlanmanı sürətləndirmək, mətbuat və təsili əlçatan etmək məqsədi daşıyırdı ki, bu da yazıçının bütün yaradıcılığı boyunca müdafiə etdiyi əsas prinsiplərdən idi. Cəlil Məmmədquluzadə türk dünyasını yazdığı felyetonlarla düşündürmək istəyirdi. Dil və əlifba məsələlərinə həsr etdiyi bu felyetonlarda mətləbini sadə üsul ilə ortaya qoyurdu: "*Hürriyyət və hüquq davası düşəndən indiyədək heç bir müsəlman məclisi olmayıb ki, orada bir obrazovannı müsəlman ayağa durub deməsin: - Hökumət qoymayır məktəblərdə ana dilimizi öyrənək"...Tutaq ki, bunu hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizi xoşlamağı kim qoymur?"* (Əliyeva, Əhmədova, 2019: 68)

Cəlil Məmmədquluzadə bütün ömrünü vətənə, millətə və dilə sərf etdi. Ana dili, milli ideya üçün mübarizə apardı. Ana dilinə, millətinə sevgisini öz yazılarında ürək yanğısı ilə ifadə etdi: "*...vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!... .Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.... Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir*" (Məmmədquluzadə, 2004: 48).

Türk dilinin təmizliyi və qorunması uğrunda mübarizə aparan ziyalılarımız arasında Ömər Faiq Nemanzadə isə xüsusi bir yerə sahibdir. Çünki türk dili məsələsi XX əsrin siyasi proseslərinin başlıca problemlərindən biri idi və Ömər Faiq Nemanzadə də bütün həyatını türkçülük ideologiyası üzərində inkişaf etdirmişdir. O yazır: *"Qərbdə fransız dili nə cür ümumi dil xidmətini görürsə, Yaxın Şərqdə, yəni Qafqaziyada, İranın yarısında, Türküstanda, Rusiyanın cənubi qərbində, Krımda, Anadoluda, Rum elində, Suriyada, İraqda türk dili öyləcə ümumi dil vəzifəsini görür. Türk dili oralarda bütün dillərə hakimdir. Türkcənin bu hakimiyyəti qarşısında imdiyə qədər heç bir dil çıxmamışdır"* (Nemanzadə, 2006: 352). O, publisistik yazılarında ağır ərəb-fars tərkibli dilin cəmiyyətin maariflənməsinə mane olduğunu vurğulayır, xalq dili əsasında ədəbi dilin formalaşmasını müdafiə edirdi: "*... türkcəmizin varlığını, yaşamağını, hamımızın bilikli, hünərli olmamızı, avam üçün yazılan kitabların, qəzetlərin anlaşılmasını istəyiriksə bacardığımız qədər "gərəksiz" və "artıq" olan ərəbcə, farsca sözləri, hələ qaydaların çoxunu buraxıb, türkcələşmiş sözləri yazmağı sınamalıyız"*
(Nemanzadə, 2006: 352).

Milli dil problemi Ömər Faiq Nemanzadənin yaradıcılığında aparıcı yerlərdən birini tuturdu. O, ömrünün sonuna qədər bütün qüvvəsini ana dili uğrunda mübarizəyə həsr etmişdir.

*Dinəndə yandı dilim, dinməyəndə dil yandı,*
*Nə dərdi gizlədə bildim, nə aşikar elədim.*

Ana dilinə olan məhəbbətin ifadəsidir ki: Ömər Faiq yazırdı: *"Dil yoxsa, Millət yoxdur. Mən inanmıram ki, dilini sevməyən millətini sevsin. Çünki dil millətin yeganə nişanıdır, millət sevgisinin birinci əlamətidir"* (Nemanzadə, 2006: 352). Dilinə, xalqına məhəbbət, maarifçilik, türküçülük ideologiyası Ömər Faiq Nemanzadənin bütün əsərlərinin baş mövzusu olmuşdur.

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin dil uğrunda apardıqları mübarizəsindən danışarkən onların yaratdıqları "Molla Nəsrəddin" jurnalından danışmamaq qeyri-mümkündür. XX əsrdə dil məsələlərini dövrün zəruri milli məsələsi kimi gündəmdə saxlayan jurnal kimi "Molla Nəsrəddin" jurnallara başçılıq edirdi. "*...bir xarakterik cəhəti də qeyd etmək lazımdır ki, XX əsrin bütün demokratik qüvvələrinin, o cümlədən molla nəsrəddin-çilərin hamısının yaradıcılığında əsas üç məsələ ön plana keçir. Bunlar milli tərəqqi, qadın azadlığı və ana dili məsələləridir. Başqa problemlər də bunlarla bağlı idi"* (Qurbanov, 1992: 208).

"Molla Nəsrəddin"-də: "*Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım, məni gərək bağışlayasınış, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram*" (Həsənzadə, 1996: 712). sözləri ilə ana dilimizin çox yüksək milli dəyərlərini xalqın danışıq dilində qorumağı milli mədəniyyətimizin ən mühüm ideoloji-siyasi problemi kimi açıqlanır.

1906 – 1931-ci illərdə nəşr olunan "Molla Nəsrəddin" jurnalı Azərbaycan dilinin inkişafında xüsusi mərhələ təşkil edir. Jurnal sadə xalq dili, canlı üslub və kəskin satira vasitəsilə geniş oxucu kütləsinə təsir göstərmişdir. Dilimizə qarşı etinasızlıq, öz ana dilində danışmağı özünə təhqir sayanları jurnal satirik yolla tənqid atəşinə tuturdu: "*Mənim bir dostum var ,özü də müsəlmandır. Amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Axırı bir gün dostumdan soruşdum: mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki, otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun"* (Həsənzadə, 1996: 712).

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə "Molla Nəsrəddin" jurnalı vasitəsilə dil məsələsini siyası və ictimai mübarizənin mərkəzinə çıxarmışlar. Bu jurnal təkcə ədəbi hadisə deyil, eyni zamanda dil siyasətinin praktik platforması olmuşdur.

Bu gün Azərbaycan dili dövlət dili kimi bütün sahələrdə fəaliyyət göstərirsə, bunun təməlində maarifçi mütətəfəkkirlərin ideya irsi dayanır. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin dilə yanaşması müasir dil siyasətində dərsliklərdə və kütləvi informasiya vasitələrində öz əksini tapır. Onların irsi göstərir ki, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli şüurun formalaşdırıcısıdır.

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə Azərbaycan dilinin inkişafında maarifçi mütəfəkkir kimi tarixi rol oynamışlar. Onlar Qurultaydan əvvəl formalaşdırdıqları ideyalarla sonrakı dil islahatlarının əsasını qoymuş, milli dilin xalqa birləşməsinə nail olmuşdular. Bu gün isə ölkə prezidenti İlham Əliyev tərəfindən Azərbaycan dilinə göstərilən sevgi, qayğı Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin ideyalarının daima yaşaya-cağını sübut edir.

Ömər Faiq Nemanzadə və Cəlil Məmmədquluzadə təkcə fərdi yaradıcılıqları ilə deyil, həm də formalaşdırdıqları ictimai fikir mühiti ilə Türkoloyi Qurultayın ideya əsaslarına ciddi təsir göstərmişlər. Onların dili milliləşdirmək, sadələşdirmək və maarifçilik vasitəsinə çevirmək uğrunda apardıqları mübarizə Qurultayın qərarlarında elmi səviyyədə təsdiqini tapmışdır.

Bu ziyalıların mövqeyi göstərir ki,1926-cı il Qurultayı birdən-birə yaranmış hadisə deyil, uzun illər davam edən milli-ideolojı mübarizənin məntiqi nəticəsi idi. Birinci Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni tarixində dönüş nöqtəsi olmaqla yanaşı, Azərbaycan ziyalılarının dil uğrunda apardığı mübarizənin zirvə mərhələlərindən biri kimi dəyərləndirilə bilər. Ömər Faiq Nemanzadə və Cəlil Məmmədquluzadənin ideyaları Qurultayın məqsəd və qərarlarında öz əksini tapmış, ana dilinin milli inkişafın əsas faktoru olduğunu bir daha sübut etmişdir. Qurultayın 100 illiyi bu ideyaların bu gün də aktuallığını quruduğunu göstərir.

Birinci Türkolojı Qurultay türk dünyasının elmi və mədəni tarixində silinməz iz qoymuş, mühüm hadisədir. 2026-cı ilin fevral ayında Birinci Türkoloji Qurultayın 100 ili tamam olur. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkəmizdə qurultayın yubileyi qeyd olundu. Qurultayın 100 illiyinin qeyd edilməsi yalnız tarixi hadisənin xatırlanması deyil, eyni zamanda türk xalqları arasında dil, mədəniyyət və elmi əməkdaşlıq ideyalarının yenidən gündəmə gətirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu Qurultay türk dünyasının ortaq gələcəyi naminə atılmış mühüm addımlardan biri kimi tarixdə qalacaqdır.

**Ədəbiyyat siyahısı**

Əliyeva, A. (2019). Qoca Şərqin güzgüsü–Mirzə Cəlil. Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası
Həsənzadə, T. (1996). Bakı: Azərnəşr.
Xəlilov B. (1999). Birinci Beynəlxalq Türkoloji Qurultayı. Bakı: Elm.
Qurbanov Ş. (1992). Ömər Faiq Nemanzadə. Bakı: Gənclik Nəşriyyatı.
Məmmədquluzadə C. (2004). Əsərləri. II cild. Bakı: Öndər nəşriyyatı.
Nemanzadə F.Ö. (2006) Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.

**Arzu Abdulzadə**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Elmi işçi*
*E-mail: arzuabdulzadah@gmail.com*
*ORCİD: 0009-0006-6489-8480*

# I TÜRKOLOJİ QURULTAYIN TÜRK DİLLƏRİNİN ELMİ İNKİŞAFINDA FƏALİYYƏTİ

**Xülasə**

XX əsrin əvvəllərində türk xalqlarının mədəni və elmi inkişafında dil, əlifba və yazı məsələləri xüsusi aktuallıq kəsb etmişdir. Bu problemlərin elmi əsaslarla müzakirə edildiyi mühüm platformalardan biri 1926-cı ildə keçirilmiş I Türkoloji Qurultay olmuşdur. I Türkoloji Qurultay türk xalqlarının dil problemlərinin sistemli şəkildə həllinə yönəlmiş, əlifba islahatı və orfoqrafik normalaşma proseslərinin elmi əsaslarının formalaşmasında mühüm rol oynamışdır. Qurultayın qərarları türkologiyanın müstəqil elmi sahə kimi inkişafına və sonrakı dil siyasətlərinin müəyyənləşməsinə əhəmiyyətli təsir göstərmişdir.

Bu məqalədə I Türkoloji Qurultayda müzakirə olunan dil, əlifba, yazı və orfoqrafiya məsələlərinin mahiyyəti araşdırılır, həmin müzakirə və qərarların türkologiya elminin inkişafında oynadığı rol elmi-tarixi kontekstdə təhlil edilir. Tədqiqatın əsas məqsədi Qurultayın yalnız tarixi hadisə kimi deyil, eyni zamanda müasir türkologiyanın elmi əsaslarının formalaşmasında mühüm mərhələ olduğunu göstərməkdir.

***Açar sözlər:*** *I Türkoloji Qurultay, türkologiya, türk dilləri, əlifba islahatı, orfoqrafiya, dil siyasəti*

# ACTIVITY OF THE FIRST TURKOLOGICAL CONGRESS IN THE SCIENTIFIC DEVELOPMENT OF TURKIC LANGUAGES

**Abstract**

İn the cultural and scientific development of the Turkic peoples at the beginning of the twentieth century, the issues of language, alphabet and writing were of particular relevance. One of the important platforms where these problems were discussed on a scientific basis was the first Turkological Congress held in 1926. This article examines the essence of the language, alphabet, writing and spelling issues discussed at the first Turkological Congress, analyzes the role of these discussions and decisions in the development of Turkology in the scientific-historical context. The main purpose of the study is to show that the Congress is not only a historical event, but also an important stage in the formation of the scientific foundations of modern Turkology.

During the study, historical-comparative and analytical methods were used, sources of classical Turkology were referenced. As a result of the research, it was established that the first Turkological Congress was aimed at the systematic solution of the language problems of the Turkic peoples, played an important role in the formation of the scientific foundations of the processes of Alphabet reform and spelling normalization. The decisions of the Congress had a significant impact on the development of Turkology as an independent scientific field and the determination of subsequent language policies.

***Key words:*** *I Turkological Congress, Turkology, Turkic languages, Alphabet reform, spelling, language policy*

**Giriş**

XX əsrin əvvəlləri türk xalqlarının ictimai-siyasi və mədəni həyatında köklü dəyişikliklərlə səciyyələnən mühüm bir mərhələdir. Bu dövrdə milli özünüdərk prosesinin güclənməsi, maarifçilik ideyalarının yayılması və elmi fikrin institusionallaşması dil, əlifba və yazı məsələlərini xüsusi aktuallıq müstəvisinə çıxarmışdır. Məhz bu tarixi şəraitdə keçirilən I Türkoloji Qurultay türk xalqlarının dil problemlərinin elmi əsaslarla müzakirə edildiyi ilk beynəlxalq platformalardan biri kimi türkologiya tarixində əlamətdar hadisə olmuşdur.

I Türkoloji Qurultay yalnız konkret dil və əlifba məsələlərinin müzakirəsi ilə məhdudlaşmamış, eyni zamanda türkologiya elminin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən konseptual qərarların qəbul edildiyi elmi mühit yaratmışdır. Qurultayda türk xalqlarının ortaq dil problemləri, əlifba islahatı, yazı sistemlərinin unifikasiyası və orfoqrafiya məsələləri elmi yanaşma əsasında dəyərləndirilmiş, bu məsələlər türkologiyanın müstəqil bir elmi sahə kimi formalaşmasına ciddi təsir göstərmişdir.

**Əsas mətn**

XIX əsrin sonu – XX əsrin əvvəllərində türk xalqlarının yaşadığı coğrafiyada dil və yazı məsələləri yalnız filoloji problem deyil, eyni zamanda mədəni, maarifçi və ictimai-siyasi xarakter daşıyan bir məsələ kimi çıxış edirdi. Bu dövrdə türk xalqları arasında mövcud olan yazı sistemlərinin çoxluğu, əlifbaların fonetik xüsusiyyətlərə uyğun gəlməməsi və vahid orfoqrafik normaların olmaması elmi ünsiyyətin və maarifin inkişafını ciddi şəkildə məhdudlaşdırırdı.

Ərəb qrafikalı əlifba uzun müddət türk xalqlarının yazı sistemi kimi istifadə edilsə də, onun fonetik baxımdan türk dillərinin səslər sistemini tam əks etdirməməsi bir sıra problemlər yaratmışdır. Xüsusilə sait səslərin yazıda qeyri-dəqiq ifadəsi oxu və yazı prosesində çətinliklərə səbəb olur, savadlanma səviyyəsinin yüksəlməsinə manea törədirdi. Bu problem XIX əsrin sonlarından etibarən maarifçi ziyalıların əsərlərində açıq şəkildə tənqid olunmuşdur.

XX əsrin əvvəllərində əlifba məsələsi tədricən elmi diskussiyanın əsas mövzularından birinə çevrilmişdir. Latın qrafikalı əlifbaya keçid ideyası həm fonetik uyğunluq, həm də texniki və pedaqoji üstünlüklər baxımından müzakirə olunurdu. Bu məsələdə azərbaycanlı ziyalıların xüsusi rolu olmuşdur. Firidun bəy Köçərli, Əli bəy Hüseynzadə, Üzeyir Hacıbəyli kimi maarifçilər öz əsərlərində əlifba islahatının zəruriliyini elmi və praktik arqumentlərlə əsaslandırmışlar.

Eyni zamanda, türk xalqları arasında istifadə olunan yazı dillərinin fərqliliyi ümumtürk elmi ünsiyyətinin formalaşmasına mane olurdu. Bir tərəfdən osmanlı türkcəsi, digər tərəfdən çağatay dili, yerli dialektlər və regional yazı ənənələri arasında ciddi fərqlər mövcud idi. Bu fərqlər təkcə leksik və fonetik səviyyədə deyil, qrammatik və üslubi səviyyədə də özünü göstərirdi. Nəticədə elmi mətnlərin qarşılıqlı anlaşılması çətinləşirdi (Quliyeva, 2023: 256-261).

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının dil və yazı problemlərinin ilk dəfə sistemli və elmi əsaslarla müzakirə edildiyi beynəlxalq elmi forum kimi tarixə düşmüşdür. Qurultayda əsas müzakirə mövzuları türk dillərinin inkişaf perspektivləri, əlifba islahatı, yazı sistemlərinin uyğunlaşdırılması və vahid orfoqrafik normaların yaradılması ilə bağlı olmuşdur. Bu məsələlər təsadüfi deyil, qurultaya qədər mövcud olan praktiki və elmi problemlərin məntiqi davamı kimi gündəliyə daxil edilmişdir.

Latın qrafikalı əlifbaya keçid ideyası Qurultayın əsas elmi müzakirə istiqamətlərindən biri olmuşdur. Latın əlifbasının türk dillərinin səs sistemini daha dəqiq əks etdirməsi, öyrənilməsinin asan olması və beynəlxalq elmi ünsiyyət üçün əlverişli imkanlar yaratması müsbət cəhətlər kimi qiymətləndirilmişdir. Bu məsələdə Azərbaycan nümayəndələrinin mövqeyi xüsusi diqqət

çəkmişdir. Onlar artıq əlifba islahatı sahəsində aparılan yerli təcrübələri elmi fakt kimi təqdim etmiş, latın qrafikasının tətbiqinin mümkünlüyünü əsaslandırmışlar.

Qurultayda dil məsələləri yalnız əlifba çərçivəsində deyil, ümumi dil siyasəti kontekstində də müzakirə olunmuşdur. Türk dillərinin qarşılıqlı anlaşılma imkanları, ortaq terminologiyanın yaradılması və elmi ünsiyyət dilinin formalaşdırılması mühüm problemlər sırasında yer almışdır. Xüsusilə elmi terminlərin tərcüməsi və uyğunlaşdırılması məsələsində vahid prinsipin olmaması ciddi problem kimi dəyərləndirilmişdir. Qurultay iştirakçıları terminologiyanın milli dilin daxili imkanları hesabına zənginləşdirilməsinin zəruriliyini qeyd etmişlər (Hüseynova, 2023: 135-141).

I Türkoloji Qurultay türkologiyanın elmi əsaslarının formalaşmasında dönüş nöqtəsi olmuşdur. Qurultaya qədər türk dillərinin tədqiqi əsasən ayrı-ayrı bölgələr və lokal ənənələr çərçivəsində aparılırdı. Məsələn, Osmanlı türkcəsi üzərində aparılan tədqiqatlar Anadolu mərkəzli xarakter daşıyır, Orta Asiya türk dilləri isə əsasən çağatay dili kontekstində öyrənilirdi. Qurultay bu parçalanmış yanaşmanı aradan qaldıraraq türk dillərinin ümumi sistem daxilində tədqiqini əsas prinsip kimi irəli sürmüşdür.

Qurultayın müasir türkologiyaya təsirinin əsas istiqamətlərindən biri metodoloji yanaşmanın dəyişməsi olmuşdur. Qurultayda türk dillərinin tarixi-müqayisəli metod əsasında öyrənilməsinin vacibliyi vurğulanmışdır. Bunun nəticəsi olaraq, sonrakı illərdə oğuz, qıpçaq və karluk qruplarına daxil olan dillər sistemli şəkildə müqayisə olunmağa başlanmışdır. Məsələn, Azərbaycan türkcəsindəki “d” səsinin qıpçaq qrupuna daxil olan dillərdə “y” və ya “z” ilə əvəzlənməsi (ad – ay/az tipli uyğunluqlar) fonetik qanunauyğunluq kimi araşdırılmışdır. Bu cür müqayisəli tədqiqatlar türkologiyanın elmi əsaslarını möhkəmləndirmişdir.

Əlifba islahatı məsələsi Qurultayın müasir türkologiya üçün yaratdığı ən konkret nəticələrdən biridir. Qurultayda ərəb qrafikalı əlifbanın türk dillərinin fonetik sistemini tam əks etdirmədiyi elmi arqumentlərlə əsaslandırılmışdır. Məsələn, ərəb əlifbasında sait səslərin qeyri-dəqiq göstərilməsi “gül”, “göl”, “gil” kimi sözlərin yazıda eyni formada ifadə olunmasına səbəb olurdu. Latın qrafikalı əlifbaya keçid isə bu problemləri aradan qaldırmış, hər səs üçün ayrıca işarənin tətbiqinə imkan vermişdir. Azərbaycan dilində 1920–1930-cu illərdə latın qrafikasının tətbiqi nəticəsində savadlanma səviyyəsinin yüksəlməsi bu islahatın praktik nəticəsi kimi qiymətləndirilir (Məmmədova, 2019: 31-34).

Qurultayın müasir türkologiyanın elmi əsaslarına təsiri terminologiya sahəsində də aydın şəkildə müşahidə olunur. Qurultayda elmi terminlərin birbaşa alınma yolu ilə deyil, milli dilin daxili imkanları hesabına yaradılması ideyası irəli sürülmüşdür. Məsələn, “sintaksis”, “morfologiya” kimi anlayışların türk dillərində qarşılıqlarının formalaşdırılması istiqamətində müzakirələr aparılmışdır. Sonrakı dövrdə “cümlə üzvləri”, “söz kökü”, “şəkilçi” kimi terminlərin elmi ədəbiyyatda sabitləşməsi bu yanaşmanın nəticəsi kimi dəyərləndirilə bilər.

Qurultay həmçinin orfoqrafik normalaşma prosesinə ciddi təsir göstərmişdir. Qurultaya qədər eyni söz müxtəlif mənbələrdə fərqli yazılış formalarında təqdim olunurdu. Məsələn, “elm”, “ilim”, “ilm” variantları paralel şəkildə işlədilirdi. Qurultayda fonetik prinsipin əsas götürülməsi tövsiyə edilmiş və bu prinsip sonradan orfoqrafiya lüğətlərinin tərtibində əsas meyar kimi qəbul olunmuşdur. Müasir Azərbaycan orfoqrafiya normalarının formalaşmasında bu yanaşmanın təsiri açıq şəkildə görünür (Akimova, 2025: 26-27).

I Türkoloji Qurultayın müasir türkologiyanın elmi əsaslarına təsirinin digər mühüm nümunəsi institusionallaşma sahəsində özünü göstərir. Qurultaydan sonra türk dillərinin tədqiqi üzrə elmi mərkəzlər və universitet kafedraları genişlənmişdir. Məsələn, Bakı, Daşkənd və Kazan kimi elmi mərkəzlərdə türkologiya üzrə sistemli tədqiqatlar aparılmağa başlanmış, elmi jurnallar

və monoqrafiyalar nəşr edilmişdir. Bu proses türkologiyanı fərdi təşəbbüslərdən çıxararaq akademik elm səviyyəsinə yüksəltmişdir.

I Türkoloji Qurultay türk dillərinin elmi tədqiqində və dil normalarının standartlaşdırılması prosesində əsaslı dönüş nöqtəsi kimi çıxış etmişdir. Qurultaya qədər türk dilləri əsasən lokal, regional və milli çərçivədə araşdırılır, ümumtürk elmi yanaşma isə sistemli xarakter daşımırdı. Bu vəziyyət həm elmi tədqiqatlarda metodoloji parçalanmaya, həm də yazı və dil normalarında ciddi fərqlərin yaranmasına səbəb olmuşdur.

I Türkoloji Qurultayda bu problem açıq şəkildə müzakirə olunmuş və türk dillərinin tarixi-müqayisəli metod əsasında öyrənilməsinin vacibliyi vurğulanmışdır. Qurultay iştirakçıları fonetik, leksik və qrammatik xüsusiyyətlərin müqayisəli təhlilinin türk dillərinin qohumluq əlaqələrini müəyyənləşdirmək üçün əsas yol olduğunu qeyd etmişlər. Məsələn, oğuz qrupuna daxil olan dillərdə "b" səsinin qıpçaq qrupunda "m" və ya "v" ilə uyğunluq təşkil etməsi, yaxud "y" səsinin bəzi dillərdə düşməsi kimi fonetik hadisələr sistemli şəkildə təhlil olunmağa başlanmışdır. Bu cür müqayisələr sonrakı türkoloji tədqiqatların elmi bazasını formalaşdırmışdır.

Standartlaşma problemləri Qurultayın əsas müzakirə mövzularından biri olmuşdur. Qurultaya qədər eyni anlayış və termin müxtəlif türk dillərində və hətta eyni dil daxilində fərqli formalarla ifadə olunurdu. Məsələn, "elm", "ilim", "bilgi" sözləri müxtəlif mətnlərdə paralel şəkildə işlədilir, elmi terminologiyada sabitlik müşahidə olunmurdu. Qurultayda terminoloji sistemin milli dilin daxili imkanları əsasında formalaşdırılmasının vacibliyi vurğulanmış və bu yanaşma sonrakı dövrdə terminoloji lüğətlərin hazırlanmasına əsas olmuşdur.

Əlifba və yazı məsələləri də standartlaşma probleminin mühüm tərkib hissəsi kimi dəyərləndirilmişdir. Qurultayda ərəb qrafikalı əlifbanın türk dillərinin fonetik xüsusiyyətlərini tam ifadə etmədiyi konkret nümunələrlə göstərilmişdir. Məsələn, sait səslərin yazıda dəqiq göstərilməməsi "qol", "gül", "gəl" kimi sözlərin oxunuşunda çətinliklər yaradırdı. Latın qrafikalı əlifbaya keçid ideyası isə hər bir səsin ayrıca işarə ilə ifadə olunmasına imkan verdiyi üçün standartlaşma baxımından daha məqsədəuyğun hesab edilmişdir. Bu qərarın nəticəsi olaraq Azərbaycan dilində 1929-cu ildən tətbiq olunan latın qrafikası yazı və oxu prosesində vahid normanın formalaşmasına şərait yaratmışdır.

Orfoqrafiya sahəsində də Qurultay mühüm istiqamətlər müəyyənləşdirmişdir. Qurultaya qədər eyni sözün "müəllim", "muallim", "müəllüm" kimi müxtəlif yazılış formalarına rast gəlinirdi. Qurultayda fonetik prinsipin əsas götürülməsi tövsiyə edilmiş və bu prinsip sonradan orfoqrafiya qaydalarının hazırlanmasında əsas meyar kimi qəbul olunmuşdur. Müasir Azərbaycan ədəbi dilində orfoqrafik sabitliyin formalaşması bu yanaşmanın praktik nəticəsi kimi qiymətləndirilə bilər (Quliyeva, 2023: 258-261).

I Türkoloji Qurultay türk dillərinin elmi tədqiqində və dil normalarının standartlaşdırılması prosesində əsaslı dönüş nöqtəsi olmuşdur. Qurultaya qədər türk dilləri əsasən lokal və regional çərçivədə öyrənilir, ümumtürk yanaşma isə sistemli xarakter daşımırdı. Bu səbəbdən tədqiqatlarda metodoloji parçalanma və yazı normalarında fərqlər müşahidə olunurdu.

Qurultayda irəli sürülən metodoloji prinsiplər türk dillərinin müqayisəli-tarixi əsasda öyrənilməsini təşviq etmişdir. Məsələn, fonetik və morfoloji uyğunluqların müqayisəli təhlili nəticəsində oğuz, qıpçaq və karluk qruplarının dilləri arasındakı fərqlər sistemli şəkildə müəyyən edilmişdir. Qurultayın Azərbaycanlı alimlər üçün də böyük təsiri olmuşdur. Bəkir Çobanzadə Qurultayda irəli sürülən prinsiplərə əsaslanaraq türk dillərinin müqayisəli-tarixi tədqiqinə Azərbaycan dilçilik məktəbində yeni metodoloji baxış gətirmişdir. Onun dialektoloji və fonetik araşdırmaları Qurultayın elmi xəttinin yerli tərcüməsi kimi çıxış etmişdir. Əbdüləzəl Dəmirçizadə

Azərbaycan dilinin tarixi inkişafı və fonetik xüsusiyyətləri üzrə tədqiqatlarında Qurultaydan irəli gələn metodoloji prinsipləri tətbiq etmiş, terminoloji vahidlərin sistemləşdirilməsi məsələlərinə diqqət yetirmişdir. Əli Sultanlı və Firudin bəy Köçərli də türkoloji araşdırmalarda Qurultayın ideyalarını davam etdirərək, dil və mədəniyyətin qarşılıqlı əlaqəsini öyrənmişlər.

I Türkoloji Qurultay həm Avropa və rus alimləri tərəfindən, həm də Azərbaycanlı tədqiqatçılar tərəfindən türkoloji elmin institusionallaşması və metodoloji əsaslarının müəyyənləşdirilməsində həlledici rol oynamışdır. Qurultayda irəli sürülən prinsiplər yerli və beynəlxalq tədqiqatçıların işində davamlı şəkildə tətbiq edilmiş, Azərbaycan dilçilik məktəbinin inkişafına zəmin yaratmışdır.

Tədqiqatın ümumi məntiqi göstərir ki, I Türkoloji Qurultay türkoloji elmin inkişafında yalnız müəyyən problemlərin müzakirə olunduğu platforma rolunu oynamamış, eyni zamanda bu sahədə elmi düşüncənin istiqamətini müəyyən edən konseptual çərçivə formalaşdırmışdır. Qurultay çərçivəsində irəli sürülən yanaşmalar türk dillərinin elmi tədqiqində metodoloji ardıcıllığın yaranmasına və dil faktlarının sistemli şəkildə öyrənilməsinə imkan vermişdir (Şükürov, 2016: 186-190).

**Nəticə**

Araşdırma zamanı aydın olur ki, Qurultayın əhəmiyyəti konkret qərarlarla məhdudlaşmır. Onun əsas dəyəri türkoloji tədqiqatlarda vahid elmi dilin və ümumi terminoloji bazanın formalaşdırılması istiqamətində yaratdığı elmi mühitdədir. Bu mühit sonrakı dövrlərdə aparılan dilçilik, mətnşünaslıq və tarixi-linqvistik araşdırmalar üçün metodoloji başlanğıc nöqtəsi kimi çıxış etmişdir.

Bununla yanaşı, Qurultay türkoloji elmin inkişafında milli və ümumtürk yanaşmalarının uzlaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Müasir türkoloji tədqiqatlarda müşahidə olunan inteqrativ yanaşmalar, eləcə də müxtəlif türk dilləri arasında paralellərin qurulması tendensiyası məhz bu elmi ənənənin davamı kimi qiymətləndirilə bilər.

Beləliklə, I Türkoloji Qurultayın elmi irsi təkcə tarixi fakt kimi deyil, türkoloji elmin nəzəri və metodoloji inkişafında davam edən bir proses kimi dəyərləndirilməlidir. Bu irsin müasir elmi kontekstdə yenidən təhlili və qiymətləndirilməsi türkoloji tədqiqatların perspektivlərinin müəyyənləşdirilməsi baxımından xüsusi aktuallıq daşıyır.

**Ədəbiyyat siyahısı**

Akimova, E.S. (2025) . I Türkoloji Qurultay – türk ruhunun qələbəsi. Ədəbiyyat qəzeti № 43-44, Bakı: 26-27.

Hüseynova, G. (2023). Azərbaycanda dil siyasəti və dil əlaqələri. "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı: Elm və təhsil nəşriyyatı, 135-141.

Quliyeva, K. (2023). Yazılı abidələr və Azərbaycan dili dialekt və şivələrində qohumluq əlaqələrini bildirən sözlər. Respublika elmi konfransının materialları, Bakı: Elm və təhsil nəşriyyatı, 256-261.

Məmmədova, E.Ə. (2019). Birinci Türkoloji Qurultay və dil məsələləri. Humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal №10, Bakı: 31-34.

Şükürov, A. (2016). Birinci Türkoloji Qurultay-90. Azərbaycan jurnalı №10, Bakı: 186-190

**Ülviyyə Aslanova**
*AMEA Naxçıvan Bölməsi*
*Kiçik elmi işçi*
*E-mail: aslanowaulya@gmail.com*
*ORCİD: 0009-0006-2777-6070*

# BİRİNCİ TÜRKOLOJİ QURULTAYDAN GÜNÜMÜZƏ TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalədə Türkoloji Qurultayın və qloballaşma proseslərinin Azərbaycan dilçiliyində terminologiyanın formalaşmasına təsiri araşdırılır. Xüsusilə 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının dil, ədəbiyyat və mədəniyyət məsələlərinin elmi müstəvidə müzakirə olunduğu mühüm elmi platforma kimi təhlil olunur. Qurultay türk dillərinin müqayisəli tədqiqi, ortaq terminoloji sistemin formalaşdırılması və əlifba islahatları baxımından fundamental əhəmiyyət daşımış, türkdilli xalqlar arasında elmi əməkdaşlığın inkişafına zəmin yaratmışdır. Məqalədə Azərbaycan dilçiliyinin tarixi inkişaf mərhələləri də nəzərdən keçirilir. Sovet dövründə terminologiyanın əsasən rus dili vasitəsilə formalaşdığı, lakin müstəqillik dövründə milli terminologiyanın yaradılması, sistemləşdirilməsi və standartlaşdırılması istiqamətində ardıcıl elmi fəaliyyətlərin həyata keçirildiyi göstərilir. Bu prosesdə elmi qurumların, xüsusilə Terminologiya Komissiyasının fəaliyyəti mühüm rol oynamışdır. Qloballaşma və rəqəmsal texnologiyaların inkişafı terminoloji sistemə yeni çağırışlar gətirmişdir. İngilis mənşəli terminlərin geniş yayılması, paralel termin formalarının mövcudluğu və sosial medianın təsiri terminoloji vahidliyin pozulmasına səbəb olur. Bu səbəbdən milli terminlərin elmi əsaslarla yaradılması, standartlaşdırılması və ortaq türk terminoloji bazasının formalaşdırılması aktual elmi və praktiki vəzifə kimi çıxış edir.

Nəticə etibarilə, Türkoloji Qurultayın ideyaları müasir dövrdə də aktuallığını qoruyur və Azərbaycan dilçiliyində terminologiyanın inkişafı üçün nəzəri və metodoloji baza rolunu oynayır.
***Açar sözlər:*** *Türkoloji qurultay, terminologiya, Azərbaycan dilçiliyi, ortaq türk terminologiyası, media dili, rəqəmsal kommunikasiya*

# FROM THE FIRST TURKOLOGICAL CONGRESS TO THE PRESENT: TERMINOLOGY ISSUES

**Abstract**

The article examines the impact of the Turkological Congress and globalization processes on the formation of terminology in Azerbaijani linguistics. In particular, the First Turkological Congress held in Baku in 1926 is analyzed as an important scholarly platform where issues of language, literature, and culture of the Turkic peoples were discussed at an academic level. The Congress played a fundamental role in the comparative study of Turkic languages, the formation of a common terminological system, and alphabet reforms, and it created a basis for the development of scientific cooperation among Turkic-speaking peoples. The article also reviews the historical stages of development of Azerbaijani linguistics. It is noted that during the Soviet period terminology was mainly formed through the Russian language, whereas in the period of independence significant scientific efforts were undertaken toward the creation, systematization,

and standardization of national terminology. In this process, scientific institutions, particularly the Terminology Commission, played an important role. Globalization and the rapid development of digital technologies have introduced new challenges to the terminological system. The widespread use of English loanwords, the existence of parallel term forms, and the influence of social media have led to a weakening of terminological consistency. Therefore, the creation of nationally grounded scientific terminology, its standardization, and the formation of a common Turkic terminological base are considered important scientific and practical tasks.

In conclusion, the ideas of the Turkological Congress remain relevant today and continue to serve as a theoretical and methodological foundation for the development of terminology in Azerbaijani linguistics.
***Key words:*** *Turkological congress, terminology, Azerbaijani linguistics, common Turkic terminology, media language, digital communication*

**Giriş**

Azərbaycan dilçiliyi Azərbaycan xalqının milli kimliyinin, mədəniyyətinin və elmi düşüncə sisteminin formalaşmasında mühüm rol oynayan fundamental elmi sahələrdən biridir. Dil yalnız kommunikasiya vasitəsi deyil, həm də milli düşüncə tərzini, tarixi yaddaşı və mədəni kodları özündə daşıyan sosial-mədəni sistemdir. Buna görə də dilçilik elmi dilin strukturunu, tarixi inkişafını, qrammatik quruluşunu, leksik-semantik sistemini və terminoloji inkişafını kompleks şəkildə tədqiq edir. Azərbaycan dilçiliyi uzun tarixi inkişaf yolu keçmiş, müxtəlif ictimai-siyasi mərhələlərin təsiri altında formalaşaraq zəngin elmi ənənə yaratmışdır. Xüsusilə türkoloji məktəbin formalaşması bu inkişafda mühüm rol oynamışdır. Türkoloji tədqiqatlar yalnız dilin deyil, eyni zamanda türk xalqlarının mədəni və elmi inteqrasiyasının da əsas istiqamətlərindən biri kimi çıxış etmişdir. XX əsrin əvvəllərində keçirilmiş Türkoloji Qurultaylar türk xalqlarının dil, ədəbiyyat və mədəniyyət problemlərinin elmi əsaslarla müzakirə olunduğu ilk beynəlxalq platforma olmuşdur. Bu Qurultaylar elmi diskussiyaların institusional səviyyədə aparılmasına şərait yaratmış və ortaq terminoloji, orfoqrafik və əlifba problemlərinin həllinə yönəlmişdir. 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türkoloji elmin sistemli inkişafında dönüş nöqtəsi kimi qəbul olunur. Bu Qurultay yalnız elmi müzakirə platforması deyil, həm də türk dillərinin gələcək inkişaf istiqamətlərini müəyyən edən strateji forum idi. Burada türk dillərinin müqayisəli tədqiqi, ortaq yazı sistemi və terminoloji vahidlik kimi fundamental məsələlər müzakirə edilmişdir. "Birinci Türkoloji Qurultayda üç məsələ daha çox diqqət mərkəzində olmuşdur ki, onlardan birincisi, əlifba, ikincisi, orfoqrafiya, üçüncüsü isə terminologiya idi" [Cəfərov, Hüseynova və Qəribli, 2025]. Bu yanaşma göstərir ki, terminologiya məsələsi Qurultayda təsadüfi deyil, elmi sistemin əsas struktur komponenti kimi qəbul edilmişdir. Əlifba və orfoqrafiya ilə birlikdə terminologiyanın qeyd olunması onun dilin inkişafında həm normativ, həm də funksional rolunu təsdiqləyir.

Termin yaradıcılığı dilin daxili potensialına əsaslanır. Yeni elmi anlayışların ifadəsi üçün dilin öz leksik imkanlarından istifadə edilməsi həm milli dilin qorunmasına, həm də onun elmi funksionallığının genişlənməsinə xidmət edir. Bu baxımdan terminologiya dil siyasətinin mühüm istiqamətlərindən biri kimi çıxış edir.

Qurultayın elmi əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərmişdir:

1. türk dillərinin müqayisəli tədqiqinin sistemləşdirilməsi
2. latın qrafikasına keçid ideyasının elmi müzakirəsi
3. terminologiyanın milli əsaslarla formalaşdırılması

4. türkoloqlar arasında elmi əməkdaşlığın gücləndirilməsi

Bu istiqamətlər türkoloji elmi ayrıca akademik sahə kimi möhkəmləndirmiş və gələcək tədqiqatlar üçün metodoloji baza yaratmışdır. Qurultayın mühüm müzakirə mövzularından biri latın qrafikasına keçid olmuşdur. Bu məsələ ətrafında fərqli elmi mövqelər formalaşmışdır. "Amma Tatarıstandan və Qazaxıstandan gələn türkoloqlar – Qalimcan Şərəf və Əhməd Baytursun çox kəskin şəkildə bu ideyaya qarşı çıxırdılar" [1926-cı il I Bakı Türkoloji Qurultayı, 2006: 12]. Bu fakt göstərir ki, Qurultay elmi monolitlik deyil, elmi plüralizm əsasında fəaliyyət göstərmişdir. Müxtəlif yanaşmaların mövcudluğu qəbul edilən qərarların daha əsaslandırılmış və elmi baxımdan güclü olmasına şərait yaratmışdır.

Latın qrafikasına keçid ideyası maarifçilik prosesini sürətləndirmiş, yazı sisteminin sadələşdirilməsinə və türk xalqları arasında ortaq elmi kommunikasiya mühitinin formalaşmasına xidmət etmişdir. Türk dillərinin terminoloji sistemi tarixən müxtəlif mənbələr əsasında formalaşmışdır. Bu sistemin əsasını üç böyük qat təşkil edir: ümumtürk leksik bazası, ərəb-fars mənşəli elmi-mədəni sözlər və Avropa dillərindən, xüsusilə də müasir dövrdə ingilis dilindən keçən beynəlxalq terminlər. Bu qatların qarşılıqlı təsiri nəticəsində Azərbaycan dili həm milli xüsusiyyətlərini qorumuş, həm də beynəlxalq elmi sistemə inteqrasiya etmişdir. Bu kontekstdə Çobanzadənin fikri xüsusi əhəmiyyət daşıyır: "Çobanzadə də qeyd edir ki, Terminologiya yaradarkən diqqət yetirməli olduğumuz üçüncü baza elmi anlayışlar, elmi nəzəriyyələr sahəsində ümumi istiqamət tutmağımız və bununla yanaşı, onların adlarının, terminlərinin Avropa tərzinə əsaslanmağımızdır" [1926-cı il I Bakı Türkoloji Qurultayı, 2006: 180]. Bu fikir göstərir ki, terminologiya yalnız milli çərçivədə qapalı sistem kimi deyil, həm də beynəlxalq elmi standartlara inteqrasiya olunmuş dinamik model kimi qəbul edilməlidir. Bu yanaşma müasir qloballaşma dövründə daha da aktuallaşır, çünki elmi kommunikasiya artıq lokal deyil, qlobal xarakter daşıyır. Bu tarixi inkişaf mərhələləri Azərbaycan dilində terminologiyanın formalaşması və sistemləşməsi üçün möhkəm elmi baza yaratmışdır. Lakin XXI əsrdə baş verən qloballaşma prosesləri və rəqəmsal texnologiyaların sürətli inkişafı terminoloji sistemin qarşısında yeni çağırışlar formalaşdırmışdır. Bu səbəbdən terminologiyanın inkişaf dinamikası artıq yalnız tarixi-elmi kontekstlə deyil, həm də müasir informasiya cəmiyyətinin tələbləri ilə izah olunmalıdır.

Azərbaycan dilçiliyində xüsusilə XX əsrin 20–30-cu illəri terminologiyanın sistemləşdirilməsi baxımından mühüm mərhələ hesab olunur. Bu dövrdə terminoloji vahidliyin yaradılması elmi dilin normativ əsaslarının formalaşmasına xidmət etmişdir. Qurultaydan sonra terminlərin standartlaşdırılması istiqamətində aparılan işlər Azərbaycan dilinin elmi üslubunun inkişafına ciddi təsir göstərmişdir. "1917-ci ilədək türk xalqlarının elmi anlayışlar üçün ciddi, bu və ya digər dərəcədə işlənmiş terminologiyası yox idi. Hər bir tərcüməçi, hər bir müəllif onun fikrincə müəyyən anlayışa müvafiq gələ bilən termini işlədirdi" [1926-cı il I Bakı Türkoloji Qurultayı, 2006: 183]. Bu yanaşma göstərir ki, Qurultaydan əvvəl terminoloji sistemdə vahidlik mövcud deyildi və hər müəllif fərdi yanaşma əsasında termin yaradırdı. Bu isə elmi ünsiyyətdə ciddi anlaşılmazlıqlara səbəb olurdu. Türkoloji Qurultay bu pərakəndəliyin aradan qaldırılmasına yönəlmiş mühüm elmi platforma olmuşdur.

Müasir dövrdə qloballaşma prosesləri və rəqəmsal texnologiyaların inkişafı terminologiya sahəsində yeni çağırışlar yaratmışdır. Xüsusilə informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində yeni terminlərin dilə daxilolma sürəti xeyli artmışdır. Bu proses bir tərəfdən elmi inkişafı sürətləndirir, digər tərəfdən isə terminoloji sistemdə normativ problemlər yaradır. "Qloballaşma dövründə elm sahələrinin diferensiyası, elmlərin inteqrasiyası terminologiyanın sürətli inkişafına təsir edir" [Sadıqova, 2025: 243]. Bu fikir göstərir ki, terminologiya statik deyil,

daim dəyişən və inkişaf edən sistemdir. Elmlərin inteqrasiyası yeni anlayışların yaranmasına səbəb olur və bu anlayışlar üçün adekvat terminlərin formalaşdırılması zərurəti meydana çıxır. Müasir Azərbaycan dilində terminoloji problemlər əsasən aşağıdakı istiqamətlərdə özünü göstərir:

Birincisi, xarici sözlərin həddindən artıq istifadəsidir. Xüsusilə ingilis dilindən alınan "menecer", "kontent", "login", "password", "link" kimi terminlər çox zaman milli qarşılıq tapılmadan istifadə olunur. Bu isə dilin daxili potensialının zəifləməsinə səbəb olur. İkincisi, terminlərin standartlaşdırılmamasıdır. Eyni anlayış üçün paralel terminlərin mövcudluğu elmi mətnlərdə və rəsmi sənədlərdə qarışıqlıq yaradır. Bu problem terminoloji sistemin vahid olmamasından qaynaqlanır. Üçüncüsü, media və rəqəmsal platformaların təsiridir. Sosial şəbəkələr və onlayn kommunikasiya vasitələri terminlərin sürətlə yayılmasına şərait yaratsa da, onların normativ qaydalara uyğunlaşmadan istifadəsinə də səbəb olur. Dördüncüsü, terminlərin tərcümə və adaptasiya problemləridir. Bir çox yeni anlayışlar Azərbaycan dilinə daxil olarkən onların dəqiq qarşılığı ya gec müəyyən edilir, ya da müxtəlif variantlarda təqdim olunur. Bu problemlərin fonunda ortaq türk terminologiyası ideyası xüsusi aktuallıq kəsb edir. Türkdilli ölkələr arasında elmi inteqrasiyanın gücləndirilməsi üçün ortaq terminoloji sistemin yaradılması vacib hesab olunur. "Türk dillərinin ortaq terminologiyanın yaradılması, ortaq terminlərin qəbul edilməsi ictimai mahiyyət kəsb edir" [Sadıqova, 2025: 497]. Bu fikir göstərir ki, terminologiya yalnız dilçilik problemi deyil, həm də sosial və siyasi əhəmiyyət daşıyan strateji sahədir. Ortaq terminologiya elmi əməkdaşlığı gücləndirir və türkdilli ölkələr arasında kommunikativ vahidlik yaradır. Beynəlmiləl terminlər isə müasir elmi sistemin ayrılmaz hissəsidir. "Bank", "biznes", "pilot", "rotasiya" kimi terminlər beynəlxalq elmi leksikanın tərkib hissəsi kimi müxtəlif dillərdə eyni funksiyanı yerinə yetirir. Bu terminlər qlobal elmi kommunikasiya üçün vahid anlayış bazası yaradır [Sadıqova, 2025: 502]. Bununla belə, bu terminlərin həddindən artıq və nəzarətsiz istifadəsi milli dil sistemində balanssızlığa səbəb ola bilər. Buna görə də terminoloji siyasət balanslı yanaşma tələb edir: milli söz yaradıcılığı ilə beynəlxalq terminlərin uyğunlaşdırılması paralel şəkildə aparılmalıdır.

Müasir informasiya cəmiyyətində media və rəqəmsal platformalar dilin inkişafında mühüm rol oynayır. Sosial şəbəkələrdə "like", "share", "post", "update" kimi sözlərin geniş istifadəsi dilin normativ strukturuna təsir göstərir. Bu vəziyyət terminoloji xaos yaradır və dil vahidliyini zəiflədir. Media dilində normativliyin pozulması xüsusilə texnologiya və biznes sahələrində daha qabarıq şəkildə müşahidə olunur. Bu isə elmi üslubla publisistik üslub arasında sərhədlərin bulanıqlaşmasına gətirib çıxarır. Bu baxımdan Türkoloji Qurultayların ideyaları müasir dövr üçün də aktuallığını qoruyur. Qurultayların əsas məqsədi elmi dilin sistemləşdirilməsi, terminoloji vahidliyin yaradılması və ortaq elmi standartların formalaşdırılması olmuşdur. Bu prinsiplər bu gün də dil siyasətinin əsas istiqamətlərindən biridir. "Birinci Türkoloji Qurultaydan çıxan nəticələr göstərir ki, dil faktoru türk xalqlarının mədəni inteqrasiyasının əsasını təşkil edir" [Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər, 2016: 8]. Bu fikir dilin yalnız kommunikasiya vasitəsi deyil, həm də mədəni və elmi inteqrasiyanın əsas faktoru olduğunu göstərir.

**Nəticə**

Nəticə etibarilə, Türkoloji Qurultay Azərbaycan dilçiliyində terminologiyanın formalaşması və inkişafında fundamental rol oynamışdır. Qurultay elmi dilin sistemləşdirilməsi, terminoloji vahidliyin yaradılması və türk xalqları arasında elmi əməkdaşlığın gücləndirilməsi baxımından tarixi əhəmiyyət daşıyır. Müasir dövrdə qloballaşma, rəqəmsal texnologiyalar və beynəlxalq kommunikasiya terminoloji sistemə yeni çağırışlar gətirmişdir. Xarici təsirlərin

artması, sosial media dilinin güclənməsi və terminlərin standartlaşdırılmaması problemləri dil siyasətində yeni yanaşmalar tələb edir. Bu problemlərin həlli üçün milli termin yaradıcılığının inkişafı, ortaq türk terminoloji bazasının formalaşdırılması, elmi standartların gücləndirilməsi və media savadlılığının artırılması vacibdir. Beləliklə, Türkoloji Qurultayın ideyaları bu gün də elmi və praktik əhəmiyyətini qoruyur və Azərbaycan dilçiliyinin inkişaf istiqamətlərini müəyyən edən əsas nəzəri baza kimi çıxış edir.

**Ədəbiyyat siyahısı**

Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. (2016). Elmi sessiyanın materialları. Bakı: Elm və təhsil.

Cəfərov N, Hüseynova M, Qəribli A. (2025). Birinci Türkoloji Qurultayda terminologiya məsələsi // Ədəbiyyat qəz., 18 avqust.

Sadıqova, S. (2025). Azərbaycan terminologiyasının nəzəri əsasları. I cild. Bakı: Elm.

Sadıqova, S. (2025). Azərbaycan terminologiyasının nəzəri əsasları. II cild. Bakı: Elm.

1926-cı il I Bakı Türkoloji Qurultayı. (2006).Bakı: Çinar-Çap.

https://adu.edu.az/az/xeberler/xeberler/13076.html qoyulma tarixi: 03.03.2026

**Günel Pənahəli**
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*Dissertant*
*E-mail: gunel_orucova1981@mail.ru*
*ORCİD: 0009-0001-7494-0551*

# BƏKİR ÇOBANZADƏNİN İKİ MƏQALƏSİNƏ 100 İLDƏN SONRA CAVAB ("TÜRK ƏDƏBİYYATINDA TƏQLİD VƏ YARADICILIQ", "ELMİ VƏ ƏDƏBİ DİL MƏSƏLƏSİ")

**Xülasə**

Məqalə görkəmli alim, professor B.Çobanzadənin iki məlum yazısına ithaf olunur. Azərbaycan ədəbi dilinin və ədəbiyyatının XX əsrdə və hazırki dövrdə inkişafını təhlil edir. Keçən əsrdən başlayaraq bu sahələrdə olan dəyişikliklərin tarixi və siyasi səbəbləri , sonrakı və mövcud dövrə təsiri, cari vəziyyəti haqqında faktlar sadalanır. Bu barədə söylənilən fikirlər Azərbaycan filologiyasının bir əsrlik inkişaf yolunda bəzi məsələləri izah edir. Vacib məqamlar bir daha açıqlanır, mümkün imkanlardan məqsədyönlü istifadə məqbul hesab edilir.
***Açar sözlər:*** *ədəbi ənənə, novatorluq, yeni mərhələ, təqlidçilik və milli düşüncə*

# A RESPONSE AFTER 100 YEARS TO TWO ARTICLES BY BAKIR CHOBANZADE (IMMITATION AND CREATIVITY IN TURKIC LITERATURE", "THE ISSUE OF THE SCIENTIFIC AND LITERARY LANGUAGE")

**Abstract**

The article is dedicated to two well-known writings of the prominent scholar and professor B. Chobanzade. It analyzes the development of the Azerbayjani literary language and literature in the 20th century and in the present period. Starting from the past century, the historical and political reasons for the changes that occurred in these fields, their impact on subseguent and current periods, and the present situation are presented thourgh facts. The ideas expressed inthis regard explain certain issues in the century-long development path of Azerbaijani philology. Important points are clarified once again, and the purposefuluse of available possibilities is considered appropriate.
***Key words:*** *literary tradition, innovation, new stage, imitation and national thought*

Ədəbi və bədii istiqamət yalnız bir statusa əsaslanaraq qalmır. Yəni bu anlayış təkcə ictimai-siyasi və sosial mərkəzin təkanverici qüvvəsi ilə idarə olunmur. Bir sıra amillər də yardımçı mövqedə dayanır. Texniki inkişafın, insanlarda psixoloji, ruhi dəyişkənliyin, genetik təsirin, yeni fərdlərin yaranması da əsas rol oynayır. Əslində bütün bunlar harmonik dəstək nəticəsində bir-birini tamamlayır,yaxud bir-birindən asılı olaraq tamamlanır. Sanki ədəbi şəbəkə genişlənərək mövcud amillərin yeniliklər üzərində güclənməsini tələb edir.

Ötən 100 ildə dil və ədəbiyyat bu tələb və təklifin təsirindən, iradından müəyyən dəyişiklik və inkişafa davam etmişdir və buradakı təhlil Azərbaycan ədəbiyyatını əhatə edir.

B.Çobanzadənin "Türk ədəbiyyatında təqlidçilik və yaradıcılıq" məqaləsi (Çobanzadə, 2007: 145) və "Elmi və ədəbi dil məsələsi" məqaləsi (Çobanzadə, 2007: 213) türkoloji qurultayın təşkili ərəfəsində (1926-cı ildə) qələmə alınmışdır.

Burada XX əsrin II onilliyində ümumtürk dili və ədəbiyyatının vəziyyəti, tarixi missiyası, real dövrün yaratdığı şərait, istiqamət yolları, çətinliklər açıqlanmışdır. Görkəmli alim-tədqiqatçını narahat edən məsələlər öz həllini nə dərəcədə tapıb? Ötən bir əsr ərzində dil və ədəbiyyat öz inkişafını, maraq dairəsini, ifadə imkanlarını necə genişləndirib?

"Türk ədəbiyyatında təqlidçilik və yaradıcılıq" məqaləsində türk ədəbiyyatının minillik və daha qədim ənənəyə təsiri və ənənənin ədəbiyyata təsiri məsələsini ön plana çəkmişdir. Əlbəttə, ədəbiyyat yalnız tarixi gedişata sadiq qalıb yenilikləri ilə seçilməsə, o ədəbiyyat təqlidçilik möhüründən uzaqlaşa bilməz. Milli şüur və təfəkkürüm çoxəsrlik fars ədəbiyyatına assimilyasiyası onun formalaşmasında mühüm rol oynaya bilər, amma daimi mütləq ideoloji alətə çevrilə bilməz. Daha doğrusu, bunu milli ədəbiyyat nəzarət altında saxlamalı və tərənnüm obyektini cilalamalıdır. Türk ədəbiyyatında təqlidçilik böyük bir dövrü əhatə edir, lakin təsvir obyekti baxımından ifadə tərzi artıq XIII əsrdən etibarən milliləşmış, bir az da açıq və xəlqiyanə olmuşdur. Əgər təqlidçilik özünü ifadə tərzində də qorumuş olsaydı, Azərbaycan –türk ədəbiyyatı Nəsimini, Xətaini, Füzulini inamla Şərq ədəbiyyatına təqdim edə bilməzdi. " Bədii yaradıcılığında Nəsimi fəlsəfəsini, Xətai vətəndaşlığını birləşdirən Füzuli dərin hikmət, qüvvətli lirika musiqili şeiriyyət hesabına Azərbaycan şeir sənətinin vüsətini göylərə yüksəltdi (Mehdiyeva, 2012: 94). Di gəl bu epoxanın da dövrü 400-500 ildən çox davam edib daha çox ictimai-tarixi mərhələni əhatə edə bilməz. Belə ki, mövzu qalsa da, ifadə və üsullar, ən əsası, ideya yeniliyi yaranmalıdır. B.Çobanzadə türk ədəbiyyatında təqlidçiliyin kor-koranə olmadığını, ənənəyə polemik münasibətin olduğunu da qeyd edir: "Türk dilinin islamiyyətə qədər tanınmadığı İran, Hindistan, Suriya, Misir kibi ölkələrə intişarını və buralarda türk şair və ədiblərinin törədiyini nəzəri-etibara alırsaq, qısadan deyə biləriz ki, ərəb-fars dövrü türk ədəbiyyatını inkişafdan, dərinləşməkdən alı qoymuşdusada, genişlənməsinə, intişarına çox yardım etmişdir" (Çobanzadə, 2007: 147).

Bu istər orta əsrlərdə, yəni anadilli ədəbiyyatın erkən inkişaf dövründə , istərsə də, XIX əsr və XX əsrin əvvəllərində özünü sübut edir, məsələn, qəzəldə mücərrədlikdən realizmə meyil, təsvir obyektinin daha fəal və müqabil tərəfə açıq münasibəti açıq bədii lövhələrlə canlanır.

XVIII əsrdən inkişaf edən realizm artıq təqlidi ədəbiyyatın bədii üstünlüyünü məhdudlaşdırdı. Bu yenilik XIX əsr ədəbiyyatına da təsir etdi, yeni janrlar, yeni üslubi ifadə imkanları genişləndi. XX əsrin əvvəllərindən daha məhsuldar şəkildə ədəbiyyat mətbuatla paralel yaradıcılığa qərar verdi. Bu da özlüyündə ədəbiyyatın kütləviləşməsinə zəmin yaratdı. Bu dövrə qədər ədəbiyyat saraydan zadəgan təbəqəyə, oradan da nisbətən kütləyə ötürülmüşdüsə də, mətbuat bu imkanın sərhədlərini tamamilə aradan qaldırdı. Söhbət ötən yüzildəki təqlid və yaradıcılıqdan gedirsə, bəs bu keçən bir əsrin ədəbi-bədii təqdimatı hansı yaradıcılıq üsullarını əhatə edir? Həmçinin, bu dövr ədəbiyyatında hansı ədəbi-bədii istiqamət diqqəti cəlb edir?

XX əsrin 20-ci illəri əslində uzun zamanın şərq bədii ifadə tərzini tam yekunlaşdırmasa da, klassika ilə müasirlik arasında köklü dəyişikliklər yaratdı. Ədəbiyyat, poetik forma və deyim siyasi mühitin ideoloji silahdaşına çevrildi. Yəni istər poeziya, istər təhkiyə, dramaturgiya siyasi məqsədlərin cəmiyyətə ötürülməsində ən bariz nümunəyə çevrildi. Düzdür, ədəbiyyatın forma sahəsi genişləndi, amma bu sosializm-realizminin ideya çərçivəsindən kənara sıçraya bilmədi. Bir az da dəqiq desək, şəxsi dəst-xətti olanlar cəmiyyətə təhlükəli tərəf kimi təqdim edilərək yaradıcılıq bacarıqlarından fiziki surətdə məhrum edildi. Müəyyən qisim isə, özü də daha böyük ədəbi toplum real şəraitin dəstəyi ilə fəal yaradıcılıq

yoluna başlayıb davam etdilər. Odur ki, sövet ədəbiyyatı eləcə mərhələ deyil, bədii təfəkkür xəttinin mühüm və fərqli inkişaf dövrü hesab olunur. Bu zamanın ədəbiyyatının ideya yönü artıq bəlli olsa da, bu, poeziyanın, bədii sözün ifadə imkanlarına mane olmadı. Bu dövrü deyim tərzi, mövzu zənginliyinə görə xüsusi ədəbi sənətkarlıq dönəmi hesab etmək olar. Əlbəttə, ədəbiyyatın tam istiqaməti vahid ideyaya- sovet cəmiyətinin bərabərlik və ekstəbəqələşmə şüarının carçısına çevrildi. Eyni zamanda müasir Azərbaycan dilinin bədii düşüncə formasının ən ideal çiçəklənmə şəraiti üçün zəmin yaratdı. Bədii obraz potensialı daha sürətlə irəliləyərək cəmiyyətin mütərəqqi cinahına çevrildi. Eləcə də 70 illik sovet ədəbiyyatı 20-ci illərdən etibarən hər onillikdə yeniliyi ilə seçildi. Doğrudur, 50-ci ilərə kimi ədəbiyyatın əsas öhdəliyi şəxsiyyətə pərəstişi nümayiş etdirsə də, bu özlüyündə forma və ifadə imkanlarının əlvanlığı ilə seçildi., eyni obyekt müxtəlif süzgəclərdən keçdi. Hədəf toxunulmaz oldu, lakin yanaşma və təqdimatda yeni-yeni bədii fiqurlar üzə çıxdı. 40-cı illər müharibə mövzusu ilə istiqaməti bir qədər dəyişdirdi, amma söyləm tərzinin çərçivəsi zənginləşməkdə davam edirdi. 60-cı illər ədəbiyyatı yeni insan axtarışları ilə "toxunulmaz obraz" strukturunu silkələdi, əsl ədəbi-bədii dairə formalaşdı. "Yeni insan" obrazı daha müstəqil düşüncəyə malik, tələbkar, bir azda üsyankar, mühafizəkar qaydalara ciddi etiraz edən fərd kimi yarandı. Maraqlıdır ki, belə obrazlar cəmiyyətdə birmənalı qarşılanmadı, hətta ədəbi tənqiddə də fərqli tərəflərdən təhlil olundu. Amma bu "üsyankar" qəhrəman tədricən bir az da azad düşüncəli, daha doğrusu, böyük bir toplum üçün ciddi siyasi məsələlərə toxunan, ictimai qərarlarda kütləni hesaba alan insanı diqqət mərkəzinə gətirdi. Artıq 80-ci illər ədəbiyyatı öz ideoloji təcrübəsini ortaya qoyaraq cəmiyyətin siyasi dəstək qoluna çevrildi və dayanmadan bu missiyanı sürətləndirdi.

Hələ 50-ci illərin sonlarında "şəxsiyyətə pərəstiş"in iflasından sonra yaranan bəzi ədəbi nümunələrdə istiqlalçılıq, imperiyaların istismarçılıq məqsədləırinin tənqidi də ədəbiyyatda yeni mövzu kimi görünməyə başlamışdı. Bu hərəkat qüvvətləndikcə bədii ədəbiyyatın təsir qüvvəsi siyasi epoxa üçün daha açıq dəstəyə çevrildi. 80-ci illərin sonu Azərbaycan ədəbiyyatında milli istiqlala çağırış dövrü kimi dəyərləndirilərək bu üslubun nümayəndələri özləri belə azadlığa doğru gedən hərəkatın açıq təkanverici qüvvələrinə çevrildilər.

Nəhayət, 90-cı illər müstəqilliyin, eyni zamanda müharibə dövrünün başlanması ədəbi mövzuya daha yeni şəxs-mücahid (şəhid) əlavə olundu. Ötən 35 illik müstəqillik dövrü ədəbiyyatı dünya ədəbiyyatına maneəsiz qoşularaq ümum Avropa və qərb ədəbiyyatının yaxın həmfikir, poeziya və epik situasiya ortağına çevrildi. Bu gün Azərbaycan ədəbiyyatı qərb və şərq bədii təfəkkürü arasında körpü rolunu məharətlə daşıyır. Yəni klassik ənənələrdən faydalanaraq modern düşüncə uğurla davam edir. Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatında müxtəlif cərəyan və modellərin canlandırma və həmçinin vəsfetmə mənasında özünün çoxəsrlik bədii qanunlarına hörmət, eyni zamanda yenilikçi kimi iştirak edir. Təbii ki, adıçəkilən mövqedə xalq ədəbiyyatının təsir gücündən də yararlanaraq daha uğurlu nümunələrə imza atmaqdadır. Bu gedişat poetik və epik səpgidə uzun müddət dayanıqlı olacağına inam yaradır.

"Elmi və ədəbi dil məsələsi" məqaləsi (Çobanzadə, 2007: 213). B.Çobanzadənin filologiya sahəsində dilçiliyin iki bölməsi-terminoloji leksika və üslubiyyat anlayışlarına, ədəbi dil nəzəriyyəsinə praktik baxış tərzindən yanaşır. Ümumilikdə ədəbi dilin XX əsrin əvvəllərindəki vəziyyəti alimin tədqiqat obyekti kimi polemik mülahizəyə cəlb olunmuşdur. Elmi üslub ədəbi üslubların içərisində bir qədər fərqli mövqeyə malikdir. Fərqliliyi odur ki, digər funksional üslublarla müqayisədə anlaşığı çətindir. Bir tərəfdən qədimliyi inkar olunmursa "Mürəkkəb söz və söz birləşməsi şəklində terminlərin yaranması XIII-XVI əsrlər elmi üslubunda

işləkdir. Bu hər şeydən əvvəl elmi terminologiyanın formalaşdığı ilkin mərhələdə digər üsullarla elmi terminologiyanın tam sistemə düşməməsi faktı ilə bağlı idi" (Çobanzadə, 2007: 396), yenilikdə də zəif inkişafı olduğu qeyd olunur: "Əgər on beşinci əsrə, yəni islam sxolastikasıın türkləri möhkəm surətdə təsiri altına almasına qədər olan zamanlarda gərək idarə və gərək zehni-fəlsəfi sahəyə bir kaç düzünə təbir istilahlar gözə çarpıyorsa, bundan sonra bunların yerlərini əcnəbi sözlərə buraxıb, qaib olmuşlardır" (Çobanzadə, 2007: 214). Prof. B.Çobanzadə haqlı olaraq elmi üslubun fasiləli inkişaf yolu keçdiyini söyləyir. Elm və elmi üslub tarixi inkişaf mərhələsindən asılıdır. Mədəniyyət dövlətlər tərəfindən dəstəklənib inkişaf etdiyi kimi elm də dövlətin himayəsinə bağlıdır. Elmin inkişafı elmi mərkəzlərin yaradılması məsələsində tamamilə siyasi qurumların öhdəsindən asılı olaraq bu sahəyə qayğının həyata keçməsinə istinad edir. Bu baxımdan Azərbaycanda türkdilli dövlətlərin yaranması və süqutu səbəbindən ayrı-ayrı dövrlərdə ya inkişaf etmiş, ya da tənəzzülə uğramışdır. Əlbəttə, bunu deməliyik ki, mümkün qədər tam sabitlik yaratmamışdır, mövcudluğunu irəlilətmişdir. "XV əsrdə yazılmış iki elmi əsərdən biri-Şirvanlı Mahmudun "Mürşid" əsərində tibb sahəsinə aid çoxsaylı ikinci və üçüncü söz birləşməsi şəklində türk birləşmələri işlənsə də, ədəbiyyat sahəsində yazılmış Nəvainin əsərində türk birləşmələri şəklində terminlərə rast gəlinmir. Eyni mənzərə təqribən XVI əsr qrammatika əsəri olan "Müyəssirətül-ulum" da nəzərə çarpır. Riyaziyyata aid "Məcmaul-Qəvaid" təkcə ədəd sözü ilə əmələ gələn on iki termin işlənib" (Həsənli-Qəribova, 2015: 397).

Uzun müddət şərqin elm dili ərəb dili olduğuna görə orta əsrlərdə Azərbaycan alimlərinin elmi nəzəriyyələri ərəb, qismən də fars dilində yaradılmışdır."Tədqiqatçılar doğru olaraq göstərirlər ki, Azərbaycan alimləri elmi əsərlərini ərəb və fars dillərində yazmışlar. (Xudiyev, 1995: 378) Avropanın qədim yunan, latın dillərində olmuş elmi mənbələr öyrənilərkən də, ərəb və fars dillərinə tərcümə olunduğundan türkcə elmi üslub diqqətdən kənarda qalmışdır. Daha çox şəxsi formada təşəkkül tapdığı üçün fərdi üslub təsiri bağışlamışdır. Odur ki, türkcə elmi üslub rəsmi mövqedən çox fərdi formada yazılıb tədqiq edilərək davam etmiş, şəxsi kitabxanalarda, əlyazma və cünglərdə saxlanılmışdır. Saray və kütləvi kitabxanalara təhvil verilərkən ərəb, fars dillərinə tərcümə edilmiş, bu şəkildə də qorunmuşdur. Yenə də türkdilli dövlətlərin qurulduğu dövrlərdə elmi üslub fəaliyyətə başlamışdır.

Ona görə də XX əsrin əvvəllərinə qədər elmi üslubun vəziyyəti digər üslublara nisbətən sabit olmamışdır. Bu əsrdən başlayaraq icbari təhsil qanunun qəbul olunması kütləvi savadlanma təklifini irəli sürmüş, bununla da əhali arasında təhsil islahatı ciddi tədbirlərə başlamışdır. Azərbaycan dilli məktəblərin çoxalması, ali məktəblərin, tədqiqat institutlarının fəaliyyəti nəticəsində elmi üslubun əhatə dairəsi genişlənir. Bütün elm sahələrinə dair köklü araşdırmalara başlanılır. Sözsüz ki, belə nəticələr türk-Azərbaycan dilində ictimaiyyətə təqdim olunur. Bu zaman terminologiyanı zənginləşdirmək məqsədi ilə komitə yaradılır. (1922-ci ildə Azərbaycan SSR Terminologiya Komitəsi fəaliyyətə başlayıb). Ən maraqlısı bu olur ki, əcnəbi terminlərin milli qarşılığı yaradılır. Bəzi beynəlxalq terminlərlə paralel dövriyyəyə başlayır.

Dünyəvi elmlərin tədrisi mükəmməlləşdikcə həmin sahələrə marağın artması türkcə elmi üslubun hədəflərini öyrənməyin, təhlil etməyin yeni üsullarını yaratmışdırır. Artıq XX əsrin II yarısından etibarən bütün məlum elmi sahələrdə irəliləyiş nəzərə çarpdığı üçün elmi üslubun mahiyyəti daha dərindən dərk olunur, Azərbaycan elminin hüdudları artaraq dünya elmi səviyyəsində qiymətləndirilir.

Bütövlükdə elmi üslubun da daxil olduğu Azərbaycan ədəbi dili bütün dövrlərdə mədəni, ic timai, texniki və siyasi amillərdən asılı olaraq fəaliyyət göstərmişdir. "İnkişaf nəticəsində dil

kateqoriyaları kəmiyyət və keyfiyyətcə dəyişir, onun tərkibində tədricən yeniləşmə prosesi baş verir (Qurbanov, 1989: 402). Ədəbi dilimizin XX əsrəqədərki vəziyyəti anadilli ədəbiyyatın struktur dili olaraq tarixi proseslərin nəticəsi kimi yaxın əcnəbi və qohum dillərlə mübadilə etmiş, leksik və bəzi qrammatik modellərin (bu mənada qohum dillərin) məqbul təsirinə məruz qalmışdır. Bu proses müəyyən mənada dilə yardım etmiş, digər mənada milli formaları, struktur elementləri dilin tərkibindən uzaqlaşdırmışdır. Buna baxmayaraq dil öz ədəbi dil hüququnu qoruyub saxlamağa cəhd etmişdir. Azərbaycan ədəbi dili qrammatik baxımdan nisbətən sabit quruluşa malikdir. Leksik tərkibcə də alınmalar çoxluq təşkil edir. Amma Azərbaycan dilinin sözyaratma imkanları çoxşaxəli olduğundan ədəbi dilin zənginləşmə yolları kifayət qədərdir (Axundov, 1979: 144).

XXI əsrdəki Azərbaycan ədəbi dili artıq milli dil sisteminə malikdir. Yəni ictimai vəziyyət siyasi təsir dairəsini tamamilə məhdudlaşdırmış, dilə yad dillərin müdaxiləsi yalnız mədəni və texniki inkişafla bağlı sözdaxiletmə imkanları saxlanılmışdır. Hazırda ədəbi dilin inkişafında milli dil vahidlərinin üstünlüyünə diqqət yetirilir. Bu prosesdə dilimizin daxili imkanları ilə bərabər, qohum dillərin, xüsusilə Türkiyə türkcəsinin leksik vahidlərinin Azərbaycan dilinə keçidinə şərait yaradılır. Nəzərə almaq lazımdır ki, bu məsələ xüsusi diqqət mərkəzindədir, belə keçidlər ərəb və fars kəlmələrinin yerinə gəlir, üstəlik, bu sözlərin bəziləri vaxtilə Azərbaycan dilində işlənmiş, kənar təzyiqlər nəticəsində arxaikləşmişdir. Bu sözləri dilimizin arxaik sözlər lüğətindən çıxararaq çağdaş ədəbi dilə gətirmək yalnız dil qarşısında vətəndaş xidməti sayıla bilər. Özləşmə meyillərinin artması, qohum dil ünsürlərindən istifadə müsbət nəticə verərək milli dil çərçivəsini artırır.

Görkəmli professor Bəkir Çobanzadənin dil və ədəbiyyatla ilgili məsələlərin təhlilini apardığı məqalələrinə hesabat xarakteri daşıyan bu yazı dil və ədəbiyyat sahəsində ictimaiyyətin təəssübkeşlik vəzifəsini nəzərə çatdırır. Hər bir mədəni, yaxud ədəbi-bədii nümunə xalqın öz mənəviyyatını, vətəndaş mövqeyini əks etdirir. "Söz" dil daşıyıcılarının idrak və milli varlığını sosial və ictimai mühitdə ehtiva edən ən dəyərli, ən mühüm alət kimi bundan sonrakı mərhələlərdə də öz statusunu daha böyük maddi qüvvə olan xalqın sayəsində mühafizə edəcəkdir.

**Ədəbiyyat siyahısı**

A.Axundov (1979). *Ümumi dilçilik* Maarif'nəşriyyatı
A.Qurbanov. (1989) *Ümumi dilçilik* "Maarif" nəşriyyatı
B.Çobanzadə (2007) *Seçilmiş əsərlər* Bakı "Şərq-Qərb" nəşriyyatı
S.Mehdiyeva (2012) *Ədəbi dil məsələləri* "Elm və təhsil"nəşriyyatı
Ş.Həsənli-Qəribova (2015) *XIII-XVI əsrlər türk dillərində elmi üslub* Bakı, Avropa nəşriyyatı
N.Xudiyev (1995) *Azərbaycan ədəbi dili tarixi* "Maarif" nəşriyyatı

**Səbinə Əhmədova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya elmləri doktoru, dosent*
*E-mail: sabina.ahmadova.1980@gmail.com*
*ORCİD: 0000-0002-7929-5248*

# KLASSİK AZƏRBAYCAN POEZİYASININ BƏDİİ-ESTETİK SİSTEMİ VƏ ONUN MƏNBƏŞÜNASLIQ ƏSASLARI

**Xülasə**

Təqdim olunan materialda klassik Azərbaycan poeziyasının bədii-estetik sistemi və mənbəşünaslıq əsasları ümumiləşdirilmiş şəkildə təhlil olunur. Müəllif Azərbaycan ədəbiyyatının müxtəlif tarixi təsirlərə baxmayaraq milli-mənəvi dəyərlərə sadiq qalaraq davamlı inkişaf etdiyini göstərir; bu inkişaf xətti Kitabi-Dədə Qorqud abidəsindən başlayaraq Nizami Gəncəvi, İmadəddin Nəsimi və Məhəmməd Füzuli yaradıcılığında formalaşmışdır.

Tədqiqatda klassik poeziyanın ideya-estetik əsasının ilahi eşq və mənəvi kamillik konsepsiyası ilə bağlı olduğu vurğulanır; qəzəl, qəsidə və məsnəvi janrlarının həm estetik, həm də didaktik funksiyalar daşıdığı qeyd edilir. Eyni zamanda əruz vəzni və bəlağət vasitələrinin, xüsusilə poetik fiqurların klassik poeziyanın formalaşmasında mühüm rol oynadığı göstərilir.

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində ictimai-siyasi dəyişikliklərin təsiri ilə poeziyada yeni məzmun və üslub axtarışlarının gücləndiyi, realist və publisistik meyillərin ön plana çıxdığı qeyd olunur. Bu proses Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və Məhəmməd Hadi yaradıcılığında aydın əksini tapır.

***Açar sözlər:*** *Füzuli, klassik Azərbaycan poeziyası, mənbəşünaslıq, əruz vəzni, bədii-estetik sistem*

# THE ARTISTIC-AESTHETIC SYSTEM OF CLASSICAL AZERBAIJANI POETRY AND ITS SOURCE-STUDY FOUNDATIONS

**Abstract**

The presented material provides a generalized analysis of the artistic-aesthetic system and the source-study foundations of classical Azerbaijani poetry. The author demonstrates that despite various historical influences, Azerbaijani literature has evolved continuously by remaining faithful to national and spiritual values; this developmental trajectory, originating from the monument The Book of Dede Korkut, was systematically formed through the creative legacies of Nizami Ganjavi, Imadaddin Nasimi, and Muhammad Fuzuli.

The research emphasizes that the ideational-aesthetic foundation of classical poetry is intrinsically linked to the concepts of divine love and spiritual perfection. It is noted that the genres of ghazal, qasida, and mathnawi fulfill both aesthetic and didactic functions. Simultaneously, the study highlights the pivotal role of Aruz prosody and rhetorical devices – particularly poetic figures – in the structural formation of classical poetry.

The material further observes that during the late 19th and early 20th centuries, socio-political shifts intensified the search for new content and styles, bringing realist and publicist tendencies to the forefront. This evolutionary process is clearly reflected in the works of Seyid Azim Shirvani, Mirza Alakbar Sabir, and Mahammad Hadi.

***Key words:*** *Fuzuli, classical Azerbaijani poetry, source studies, aruz prosody, artistic-aesthetic system*

Azərbaycan ədəbiyyatı müxtəlif zaman kəsimlərində fərqli ideologiyalar və əcnəbi mədəniyyətlərin təsiri altına düşüb, özgə dil və qeyri-milli ədəbi formalarda meydana çıxsa da, hər zaman milli dəyərlərimizə sadiq qalıb, daim adət-ənənələrimizi özündə yaşadıb. Hələ on üç əsr bundan qabaq 215 il ömür sürmüş oğuz türklərinin ağsaqqalı, atası, dədəsi Dədə Qorqud tərəfindən yaranmış "Oğuznamələr"dən, eyni zamanda dünya üzündə bənzəri olmayan "Kitabi-Dədə Qorqud" abidəsindən başlayaraq XI-XII əsrlərdə Qətran Təbrizi, Xətib Təbrizi, Məshəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, XIII-XIV əsrlərdə İzzəddin Həsənoğlu, Marağalı Əvhədi, Arif Ərdəbilli, Əssar Təbrizi, Şah Qasim Ənvar, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, XV-XVI əsrlərdə Kişvəri, Həbibi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, XVII-XVIII əsrlərdə Məhəmməd Əmani, Fədai, Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi, Məhcur Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, XIX əsrdə Abasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, XX əsrdə Əbdürrəhim bəy Haqverdiyev, Firudin bəy Köçərli, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Əhməd Cavad və s. vasitəsilə hər dövrün, zamanın inikasına çevrilərək, hər cəhətdən zənginləşərək, tarixin bütün sınaqlarından alnıaçıq, üzüağ keçərək bizlərə ərməğan edilmişdir. Ən əsası isə o idi ki, bu böyük sənətkarlar heç vaxt öz arzu-istəklərinin əksinə yazıb-yaratmırdılar, Onlar yalnız və yalnız bəşər övladının xoşbəxtliyi, səadəti uğrunda mükəmməl əsərlər meydana gətirirdilər. Əlbəttə, burada bir sual meydana çıxa bilər: Gözəlləri vəsf edən qəzəllər necə ola bilər ki, insanlığın xoşbəxtliyinə cığırlar açsın? Lakin dərindən diqqət edəndə, qəzəllərin əsl mahiyyətini anlayarkən şairlərin ali məqsədlərinin təkcə gözəlləri vəsf eləmək olmadığını, həqiqi eşqin ülviliyini, paklığını, təmizliyini nümayiş etdirmək olduğunu anlaya bilərik. Bu da öz növbəsində ülvi eşqin şəhvani hisslərə deyil, iffətli hisslərə, yəni aşiqin qızıl gülün ətrindən aldığı zövq kimi sevgilisinin gözəlliyindən aldığı zövq kimi vücuda gəldiyini görürük. Məsələn, özündən sonra gələn Azərbaycan və Anadolu şairlərinin ən azı 99 faizinin ustadı sayılan Mövlana Füzuli bütün qəzəllərində eşqin şəhvət hisslərindən uzaq bir məfhum olduğunu, əsl eşqin təbib, həkim, dərman istəmədiyini, paklıq nurunda büllurlaşaraq əxlaqi gözəlliyə xidmət elədiyini bəyan edir:

*Aşiyani-mürği-dil zülfi-pərişanındadır,*
*Qanda olsam, ey pəri, könlüm sənin yanındadır.*

*Eşq dərdilə xoşam, əl çək əlacımdan təbib,*
*Qılma dərman kim, hələkim zəhri-dərmanındadır.*

*Bəs ki, hicranındadır xasiyyəti-qəti-həyat,*
*Ol həyat əhlinə heyranəm ki, hicranındadır.*

*Ey Füzuli, şəm tək mütləq açılmaz yanmadan,*
*Tablar kim, sünbülündən rişteyi-canındadır* (Xudiyev, 2012: 335-336).

Tək qəzəllər deyil, qəsidələr, mərsiyələr və başqa şeir nümunələri əslində tərbiyəvi əhəmiyyət daşıyır, əxlaqi gözəlliyi təbliğ edir, Haqq ilə batilin bilinməsinə xidmət edir, nəfsinə, haram işlərə uymamağı, halallıqla yaşamağı tövsiyə edir, keçmişdə və yaşadıqları dövrdə baş verən hadisələri bədii sözün qüdrətilə xarakterizə edərək xalqa təqdim edirdi.

Məlumdur ki, klassiklərimiz, o cümlədən Füzuli bütün əsərlərini əruz vəznində yazmışdır. Əruz vəzni isə xüsusi bir elmdir ki, hər kəs bunu dərindən bilməkdən ötrü illərlə çalışmalıdır. Əruz vəzninin on doqquz bəhri vardır ki, klassiklərimiz bu bəhrlərin demək olar ki, hamısında əsərlər meydana gətirmişlər. Lakin bu bəhrlərdən əlavə əruz elmilə yazılan əsərlərdə bəlağət elminin müxtəlif poetik fiqurları da var. Məsələn, "rəddül-əcz ələs-sədr" sənəti bunlardan biridir. Belə fiqurlar da ədəbiyyatımıza ərəb ədəbiyyatı vasitəsilə keçmişdir. "Əcz" beytin axırına, son kəlməsinə, "sədr" isə əvvəlinə və ilk kəlməsinə deyilir. Burda şair beytin sonunda gətirdiyi kəlməni, ondan sonra gələn beytin əvvəlində gətirməyi bacara bilməli, özü də elə eləməlidir ki, şeirə bununla tammilə xələl gəlməsin. Bu sənətdə də ən çox məharəti Füzuli göstərmişdir ki, bu da onun misilsiz bir şair olduğuna açıq-aşkar sübutdur:

*Ey vücudi-kamilin əsrari-hikmət məsdəri,*
*Məsdəri zatın olan əşya sifatın məzhəri.*

*Məzhəri hər qüdrətin sənsən ki, kilki-qüdrətin,*
*Səfheyi-əflakə nəqş etmiş xütuti-əxtəri.*

*Əxtəri məsud olan oldur ki, təbi-pakinin,*
*Qabili feyz ola lütfündən səfayi-cövhəri.*

*Cövhəri məyub olan naqis mənəm kim, müttəsil,*
*Sadədir xəttin xəyalilə zəmirim dəftəri.*

*Dəftəri əmalımın xətti-xətadəndir siyah,*
*Qan tökər çeşmim xəyal etdikcə hövli-məhşəri.*

*Məhşəri əşkim verir seylabə gər ruzi-cəza,*
*Olmasa məqbuli-dərgahə sirişkim gövhəri.*

*Gövhəridir əşk bəhrinin, Füzuli, abi-çeşm,*
*Leyk bir gövhər ki, lütfi-Həq anadır müştəri* (Səddiqi, 1996: 203-204).

Mövlana Füzulidə olan bütün bu yüksək keyfiyyətlər onu minlərlə şairin, o cümlədən özündən sonra gələn Bakı şairlərinin də ustadına çevirmişdir. Füzuli yuxarıda qeyd olunduğu kimi sütunları çox möhkəm, özülü yerin dərinliklərində kök salan, damı ərşə ucalan olduqca möhtəşəm bir poetik məktəb bina etmişdir ki, bu məktəbin sinif otaqlarından birində oturmağı belə özünə arzulayan şair sənət şərbətinə qonaq olmuş və bu şərbətdən içərək mükəmməl əsərlər meydana gətirmişdir.

Məlumdur ki, Azərbaycan klassik şeirində Nəsimi, Xətai və Füzulidən başlamış, XIX əsrin axırlarına qədər şeirin çox işlənmiş janrlarından olan qəzəl, qəsidə, məsnəvi çox möhkəm ənənəvi dil və üslub xüsusiyyətlərinə malik idi. İstər qəzəl, istərsə də qəsidə və məsnəvilərin dilində çoxlu ərəb və fars tərkibləri, söz, ifadələr işlədilir, canlı danışıq dilindən istifadə etməklə bərabər, köhnəlmiş arxaik sözlər və obrazlar da mühüm yer tuturdu. Xüsusən o zamana görə ən yüksək klassik şeir dili sayılan Füzuli dili və üslubu, qəzəl, qəsidə və məsnəvidə nəinki klassik üslubda yazan XVII-XVIII əsr şairləri, hətta Seyid Əzim Şirvani kimi XIX əsr şairləri üçün də nümunə sayılırdı. Lakin bu janrlar, bu dil və üslublar nə qədər zəngin, gözəl və möhtəşəm olsalar da, zamanın tələtümlü, ziddiyyətli, fırtınalı gedişatı ilə o qədər də uyğun gəlmirdi. Füzuli şeirinin ana

xətti, ideyası, ali məqsədi eşq idi. İlk növbədə yeri, göyü heçdən yaradan Uca Allaha olan eşq, sonra isə onun sevdiklərinə olan eşq. Füzuli oxucularına sevmək, sevgisində düz olmaq, eyni zamanda eşqin bütün zillətlərinə, məşəqqətlərinə, əzablarına dözmək öyrədirdi. Lakin XIX əsrin ikinci yarısı, XX əsrin əvvəlləri başqa tələblər də irəli sürürdü. Artıq XIX əsrin 60-cı illərindən başlayaraq ədəbi məclislərdə əsasən Füzuli şeirinin təsirilə yazdıqları nəzirələr, təxmislər yetmirdi. Şairlər artıq necə deyərlər qələmlərini başqa cür itiləməli idilər. Xalqın mənəvi fikir həyatı, ideal yaşayış arzuları ilə əlaqədar axtarışlar, orijinallıq tələb olunurdu. Bu axtarışlar fikir, mənəviyyat, insanların qəlb həyatı, yeni bədii formalar ətrafında getməli idi. Lakin məsələ burasında idi ki, insanlığın əqli-mənəvi inkişafında bir oyanış görən bəzi şairlər real həyata müraciət edən zaman sələflərini də unutmurdular. Çünki sələflər dini, milli dəyərləri, adət-ənənələri öz əsərlərində yaşatmaqla onlar üçün misilsiz bir miras qoymuşdular. Yəni sələflərin mirası təkcə heyrətamiz poetik qəliblərdən, bədii ifadə vasitələrindən, şeirin qanunlarından ibarət deyildi. Nizami, Xaqani, Xətai, Füzuli öz əsərlərində dini, milli, əxlaqi dəyərləri öz misilsiz əsərlərində əks etdirməklə xələflərinə ötürmüşdülər ki, bütün Azərbaycan, o cümlədən Bakı ədəbi mühitinin sənətkarları xalqın yüksək mənəvi keyfiyyətlərini, zəngin adət-ənənələrini öz əsərlərində ayna kimi əks etdirən sələflərinin yolunu əziz tutaraq ləyaqətlə davam etdirdilər. Bu səbəbdən də ümidlə yaşayan, gələcəyə ümidlə baxan şairlər həm də daim axtarışlar apararaq nəhayət klassik ənənəni saxlamaqla bərabər, yeni şeir formaları axtarıb taparaq dövrün problemlərini, gərginliklərini, sıxıntılarını, eyni zamanda ümidlə açılacaq sabahlardakı günəş şəfəqlərini öz yaradıcılığlarında əks etdirməyə başladılar. Azərbaycan şeiri yuxarıda deyildiyi kimi klassik ənənələrini qoruyub saxlamaqla bərabər, yeni bədii məzmun kəsb etməyə başladı. Məqam, fikir, başlanğıc, mənəvi-əxlaqi mövqe, meyar, dəyərləndirmə, dövrün şairlərinin əksəriyyətinin şeirlərində lirik, publisist, epik məna siqləti ilə nəfəs almağa başladı. Onların əksəriyyəti şeirlərini hansısa mücərrəd estetik qəlib və ölçülərdə deyil, vətəndaş çılğınlığı, publisist deyimi ilə, aktuallıq anlayışı ilə özünü göstərməyə başladı. Bu şairlər xalqın iqtisadi rifahının yüksəlişini elmdə, təhsildə, savadlanmaqda görürdülər:

*Təbiət ruhlanmaz növi-insan olmayan yerdə,*
*Gülüstan ətirlənməz ətri-reyhan olmayan yerdə.*

*Məarif rüşd tapmaz, olmasa təşviqi-irfani,*
*Məkatib qədrlənməz elmi-irfan olmayan yerdə* (Xəyal, 2019: 111).

XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində milli, ümumşərq və Qərb dəyərləri əsasında inkişaf edən Azərbaycan ədəbiyyatı müasir dünya ədəbiyyatının qabaqcıl milli hadisələrindən birinə çevrilmişdi; Azərbaycan ədəbiyyatının tarixi varlığı ilə mövcudluğu məhz bu əsrdə bütün zənginliyi, bütün tarixi və ərazi hüdudları ilə meydana çıxmış, özünü təsdiq edə bilmişdir.

Qeyd etməliyik ki, bu dövrün ədəbiyyatı xalqın milli özünüdərki və müstəqilliyi uğrunda mübarizənin ədəbiyyatı olmuşdur. XIX əsrin ikinci yarısından milli, həm də bəşəri dəyərlərə söykənərək inkişaf edən ədəbiyyatımız XX əsrin əvvəllərində məlum inqilablar, müharibələr, dünya miqyasında baş verən siyasi və ideoloji sistemlərin mübarizəsi, qarşıdurması və nəhayət 11-ci Qırmızı Ordunun Azərbaycanı işğal etməsindən sonra böyük bir sarsıntı keçirdi, qeyri-müəyyənlik dönəminə qədəm qoydu. Bu da bir çox yazıçı və şairlərimizin yaradıcılıq böhranı yaşamasına səbəb oldu. Qəddar bir rejimin xalqın milli və dini dəyərlərinin təbliğinə qarşı yönəlmiş ideoloji təzyiqləri altında tarix boyu süzgəclərdən keçmiş, aşılana-aşılana XX əsrin 1920-ci ilinə qədər mərhələ-mərhələ daha da zənginləşmiş Azərbaycan ədəbiyyatının yalnız sosializm ideologiyasını tərənnüm edən *"formaca milli məzmunca sosialist"* ədəbiyyata çevrilməsinə gətirib çıxardı.

Məlumdur ki, yaradıcılığın inkişafı zamanın eniş-yoxuşu ilə əlaqədardır, incəsənət nümunələri zamanın sınağına çəkilir və əgər sənətkar bu sınaqdan üzüağ, alnıaçıq çıxarsa, onun bədii irsi xalqın sənət xəzinəsinə düşür və xalq tərəfindən sevilir. Bir sözlə, vuruşmalar, döyüşmələr, çarpışmalar meydanında başı daşdan-daşa dəyən şair ruhi hadisələr, təfərrüfatlar zəminində böyüməyə başlayır.

Bu da məlumdur ki, XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində yazıb-yaratmış Azərbaycan şairlərininin yaradıcılığında kəskin dəyişiklik əsasən XX əsrin başlanğıcından, 1918-ci ildə daşnak-bolşevik neofaşist hərbi birləşmələrinin Azərbaycanı işğal edib, insanlığa sığmayan vəhşiliklərlə qətliam törətdikləri ərəfədə baş vermişdir. Çünki bu əsrin başlanğıcında inqilabi hərəkatın başlandığı gündən etibarən vətənin ən ağır, ən məşəqqətli, ən zillətli, ən əzablı günləri idi.

Həmin faciəli günlərə Əlyazmalar İnstitutunun fondundakı materiallar da şahidlik edir. Məsələn, Salman Mümtazın şəxsi arxivində qorunan naməlum müəllifin "Çar ordusu" başlıqlı acı notlarla yüklənmiş tarixi mənzuməsində 1905-ci il hadisələri və mənfur ordunun Bakıda xalqın başına açdığı müsibətləri təsvir edir. 16 səhifəlik bu yazını hadisələrin şahidinin ürək ağrısı ilə qələmə aldığı aşkardır (Bax: Mümtaz, s.v.103).

Yaxud, başqa bir ədəbi fakt. Ermənilər 1905-ci ildə Bakının ən zəngin adamlarından biri, karxana sahibi Lalayanın fitvası ilə Bakıda müsəlmanlara qarşı qırğınlar törədəndə Bakı şairlərindən şəxsiyyəti, nə vaxt doğulduğu, nə vaxt rəhmətə getdiyi haqqında heç bir məlumat olmayan Ricai belə yazırdı:

*Bu şəhrə dava salan bais olub erməni,*
*Kimsə xəyal etmədi öldürəcəklər məni.*
*Saldılar yüz min kələk, kim verəcək cürməni,*
*Heç elə nadan deməz, gəl, əbəs öldür məni.*

*Ermənilər, bir baxuz, gör nə fəsad eylədüz,*
*Xəlqi vurub bir-birə, şeytanı şad eylədüz.*
*Millət arasında bax, nə yaxşı ad eylədüz*
*Hamısı iqrar edər, xəta edər erməni.*

*Olub sizin adətüz şərridə şeytan ilən,*
*Kim dedi siz cəng edin, əhli-müsəlman ilən?*
*Doldura bir saətə şəhrin için qan ilən,*
*Gör nə əkib-biçmişdiz, indi salın xərməni* (Xəyal, 2019: 18).

Həmin dövrün çox mürəkkəb və təzadlı hadisələri təbii ki, ictimai-siyasi həyatın heç bir sahəsində də uğur gətirmir, xalqın ruhi aləminə fərəh bəxş edə bilmirdi. Şairlər öz yaradıcılıqlarını nikbin notlar üstündə qurmaq istəsələr də, hər gün eşidilən bəd xəbərlər, ölümlər, birləşmiş rus-erməni kafir zümrəsi tərəfindən törədilən haqsızlıqlar, zorakılıqlar, qırğınlar heç bir yaxşı şey vəd etmirdi. Bu ərəfədə Azərbaycan şeirində romantizmin banilərindən biri, dahi şair Məhəmməd Hadi yazırdı:

*İmzasını qoymuş miləl, övraqi-həyatə,*
*Yox millətimin xətti bu imzalar içində.*
*... İç, iç, nə qədər istərisən qanımı, zalim,*
*Bir gün görərsən qanımı çəlipalar içində* (Hüseynov, Mirəhmədov və Hüseyni, 2005: 130-131).

Onu da qeyd edək ki, Bakı ədəbi mühitinin şairlərinə Məhəmməd Füzulidən başqa, XIX əsrdə Şərq peziyasının yeni dövrdə qüdrətli varisi, maarifçilik və islahatçılıq ideyalarının alovlu müdafiəçisi Seyid Əzim Şirvaninin, sonrakı dövrdə isə M.Ə.Sabirin, eyni zamanda poeziyalarında dürr axan Abbas Səhhətin və Məhəmməd Hadinin, Hüseyn Cavidin və nisbətən gənc nəslə Əhməd Cavadın təsiri olmuşdur.

1876-cı ildə Bakının Nardaran kəndində anadan olmuş Hacıəli Pərişan Bakı ədəbi mühiti gülüstanının ətirli güllərindən biridir. Fitri istedada malik olan şair qəzəllərini Füzuli ənənəsinə kökləsə də, XX əsrin təlatümlü hadisələrinə biganə qala bilməmiş, dövrün tələblərinə uyğun orijinal bir üslubda Qafqaz İslam Ordusunun qəhrəman əsgərlərini tərənnüm edən, eyni zamanda azğın, pozğun ermənilərı və Azərbaycan xalqının başqa düşmənlərini qəhr edən bədii cəhətdən olduqca zəngin əsərlər meydana gətirmişdir:

*Doğdu günəş, aləm oldu parlaq,*
*Məhv eylədi zülmatı sərasər.*
*Ədlilə ucaldı şanlı sancaq,*
*Tutdı əlimiz yigit əsakir.*

*Kəsmişdi rəhi-çati üdvan,*
*Qətl oldı zənənü tifli-məsum,*
*Əmvalımızı həp etdi talan,*
*Zalimlər əlində qaldı məzlum.*

*Yüksəlmiş idi səmayə fəryad,*
*Gözlərdən axurdı qanlı yaşlar.*
*Bəklərdik edə gəlüb də imdad,*
*Baqeyrətli fateh arkadaşlar.*

*Məqsudə bizi Həq etdi nail,*
*Rəf oldı qəmü məlalü möhnət,*
*Həp yetdi cəzayə qanlı qatil,*
*Yüz verdi bizə sürurü behcət.*

*Mürsəl paşa ilə Nuri paşa,*
*Hifz et bu iki vücudi, ya Rəb!*
*Su səpdilə nari-iğtişaşə,*
*Varlığımıza oldılə müsəbbəb* (Xəyal, 2005: 9).

Nəticə etibarilə, Azərbaycan poeziyası tarixi varislik üzərində formalaşaraq zamanın tələblərinə uyğun şəkildə təkamül edən dinamik bir sistemdir; bu irs isə xalqın mədəni kimliyini və tarixi yaddaşını əks etdirən əsas mənbədir.

**Ədəbiyyat siyahısı**

Füzuli, M. (1996). *Türk divanı* (Ə. Səddiqi, tərt. ed.). Fərhəng və İrşadi İslami Nazirliyi.

Hadi, M. (2005). *Seçilmiş əsərləri* (Ə. Hüseynov, Ə. Mirəhmədov, & Ə. Hüseyni, tərt. ed.). Şərq-Qərb.

Mümtaz, S. (t.y.). *Bakı haqqında qeydlər* [Şəxsi arxiv fondu]. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu (Fond № 24, s.v. 103, vərəq 1).

Pərişan, H. (2005). *Gəl edək hümməti qeyrət* (S. Xəyal, nəşrə hazır.). Nurlan.
Xəyal, S. (nəşr. haz.) (2019). *Deyilən söz yadigardır*. Ecoprint.
Xudiyev, N. M. (2012). *Azərbaycan ədəbi dili tarixi: Ali məktəblər üçün dərslik*. Elm və təhsil.

**Elnurə Babayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: elnure1430@gmail.com*
*ORCID: 0009-0004-3231-4116*

# MULTİDİSSİPLİNAR YANAŞMADA LİNQVİSTİK ƏLYAZMALARIN TƏDQİQİ

**Xülasə**

Məqalədə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan linqivistik məzmunlu əlyazmalar əsasında tərtib edilmiş "Linqvistikaya dair əlyazmalar kataloqu"nun elmi əhəmiyyəti və hazırlanma prinsipləri multidissiplinar yanaşma kontekstində araşdırılır.

Kataloqa daxil edilmiş ərəb, fars və türk dillərində yazılmış əlyazmaların sistemləşdirilməsi, təsnifatı və elmi dövriyyəyə cəlb olunması prosesi təhlil olunur. Eyni zamanda, seçilmiş bir neçə əlyazma nümunəsi əsasında onların elmi-paleoqrafik xüsusiyyətləri, xətt növləri, material, hətta cildlənmə xüsusiyyətləri və mətn strukturu təqdim edilir. Məqalədə kataloqlaşdırma işinin yalnız texniki-biblioqrafik fəaliyyət olmadığı, eyni zamanda dilçilik irsinin qorunması, elmi tədqiqatların dərinləşdirilməsi və gələcək fundamental araşdırmalar üçün etibarlı elmi baza yaradılması baxımından mühüm əhəmiyyət daşıdığı əsaslandırılır.

Nəticə etibarilə, məqalədə təqdim olunan kataloq dilçilik tarixi, filologiya və əlyazmaşünaslıq sahəsində aparılan tədqiqatlara mühüm töhfə verən fundamental elmi mənbə kimi qiymətləndirilir və multidissiplinar elmi araşdırmalar üçün geniş imkanlar açdığı göstərilir.
***Açar sözlər:*** *multidissiplinar tədqiqat, kataloq, elmi-paleoqrafik təhlil, linqvistik əlyazmalar*

# THE STUDY OF LINGUISTIC MANUSCRIPTS IN A MULTIDISCIPLINARY APPROACH

**Abstract**

The article explores the scientific significance and principles of compiling the "Catalog of manuscripts in linguistics", compiled on the basis of linguistic manuscripts stored at the Muhammad Fuzuli Institute of Manuscripts of ANAS in the context of a multidisciplinary approach.

The study analyzes the process of systematization, classification and involvement in scientific circulation of manuscripts written in Arabic, Persian and Turkish languages included in the catalog. At the same time, based on several selected samples of manuscripts, their scientific and paleographic characteristics, types of lines, material, even the binding features and the structure of the text are given. The article substantiates that cataloging is not only a technical and bibliographic activity, but is also important from the point of view of preserving the linguistic heritage, deepening scientific research and creating a reliable scientific base for future fundamental research.

Consequently, the catalog presented in the article is valued as a fundamental scientific resource that makes an important contribution to research in the field of the history of linguistics,

philology and manuscript studies, and also opens up wide opportunities for interdisciplinary scientific research.
***Key words:*** *written sources, catalog, scientific-paleographic analysis, linguistic manuscripts, multidisciplinary activity*

**Giriş**

Əlyazmalar qədim dövrlərdən bəri insan fəaliyyətinin ən mühüm yaddaş daşıyıcılarından olmuşdur. Onlar dilçilik elminin ən ümdə ilkin mənbələrindən biri olaraq, dilin inkişafının müxtəlif mənbələrini, həmçinin yazı və ifadə mədəniyyətinin tarixini öyrənmək üçün əvəzolunmaz dəlillər təqdim edir. Onlarda dövrün elmi fikri, mədəni-mənəvi dəyərləri, ədəbi və dil ənənələri öz əksini tapmaqla bərabər, dövrün dil qaydalarını, leksik və morfoloji xüsusiyyətlərini, sintaktik quruluşunu və terminoloji sistemini özündə əks etdirən həm dilçilik, həm də tarix, ədəbiyyatşünasılıq və mədəniyyətşünaslıq üçün böyük material vardır. Əlyazmaların qorunub saxlanılması və elmi dövriyyəyə gətirilməsi dil irsinin mühafizəsində və elmi tədqiqatların dərinləşməsində mühüm rol oynayır. Bu baxımdan "Linqivistikaya dair əlyazmalar kataloqu" təkcə kitabxana və arxiv fondlarında qorunub saxlanılan yazılı irsin sistemləşdirilmiş siyahısı deyil, həm də dilçilik tarixinin öyrənilməsi üçün mühüm biblioqrafik mənbədir.

"Linqivistikaya dair əlyazmalar kataloqu" multidissiplinar istiqamətlərdə həyata keçirilmiş məqsədyönlü və sistemli elmi fəaliyyətin məhsuludur. Kataloqda dilçiliklə bağlı əlyazmalar mövzu istiqamətləri üzrə təsnif olunmuş və hər bir nümunənin yaranma tarixi, müəllifliyi, dil və üslub xüsusiyyətləri barədə məlumat verilmişdir. Əsərdə əlyazmaların müqayisəli şəkildə təqdim olunması, onların elmi-nəzəri baxımdan qiymətləndirilməsi gələcək araşdırmalar üçün geniş imkanlar açır.

Bu kataloqun hazırlanmasında əsas məqsəd yalnız mövcud əlyazma irsinin elmi cəhətdən sistemləşdirilməsi deyil, həm də gələcəkdə aparılacaq fundamental tədqiqatlar üçün sabit elmi baza yaratmaqdır. Bu baxımdan nəşr həm dilçilik üzrə ixtisaslaşmış tədqiqatçılar, həm də dil tarixi, mədəni irs və filoloji araşdırmalarla məşğul olan alimlər üçün etibarlı və zəngin istinad mənbəyi rolunu oynayacaqdır.

**Əsas mətn**

"Linqivistikaya dair əlyazmalar kataloqu" AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Həşim oğlu Kərimlinin təşəbbüsü nəticəsində işıq üzü görmüşdür.

Burada toplanmış ərəb, fars, türk dillərində yazılmış əsərlər əlifba sırası ilə düzülmüş və aşağıdakı prinsiplərə əsasən tərtib edilmişdir:

– sol tərəfdə sıra nömrəsi, sağda isə əlyazmanın şifri qeyd edilir;

– sağ tərəfdə əlyazmanın yazıldığı dil, xətt növü, tarixi (hicri və qəməri təqvimlə), kitabın ölçüsü və həcmi, məlumdursa katibin adı və əlyazmanın köçürüldüyü məkan göstərilir;

–ortada əsərin və müəllifin adı (anonim deyilsə) əlyazmada olduğu kimi göstərilir;

–əlyazmanın köçürüldüyü kağız növü, mürəkkəb və səhifələnmə haqqında məlumat verilir;

–əlyazmanın cildi haqqında məlumat verilir;

–məcmuəyə daxil olan əsərin ilk və son səhifəsinin nömrəsi qeyd olunmaqla, əlyazma naqis olmadığı halda əsərin birinci və axırıncı cümləsi verilir.

Bu kataloloqun ərsəyə gəlməsində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Multidissiplinar əlyazmaların tədqiqi" şöbəsinin əməyi danılmazdır. Rəhbərliyin

tapşırdığı işin öhdəsindən böyük səylə gələn bu şöbənin əməkdaşları vahid bir komanda kimi çalışmışlardır.

Kataloqda yer alan bəzi əlyazma nüsxələrinin elmi-poleoqrafik təhlilinə nümunə aşağıdakı kimidir:

1. **B–234(4) şifrəli əlyazma**

Dili: ərəb, türk dilində
Xətti: nəsx
Katibi:
عبد الغنی النخوی خلیصه قاری زاده
Əbdülqəni ən-Nuxəvi Xalisəqarızadə
Köçürülmə ili: 1246/1830-31
Ölçüsü: 17x20sm.
Həcmi: 252 vərəq

**ابواب البناء**

**Əbvab əl-bina**

Əsər məcmuənin 29$^{b}$-67$^{a}$ vərəqlərini əhatə edir. Qara mürəkkəblə, nəsx xətti ilə köçürülüb. Mətnin haşiyələrində yer alan qeydlər və izahlar nisbətən narın şriftlə verilib. Babların və bəzi ifadələrin yazılışında qırmızı və yaşıl rəngli mürəkkəbdən istifadə olunub. Kağızı boz rəngli, Rusiya istehsalı olan vərəqlərdir. Vərəqlərdə nəm və mürəkkəb ləkələri var. Səhifələnmə həm Şərq, həm də qərb üsulu ilə aparılıb.

Cildi: tünd qəhvəyi rəngli dəridir.

Əvvəli: (29$^{b}$) باب اول نصر ینصر نصرا…

Sonu: (67$^{a}$) علامت الامر اولدوی اچون حرکه…[Şərifov,2009:32]

**2. B–733(18)**

**Dili:** ərəb dilində
**Xətti**: nəsx
**Katibi:**
عبد الغنی نخوی خلیصه قاری زاده
Əbdülqəni Nuxəvi Xalisəqarızadə
**Köçürülmə ili**: 1265/1848-49
**Köçürülmə yeri:** شکی Şəki
**Ölçüsü**: 17x22,5sm.
**Həcmi:** 582 vərəq

**ارشاد الهادی فی النحو**

**İrşad əl-hadi fin-nəhv**

**التفتازانی سعد الدین مسعود بن عمر**

**ət-Təftəzani Sədəddin Məsud b. Ömər**

İslam mədəniyyətinin görkəmli şəxsiyyətlərindən biri olan ilahiyyatçı və dilçi alim ət-Təftəzani 722/1322-ci ildə Xorasanın Təftəzan kəndində anadan olmuş, 792/1389-90-cı ildə Səmərqənd şəhərində vəfat etmişdir. O, Əmir Teymurun xidmətində olmuş, Əmirin böyük hörmət və ehtiramını qazanmışdır. ət-Təftəzani müxtəlif elm sahələrinə həsr edilmiş çoxsaylı əsərlərin müəllifidir.

Təsvir olunan əsər əlyazmanın $92^b$-$96^a$ vərəqlərini əhatə edir. Əsərin mətni qara mürəkkəblə, Rusiya istehsalı olan ağ kağıza, nəsx xətti ilə köçürülmüşdür. Traktatın bölmələri, "قسم" [qısm], "وبعد" [ və bə'd] bu kimi sözlər qırmızı mürəkkəblə qeyd edilmişdir. Əlyazmanın sonluğunda əsərin adı, müəllifi, katibi və köçürülmə tarixi qeyd edilmişdir. Əlyazma həm Şərq, həm də qərb üsulunda səhifələnmişdir.

Cildi: Şərq ornamentlərinə məxsus basma medalyonlar ilə bəzədilmiş tünd qəhvəyi rəngli dəridir.

Əvvəli: ($92^b$)…الحمد الله الذى جعل بكلمة

Sonu: ($96^b$)…والاستفهام والسمع والعرض روالحقيقة…[İslam Ansiklopedisi,1994:65; Sami,1891: 1657]

**3. B-695(9) şifrəli əlyazma**

Dili: ərəb dilində
Xətti: nəstəliq elementli nəsx
Katibi:احمد ابراهيم خليل افندى
Əhməd İbrahim Xəlil Əfəndi
Köçürülmə ili: 1285/1868
Ölçüsü: 16,5x21,5sm.
Həcmi: 340 vərəq

**رسالة في النحو**
**Risalə fin-nəhv**

Əlyazma məcmuəyə daxildir. Mətn əlyazmanın $169^b$ -$170^b$ vərəqlərini əhatə edir. Əsər nəzmlə, iki sütun formasında yazılıb. Kağızı Rusiya istehsalı olan vərəqlərdir. Əlyazma Şərq üsulu ilə səhifələnib.

Cildi: kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Üzərində qara mürəkkəblə dairə cızılmışdır. Dairənin içi gül şəkli ilə bəzədilmişdir.

Əvvəli: ($169^b$) … فلما لم يجر واصيغ صفة المشبهة علي صياس

Sonu: ($170^b$) … ندمان ندمانان ندام ندمانة ندمانتان

**4. B-695(14) şifrəli əlyazma**

Dili: türk dilində
Xətti: nəstəliq elementli nəsx
Katibi: احمد ابراهيم خليل افندى
Əhməd İbrahim Xəlil Əfəndi
Köçürülmə ili: 1285/1868
Ölçüsü: 16,5x21,5sm.
Həcmi: 340 vərəq

**رسالة في النحو**
**Risalə fin-nəhv**

**ابو بكر عبد القاهر بن عبد الرحمن بن محمد الجرجانى**

**Əbu Bəkr Əbdülqahir b. Əbdürrəhman b.**
**Məhəmməd əl-Cürcani**

XI əsrin məşhur dilçi alimlərindən olan Əbu Bəkr b. Əbdülqahir b. Əbdürrəhman Cürcani orta əsrlərin mühüm mədəniyyət mərkəzlərindən olan Cürcanda anadan olmuş və bütün həyatını orada keçirmişdir. O ərəb dilini məşhur alim Əbu Əli əl-Farisidən öyrənmişdir. Həmçinin onun Qazi Əbulhəsən Əli b. Əbdüləziz əl-Cürcanidən də dərs aldığı söylənilir. Alim fars mənşəli olmasına baxmayaraq, heç bir əsərini fars dilində yazmamışdır. Bəzi mənbələrdə alimin 471/1078, bəzilərində isə 474/1081-ci ildə Cürcanda vəfat etdiyi göstərilir. Cürcani ritorika, morfologiya və sintaksis üzrə bir çox əsərlərin müəllifidir.

Əlyazma məcmuəyə daxildir. Mətn əlyazmanın 175[a] -176[a] vərəqlərini əhatə edir. Kağızı Rusiya istehsalı olan vərəqlərdir. Əlyazma Şərq üsulu ilə səhifələnib.

Cildi: kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Üzərində qara mürəkkəblə dairə cızılmışdır. Dairənin içi gül şəkli ilə bəzədilmişdir.

Əvvəli: (175[a]) عامل حق اوله نه لا زمدر خدا هم در هو …

Sonu: (176[a]) باغ عرفان ایچره بر خوردار اولاضیف شتا حففا … [Şərifov,2009:280-283; H.A.,1951: 606]

**Nəticə**

Aparılan tədqiqat bir daha göstərir ki, linqivistikaya dair əlyazmalar yalnız dilçilik elminin tarixi inkişaf mərhələlərinin öyrənilməsi baxımından deyil, həm də ümumi filoloji və mədəni irsin qorunması baxımından mühüm elmi əhəmiyyətə malikdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, kataloqa daxil edilmiş ərəb, fars və türk dillərində yazılmış əlyazmalar linqivistika elminin müxtəlif sahələrini –qrammatika, morfologiya, sintaksis və terminologiyalarını–əhatə etməklə yanaşı, müxtəlif dövrlərin elmi düşüncə tərzini, yazı mədəniyyətini və dil qaydalarını əks etdirir. Əlyazmaların elmi-paleoqrafik xüsusiyyətlərinin təhlili onların köçürülmə texnikası, xətt növləri, material və struktur xüsusiyyətləri barədə dəyərli məlumatların əldə olunmasına imkan yaratmışdır.

Bununla yanaşı, kataloqlaşdırma prosesinin yalnız biblioqrafik fəaliyyət olmadığı, eyni zamanda gələcək fundamental tədqiqatlar nüçün etibarlı elmi baza formalaşdırdığı, dilçilik tarixi üzrə müqayisəli araşdırmaların aparılmasına geniş imkanlar açdığı müəyyən edilmişdir. Nəticə etibarilə, təqdim olunan kataloq və onun əsasında aparılan elmi təhlillər linqivistika, filologiya və əlyazmaşünaslıq sahələrində aparılan tədqiqatların inkişafına töhfə verməklə yanaşı, milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat siyahısı**


Şərifov, K.K. (2009). Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kitabxanasının kataloqu / - c.1., - Bakı: “Nurlan”, - s. 425

TDV. İslam Ansiklopedisi, (1994). -c.11,. -s. 65

Sami Şəmsəddin (1891). Qamusül –elam, cild 3, -İstanbul, s. 1604-2400

اسماعیل باشا البغدادی (١٩٥١)’ هداية العاريفين, استنبول’:ص.٦٠٦

مصطفى بن عبد الله الشهير بحاجى خليفة و بكاتب چلبى / كشف الظنون عن اسامى الكتب و الفنون. جلد ١-٢’ استنبول’١٩٤١- ١٩٤٣

**Əli Məmmədbağıroğlu**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: ali.aliyev55@gmail.com*
*ORCİD: 0000-0001-6191-1682*

# "ƏMSAL VƏ NƏSAHEYİ-TÜRKİ"NİN ƏLYAZMASI

**Xülasə**

Klassik yazılı ədəbiyyatla müqayisədə orta əsrdərdən başlayaraq folklor nümunələri çox nadir hallarda katiblər tərəfindən qələmə alınmışdır. Ona görə də, çağdaş dövrümüzə şifahi xalq ədəbiyyatımıza aid az sayda əlyazmalar gəlib çatmışdır. Araşdırmalar nəticəsində xalq ədəbiyyatımızdan hansısa bir dastan, nağıl, hekayət və başqa bir əsər üzə çıxarsa, bu, ədəbi mühitdə nadir bir tapıntı kimi dəyərləndirilir. Azərbaycan xalq ədəbiyyatına aid son vaxtlar Tehran Parlament Kitabxanasından aşkar olunan "Əmsal və nəsayehi-türki" (Türk məsəl və nəsihətləri) adlı paremioloji vahidlər toplusu da yazılı folklor ədəbiyyatımıza məxsus qiymətli bir ədəbi mənbədir.

Toplunun əlimizə gəlib çatmış əlyazmasının surətinə əsasən onun paleoqrafik xüsusiyyətlərinə görə XVIII əsrin sonu və XIX əsrin əvvəllərində köçürüldüyü müəyyənləşdirilmişdir. Yazılı folklor abidəsi Mirzə Əlinağı Marağayinin avtoqraf nüsxəsidir. Bu toplu Əlyazmalar İnstitutunda yeganə nüsxəsi saxlanılan "Əmsali-türkanə" ilə məzmun, tərtibat baxımından çox yaxın olub, təxminən eyni vaxtda Cənubi Azərbaycanın ayrı-ayrı regionlarında müxtəlif peşə, sənət sahələrinə aid insanların dilindən toplanmışdır. Burada əlifba sırasına əsasən 996 sayda atalar sözü və başqa paremioloji ifadələrr köçürülmüdür. Yazılı folklor toplusu ilə bağlı aparılmış araşdırmada əlyazmaya köçürülmüş ifadələr mövzular üzrə təsnifatlandırılmış, dil, üslub, eyni zamannda mənbədəki paremilər müasir nümunələri ilə müqayisə edilərək fərqli tərəfləri təhlil edilmişdir. Bütün bunlarla bərabər, "Əmsal və nəsayehi-türki" kimi nadir yazılı folklor abidəsinin Azərbaycan folklorşünaslığında elmi tədavülə gətirilməsinin əhəmiyyəti bu yazıda qeyd olunmuşdur.

***Açar sözlər:*** *Azərbaycan, yazılı folklor, əmsal, atalar sözü, Marağayi*

# "MANUSCRİPT OF "AMSAL AND NASAHEYİ-TURKU"

**Abstract**

Compared to classical written literature, folklore examples were very rarely written down by scribes starting from the Middles Ages. Therefore few manuscripts of our oral folk literature have survived to our modern times. If as a result of research, a certain epic, fairy tale, story or other work from our folk literature is discovered, it is valued as a rare find in the literature environment. The collection of paramiological units of Azerbaijani folk literature called "Amsal and nasayehi-turki" (Turkish proverbs and admonitions), recently discovered in the Tehran Parliamentary Library, is also a valuable literary source of our written folklore literature.

Based on the surviving copy of the manuscript of the collection, its paleographic characteristics indicate that it was copied at the end of the 18th and beginning of the 19th centuries. The written folklore monument is an autograph copy of Mirza Alinaghi Maraghayi. This collection is very similar in content and design to "Amsali-Turkana" the only copu of which is

kept at the Institute of Manuscripts and was collected from the languages of people belonging to various professions and arts in different regions of South Azerbaijan at about the same time. Here, 996 proverbs and other paremiological expressions are transcribed in alphabetical order. In the research conducted on the written folklore collection, the expressions transcribed into the manuscript were classified by topics, and their different aspects were analyzed by comparing into the manuscript were classified by topics, and their different aspects were analyzed by comparing language, style and contemporary examples of paremiology in the source. Along with all this, the importance of bringing such a rare written folklore monument as "Amsal and Nesayehi-Turku" into scientific circulation in Azerbaijani folklore studies is noted in this article.
***Key words:*** *Azerbaijan, written folklore, amsal, proverb, Maragayi*

Azərbaycan xalqının mənəvi irsinin böyük bir hissəsini təşkil edən əlyazma abidələri ölkəmizdən başqa, bu gün səpələnmiş şəkildə dünyanın müxtəlif kitabxanalarında, muzeylərində və şəxsi kolleksiyalarda saxlanılmaqdadır. Son illərdə, hələ ki tam dəqiqləşdirilməmiş məlumata görə, təxminən ölkə xaricində on mindən artıq yazılı abidəmiz vardır (Musabəyli, 2012: 55). Orijinal nüsxələrinin geri qaytarılması mümkün olmayan bu qiymətli mənbələri araşdırıb öyrənmək üçün, ən yaxşı halda onların ya saxlanıldığı kitabxanaların kataloqları, ya da elektron surətlərinin əldə edilməsi olduqca vacibdir. Son illər xaricdəki milli sərvətimizdən ələ gətirilən yazılı abidələrimizdən biri də "Əmsal və nəsayehi-türki"nin əlyazmasının surətidir.

Yazılı folklor ədəbiyyatımıza aid "Əmsal və nəsayehi-türki" (Türk məsəl və nəsihətləri) kimi nadir bir əlyazmanın surətinin əldə edilməsini elmi ictimaiyyət, həmçinin geniş oxucu kütləsi üçün olduqca qiymətli bir məxəz hesab etmək olar. Bu əlyazma məzmunca AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılan "Əmsali-türkanə"nin mətninə çox yaxındır. Xatırladaq ki, daha öncə Əlyazmalar İnstitutunun xəzinəsindən aşkar olunan həmin əsərin əlyazmasını (B-6425: 1ª-25ª) tədqiqatçı alimlər Müqəddəs Payızov və Məmməd Adilov tərtib edərək ilk dəfə 1992-ci ildə kiril əlifbası ilə (Marağayi, 1992: 56), 4 il sonra isə AMEA-nın Milli Münasibətlər İnstitutunun əməkdaşı Böyük Rəsuloğlu əsəri latın qrafikasında yenidən təkrar nəşr etdirmişdir (Marağayi, 1996: 52+52). Az bir vaxt keçəndən sonra bu əsərin təkrar nəşr olunmasının səbəbini kitabın tərtibçisi belə əsaslandırırdı ki, xarici ölkələrdə və Güney Azərbaycanda yaşayan soydaşlarımız arasında həmin əsəri kiril əlifbasına nisbətən, latın qrafikasında daha geniş şəkildə yaymaq mümkündür. "Əmsali-türkanə"nin AMEA-nın Əlyazmalar İnstitutunda yalnız bir nüsxəsi, tədqiqatçıların verdiyi məlumata görə isə Türkiyədə (İstanbulda) daha 3 nüsxəsi saxlanılır (Marağayi, 1992: 5). Araşdırmalar nəticəsində məlum olmuşdur ki, əlyazmanın aşkar olunan bu nümunələri Qacarlar səltənətinin sifarişi ilə Azərbaycanın güneyində XVIII əsrin sonlarında əhalinin müxtəlif təbəqələri arasından toplanaraq köçürülmüş eyni əlyazmanın ayrı-ayrı nüsxələridir. Biz bu yazımızda isə "Əmsali-türkanə"nin əlyazması ilə oxşar və eyni zamanda bəzi fərqli xüsusiyyətlərə malik olan "Əmsal və nəsayehi-türki" folklor toplusundan söz açacağıq.

"Əmsal və nəsayehi-türki"nin əlyazmasının əsli hal-hazırda Tehran Parlament Kitabxanasında (əvvəllər "Kitabxanaye-Məclise-Şuraye-Milli" adlanmışdır) saxlanılır. Əlyazmanın surətini Almaniyanın paytaxtı Berlin şəhərində yaşayan soydaşımız, klassik ədəbiyyatımızın yorulmaz tədqiqatçısı Məhəmmədəli Hüseyni İranın Qum şəhərində yerləşən kitabxananın elmi əməkdaşı, türkdilli əlyazmaların araşdırıcısı Hüseyn Müttəqidən əldə edərək, bir neçə əlyazmanın surəti ilə birlikdə AMEA-nın Əlyazmalar İnstitutuna göndərmişdir (Əlioğlu, 2011: 12).

Əlyazma titul vərəqində "Əmsal və nəsayehi-türki" – "Divani-Marağayi"; "müəllifi: Mirzə Əlinağı Marağayi" və "xətti-müəllif" kimi qeydlər yazılmışdır. Xatırladaq ki, əlyazmaya daxil

edilmiş divan və paremioloji ifadələrdən ibarət yazılı folklor toplusunun köçürüldüyü bu qiymətli məcmuədə ən önəmli məqamlardan biri – əlyazma mətninin Mirzə Əlinağı Marağayinin avtoqrafı ("xətti-müəllif") olmasıdır.

Qeydlərdən bəlli olur ki, əlyazmaya iki əsər köçürülmüşdür: birincisi, müəllifin xalq dilindən toplayaraq, özünəməxsus dəst-xətlə köçürdüyü "Əmsal və nəsayehi-türki" əsəridir ki, dildə-ağızda gəzib-dolaşan, xalqın yaddaşına "hopmuş" atalar sözlərini, zərb-məsəlləri və digər ifadələri unudulmaması üçün sistemli şəkildə, əlifba sırasına uyğun tərtib etmiş; ikincisi isə, "Divani-Marağayi"dir ki, bu da, müəllifin öz dövrünün tanınan, seçilən bir şairi olmasından xəbər verir.

"Əmsal və nəsayehi-türki" əlyazmasının əsli əlimizdə olmadığı üçün, onun paleoqrafik xüsusiyyətlərini ilk baxışda tam müəyyənləşdirmək mümkün deyildir. Buna baxmayaraq, əlyazmanın surətinə əsasən mətnin paleoqrafiyasına aid aşağıdakı bəzi məlumatları verə bilərik: ölçüsü 20,5x26 sm, həcmi 29 vərəq (58 səhifə), xətti şikəstə qrafik əlamətləri ilə müşayiət olunan xırda nəstəliqdir. Əvvəldə – titul səhifəsində əlyazmanın saxlanıldığı kitabxanaya məxsus yarlıq, elə həmin səhifədə dördkünc və əlyazma mətnindən əvvəl bir oval şəkilli möhür, həmçinin ştamplar, sonda isə iki dairəvi möhür basılmışdır. Dairəvi möhürlərin haşiyəsində "Kitabxanaye-Məclise-Şuraye-Milli", ortasında "təsis 1302" hicri-şəmsi (miladi 1924 – Ə.M.) tarixi yazılmışdır.

"Əmsal və nəsayehi-türki"nin mətni əlyazmanın 1-29-cu vərəqlərinə köçürülmüşdür. Mətn müsəlman-Şərq əlyazmalarına uyğun, ənənəvi olaraq bəsmələ ilə başlanır, səhifənin yuxarısında sol küncdə "Kitabxanaye-Cəfər Sultan əl-Qurai. Təbriz, 1365 qəməri" qeydi yazılmışdır. Bu qeydə və kitabxanaya aid möhürə əsasən demək olar ki, əlyazma Tehran Parlament Kitabxanasına daxil olanadək Təbrizdə Cəfər Sultan əl-Qurainin şəxsi kolleksiyasında olmuşdur. Əlyazma mətninin köçürülmə tarixinin daha əvvəlki dövrə aid olduğunu da düşünmək olar. Çünki orta əsr əlyazmalarında ənənəvi olaraq əlyazmanın köçürülmə tarixi katib kolofonunda yazılır. Burada isə nə müəllif, nə də katib kolofonu olmadığından mətnin köçürülmə tarixi bizə bəlli olmur. Qeyd etdiyimiz kimi, əlyazmanın titul səhifəsində və möhürdəki tarixlər son dövrlərə aiddir, yəni möhürdəki tarix kitabxananın təsis olunmasını (1924) bildirir, titul vərəqinin interpolyasiyasındakı tarix və qeyd isə çox güman ki, əlyazma Təbrizdən Tehrana aparılma ərəfəsində (1946) kitabxananın sahibi Qurai tərəfindən yazılmışdır. Bir daha qeyd edək ki, həm müəllif, həm də katib kolofonu olmadan, əlyazma kitabına köçürülmüş mətnin tarixini müəyyənləşdirmək çətindir. Adətən, belə naqis əlyazma kitablarının tarixi onun paleoqrafik xüsusiyyətlərinə əsaslanmaqla təxmini də olsa, paleoqraf-mütəxəssis tərəfindən dəqiqləşdirilir. Ancaq əlimizə gəlib çatan bu əlyazma mətninin əsli yox, surəti olduğu üçün, xüsusilə kağızı, əlyazmanın tarixini müəyyənləşdirməkdə köməkçi vasitə rolunu oynayan filiqranlar kserosurətə düşmədiyindən onun köçürülmə tarixi haqqında qəti fikir söyləmək mümkün olmur. Belə olan hallarda, adətən, mütləq olaraq əlyazma nüsxəsinin əslinə istinad etməklə fikir bildirmək mümkündür.

"Əmsal və nəsayehi-türki"nin məzmununa, tərtibatına, toplanan atalar sözlərindəki toponimlərə, şəxs adlarına, ifadələrin hər hansı bir hadisə və əhvalatla bağlı olmasına və s. görə, XVIII əsrin sonunda köçürülmüş və Əlyazmalar İnstitutunda yeganə nüsxəsi saxlanılan "Əmsali-türkanə"yə çox yaxın bir mətn olduğu və bəlkə də, eyni soy-kökdən (Abbasqulu **Marağayi** – Mirzə Əlinağı **Marağayi**) olan adamlar tərəfindən köçürüldüyü təxmin edilir. Bunlardan birincisini, yəni "Əmsali-türkanə"nin köçürüldüyü tarixi onu nəşrə hazırlayan tərtibçilər (Marağayi, 1992: 56) XVIII əsrin sonuna aid edirlər. Tədqiqatçılar burada əlyazma kitabı kağızındakı "1792" filiqran-tarixi əsas götürməklə bu fikri söyləmişlər (Клепиков, 1959; Николаев, 1954). "Əmsali-türkanə" mətninin qeyd olunan paleoqrafik xüsusiyyətinə əsasən

XVIII əsrin sonunda və yaxud kağızın istehsaldan sonra saxlanıldığı vaxtı da nəzərə almaqla, ən uzağı XIX yüzilliyin əvvəllərində köçürüldüyünə əsasən, məzmunca və paleoqrafiyasına görə yaxın olan "Əmsal və nəsayehi-türki"nin əlyazmasının da ona yaxın bir vaxtda köçürüldüyünü qəbul etmək olar.

Hər iki əlyazmanın mətni eyni regiona – Güney Azərbaycana aid katiblər tərəfindən köçürülmüşdür. Çox güman ki, Mirzə Əlinağı Marağayi həmsoydaşı, həmyerlisi Abbasqulu Marağayinin kitabından xəbərdar olmuş və özündən əvvəl başlanmış və yarımçıq qalmış işi bir növ davam etdirmək üçün "Əmsal və nəsayehi-türki" toplusunu tərtib etmişdir. Hər iki əlyazma ilə bağlı bir faktı da xatırladaq ki, Abbasqulu Marağayi kitabına əski əlifbanın yalnız "əlif" – "kaf" arasında olan hərflərlə başlanan 1149, Mirzə Əlinağı Marağayinin tərtib etdiyi kitaba isə əski əlifbanın bir az da artıq sayda hərflərini əhatə edən 996 atalar sözü köçürülmüşdür. "Əmsal və nəsayehi-türki"nin mətni ifadələrin sayı hər səhifədə müxtəlif olmaqla, kiçik ölçülü, sıx, xırda, ancaq aydın oxunan nəstəliq-şikəstə xəttilədir.

"Əmsal və nəsayehi-türki"dəki bəzi atalar sözləri ta qədim dövrdən üzü bəri – "Kitabi-Dədə Qorqud", "Oğuznamə"lər və digər yazılı abidələrimizdə olan ifadələrlə səsləşir və çox yaxındır, yəni ifadələr həm orfoqrafik formasını, həm də leksik mənasını olduğu kimi qoruyub saxlamış, bəziləri isə formaca qismən dəyişikliyə məruz qalmaqla bərabər, eyni zamanda köçürüldüyü regionun dil-üslub xüsusiyyətlərini özündə əks etdirir. Əlyazmadakı atalar sözlərini nəzərdən keçirdikcə onlardan bəzilərində kiminsə xalq arasında davranışı, əxlaqı, xarakteri və sair fərdi keyfiyyəti ilə əlaqəli baş verən bir hadisə və əhvalatla bağlı yarandığını duyuruq.

"Əmsal və nəsayehi-türki" əlyazmasındakı atalar sözlərinin məzmunundan çıxış edərək onlardakı rəngarəngliyi göstərmək üçün yığcam şəkildə aşağıdakı təsnifi verə bilərik:

**1) Toponimlərin işləndiyi ifadələr:** *Ərdəbilli göyçəksə, bizim qız da zirəkdi; Fatma qarı, Sarabdakı yurduvu görmüşəm; Zirəni Kirmana aparmazlar; Ərəs aşığındandı, Kür topuğundan; Ərdəbilli [kələk] eylər, sarablı cərimə çəkər.*

Bəzən konkret bir ərazi ilə bağlı yaranan ifadə başqa regionlarda da işlənməklə ümumxalq istifadəsində olmuşdur: *Şahid bilür, Şirvan sünnüdür.*

Tarixən soydaşlarımızın daim yaxın və uzaq ölkələrlə mədəni, ticari əlaqələri olduğundan, bu münasibətlə bağlı onların danışığında ifadələr də yaranmışdır: *Soruşa-soruşa Hində getmək olar.*

**2) Dini məzmunlu ifadələr.** "Əlif" hərfi ilə köçürülmüş ilk ifadə "Əmsali-türkanə"də olduğu kimi *("Allah var, rəhmi də var")*, burada da Allahın adı ilə bağlıdır: *Əlif Allah adıdır; Şərik yaxşı olsaydı, tarı özüyçün dutardı; On iki imama yalvarınca, bir tarıya yalvar; Hacı hacını Məkkədə görər; Peyğəmbər əvvəl öz canına dua eyləyüb; Allah heç evi böyüksüz eyləməsün.*

**3) Heyvandarlıqla bağlı ifadələr**: *Kürə qoyun bir yol hürkər, kərə qoyun iki yol; Ev buzovu öküz olmaz; Öküzün qaşqasın dögəllər; Qurt nə bilür qatır bahadur; Südün qədrini qısır əmən dana bilür.*

**4. Şəxs, hər hansı bir hadisə, əhvalatla bağlı ifadələr**. Bu cür ifadələrə Azərbaycanın müxtəlif regionlarında rast gəlinir. Ancaq ola bilsin ki, bu atalar sözündəki şəxs adları regiona görə fərqli olub dəyişsin və ifadənin deyimi bir az başqa cür səslənsin: *Qoyun olmayan yerdə, keçiyə Əbdülkərim ağa deyəllər; Bildirçin Cəmalabaddan hara gedər, dəni yanında, suyu yanında; Adun nədi? - Rəşid. - Birin de, birin eşid; Camış nə bilür, Camal ağa kimdür? Toydan sora nağara, xoş gəldin Bayram ağa; Həmmamçı həmmamçıya yetişəndə sənduqi öpər; Həqq söz deyənün börkünün təpəsi dəlik olu; Başuva kül savursan uca kötükdən savur.*

**5. Fərqli ifadələr.** İfadələrin həm yazılı abidələrimizdə, həm də bu gün xalq dilində ayrı-ayrı formaları işlənməkdədir. Onların bir neçəsini çağdaş variantı ilə müqayisəli şəkildə nəzərdən keçirək: ***Doşab alduq, mürəbbə çıxdı –*** *Doşab aldıq, bal çıxdı;* ***Su kuzəsi su yolunda sınar –*** *Su qabı suda sınar;* ***Gəmidə oturub, gəmiçi gözü çıxartma –*** *Gəmidə oturub, gəmiçi ilə dava etmə;* ***Köhnə şəhərə tazə nırx qoyma –*** *Köhnə bazara təzə nırx qoyma;* ***Qoca tələsür, ərik vəqtində yetişür –*** *Xəstə tələsər, armud vaxtında yetişər;* ***Qonşu qonşuya tən gərək, tən olmasa, gen gərək –*** *Dost dosta tən gərək, tən olmasa, gen gərək;* ***Fildən böyük kərgədan var –*** *Dəvədən böyük fil var;* ***Adada qurt az idi, biri də gəmiynən gəldi –*** *Mazandaranda çaqqal az idi, biri də gəmi ilə gəldi.*

"Əmsal və nəsayehi-türki"də yuxarıdakı ifadələr silsiləsindən elələri də var ki, onlar bu gün xalq dilində daha çox istifadə olunan variantlardan forma etibarilə fərqlənməklə bərabər, məzmununun məntiqiliyi cəhətdən oxucunu düşündürür. Məsələn: "***Qoruyan gözə çöp düşər***". Bu atalar sözünün xalq arasında daha geniş surətdə işlənəni "***Qorxan gözə çöp düşər"*** variantıdır. Bizcə, əlyazmada ilk sözün ***qoruyan//qorunan*** şəkilində olması ifadənin məzmununa daha yaxındır. Çünki məsələyə məntiqlə baxsaq "gözün qorxamas" fikri yanlışdır. Əslində isə gözə xətər toxunmasın deyə, o daim qorunur.

Aşağıdakı atalar sözlərində də fikir dolaşıqlığının şahidi oluruq, buna baxmayaraq qeyd olunan atalar sözlərindən fərqli olaraq, həmin ifadələrin bu gün xalq dilində yaşayan variantlarında fikir daha qəqiq və səlis ifadə olunmuşdur:

***Doşab alduq, mürəbbə çıxdı –*** *Doşab aldıq, bal çıxdı;* ***Fildən böyük kərgədan var –*** *Dəvədən böyük fil var;* ***Tülkiyə der: qaç, dovşana der: dut –*** *Dovşana deyir: qaç, tazıya deyir: tut;* ***Oğru yadına daş salı –*** *Dəli yadına daş salmaq***.**

**6. Nadir, az rast olunan ifadələr**. Folklor materiallarının toplanıb, çap olunmasının və yaxud da nə vaxtsa katiblərin əlyazmalara köçürdüyü xalq deyimlərinin transfoneliterasiya edilərək nəşr olunmasının başlıca əhəmiyyəti ondadır ki, vaxtilə hansısa regionun danışığında işlənən ifadə unudulmur və yenidən xalqın istifadəsinə dönür. Bu cür ifadələri ola bilsin ki, kimsə eşidib və bilir, ancaq belə ifadələrin geniş oxucu kütləsinin, xalqın istifadəsinə qayıtması olduqca vacibdir. Məsələn: *İtin yağ yeməyi adamı yandırmaz, quyruğunu şax dutmağı yandırı; Pişik evdən çıxanda siçanlar "mərcangülü" oynar; Damı çox olanun, qarı çox olar; Dovşan nə qədər yatar, o qədər qaçar; Qurdun üzü ağ olsa, abadanlığa gündüz gələr; Qurd nə bilir qatır bahadır; Qış günü qız alan alana kimi yalvarar, qız verən ölənə kimi; Yük itməsə, daşı qürbətə düşməz; Qatıra dedilər, atan kimdir? Dedi: anam atdır.*

**7. Açıq-saçıq sözlərlərin işləndiyi ifadələr**. Belə ifadələrin deyim tərzi, onlarda işlənən sözlər nəzakətdən kənar olsa da, bu cür atalar sözləri məzmun etibarilə hər hansı bir müdrik fikrin ifadəsinə xidmət edir. Vulqar sözlərin işləndiyi atalar sözlərinin əlyazmalara köçürülməsinin əsas səbəbini bu cür kitabların geniş oxucu kütləsi üçün deyil, kiminsə sifarişi ilə köçürülüb, yalnız məhdud sayda şəxslərin istifadəsində olması ilə əlaqələndiririk. Qeyd edək ki, bu səpkidə olan ifadələr xalq arasında, söhbət əsnasında həmişə istifadə olunmuş və yeri gələndə əlyazmalara da köçürülmüşdür. Ancaq son dövrlər bu cür ifadələrə "nəzakətdən kənar söz və ifadələr" adı verilməklə nəşr olunan "Atalar sözləri" kitablarına daxil edilməmişdir. İstər "nəzakətsiz", istərsə də "ədəbsiz" adı verilən belə ifadələr tarixən xalq dilində formalaşıb, uzun əsrlər boyu folklorumuzun tərkib hissəsi kimi yayılıb və hafizələrdə yaşamışdır. Ancaq sadə el dilində yaranan belə ifadələrin yazıya alınması etik cəhətdən məqsədəuyğun sayılmasa da, şifahi nitqdə yeri gələndə istər-istəməz fikrini ifadə edən şəxs qarşısındakından etik qaydalara görə üzr istəməklə həmin ifadəni dilinə

gətirmişdir. Məsələn: "*Gizlin buğaya gələn, aşkar doğar".* Yəni söhbət əsnasında nəyisə gizlətməyin mümkün olmadığını bilən şəxs bu ifadəni dilə gətirir. Daha bir misal: *"Qonşuya ümid olan şamsız qalı, oynaşa ümid olan, ərsiz*". Bu cür deyilmiş ibrətamiz ifadə ilə kiməsə görüləcək hər hansı bir işdən əvvəl qətiyyətli olmaq, yüz ölçüb bir biçmək tövsiyə olunur.

Azərbaycan folklor ədəbiyyatının geniş bir hissəsini təşkil edən, əsasən şifahi nitqlə bağlı olub, danışıqda ifadə edilən fikri daha da dolğunlaşdırmaq, dəqiqləşdirmək üçün işlənən atalar sözlərinin nə vaxtsa dövrünün cəfakeş ziyalıları sayılan katiblər tərəfindən qələmə alınmış əski əlyazma variantlarının, bu qəbildən olan çağdaş nümunələri ilə müqayisəli araşdırılması folklorşünaslığımızda paremioloji vahidlərin öyrənilməsi sahəsində çox faydalı ola bilər.

**Ədəbiyyat siyahısı**

Musabəyli, A. (2012). Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının toplu kataloqu (3 cilddə), I cild. Bakı: Elm.

Marağayi, A. (1992). Əmsali-türkanə (Atalar sözləri və xalq məsəlləri). Çapa hazırlayanlar: Müqəddəs Payızov, Məmməd Adilov. Bakı: Yazıçı.

Marağayi, A. (1996). Əmsali-türkanə (Türk atalar sözləri). Köçürən və tənzim edən Böyük Rəsul oğlu. Bakı: Qartal.

B-6425. Məcmuə ("Əmsali-türkanə", 1ª-25ª). AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Əlioğlu, P. (2011). Əlyazmalar İnstitutu yeni yazılı abidələrimizin surətini əldə edib. "Ədəbiyyat" qəzeti, 30, s.4.

Клепиков, С. (1959). Филиграни и штемпели на бумаге русского и иностранного производства XVII-XX века. Москва.

Николаев, В. (1954). Водяные знаки на бумаге средневековых документов Болгарских книгохранилищ. В трех томах, I том, София, Издательство Болгарской АН.

**Rübabə Şirinova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: rubaba.sirinova@mail.ru*
*ORCİD: 0009-0003-9470-5860*

# ORTA ƏSRLƏR AZƏRBAYCAN-TÜRKİYƏ YAZILI ABİDƏLƏRİNİN İLK TƏDQİQATÇISI

**Xülasə**

Filologiya elmləri doktoru, professor Azadə Musabəyli uzun illər AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunda fəaliyyət göstərmişdir. Ömrünü orta əsr əlyazmalarının araşdırılmasına həsr edən alim, Azərbaycan-Türkiyə yazılı abiələrinin paleoqrafik-tekstoloji tədqiqi üzrə sərişləli və yüksək ixtisaslı mütəxəssis kimi tanınır. Onun ilk dəfə üzə çıxararaq tədqiqata cəlb etdiyi Xəlilinin "Firqətnamə"si (1475), Füzulidən sonra Bağdadın yetirdiyi ən böyük türk şairi Ruhi Bağdadinin (vəf. 1606) "Divan"ı, Seyyid Yəhya Bakuvinin tələbəsi Dədə Ömər Rövşəninin (vəf. 1487) "Külliyyat"ı, Şeyx İbrahim Gülşəni Bərdəinin (1427-1534) türk və ərəb divanları kimi əlyazma abidələrinin hər biri ədəbiyyat tariximiz baxımından mühüm əhəmiyyət kəsb edir. Təsəvvüfi poeziya, Türkiyədə və Bağdadda yaranan Azərbaycan ədəbiyyatı, Azərbaycandakı Türkiyə əlyazmaları və ilkin yazılı qaynaqlar əsasında tədqiqi, xarici ölkələrdəki Azərbaycanla bağlı əlyazmalar haqqında məlumatları üzə çıxararaq sistemli şəkildə təqdim etmişdir. Azərbaycanda orta çağlar Türkiyə ədəbiyyatını, Azərbaycan-Türkiyə ədəbi və əlyazma əlaqələrini ilkin qaynaqlar əsasında tədqiq edən yeganə elmlər doktoru sayılan Azadə xanım 200-ə yaxın məqalənin, 20-dən artıq monoqrafik araşdırmanın və dərs vəsaitlərinin müəllifidir. Azadə xanım uzun illərdən bəri çalışdığı Əlyazmalar İnstitutundakı əsərlər üzərində araşdırma aparmaqla bərabər, Azərbaycan mədəniyyəti, elmi üçün böyük əhəmiyyət kəsb edəcək dəyərə malik olan, olduqca vacib bir işə girişərək, dünyanın müxtəlif ölkələrindəki əlyazmalarımız haqqında ətraflı elmi-paleoqrafik məlumat əldə edərək, "Xarici ölkələrdəki Azərbaycan Əlyazmalarının Toplu Kataloqu (Şərq əlyazma kataloqları əsasında)" üçcildlik toplu kataloqunu tərtib etmişdir.

***Açar sözlər:*** *alim, əlyazma, mətn, kataloq, kitab, Azadə Musabəyli, poleoqrafiya*

# THE FIRST RESEARCHER OF MEDIEVAL AZERBAIJANI-TURKISH WRITTEN MONUMENTS

**Abstract**

Doctor of Philology, Professor Azadeh Musabeyli has been working at the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS for many years. The scientist, who has dedicated her life to medieval manuscripts, is considered a competent and highly qualified specialist in the paleographical-textological study of medieval Azerbaijani-Turkish written monuments. Each of the manuscript monuments, such as Khalili's "Firgatname" (1475), which she initially uncovered and involved in research, Ruhi Baghdadi's (-1606) "Divan" (-1606), the greatest Turkish poet brought to Baghdad after Fuzuli, Dede Omar Rovshani's (-1487) "Kulliyyat" (Collection) of Seyyid Yahya Bakuvi's student, Sheikh Ibrahim Gulshani Bardai (1427-1534), Turkish and Arabic divans, can be considered an important event in terms of our literary history. She systematically presented the research of Sufi poetry, Azerbaijani literature originating in

Turkey and Baghdad, Turkish manuscripts in Azerbaijan, etc. based on primary written sources, and information about manuscripts related to Azerbaijan in foreign countries. Azadeh Khanum, who is considered the only doctor of sciences in Azerbaijan who has studied medieval Turkish literature, Azerbaijani-Turkish literary and manuscript relations based on primary sources, is the author of nearly 200 articles, more than 20 monographic studies, and textbooks. Azadeh Khanum, in addition to conducting research on the works at the Institute of Manuscripts, where she has worked for many years, has undertaken a very important work that will be of great importance for Azerbaijani culture and science, obtaining detailed scientific and paleographic information about our manuscripts in various countries of the world and compiling the three-volume collective catalog "Collective Catalog of Azerbaijani Manuscripts in Foreign Countries (Based on Eastern Manuscript Catalogs)".

***Key words:*** *scholar, manuscript, text, catalog, book, Azadeh Musabeyli, paleography*

Görkəmli mətnşünas alim Azadə xanım Musabəyli həyatının 45 ilini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə bağlamışdır. O, ömrünün böyük bir hissəsini tədqiqatçı bir alim kimi xalqımızın mənəvi sərvəti olan orta əsr əlyazmalarına həsr etmişdir. İxtisasca türkoloq-mətnşünas olan Azadə xanım orta əsrlər Azərbaycan-Türkiyə yazılı abiələrinin paleoqrafik-tekstoloji tədqiqi üzrə səriştəli və yüksək ixtisaslı mütəxəssis sayılır. Onun ilkin olaraq üzə çıxararaq, tədqiqata cəlb etdiyi Xəlilinin "Firqətnamə"si (1475), Füzulidən sonra Bağdadın yetirdiyi ən böyük türk şairi Ruhi Bağdadinin (vəf.1606) "Divan"ı, Seyyid Yəhya Bakuvinin tələbəsi Dədə Ömər Rövşəninin (vəf.1487) "Külliyyat"ı, Şeyx İbrahim Gülşəni Bərdəinin (1427-1534) türk və ərəb divanları kimi əlyazma abidələrinin hər biri ədəbiyyat tariximiz baxımından mühüm hadisə sayıla bilər. Təsəvvüfi poeziya, Türkiyədə və Bağdadda yaranan Azərbaycan ədəbiyyatı, Azərbaycandakı Türkiyə əlyazmaları və ilkin yazılı qaynaqlar əsasında tədqiqi, xarici ölkələrdəki Azərbaycanla bağlı əlyazmalar haqqında məlumatları üzə çıxarılaraq sistemli şəkildə təqdim edilməsi filologiya elmləri doktoru, professor Azadə Musabəyli yaradıcılığının elmi istiqamətlərindəndir. (Musabəyli, 2014, 910)

Azərbaycanda orta çağlar Türkiyə ədəbiyyatını, Azərbaycan-Türkiyə ədəbi və əlyazma əlaqələrini ilkin qaynaqlar əsasında tədqiq edən yeganə elmlər doktoru sayılan Azadə Şahbaz qızı Musabəyli 200-ə yaxın məqalənin, 20-dən artıq monoqrafik araşdırmanın, dərs vəsaitlərinin müəllifidir: "Bağdadda yaranan Azərbaycan ədəbiyyatı", "Əlyazma kitabı və XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı: problemlər, araşdırmalar", "Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar" (2 cilddə), "Mətn bilgisi – mətnşünaslıq", "Ruhi Bağdadi: mühiti, həyatı, poetikası və "Divan"ı", "XV-XVI əsrlər Azərbaycan mühacirət ədəbiyyatı və Xəlilinin "Firqətnamə"si", "Mətnşünaslığın nəzəri və təcrübi əsasları", " Türkiyədə yaranan Azərbaycan ədəbiyyatı və Xəlili "Firqətnamə"si", "Bağdadda yaranan Azərbaycan ədəbiyyatı və Ruhi Bağdadi "Divan"ı" (2 cilddə), "Şeyx İbrahim Gülşəni Bərdəi və türk "Divan"ı (İlkin qaynaqlar əsasında araşdırmalar və türk "Divan"ı əlyazmalarının müqayisəli mətninin transfoneliterasiyası)", "Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının toplu kataloqu", "Dədə Ömər Rövşəni və Külliyyatı (Əlyazma qaynaqları əsasında filoloji-tekstoloji araşdırmalar, elmi-tənqidi mətnin transfonoliterasiyası, orijinal mətnlər və tərcümələr)", "Azərbaycan ədəbiyyatının əlyazma qaynaqları (Tekstoloji-filoloji araşdırmalar)" (2 cilddə). Azadə xanımın ilk böyük tədqiqat işi olan "Dədə Ömər Rövşəni və Külliyyatı" (Əlyazma qaynaqları əsasında filoloji-tekstoloji araşdırmalar, elmi-tənqidi mətnin transfoneliterasiyası, orijinal mətnlər və tərcümələr) kitabı isə bu istiqamətdə adından da göründüyü kimi həcmcə daha geniş, məzmunca daha əhatəli ikinci mükəmməl nəşrdir ( Musabəyli,

2010, 371-372). Mərhum akademik Həmid Araslı 10 yanvar 1982-ci il ildə yazdığı "Dədə Ömər Rövşəni əlyazmaları ilə bağlı araşdırmalar haqqında" adlı rəydə belə yazır: "*Azadə Musayevanın əsəri dil və ictimai fikir tariximizin öyrənilməsi, eləcə də ədəbi əlaqələr baxımından son dərəcə əhəmiyyətli bir mövzuya həsr olunmuşdur. A.Musayeva görkəmli türk şairlərindən olan Dədə Ömər Rövşəni əsərlərinin elmi-tənqidi mətnini hazırlamağı qarşısına məqsəd qoymuş, yazıçının həyat və şəxsiyyəti haqqında olan mülahizələri dəqiqləşdirmək və ilk dəfə olaraq elmi-tərcümeyi halını öyrənməyə çalışmışdır. Uzun və səmərəli tədqiqatı nəticəsində müəllif müəyyənləşdirmişdir ki, Dədə Ömər Rövşəninin əgər uşaqlıq illəri və təhsili Türkiyədə başlanmışsa da, əsas fəaliyyəti Azərbaycanla bağlı olmuşdur. O, Bakı, Gəncə, Bərdə, Ərdəbildə yaşamış və nəhayət ömrünün son iyirmi beş ilini Təbrizdə keçirərək, orada da ölmüşdür. Görkəmli Azərbaycan alimi və mütəfəkkiri Seyid Yəhya Bakuvinin iste'dadlı tələbəsi olan Dədə Ömər Rövşəni onun dini-fəlsəfi görüşlərini davam və inkişaf etdirərək Yaxın Şərqdə öz adı ilə məşhur olan bir təriqətin əsasını qoymuşdur. Eyni zamanda Bərdəli Gülşəni kimi Yaxın Şərq tarixində tanınmış görkəmli Azərbaycan şairinin yetişməsində mühüm rol oynamışdır. Azadə xanım şairin əsərləri üzərində geniş tədqiqat aparmaq üçün birinci növbədə bu əsərlərin doğru-düzgün tənqidi mətnini müəyyənləşdirməyi vacib bilmiş, dünya kitabxanalarında mövcud olan 45 əlyazma nüsxəsindən yeddisini seçərək bunların əsasında şairin əsərlərinin tənqidi mətnini tərtib etmişdir. Bu tənqidi mətnin tərtibində Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılan XVI əsr Bakı nüsxəsi əsas götürülmüşdür. Tədqiqatçı bu nüsxəni Vatikan (ikinci nüsxə kimi), Leninqrad (indi Sankt-Peterburq), Göyçay, Topqapı, Marburq və İsveçin Upsala universiteti kitabxanasındakı nüsxə ilə tutuşdurmuşdur. Burasını da qeyd etmək lazımdır ki, Leninqrad (Sankt-Peterburq) nüsxəsini ilk dəfə özü üzə çıxarmış, Göyçay nüsxəsi haqqında da ilk dəfə o məlumat vermişdir. Bu nüsxələr üzərində son dərəcə diqqətlə çalışan Azadə Musayeva gərgin əməyi nəticəsində şairin əsərlərinin tənqidi mətnini yüksək səviyyədə elm aləminə təqdim edə bilmişdir"* (Musayeva, 1986, 96-105). Beləliklə, tədqiqatçı mətnşünaslıq baxımından şairin əsərlərinin qədim nüsxələri əsasında düzgün mətn təqdim etdiyi kimi şairin öz dediklərinə istinadən onun həyatı və yaradıcılığı haqqında da dolğun məlumat vermişdir.

"*Mövzu ilə bağlı ədəbiyyata yaxından bələd olan Azadə xanım, əsəri son dərəcə səlis elmi bir dildə yazılmış, mülahizələr düzgün, müddəalar inandırıcıdır. Aydın olur ki, o, tədqiqat qabiliyyətinə malik, əlyazmaların xüsusiyyətlərinə bələd, bacarıqlı mətnşünas kimi yetişmiş istedadlı tədqiqatçıdır. Dədə Ömər Rövşəni əlyazmaları ilə əlaqədar araşdırması isə bir çox cəhətdən elm aləmi üçün maraqlıdır*" (Musabəyli, 2013, 5).

Müəllif eyni zamanda tərtib etmiş olduğu tənqidi mətn əsasında şairin həyat və yaradıcılığı haqqında da yeni maraqlı mülahizələr yürütmüş və müəyyənləşdirmişdir ki, onun elm aləmində Cəlaləddin Rumidən tərcümə kimi qələmə verilən "Çobannamə", "Neynamə" əsərləri həqiqətdə tərcümə yox, Ruminin mövzularında yazılmış tamamilə orijinal əsərlərdir. Beləliklə, tədqiqatçı mətnşünaslıq baxımından şairin əsərlərinin qədim nüsxələri əsasında düzgün mətn təqdim etdiyi kimi şairin öz dediklərinə istinadən onun həyatı və yaradıcılığı haqqında da dolğun məlumat verə bilmişdir.

Azadə xanım uzun illərdən bəri çalışdığı Əlyazmalar institutundakı əsərlər üzərində araşdırma aparmaqla bərabər, Azərbaycan mədəniyyəti, elmi üçün böyük əhəmiyyət kəsb edəcək dəyərə malik olan, olduqca vacib bir işə girişərək, dünyanın müxtəlif ölkələrindəki əlyazmalarımız haqqında ətraflı elmi-paleoqrafik məlumat əldə edərək, "Xarici ölkələrdəki Azərbaycan Əlyazmalarının Toplu Kataloqu (Şərq əlyazma kataloqları əsasında)" üçcildlik toplu kataloqunu tərtib etmişdir. Uzun illərin zəhməti bahasına başa gələn bu kataloqun hazırlanması işi, mərhələ-mərhələ həyata keçirilərək, öncə Şərq əlyazma kataloqlarının biblioqrafiyası hazırlanmış, daha

sonra Azərbaycan, Özbəkistan, Tacikistan, Rusiya Federasiyası, İran, Türkiyə, Hindistan,İtaliya, İngiltərə, İsveç, İrlandiya, Almaniya, Fransa və başqa bir sıra xarici ölkələrin kitabxana, muzey və əlyazma xəzinələrindəki əlyazmalarının təsvirini daxil etdiyi Şərq əlyazmaları kataloqları əsasında saxlandıqları məkanları məkanlara görə 12.000-dən artıq nüsxəsindən məlumatları özündə əks etdirən biblioqrafik kartoteka tərtib edilmişdir. Daha sonra əlifba sırası ilə müəlliflərə görə sistemə salmışdır. 30 ildən artıqdır ki, Azadə xanım azərbaycanlı müəlliflərinin xaricdəki əlyazmalarımızla bağlı axtarışları aparmmış, 685 azərbaycanlı müəlliflərin dünya əlyazma xəzinələri və kitabxanalarında saxlanan əlyazmalarının 150-dən artıq mənbədən toplanmış 10.000 mindən artıq nüsxəsi təsvir edərək kitaba daxil etmişdir. Toplu kataloq azərbaycanlı müəlliflərin dünyaya səpələnmiş əlyazmaları haqqında məlumatları sistemli şəkildə əks etdirən ilk nəşridir. Burada yalnız azərbaycanlı müəlliflərin deyil, həm də onlarla bağlı olan müəlliflərin, əsərlərin əlyazma nüsxələrinin təsviri verilmişdir. Təqdim olunan bu toplu kataloq Azərbaycan əlyazma kitabının yaranma, yayılma və təkamül yolunun, Azərbaycan ədəbiyyatının tədqiqində bir mənbə kimi əhəmiyyətinin bütöv, kompleks şəkildə öyrənilməsi və paleloqrafik-qrafik xüsusiyyətlərinin araşdırılması istiqamətində mühüm bir addımdır. (Musabəyli, 2012, 54-55).

Onun elmi rəhbərliyi, rəsmi opponentliyi ilə çox sayda dissertasiya işi müdafiə olunmuşdur. O, universitetlərdə "Türk xalqları ədəbiyyatı", "Ümumtürk ədəbiyyatı", "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı", "Azərbaycan mühacirət ədəbiyyatı", "Qədim Türk yazılı abidələri", "Mətnşünaslıq-mətn bilgisi" və sair ixtisas fənlərindən mühazirələr oxumuşdur. Bir çox monoqrafiya və klassik əlyazma abidələrinin nəşrlərinə elmi redaktor, rəyçi olmuşdur. Tanınmış alimlərin onun elmi yaradıcılığı, kitabları haqqında mötəbər toplularda məqalələri dərc edilmişdir. Haqqında müxtəlif ensiklopediya və məlumat kitablarında bilgilər yer almışdır. O, müvafiq Elmi, Dissertasiya və Koordinasiya şuralarının üzvü olmuşdur. Azadə xanımın beynəlxalq simpozium, elmi konfrans, ixtisaslaşdırılmış seminar və başqa mühüm elmi yığıncaqlarda etdiyi məruzələr daima maraqla dinlənilmişdir (Rəhimova, 2018: 72).

Gənc elmi kadrların hazırlanmasında Azadə xanımın əvəzsiz əməyi vardır. Mətnşünaslıq sahəsində tanınan barmaqla sayılacaq qədər az alim qadın varsa, onlardan biri və demək olar ki, bəlkə də birincisi professor Azadə Musabəylidir. Bu günlərdə Azadə xanım 80 illik yubleyi ərəfəsindədir. Gəlin Azərbaycan elminə təmənnasız xidmət edən əsil elm fədailərini tanıyaq, onları sevərək qədrini bilək...

**Ədəbiyyat siyahısı**

Musabəyli, A (2010). Türkiyədə yaranan Azərbaycan ədəbiyyatı və Xəlili "Firqətnamə"si. Bakı: Elm və Təhsil.

Musabəyli, A. (2012). Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının toplu kataloqu (3 cilddə), Bakı: Elm və Təhsil.

Musabəyli, A. (2013). Dədə Ömər Rövşəni və külliyyyatı (Əlyazma qaynaqları əsasında filoloji – tekstoloji araşdırmalar, elmi –tənqidi mətnin transfoneliterasiyası, orijinal mətnlər və tərcümələr) Bakı.

Musabəyli, A. (2014). *Azərbaycan ədəbiyyatının əlyazma qaynaqları (Tekstoloji-filoloji araşdırmalar)* (Cild II). Bakı: Elm və Təhsil.

Musayeva, A. (1986). *Dədə Ömər Rövşəni əsərlərinin əlyazmaları*. Bakı: Elm (Azərbaycan Elmlər Akademiyası "Əlyazmalar xəzinəsində" seriyası).

Rəhimova, A. (2018). Əlyazmalara həyat verən alim. Bakı: Yada düşdü, Ədəbi – bədii, nostalji jurnal.

**Bayram Quliyev**
*Qarabağ Universiteti*
*Tarix üzrə fəlsəfə doktoru*
*E-mail: bayram.guliyev@qu.edu.az*
*ORCİD: 0009-0008-1041-0448*

# "KİTABİ-DƏDƏM QORQUD" ABİDƏSİNİN "TÜRKMƏN-SƏHRA" ƏLYAZMA NÜSXƏSİNDƏ "AZƏRBAYCAN"

**Xülasə**

"Kitabi-Dədəm Qorqud" abidəsində Oğuz türkcəsinin gözəl örnəkləri ilə bərabər bir çox tarixi məsələlər əks olunmuşdur ki, bunların çoxu tədqiqatçılar tərəfindən araşdırılır. Türk abidələrində "Azərbaycan" məfhumu istər siyasi mənada, istərsə də coğrafi anlamda nadir hallarda işlədilir. "Kitabi-Dədəm Qorqud" abidəsinin "Drezden" və "Vatikan" əlyazma nüsxələrində Azərbaycana aid bir çox toponim, hidronim və antroponim adları çəkilsə də bu ada bir başa rast gəlmək mümkün deyil. Lakin daha sonralar qələmə alınan – yeni tapılmış "Türkmən-Səhra" əlyazma nüsxəsində "Azərbaycan" sözcüyü dörd dəfə (12a/8, 18a/13, 18b/6, 26b/5) çəkilir. Eyni məsələ Kaşğarlı Mahmudun "Divani-lüğət it-Türk" əsərində də birbaşa verilmir. Əsərdə yer alan yeganə xəritədən Azərbaycan Türklərin yaşadığı yer olaraq təsvir olunmuşdur. Belə olan halda orta çağ Azərbaycanının mövqeyini və sərhədini müəyyən etmək üçün ilkin tarixi-coğrafi qaynaqlara müraciət etmə zərurəti yaranır. "Azərbaycan" adına ilk dəfə pəhləvi qaynaqlarında rast gəlinir. Buna misal olaraq "Şəhrestani-Eran(şəhr)" əsərini göstərmək olar. Lakin ən geniş məlumat – Azərbaycanın mövqeyi, sərhədləri, əhalisi, şəhərləri və s, ərəb qaynaqları tərəfindən verilir. Məsələ ilə bağlı ən doğru məlumatı Ət-Təbəri, Əl-Bəlazuri, Yaqut əl-Həməvi və digər ərəb müəllifləri verir. Türk müəlliflərindən isə ən düzgün məlumat Katib Çələbinin "Cahannüma" əsərində yer almaqdadır. Bütün bunlar isə bir daha "Kitabi-Dədəm Qorqud" abidəsinin bütün türk dünyası üçün önəmini bir daha göz qabağına qoyur..

***Açar sözlər:*** *"Kitabi Dədəm Qorqud", "Türkmən-Səhra", Azərbaycan, Türk, Oğuz*

# "AZERBAIJAN" IN THE "TURKMEN-SAHRA" MANUSCRIPT VERSION OF THE BOOK OF DEDE KORKUT

**Abstract**

The "Book of Dede Korkut" contains not only fine examples of Oghuz Turkish, but also reflects a few historical issues, many of which have been studied by researchers. In Turkic monuments, the concept of "Azerbaijan" is rarely used, whether in a political or geographical sense. Although numerous toponyms, hydronyms, and anthroponyms related to Azerbaijan are mentioned in the "Dresden" and "Vatican" manuscript versions of the "Book of Dede Korkut", the name itself does not appear directly. However, in the later written and newly discovered "Turkmen-Sahra" manuscript version, the word "Azerbaijan" is mentioned four times (12a/8, 18a/13, 18b/6, 26b/5). A similar situation is observed in Mahmud al-Kashgari's "Dīwān Lughāt al-Turk", where the term is not directly given either. Nevertheless, in the only map included in the work, Azerbaijan is depicted as a land inhabited by Turks. In this context, to determine the position and boundaries of medieval Azerbaijan, it becomes necessary to refer to primary historical-geographical sources. The name "Azerbaijan" is first encountered in Pahlavi sources. As an

example, one may refer to the work “Šahrestānīhā ī Ērān”. However, the most comprehensive information—regarding Azerbaijan’s location, borders, population, cities, and other aspects—is provided by Arabic sources. The most reliable accounts on this subject are found in the works of al-Tabari, al-Baladhuri, Yaqut al-Hamawi, and other Arab authors. Among Turkic authors, the most accurate information is presented in Katip Çelebi’s “Cihannüma”. All this once again demonstrates the significance of the Book of Dede Korkut for the entire Turkic world.

***Key words:*** *The Book of Dede Korkut, Türkmen-Sahra, Azerbaijan, Turk, Oghuz*

**Giriş**

“Azərbaycan” adının istər tarixi baxımdan, istərsə də coğrafi baxımdan işlənmə xronologiyasının başlanğıc problemi hələ də öz həllini gözləməkdədir. “Azərbaycan” adının mənşəyi ilə bağlı bir çox fikir mövcuddur ki, bunlardan biri də bu sözün “Atropatena” sözündən törəməsi hipotezidir (Azərbaycan tarixi, 1994: 16-17). Bu hipotezin analoji variantı və ilkin qaynaqlar tərəfindən isbatı olmamaqla bərabər, “Azərbaycan” və “Atropatena” kəlmələri bir-birinə fenoloji baxımdan da çox uzaqdırlar, fenoloji dəyişiklik söz daxilində bir – üç səsin dəyişməsi ilə baş verir. Mövcud hipotezdə isə söz tamamən dəyişikliyə uğramışdır. Bu zaman ortaya iki problemin çıxdığını müşahidə etmək mümkündür: birinci, “Azərbaycan” adı ilk dəfə hansı qaynaqda işlənmişdir, ikincisi, tarixi Azərbaycan sərhədləri hansı əraziləri əhatə edir. Bu problemin dəqiqləşdirilməməsi istər yerli, istərsə də xarici tarixçilikdə zidd fikirlərin yaranmasına, tarixi Azərbaycan torpaqlarının bəzən tarixi İran torpaqları ilə eyni hesab edilməsinə səbəb olmuşdur. Bəzən də tarixi Azərbaycan ərazilərini İranın bir hissəsi kimi təqdim edirlər ki, bu da anaxronizm olmaqla bərabər akademik baxımdan doğru yanaşma deyil.

Məqaləni yazmaqda əsas məqsəd həm yerli tarixi qaynaq olan “Kitabi-Dədəm Qorqud” abidəsində mövcud məsələnin necə əks olunduğunu müəyyən etmək, həm də ilkin tarixi qaynaqlarda bu problemin əks olunma səviyyəsini müəyyən etmədən ibarətdir. Bu zaman həm yerli qaynaqlardan, həm də pəhləvi, ərəb və türk qaynaqlarına müraciət edilmiş və ümumi təsəvvür yaradılmasına nail olunmuşdur. Məqalənin əsas pridmeti olan “Kitabi-Dədəm Qorqud” tarixi abidəsində yer alan “Azərbaycan” sözcüyünün yuxarıda bəhs etdiyimiz məsələnin həllindəki rolunu müəyyən etmək məqsədə uyğundur.

**“Kitabi-Dədəm Qorqud” abidəsində “Azərbaycan” sözcüyü**

Oğuz türkcəsinin gözəl örnəklərini özündə birləşdirən “Kitabi-Dədəm Qorqud” abidəsində bir çox tarixi məsələlər əks olunmuşdur ki, bunların çoxu tədqiqatçılar tərəfindən araşdırılır. Bilindiyi kimi bu tarixi qaynağın üç əlyazma nüsxəsi mövcuddur: Drezden, Vatikan və türkmən-Səhra. “Kitabi-Dədəm Qorqudud”un Drezden əlyazma nüsxəsində “Azərbaycan” kəlməsi birbaşa əks olunmamışdır. Bu səbəbdən də həm 2000-ci ildə nəşr olunan “Kitabi Dədə Qorqud ensiklopediyası”nın ikinci cildi (Kitabi-Dədə Qorqud Ensiklopediyası, 2000: 35-39), həm də 2004-cü ildə nəşr olunan “Dədə Qorqud kitabı: ensiklopedik lüğət” (Dədə Qorqud kitabı: ensiklopedik lüğət, 2004: 42-53) adlı nəşrlərdə “Azərbaycan ədəbiyyatşünaslığında”, “Azərbaycan nağılları və KDQ”, “Azərbaycan Yurd Bilgisi” və s maddələri olduğu halda sadəcə “Azərbaycan” maddəsi yoxdur.. Bu təbiidir və obyektivdir, çünki vurğuladığımız kimi bu adı işləndiyi abidənin Türkmən-Səhra əlyazma nüsxəsi hələ tapılmamışdı. Ümumilikdə həm Drezden həm də Vatikan nüsxələrində onlarca toponim yer alır ki, bunlardan bəziləri Azərbaycan şəhərlərinin adları ilə eyniyyətlik təşkil edir.

“Kitabi-Dədəm Qorqud” abidəsində adı çəkilən şəhərlərin demək olar ki, Azərbaycanın şimal bölgəsində yerləşirlər. Bununla bərabər abidədə Göyçə gölünün adı da çəkilməkdədir. Orijinal mətnə əsasən aşağıdakı Azərbaycan şəhərlərinin adlarını “Kitabi-Dədəm Qorqud” abidəsində müşahidə etmək olar: “Oğuzdan köç eylədi, Bərdəni, Gəncəni vətən tutdu” (KDQ: D-236/2). “Dəmir qapı Dərbənddəki dəmir qapını dəpib alan” (KDQ: D-60/2). “Əvvəl Dəmir qapu Dərbənddə bəg olan, qarğu süngü ucunda ər böyürdən” (KDQ: D-205/7). “Yolu Əlincə qalasına uğramışdı” (KDQ: D-255/3). “Əgrəgi tutdular, Əlincə qalasına zindana bıraqdılar” (KDQ: D-255/13). “Kitabi-Dədəm Qorqud” abidəsində yer alan bu parçaları nəzərdən keçirərək söyləmək mümkündür ki, üç şəhər – Dərbənd, Bərdə, Gəncə və bir qala – Əlincə qalası adının olması bəhs etdiyimiz problemin çözümündə yetərli deyil.

Bu problemi çözmək və akademik mənzərəyə daha geniş bucaqdan baxmaq üçün 2019-cu ildən etibarən elm dünyasına bəlli olan “Kitabi-Dədəm Qorqud” abidəsinin Türkmən-səhra (bəzi tədqiqatçılar onu “Günbəd” adlandırır. Lakin, İranda belə adda şəhər yoxdur. Bura türkmənlərin ən çox yaşadığı “Günbədi-kavus” şəhəridir. Günbədi-kavus şəhərdir, Türkmən-səhra isə bölgədir) əlyazma nüsxəsinə də nəzər yetirmək lazımdır. Bu əlyazma nüsxəsinin adı ilə ziddiyyətlər mövcud olsa da hazırda, biz bu adı – Türkmən-səhra” adını uyğun görürük. Çünki, əlyazma nüsxəsi hələ konkret bir kitabxanaya verilməmişdir və bu da onu qeyri-sabit edir.

Türkmən-səhra əlyazma nüsxəsində tarixi Azərbaycan torpaqlarının demək olar ki, bütün şəhərlərinin adları ilə bərabər “Azərbaycan” sözcüyü dörd dəfə çəkilir: “<...> səksən min ər heybətli, Azərbaycan ləngəri, İslam qüvvəti, qonur atlı, çaqmur gözlü, Salur igidi, Eynür görkü, Zülqədər dəlisi padşahın vəkili Ulaş oğlu Qazan” (KDQ: T-12a/9-11). “<...> Azərbaycan diyarında Ərdəbil şəhəri. Talış qoyun çıxdığı. Aqçası çox, mürüvvəti yox Şirvan eli.” (KDQ: T-18a/13). “Keçisi gərcə, adamı sərçə İrəvan, Naxçıvan Sərvəl eli. Qədimdən(q) qan çanağı, at oynağı deyilmidir Təbriz eli. Qədimidən(q) ulların(q) yığınağı padşahlar yurdu Azərbaycan diyarında Ucan eli.” (KDQ: T-18b/13-15). “<...> qara polad yalmanı, surcidanın(q) cibiri, şahər oxlar peykanı, qatı yaylar qəbzəsi, Azərbaycan ləngəri, Padşahın(q) vəkili Ulaş oğlu Qazan qara yazın(q) fəslində tazı tula yedürürdü.” (KDQ: T-26b/4-6).

Əlyazma nüsxəsində yer alan yuxarıda göstərdiyimiz parçlar məsələnin mahiyyətini tam əhatə etməsə də bir necə hipotezi formalaşdırmağa kömək göstərir. Bu nüsxədə Azərbaycanın, eləcə də bir çox şəhərin adları çəkilmiş olsa da Azərbaycanın konkret sərhədini müşahidə etmək olmur. Lakin tarixi Azərbaycan torpaqlarında yerləşən şəhərlər haqqında məlumat olması ümumi təsəvvür yaratmağa kömək edir. Eyni zamanda aydınlaşır ki, bəzi ərəb qaynaqlarında vurğulanan kimi Azərbaycan sadəcə cənubi Azərbaycandan ibarət deyil. Həmçinin, çağdaş tarixçilərin vurğuladığı kimi Azərbaycan sadəcə şimali Azərbaycandan ibarət deyil. Bu nüsxədə “İran” sözcüyünün olmaması da onu sübut edir ki, Azərbaycan iddia edildiyi ki, İranın bir vilayəti deyil və heç vaxt olmayıb.

“Kitabi-Dədəm Qorqud” abidəsinin hər iki əlyazma nüsxəsini müqayisəli təhlil edərək belə qənaətə gəlmək mümkündür ki, Azərbaycan Dərbənddən başlayır, Şirvan, İrəvan, Naxçıvan, Gəncə və Bərdə ilə davam edir, Təbriz, Ərdəbil və Həmədan ilə bitir. Lakin bu məlumatlar dəqiqliklə əks olunmamışdır. Çünki, “Kitabi-Dədəm Qorqud”da tarixi məsələlər ya dolayısı yolla verilir, ya da simvolik formada əks olunur.

**İlkin tarixi qaynaqlarda “Azərbaycan” sözcüyü**

“Kitabi-Dədəm Qorqud” abidəsində “Azərbaycan” adı və onun sərhədləri haqqında məlumatlar dəqiq olmadığı üçün bu boşluğu ilkin tarixi qaynaqlar ilə doldurmaq zərurəti ortaya

çıxır. Bu zaman diqqət yetirməmiz gərəkən ilk məsələ Azərbaycan adının ilk dəfə hansı qaynaqda çəkilməsi məsələsidir. Antik qaynaqlarda bu ada bənzər bir sıra sözcüklərə rast gəlsək də bunların heç birinin tam olaraq "Azərbaycan"ı ifadə etdiyini sübut etmək mümkün olmamışdır.

"Azərbaycan" kəlməsi ilk dəfə Dərbənd divarlarındakı V-VI yüzilliyə dair kitabələr üzərində həkk olunmuşdur: " <...> Bunu və bundan yuxandakıları Adurbadaqanın^ amarqarı^ Dariuş^ etdi.", " Bunu və bundan yuxandakıları, eni dörd <dirsək>, Adurbadaqanın amarqarı Dariuş <etdi>." (Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr, 2014: 166-167). Pəhləvi dilində dövrümüzə qədər gəlib çatan bu parçalardan eyni zaman Azərbaycanın şimal sərhədini də müəyyən etmək mümkündür. Azərbaycan haqqında başqa bir pəhləvi qaynağı olan "Şəhristanhayi-Eranşəhr" adlı əsərdə də rast gəlinir: "Adurbadaqan kustu - § 26. Həmədan şəhərini günahkar Yazdigird adlanan Şapurun oğlu Yazdigird'^ tikdirdi. § 56. Adurbadaqanm paytaxtmı^'* Adurbadaqamn spahbədi^^ Eranquşnasp^^ tikdirdi, < ...> § 58. Adurbadaqan kustunda Qanzak'^ şəhərini Turanlı Frasyaq' tikdirdi. § 59. Amuy şəhərini'^ ölümsaçan zindik^ tikdirdi. § 60. Rey şəhərini < ...> tikdirdi < ...> Spitamanın nəslindən <olan> Zərdüşt bu şəhərdəndir.» (Şehristânhây-i İrânşehr ve Pehlevî metinleri, 2022: 168-169). Xatırladaq ki, bəzən Sasani dövləti İranşəhr kimi də qaynaqlarda yer alır. Sasani işğalında olan Azərbaycan bölgəsinin (kustunun) şəhərlərinə nəzər yetirdikdə Azərbaycanın Dərbənddən başlayıb Həmədanda bitdiyini müşahidə etmək mümkündür.

Bu baxımdan daha dəqiq məlumatları ərəb qaynaqları verir. Ərəb coğrafi əsərləri antik yunan coğrafi əsərlərinin təsiri ilə yazıldığı üçün məlumatlar qeyri-dəqiqdir. Ona görə də ərəb tarixi əsərlərindəki məlumatlardan istifadə etməyi məqsədə uyğun hesab edirik. İbn Kəsr müəllifi olduğu "Böyük İslam tarixi" adlı əsərində Azərbaycan haqqında belə yazır: "Hicrətin 99-cu ilin yayında Məsləmə bin Əbdülməlik səfərə çıxdı. Məsləmə bin Əbdülməlik Türk bölgələrinə səfər etdi. Nəhayət Azərbaycan tərəflərdəki Əl-Baba çatdı, orda çoxlu qala və şəhərlər fəth etdi." (İbn Kesr, 2017: 137). Və ya Əbu Cəfər Məhəmməd Cərir ət-Təbəri özünü "Tarixüt-Təbəri" əsərində isə bu cür yer alır: "Və həmin il (H. 89) Məsləmə bin Əbdülməlik Azərbaycan bölgəsində Türk qəzasına (məntəqəsinə) çatdı. Ta Dərbəndə qədər irəlilədi. Bir çox qala və şəhər ələ keçirdi." (Taberi, 2018: 246). Əsərin başqa bir yerində isə daha dəqiq məlumat yer alır: "Əcəmin Atəşgahları orda (Azərbaycanda) idi. Pəhləvi dilində atəşə "ezer" deyirlər. Ona görə əcəm xalqı bura Azərbaycan adını vermişlər. Ən böyük atəş məbədi ordadır. (Ərazisi) Həmədan tərəflərdən başlayıb, Zəncan və Əhərdən davam edib, ta Dərbəndi-Xəzərə qədər uzanır. <...> Ərəbcədə ora (Dərbəndə) əl-Bab deyirlər." (Taberi, 2018: 489). Hər iki qaynaqda Azərbaycan və onun sərhədləri haqqında dəqiq məlumat verilir.

Ərəb qaynaqlarında başqa bir mübahisəli məsələ də Arranın Azərbaycanın bir parçası olub-olmaması fikridir. Lakin elə ərəb qaynaqlarının özlərində bu haqda iki fakt Aranın Azərbaycanın bir parçası olduğunu sübut edir. Kudəma bin Cəfər özünü "Kitabül-xərac" adlı əsərində belə deyilir: "O dövrdə Buğa Ermənistan və Azərbaycanın valisi idi. Xəzərlərin bəziləri burada məskunlaşmışdılar; onlar İslamı qəbul etmək üçün gəlmişdilər. Eyni zamanda, Bərdədən tacirlər də buraya gəlirdilər." (Kudame ibn Cafer, 2018: 51). Arranın Azərbaycanın bir parçası olması fikrini Əl-Məsudi "Kitabül-tənbih vəl-işraf" adlı əsərində də dəqiq bir şəkildə vurğulayır. (Mesudî, 2018: 204). Bundan başqa tədqiqat obyektimiz olan "Kitabi-Dədəm Qorqud" abidəsinin Türkmən-Səhra əlyazma nüsxəsində "Arranın anası" adlandırılan Bərdə şəhəri Azərbaycanın bir parçası kimi göstərilir. Bu fakt fikirlərimizin əsaslılığını bir daha təsdiqləmiş öldür.

"Azərbaycan" adına erkən dönəm türk qaynaqlarında çox az rast gəlinir. Mahmud Kaşğarlının "Divani-lüğət it-Türk" adlı əsərində oğuzlar və türklər, oğuz və türk boduları haqqında bir çox məlumat rast gəlinsə də "Azərbaycan" adı mətn daxilində heç bir yerdə yoxdur. Lakin,

əsərin yeganə xəritəsində "Azərbaycan diyarı" bölgəsi yer alır. Mahmud Kaşğarlı bu bölgəni türklərin yaşadıqları bölgələrdən biri olaraq təqdim etmişdir. Xəritə standart ölçülərə uyğun gəlməsə də adın X əsrdə mövcudluğu və burada türklərin yaşaması haqqında önəmli bir sübutdur.

Türk qaynaqları içərisində özünəməxsus yeri olan "Oğuznamə" əsərlərində də "Azərbaycan" adı çox az hallarda çəkilir, lakin məlumatlar çox qiymətlidir. "Oğuznamə"də belə bir parça yer alır: "Çingiz xan Buxara və Səmərqənd və Daşkəndi alıb, İraq və Gilan və Mazandaran və Azərbaycan və Gürcüstana yeridi" (Oğuzname, 2025: 72). Buradan da Arranın Azərbaycanın bir parçası olması qənaətinə gəlmək mümkündür. "Oğuznamə"nin başqa yerində isə belə yazılmışdır: "Oğuz xan İraqı-əcəm və İraqı-ərəb və Azərbaycan və Şam və Misiri aldı" (Oğuzname, 2025: 75). Hər iki fakt eyni zamanda Azərbaycanın İranın bir vilayəti olmadığı gerçəyini də sübut edir. Müxtəlif "Oğuznamə" əsərlərində bu kimi faktların sayı çoxdur və hər biri bir-birlərinə bənzərdirlər. Türk müəlliflərindən isə ən doğru məlumat Katib Çələbiyə məxsusdur. O, Türk dünyasının ən böyük coğrafiyaçı alimlərindən biridir. Onun "Cahan-nüma" əsərində də Azərbaycan və onun sərhədləri haqqında məlumatlar mövcuddur (Kātib Çelebi, 2021: 312). Əsərdə Azərbaycanın şimal sərhədi haqqında dəqiq məlumata rast gəlinməməsini də vurğulamalıyıq. Türk qaynaqlarına ümumi nəzər saldıqda ərəb qaynaqları kimi dəqiq məlumat əldə olunmamsa da onlar mövcud faktların sübutu üçün olduqca böyük əhəmiyyətə malikdirlər.

**Nəticə**

"Kitabi-Dədəm Qorqud" abidəsi sadəcə olaraq bütün türk dünyası üçün böyük bir önəmə sahib deyil, eləcə də özündə hələ də kəşf olunacaq yüzlərlə tarixi faktı gizləyir. Bu abidədə yer alan məlumatlarla birlikdə bütün bilikləri ümumiləşdirərək belə nəticəyə gəlmək mümkündür ki, tarixi Azərbaycan torpaqları Dərbənd şəhərindən başlayır və Həmədan şəhərinə qədər geniş bir əraziləri əhatə edir. Həmin Dərbənd şəhəri ki, "Azərbaycan" adı ilk dəfə məhz buradakı qala divarları üzərindəki lövhələrdə indi də əks olunur.

**Ədəbiyyat siyahısı**


Azərbaycan tarixi (1994). Ən qədim dövrdən XX əsrədək. I cild. Z. M. Bünyadovun və Y. B. Yusifovun redaktəsi ilə. Bakı: Azərbaycan dövlət nəşriyyatı

Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr (2014). Müntəxəbat. Bakı: Turxan

Dədə Qorqud kitabı: ensiklopedik lüğət (2004). Bakı: Öndər nəşriyyatı

Ebu Cafer Muhammed Cerirüt-Taberi (2018). Tarih-i Taberi. I-IV ciltler. IV cilt. Terc. M. F. Gürtunca. İstanbul, Sağlam yayınları

İbn Kesir (2017). Böyük İslam tarihi. I-XV ciltler. IX cilt. Çevr. M. Keskin. İstanbul: Yeditepe yayınları

Kātib Çelebi (2021). An Ottoman Cosmography. Translation of Cihānnümā Translated by Ferenc Csirkés, John Curry, Gary. Leiser Leiden: Brill

Kitabi-Dədə Qorqud (2004): əsli və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər" nəşriyyatı

Kitabi-Dədə Qorqud Ensiklopediyası (2000) I-II cildlər, II cild. Bakı, Yeni nəşrlər evi

Kitabi-Dədəm Qorqud və onun "Türkmən Səhra" nüsxəsi (2020). Hazırlayan Bayram Quliyev. Ankara, Türkkitab.Az.

Kudame ibn Cafer (2018). Kitabü`l-harac. Arapçadan çeviren Ramazan Şeşen. İstanbul: Yeditepe yayınları

Mahmud Kâşgarlı (2017). Dîvânu Lugâti't-Türk. İnceleme-tıpkıbasım. Inceleme Mustafa S. Kaçalın. Millet Yazma Eser Ktp., Ali Emîrî Arabî, No. 4189. İstanbul: Yazma Ereler Kurumu

Mesudî (2018). Kitâbü`t-tənbih ve`l-işraf. Coğrafya ve tarih. İstanbul: Bilge Kültür Sanat yayınları

Oğuzname (2025). Üç ciltte. 3. cilt. Hazırlayan Necati Demir. İstanbul: Ketebe yayınları
Şehristânhây-i İrânşehr ve Pehlevî metinleri (2022). Taktim, tercüme ve notlar R. H. Aksungur. İstanbul: Post yayınları

**İradə Əliyeva**
*Azərbaycan Respublika Dövlət Elmi Tibb Kitabxanasının şöbə müdiri*
*Tarix üzrə fəlsəfə doktoru*
*E-mail: irada40@rambler.ru*
*ORCİD: 0000-0002-5400-6198*

# ŞƏRQ VƏ QƏRB SİVİLİZASİYALARINDA QƏDİM BİBLİOQRAFİK ƏLYAZMALARIN QISA XARAKTERİSTİKASI

**Xülasə**

Bu məqalədə qədim biblioqrafik əlyazmaların Şərq və Qərb sivilizasiyalarında inkişafı, onların kitab mədəniyyətinin və informasiya sistemlərinin formalaşmasında rolu araşdırılır. Şərqdə xüsusilə İslam Qızıl Dövründə formalaşmış "əl-Fihrist" kimi əsərlər və təzkirə ənənəsi biblioqrafik düşüncənin ilkin formaları kimi təhlil edilir. Təzkirələr müəlliflər, əsərlər və ədəbi mühit haqqında sistemli məlumat təqdim etməklə ilkin biblioqrafik mənbə funksiyası daşıyır. Qərbdə isə monastır və dini mərkəzlərdə formalaşmış kitab siyahıları, Cassiodorusun "Institutiones" əsəri və İsidore Sevilyalının "Etymologiae" əsəri biblioqrafik sistemləşmənin əsas nümunələri kimi göstərilir. Məqalədə Şərq və Qərb biblioqrafik ənənələri müqayisə edilərək Şərqin daha ensiklopedik, Qərbin isə institusional xarakter daşıdığı vurğulanır. Nəticə olaraq, hər iki ənənənin müasir kitabxanaşünaslıq və informasiya elminin formalaşmasına mühüm töhfə verdiyi qeyd olunur.

***Açar sözlər:*** *Qədim əlyazmalar, biblioqrafiya, təzkirələr, Şərq və Qərb, kitab mədəniyyəti, əl-Fihrist, Cassiodorus, kitabxanaşünaslıq, informasiya sistemi, orta əsrlər*

# A BRIEF CHARACTERIZATION OF ANCIENT BIOGRAPHICAL MANUSCRIPTS IN EASTERN AND WESTERN CIVILIZATIONS

**Abstract**

This article examines the development of ancient bibliographic manuscripts in Eastern and Western civilizations and their role in shaping book culture and early information systems. In the East, works such as Ibn al-Nadim's Al-Fihrist and the tradition of tazkirahs are analyzed as early forms of bibliographic thought that systematically recorded authors, literary works, and intellectual environments. Tazkirahs served not only as literary-historical texts but also as primary bibliographic sources. In the Western tradition, manuscript catalogues produced in monastic and religious centers, Cassiodorus' Institutiones, and Isidore of Seville's Etymologiae are highlighted as key examples of early bibliographic organization. The study compares Eastern and Western traditions, emphasizing the encyclopedic and universal nature of Eastern approaches versus the institutional character of Western systems. The article concludes that both traditions significantly contributed to the development of modern library science and information systems.

***Key words:*** *Ancient manuscripts, bibliography, tazkirahs, East and West, book culture, Al-Fihrist, Cassiodorus, library science, information systems, medieval period*

## Giriş

Qədim əlyazmalar bəşər sivilizasiyasının elmi və mədəni inkişafında ən mühüm informasiya daşıyıcılarından biri olmuşdur. Xüsusilə biblioqrafik xarakterli əlyazmalar biliklərin yalnız

toplanması deyil, həm də sistemləşdirilməsi və nəsildən-nəsilə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşımışdır. Müasir kitabxanaşünaslıq və informasiya elminin formalaşmasında bu ilkin mənbələrin rolu danılmazdır. Şərq və Qərb sivilizasiyalarında yaranmış ilk biblioqrafik mənbələr elmi düşüncənin strukturlaşmasına, kitab mədəniyyətinin inkişafına və biliklərin təşkilatlanmasına ciddi təsir göstərmişdir (Azərbaycanda ənənəvi din, 2014: 62).

Şərqdə biblioqrafik ənənənin formalaşması daha çox İslam Qızıl Dövrü ilə bağlıdır. VIII–XIII əsrlər arasında elm, fəlsəfə, tibb və ədəbiyyat sahələrində böyük bir inkişaf müşahidə olunmuş, bu inkişafın mühüm nəticələrindən biri də əlyazmaların sistemləşdirilməsi olmuşdur. Bu dövrdə alimlər yalnız yeni biliklər yaratmaqla kifayətlənməyib, mövcud elmi irsi də toplamağa və təsnif etməyə çalışmışlar. Bunun ən mühüm nümunələrindən biri X əsrdə yaşamış İbn ən-Nədimin "əl-Fihrist" əsəridir. Bu əsər təkcə bir kitab siyahısı deyil, eyni zamanda dövrün elmi həyatını əks etdirən ensiklopedik biblioqrafik mənbə kimi çıxış edir. Burada müxtəlif elm sahələrinə aid əsərlər, müəlliflər və elmi istiqamətlər haqqında geniş məlumat verilir. "əl-Fihrist" Şərq biblioqrafik düşüncəsinin ən erkən və ən sistemli nümunələrindən biri hesab olunur (Hajar, 2013: 43).

Şərqdə biblioqrafik mədəniyyətin formalaşmasında kitabxanalar və əlyazma mərkəzləri də mühüm rol oynamışdır. Bağdad, Dəməşq, Qahirə, Buxara və Xorəzm kimi elmi mərkəzlərdə kitabların siyahıya alınması, kataloqların hazırlanması və elmi əsərlərin təsnifatı geniş yayılmışdı. Bu siyahılar çox zaman ayrıca əlyazma kimi tərtib olunur və kitabxana fondlarının idarə edilməsində istifadə edilirdi. Həmçinin İbn Sina, Əl-Fəraji və digər böyük alimlərin əsərləri sonrakı dövrlərdə biblioqrafik sistemləşmənin inkişafına metodoloji təsir göstərmişdir. Şərqdə bu ənənə daha çox elmi universalizm xarakteri daşıyırdı, yəni müxtəlif elmlərin bir sistem daxilində toplanması və təqdim olunması əsas məqsəd idi (Rusydiana, 2021: 9).

**Təzkirələr ilkin biblioqrafik əlyazmalar kimi**

Qədim əlyazma ənənələri içərisində təzkirələr xüsusi yer tutur və Şərq biblioqrafik düşüncəsinin formalaşmasında mühüm mərhələ hesab olunur. Təzkirələr əsas etibarilə şairlərin, alimlərin, sufilərin və ədiblərin həyat və yaradıcılığını əks etdirən, onların əsərləri haqqında məlumat verən mənbələrdir. Bu baxımdan təzkirələr yalnız ədəbi-tarixi mətnlər deyil, həm də ilkin biblioqrafik informasiya resursları kimi qiymətləndirilə bilər. Onlar müəlliflər, əsərlər və ədəbi mühit haqqında sistemləşdirilmiş məlumat təqdim etməklə bibliqrafik təsnifatın erkən formalarını özündə ehtiva edir (Zeynalova, 2023: 107).

Təzkirə ənənəsinin formalaşması xüsusilə İslam mədəniyyətinin inkişaf etdiyi orta əsrlər dövrünə təsadüf edir. Ərəb, fars və türk ədəbiyyatında geniş yayılmış bu janr elmi və ədəbi biliklərin qorunması və ötürülməsi baxımından mühüm rol oynamışdır. Təzkirələrdə müəlliflərin bioqrafik məlumatları, əsərlərinin siyahısı, onların üslubu və elmi-ədəbi dəyəri haqqında məlumatlar sistemli şəkildə təqdim olunurdu. Bu xüsusiyyətlərinə görə təzkirələr müasir biblioqrafik kataloqların ilkin forması kimi dəyərləndirilə bilər

XVI əsrdən başlayaraq Azərbaycanlı müəlliflər tərəfindən müxtəlif şair təzkirələri qələmə alınsa da, Azərbaycan təzkirəçilik tarixinin nəzəri baxımdan sistemli şəkildə tədqiqinə, eləcə də bu sahənin tarixinin elmi əsaslarla ortaya qoyulmasına təşəbbüs göstərilməmişdir. Azərbaycanlı təzkirəçilər tərəfindən 40-dan çox təzkirə yazılmasına baxmayaraq, onların çox az hissəsi araşdırılmış və nəşr edilmişdir. Bu günə qədər bəzi Azərbaycan təzkirələri – Sadiq bəy Əfşarın "Məcməül-xəvas"ı, Mərəğalı Məhəmməd Həsən xan İtimadü's-Səltənənin "Xeyrətül-hisan"ı, Seyid Əzim Şirvaninin "Təzkirə"si, Məhəmməd Ağa Müctəhidzadənin "Riyazül-aşiqin"i, Məhəmməd Əli Tərbiyətin "Danişməndani-Azərbaycan"ı, Mir Möhsün Nəvvabın "Təzkireyi-

Nəvvab"ı, Qulam Məmmədlinin "Təzkirə"si və Şahin Fazilin "Təzkirə"si Azərbaycanda nəşr olunmuşdur. Azərbaycan təzkirəçilik tarixinin indiyə qədər sistemli şəkildə öyrənilməməsinin nəticəsi olaraq bəzi təzkirə müəllifləri Azərbaycanlı olmasına baxmayaraq fars mənşəli kimi təqdim edilmişdir (Musalı, 2013: 351).

Şərq ədəbiyyatında ən məşhur təzkirələrdən biri Əlişir Nəvainin "Məcalisün-nəfais" əsəridir. Bu təzkirə türk ədəbiyyatında ilk sistemli ədəbi-biblioqrafik mənbələrdən biri hesab olunur. Burada 400-dən çox şair haqqında məlumat verilmiş, onların yaradıcılığı, ədəbi mövqeyi və dövrün mədəni mühiti təsvir edilmişdir. Bu əsər yalnız ədəbi tənqid nümunəsi deyil, eyni zamanda sistemləşdirilmiş məlumat bazası funksiyasını da yerinə yetirir.

Fars ədəbiyyatında isə Dövlətşah Səmərqəndinin "Təzkirat üş-şüəra" əsəri xüsusi əhəmiyyət daşıyır. Bu təzkirədə müxtəlif dövrlərdə yaşamış şairlərin həyat və yaradıcılığı haqqında geniş məlumat verilir və onların əsərləri haqqında qısa annotasiyalar təqdim olunur. Bu struktur müasir biblioqrafik təsvir elementlərinə – müəllif adı, əsər haqqında məlumat və qiymətləndirmə komponentlərinə çox yaxındır (Şükürova, 2017: 12).

Türk ədəbiyyatında da təzkirə ənənəsi geniş inkişaf etmişdir. Osmanlı dövründə Lətifi, Aşiq Çələbi və Riyazi kimi müəlliflərin yazdığı təzkirələr ədəbi mühitin sistemləşdirilməsində mühüm rol oynamışdır. Bu əsərlərdə şairlərin əlifba sırası ilə verilməsi, onların əsərlərinin qeyd olunması və qısa bioqrafik məlumatların təqdim edilməsi biblioqrafik prinsiplərin ilkin forması kimi qiymətləndirilir.

Təzkirələrin əsas biblioqrafik xüsusiyyətlərindən biri informasiyanın strukturlaşdırılmış şəkildə təqdim olunmasıdır. Müasir biblioqrafiyada olduğu kimi, təzkirələrdə də müəllif–əsər–şərh üçlüyü müşahidə edilir. Bundan əlavə, təzkirələrdə tez-tez əsərlərin mövzusu, janrı və ədəbi dəyəri haqqında qiymətləndirmələr verilir ki, bu da onları sadəcə siyahı deyil, analitik biblioqrafik mənbəyə çevirir.

Digər mühüm məqam təzkirələrin informasiya ötürmə funksiyasıdır. Orta əsrlərdə çap texnologiyasının olmaması şəraitində təzkirələr ədəbi biliklərin qorunması və nəsildən-nəsilə ötürülməsi üçün əsas vasitələrdən biri olmuşdur. Onlar yalnız ədəbiyyat tarixi üçün deyil, həm də mədəni yaddaşın formalaşması üçün fundamental rol oynamışdır.

Təzkirələri müasir biblioqrafik sistemlərlə müqayisə etdikdə bir sıra oxşarlıqlar müşahidə olunur. Müasir kitabxana kataloqlarında olduğu kimi, təzkirələrdə də müəllifə görə təsnifat, əsər haqqında qısa məlumat və qiymətləndirmə elementləri mövcuddur. Lakin fərq ondan ibarətdir ki, təzkirələr daha çox subyektiv qiymətləndirməyə əsaslanır, müasir biblioqrafiya isə daha çox standartlaşdırılmış və obyektiv sistemlərə söykənir.

Nəticə etibarilə, təzkirələr Şərq biblioqrafik düşüncəsinin ilkin formalarından biri kimi qiymətləndirilə bilər. Onlar həm ədəbi-tarixi mənbə, həm də ilkin informasiya kataloqu funksiyasını yerinə yetirir. Təzkirə ənənəsi müasir informasiya elminin, kitabxanaşünaslığın və biblioqrafiyanın tarixi əsaslarını anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır.

Qərbdə isə biblioqrafik əlyazma ənənəsi daha çox monastır və dini mərkəzlərdə formalaşmışdır. Erkən orta əsrlərdə Avropada savadlılıq əsasən kilsə mühitində cəmləşdiyindən, kitabların qorunması və siyahıya alınması da bu institutlar tərəfindən həyata keçirilirdi. VI əsrdə Cassiodorus tərəfindən yazılmış "Institutiones" əsəri Qərbdə kitabların sistemləşdirilməsi baxımından mühüm addım hesab olunur. Bu əsərdə dini və dünyəvi ədəbiyyatın təsnifatı verilir və oxu üçün tövsiyə olunan kitablar siyahılaşdırılır (Blair, 2010).

Bundan əlavə, İsidore Sevilyalı tərəfindən yazılmış "Etymologiae" əsəri də Qərb biblioqrafik düşüncəsinin inkişafında mühüm yer tutur. Bu əsər antik dövr biliklərini

sistemləşdirməyə çalışaraq müxtəlif elmi sahələr üzrə məlumatları bir araya gətirir. Orta əsrlər Avropasında universitetlərin yaranması ilə birlikdə kitab siyahıları və kataloqlar daha da inkişaf etmiş, kitabxana fondlarının idarə olunması üçün ilkin biblioqrafik sistemlər formalaşmışdır. Monastır kitabxanalarında tərtib edilən kataloqlar kitabların mövzu, müəllif və məzmun üzrə qruplaşdırılmasına xidmət edirdi.

Şərq və Qərb biblioqrafik ənənələri arasında mühüm fərqlər mövcuddur. Şərqdə biblioqrafik yanaşma daha çox ensiklopedik və universal xarakter daşıyırdı. Burada məqsəd biliklərin mümkün qədər geniş şəkildə toplanması və elmi sahələr arasında əlaqənin göstərilməsi idi. Qərbdə isə biblioqrafik sistem daha çox institusional ehtiyaclara əsaslanırdı və kitabların qorunması, dini mətnlərin sistemləşdirilməsi və oxu mədəniyyətinin formalaşdırılması əsas məqsəd idi. Buna baxmayaraq, hər iki sivilizasiya elmi biliklərin strukturlaşdırılması və qorunması baxımından mühüm töhfələr vermişdir (The Book Nobody Read).

Zaman keçdikcə bu ilkin biblioqrafik əlyazmalar müasir kitabxana sistemlərinin və informasiya elminin əsasını təşkil etmişdir. Bu gün istifadə olunan kataloqlaşdırma, təsnifat və metadata sistemlərinin kökləri məhz həmin qədim mənbələrə dayanır. Əlyazmalar yalnız tarixi sənəd kimi deyil, həm də elmi informasiya sistemlərinin inkişaf mərhələsini göstərən vacib mənbə kimi qiymətləndirilir.

Nəticə olaraq qeyd etmək olar ki, qədim biblioqrafik əlyazmalar həm Şərqdə, həm də Qərbdə elmi düşüncənin inkişafında fundamental rol oynamışdır. Onlar biliklərin sistemləşdirilməsi, qorunması və yayılması prosesində ilkin informasiya infrastrukturu kimi çıxış etmişdir. Müasir informasiya cəmiyyətində bu irsin öyrənilməsi elmi metodologiyanın tarixi köklərini anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır.

**Ədəbiyyat siyahısı**


Şükürova, J. S. (2017). Əziz Dövlətabadinin “Süxənvərani-Azərbaycan” təzkirəsi Azərbaycan ədəbiyyatının öyrənilməsində bir qaynaq kimi (Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, 32 s.). Bakı.

Zeynalova, G. (2023). Azərbaycan ədəbiyyatşünaslıq tarixində təzkirə janrı. Poetika.izm, (2), 106–110.

Blair, A. M. (2010). *Front matter*. In *Too much to know: Managing scholarly information before the modern age* (pp. i–vi). Yale University Press.

Hajar, R. (2013). The air of history part III: The golden age in Arab Islamic medicine—An introduction. *Heart Views, 14*(1), 43–46.

Musalı, V. (2013). Turkish studies - International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, 8(13), 351–364.

Rusydiana, A. S., As-Salafiyah, A., & Rahmi, D. (2021). History of libraries in the Islamic period. *Library Philosophy and Practice*, 2021, 1–20.

The Book Nobody Read: A Closer Look at the Book that Moved the World. (n.d.). Retrieved fromhttps://www.messiah.edu/god-and-science/_files/the_book_nobody_read_ closer_look_ book_moved_ world.pdf

**Samirə Əliyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: samira-1971@yandex.com*
*ORCİD: 0000-0003-3710-2812*

# ŞƏRƏF XANIM YARADICILIĞINDA AZƏRBAYCAN KLASSİKLƏRİ İLƏ UYĞUN VƏ OXŞAR XÜSUSİYYƏTLƏR

**Xülasə**

XIX əsr Osmanlı divan poeziyasının görkəmli qadın nümayəndələrindən sayılan Şərəf xanımın yaradıcılığını tədqiq və tədqiq edərkən klassik Azərbaycan sənətkarları ilə uzlaşan çoxlu xüsusiyyətlərə, saysız-hesabsız oxşar cəhətlərə rast gəlmək olar. Şairənin əsərlərində dahi Azərbaycan şairi Məhəmməd Füzuli ilə misraları ilə uzlaşan xeyli sayda nümunələrə rast gəlmək mümkündür.

Klassik poeziyanın zirvəsində dayanan Füzuli təkcə müasirlərinə deyil, özündən sonra yaranmış türkdilli ədəbiyyatın hər bir şairinə doğrudan da təsir göstərmişdir. Məhəmməd Füzuli poeziyasının Şərəf yaradıcılığına təsiri təsəvvüfün dövriyyə nəzəriyyəsindən də yan keçməmişdir. Sufizmə görə, kainat daim dairəvi hərəkətdədir - daim yüksəlir və enir. Bir sözlə, "hər şey Ondandır", "Ona tərəf gedir" təlimi Füzuli yaradıcılığında, onun başqa şairlərə ədəbi təsirində həmişə səslənir.

Həmçinin, Şərəf ər-Rumi şeirləri kalssik şair Qazi Bürhanəddi və İmaməddin Nəsimi şeirləri ilə də kəsişir.

***Açar sözlər:*** *klassik ədəbiyyat, anadilli şeir, M.Füzuli, Şərəf xanım, Q.Bürhanəddin, Nəsimi*

# RELEVANT AND SIMILAR CHARACTERISTICS BETWEEN SHARAF KHANUM`S LITERARY CREATIVITY AND AZERBAIJANI CLASSICS

**Abstract**

When studying and studying the works of Sharaf Khanum, who is considered one of the prominent female representatives of the Ottoman divan poetry of the 19th century, one can find a large number of features compatible with classical Azerbaijani artists, and countless similar aspects.

Standing at the peak of classical poetry, Fuzuli has truly influenced not only his contemporaries, but every poet of the Turkish-language literature that emerged after him. The influence of Muhammad Fuzuli's poetry on Sharaf's work did not bypass the circulation theory of Sufism. According to Sufism, the universe is constantly moving in a circle - it is constantly rising and falling. In short, "everything comes from Him" and "goes towards Him" teaching is always heard in Fuzuli's work and his literary influence on other poets. In the poet's works, it is possible to find numerous examples of verses that agree with those of the great Azerbaijani poet Muhammad Fuzuli.

In the poet's works, it is possible to find numerous examples of verses that agree with those of the great Azerbaijani poet Muhammad Fuzuli.

Also, Sharaf al-Rumi's poems intersect with the poems of classical poets Gazi Burhaneddi and Imameddin Nasimi.

***Key words:*** *classical literature, native language poetry, Fizuli, Sharaf Khanum,G.Burhaneddin, Nasimi*

XIX əsr Osmanlı divan şeirinin görkəmli qadın nümayəndələrindən biri hesab edilən Şərəf xanımın əsərlərini tədqiq edib incələyərkən klassik Azərbaycan sənətkarları ilə uyğun xüsusiyyətlərə xeyli sayda, oxşar cəhətlərə isə saysız-hesabsız rast gəlmək olar. Azərbaycan anadilli şeirinin ilk nümayəndəsi XIV yüzillikdə yazıb-yaratmış şair Qazi Bürhanəddin Əhməd (1344-1398) ilə Şərəf yaradıcılığında eyni səpgidə qələmə alınan, eyni qafiyə ilə bitən onlarla şeiri fakt kimi göstərmək mümkündür. Məs.:Q.Bürhanəddin deyir:

Odlar gəlmişdi canumuza xali bu gecə,
Dərdi qomadı könlümi xali bu gecə.

Şərəf xanım da eyni ruhla yazır:

Bəstəri-qəmdə bənim əmanım, bu gecə,
Bəxtimi etmədi bidar fəğanım, bu gecə. (م,158 a)

Və yaxud, Q.Bürhanəddin yazır:

Saçuna uğrayu gələn nəsimə uçdı könül,
Bu dünyada dəxi nə zər, nə simə uçdı könül.

Şərəf xanım:

Yardən dur olub aləmə düçar oldı könül,
Ləbi-canbəxşin alub zarü nizar oldı könül. (م,85a).

Q.Bürhanəddin:

Qopdı yenə könlümdə zəmzəmeyi-eşq,
Söylənür oldı içümdə dəmdəmeyi-eşq.

Şərəf xanım:

Rəngi-rüxsarini güllərdə qodi cilveyi-eşq,
Bülbüli xari-cəfalərdə qodi cilveyi-eşq. (م,72a)

Q.Bürhanəddin:

Can çün yüzüni gördi, yıldyzı neylərəm bən,
Dil çün saçunı gördi, gündüzi neylərəm bən.

Şərəf xanım:

Görməyincə vəchi-pakın, neyləyim dünyayi bən,
İstəməm, billah, sənsiz cənnətü həvrayi bən. (م,78a)

Seyid İmadəddin Nəsimidə:

Dərdü ğəm ilə yandı könül, yar bulunmaz,
Çox darü diyar istədi, dəyyar bulunmaz.

Böyük Nəsimi bu beytdə lirik-fəlsəfi fikirlərlə çıxış edərək deyir ki: "könül dərd və qəmlə yandı, dərdini paylaşacaq bir sevgili tapmadı. Çox diyarı gəzdi, dərdini danışıb üzüntüsünü azaldacaq bir kişi tapmadı". Şərəf xanım da eyni təxəyyüllə yazır: Aləmdə, könül, dilbəri-rə`namı bulunmaz,

Vəsl olmaz isə, bihudə xülyamı bulunmaz. (م,47a)

Nəsimi: Sən mənə yar ol ki, könlüm bir dəxi yar istəməz,
Könlümün məqsudi sənsən, özgə dildar istəməz.

Şərəf xanım da fikirlərini dilə gətirərək eyni tərzdə yazır:

Qeyrə meyl etməz könül, can başqa canan istəməz,
Bir olur şəhrə hökmdar, iki sultan istəməz. (م, 51a)

Nəsimi: Gəl ey dilbər, məni gör kim, necə xoş yanaram sənsiz,
Qəmindən acı hicranın su oldum, axaram sənsiz.
Şərəf xanım da deyir: Bir dəm aram edəməm, ey məhi-qərra sənsiz,
Bana bir saət olur, bir şəbi-yelda sənsiz. (م,57 a)
Nəsimi: Ey cənnətin xəndan gülü, acı fərağın xar imiş,
Müştaqə dirlik sənsizin, vallah ki, çox düşvar imiş.
Şərəf xanım da eyni düşüncə ilə yazır:
Yarsız bildim kişi bir ləhzə şad olmaz imiş,
Seyrü-bağü dağ ilə könli güşad olmaz imiş. (م,39 a)
Nizami Gəncəvi:
Yaxşı bir söz degilən, ta şəkər ərzan olsun,
Yaxşı əl tut ki, sitəm, dərdü qəm asan olsun.
Şərəf xanım: Qaçınma, navəki-müjgani-yarə dil məqam olsun,
Şəhidi-tiği-eşq həşrədək aləmdə nam olsun. (م,127)
Nizami: Sözün qanadları var, quş kimi incə-incə,
Dünyada söz olmasa, nəyə gərək düşüncə.
Şərəf xanım: Alınca mu miyanın dil xəyalə, incədən-incə,
Bulur sərriştə əsbabi-vüsalə, incədən-incə. (م,172a)

Klassik poeziyanın zirvəsində dayanan Füzuli yalnız çağdaşlarını deyil, özündən sonra bütün zamanlarda yaranan türkdilli ədəbiyyatın hər bir şairinə həqiqi mənada öz təsirini göstərmişdir. Məhəmməd Füzuli poeziyasının Şərəf yaradıcılığına təsiri isə birbaşa sufizmin dövriyyə nəzəriyyəsindən də yan keçməmişdir. Təsəvvüf fəlsəfi fikrinə əsasən kainat durmadan dairəvi hərəkət edir – daima enmə və qalxma baş verməkdədir. Bir sözlə, "hər şey Ondan gəlir" və "Ona doğru gedir" təlimi Füzuli yaradıcılığında və onun digər şairlərə ədəbi təsirində hər zaman duyulmaqdadır. Füzuli deyir:

Bana manənd bir divanə surət bağlamaz guya,
Qələm sındırdı təsvirüm çəkəndən sonra nəqqaşım.

Artıq bundan sonra mənə bənzər cılğının (divanənin) – varlıq mənasında surət bağlaması mümkün deyildir... Sanki nəqqaşım mənim şəklimi surətlər aləminə çəkdikdən sonra qələmini sındırmışdır. Bu beytin təsəvvüfi mənası isə belə səslənə bilər: Əzəli və əbədi olan Allah-təala, varlıq aləminə ən mükəmməl şəkildə yaratmış və hər şeyin surətini əzəl səhifəsinə bənzərsiz gözəlliklə naxışlar halında rəsm etmişdir. O, əzəl nəqqaşı, əbədiyyət rəssamıdır. Onun vurduğu naxışı heç bir nəqqaş vura bilməz. Onun çəkdiyi rəsmi heç bir rəssam çəkə bilməz. Şərəf xanım eşq şəhidi olma xüsusunda nə gözəl söyləyib:

Can fəda etməkdə yarə sanma ibram istərəm,
Bən şəhidi-tiği-eşq olmaq ilə nam istərəm. (ب, I,70)

Sevgiliyə canımı fəda etmək üçün israr etdiyimi sanma. Mən eşq qılıncı ilə şəhid olaraq ad qoymaq istəyirəm. Məhəmməd Füzuli:

Həbsi-həvada qoyma Füzulisifət əsir,
Ya Rəb, hidayət eylə təriqi-fəna mana.

Bu beytdə dahi şairin sufiyanə fikirlərinin şahidi oluruq: Məni Füzuli kimi həva (həvəslər, istəklər, ehtiraslar) içində həbs (dustaq) etmə, Allahım, mənə fəna (sənin eşqində yox olma) yolunda qurtuluş nəsib et.

Şərəf xanım: Virdi-rüxsarını virdi-tərə sor, sorma bana,
Çaşniyi-ləbni Kövsərə sor, sorma bana. (م,3a)

Füzuli: Mənimtək heç kim zarü pərişan olmasın, ya Rəb,
Əsiri-dərdi-eşqü dağı-hicran olmasın, ya Rəb.
Şərəf xanım: Qalmadı çəkməgə canımda ləyaqət, ya Rəb,
İrsün əncamə, yetər rənci-fəlakət, ya Rəb. (م,5a)

Göstərilən bu iki beytdə üslub, məzmun, tərz, qafiyə cəhətdən nəinki oxşarlıq, hətta demək olar ki, eynilik açıq-aşkar hiss olunur. Füzuli, özündən qeyri heç kimə ağlayıb-inləməyi, pərişan olmağı rəva görmür və Tanrıdan eşq dərdinə heç kimsənin dustaq olmağını və ayrılıq yarasıyla başbaşa qalmağı arzulamır. Şərəf xanım da eynilə, dərdi çəkməyə canında gücün qalmadığını, əzab-əziyyətin, iztirabın sona yetməsi üçün Allaha yalvarır. Füzuli deyir:

Demən kim, adil yox, ya zülmü çox hər hal ilə olsa,
Könül təxtinə andan özgə sultan olmasın, ya Rəb.
Şərəf xanım: Yar ilə edüb həşrə qədər yekdilü yekcan,
Əğyar əlinə vermə giribanımı, ya Rəb. (م, 7a).

Dahi şairimiz ağız haqqında aşağıdakı beytdə belə deyir:

Bilməz idim bilmək ağzın sirrini düşvar imiş,
Ağzın derlərdi yox, dediklərincə var imiş.
Şərəf xanım:Yarsız bildim kişi bir ləhzə şad olmaz imiş,
Seyri-bağü ilə könül güşad olmaz imiş.(م, 60a)
Füzuli: Qıldı zülfün tək pərişan halimi xalin sənin,
Bir gün, ey bidərd, sormazsan nədir halin sənin.
Şərəf xanım: Laləvəş xun etdi bağrım dağı-hicranın sənin,
Bumudur üşşaqa zalım lütfü ehsanın sənin. (ل,92)
Füzuli: Tutuşdu qəm oduna şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm.
Şərəf xanım: Yıxıldı yə`s ilə mə`mur gördigin könlüm,
Qəti mükəddər o məsrur gördigin könlüm. (م,102a).

Bu beytlərdə nəinki məzmun və forma uyğunluğu, həm də dil və üslub uyğunluğu qabarıq şəkildə özünü göstərir.

**Ədəbiyyat siyahısı**


Pekolcay, N. (1994). *İslami Türk edebiyatına giriş.* İstanbul: Kitabevi Yayınları.

İsən, M. (2004). *"Mersiye (Türk edebiyatı)"* Ankara: Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, c.XXIX.

İsen, M. (2012). *Dile duran ölüm. Klassik Türk edebiyatında mersiyeler.* İstanbul: Kapı Yayınları.

دیوان شرف حانم, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, şifr: II-329 (727).

شرف خانم , AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, şifr:1299.

Məhəmməd, M. (1988) *Seçilmiş əsərləri. İki cilddə*. Birinci cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

Məhəmməd, F.(1958) *Seçilmiş əsərləri. 5 cilddə, I cild* Bakı: Azərbaycan SSR Elmlər Akademiyası.

Məhəmməd, F. (1958). *Seçilmiş əsərləri*. Bakı: Azərbaycan Dövlət nəşriyyatı.

**Könül Sadıqova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: k1o1n1u1l@gmail.com*
*ORCİD: 0009-0002-7178-3738*

# TÜRKƏSİLLİ SİBT İBN ƏL-CÖVZİNİN "MİRATUZ-ZAMAN" ƏSƏRİ: MƏNBƏ BAZASININ TƏHLİLİ

**Xülasə**

Məqalədə türk mənşəli alim Sibt ibn əl-Cövzinin "Miratüz-zaman" əsəri mənbəşünaslıq baxımından araşdırılmışdır. Məqalədə müəllifin əsəri yazarkən istifadə etdiyi mənbələri müəyyənləşdirmək və onların xüsusiyyətlərini təhlil etməklə yanaşı, əsərdə istinad edilən tarix kitablar, eləcə də digər yazılı qaynaqlar nəzərdən keçirilmişdir. Təhlil göstərir ki, Sibt ibn əl-Cövzi müxtəlif mənşəli mənbələrdən istifadə etmiş və onları özünməxsus yanaşma çərçivəsində birləşdirmişdir. Nəticədə "Miratüz-zaman" əsərinin zəngin mənbə bazasına əsaslandığı və orta əsr İslam tarixşünaslığında mühüm yer tutduğu müəyyən edilmişdir.
***Açar sözlər**: əlyazma, mənbə, tarix, Sibt ibn əl-Cövzi*

# THE WORK "MIRATUZ-ZAMAN" BY TURKIC-BORN SIBT IBN AL-JAWZI: ANALYSIS OF THE SOURCE DATABASE

**Abstract**

The article examines the work of the Turkish scholar Sibt ibn al-Jawzi, "Miratuz-zaman", from the point of view of source studies. The aim of the study is to identify the sources used by the author when writing the work and to analyze their characteristics. During the study, the history books referred to in the work, as well as other written sources, are systematically reviewed. The analysis shows that Sibt ibn al-Jawzi used sources of various origins and combined them within the framework of a certain methodological approach. His choice of sources serves not only to convey facts, but also to form the author's position. As a result, it is determined that the work "Miratuz-zaman" is based on a rich source base and occupies an important place in medieval Islamic historiography.
***Key words**: manuscript, source, history, Sibt ibn al-Jawzi*

Sibt ibn əl Cövzi Qızoğlu (ibnu–l Cövzinin nəvəsi) təxəllüsünü daşıyan Şəmsuddin Əbu-l Müzəffər Yusif b. Qızoğlu b.Abdullah 582/1186–cı ildə mərkəzi şəhər olan Bağdadda dünyaya gəlmişdir. Atası türkəsilli Hüsaməddin Qızoğlu, anası Əbu-l Fərəc ibn əl-Cövzinin qızı Rəbiə olmuşdur. Uşaqlıqda atasını itirdiyinə görə, onu babası (Cəmalüddin Əbu-l Fərəc ibn əl-Cövzi) böyütmüşdür.

Cəmalüddin Əbu-l Fərəc b. əl-Cövzi də dövrünün məşhur şəxslərindən biri olmuşdur. Belə ki, onun haqqında İbn Xəllikan özünün əsərində bunları yazmışdır: " *O hədis və vaizlikdə dövrünün seçilmişlərindən idi. Onun "Zadu–l məsir fi ilmut–təfsir" adı ilə məşhur olan təfsiri vardır. Həmçinin "Tarixi–kəbir" adlı əsəri və 4 cilddən ibarət hədisləri topladığı daha bir kitabı da vardır. O qədər elm–irfan sahibi bir şəxs idi ki, o dövrdə Bağdadda sünni və şiə arasında olan hər hansı bir problem çıxanda, hansının daha düzgün olduğu barəsində mübahisə yarananda Əbul*

*Fərəcə müraciət edirdilər və onun izahını, söylədiyi fikirləri qəbul edirdilər. 508–ci (m.1114) və ya 518–ci (m.1124) ildə anadan olduğu bildirilir, 597 (m.1201)–ci ildə vəfat etmişdir* (İbn Khallikan 1842:122, Bünyadov 2007). Sibt ibn əl–Cövzi ömrünün bir qismini Bağdadda, geri qalan qismini isə Dəməşq şəhərində keçirib. Sibt 18 yaşına qədər doğulduğu Bağdad şəhərində babasının himayəsində yaşamışdır. Məhz həmin illərdə Bağdad şəhəri Abbasilər dövlətinin nəzarəti altında olmuşdu (Sevim, 2007: 88, Marr, 8 aprel, 2026)

Sibt ibn əl–Cövzi özünün ikinci vətən kimi qəbul etdiyi Dəməşq şəhərində Qasiyun dağı yaxınlığında yerləşən evində dünyasını dəyişmişdir. O, 21 yanvar 1257–ci ildə (h. Zilhiccə ayının 21–i 654–cü ildə) orada da dəfn edilmişdir. Onun həm xalq, həm də hökumət rəhbərliyi arasında necə görkəmli nüfuza malik olmuşdur ki, dəfn mərasiminə gələn xalq izdihamı və Əyyubi sülaləsi hökmdarlarından biri olan əl–Məlikun–Nasir Salahuddin Yusif də iştirak etmişdir. Bu onun həm hökumət, həm də, xalq yanında böyük nüfuza malik olmasının ən böyük dəlilidir (Пиримова, 1987, Sevim, 2007: 89].

Orta əsr Şərq tarixini mənimsəmək baxımından ən dəyərli mənbələrdən biri "Miratuz–zaman" əsərinin əlyazması hesab olunur. Bütöv adı "Miratuz–zaman fi təvarixil-ə`yan" dır ("Əyanlar tarixində zamanın güzgüsü"). Əsərin adı ilə bağlı fərqli adlandırmalar vardır. Bəzi nəşrlərdə müəlliflər "Miratuz-zaman fi tərixi-l ə`yan" adını qəbul edərək kitabın adında "təvarix" sözünü "tarix" şəklində yazmışlar və bu barədə heç bir izah verməmişlər. Hər iki kəlimənin mənası eynidir. "Tərix" sözünün ərəbcədən cəmi "təvarix" deməkdir. İbn əl-Cövzi kitabının müqəddiməsində əsərini "Miratuz-zaman fi təvarixi-l ə`yan" olaraq adlandırmışdır və bu tədqiqatda müəllifin adlandırdığı əsas götürərək yazılmışdır. Bu çox cildlik əsər barəsində İbn Xəllikan (1211–1282) qeyd etmişdir ki, o, Dəməşqdə Sibt ibn Cövzinin 40 cilddən təşkil edilmiş və hər cildində də müəllifin imzası olan "Miratuz–zaman" adlı əsərini görmüşdür. Ancaq çox təəssüf ki, əsərin bir çox cildi itmiş, günümüzədək yalnız bəzi cildləri gəlib çatmışdır (Bünyadov,2007:5, İbn Khallikan 1842:123). Əsərin I cildinin əlyazması AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda D–23 şifrəsi altında qorunmaqdadır. Bu cild bəşər tarixinin yaradılışından etibarən başlayır və Ömər ibn Xəttabın islam dinini qəbul etməsi hadisəsi ilə bitir. Dövrümüzə qədər gəlib çatan cildləri arasında Azərbaycan tarixinin öyrənilməsi yönündə kifayət qədər məlumatlar vardır.

Əsər böyük bir tarixi salnaməni özündə əks etdirir və bəşər tarixinin başlanmasından Sibt ibn əl–Cövzinin ömrünün sonuna qədərki (654/1257) cərəyan edən hadisələri özündə əks etdirir. Cövzinin bu əsərində hər ilin önəmli hadisələri diqqətə çatdırılır və həmin ildə dünyasını dəyişən məşhur şəxslərin isimləri əlifba sırası ilə sıralanır, əsərdə onların hər biri barədə biblioqrafik məlumatlar öz əksini tapır. Salnamədə məlumatlar adətən digər müəlliflərin əsərlərindən yığılmış materiallar əsasında sübut edilir (Bünyadov,2007 s.6). Bu səbəbdən Cövzi əsərin özündən öncəki dövrləri əhatə edən qisimlərini yazmaq üçün həmin dövrlərdə qələmə alınmış bir çox əsərlərdən qaynaq olaraq bəhrələnmişdir. Müəllifin sadalananlar arasında ən çox bəhrələndiyi mənbə, Muhammad b. Hilal əbul–Hasən Qarsun–nimə əs–Sabinin "Uyunut–təvarix" ("Tarixin qaynaqları") adlı əsəri olub. Qarsun–nimə h.479 (1086/1087)–cu ilədək davam etdirdiyi "Uyunut–təvarix"i atası olan Hilal b. Muhassin əs–Sabinin tarixi əsərinə (h.360–448–ci illəri əhatə edir) zeyl olaraq (bir mətnə dair təfsir və mətnin davamı, əlavəsi S.K.) yazmışdır. XI əsrdə Bağdad şəhərində yazıya alındığı bilinən "Uyunut–təvarix"i Sibt ibn Cövzi Dəməşq şəhərinə gətirərək istifadə etmiş, ancaq əsərin sonrakı taleyi barədə mənbələrdə heç bir məlumat yoxdur (Садр ад-Дин,1980:13). Qarsun–nimə Məhəmməd b. Hilal b. əl–Muhassin əs–Sabi Sabi ailəsinə məxsus dəyərli tarixçilərdən biridir. O, islam dinini qəbul edən və vəzir Fəxrul–mülk Həsən ər–Ruhhacinin

(1038/1039) katibi olan məşhur tarixçi Hilal b. əl–Muhassindir (ölm.1056). Hilal, h.359 (970)–cu ildə Bağdadda anadan olmuşdur. O, baş katib olduğuna görə, ona əl–Katib adı verilmişdir və Büveyhi hökmdarlarından Fəxrülmülk Əbu Qalib Məhəmməd b. Xələfin katibi olmuşdur. Ramazan ayın 14–ü 448–ci ildə (1056) ölmüşdür. Hilal b. Muhassin əs–Sabi, dayısı Sabit b. Sinanın "Tarix" əsərinə zeyl olaraq bilinən və h.363/973–cü ildə başlayan və h. 447/1055–ci ildə bitən və ümumilikdə qırx cild olduğu rəvayət edilən bir "Tarix" əsəri yazmışdır. Bu əsərin dövrümüzə qədər ancaq bir cildi gəlib çatmışdır. Bu da Abbasilər dövrü tarixinin ancaq 5 illik tarixini əhatə edir (389–393/999–1003) Amedroz tərəfindən Leidendə 1904–cü ildə nəşr edilmişdir (سبط ابن الجوزي ١٩٧٨) . Qarsun-nimə "Uyunut–təvarix" əsərini atası Hilalın h.360–448–ci illər hadisələrini əhatə edən tarixə aid yazdığı kitabına zeyl olaraq yazıya almış və onu h.479 (1086–1087)–cı ilə kimi sürdürmüşdür. H.448–479 (1056–1086)– cı illəri əhatə edən bu yığcam əsəri yazarkən o dayısı Sabit b.Sinanın əsərinə zeyl olaraq yazmışdır (Хилал,1983:9). Məşhur harranlı tərcüməçi və filosof Sabit b. Kurranın (h. 221–288) nəslindən gələn çoxsaylı alimlərdən biri də "təbib tarixçi" olan Sabit b. Sinandır. Sabitin "Tarix" əsəri Təbərinin "Tarix"inə zeyl olaraq yazılmış və 295–363/907–973–cü illəri əhatə edir. Sabitin "Tarix"əsəri üçün Kifti, "*onun qədər daha yaxşı yazılmış bir tarix kitabı yoxdur"* demişdir. Sabitin əsəri bütövlükdə dövrümüzə qədər gəlib çatmamışdır, ancaq Qarmatilərə aid hissələr Sühəyl Zəkkar tərəfindən nəşr edilmişdir (Ирмияева,2000:35). Sabit b. Sinanın bu əsərinin h.389–393 (998/999–1002/1003)–cü illəri əhatə edən hissəsi H.F.Amedroz tərəfindən nəşr edilmişdir (Leiden 1994). Əvvəldə də qeyd etdiyimiz kimi, İbn əl- Cövzi Qızoğlu bu əsərdən geniş şəkildə istifadə edərək "Miratuz–zaman fi təvarixil–ə`yan" əsərinə geniş əlavələr etmişdir. Həmçinin o bu əsərdən qaynaq olaraq istifadə edən yeganə müəllif kimi tanınır. XI əsrin II yarısında Bağdadda yazıldığı məlum olan "Uyunut–təvarix"in yeganə nüsxəsi Suriyanın paytaxtı Dəməşqdə ibn Cövzi görmüş və o bu nüsxəni Bağdaddan Dəməşqə gətirərək istifadə etmişdir (Ирмияева, 2000). Beləliklə də, 30 illik bir tarixi dövrü əhatə edən "Uyunut–təvarix" əsərini biz yalnız Sibtin oradan istifadə etdiyi hissələr vasitəsilə tanıyırıq. Eyni zamanda onu da qeyd etməliyik ki, Qarsun–nimənin 30 illik bir tarixi əhatə edən adı keçən əsəri bizə birbaşa Sibt ibn Cövzinin öz əsərinə etdiyi nəqillər vasitəsilə gəlsə də, Sibtin əsəri də günümüzə qədər bütöv şəkildə gəlməmişdir. Əl–Yunini, Məhammməd b. Şadşah kimi müxtəlif müəlliflər Sibtin adı keçən əsərini ixtisar edərək yenidən qələmə almışlar (Guo,1998:17). Bu minvalla, Sibt ibn Cövzi əsərinin XI əsri özündə əks etdirən bölmələrini Qarsun–nimədən, XIII əsrə aid hadisələrini isə İbnu–l Əzraqın "Tarixu Məyyafarikin və Amid", İbnu–l Kalanisinin "Tarixu Diməşq", əl–İmadu–l Katib Muhammməd əl–İsfahani "əl–Bərkuş–Şami" və "Haridatu–l Kasr" adlı əsərləri, İbnu`ş–Şəddadın "Əl–alakul–xatira", İbnu–l Əsirin "Əl–Kamil fit–tarix" kimi əsərlərdən mənbə kimi istifadə etmiş, Dubeysi, Səmani kimi müəlliflərin əsərlərindən də bəhrələnmişdir (سبط ابن الجوزي: ١٩٧٨)

Daha sonralar Kutubiddin Musa b. Məhammməd əl–Yununi əl–Bəalbəki (ölm.1326) Cövzinin bu böyük əsərini ixtisar edərək təzədən qələmə almışdır. Yununi eyni zamanda h.654/1256–cı il ilə yekunlaşan "Miratuz–zaman"a bir zeyl də yazmış və əsəri h.713/1313-1314–cü ilədək davamını sürdürmüşdür. Həmçinin Yununinin bildirdiyinə əsasən o, əsərdə müəyyən ixtisarlar etmiş, h. 654/1257–cü ildən öncəki bəzi olayları, dünyasını dəyişən bir çox görkəmli şəxslərin həyat və yaradıcılıqlarını, bununla yanaşı, önəmli hesab etdiyi bir çox əhəmiyyətli mövzuları da əlavə etmiş, bununla da əsəri daha oxunaqlı hala gətirmişdir. "Kəşfuz–zunun" əsərinin müəllifi olan Katib Çələbinin dediklərinə əsasən, "Miratuz–zaman"ı İbn Əbir– Rical ilə Məhəmməd b. Şadşah b. Bəhramşah Yununi kimi qısaldaraq yenidən qələmə almışdır. (Sevim,2007).

"Miratuz–zaman" əsərinin iki variantı vardır. Bunlardan biri müfəssəl, digəri isə müxtəsər olandır və bu əsərlərin hər birinin də bəzi cildlərində (xüsusilə də 1056–1086–cı illər hadisələrini əks etdirən cildi) müəyyən qısaltmalar edilmişdir, ancaq bu qısaltmaların kimlər tərəfindən həyata keçirildiyi dəqiq müəyyən olunmamışdır. Əsəri Osmanlı türkcəsinə tərcümə edən Muhəmməd b.Əbdüləziz (1021/1612) olmuşdur (Jewett,1907:20).

Nəticədə vurğulamaq lazımdır ki, salnamə üslubunda yazılmış Sibt ibn əl-Cövzinin yeganə tarixi əsəri, Azərbaycan tarixinin araşdırılmasında ərəbdilli mənbələrdən biri kimi dəyərlidir. "Miratuz–zaman"da Azərbaycan tarixinə aid verilən məlumatlardan belə qənaətə gəlmək olar ki,"Miratuz-zaman" əsəri erkən futuhat dövründə Azərbaycanda baş verən hadisələrin təhlili zamanı yeni dəlilləri nümayiş etdirir, əsər Xilafət dövrü Azərbaycan tarixinin araşdırılmasında qaynaq xarakteri daşıyır;Xilafətə qarşı baş qaldırmış və uzun müddət davam edən Xürrəmilər hərəkatının tarixi gedişatının öyrənilməsində örnək nümunələri ilə seçilir, Səlcuqlar dövrü tariximizin öyrənilməsində mühim mənbələrdən biridir, əsərdən orta əsrlər, xususilə səlcuqlar dövründə bir sıra şəhərlərimizin inkişaf səviyyəsinin yüksək olduğunu və öz xüsusiyyətlərinə görə seçildiyini müəyyən etmək olar, eyni zamanda salnamə Səlcuq türklərinin gəlişi ilə buraya köç edən oğuz tayfa birliklərinin əksəriyyətinin ölkəmizdə qalmadığını, qalanların isə yerli əhali ilə qaynayıb qarışdığını və beləliklə də səlcuqların Azərbaycanı türkləşdirənlər olmadığını yeni dəlillərlə göstərməyə imkan verir.

**Ədəbiyyat siyahısı**


Azərbaycan etnoqrafiyası (2007): [3 cilddə] / baş red. T. Bünyadov. – Bakı: Şərq–Qərb,– c.2. – 544 s.

Bünyadov, Z. (2007) Azərbaycan Atabəyləri dövləti: 1136–1225–ci illər / Z.Bünyadov. – Bakı: Şərq-Qərb,. – 268 s.

Cahen, Cl. (1962) The historiography of the Seljuqid period, Hissstoriens of the Middle East / Cl.Cahen, ed.by B.Lewis and P.M. Holt. – London, – 78 p.

Guo, L. (1998) Early mamluk Syrian historiography al–Yunini`s Dhayl Mir`at al-zaman: [in 2 vol] / L.Guo. – Chicago:Brill, – v.1. –241 p.

İbn al–Kalanisi (1908)History of Damascus / ed. by H.F.Amedroz. – Leyden: Brill, –156 p.

İbn Khallikan (1842) Biographical dictionary: [in 4 vol] / trans. Slane, M.G. – Paris: Oriental translation fund of İrland, – v.4. – 297 p.

Marr, A.P. Baghdad ( 9 sentyabr): [Electronic resource] / Encyclopædia Britannica Online, – 9 sentyabr, https://www.britannica.com/place/Baghdad

Sevim, A. Sıbt (2007). İslam ansiklopedisi. – İstanbul: Türkiye Diyanet Vakfı yayınları, – c.37. – s.88.

Ирмияева, Т.Ю. (2000) История мусульманского мира о Халифата до Блистательной Порты / Т.Ю. Ирмияева. – Пермь: Звезда, – 163 с.

Пиримова, М.А. (1987) Миратуз-заман о двух историках / М.А. Пиримова. – Əlyazmalar xəzinəsində, – с.8.–135 с.

Садр ад-Дин, А.Х. (1980) Сообщения о Сельджукском государстве Ахбар ад–даулат ас–сельджукийа / А.Х. Садр ад-Дин. – Москва: Наука, –356 с. 1

Хилал, М.С. (1983) Установление и обычаи двора халифов (Русум дар ал–хилафа): / М.С. Хилал. – Москва: Наука, –140 с.

شمس الدين ابن المظفر يوسف بن قزاوغلى سبط ابن الجوزي. مراة الزمان في تواريخ الاعيان.ـ انقرة: مطبعة لجمعية التاريخية التركية، ـ ١٩٧٨ـ ٢٧٥ ص.

Jewett, J.R. (1907). Mirata`z-zaman fi Tarixi-l a`yan (A.H.495-654) - at Sams Ad-din Abu`l-Muzaffar Yusif ben Qizughlu ben Abdullah Sibt ibn al-Jauzi / J.R.Jewett. – Chicago: The univercity of Chicago press, – p.534

**Nicabət İslamova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: nicabet.1977@mail.ru*
*ORCİD: 0009-0001-4011-9386*

# ƏBDÜLQƏNİ NUXƏVİNİN ƏSƏRLƏRİNDƏN BƏZİLƏRİNƏ QISA BAXIŞ

**Xülasə**

Hər bir xalqın tarixinin, ədəbiyyatının, mədəniyyətinin tədqiqində əlyazma kitabların mühüm rolu var. Hələ qədim dövrlərdən bəri görkəmli alimlər öz əsərlərini əlyazmalar şəklində yazıya köçürmüşdürlər. Bu əlyazmaların geniş oxucu kütləsinə çatdırılması isə katiblər sayəsində olmuşdur. Belə dəyərli kitablardan biri də Əbdülqəni Nuxəvi Xalisəqarızadənin tərtib etdiyi "Qazıxana dəftəri"dir. Qazıxana dəftərlərində Şəki və ətraf ərazilərdə əhalinin yaşayışı, gəlirləri, keçirdikləri xəstəliklər və sairə haqqında dəyərli məlumat almaq mümkündür.
***Açar sözlər:*** *Nuxəvi, əlyazma, katib, Şəki, dəftər*

# A SHORT REVIEW TO SOME WORKS BY ABDULGANI NUKHAVI

**Abstract**

Handwritten books play an important role in the study of the history, literature and culture of each nation. Since ancient times, prominent scholars have copied their works into writing in the form of handwritten notes. It was thanks to the scribes that these manuscripts were delivered to a wide range of readers. One of such valuable books is "Qazıkhana dəftəri", compiled by Abdulqani Nukhavi Khalisagarizadn. It is possible to get valuable information about the lives, incomes, injuries suffered by the population in Sheki and surrounding areas and so on in gazihana notebooks.
***Key words:*** *Nukhavi, the manuscript, secretary, Sheki, notebook*

## Giriş

Ən qədim dövrlərdən başlayaraq dünyanın bütün xalqlarında olduğu kimi Azərbaycan xalqının tarixi keçmişində də kitabın ictimai-mədəni rolu çox böyük olmuşdur. İnsan övladı yazını kəşf etdikdən sonra yaddaşlara həkk olunmuş şifahi xalq ədəbiyyatı nümunələrini yazıya köçürməyə başladı.

Bu günki çap kitablarının sələfləri əlyazma kitablar olmuşdurlar. Yüzilliklər boyunca görkəmli alimlər öz əsərlərini əlyazma şəklində yazıya köçürmüşlər. Bu əsərlərin geniş oxucu kütləsinə yayılması isə katiblər vasitəsilə olmuşdur. Katiblər də xalqın içərisindən çıxmış çox savadlı təhsilli insanlar olduğundan həmin əsərlər haqqında bəzən mətnin haşiyələrində öz şərhlərini yazmışdırlar. Həmin əsərlər mətinşünas alimlər tərəfindən tədqiq olunaraq oxuculara təqdim olunur. Belə mətnşünas alimlərdən biri də professor Kamandar Şərifovdur. Kamandar Şərifov Azərbaycan elminə əvəzsiz və fundamental əsərlər bəxş etmişdir. Görkəmli alimin ən zirvədə olan tədqiqat işi isə Əbdülqəni Nuxəvi və onu arxivinin tədqiqi olmuşdur. Məhz Kamandar müəllim böyük zəhmətlə Nuxəvi kolleksiyasını üzə çıxararaq elmi ictimaiyyətə təqdim etmişdir.

Əbdülqəni Nuxəvi Xalisəqarızadənin həyatı haqqında məlumat yazılmış ayrıca bir sənəd əldə edilməmişdir. Ümumiyyətlə hər hansı bir alimin həyatı haqqında məlumatı əsərlərindən və

onun müasirlərindən almaq mümkündür. Lakin Nuxəvinin əsərlərində onun həyatı haqqında verilən məlumatlar çox azdır. Bu məlumatlardan bir çoxu da təkrar xarakter daşıyır. Əbdülqəninin əsərləri elmi xarakter daşıdığından müəllif özü haqda məlumat verməyi münasib bilməmişdir. Burada verilən məlumatlara əsasən isə alimin həyatı haqqında geniş və təfərrüatlı məlumat vermək mümkün deyildir.

**Əsas mətn**

Əbdülqəni Xalisəqarızadə Şəkidə dünyaya gəlmişdir. Şəki Azərbaycann ən qədim şəhərlərindən biridir. Şəki xanlığı Rusiyanın tabeliyinə keçdikdən sonra bu ərazi Şəki əyaləti adlandı. 1840-cı il islahatı ilə bütün bu ərazi Nuxa əyaləti, Şəki şəhərinin özü isə Nuxa adlandırıldı. XIX əsrin ikinci yarısında çar hakimiyyət orqanları Şəkini iki məhəlləyə böldülər. Bu məhəllələr Şəki və Qışlaq adlanırdı. Tarixçilər və səyyahlar bu diyarın tarixi, mədəniyyəti və burada olan elmi mühiti, sənətkarlığı haqqında heyranlıqla söhbət açmışdırlar. Görkəmli Fransız yazıçısı Aleksandır Düma yazırdı: "Polkovnik Tarakanovun iqamətgahı şəhərin kənarında olduğundan, biz mərkəzi küçəyə çatana qədər xeyli yol getdik. Küçənin ortası ilə çınqıllı kiçik çay axırdı. Çayın bir sahilində isə dükanlar çərgə ilə düzülmüşdür. Mağazaların önü seyrəngah idi. Küçənin hər iki tərəfindəki ağaclar bir-birləri ilə qovuşaraq köpüklənən suyun üzərində həm ürək oxşayan kölgəlik əmələ gətirmiş, həm də dağın ətəyində şairanə bir mənzərə yaratmışdır. Müəllif Xan sarayını mədh edərək yazırdı: "1792-ci ildə Məhəmmədhəsənin tikdirdiyi Xan sarayı valehedici və insana "gəl-gəl" deyən bir imarətdir. Çar ordusu 1828-ci ildə Nuxanı tutanda Xan sarayı dağılmışdır. Xan sarayı elə füsunkar gözəlliyə malik abidədir ki, yalnız memar fırçası onun necə birləşdirildiyi məlum olmayan şəbəkə və naxışlarını yenidən canlandıra bilər. (Şərifov, 2019, 24)

Əbdülqəni Nuxəvi Xalisəqarızadə məhz belə gözəl və möhtəşəm şəhərdə dünyaya gəlmişdir. Ziyalı ailədə dünyaya gəlməsi onda hələ uşaq vaxtından elmə maraq oyatmışdır. İlk təhsilini Şəkidə alan Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin həyatı haqqında mənbələrdə geniş məlumat olmasa da onun 1817-ci ildə Şəkidə dünyaya gəldiyi bildirilir (Şərifov, 2019, 32). Əbdülqəni Nuxəvi "Sədo həft rəng" adlı mətnlər məcmuəsində özünün tam adının Şəmsəddin Əbdülqəni Nuxəvi Kəmaləddin Məhəmməd əfəndi oğlu Xalisəqarızadə olduğunu qeyd edir (Şərifov, 2019, 32). Onun babası Molla Pir Məhəmməd, ulu babası isə Şeyx Məhəmməd və Nurməhəmməd olmuşdur. Bu nəslin soy adı seyid Məhəmmədin həyat yoldaşı Xalisə qarının adı ilə bağlıdır. Xalisə qarı dövrünün ziyalılarından biri olmuşdur. Əbdülqəni Nuxəvinin zəngin kitabxanasının əsasını da məhz Xalisə qarı qoymuşdur. Xalisə qarının övladları onun adını özləri üçün soy ad kimi qəbul etmişdirlər. Əbdülqəni öz əlyazmalarının birində ailəsi haqqında məlumat vermişdir. Onun verdiyi məlumata görə, nənəsi Həbibə xanımdan və babası Molla Pir Məhəmməddən beş oğlan və iki qız dünyaya gəlmişdir. Nuxəvi qeyd edir ki, atası Kəmaləddin Məhəmməd əfəndi iki dəfə evlənmişdir. Onun birinci arvadı Şəki xanlarının soyundan, Şeyx Əli bəy nəslindən olan Tuba xanım olmuşdur (Şərifov, 2019, 32). İkinci arvadı isə Molla Əbdülbaginin qızı olmuşdur. Əbdülqəninin anası Tuba xanımdır. Kəmaləddin Məhəmməd əfəndi Şərq dilləri üzrə yaxşı təhsil almış və Şəkinin ziyalılarından biri olmuşdur (Şərifov, 2019, 32). Övladlarının ilk təhsilini də özü vermişdir. Övladlarının təhsilinə xüsusi diqqət yetirən Kəmaləddin Məhəmməd dövrünün məşhur müəllimlərini dərs vermək üçün evinə dəvət etmişdir. Əbdülqəni Nuxəvi təhsilini XIX əsrdə Şəkidə fəaliyyət göstərən, xalqın savadlanmasında ən vacib yerlərdən birini tutan məktəb və mədrəsələrdə almışdır. O, Şəkidə əsasən Abdulla Əfəndi Axundzadə, Sədrəddin bəy Nuxəvi və Əlican bəy Nuxavinin mədrəsələrində təhsil almışdır. Əbdülqəni Nuxəvinin müəllimləri içərisində zəmanəsinin tanınmış alimlərindən olan İbrahim Ərəşi, Şəkəvi, Abdulla əfəndi Axundzadə kimi simalar olmuşdur. O, hələ gənc ikən 1830-34 cü illərdə atası ilə birlikə

“Dilçilik, məntiq və poetika” adlı toplu tərtib etmişdir (Şərifov, 2019, 35). Atası ona müxtəlif dilləri öyrətməklə yanaşı məntiq və poetikadan da dərs vermişdir.

Əbdülqəni Əfəndi özünün çoxşaxəli elmi fəaliyyəti ilə dövrünün alimləri arasında geniş şöhrət tapmışdır. O xüsusilə ilahiyyat sahəsində mükəmməl təhsil almışdır. Məhs buna görə də bu sahədə bir-birindən maraqlı əsərlər yazmışdır. O həmçinin Şərqin bir sıra görkəmli alimlərinin əsərləri ilə yaxından tanış olmuş və onlara şərhlər yazmışdır. Görkəmli alimin ilahiyyat sahəsində yazdığı əsərlərdən biri də “Ərlərin əhvalı haqqında risal” adalnır. Müəllif bu əsərdə ailə hüququnun bəzi məqamlarına aydınlıq gətirmişdir. Burada ər və arvadın bir-biri ilə olan münasibəti və onların hər brinin vəzifələri haqqında məlumat verirdi. Əbdülqəni Əfəndi əsərlərini yazarkən həmçinin onun oxunaqlı olmasına və oxuçunu yormamasına da diqqət yetirmişdir. Məhz bu səbəbdəndir ki, əsəri oxuyarkən burada mövzu ilə bağlı müxtəlif hekayələrə rast gəlirik. Müəllif hansısa bir məsələni hekayələr vasitəsiylə açaraq oxucuya daha anlayışlı bir şəkildə izah etməyə çalışmışdır. Bununla yanaşı o hər hansı bir sualı Qurani Kərimə əsaslanaraq izah etmişdir. Həmin dövrdə çoxlu sayda kişilər və qadınlar ona müraciət edərək ərəb dilini bilməyənlərin istifadə edəcəyi ər və arvadın hüquqları, vəzifələrindən bəhs edən türk dilində bir kitab yazmasını xahiş ediblər. Əbdülqəni Əfəndi də bu xahişləri nəzərə alaraq belə bir kitab ərsəyə gətirib. (Şərifov, 2008, 3) Ümumiyyətlə Əbdülqəni Əfəndi elmi yaradıcılığında xalqın maraq dairəsini diqqətə almış və xalqa öz elmi ilə maraqlı və dəyərli məlumatlar verməyə çalşmışdır.

Əbdülqəni Nuxəvi təhsilini artırmaq üçün İranın və Türkiyənin bir sıra şəhərlərində olmuşdur. O, təhsil aldığı müddət ərzində Şərq ədəbiyyatını və elmini dərindən öyrənmiş və tanınmış alimlərin əsərlərini oxumuşdur. Hələ gənc yaşlarından bəzi əsərlər üzərində tədqiqatlar aparan Nuxəvinin çox zəngin kitabxanası olmuş və həmin kitablardan dövrünün gəncləri də istifadə etmişdir (Şərifov, 2019, 41).

Əbdülqəni tədqiqatçı olmaqla yanaşı, həmçinin pedaqoq kimi də fəaliyyət göstərmişdir. Hələ 14-15 yaşlarında o artıq dərs vəsaitləri tərtib eləməyə başlamışdır.

XIX əsrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi Əbdülqəni Nuxəvinin yaşadığı Şəki şəhərinin ictimai siyasi və mədəni həyatında da inkişaf dövrü başlamışdır. Həmin dövrdə yaşayan Şəki ziyalıları burada elmin, təhsilin inkişaf etməsi üçün var qüvvələrini səfərbər eləmişdirlər. Mənbələrin verdiyi məlumata əsasən həmin dövrdə Şəkidə 32 məktəb fəaliyyət göstərirdi. Xalisəqarızadənin əlyazmalarında bu məktəblərin bəziləri haqqında məlumat verilmişdi. Onlar aşağıdakılardır:

1. Hacı Məhəmməd əfəndi Nəbi əfəndi oğlunun mədrəsəsi.
2. Əlican bəy Nuxəvinin mədrəsəsi.
3. Sədrəddin bəy Nuxəvinin mədrəsəsi.
4. Əlişanın mədrəsəsi.
5. Abdulla əfəndi Axundzadənin mədrəsəsi.
6. Mövlana Məhəmməd Əli əfəndinin mədrəsəsi.
7. Ağ Məscid adı ilə məşhur olan Dabbaqxana məscidinin nəzdindəki mədrəsə.
8. Cümə məscidinin nəzdindəki mədrəsə.
9. Hacı Şəmsədin bəyin məscidindəki mədrəsə (Şərifov, 2019, 17).

Əbdülqəni Nuxəvi ərəb, fars dilləri ilə yanaşı həmçinin hədis, təfsir, fiqh kimi elmlərə də dərindən yiyələnmişdir. O, hədis elmi sahəsində atasından elm əxz etmişdir. Onun atası Kəmaləddin Məhəmməd əfəndi Şirvanda hədis elmi sahəsində ən mükəmməl təhsil almış, mahir hədis bilicisi kimi tanınmış şəxslərdən bir idi.

O həmçinin mükəmməl dini biliklərə malik olduğu üçün Şəki vilayətinin baş qazısı vəzifəsinə təyin olunmuşdur. Əbdülqəni Xalisəqarızadə baş qazı kimi fəaliyyət göstərdiyi dövrdə Şəkidə nigaha girənlərin və ölənlərin qeydiyyatını aparmışdır. Ondan sonra isə onun bu işini oğlu davam etdirmişdir. O, öz qeydlərini "Qazıxana dəftərləri" adı ilə kitab halına salmışdır. "Qazıxana dəftəri" AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində mühafizə olunur. "Qazıxana dəftəri" əvvəldən naqis olub h. 1282 (1865)-ci ildən başlayır (Şərifov, 2008, 8). Əbdülqəni Nuxəvi Xalisəqarızadənin "Qazıxana dəftəri" kitabı üzərində aparılan araşdırmalar bir sıra mətləblərə aydınlıq gətirmişdir. Belə ki, Şəkidə xalq arasında belə fikir gəzirdi ki, Əbdülqəni Nuxəvi Xalisəqarızadə ərəb qızına evlənmişdir. Lakin, istər Əbdülqəni əfəndinin şəcərəsində istərsə də onun kitablarında ailəsi haqqında verdiyi məlumatda bunu təstiq edən fakt yoxdur. "Qazıxana dəftəri"ndə Əbdülqəni Nuxəvi özünün birinci həyat yoldaşı Anaxanımın ölümü haqqında məlumat verir (Şərifov, 2008, 9). Buradan məlum olur ki, Anaxanım ərəb mühacirlərindən olan Seyyid hacı Əhmədin qızıdır. Bu kitabda Əbdülqəni Əfəndi özünün ikinci nigahı haqqında da məlumat vermişdir. O, ikinci dəfə h.1292 (1875)-ci ildə nalbənd Əli Məhəmməd Nuxəvinin qızı Məkkə xanımla evlənmişdir. Bu vaxt onun 59 yaşı olmuşdur (Şərifov, 2008, 9). Qazıxana dəftərlərində Xalisəqarızadənin övladlarının ölüm tarixləri və hansı xəstəlikdən öldükləri yazılsa da məhz Əbdülqəni Nuxəvinin hansı xəstəlikdən öldüyü yazlmamışdır.

"Qazıxana dəftərləri"ndə Şəkinin xanları, tanınmış şəxsiyyətləri və onların övladları ilə bağlı məlumatlar əldə etmək mümkündür. Bunlara Şəki xanları Hacı Çələbi xan, Məhəmmədhəsən xan, Səlim xan, Şəki bəyərbəyi Fətəli xan, Əlican Həsən xan Mirzəbəy Sultanovun oğlu, Şəkixanovlar, Əfəndiyevlər və Əfəndizadələr, İmamzadələr, Qaragözzadələr, İlisu sultanı Daniyal sultan, Şeyxəli bəy, Əlican bəy Nuxəvi, knyaz Əbdürrəhman, knyaz Abdulla Şeyxzadələr, Axundzadələr, knyaz Əbdürrəhim, molla Cümanın övladlarını misal göstərmək olar. Burada Xanlar ağa Cəfər ağa Şəkixanovun oğlunun Huri xanım Hüseyn ağa Şəkixanovun qızı ilə, ustad bərbər Məhərrəm bərbər Əbdürrəhman oğlunun Səkinə bəyim Molla Cumanın oğlu Manafın qızı ilə, Əlican Həsən xan Mirzə bəy Sultanovun oğlunun Səkinə bəyim Şəki bəyərbəyi Əlican Məhəmmədhəsən xanın qızı ilə evlənmələri ilə bağlı nigah müqavilələri öz əksini tapmışdır. Bu dəftərlərdə müəllif Şəkinin görkəmli tanınmış adamlarının nigah müqavilələri ilə yanaşı həmçinin sadə xalqın da nigah müqavilələrini qeyd eləmişdir. Bu mənbəədə həmçinin evlənənlərin mehirləri haqqında da məlumatlar var. Burdaki mehr verilən pulun məbləğlərinə görə həmin dövürdə əhalinin yaşayış səviyyəsinin necə olduğunu söyləyə bilərik. Məsələn:

1. Molla Məhəmməd Qasım hacı Rəsul oğlunun Səadət xanım Əlişan Əbdürrəhman qızına verdiyi mehir 400 manat,
2. Əbdülcəbbar qəssab Həsən oğlunun Tayyibə sərraf Əbdülqaffar qızına verdiyi mehir 200 manat,
3. Ustad Qasım Nuxəvi oğlunun Xeyransa hacı Həsən qızına verdiyi mehir 300 manat,
4. Molla Hüseyn baqqal Feyzulla oğlunun Tayyibə İbrahimxəlil qızına verdiyi mehir 25 manat,
5. Lətif hacı Güllü Nuxəvi oğlunun Mədinə bənna hacı Əhməd qızına verdiyi mehir 150 manat.

"Qazıxana dəftərləri"ndə verilən adlara nəzər salsaq bunların əsasən ərəb mənşəli olduqlarını görərik. Bu da burada yaşayan əhalinin əsasən müsəlmanlar olduqlarını söyləməyə bizə əsas verir.

Yazılı abidədə həmçinin maraqlı ləqəblər də qarşımıza çıxır. Bu ləqəblərə nəzər salsaq görərik ki, onların bir çoxu müxtəlif peşə sahələri habelə ya özlərinin, yada nəsillərinin həyat tərzi

ilə əlaqədardır. Bunlardan bəzilərinə nəzər salaq: Aşbaz Əli, ayaqyalın Abdulla, arabaçı Lətif, bakkal Ağabala, başmaqçı Hüseyn, barıtçı Mahmud, bərbər Məhəmməd, börkçü Abdulla, Banalı Bacı, bənna Salman, Balahacı Hacıağa, bonqçı Kərim, bala Məhəmməd, balaca Mahmud və sairə. (Şərifov, 2008, 11)

"Qazıxana dəftərləri" Şəkinin səhiyyəsinin öyrənilməsində də dəyərli mənbədir. Burada XIX yüzilliyin ikinci yarısında rəhmətə gedənlərin vəfat səbəbləri, hansı xəstəliklərinin olmaları haqqında da məlumat verilir. Mərhumların vəfat səbəblərinə baxarkən Şəki və ətraf ərazilərdə həmin dövürdə ağciyər xəstəliklərinin daha çox yayıldığını görmək olar. Burada ölənlərin əksəriyyəti plevrit, vərəm və sətəlcəmdən rəhmətə getmişdirlər. "Qazıxana dəftərləri"ni oxyarkən bizə aydın olur ki, burada həmçinin yatalaq, ishal, qızdırma va çiçək xəstəliyindən də ölənlərin sayı çox olmuşdur. Məs:

1. Xeyransa Öyüz qızı (Ağa Balaoğlanın arvadı) 80 yaşında yanıqdan
2. Əbdülhüseyin qızı Xədicə plevritdən
3. Hacı Əbdülqadirin xələfi Əbdülvəhab pelevritdən
4. Molla Əhməd Lətif oğlu plevritdən
5. Tükəz Seydəli qızı (dabbağ Hacı Kərimin arvadı) vərəmdən
6. Əslən Zəyziddən olan hacı Əzizin qızı uşaq doğumundan
7. Tükəzban xanım hacı Allahveri bəyin qızı qocalıqdan
8. Mədinə hacı Qasım Nuxəvinin arvadı uzun sürən xəstəlikdən v.s. vəfat etdikləri bildirilir.
9. Molla Nurməhəmmədin qızı Əminə ciyər xəstəliyindən 25 yaşında.
10. Xeyransa Öyüz qızı yanıqdan 80 yaşında.
11. Haşimin qızı Rəbiə xəstəlikdən 70 yaşında.

Burada 1871-ci ildə Şəkidə kütləvi xəstəliyin yayılması da qeyd edilir. Qazıxana dəftərlərində verilən məlumatda ölənlərin böyük bir hissəsinin yanıqdan öldüyünü görərik.(Şərifov, 2008, 12)

Həmin dövürdə Şəki əhalisinin çox hissəsi 80 il ömür sürsə də burada 90, 100 hətta 120 yaşında rəhmətə gedənlərdə olmuşdur.

"Qazıxana dəftəri"nə əsasən Şəki əhalisinin tərkibini nəzər saldıqda görərik ki, əhalinin tərkibi yalnız Şəki deyil həmçinin Şəki ətrafı kəndləri də əhatə edir. Bunlardan bəzilərinə nəzər salaq:

1. Ağdaş
2. Baltalı
3. Baltalı boğaz
4. Balakən
5. Cuvarlı
6. Dəvəçi
7. Köynük
8. Kişqışlaq
9. Küngüt
10. Kərbay
11. Qarabağ
12. Qaraqoyunlu
13. Ləkid
14. Nut

15. Şamaxı

**Nəticə**

“Qazıxana dətrləri”ndə həmçinin Şəki və onun ətyafında yerləşən məscilər haqında da məlumatlar almaq mümkündür.

“Qazıxana dəftərləri”ndəki məlumatlar yalnız Şəki əhalisi deyil həmçinin onun ətrafındakı çoğrafi bölgəni də əhatə edir. Sözü gedən kitabda əhalinin hansı peşə ilə məşğul olduqları haqqında əhatəli məlumat əldə edilir. Buradaki insan adlarından yola çıxraq əhalinin etnik mənşəyi haqqında da fikirlər söyləmk mümkündür. Bundan başqa burada Əbdülqəni Nuxəvi evlənənlərin siyahısı ilə yanaşı həmçinin onların verdikləri mehirlərin miqdarı haqqında da məlumat vermişdir. Bu məlumatlar isə həmin dövürdə Şəki və onun ətraf bölgələrində əhalinin maddi vəziyyətinin, gəlirlərinin hansı səviyyədə olduqlarını söyləməyə imkan yaradır. Burada məhəllələrin adlarına nəzər saldıqda əhalinin hansı peşələrlə məşğul olduğu məlum olur.

Bütün bunlar “Qazıxana dəftərləri”nin həmin dövrün tadqiqatçıları üçün əvəzsiz mənbə olduğunu bir daha sübut edir.

**Ədəbiyyat siyahısı**

Kamandar Şərifli. “Əsərləri” I cild, Bakı, 2019, 403 s.
Kamandar Şərifli. “Qazıxana dəftəri.” Bakı, Nurlan, 2008, 161 s.

**Sevda Muradova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: sevda.muradova.78@list.ru*
*ORCİD: 0009-0009-9448-749X*

# SİRACƏDDİN URMƏVİNİN "MƏTALİ ƏL-ƏNVAR FİL-MƏNTİQ VƏL-HİKMƏ" ƏSƏRİ VƏ ONA HƏSR OLUNMUŞ ŞƏRHLƏR, HAŞİYƏLƏR

**Xülasə**

XII-XIII əsrlərdə yaşayıb-yaratmış Siracəddin Urməvi zəngin və çoxcəhətli elmi fəaliyyəti, dini-etik və fəlsəfi baxışları ilə dünya mədəniyyəti tarixində ciddi rol oynamışdır. Siracəddin Urməvi orta əsrlərdə bəşər elmi-fəlsəfi fikrini zənginləşdirmiş dahi şəxsiyyətlərdəndir. Onun məntiq və fəlsəfəsi ilə birlikdə mütərəqqi sosial-siyasi və etik fikirləri dərin elmi məzmununa görə, nəinki yaşayıb-yaratdığı dövrdə seçilmiş və sonrakı yüzilliklərdə də yaradıcılıq irsi ilə örnək olmuşdur.

Siracəddin Urməvi özündən sonra zəngin elmi irs qoyub getmişdir. O, məntiq, fiqh, kəlam, fəlsəfə və digər elm sahələrinə dair qələmə aldığı əsərləri ilə nüfuz qazanmışdır. Siracəddin Urməvinin fəlsəfəyə və məntiqə aid "Mətali əl-ənvar fil-məntiq vəl-hikmə" traktatı ən çox yayılmış və hələ orta əsrlərdə böyük şöhrət qazanmış əsərlərindəndir. XIX əsrə qədər əsər Yaxın və Orta Şərq ölkələrində dərs vəsaiti kimi tədris olunmuşdur. Siracəddin Urməvinin "Mətali əl-ənvar" əsəri Şərq ölkələrində geniş miqyasda yayılaraq, alimlərin diqqətinin özünə cəlb etmiş və ayrı-ayrı alimlər tərəfindən ona bir sıra şərhlər yazılmışdır. Siracəddin Urməvinin "Mətali əl-ənvar" əsərinə yazılmış şərhlərin orta əsr əlyazma nüsxələri Şərqdə və Qərbdə dünyanın aparıcı muzey və kitabxanalarında mühafizə olunmaqdadır. Siracəddin Urməvinin "Mətali əl-ənvar" əsərinə yazılmış şərhlərin ayrıca olaraq araşdırılması fəlsəfə fikir tariximizin öyrənilməsi baxımından olduqca zəruridir.

***Açar sözlər:***

# SİRAJADDIN URMAVI'S "MATALI AL-ANWAR FIL-MANTIQ WAL-HIKMA" AND ITS DEDICATED COMMENTARIES AND FOOTNOTES

**Abstract**

Sirajaddin Urmavi, who lived and created in the 12th-13th centuries, played a significant role in the history of world culture with his rich and multifaceted scientific activity, religious-ethical and philosophical views. Sirajaddin Urmavi is one of the great figures who enriched human scientific and philosophical thought in the Middle Ages. His progressive social-political and ethical ideas, along with his logic and philosophy, were chosen not only for their profound scientific content in the period in which he lived and created, but also served as an example in subsequent centuries with his creative legacy.

Sirajaddin Urmavi left behind a rich scientific legacy. He gained fame with his works on logic, jurisprudence, theology, philosophy, and other fields of knowledge. Sirajaddin Urmavi's treatise on philosophy and logic, "Matali al-anwar fil-mantig wal-hikma," is one of the most widely distributed works and gained great fame in the Middle Ages. Until the 19th century, the work was taught as a textbook in the Near and Middle Eastern countries. Sirajaddin Urmavi's "Matali al-

anwar" was widely distributed in Eastern countries, attracting the attention of scholars, and a number of commentaries were written on it by individual scholars. .Medieval manuscripts of commentaries on Sirajaddin Urmavi's "Matali al-anwar" are preserved in the world's leading museums and libraries in the East and West. A separate study of the commentaries written on Sirajaddin Urmavi's "Matali al-anvar" is extremely necessary in terms of studying the history of our philosophical ideas.
***Key words:***

**Giriş**

Orta yüzilliklərdə Azərbaycanın qabaqcıl alimləri islam mədəniyyəti, fəlsəfə və ilahiyyat elmlərinin inkişaf etdirilməsində böyük rol oynamışlar. Onların qələmə aldıqları əsərlər bu və ya başqa elm sahələrinin tərəqqi tapmasına ciddi təsir göstərmişdir. Belə alimlərdən biri də görkəmli Azərbaycan mütəfəkkiri Siracəddin Mahmud bin Əbu Bəkr bin Əhməd bin Həmid Urməvidir.

Siracəddin Urməvidən bəhs edərkən XX əsrin 60-cı illərindən elmi yaradıcılığa başlayan, milli fəlsəfi irsimizin əvəzsiz araşdırıcısı, AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor mərhum Zakir Məmmədovun adı xüsusi vurğulanmalıdır. Zakir Məmmədovun yaradıcılığının şah əsəri olan və ilk nəşri 1994-cü ilə aid "Azərbaycan fəlsəfəsi tarixi" kitabında Siracəddin Urməvinin fəlsəfi görüşləri haqqında hissə mövcuddur. "Siracəddin Urməvinin dünyagörüşü" kitabında "Siracəddin Urməvinin dövrü və yaradıcılıq irsi", "Siracəddin Urməvinin fəlsəfəsi", "Siracəddin Urməvinin məntiqi", "Siracəddin Urməvinin sosial-siyasi və etik görüşləri" adlı dörd fəsil vardır.

**Əsas mətn**

XII-XIII əsrlərdə yaşayıb-yaratmış Siracəddin Urməvi zəngin və çoxcəhətli elmi fəaliyyəti, dini-etik və fəlsəfi baxışları ilə dünya mədəniyyəti tarixində ciddi rol oynamışdır. Nisbəsindən də məlum olduğu kimi o, Urmiyada dünyaya gəlmiş, orada boya-başa çatmışdır. O, ibtidai təhsilini Urmiyada aldıqdan sonra elmlərə daha dərindən yiyələnmək üçün Mosula getmiş orada fiqh, məntiq, fəlsəfə, kəlam və başqa elm sahələri üzrə mükəmməl təhsil almışdır. Siracəddin Urməvi Şafii, həm də Hənəfi məzhəbləri üzrə fiqh təhsili almışdi. Bağdad, Hələb və Əndəlüs alimləri bu sahədə qarşılaşdıqları məsələlər barədə ona müraciət etmişlər.

Mosulda təhsil aldıqdan sonra müəyyən müddət Dəməşqə və Kiçik Asiyaya köç etmişmdir. Mosul şəhərində müsəlmanlar, yəhudilər və xristianlar birlikdə yaşayırdılar. Siracəddin Urməvi hər üç dinin mənbələrinə yaxşı bələd idi. Mənbələrdə qeyd olunur ki, onun müəllimlərindən biri olan Kəmaləddin Musa ibn Yunis (v/t h.639/1241) Tövratı yəhudi, İncili isə xristian alimlərindən daha müfəssəl şərh edirdi. Siracəddin Urməvi müəlliminin bu biliklərini əxz etmiş, buna görə də məhz xristan dininə və mədəniyyətinə yaxından bələd olduğu üçün Siracəddin Urməvi, Əyyubi Sultanı Nəcməddin Əyyubun dövründə (1240-1249) sultanın elçisi kimi 7-ci səlib yürüşünə başçılıq etmiş Fransa kralı IX Lüdovikin (1214-1270) sarayına getmişdi. Urməvi həmçinin imperatora məntiq haqqında bir kitab ithaf etmişdi. Bu baxımdan onun alim-bürokrat statusuna malik olduğunu demək olar (multikulturalizm.gov.az).

Siracəddin Urməvi bir müddət Misirdə yaşamış, orada dövrünün qabaqcıl alimləri ilə elmi diskusiyalar aparmışdır. Əvhaddüdin əl-Kirmaninin tələbəsi olmaq və onunla görüşmək üçün Malatyaya gedən Siracəddin Urməvi, Səlcuq sultanı Ələddin I Keyqubad tərəfindən mədrəsəyə baş müəllim təyin edilmişdi. Siracəddin Urməvi 1240-cı ilin ortalarından başlayaraq Konya şəhərinin qazısı, ardınca isə Səlcuq dövlətinin baş qazısı kimi fəaliyyətini davam etdirmişdir. Onun Konyaya gəlməsinin əsas səbəbinin monqol işğalı olduğu bildirilir. Konyaya gəldikdən sonra

şöhrət qazanması bu dövrə təsadüf edir. Siracəddin Urməvi təlim-təhsil, elmi yaradıcılıq və çoxlu səfərlərlə zəngin olan bir həyat sürmüşdür. Məhəmməd bin Əbdürrəhman bin Məhəmməd əş-Şeyx Səfiəddin Urməvi onun şagirdi olmuşdur (Şərifli, 2018: 162). Ümumiyyətlə yaşadığı dövrdə Siracəddin Urməvi vətəni Azərbaycandan başqa İraq, Suriya, Misir, Anadolu kimi müxtəlif bölgələrə səfərlər etmiş, bu bölgələrin mədəniyyəti ilə yaxından tanış olmuşdur.

Siracəddin Urməvi orta əsrlərdə bəşər elmi-fəlsəfi fikrini zənginləşdirmiş dahi şəxsiyyətlərdəndir. Onun məntiq və fəlsəfəsi ilə birlikdə mütərəqqi sosial-siyasi və etik fikirləri dərin elmi məzmununa görə, nəinki yaşayıb-yaratdığı dövrdə seçilmiş və sonrakı yüzilliklərdə də yaradıcılıq irsi ilə örnək olmuşdur.

Siracəddin Urməvi özündən sonra zəngin elmi irs qoyub getmişdir. O, "Mətali əl-ənvar fil-məntiq vəl-hikmə", "Bəyan əl-haqq fil-məntiq vəl-hikmə", "Şərh əl-işarət vət-tənbihat fil-məntiq vəl-hikmə", "Mənahic fil-məntiq vəl-hikmə", "ər-Rəsail fi-ilmil-cədəl", "Təhzib ən-nukat fi ilm əl-cədəl", "Lətaif əl-hikmə fil-məntiq", "Şərh əl-mucəz fil-məntiq", "Ərbəin fi üsuldin", "Ləvamiül-mətali", "Risalə fi əmsilətittəarüd fi üsul əl-fiqh", "əl-Əsilə", "ət-Təhsil minəl-məhsul", "Müxtəsər əl-məhsul", "Şərh əlvaciz lil-Qəzali" kimi fəlsəfəyə, məntiqə və fiqhə aid traktatların müəllifidir (islam ansiklopedisi, c.37, 2009: 263).

Orta əsrlərdəki elmi mənbələr təsdiq edir ki, o, bütün elm sahələrində şöhrət qazanmışdır. Onun ən məşhur əsəri məntiqə və fəlsəfəyə dair yazdığı "Mətali əl-ənvar" və "Lətaif əl-hikmə fil-məntiq" adlı iri həcmli əsərləridir. Siracəddin Urməvi "Mətali əl-ənvar"ı yazdıqdan qısa müddət sonra əsər İran, Dəməşq, Misir və Anadolunun elmi dairələrində geniş populyarlıq qazanaraq, böyük maraq doğurmuşdu. Müəllif hələ sağ ikən müxtəlif bölgələrdə əsərin oxunması və tədqiqi başlamışdı. "Mətali əl-ənvar" əsəri Fateh Sultan Məhmədin sifarişi ilə Hızır Bəy tərəfindən bəzi əlavələr edilərək fars dilinə tərcümə edilmişdir.

Siracəddin Urməvinin Fəxrəddin ər-Razinin yolunu davam etdirən bir alim kimi inkişafı; metodologiya və fikir ayrılıqları sahələrində iz buraxan əsərlər yazması; diplomat kimi müxtəlif dinlərin üzvləri ilə qurduğu yaxşı münasibətlər; hətta sonradan polemikalara səbəb olan fəlsəfi mövqeyi də əsasən müəllimi İbn Yunusun və dostu Əfdəluddin Hünəcinin intellektual təsirləri ilə əlaqələndirilə bilər. O, "Mətali əl-Ənvar" və "Bəyan əl-haqq fil-məntiq vəl-hikmə" əsərlərinin məntiq bölmələrində Əfdəluddin Hünəcinin "Kəşf əl-Əsrar" əsərinin sistemli yanaşmasını izləmiş və "əl-Mücəz" əsərinə "Şərh əl-mucəz fil-məntiq" adlı şərh yazmışdır. Digər tərəfdən, bu və oxşar əsərlərin məzmununu strukturlaşdırarkən o, İbn Sinanın "Şifa" və "İşarət", Fəxrəddin ər-Razinin "Mülahhas", Əbu əl-Bərəkət əl-Bağdadinin "əl-Mütəbər" və Əbu Həmid Qəzalinin "İhya" əsərlərindən əhəmiyyətli dərəcədə istifadə etmişdir.

Müəllif "Mətali əl-Ənvar" əsərində Qurani-Kərimə, Məhəmməd peyğəmbərə (s.ə.s) istinad edərək, cəmiyyətdəki problemlərin həll olunmasını, insanların xarakterinin dəyişilə bilməsinin mümkün olduğunu vurğulayır. Siracəddin Urməviyə görə, hər bir şəxsin xarakteri müəyyən qədər dəyişə və cəmiyyətdəki proseslər də tənzimlənə bilər. O, ağlın, intellektin kainatın prinsiplərinə uyğun olaraq formalaşması zərurətini irəli sürür. Belə olduğu halda bu ağıl cəmiyyətin mənafeləri ilə öz mənafeləri arasında bir ahəng axtaracaqdır.

Siracəddin Urməvi əsərdə tərbiyə sisteminə mühüm əhəmiyyət verir. Cəmiyyətdə tərbiyə sisteminin, maarifləndirmənin nə dərəcədə mühüm olduğunu önə çəkir. Aydındır ki, hər kəs təbii qanunauyğunluqla doğulur. Yalnız tərbiyə sistemi onları fərqləndirir və ya cəmiyyətdə qarşıdurmaların yaranmasına səbəb olur.

Fəxrəddin ər-Razinin fəlsəfi-teoloji mövqeyinin və məntiqi düşüncəsinin davamçısı olan Siracəddin Urəməvi, xüsusilə də "Mətali əl-Ənvar" əsəri, şərhləri və haşiyələri ilə Osmanlı məntiqi

ənənəsinə təsir göstərmişdir. Xüsusilə də onun kitabının mədrəsə tədris planına daxil edilməsi onun daxilində müzakirə olunan problemlər haqqında düşünməyə, təhlil etməyə və risalələrin yazılmasına səbəb olmuşdur. Əsər uzun illər Osmanlı mədrəsələrində tədris olunmuşdur. Onun ideyaları tələbələri tərəfindən yaxşı mənimsənilmiş eyni zamanda Osmanlı məntiqinə, fəlsəfəsinə və ilahiyyat ənənəsinə təsir göstərmişdir. Bir sözlə, Siracəddin Urməvinin Osmanlı məntiqinin formalaşmasına verdiyi töhfə əsasən onun "Mətali əl-ənvar" əsəri və onun şərhləri və haşiyələri vasitəsilə olmuşdur. Siracəddin Urməviyə görə, insan məntiq qaydalarına əməl etdiyi halda həm düşüncədə, həm də fikirdə səhvlərdən qoruna bilər (Akkanat, 2017: 14).

Əsər nəinki Osmanlı da Yaxın və Orta Şərq ölkələrində də XIX əsrə qədər mədrəsələrdə dərs vəsaiti kimi tədris olunmuşdur. Buna görə də əsərin əlyazma nüsxələri Avropa, Asiya, Şərq ölkələrinə geniş yayılmışdır.

Siracəddin Urməvinin "Mətaliul-ənvar" Şərq ölkələrində geniş miqyasda yayılaraq, alimlərin diqqətinin özünə cəlb etmiş və ayrı-ayrı alimlər tərəfindən ona xeyli şərhlər və haşiyələr həsr olunmuşdur. Katib Çələbi özünün məşhur "Kəşf əz-Zunun" adlı ensiklopedik əsərində "Mətaliul-ənvar"ın elm aləmində tutduğu mövqey və ona yazılmış şərhlər və haşiyələr haqqında əhatəli məlumat verir.

Əsərə müraciət ertmiş alimlərdən misal olaraq Qütbəddin Əbu Abdullah Məhəmməd bin Məhəmməd ər-Razi ət-Təhtani (v/t h.706/1306-1307) "Ləvamiul-əsrar fi şərhi mətali əl-ənvar", Əbulhəsən Əli bin Məhəmməd bin Əli Seyyid Şərif əl-Cürcani əl-Hənəfi (v/t h.816/1413) "Haşiyə alə şərhi mətali əl-ənvar", Əhməd bin Süleyman Kamal Paşa (v/t h.940/1533), Cəlaləddin Məhəmməd bin Əsəd əd-Dəvvani (v/t h.908/1502), Şəmsəddin Əbus-Səna Mahmud bin Əbdürrəhman əl-İsfahani (v/t h.749/1348) "Tənvirul-mətali", Ələddin Əli ət-Tusi "Şərhu mətali əl-ənvar", Seyfəddin Əhməd əl-Əbhəri "Şərhu Mətali əl-ənvar", Sıdki əl-Əsfərabadi Məhəmməd Sultan (v/t h.952/1545-46) "Şərhu Mətali əl-ənvar", Nəsirəddin Ələddin Əbulhəsən Əli bin Nəsr əl-Hicazi (v/t h.916/1510) "Şərhu Mətali əl-ənvar", Rukniddin Həsən bin Məhəmməd bin Şərəfşah əl-Hüseyni əl-Astarabadi (v/t h.710/1310) "Şərhu mətali əl-ənvar", Kurtüddin ər-Razi (v/t h.766/1364) "Lavami əl-əsrar", Bədrəddin Məhəmməd bin Əsəd əl-Yəməni ət-Tüstəri (v/t h.737/1337) "Şərhu həlli əqdi mətali əl-ənvar" və başqa alimləri göstərmək olar. Bu əsərə şərh və haşiyələr yazanlar sırasında iki azərbaycanlı alimlər də vardır. Onlardan biri Şəmsəddin Məhəmməd bin Şihab Şirvani (v/t h.892/1487), digəri isə Əbdürrəhim Şirvanidir (v/t h.1134/1722). Onların hər ikisi dövrünün tanınmış alimləri olmuşlar (Çələbi, c.II, 1941:1715-1717).

Siracəddin Urməvinin "Mətali əl-ənvar" əsərinə yazılmış şərhlərin orta əsr əlyazma nüsxələri Şərqdə və Qərbdə dünyanın aparıcı muzey və kitabxanalarında mühafizə olunmaqdadır. Yazılı abidələrimizin yorulmaz tədqiqatçısı professor Kamandar Şərifli bu haqda ilkin sistemləşdirilmiş bilgilər verir. Həmin əlyazmalar Səudiyyə Ərəbistanındakı Kral Əbdüləzizin ümumi kitabxanasında, Misirin "İskəndəriyyə" kitabxanasında, "Zeydan" kitabxanasında, Paris Milli kitabxanasında, Qahirənin "Dərül-kutub vəl-vəsaiqül-qaumiyyə" kitab xəzinəsində, Londonun "Hind" mərkəzində, London kitabxanasında, Berlin kitabxanasında və başqa mərkəzlərdə, kitab xəzinələrində mühafizə edilməklə bərabər, həm də araşdırılaraq nəşr edilir. Misal olaraq göstərmək olar ki, "Mətali əl-ənvar" əsərinə Qütbəddin ər-Razinin yazdığı şərhə Seyyid Şərif əl-Cürcaninin həsr etdiyi böyük həcmli, mükəmməl haşiyə iki dəfə nəşr olunmuşdur. Birinci dəfə 1885-ci ildə İstanbulda, 1896-cı ildə isə Tehranda nəşr olunmuşdur (Şərifli, 2018: 163). Əsərin məntiqə dair hissəsinin əlyazma nüsxəsi Qahirədə Xədiviyyə kitabxanasında

mühafizə olunur. Əlyazması Siracəddin Urməvinin sağlığında h.1278 (1861-62)-ci ilin iyul ayında Konya şəhərində xəttat İsmayıl ibn Xəlil tərəfindən köçürülmüşdür.

**Nəticə**

Orta yüzilliklərdə Azərbaycan xalqının yaratdığı elmi və ədəbi irs özünün zənginliyi ilə fərqlənir. Bu zəngin irs çağdaş tədqiqatçılarımız tərəfindən müntəzəm surətdə araşdırılaraq elm aləminə və geniş oxucu kütləsinə çatdırılır. Heç də həmin araşdırmalar bütün sahələrdə eyni dərəcədə aparılmır. Əgər ədəbiyyat, dilçilik, tarix və s. sahələrdə aparılan intensiv araşdırmalar elmi və kütləvi nəşrlərdə daha çox işıqlandırılsa, bu hal elmi-fəlsəfi fikir tarixinin öyrənilməsi sahəsində o qədər nəzərə çarpmır. Bu baxımdan, Siracəddin Urməvinin "Mətali əl-ənvar" əsərinə yazılmış şərhlərin ayrıca olaraq araşdırılması fəlsəfə fikir tariximizin öyrənilməsi baxımından olduqca zəruridir.

**Ədəbiyyat siyahısı**

Akkanat, H. (2017) "Kâdî Sirâcuddîn el-Urmevî ve Okulu,". Selçuklu Kadılarından Siraceddin el-Urmevî Sempozyumu Bildirileri, 327, s. 9-22.
Şərifli, K. (2018). Əlyazmalar Yanmır, № 2 (7), 207, 160-164.
Çələbi, K. (1717). Kəşf əz-Zunun, (2 cilddə), c.II. Beyrut.
İslam ensiklopedisi,(2009), (44 cilddə), c.37, İstanbul.
https://multikulturalizm.gov.az/storage/Publications/azerbaycan_multikulturalizminin_elmi_4d0f03.pdf

**Sevinc Rəhnulla**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: sevindj.rahnulla@mail.ru*
*ORCİD: 0000-0002-4395-5806*

# TATAR VƏ BULQAR TÜRKLƏRININ MƏŞHUR XANIMLARI
## (Rzaəddin bin Fəxrəddinin "Məşhur xanımlar" əsəri əsasında)

**Xülasə**

Məqalədə Rzaəddin bin Fəxrəddinin "Məşhur Qadınlar" əsəri əsasında Şimali Türk tarixinin sosial, siyasi və mədəni həyatındakı qadınların rolu təhlil edilir. Qadınların yalnız ailə həyatı ilə məhdudlaşmadığı, dövlət idarəçiliyində, təhsil fəaliyyətlərində və ədəbi yaradıcılıqda fəal iştirak etdiyi vurğulanır. Süyun Bikə kimi tarixi şəxsiyyətlər qadınların siyasi təsirini və liderlik qabiliyyətlərini nümayiş etdirir. Eyni zamanda, Zəhra Qaspıralı kimi intellektual qadınlar təhsil, jurnalistika və ictimai maarifləndirmə işlərində mühüm rol oynamışlar. Məqalədə həmçinin qadınların xeyriyyəçilik fəaliyyətləri, sosial məsələlərə münasibəti və milli və mənəvi dəyərlərin qorunmasına verdiyi töhfələr vurğulanır. Ümumilikdə, qadınların ictimai inkişafda fəal və təsirli mövqe tutduğu və əhəmiyyətli tarixi rol oynadığı qənaətinə gəlinir.
***Açar sözlər:*** *Rzaəddin bin Fəxrəddin, "Məşhur xanımlar", Türk xalqları, qadınların rolu*

# FAMOUS LADIES OF THE NORTHERN TURKISH PEOPLE
## (Based on the work "Famous Ladies" by Rzaeddin bin Fakhraddin)

**Abstract**

The article analyzes the role of women in the social, political and cultural life of Northern Turkic history based on the work of Rzaeddin bin Fakhreddin "Famous Women". It is emphasized that women were not limited to family life, but actively participated in state administration, educational activities and literary creativity. Historical figures such as Süyun Bıkı demonstrate women's political influence and leadership abilities. At the same time, intellectual women such as Zahra Gaspıralı played an important role in education, journalism and public enlightenment. The article also emphasizes women's charitable activities, attitude to social issues and contributions to the protection of national and spiritual values. In general, it is concluded that women have an active and influential position in social development and have played an important historical role.
***Key words:*** *Rzaeddin bin Fakhreddin, "Famous Ladies", Turkic peoples, the role of women*

## Giriş

Rusiya müsəlmanlarının həyatında dərin izlər buraxan, bulqar-tatar müsəlmanlarının oyanış dövrünün ən boüyük alimlərindən, bölgənin milli tarixi və mətbuatının inkişafında böyük xidmətləri və saysız əsərləri ilə tanınan tarixçi, maarifpərvər, jurnalist Rzaəddin bin Fəxrəddin 12 yanvar 1859-cu ildə Tatarıstanın Əlməd rayonuna 12 km məsafədə olan Bügülme mahalının Küçiçat kəndində dünyaya gəlmişdir. İlk təhsilini indiki Leninaqorskdə olan Silçeli kəndində almış, 1889-cu ildə İlbek kəndində imamalıq və müəllimlik etmişdir. O, 1891-ci ildə Orebburq Ruhani İdarəsinə qazi seçildi, elə həmin il də axundluq rütbəsi alaraq Ufaya köçdü.

Onun dünya görüşü, islahatçi fikirləri 1888-ci ildə Peterburqda görüşdüyü tatar nəqşbəndi sufi alimi, filosof, tarixçi, şərqşünas, müəllim Şihabəddin Mərcaninin əsərləri və mütəmadi olaraq məktublaşdığı İsmayıl bəy Qasprinskinin "Tərcüman" qəzetinin təsiri altında formalaşmışdır.

Rzaəddin bin Fəxrəddinin 1897-ci ildən başalayaraq müxtəlif əsərləri nəşr olunmağa başlamış, 50-dən çox din, əxlaq, tədris, biblioqrafiq, tarixi əsərlərin müəllifi olmuşdur. Bunlaradan Asar, İbn Rüşd, Əbu Əla əl-Məərri, İbn Qəzzali, İbn Teymiyyə, İbn Ərabi, Bolqar və kazan türkləri, Altunorda xanları, Kazan xanları, Kitabul etibar, Tərbiyəli bala, Tətbiyəli xatun, Tərbiyəli ana, Tərbiyəli ata yaiki qiraəti türki, Rusiya müsəlmanları ehtiyacları və onlar haqqında intiqad", "Din və ictimai məsəslələr", "Ailə", "Nəsihət" və başqalarını göstərmək olar. O, 1906-cı ildən qazılıqdan istefa verərək "Şura" qəzetinin nəşrinə başladı, bir çox qəzet və jurnallarda məqalələr çap etdirdi. 1918-ci ildən yenidən qazı, 1922-ci ildən isə müfti seçildi. Müftilik məqamında böyük maddi sıxıntılar içərisində yaşayaraq 12 aprel 1936-cı ildə vəfat etdi (Кутушев,1988:55). Onun Rusiya Elmlər Akademiyası Ufa Elmi Mərkəzinin Elmi arxivində hər biri 600 vərəqdən ibarət 40 əlyazma əsrləri qorunub saxlanılır.

XX əsrin əvvəllərində Rusiya imperiyasında türk xalqlarının azadlığı, təhsili və maariflənməsi uğrunda mübarizə aparan ziyalılardan biri də Rzaəddin ibn Fəxrəddin olmuşdur. Böyük türk alimi Ziya Göyalp "Türkçülüyün əsaları" və Nadir Devlətin Ankarada dəfələrlə çapdan çıxmış "Rusiya türklərinin milli mücadilə tarixi" adlı məhşur əsərlərində "şimal türkləri" arasında yetişmiş vətənpərvər ziyalılar sırasında Rzaəddinin bin Fəxrədinin həyat və fəaliyyətini xüsusi yer ayırmışlar.

**"Məşhur xanımlar"**

Tarix boyu ictimai və siyasi həyatda müəyyən mövqe tutmuş qadınlar bir çox şifahi və yazılı abidələrdə: Məhəmməd Zehni əfəndinin "Məşahirün-nisa", Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-hesan", Bəhriyyə Uçokun "Müsəlman dövlətlərində qadın-hökmdarlar" və başqa əsərlərdə yaşayırlar. Rzaəddin b. Fəxrəddinin qələmə aldığı belə dəyərli əsərlərdən biri də "Məhşur xatunlar" əsəridir. 1904-cü ildə çapdan çıxmış tarixi materiallarla zəngin olan kitabda Yaxın Şərqin tarixində, mədəniyyətində müəyyən rol oynamış hökmdar, şair, pedaqoq, ədib, mühəddis (hədis rəvayət edən), müəllif, mühərrir (yazıçı), səyahət edən, bahadır və sair ünvanlarla məhşur olan xanımlar haqqında çox maraqlı məlumatlar əks olunub. Müəllif kitabın əvvəlində qeyd edir ki, onu qızı Zeynəb üçün yazmışdır (Fəxrəddin, 1904:1*)*. Kitab ərəb əlifbası ilə kazan tatarları türkcəsində yazılmışdır. Kitab adların ərəb əlifabasına əsasən sıralanması ilə təqdim olunmuşdur.

Şimal tüklərinin böyük şəxsiyyəti: ziyalı-alim, jurnalist, yazıçı, şair, qazı, siyasətçi, yaradıcı, pedaqoq, filoloq, tarixçi Rzaəddin b. Fəxrəddinin (Ахмеров, 2000: 301) qələmə aldığı dəyərli əsərlərdən biri də "Məşhur xanımlar" (Fəxrəddin, 1904: 447) əsəridir. 1904-cü ildə çapdan çıxmış tarixi materiallarla zəngin olan kitabda Yaxın Şərqin tarixində, mədəniyyətində müəyyən rol oynamış hökmdar, şair, pedaqoq, ədib, mühəddis (hədisçi), müəllif, mühərrir, səyahət edən, bahadır və sair ünvanlarla məşhur olan xanımlar haqqında çox maraqlı məlumatlar əks olunub.

Əsər, həmçinin müsəlman-türk cəmiyyətlərində qadınların təhsil alması, ictimai proseslərdə iştirak etməsi və öz hüquqlarını dərk etməsi məsələlərinin aktuallaşdığı bir dövrün məhsuludur. Fəxrəddin bu kontekstdə tarixə müraciət edərək sübut etməyə çalışır ki, qadınların fəallığı və liderliyi yeni bir anlayış deyil, əksinə, türk-islam tarixində köklü ənənələrə malikdir. O, müxtəlif coğrafiyalardan – o cümlədən şimal türklərinin yaşadığı bölgələrdən olan qadınları seçərək bu

fikrini əsaslandırır. Əsər şimal türklərinin ictimai-mədəni tarixində qadınların rolunu öyrənmək baxımından zəngin faktoloji material təqdim edir. Əsərdə müxtəlif dövrlərdə yaşamış qadınların həyat yolu və fəaliyyəti təsvir olunmaqla yanaşı, onların cəmiyyətin inkişafına göstərdikləri təsir də sistemli şəkildə təhlil edilir. Bu baxımdan əsər yalnız bioqrafik məlumat mənbəyi deyil, həm də sosial-tarixi araşdırma üçün mühüm material kimi çıxış edir.

Burada təqdim olunan qadın obrazları göstərir ki, şimal türklərinin tarixində qadınlar ictimai həyatın müxtəlif sahələrində fəal iştirak etmişlər. Xüsusilə dövlət idarəçiliyi sahəsində fəaliyyət göstərən qadınlar diqqəti cəlb edir. Məsələn, Süyün Bikə kimi tarixi şəxsiyyətlər yalnız siyasi proseslərin iştirakçısı deyil, həm də müəyyən dövrlərdə mühüm qərarların qəbulunda təsir gücünə malik olmuşlar. Bu fakt qadınların siyasi həyatda passiv rol oynadığına dair stereotiplərin əsassız olduğunu bir daha sübut edir.

Kitabda diqqət çəkən digər mühüm məqamlardan biri qadınların milli-mənəvi dəyərlərin qorunmasında oynadıqları roldur. Onlar ailə və cəmiyyət daxilində bu dəyərlərin yaşadılması və gələcək nəsillərə ötürülməsi prosesində mühüm vasitəçi kimi çıxış etmişlər. Bu baxımdan qadınlar yalnız ictimai fəaliyyətləri ilə deyil, həm də mənəvi irsin qoruyucuları kimi çıxış etmişlər. Eyni zamanda əsərdə təqdim olunan qadın obrazları onların qarşılaşdıqları sosial və mədəni çətinlikləri də əks etdirir.

"Məşhur xanımlar" əsərinin təhlili göstərir ki, şimal türklərinin tarixində qadınlar cəmiyyətin müxtəlif sahələrində fəal iştirak etmiş, onun inkişafına mühüm təsir göstərmişlər. Onların fəaliyyəti yalnız fərdi nailiyyətlərlə məhdudlaşmamış, eyni zamanda ümumi ictimai tərəqqiyə xidmət etmişdir.

**Süyün bikə**- Qazan şəhərindən olan xanlar sarayında ən məşhur bir xanımdır. Sarayçıq şəhərində olan Yusif Mirzə və bir rəvayətə görə, Yusif xan ibn Musanın qızı olub. 927/1520 tarixində dünyaya gəlmişdir. Çox gözəl və ağıllı bir qız olub, 14 yaşında ikən Canəli xan ibn Allahyar ibn Bəxtiyar ibn Yəqub ibn Məhəmməd xan ismində Qazan xanına nikahlanmışdır. Xan Rusiyada İvanın oğlu knyaz Vasilinin yardımı ilə Qazan taxtına çıxmışdır. H.942/m.1535 –ci il sentyabrın 25-də Canəli xan qazanlılar tərəfindən öldürülməklə Süyün bikə də 16 yaşında ikən dul qaldı. Bu zaman qazanlıların əvvəlki xanları olan Səfa Gəray xan bin Mahmud Gəray xan Krım məmləkətindən Qazana gəlib hökmdar oldu və Süyun bikə onunla evləndi. Səfa Gəray xan ilə ğayət sevgi ilə gün keçirdikləri rəvayət edilir. Süyün bikədən h. 954/m.1547 tarixində Utamiş Gəray bin Səfa Gəray xan dünyaya gəldi. Səfa Gəray xan h.956/m.1549 tarixində vəfat etdikdə vəliəhdi və oğlu Utamiş Gəray iki yaşında uşaq ikən Qazan xanı olmaq nəsib oldu. Bu vaxt məmləkət əmiri anası Süyün bikə tərəfindən icra olunurdu. İkinci dəfə dul qalması 30 yaşlarında olmuşdur. Bu vaxt İvan Qroznı müharibə qəsdi ilə Qazana gəldi. Süyün bikə hər nə qədər atası Yusifdən yardım istədisə də, Yusif Mirzə Moskva dövləti ilə dost olduğunu bəhanə edərək yardım verməmişdir. Qazan əsgəri müharibədə məğlub olub, Süyün bikə oğlu Utamış Gəray xan ilə rus əsgəri tərəfindən əsir alınaraq Moskva şəhərinə aparıldılar. Bu hadisə h.957/m.1551 tarixində idi. Həmin ilin 16 avqustunda Şahəli ibn Allahyar ibn Bəxtiyar ibn Məhəmməd xanı Qazana xan təyin etdilər. Utamış Gəray bin Səfa Gəray Moskva şəhərində xristian məzhəbinə qəbul etdirilib, atalığı da İvan Qroznı özü oldu. Deyirlər bu vaxt Utamış Gəray xan Aleksandr deye adlandırıldı, padşah sarayında xidmətə təyin edildi. Süyün bikəni öz qərarları ilə Şahəli xana ərə verdilər və bu səbələ Qazana qaytardılarsa da aralarında xoş rəftar olmamış, Süyün bikə də Şahəli xanı əsla sevməmişdir. Axırda Süyün bikə Şahəli xan tərəfindən əsir edilərək Moskvaya aparılıb, Rusiya dövlətinə təslim olundu. Bu vaxt ikinci əri olan Səfa Gəray xan məzarına tikdirdiyi camei şərifə gedib vida etdiyi və çox təsirli sözlərlər söyləyib qanlı göz yaşları ilə ağladığı və bir çox beytlər

söylədiyi rəvayət olunur. Moskvaya çatanda çox yaşamayıb kədərindən vəfat etdi, deyirlər. Ən qüvvətli ehtimala görə vəfatı 1557 hicrət ili (964-965) tarixindədir. Bu vaxt yaşı da 50, ya da 50-yə yaxın idi. Qazan şəhərində qala içində olan "Xan məscidi minarəsi" deyə şöhrət tapmış minarə onun tərəfindən bina edilən məscidin minarəsi idi. O, məscid xarab oldiğu halda, minarəsi salamat qalmışdır. Bu gün də mövcud olan qala isə Qazanı zəbt etdikdən sonra ruslar tərəfindən tikilmişdir. Əsl müsəlman xanları vaxtında olan qala bundan neçə dəfə böyük olmuş, viran edilmişdir. Süyün bikə öz ömründə çox və böyük hadisələr görmüş bir xatundur. Əsl ismi Sevinc bikə olub, sonra Süyün bikə, Seyüm bikə ilə şöhrəttapmışdı, deyirlər. Qazan şəhəri Ruslar tərəfdən 1554-cü il 2 oktyabrda, h. ilə 959-c u il 23 şəvval çərşənbə günü zəbt edildi. Bu vaxt da Qazan xanı Yadigar Qasım bin Seyid Əhməd xan idi. O, da 19 yaşında ikən, rusiyalılar tərəfdən əsir alınıb, Moskvaya aparıldı, ora da xristiyan məzhəbinə girməklə Andrey Kutuzovun Mariya adlı qızıyla evləndirildi )Karamzain. [Nikolay Karmzain /1766-1826. Rus tarixçisi və yazıçısı.])

**Sufiyyə** - Qazan xanlarından İlham xan bin İbrahim xan bin Mahmud xan bin Ulu Məhəmməd xanın anasıdır. Ulu Məhəmməd xan Saray xanlığından 839-cu ildə çıxarıldıqda Qazan şəhərində birinci xan olmuşdur. Sufiyyənin oğlu İlham xan Qazan şəhərində İbrahim xandan sonra beşinci xan olaraq taxta çıxmış idi. Təxminən 873-cü ildə İlham xan Rusiyaya qoşun yerib müharibə edib, bu müharibədə özü, qardaşı və anası Sufiyyə ruslar tərəfindən əsir alınaraq Voloqda şəhərinə, yaxud Beloozeroya apardılar və orada vəfat etdilər (Qazan və Qazan xanları xüsusunda olan məcmuə və əsərlər (bizim əlimizdə olanlar) çox qarışıq bir haldadır. Müsəlman adlarının ruscaya sonra təkrar müsəlmancaya (türkcəyə) çevriləndə əvvəlki şəkillərindən dəyişildiyi, xanların təkrar taxtdan düşməsi və hakimiyyətə gəlmələri belə qarlışıq düşməsinin birinci səbəbidir. Bu yerdə qeyd edilmiş İlham xanın dövründə Əli xan adında digər bir kəs də göstərilir, Məhəmməd Əmin xan ilə Mamutaq xan (bəlkə bu isimlərin ikisi də bir adamdır) da bir tarixdə göstərilib. İnşəallah bu xüsusda zəhmət çəkərək yare qəmküsarım [dərd ortağım] Həsən Ata əfəndi yanlışları aradan qaldırar. Allah təala müvəffəq etsin).

**Tuy bikə** - Xalqımız arasında rəvayət edilənə görə, öz babalarımızın hökmdarı olan Aydar xan bin Tuqi xanın qızıdır. Onun atası olan Aydar xan "Bolqar" şəhərində hicrinin 9-cu ili balıq bürcü zamanı xan idi. Günlərin birində Tuy bəyim iflic xəstəliyinə mübtəla olub, təbiblər müalicəsində aciz qaldılar. Bu əsnada Rəsuli Əkrəm tərəfindən Bolqara risaləti təbliğ etmək üçün göndərilmiş olan Abdurrahman bin Zübeyr, Zübeyr bin Cadə, Talha bin Osman, yaxud, Hənzələ ibn Ər-Rabi adlı səhabələr ərəb təbibləri sifətində xan sarayına qəbul edilməklə xan qızını müalicə etməyə başladılar. Çox qəribə olaraq qış günündə qayın ağacı yetişdirib, təzə budaqlarından dəstə bağladıb vanna qəbul etdirməklə, Tuy bəyim şəfa tapdı. Bunu gördükdə Xan bütün təbəələri və şəhər əhalisi ilə bərabər müsəlman oldu. Bu hadisə 12–ci ildə ramazan ayının on ikinci gününə, balıq bürcünün iyirmi dördüncü günündə idi. Tuy bəyim də Zübeyr bin Cadəyə yaxud Hənzəl bin Ər-Rabiyə nikahlanmışdır. Bu isə yuxarıda da dediyimizə görə avam insanlar arasında məşhur olan bir xəbərdir. Bunlara görə balıq bürcünün ayında qayın ağacı yetişdirib dəstə düzəltmək deyil, yüz dərəcə od içində həyat ağacı əkib xurma meyvəsi yetişdirmək ehtimalı da heç bir şey deyildir. Bizə görə əsl diqqət ediləcək bir budur ki: Hafiz İzəddin Əbulhəsən Əli bin Məhəmməd Əl-Cəzəri İbn Əl-Əsir Hüffazul İslam əsərində adları qeyd olunan adamlar və səhabələrin tərcümeyi hallarını qeyd etməyi lazım bilmədiyi halda "Usdul Əl-Ğabə fi mərifəti əl-səhabə" adlı mübarək kitabda Təlhə bin Osman, Zübeyr bin Cadə, Hənzəl bin Zübeyr tərcümeyi halında bunun kimi bir hadisədən əsla xəbər verilmir. Tarixe İbn Xəldun və Tarixe Əl-Kamil və başqa əsərlərdə Rəsuli əkrəm həzrətlərinin yazılan yazıları və məktub ilə göndərilmiş elçilərin söylədikləri yerlərdə bu hadisəyə əsla bir işarə yoxdur. Əgər bu xəbər döğru olsa idi, bu qədər diqqətlə tədqiqat aparan

tarix və islam xəbərlərinin ən kiçiklərinə qədər rəvayət etməkdə olan böyük hafizləri belə sevincli xəbəri nə səbəbə xüsusi olaraq qeyd etməyə əhəmiyyət verməmişlər? .....Halbuki, bu vaxta qədər Suriya, İraq, Xorasan məmləkətləri müsəlmanlar tərəfindən fəth edilməmişdi. Mədinə ilə "Bolqar" arasında heç bir tərəfdən yol açılmış deyildir. Bundan əlavə Ramazan ayı balıq bürcünə təsadüf edən illəri 12-ci ildə deyil, 36-cı, 69-cu və 103-cü illərdə idi. 12-ci ilin Ramazanı isə əqrəb bürcünə təsadüf etmişdir. Bununla belə bu xəbərin az da olsa əsli ola bilir. Ehtimal ki, Həzrət Ömər və Osman xilafətində və ya ki, onlardan sonra Ermənivyə, Dərbənd, Şirvan, Tiflis,vilayətlərində olan və Xəzərlər ilə müharibə edən Süleyman bin Rabiya Əl-Bahili, Səraqə bin Ömər, Əbdürrahman bin Rabia Əl-Bahili kimi sərkərdələr tərəfindən xüsusən, xəzərlilər ilə müharibə etdikdə onları həvəsləndirmək və rəğbətləndirmək üçün belə bəzi şəxslər göndərilmiş olur. Bu ehtimala görə onlar səhabələrin məmurları və səhabələrin oğulları ola bilər. İlk halda səhabələr tərəfindən göndərilmiş şəxslər və ya ki, səhabələrin oğulları deyə söylənilmiş, zaman ötdükdə səhabələr deyə tanınmaqları ehtimal olunur. Siyasi istəklərə müvafiq olaraq, yaxud həqiqətən islam fəzilətlərinə uyğun olaraq xan və saray xalqı islama gəlməklə, böyüklərdən kiçiklərə, yaxından uzağa get-gedə avam xalqı qara günə qoyub gümüş qabın içindən qayın yarpağı çıxardıb dəstə bağlamış olurlar. O zamanda deyil, hətta elektrik, buxar işlədici, teleqram və telefon, həm də minlərlə mətbuat, bəni adəm üçün xəbər verdiyi bu gündə də avam camaat arasında olan sözlərə müvəqqəti olaraq beş-on dəqiqə qulaq asılsa, dünyaya sığmaz dərəcədə kəramət və xariquladələr adi işlər kimi söylənilir. Cənab Risalətpənah sultane ənbiya, fəxrul mürsəlin əfəndimiz həzrətləri bütün ömrünü adi insanlar kimi məqsədlərinə bağlı olaraq keçirdirdi. Bəzi vaxtlar müşriklərin əzab və əziyyətlərinə aciz olaraq Taifə qədər getdiyi, düşmənlərin atdığı daşların mübarək ayaqlarından qanlar axıtdığı halda, bizlərdə isə özlərinin ixlas bağlamış adamlarından cənnət nemətlərini dəyərdən salmaqla bərabər ərş, kürsü, lövhüməhfuzu əllərində oyuncaq kimi oynadan adamların hesabı bu qədər. Əgər diqqət etmiş olsaz yerinizdə oturduğumuz halda bunlardan hacət miqdarını hər vaxt tapa bilmirsiz. Buna görə Tuy bəyim hadisəsində belə xariquladə bir xəbərin duyulması əsla inanılmaz deyildir. Düzünü Allah bilər! ...

**Urduca –** Saray (Saray şəhəri Saratov ilə Astarxan arasında İtil (Volqa) çayı üzərində olub, müsəlman xanlar tərəfindən idarə olunurdu. Hal- hazırda viranədir.
Dərvişlərin, müridlərin toplanıb fikirlə məşğul olduqları yer.) xanlarından 741-ci ildə vəfat edən Özbək xan bin Toğrul xanın həyat yoldaşı və İsa bəyin qızıdır. Zahirən yaraşıqlı və dəyanətli bir xanım olub. Öz malından məscid və təkyələr inşa etdirmişdir. Yeddinci əsrin axırında və səkkizinci əsrin əvvəlində yaşamiışdır.

**Bayalun** - Hicrətin səkkizinci əsirdə müsəlman müəlliflərinin toplandığı məşhur "Saray" şəhərində hakimiyyətdə olan Özbək xan bin Töğrul xanın həyat yoldaşıdır. 505–ci ildə səyahəti əsnasında İbn Bətutə bu xanımın hüzuruna qəbul edilib, yemək yemiş, çoxlu hədiyyələrini almışdır. Əsli İstandullu olub bir rum qızıdır. Bir rəvayətə görə İstanbul padşahının qızı imiş. Ata anasını və əsil vətənini ziyarət etmək üçün Kostantinopol şəhərinə gedib, orada vəfat etmişdir. Nəsrani dinində qaldığı, yaxud İslamı qəbul etdiyi məlum olmadı. Özbək özü müsəlman olduğu halda xristian arvadları da olduğu zənn edilir. Keçən illərin birində rus salnamələrində Özbək xan hüzurunda rus ruhaniləri xanıma öz dillərində dua etdiklərini rəsmi dərc etdi. Döğru olduğu təqdirdə bunun kimi arvadları ola bilər.

**Kebek xatun -** Saray padişahlartından Özbək xan bin Toğrul xanın həyat yoldaşı, Əmir Noğatayın qızıdır. Məşhur ərəb səyyahlardan olan İbn Bətutə Saray şəhərinə gələndə onun hüzuruna qəbul olunmuşdur. Bu vaxt Kebek xanım oturub Qurani Şərif oxumaqda və yanında olan iyirmiyə qədər qız şəkil çəkmək və naxış vurmaqda imişlər. (Afərin, oturub buyruğunda olan

xanımları yığıb onların min cür yalanlarını və qeybətlərini dinləməkdə və yanında olan qızlar da saqqız çeynəyib, burunlarını qazıb dayanmırlarmış!..) İbn Bətutə daxil olduqdan sonra çoxlu şeylər soruşmuş, öz əli ilə qımız(At südündən içki ) töküb vermişdir. (Onların adətində padşah xanımlarının əlindən qımız alıb içmək ən böyük və ən nadir kimsələrə müyəssər olurmuş!). İbn Bətutəyə böyük hədiyyələr də bəxş etmişdir. Fəqirlərə mərhəmətli, miskinlərə şəfqətli, qəriblərə ianə edən, dindar, iffətli və təvazökar, hünərli, iş sevən bir xanım olub. Qanun olduğu halda çapatasını (ağac qabığından hörülmüş ayaqqabı) deyil, ayaqqabı da geyməmişdir. Əri Özbək xan 741-ci ildə Saray şəhərində vəfat etdi. (İndi nə şəhər var, nə Özbək, nə İbn Bətutə var nə Kebek!.....Sizlər hara getdiz?! ....Bizlərə cavab verə bilərsinizmi?....)

**Taytuğlu -** Məşhur Özbək xanın sevgilisi və xanımıdır. İbn Batuta "Saray" şəhərinə gələndə onun hüzuruna qəbul olunmuş, və qolundan tutub kımız) içmək kimi böyük və nadir olacaq iltifatlarına nail olmuşdur. Ağıllı, ədəbli, tədbirli, gözəl təbiətli, salehə, iffətli, çox xeyirxah bir xanım idi. Deyirlər ağlı ilə xanı özünə əsir etmişdir. Onunla məşvərət etmədən bir iş görməzdi. Vəfat etdiyində Özbək xan fövqaladə dərəcədə hüzünlü olmuşdur.

**Fatimə Sultan -** Kermanda Ağ Məhəmməd Seyyid bin Bulak Seyyid bin Şahquun qızıdır. Arslanəli bin Əli xan bin Kuçum xan bin Murtəzaəli xana ərə getmişdir. Uraz Məhəmməddən sonra 1023-cü ildə Kirman taxtına əri, 1090-cı il tarixlərində Fatimə Sultan özü oturmuşdur. 1094-cü ildə vəfat edərək Kerman xanlarının sonuncusu Fatimə olmuşdur. Bundan sonra bu yerləri Rusiya dövləti tamamilə idarə etməyə başladı. Fatimə Sultanın oğlu Seyyid Burhan bin Arslanəli üç yaşında 1029-cu ildə Kerman taxtına çıxıb 1065-ci ildə xristianlığı qəbul etməklə Vasili adlandırıldı; əlli səkkiz yaşında ikən 1090-cı ildə vəfat etdi.

**Mərhab -** Qazan nahiyəsində İbrahim bin Yar- Məhəmməd bin İştirak Əl-Qursavinin qızıdır. Məçkərə kəndində Abdullah bin Əbdüssalam bin Odəmişin həyat yoldaşı idi, 1243-cü ildə vəfat etmişdir. Onun törəmələrindən məmləkətimizdə tanınmış müəllim və tacirlər əmələ gəlmişdir. Əllamə Əbu Əl-Nəsr Əl-Qursavi rəhmətullah həzrətlərinin bacısı idi.

**Nur Sultan -** Qazan xanlarından İbrahim bin Mahmud bin Məhəmməd xanın həyat yoldaşı, Abdullətif ilə Məhəmməd Əmin xanların anasıdır. Teymur adlı bir şəxsin qızı idi. İbrahim xanın vəfatından sonra Krım xanlarından Mikli Geray bin Nur Dövlət xan ilə evlənıb Səfa Geray xan dünyaya gəldi. Zəmanəsində bilikli və ağıllı bir xanım olub, hətta dövıət işlərinə və siyasət məsələlərinə fikir verirdi. Belə xüsuslarda Moskva padşahları Üçüncü İvan və Üçüncü Vasili ilə müharibələr etmiş; 918- ci ildə iki oğlu Abdüllətif və Məhəmməd Əmin ilə bərabər Moskva şəhərinə getmişdir. Əri İbrahim 872-ci ildə Qazan taxtına çıxmışdır.

**Zəhra xanım** - Sinbir vilayətində "Akçurin" familiyasına mənsub olan İsfəndiyar adlı bir tacirin qızı və "Tərcuman" qəzetinin sahibi və mühəriri olan İsmayıl bəy cənablarının həyat yoldaşıdır. Qız vaxtı ikən gözəl türkçə, bir az da rusca təhsil almışdır. 1298/1881-ci ildə "Bağçasaray" şəhərində nəşr olunan "Tərcuman" qəzetinin müqəddimələrin bir neçə vərəqlərini görüb, Zəhra xanım bunların mühərriri olan İsmayıl bəy Qaspiralı həzrətlərinə qiyabi məhəbbət və hörmət etmişdir. Həmin ildə isə qardaşı ilə havasını dəyişmək məqsədi ilə Krıma gəlmiş və bir qədər ürəkləri açılmaq üçün gəzintiyə çıxdıqdan sonra əyani olaraq İsmayıl bəy ilə görüşmüşdür. Bundan sonra daim hal-əhval tutmaqda imiş. İsmayıl bəyin millət və maarif yolunda fikir və xidmətlərini anladıqca onun qələmindən tökülmüş damcıların gələcəkdə bir gün çeşmələr oub dörd tərəfə axıb getməyinə inanmaqla İsmayıl bəylə evlənməyə razı olmuşdur. Deyilənlərə görə bu xanım "Tərcuman" qəzeti nəşr olunduqda ilk xidmətçisi olmuşdur. 1300/1883-cü ildə "Tərcuman" qəzeti təsis olunub bütün vilayətlər ilə xəbərləşmə başladığı halda, Volqa (İtil) və Ural tərəfdə olan türk şivəsini İsmayıl bəydən daha gözəl bildiyindən Zəhra xanım yazı işləri ilə mühüm xidmətlər

göstərmişdir. Sözün həqiqi mənasında bəyliyi, sərvəti, böyük rahatlıqları tərk edərək qələmdən başqa malı olmayan bir zata dost olmağı seçməsi, maarif yolunda fədəkar olduğuna dəlildir. Söylənənlərə görə bu arzusu o dəərcədə olmuşdur ki, ata və başqa əqrabalarının qarşı olmalarına baxmayaraq öz əsil vətəni olan Sinbir vilayətini tərk edib Krıma Bağçasaraya köçmüşdür. Malik olduqları az miqdar qızıl və almaz kimi qiymətli əşyasını xərcləyərək mətbəənin mükəmməlləşməsinə və müştərisiz olan bir qəzetin davamına səy etmişdir. Beş-altı il "Tərcuman"nın çatdırılma işlərini və mühasibatlığını təkcə özü yerinə yetirmişdir. Əgər ki, bu işləri pul verərək başqalarını işlətmək lazım olsa idi, qəzet büdcəsi kifayət etməz və bundan da təbii olaraq qəzet davam edə bilməzdi. Rusiya müsəlmanları kimi dünya vəziyyətindən az xəbərli, nəşriyyat aləmi ilə az tanış olan bir qövm arasında "Tərcuman"nın sönməyərək davam etməsi bu qadının xidməti sayəsində olduğu məlumdur. Qəzetin işi bir qədər tərəqqi etdiyi vaxt Zəhra xanım uşaq anası olmuş, amma onların tərbiyəsi ilə məşğul olduğu halda qəzetin idarəsinə nəzarət etməyə yenə də yetişirdi. Əri olan İsmayıl bəy ilə iyirmi il ömür sürdüyü halda özünə adətdənkənar qiymətli geyim yaxud qızıl və qiymətli əşya almasına razı olmamış və evini də övladını da heç kimə tapşırmayıb özü nəzarət etmişdir. Hər nə qədər adı qəzetdə görülmüşdürsə də, xidməti və maarif yolunda olan fövqaladə səyi çoxlarına məlum olduğundan vəfat etdikdə bütün vilayətlərdən ərinə başsağlığı verilən üç yüzə qədər təziyə məktubu yollanmışdır. Özü cismən nadir bir xanım olduğu kimi mənən də səbirli və dindar bir müsəlman olmuşdur. Qəzet işlərinin ən ağır və ən məşəqqətli günlərində hər cür əziyyəti söyləyib cənab Allaha etimad edərək çalışmaq və səbr lazım olduğunu və belə olan işlərin heç vaxt yarı yolda qalmayacağını söyləyərək ərinə təsəlli verirmişdir. "Hər bir böyük kimsənin tərcümeyi halını alıb oxuyun hər vaxt böyüklüyə yol hazırlayıb və kölnünü xöşbəxtlik və cəsarətə sövq etməkdə olan bir xanımı onun yanında görürük!"

O, 1319/1903-cü ildə 13 aprel şənbə günü axşam vaxtı rəhmətə gedərək "Bağçasaray"da Zəncirli mədrəsəsinin məqbərəsində Məngli Gəray xan türbəgahı qapısı qarşısında dəfn olundu. Vəfat edərkən 41 yaşında idi.

**Həbib Camal -** Penza [Rusiyanın Avropa hissəsinə yaxın Volqaboyu ərazisi] vilayətində Tinuş familyasında Həbibullah adlı birinin qızıdır. Penza şəhərində olan daş məscid onun xeyriyyə işlərindəndir. Həmin məscid 4000 rublla qiymətləndirilmişdir.

**Hənifə xanım -** Sibirdə müəllim olmuş İsmətullah Ət-Tumaninin qızıdır. Sərf, nəhv, məntiq, kəlam fənlərini atasından dərs almaqla və öz istedadı və cəhdləri sayəsində elmi kəmal etmişdir. Ölkəmizdə əsərləri nəşr olunan ilk qadın odur. Seyyid Məhəmməd Əli Əz-Zahir Əl-Viti, Şeyx Zeynullah Əl-Xalidi, Fazil Alimcan Barudi kimi böyük alimlərdən özünə icazət almışdır (diploma müvafiq sənəd). Ailə qurmuş, az müddət sonra əri vəfat etməklə dul qalıb, bütün ömrünü elm təliminə sərf etmişdir.

**Zübeydə -** Kazan şəhərində Apanay ailəsindən Musa bin İsmayılın qızı və Hacı Teymur Polad bin Musanın arvadıdır. Kazanda olan səkkizinci məscid onun xeyriyyə əməllərindədir. 1223-cü ildən əvvəl vəfat edib, Kazan qəbiristanlığında dəfn olunub.

**Zuleyxa -** Sibirdə Qızılyar (şəhərin qədim türk məmşəli adı – Kızılyar (Kızıljar -Şəhərin qədim türk məmşəli adı) Petropol – (Petropavl- Qazaxıstanın şimalında yerləşən şəhər) şəhərində Məhəmməd Lütfi bin Məhəmməd Şərif adlı böyük müsəlman tacirin həyat yoldaşıdır. Həmin şəhərdə olan ikinci daş camenin tikilməsi üçün vəqf olaraq qırx min rubl məbləği dövlət xəzinəsinə vermişdir. (Allah təala bərəkətini bol etsin!)

**Aləmətul Bənat -** Kirman xanlığının nahiyyəsində imam Məhəmməd Arif bin Biktəmurun həyat yoldaşıdır. Alim və fəzilətli xanım olub, yazıları düzgün, saxtalıqdan uzaq idi. "Müaşirəti

Adabi” adlı mətbu əsəri faydalı və gözəl bir əsərdir. Ömrünü müsəlman övladlarının təlim və tərbiyə etməklə keçirdib, deyirlər.

**Aliyə -** Qazan şəhərində möhtərəm alimlərdən Şəhabəddin Əl-Mərcaninin qızıdır. Adı-sanı ilə tanınmış olan atasından təhsil almaqla düzgün tərbiyə almış, tədqiqat əsərlərindən çox istifadə etmişdir. Rəvayətlərə görə əziz atası nadir alimləri tanıdacaq sirləri ona açıqlamışdır. Qurani Şərifi əzbərləyib, vaxtının çoxunu ərəb və fars dillərdə divanlar mütaliə etməklə keçirirmiş. Cənab Allah öz cinsindən olanlara təlim etmək, elminə də xələflər yetişdirməyi müyəssər etsin! Alimlərdən olan Səfyallah bin Abdullah ilə evlidir.

Son olaraq qeyd edək ki, Şimal türklərinin məşhur xanımları haqqında məlumatlar qadınların cəmiyyətdəki rolunun daha dərindən anlaşılmasına şərait yaradır və onların keçmişdən gələn zəngin irsinin qorunub gələcək nəsillərə çatdırılmasının vacibliyini göstərir. Bu qadınların həyat yolu müasir insan üçün həm örnək, həm də ilham mənbəyi olaraq qalmaqdadır.

**Nəticə**

Sibir və İdil (Volqa) türklərinin tarixində mühüm iz qoymuş qadınların həyatı və fəaliyyəti cəmiyyətin inkişafında onların əvəzsiz rolunu aydın şəkildə göstərir. “Məşhur xanımlar” əsəri müasir dövrdə də aktuallığını qoruyur. Burada əks olunan fikirlər qadın təhsilinin, maarifçiliyin və ictimai fəallığın vacibliyini vurğulayaraq, bugünkü cəmiyyət üçün də dəyərli mesajlar verir. Bu baxımdan, əsər yalnız tarixi mənbə, bioqrafik toplu deyil, həm də tərbiyəvi və ideoloji əhəmiyyətə malik sosial-tarixi tədqiqat xarakteri daşıyır.

**Ədəbiyyat siyahısı**

Ахмеров, Г. (2000) *Тептяри и их происхождение.—Казан: Хәтер*

Fəxrəddin, R. (1904) *Məşhur xanımlar. Orenburq: Məhəmməd Fateh Kərimov mətbəəsi*

Кутушев, Р. (1988) *Материалы к биографии Ризы Фахретдинова // Творчество Ризы Фахретдинова*: сб. статей. Уфа,. С

**Tahirə Əliyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: aliyeva.tahira1@gmail.com*
*ORCİD: 0009-0008-5213-7806*

# BURSALI MƏHƏMMƏD TAHİR BƏYİN "TÜRKLƏRİN ÜLUM VƏ FÜNUNA XİDMƏTLƏRİ" ƏSƏRİ

**Xülasə**

Məhəmməd Tahir bin Rüfətin Manastır Əsgəri Rüşdiyyəsində coğrafiya müəllimi ikən qələmə aldığı "Türklərin ülum və fünuna xidmətləri" adlı əsərində ərəb və fars dillərində yazan bir çox məşhur İslam alim və mütəfəkkirlərinin milliyyətcə türk olduğu qeyd edilir. Əsərinin giriş hissəsində "Lakin məqsədi-acizi (mənim məqsədim) müfəssəl Türk tarixini yazmaq degil, bəlkə bu qövmdən yetişüb şəbati ülum və fününda asari-qiymətdar (qiymətli əsərlər) bıraqan ərbabi-ülum və maarifin fihristi-qilqili, fəqət müxtəsər surətdə əhvali-tarixiyyələrini yazaraq, türkləri yalnız aqıncı məquləsi qaba bir qəhrəman zənn edən bir alayi-ğərəzkarənin (!!) əfkari-vahiyyələrini rədd və cərh etməkdir ki, əsri-hazırdaki Avropa əlsineyi-şərqiyyə (Şərq dilləri) üləmasının (alimlərinin) türk ədəbiyyat və üləması haqqındakı tədqiqat və kəşfiyyatları da iddiamızımin vəch təyid etməkdədir" deyərək Məhəmməd Tahir türkləri kobud və qabiliyyətsiz hesab edən qərəzkarlara iki nida işarəsi qoyaraq tutarlı cavab verir.
***Açar sözlər:*** *Bursalı Məhəmməd Tahir, Əlyazmalar İnstitutu, türk*

# "THE TURKS' SERVICES TO SCIENCE AND ARTS" BY BURSALI MUHAMMAD TAHIR BEY

**Abstract**

In his work "The Contributions of the Turks to Science and Science," written by Muhammad Tahir bin Rufat while he was a geography teacher at the Askari Rushdieh University in Manastir, it is noted that many famous Islamic scholars and thinkers who wrote in Arabic and Persian were of Turkish nationality. In the introduction to his work, he says, "However, my aim is not to write a detailed Turkish history, but rather to write a brief history of the scholars and scholars who have emerged from this nation and left valuable works in the field of science and technology, and to reject and refute the ideas and revelations of a fanatic (!!) who thinks that the Turks are only a group of heroes with a rough and uncouth style, while the research and explorations of the contemporary European oriental scholars (scholars) about Turkish literature and scholars also confirm our claim." Muhammad Tahir gives a coherent answer to the fanatics who consider the Turks rude and incompetent by putting two exclamation marks.
***Key words:*** *Bursali Muhammad Tahir, Institute of Manuscripts, turkish*

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Bursalı Məhəmməd Tahir bəyin VI-23/2019 şifrəsi altında "Türklərin ülum və fünuna xidmətləri" əsəri mühafizə olunur.

Bursalı Məhəmməd Tahir bin Rüfət din xadimləri, alim, şair və mütəsəvviflərin tərcümeyi-halları haqqında yazdığı bioqrafik əsərlərlə tarixdə iz qoymuş alimlərdəndir. O, İslam dininə, təsəvvüfə olan məhəbbəti ilə bərabər hərb, türk dili, coğrafiya, tarix və digər elm sahələrində də

çox müvəffəqiyyət qazanmışdır. Məhəmməd Tahir bütün bunlarla bərabər gözəl insan idi, elmlə bağlı sualı olan gənclər ona müraciət etdiyi vaxtlarda hər dərdini və ehtiyacını unudar və böyük həvəslə onlara yardım edərdi.

Böyük mütəfəkkir, tarixçi, coğrafiyaşünas, biblioqrafiya alimi Məhəmməd Tahir bəy mənbələrdə verilən məlumatlara görə 1861-ci il noyabr ayının 22-də Türkiyənin Bursa şəhərinin "Bab-i zəmin" (Yerqapı) məhəlləsində dünyaya göz açmışdır. Babası Üsküdarlı Seyyid Məhəmməd Tahir Paşa Sultan Əbdülməcidin zamanında hərbçi olmuşdur. O, Qüdsdə komandir olduğu illərdə xəstələnmiş və briqada komandiri olaraq təqaüdə çıxmışdır. Atası Rüfət bəy əvvəl əsgər, sonra ticarətçi, daha sonralar isə bələdiyyə məmuru olmuşdur. Nəqşbəndi təriqətinə mənsub olan bu adam "sübh namazını qəzaya buraxmayacaq dərəcədə təqva sahibi idi" (Vahyi, 1334, 13). 1877-ci ildə Türk-Rus müharbəsində iştirak edən Rüfət bəy 48 yaşında Dubnik şəhərində vəfat etmişdir. Anası–inzibati məmur Bursalı Nəcib Əfəndinin qızı və Nəqşbəndi təriqətinə mənsub olan Rəhimə xanım idi. Məhəmməd Tahir hələ gənc ikən bir çox təriqət şeyxləri ilə tanış idi. Onun İslam alimi kimi yetişməsində həm atasının, həm də tanış olduğu alimlərin böyük təsiri olmuşdu.

Məhəmməd Tahir orta məktəbi bitirərək Mülkiyyə Ruşdiyyəsinə daxil olur və 1875-ci ildə oranı bitirir. Ardından Bursa hərbi məktəbinə daxil olur və oranı da əla qiymətlərlə bitirərək 1880-ci ildə Hərbi Akademiya səviyyəsində olan və Hərbiyyə adlanan məktəbə daxil olur. Hələ orta məktəb illərində Haraççıoğlu mədrəsəsində atasının dostlarından Hoca Əli Əfəndidən ərəb dili və islam dinini öyrənir. Onda təsəvvüfə maraq oyanır, Muhyiddin İbn`ül Ərəbiyə könül bağlayır. Bu illərdə Məhəmməd Tahir bəy cümə günləri İstanbulda təkkələri gəzməyə başlayır və suallarına cavab verəcək olan bir mürşid axtarırdı. Bir cümə günü Əski Əli Paşa Camisində Həririzadə Seyyid Məhəmməd Kəmaləddin Əfəndi ilə tanış olur. Həririzadə İslamın ən böyük təsəvvüf biblioqrafı idi. Məhəmməd Tahir bəy üç il onun elmindən yararlanmış və Həririzadənin təmsil etdiyi məlamilik yolunu seçmişdi.

1883-cü ildə Hərbi məktəbdən məzun olur və üçüncü ordunun tərkibində Manastır (müasir dövrdə Şimali Makedoniyada Bitola) şəhərində Əsgəri Rüşdiyyəsinə coğrafiya müəllimi təyin edilir. O həm də tarix və türk dili fənnlərindən də dərs deyir. Bu illərdə Usturumca şəhərində ustadı Həririzadənin müəllimi olmuş Seyyid Məhəmməd Nurul Ərəbi Əl-Məlamini ziyarət edir və bu görüşün ona çox böyük təsiri olur. O, mütəmadi olaraq mütəsəvvif alimlər və şairlər haqqında material toplamaqla məşğul olur. Məhəmməd Tahir 1897-ci ildə Üsküp (indiki Makedoniyanın paytaxtı Skopye) şəhərinə Əsgəri Rüşdiyyəsinə coğrafiya müəllimi olaraq göndərilir. Həmin il "Türklərin ülum və fününa xidmətləri" adlı əsərini nəşr etdirir. 1898-ci ildə Manastır Əsgəri Rüşdiyyəsinə müdir təyin edilir. Bunlarla yanaşı Məhəmməd Tahir bəyin hərbi rütbələri də artır. O, 1904-cü ildə Selanik Əsgəri Rüşdiyyəsinə müdir təyin edilir. 1905-ci ildə rütbəsi binbaşılığa qədər yüksəlir. Məhəmməd Tahirin hansı təşkilatlara üzv olması və ümumiyyətlə siyasi fəaliyyəti haqqında fikirlər fərqlidir. Lakin o əsasən elm və irfan adamı idi. Məlumatlara görə 1906-cı ildə Selanikdə (indi Yunanıstanın Saloniki şəhəri) "Osmanlı Hürriyyət Cəmiyyəti"nin ilk üzvü olur. Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürk o illərdə gizlicə Selanikə gəlmiş və "Vətən və Hürriyyət" cəmiyyətinin bir neçə üzvü ilə görüşmüşdü. Onların arasında Manastır İdadisində şagird ikən tanıdığı Əsgəri Rüşdiyyə müdiri Bursalı Məhəmməd Tahir də var idi. Sonralar o, Alaşehir, İzmir və digər şəhərlərə hərbi işlərə təyin edilir. Qurucuları arasında yer aldığı Osmanlı Hürriyyət Cəmiyəti Avropada fəaliyyətlərini sürdürən "Gənc türklər"lə birləşərək 1907-ci ildə Osmanlı "İttihad və Tərəqqi" cəmiyyəti adını almışdı. İkinci Məşrutiyyətin elanından sonra həmkarlarının təkidi ilə və İttihad və Tərəqqi Partiyasından

onun namizədliyi irəli sürülərək Bursadan məbus seçildi. 17 dekabr 1908-ci ildə açılan Məclisi Məbusana daxil oldu. 1908-1912-ci illərdə deputatlar palatasının üzvü idi. 1908-ci il dekabrın 25-də Türk Dərnəyinin qurucuları arasında yer aldı. 1910-cu ildə "Tarih-i Osmani Encümeni"nin 19 nəfərlik üzvləri arasına "müavin aza" olaraq daxil oldu. Onun rütbəsi artır, müxtəlif vəzifələrə təyin edilirdi. Bunlar arasında Topkapı Sarayı kitabxanası müdiri vəzifəsi də var idi. Tutduğu vəzifələrlə bərabər Məhəmməd Tahir kitabxanalarda çoxlu araşdırmalarla məşğul olur, əlyazmalar üzərində daim tədqiqatlar aparırdı. 1915-ci ildə 25 il üzərində çalışdığı, adını əvvəl "Osmanlı ərbabi-kamal və maarifi", sonra "Mirat" və daha sonralar "Osmanlı müəllifləri" qoyduğu ən önəmli əsəri olan 3 cildlik əsərinin 1-ci cildini nəşr etdirir. 2-ci cildi 1922-ci ildə çap edilir. Nəşriyyat xərclərini də özü çəkmişdi. Onun maddi durumu çətin idi. Amansız xəstəlik ona imkan vermirdi. O günlərdə Mustafa Kamal Paşa Atatürk Məhəmməd Tahirə maddi və mənəvi dəstək olmuşdu. Xəstəliklə mübarizə aparan Məhəmməd Tahir son düzəliş edə bilmədən əsərin 3-cü cildi də nəşr edildi. Bir müddət xəstəxanalarda müalicə aldıqdan sonra 1925-ci il oktyabr ayının 28-də vəfat etdi. Tahir bəyin vəfat tarixi ilə bağlı məlumatlar qarışıqdır. Gölpınarlı hicri və rumi olaraq iki tarix vernişdir: 7 noyabr 1924 və 28 oktyabr 1925. Akçura Yusuf isə Bursalı Məhəmməd Tahirin İstanbulda deyil, 1929-cu ildə Bursada vəfat etdiyini yazır. (Akçura, 2009: 384). Məzarı Üsküdarda Əziz Mahmud Hüdayi dərgahı həzirəsindədir. Məhəmməd Tahir Manastır valisi və komandan Saleh Paşanın qızı Şahnaz xanım (1873-1974) ilə evli idi və onun Mukbilə (1890-1979) və Bədri Tahir (1899-1956) adlı iki övladı var idi.

Mövləvi Şeyxi Əhməd Rəmzi Əfəndinin Tahir bəyin ölümünə həsr etdiyi sözlər: "Bursalı Tahir bəyin gəldi zamanı ric`əti.

İrtihalı eylədi əshabı elmi dərdnak

Namını asarı ibqa etdi, bu tarixdə

Getdi Tahir bəy fənadan Həqqə elhaq pir, pak." (Əlaəddin, 1963: 174).

Ömrünün sonuna qədər elmə xidmət etmiş Bursalı Məhəmməd Tahirə Allahdan rəhmət və məkanının cənnət olmasını diləyirik.

Əsərləri:

1) "Türklərin ülum və fününa xidmətləri". Ona şöhrət qazandıran və yüzlərlə müəllifin qısa tərcümeyi hallarının yer aldığı bu əsəri, 1896-cı ildə öncə Əhməd Cövdətin (1862-1935) təsis etdiyi "İkdam" qəzetində təfriqə şəklində, 1897-ci ildə isə kitab olaraq nəşr edildi. 2-ci Məşrutiyyətdən sonra bəzi kiçik əlavələrlə üzvü olduğu Türk dərnəğinin ilk kitabı olaraq 1911- ci ildə çap edildi (Bursalı, 1327 (1911): 47).

Əsərdə türklərdən yetişən fiqh, təbabət, riyaziyyat, astronomiya və digər elm sahələrinə aid dəyərli əsərlər yazmış alimlər haqqında mühüm məlumatlar verilir. Əsərin meydana gəlmə səbəbləri haqqında müxtəlif mülahizələr söylənilir. Bunlardan biri də odur ki, Manastır şəhərində işlədiyi zamanlarda Avropadan bir alim oraya təşrif buyurur və Tahir bəylə tanış olur. Milliyyəti alman olan bu alim Tahir bəyə deyir: "Bəli, böyük bir millətsiniz, lakin bu böyüklüyü göstərməsi lazım gələn şairlərinizin əksəriyyəti mövzuları etibarı ilə dəyərsiz qəsidələr və əxlaq pozğunluğuna səbəb olan qəzəllər yazmaqla ömür və qələmlərini israf etmişlər. Bizim Şiller, Gote kimi millətə həyat və nur verən milli və ictimai şairlərinizi görə bilmirəm". Bu sözlərə cavab olaraq Tahir bəy Osmanlı türkünün ortaya çıxa bilməməsinə, türkün qabiliyyətsizliyi deyil, başına gələn hadisələrin səbəb olduğunu söyləyir. Alman alimin dediklərindən təsirlənən Tahir bəy 1897-ci ildə "Türklərin ülum və fününa xidmətləri" adlı ilk əsərini yaradır. O, kitabının ön sözündə türk alimlərinin əksəriyyətinin elmi əsərlərini ərəb dilində, bədii əsərləri farsca yazdıqlarını qeyd edir. Ərəb və fars dillərində yazdıqları üçün türk olmadıqları düşünülən bir çox alimlərin mənşə

etibarilə türk əsilli olduqlarını vurğulayır. Digər millətlərə mənsub edilən Fərabi, Həkim Sənai, Şövqət Buxari, Əmir Xosrov Dəhləvi, Əz-Zəməxşəri, İbn Sina,Cövhəri, Buxari,Tirmizi və digər alimlərin milliyyətcə türk olduqlarını söyləyir. O yazır: "Hələ ülumi-diniyyədə, yəni təfsir, hədis, təsəvvüf, fiqh, kəlam elmlərində əsər yazan zəvati-kiramın həman nisfinin (yarısının) türk olduqları künyə və məmləkətləri dəlalətilə meydandadır. Şu qədər var ki, bu məcəlleyi-səğirə (kiçik kitabça) məzkur zəvatın həpsini tə`dad (miqdar) və bəyana müqtədir və kafil olamaz. Məmafih (bununla belə) məxəzimiz olan kitablardan isimləri yazıla bilən zəvat içində bəlkə bir ikisinin ərəb və əcəm ənsalından (nəsllərindən) olmaq ehtimalı var isə də, bunların da müddəti-mədidə (uzun müddət) türk dövlətlərinin himayə və tərbiyələrində bulunmalarından tolayı adətən türkləşmiş olduqları aşikardır". Burada haşiyə çıxaraq qeyd etmək istərdik ki, müəllifin digər milliyyətlərə mənsub alimləri türk hesab etməsi fikri ilə razı deyilik. Bir insanın əməli saleh insan və ya dahi alim olmasının onun hansı milliyyətə mənsub olmasına qətiyyən aidiyyəti yoxdur.

2) "Osmanlı müəllifləri". Bursalı Məhəmməd Tahiri məşhurlaşdıran əsas əsərdir. "Osmanlı müəllifləri" 3 cilddən ibarətdir. 1915, 1920, 1922-ci illərdə çap edilmişdir. 1244 səhifədən ibarətdir. Əsərdə müxtəlif elm sahələrinə aid əsərlər yaratmış Osmanlı müəllifləri haqqında dəyərli ensiklopedik məlumat verilir. Osmanlı dövlətinin yaranmasından başlayaraq XX əsrin əvvəllərinə qədər bir dövrdə yaşamış 1691 türkün tərcümeyi-halı təsvir edilir. (Akün, 1989: 458). Muallim Vahyinin yazdığına görə Məhəmməd Tahir bəy müəlliflərin məzarlıqlarını ziyarət etmiş, qəbir daşlarını tapa bilmədiyi vaxtlarda hətta qazıntı işləri apararaq bir neçə dahinin məzarlarını üzə çıxarmışdır (Muallim Vahyi, 1334: 85). "Osmanlı müəllifləri" yazıldığı gündən etibarən elm adamlarının mütəmadi olaraq müraciət etdikləri mənbə olmuş və günümüzə qədər öz dəyərini qoruyub saxlamışdır.

3) "Mənaqib-i Hərb" ("Hərbi hekayələr"). Əsərdə Osmanlı tarixinin qəhrəmanlıq səhifələri təsvir edilir. Bundan başqa cihadın fəzilətlərinə dair Osmanlı müəllifləri tərəfindən yazılmış 38 əsərin biblioqrafiyası verilmişdir.

4) "Əxlaq kitablarımız". Əsərin giriş hissəsində Məhəmməd peyğəmbərin (əleyhis səlam) əxlaqla bağlı hədisləri verilmişdir. Daha sonra Osmanlı türklərinin əxlaqa dair yazdıqları əsərlərin siyahısı verilir.

5) "Tərcümeyi-hal və fəzaili-Şeyx-i əkbər Mühyiddin-i Ərəbi";

6) "Kibar-i məşayix və üləmadan 12 zatın təracimi əhvalı";

7) "Məşayixi-Osmaniyyədən 8 zatın təracimi-əhvalı";

8) "Üləmayi-Osmaniyyədən 6 zatın tərcümeyi-halı";

9) "Müvərrixin-i Osmaniyyədən Əli və Katib Çələbinin tərcümeyi-halları";

10) "Aydın vilayətinə mənsub məşayix, üləma, şüəra, müvərrixin və ətibbanın təracimi-əhvalı";

11) "Hacı Bayram-i Vəli";

12) "Mövlana Əş-Şeyx İsmayıl Həqqi Əl-Cəlvəti (quddisə sirruhu) Həzrətlərinin müxtəsərən tərcümeyi halları ilə mətbu və qeyri-mətbu asarini havi risalə";

13) "İdareyi-Osmaniyyə zamanında yetişən Kırım müəllifləri";

14) "Katib Çələbi". Qeyd etmək lazımdır ki, XVII əsrin alimi Katib Çələbi XX əsrin əvvəllərində Bursalı Məhəmməd Tahir bəy tərəfindən ətraflı şəkildə araşdırılıb kitablaşdırılmışdır. "Osmanlı şair, yazıçı, din alimi, mütəsəvvif, bir çox əsər sahibinin həyatını anladan Bursalı Məhəmməd Tahir bəy qələmə aldığı "Osmanlı müəllifləri" ilə Katib Çələbinin davamçılarından olmuş böyük bir tarixçidir" (İşli, 2017, internet) "Çelebinin takipçisi Mehmet Tahir Bey");

15) "Dəlilü`t-təfasir.Elm-i təfsir və müfrədat-i Qurana dair məlumati-ictimaiyyə";

16) “Müntəxəbat-i məsari və əbyat-i Osmaniyyə”;

17) “Nəzər-i islamda fəqr”;

18) “Siyasətə mütəaliq asari-islamiyyə”.

Atatürk ensiklopediyasının yazdığına görə (müəllif Erol Ülgen) Bursalı Məhəmməd Tahirin çap edilməmiş əsərlərinin siyahısı:

1) “Mənaqib-i Şeyx Hacə Məhəmməd Nur`ul-`Ərəbi və Bəyan-i Məlamət və Əhval-i Məlamiyyə”;

2) “Manastıra mənsub məşayix, üləma və şüəranın təracimi-əhvalı”;

3) “Məcmueyi-Tahir”;

4) “Həsəneyn haqqında şərəf-varid olan əhadisi şərifə və tərcümələri”;

5) “Fəzaili-imam Əli haqqında şərəf varid olan əhadisi-şərifə və tərcümələri”;

6) “İmam Suyutinin “Əl-Əhadisuş-şərifə fi`s-səltə nətil-munifə” risaləsinin tərcüməsi”;

7) “Məcmueyi-durub-i əmsal-i ərəbiyyə və farisiyyə”;

8) “Mirat-i Bursa”.

**Ədəbiyyat siyahısı**

Vahyi Muallim. Müslümanlık ve Türklüğü Yükseltmeye Çalışanlar; Bursalı Mehmet Tahir Bey, Matbaa-i Orhaniye, İstanbul, 1334.

Akçura Yusuf. Türk yılı 1928, Hazırlayan: Arslan Tekin, Ahmet Zeki İzgöer, Türk Tarih Kurumu Yayınları, Ankara, 2009.

Alaettin İbrahim. Meşhur Adamlar, Sedat Simavi Yayınları, İstanbul, 1963.

**Yeganə Rəhnulla**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: yegane.rahnulla@mail.ru*
*ORCID: 0000-0002-6564-7257*

# ŞƏRQ MUSİQİ MƏDƏNİYYƏTİNDƏ ANONİM MUSİQİ RİSALƏLƏRİNİN ROLU: AZƏRBAYCAN ƏLYAZMALARININ TƏDQİQİ

**Xülasə**

Məqalədə Azərbaycan əlyazmalarında qorunan anonim musiqi risalələri tədqiq olunur. Araşdırma Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılan A-232, B-3951, M-251, M-448, M-179 və B-1236 şifrəli əlyazma məcmuələrində yer alan musiqi mətnləri əsasında aparılmışdır.

Bu risalələrdə muğamın quruluşu, avaz və şöbələri, musiqi alətlərinin yaranması, musiqi nəzəriyyəsi və ifaçılıq ənənələri haqqında məlumatlar verilmişdir. Bəzi mətnlərdə musiqinin astronomiya və fəlsəfə ilə əlaqəsi göstərilərək muğamların bürclər, planetlər və zaman anlayışı ilə uyğunluğu izah olunur.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, anonim musiqi risalələri Azərbaycan və ümumilikdə Şərq musiqi mədəniyyətinin öyrənilməsi üçün mühüm mənbə rolunu oynayır. Bu əsərlər muğam nəzəriyyəsinin tarixi inkişafını, musiqi düşüncəsinin fəlsəfi əsaslarını və orta əsr elmi ənənələrini əks etdirən qiymətli yazılı abidələrdir. Onların elmi müstəviyə çıxarılması Azərbaycan musiqişünaslığının tarixinin daha dərindən araşdırılmasına imkan yaradır.

***Açar sözlər:*** *Anonim musiqi risalələri, Azərbaycan əlyazmaları, musiqi nəzəriyyəsi, Şərq musiqi mədəniyyəti*

# THE ROLE OF ANONYMOUS MUSICAL TREATISES IN EASTERN MUSICAL CULTURE: A STUDY OF AZERBAIJANI MANUSCRİPTS

**Abstract**

The article examines anonymous musical treatises preserved in Azerbaijani manuscripts. The research is based on musical texts found in manuscript collections with the call numbers A-232, B-3951, M-251, M-448, M-179, and B-1236, which are kept at the Institute of Manuscripts of the Azerbaijan National Academy of Sciences.

These treatises provide information about the structure of mugham, its melodic sections and branches, the origin of musical instruments, music theory, and performance traditions. In some texts, the relationship between music, astronomy, and philosophy is discussed, explaining the correspondence between mughams and zodiac signs, planets, and the concept of time.

The study concludes that anonymous musical treatises serve as important sources for the study of Azerbaijani and, more broadly, Eastern musical culture. These works are valuable written monuments reflecting the historical development of mugham theory, the philosophical foundations of musical thought, and medieval scholarly traditions. Their introduction into scholarly circulation enables a deeper exploration of the history of Azerbaijani musicology.

***Key words:*** *Anonymous musical treatises, Azerbaijani manuscripts, music theory, Eastern musical culture*

**Giriş**

Azərbaycanın zəngin musiqi mədəniyyətinin formalaşmasında yazılı mənbələrin, xüsusilə əlyazma şəklində qorunub saxlanılan musiqi risalələrinin böyük əhəmiyyəti vardır. Orta əsrlər və sonrakı dövrlərdə qələmə alınmış bu risalələr musiqi nəzəriyyəsi, muğam sistemi, musiqi alətləri, ifaçılıq ənənələri və musiqinin fəlsəfi mahiyyəti haqqında qiymətli məlumatlar təqdim edir. Azərbaycan əlyazma irsində müəllifi məlum olan əsərlərlə yanaşı, müəllifi məlum olmayan, lakin məzmun və elmi dəyərinə görə diqqəti cəlb edən anonim musiqi risalələri də xüsusi yer tutur.

Bu tip əsərlər təkcə musiqişünaslıq baxımından deyil, həm də dövrün elmi düşüncəsi və mədəni əlaqələri haqqında təsəvvür yaradır. Bir çox hallarda bu risalələrdə musiqi digər elmlərlə – xüsusilə astronomiya və fəlsəfə ilə müqayisə olunur, həmçinin muğamların quruluşu, avaz və şöbələri, pərdələr sistemi, musiqi alətlərinin yaranması və istifadə qaydaları kimi məsələlər geniş şəkildə izah olunur.

**Əsas mətn**

Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda qorunan müxtəlif əlyazma məcmuələrində musiqiyə dair bir sıra anonim risalələr mövcuddur.

### 1. A-232 (fars dilində)رسالة در موسیقی *"Risalə dər musiqi"*

A-232 şifrəli əlyazma məcmuəsinin $16^a$ -$19^b$ vərəqlərini əhatə edən *"Risalə dər musiqi"* əsərinin müəllifi məlum deyil. Əsər Şərq istehsalı olan sarımtıl rəngli qalın kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Əlyazmanın $16^a$ və $16^b$ vərəqində musiqini astronomiya elmi ilə müqayisəsi verilərək qeyd edilmişdir ki: *"Musiqi elminin 12 muğamı 12 bürcə, 7 avazəsi yeddi planetə, 24 şöbəsi isə 24 saata, yəni bir gecə-gündüzə nisbət verilərək tərtib edilmişdir"* (A-232, XVI əsr: $16^a$ -$16^b$). Şərq üsulu ilə səhifələnən əlyazma məcmuəsinin cildi qəhvəyi rəngli kartondur. Cildin üzərinə basma zəncirbəndli çərçivə içərisinə bir böyük və iki balaca basma medalyon vurulmuşdur. Təxminən XVI əsrin əvvəllərində yazılan əlyazma toplusunun ümumi həcmi 90 vərəq, ölçüsü isə 11x17,5 sm-dir. Fars dilində olan bu əsəri Əlyazmalar İnstitutunun böyük elmi işçisi Mustafa Mailoğlu Azərbaycan dilinə tərcümə etmişdir (Mailoğlu, 2013: 38-41).

### *2.* B-3951 (fars dilində)رسالهٔ موسیقی *"Risaleyi-musiqi"*

Giriş və 12 babdan ibarət olan risalənin birinci babı muğamın yaranmasından bəhs edir. Sonrakı hissələrdə musiqi nəzəriyyəsinə və ifaçılıq sənətinə dair qısa məlumatlar verildikdən sonra Xacə Əbdülqadir Marağayi, Hafiz Şirazi kimi Orta əsr alim və şairlərin yaradıcılığından geniş istifadə olunaraq iqtibaslar verilmişdir.

Əlyazma toplusunun $304^b$-$309^a$ vərəqini əhatə edən əsər Rusiya istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Əsər h. 14 zilqədə 1308/m. 23 iyun 1891-ci ildə köçürülmüşdür (B-3951, 1891: $309^a$). Şərq üsulu ilə səhifələnən əlyazma məcmuəsinin cildi kartona keçirilmiş zoğalı rəngli dəridir.. Cildin üzərinə basma zəncirbəndli çərçivə içərisinə bir-birinə basma xətlərlə birləşmiş bir böyük və iki balaca basma medalyon vurulmuşdur. Əlyazma toplusunun ümumi həcmi 317 vərəq, ölçüsü isə 17x22 sm.dir. Risaləni Əlyazmalar İnstitutunun böyük elmi işçisi Rauf Şeyxzamanlı Azərbaycan dilinə tərcümə etmişdir (Şeyxzamanlı, 2013: 61-78).

### 3. M-251 (fars dilində)رساله در علم موسیقی *"Risalə dər elmi musiqi"*

Musiqişünaslığa aid məsələlərdən bəhs edən risalə 15 fəsil və xatimədən ibarətdir. Əlyazma məcmuəsinin 236[b]-242[a] vərəqlərini əhatə edən əsər Avropa istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə səliqəli nəstəliq xətti ilə köçürülmüşdür. Mətnin yazılmasında və musiqiyə dair cədvəl və dairələrin çəkilməsində qırmızı rəngli mürəkkəbdən istifadə edilib (M-251, XVII əsr: 236[b]-242[a]). Şərq üsulu ilə səhifələnən əlyazma toplusunun cildi, kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Cildin üzərinə basma zəncirbəndli çərçivə içərisinə bir-birinə basma xətlərlərlə birləşmiş bir böyük və iki balaca basma medalyon vurulmuşdur. Yazılma tarixi və katibi haqqında heç bir məlumat olmayan əlyazmanın təxminən XVII əsrin ortaları yazılması güman edilir. Əlyazma məcmuəsinin ümumi həcmi 271 vərəq, ölçüsü 17x28,5 sm.dir. Əlyazmalar İnstitutunun böyük elmi işçisi Mustafa Əliyev Azərbaycan dilinə tərcümə etmişdir (Mailoğlu, 2013: 14-35).

### *4.* M-448 (fars dilində )بهجت الروح *"Behcətür-ruh"*


Musiqi elminə dair məlumatlardan bəhs edən əsər müqəddimə, on bab və xatimədən ibarətdir. Əvvəlcə musiqi elminin mənbəyi, İslam dini ilə bağlılığı, sonra isə musiqi alətlərinin yaranması, muğamın avazları, şöbələri, pərdələri kimi mövzularla davam edir. Həmçinin əsərdə başqa mənbələrdə rast gəlinməyən rəvayətlər, cədvəllər və dairələr var.

Müəllifi haqqında dəqiq məlumat yoxdur. Bəzi mənbələrdə əsərin Əbdülmömin bin Səfiəddin Curcani olduğu, bəzilərində isə Əbdülhüseyn bin Mehdi əş-Şirazi olduğu qeyd edilir.

Əsər Avropa istehsalı olan sarımtıl rəngli kağızlara səliqəsiz nəstəliq xətti ilə köçürülnüşdür. Bəzi sözlərin yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. Mətndə dairə və cədvəllərlə yanaşı musiqi alətində ifa edən kişilərin adi karandaşla çəkilmiş rəsmləri vardır. Şərq üsulu ilə səhifələnən əlyazma nüsxəsinin cildi kartona keçirilmiş göy və qəhvəyi rənglərdən ibarət zolaqlı parçadır. Əsər h.20 rəbiuləvvəl 1233/m. 27 yanvar 1818-ci ildə Qacariyyə hökümətinin dövründə Kaşan şəhərində qardaşı Məhəmməd Sadiq Şirvaninin xətrinə köçürülmüşdür (M-448, 1818: 53[b]). Əlyazma nüsxəsinin həcmi 54 vərəq, ölçüsü isə 15x20,5 sm.dir. Əsəri Əlyazmalar İnstitutunun böyük elmi işçisi Rauf Şeyxzamanlı Azərbaycan dilinə tərcümə etmişdir (Şeyxzamanlı, 2013: 86).

### 5. M-179 (fars dilində)رساله موسیقی *"Risalə musiqi"*

12 muğamda olan musiqi avazları, ahəngləri və şöbələri haqqında məlumat verilən risalənin sonu naqisdir. Əlyazma məcmuəsinin 115[b]-118[b] vərəqlərinin əhatə edən risalə Şərq istehsalı olan sarımtıl rəngli parıltılı kağızlara köçürülmüşdür. Əsər qara və qırmızı mürəkkəblə çəkilmiş iki qat çərçivə içərində qara mürəkkəblə səliqəli nəstəliq xətti ilə yazılmışdır. Mətndə bəzi ifadələrin, həmçinin muğam adlarının yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilmişdir (M-179, XVII əsr: 115[b]-118[b]). Çətçivənin haşiyəsində fars dilində səliqəli nəstəliq xətti ilə yazılmış rübai var. Təxminən XVII əsrin sonlarında köçürülən əlyazma toplusunun cildi sonradan bərpa edilərək kartona keçirilmiş sumağı rəngli dəriəvəzidir, özəyi isə qəhvəyi rəngli dəriəvəzidir. Cildin ortasına əlyazma kitabın qəhvəyi rəngli dəri olan orijinal cildi vurulub. Əlyazma məcmuəsinin ümumi həcmi 260 vərəq, 14x23,5sm.dir.



*M-179 (115$^{b}$-116$^{a}$) (fars dilində)*
*رساله موسیقی*
*Risalə musiqi*

**6. B-1236 (57$^{b}$-58$^{a}$) (ərəb əlifbası ilə türk dilində) *"Muğam üstündə oxunan şeirlər"***

Kitabda muğam üstündə oxumaq üçün naməlum tərtibçinin topladığı şeir nümunələritəqdim olunur. Şeirlər Piri, Hüdayin, Yunus Əmrə, Zakir, Dərviş Osman, Əşrəf oğlu Ramin kimi Osmanlı türk şairlərinə məxsusdur.

Əsər əlyazma toplusunun 57$^{b}$-119$^{b}$ vərəqlərini əhatə edərək Şərq istehsalı olan sarımtıl rəngli qalın kağızlara qara mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Bölmələrinin adı nisbətən iri qırmızı mürəkkəblə yazılmış əsər Şərq üsuli ilə səhifələnib (B-1236, XIX əsr: 57$^{b}$-119$^{b}$). Cildi, sonradan bərpa edilərək kartona keçirilmiş göy rəngli dəriəvəzidir. Təxminən XIX əsrin ikinci yarısında yazılmış əlyazma kitabın həcmi 122 vərəq, ölçüsü 16,5x23,5 sm.dir. Əsəri Əlyazmalar İnstitutunun

böyük elmi işçisi Rauf Şeyxzamanlı Azərbaycan dilinə transitrasiya etmişdir (Şeyxzamanlı, 2013: 2).

**Nəticə**

Tədqiqatda A-232, B-3951, M-251, M-448, M-179 və B-1236 şifrəli əlyazmalar əsasında anonim musiqi risalələrinin məzmunu, quruluşu, yazılma xüsusiyyətləri və elmi əhəmiyyəti araşdırılmışdır. Bu risalələr muğam nəzəriyyəsinin tarixi inkişafını, Şərq musiqi ənənələrinin qarşılıqlı təsirini və Azərbaycan musiqi düşüncəsinin formalaşma mərhələlərini öyrənmək baxımından mühüm mənbə kimi çıxış edir.

Tədqiq olunan anonim musiqi risalələri Azərbaycan əlyazma irsində musiqi nəzəriyyəsinin və muğam sisteminin öyrənilməsi üçün mühüm elmi mənbələrdən hesab olunur. Bəzi risalələrdə musiqinin astronomiya ilə əlaqələndirilməsi, muğamların bürclər, planetlər və zaman anlayışı ilə müqayisə edilməsi orta əsr Şərq elmi-fəlsəfi düşüncəsinin musiqiyə münasibətini aydın şəkildə göstərir.

Bu anonim risalələr Azərbaycan musiqişünaslığının tarixi inkişafını izləmək, muğam nəzəriyyəsinin müxtəlif mərhələlərini araşdırmaq və Şərq musiqi elminin ümumi kontekstini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Onların tədqiqi və elmi müstəviyə çıxarılması həm musiqi tarixi, həm də mətnşünaslıq sahəsində yeni araşdırmalar üçün geniş imkanlar açır.

**Ədəbiyyat siyahısı**


Muğam haqqında əlyazmalar toplusu. Behcətür-ruh. (2013) (Fars dilindən tərcümə edən: R. Şeyxzamanlı) Bakı: Heydər Əliyev fondu.

Muğam haqqında əlyazmalar toplusu. Muğam üstündə oxunan şeirlər. (2013) (Fars dilindən tərcümə edən: R. Şeyxzamanlı) Bakı: Heydər Əliyev fondu.

Muğam haqqında əlyazmalar toplusu. Musiqi haqqında risalələr. (2013) (Fars dilindən tərcümə edənlər: M. Mailoğlu, R. Şeyxzamanlı) Bakı: Heydər Əliyev fondu.

Muğam üstündə oxunan şeirlər. (XIX əsr) AMEA Əlyazmalar İnstitutu. B-1236. $57^{b}$-$119^{b}$.

بهجت الروح (h.20 rəbiuləvvəl 1233/m. 27 yanvar 1818) AMEA Əlyazmalar İnstitutu. M-448. 54.

رسالة در موسیقی (XVI əsr) AMEA Əlyazmalar İnstitutu. A-232. $16^{a}$ -$19^{b}$.

رساله در علم موسیقی (XVII əsr) AMEA Əlyazmalar İnstitutu. M-251. $236^{b}$-$242^{a}$.

رساله موسیقی (XVII əsr) AMEA Əlyazmalar İnstitutu. M-179. $115^{b}$-$118^{b}$.

رسالهٔ موسیقی (h. 14 zilqədə 1308/m. 23 iyun 1891) AMEA Əlyazmalar İnstitutu. B-3951. $304^{b}$-$309^{a}$ .

**İsmayıl Hüseyinov**
*AMEA akademik Z.M. Bünyadov adına Şərqşnüaslıq İnstitutu*
*Elmi işçi*
*E-mail: qahire2010@mail.ru*
*ORCİD: 0009-0007-1651-4806*

# "FƏZİLƏTLİ ŞƏHƏR ƏHLİNİN BAXIŞLARI" ƏSƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ VƏ MƏNBƏŞÜNASLIQ-TERMİNOLOJİ TƏHLİLİ

**Xülasə**

Bu məqalə Əbu Nəsr Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" əsərinin Azərbaycan dilinə tərcüməsi və onun elmi baxımdan araşdırılmasına həsr olunub. Fərabi İslam fəlsəfəsinin ən böyük alimlərindən biri kimi təqdim olunur və onun Aristoteldən sonra "ikinci müəllim" adlandırıldığı qeyd edilir. Məqalədə əsərin əsas anlayışları və ideyaları nəzərdən keçirilir. Xüsusilə, Fərabinin ideal cəmiyyət haqqında düşüncələri açıqlanır və göstərilir ki, yaxşı cəmiyyət yalnız qanunlarla deyil, düzgün bilik və düşüncə ilə qurulur. Bu sistemdə həm filosoflar, həm də peyğəmbərlər həqiqəti insanlara çatdıran əsas şəxslər hesab olunur. Fərabi həmçinin Yunan filosofları kimi dünyanın yoxdan yaranması fikrini qəbul etmir və varlığın Allahdan mərhələlərlə yarandığını "feyz" nəzəriyyəsi ilə izah edir.

Məqalədə tərcümə zamanı yaranan çətinliklər də araşdırılır. Buna "ağıl", "fəal ağıl" və "feyz" kimi bəzi anlayışları misal gətirərək onların dərin və bir neçə mənaya malik olduğu göstərilir. Bundan əlavə, əsərin müxtəlif əlyazmaları müqayisə olunur və aralarındakı fərqlər izah edilir. Berlin, Qahirə və Beyrutda nəşr olunan versiyalar əsasında mətnin necə dəyişdiyi göstərilir. Sonda qeyd olunur ki, belə fəlsəfi mətnləri tərcümə etmək üçün yalnız dili bilmək kifayət deyil, eyni zamanda fəlsəfəni də yaxşı başa düşmək lazımdır Məqalədə Əbu Nəsr Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" əsərinin tərəfimizdən Azərbaycan dilinə edilmiş tərcüməsi əsas götürülmüşdür.

***Açar sözlər:*** *islam fəlsəfəsi, ideal cəmiyyət, emanasiya, filosof, peyğəmbər*

# AN AZERBAİJANİ TRANSLATİON OF "THE OPİNİONS OF THE PEOPLE OF THE VİRTUOUS CİTY": A SOURCE-CRİTİCAL AND TERMİNOLOGİCAL ANALYSİS

**Abstract**

This article is dedicated to the translation of Abu Nasr al-Farabi's work *"The Opinions of the Inhabitants of the Virtuous City"* into Azerbaijani and its scholarly analysis. Al-Farabi is presented as one of the greatest scholars of Islamic philosophy, and it is noted that he is called the "Second Teacher" after Aristotle. The main concepts and ideas of the work are examined in the article. In particular, Farabi's views on the ideal society are explained, showing that a good society is built not only on laws but also on correct knowledge and thought. In this system, both philosophers and prophets are considered the main figures who convey truth to people. Farabi also, like the Greek philosophers, does not accept the idea that the world was created out of nothing, and he explains the gradual emergence of existence from God through the theory of emanation ("feyz").

The article also explores the difficulties encountered during translation. By giving examples such as "intellect," "active intellect," and "emanation," it is shown that these concepts

are deep and have multiple meanings. In addition, different manuscripts of the work are compared, and the differences between them are explained. Based on editions published in Berlin, Cairo, and Beirut, changes in the text are demonstrated. In conclusion, it is noted that translating such philosophical texts requires not only knowledge of the language but also a strong understanding of philosophy. The article is based on our Azerbaijani translation of Abu Nasr al-Farabi's *"The Opinions of the Inhabitants of the Virtuous City."*
***Key words:*** *Islamic philosophy, ideal society, emanation, philosopher, prophet*

Əbul-Nasr Muhammməd ibn Muhammməd ibn Tərxan ibn Uzluğ Fərab şəhərindən olub miladi tarixi ilə 870-ci ildə (hicri tarixi ilə 259-cu il) anadan olmuşdur. İraqa daxil olmuş, Bağdada məskən salmışdır. Orada Abbasi xəlifəsi Əl-Muqtədirin zamanında Salam şəhərində vəfat etmiş Yuhanna İbn Haylandan hikmət elmini öyrənmişdir. Ondan faydalanaraq həmyaşıdları arasında seçilmişdir. Onun əsərləri məşhurlaşmış və tələbələri çox olmuşdur. Zəmanəsinin dahisi olmuş, məntiq kitablarını şərh etmiş, qaranlıq yerlərini aydınlaşdırmış, sirlərini açmış və bunlardan faydalı olanlarını cəm etmiş, orada Əl-Kindi və başqa filosofların nəzərdən qaçırdıqları təhlil sənəti və təlim sahələrinə dqqəti yönəltmiş, məntiqin beş yolunu aydınlaşdırmış, ondan faydalanmanı ifadə etmiş, istifadə etmə yollarını və qiyas şəkillrinin necə hallandığını göstərmişdir.

İbn Xallikan deyir: "Fərabi islam filosoflarının mütləq mənada ən böyüyüdür". O, kamil fəlsəfi bir məzhəb yaratdı. Platonun qərb aləmində etdiyini ərəb aləmində Fərabi etdi. İbn Sina fəlsəfəni onun kitablarından öyrənmiş və onu özünə müəllim hesab etmişdir. Həmçinin İbn Rüşd və başqa qərb filosofları da ondan öyrənmişdir. Fərabi haqlı olaraq Aristoteldən sonra "ikinci müəllim" ləqəbini qazanmışdır.

"Fəzilətli şəhər əhlinin baxışları" əsəri Əbu Nəsr əl-Fərabi fəlsəfəsinin əsas sütunu hesab olunur. O, burada ideal cəmiyyətin qurulmasına dair təsəvvür irəli sürmüş, hakimlə cəmiyyət arasındakı münasibətləri sistemləşdirmiş və vurğulamışdır ki, fəzilətli şəhər yalnız maddi qanunlar üzərində deyil, "doğru baxışlar" və biliklər üzərində qurulmalıdır.

Fərabi bu əsərdə metafizika ilə siyasi əxlaq arasında körpü yaratmağa nail olmuşdur. O, fəlsəfəsini "feyz" (varlığın Allahdan necə sudur etməsi) anlayışı üzərində quraraq, bunu əxlaqi və siyasi sistemin əsası kimi təqdim etmişdir. O bu əsərində "ideal şəhər" modeli təqdim edir. Bu model Platonun "Respublika" əsərindən ilhamlansa da, İslam fəlsəfi ruhu ilə zənginləşdirilmişdir. Kitabda şəhəri səadətə aparacaq rəhbərin həm fəlsəfi hikmətə, həm də dini biliyə malik olması zəruri sayılır. Fərabi şəhəri sağlam qəlbə ehtiyacı olan bir bədənə bənzədir. Əsər yalnız siyasi məzmun daşımır; burada varlıq fəlsəfəsi, insan nəfsi, bilik nəzəriyyəsi və cəmiyyətlərin təsnifatı (fəzilətli, cahil, fasiq, dəyişmiş, azmış) da geniş şəkildə izah olunur.

Bu məqalənin əsas məqsədi Əbu Nəsr Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" əsərinin tərcüməsini təqdim etmək və həmin tərcüməni elmi baxımdan təhlil etməkdir. Məqalədə əsərin əsas anlayışları və ideyaları nəzərdən keçirilir, tərcümə zamanı qarşıya çıxan terminoloji çətinliklər araşdırılır. Bu məqalədə Əbu Nəsr Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" əsərinin tərəfimizdən Azərbaycan dilinə edilmiş tərcüməsi əsas götürülmüşdür. Tərcümə prosesi zamanı orijinal mətnin məzmun və üslub xüsusiyyətlərini qorumağa xüsusi diqqət yetirilmiş, terminoloji dəqiqlik təmin edilməyə çalışılmışdır.

Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" əsərinin bir neçə əsas (təxminən 4 əsas) əlyazması mövcuddur və bunlarla yanaşı digər əlavə nüsxələr də vardır. Bu əlyazmalar arasında bəzi fərqlər var. Fərabinin ilk islam mütəfəkkirlərlərindən olması onun əsərlərini nəşr edilməsinə

olan diqqətin böyük olmasını tələb edirdi. Berlin Universtetinin müəllimi Fridrix Diteritsi Fərabinin Britaniya muzeyində olan 3/425 nömrəli əlyazmasını (yeni tərtibə görə 7517 nömrəli) və Oksfordda kitabxanada saxlanılan 3/120 nömrəli əlyazmanı əsas götürərək 1895-ci ildə onun "Fəzilətli şəhər əhlinin baxışları" kitabını nəşr etdi. Fridrix Diteritsi öz geniş biliyinə əsaslanaraq tədqiqat apardı və ilk nüsxədə olan qaranlıq yerləri izah etdi.

Sonra bu kitabın ilk nəşri 1906 -cı ildə Misirdə oldu. Aralarında olan oxşarlığa görə şübhə yoxdur ki, bu nəşr Diteritsinin nəşrini əsas götürmüşdür. Sonra bunun ardınca müqəddiməsiz, izahsız başqa nəşrlər edildi. Lakin Fərabinin öz fəlsəfəsini lakonik şəkildə cəm etdiyi bu kitabı fəlsəfə oxucularına lazım olan faydanı vermədi.

Sonra Doktor Yusif Kərəm bu kitabın ərəb dilində olan mətnini şərqdə və qərbdə çap olunan nəşrlərin işığında təkrar gözdən keçirərək onu fransız dilinə tərcümə etdi. Bu kitabın nəşrini 1949 – cu ildə Qahirədəki Fransız Şərq Arxeologiyası İnstitutu öz üzərinə götürdü. Sonra Livanlı filosof və tədqiqatçı alim Albert Nasri Nader bu kitabı diqqətlə oxuyub, tərcüməsini, şərhlərini gözdən keçirtdikdən sonra Diteritsinin yuxarıda qeyd olunmuş iki əlyazmaya əsaslanaraq nəşr etdiyi kitabı ilə Doktor Yusif Kərəmin tərcüməsinə əsaslanaraq onun ərəbcə mətnini nəşr etmək qərarına gəlmişdir. Kitab Beyrutda 1968-ci ildə nəşr edilmişdir. Azərbaycan dilinə tərcümə etdiyimiz əsərin əsasını Albert Nasri Nader tərəfindən ərəb dilində nəşr olunmuş elmi-tənqidi mətn təşkil edir.

Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" kitabının əlyazmalarında kiçik fərqlər mövcuddur ki, bunlar müxtəlif nüsxələrin çoxluğundan qaynaqlanır. Bu fərqlərə bəzi sözlərin dəyişdirilməsi, müəyyən cümlələrdə əlavə və ya ixtisarların olması, eləcə də abzasların sıralanmasında fərqliliklər daxildir.

Mətnin tənqidi şəkildə işlənməsində istifadə olunan ən mühüm əlyazmalar sırasında Əl-Əzhər kitabxanasına məxsus nüsxə, Süleymaniyyə kitabxanasındakı nüsxə və Britaniya Muzeyi (Britaniya Kitabxanası) fondlarında saxlanılan nüsxələr xüsusi əhəmiyyət daşıyır. Məhz bu əlyazmalar tədqiqatçılar tərəfindən müqayisə edilərək mətnin daha dəqiq və elmi-tənqidi şəkildə bərpasında əsas mənbə kimi istifadə olunmuşdur.

Əlyazmalar arasında əsəs fərqlər bunlardır:

*Bölmə və paraqraf başlıqları*: Bəzi əlyazmalarda fəlsəfi bölmələrin adlandırılmasında fərqlər müşahidə olunur (məsələn, "ilk varlıq haqqında" və ya "mövcudatın mərtəbələri" kimi ifadələrdə).

*Artım və ixtisarlar*: Bəzi əlyazmalarda "zidd şəhər"in izahı və ya siyasi məsələlər daha geniş şəkildə təqdim edilir, digərlərində isə bu hissələr daha qısa verilmişdir.

*Nəşr fərqləri*: Əlyazmalar arasındakı fərqlər müxtəlif çap nəşrlərinə də təsir göstərmişdir. Məsələn, 1895-ci il Leyden nəşri və Qahirə nəşrləri arasında fərqlər mövcuddur. Burada tədqiqatçılar daha dəqiq mətn əldə etmək üçün əlyazmaları müqayisə etmişlər.

*Əsərin adı*: Əlyazmalar arasında əsərin tam adı da fərqlənir. Bəzi nüsxələrdə "Fəzilətli şəhər əhlinin baxışları", digərlərində isə "Fəzilətli şəhər əhlinin baxışlarının prinsipləri" kimi qeyd olunur.

Ümumilikdə isə əsərin əsas fəlsəfi məzmunu (varlıq, siyasət və cəmiyyət məsələləri) bütün əlyazmalarda sabit qalır. Fərqlər əsasən ifadə tərzi və dil dəqiqliyi ilə bağlıdır.

Fərabinin "Fəzilətli şəhər əhlinin baxışları" kitabı kiçik həcmdə olmasına baxmayaraq ən əhəmiyyətli fəlsəfi, siyasi, ictimai və əxlaqi məsələləri özündə cəm edir. Fərabidən sonra özünü onun şagirdi hesab edən İbn Sina bu məsələləri daha geniş şəkildə araşdırdı və müfəssəl şəkildə

böyük əsəri olan “Şəfa” kitabında, sonralar isə ümumiləşdirərək “Nicat” kitabında bunları cəm etdi.

Fərabi öz fəlsəfəsini bu əqli intuisiya üzərində qurur. Əgər məntitqi cəhətdən tək, bəsit, mütləq mənada kamil Varlığın mövcudluğunu qəbul etsək ki, onu Allah adlandırırıq, bizə qalan varlıqların ondan necə hasil olmasını aydınlaşdırmaq qalır. Platonun feyz (emanasiya) fəlsəfəsi aləmin mövcud olması məsələsinin məntiqi həllini verir. Aləmin yoxdan yaranmasını qəbul etməkdə ağıl çətinlik çəkir. Necə bir şey heç nədən yaransın? Burada bir şeyə diqqət etmək lazımdır ki, yoxdan yaranma məsələsinin yunan fikir dünyasında izinə rast gəlinmir. Onlara görə mövcud olan mövcud olmayandan yaranmaz, var olan yalnız var olandan əmələ gələr. Buna görə yunan filosofları aləmin və ya aləmin maddəsinin əzəli olmasını, yalnız onun nizamının sonradan yaranmasını dedilər. Bir varlığın başqa varlıqdan feyz (emanasiya) yolu ilə hasil olması fikri məntiqi müddəa kimi qəbul edildi. Lakin feyz (emanasiya) fəlsəfəsi böyük bir çətinliklə üzləşir. Metafizik baxımdan bu çətinlik sadə və vahid olan ilk səbəbdən çoxluğun necə törəməsi məsələsidir. Əbu Nəsr Fərabi bu problemi ‘on ağıl’ (əl-uqulul-aşəra) nəzəriyyəsi ilə həll edərək varlığın mərhələli şəkildə emanasiya etdiyini irəli sürür.

Feyz nəzəriyyəsi vasitəsilə vəhy məsələsi də izah olunur. Əbu Nəsr Fərabi belə hesab edir ki, fəal ağıl fasiləsiz şəkildə varlıq aləminə həqiqətləri ötürür. Saf və kamil təxəyyül gücünə malik olan insanlar bu həqiqətləri qəbul edir, sonra isə onları insanların anlaya biləcəyi formada, dil və simvollar vasitəsilə ifadə edirlər. Bu ifadələr əsl həqiqətin yalnız zəif və dolayı bir əksidir, çünki həmin həqiqətlər maddi və hissi aləmdən daha yüksək səviyyəyə aiddir və birbaşa sözlə tam ifadə olunmur. Filosof isə fərqli olaraq, məntiq və əqli düşüncə vasitəsilə bu həqiqətlərin mənbəyi olanfəal ağıla yüksələ bilir və onları daha aydın, birbaşa şəkildə qavrayır. Yəni o, fəal ağılda mövcud olan əqli formaları dərk etmək qabiliyyətinə sahibdir. Bu baxımdan Fərabi əqli idrak səviyyəsində filosofu peyğəmbərdən üstün mövqedə qiymətləndirir. Vəhyin zahiri ifadəsi isə son həqiqət sayılmır, əksinə, o, həqiqətin üstünü örtən simvolik formadır və bu formanın arxasındakı məna yalnız ağıl vasitəsilə üzə çıxarıla bilər. Beləliklə, Əbu Nəsr Fərabi vəhyin yalnız zahiri mətn kimi deyil, ağıl vasitəsilə şərh olunmalı olduğunu irəli sürür və qeyd edir ki, vəhyin çatdırdığı həqiqətlər maddi aləmə aid olmayıb, əksinə, əzəli və metafizik mahiyyətə malikdir. Bu nəzəriyyənin insan cəmiyyətinin ədalət və fəzilət üzərində qurulması kimi praktik tərəfi də mövcuddur. Həm peyğəmbər, həm də filosof bu həqiqətləri bildiklərinə görə, ideal cəmiyyəti – fəzilətli şəhəri – qurmaq səlahiyyətinə malikdirlər. Bu nöqtədə Fərabi Platonun “filosof-hakim” ideyasını davam etdirir, lakin onu genişləndirərək “peyğəmbər-hakim” anlayışını da əlavə edir. Platonun fikrincə, filosof ideyalar aləmini dərk edərək cəmiyyəti idarə edir. Fərabiyə görə isə həm filosof, həm də peyğəmbər eyni mənbədən, yəni fəal ağıldan bəhrələnir. Lakin filosof bunu düşüncə ilə, peyğəmbər isə vəhy yolu ilə əldə edir. Fərabiyə görə feyz fəlsəfəsi həqiqi fəlsəfədir və səadətə yalnız bu fəlsəfəni dərk edib, onun tələb etdiyi şeylərə əməl edən nail ola bilər.

Ancaq cahil şəhərlərin əhalisinin fikirləri bu fəlsəfədən tamamilə uzaqdır. Fərabi kitabın sonunda ədalət məsələsində cahil şəhərlərin əhalisinin fikirlərini söyləyir. Ədalət onlara görə güclünün zəif üzərində öldürərək və ya qul edərək hökmranlığı və qənimətin qalib tərəfdə hər kəsin mərtəbəsinə görə bölünməsidir. Əgər ədalət alış-verişə, əmanətlərin qaytarılmasına tətbiq edilsə, ona riayət edilməsi ədalət sevgisindən deyil qorxudan olacaq. Eyni bərabər qüvvələrə malik iki dəstə arasında döyüş uzun çəksə aralarında sülh bağlayarlar. Lakin bu sülhü sevməkdən deyil, həlak olmaq qorxusundan olar. Əgər onlardan biri özünün digərindən qüvvəli olduğunu hiss etsə, onunla döyüşüb onu məğlub etmək istəyər. Əgər aralarında konflikt olan iki dəstənin ortaq

düşməni olarsa ortaq düşmənlərinə qarşı birlikdə vuruşmaq üçün aralarındakı konflikti unudarlar. İnsanlar bunun sülhü sevməkdən irəli gəldiyini zənn edərlər, laikn işin həqiqətini bilməzlər.

Nəticə olaraq, bu əsaslara söykənməyən cəmiyyətlər dağılmağa məhkumdur. Həqiqətləri bildiyi halda onlara uyğun yaşamayan cəmiyyət isə fasiq sayılır və onun aqibəti mənəvi cəza ilə nəticələnir.

Fəlsəfi mətnlərin tərcüməsində ən mühüm çətinliklərdən biri terminlərə uyğun və dəqiq qarşılıqların tapılmasıdır. Bu terminlər sadəcə lüğəvi məna daşımır, eyni zamanda konkret fəlsəfi anlayış və konsepsiyaları özündə ehtiva edir. Məsələn Əbu Nəsr Fərabi "aql" (العقل) anlayışını sadəcə insanların anladığı gündəlik düşünmə qabiliyyəti kimi yox, insanın həqiqəti dərk etməsini təmin edən çoxsəviyyəli idrak gücü kimi izah edir. Onun sistemində "aql" həm insan nəfsində olan qabiliyyət, həm də kosmik səviyyədə mövcud olan prinsipdir. Əbu Nəsr Fərabiə görə fəal ağıl (العقل الفعّال) insanın daxilində deyil, ondan kənarda mövcud olan və bütün biliklərin qaynağı sayılan metafizik bir ağıldır. İnsan ağlı inkişaf edərək müəyyən kamillik səviyyəsinə çatdıqda, bu fəal ağılla əlaqə qurur və həqiqətləri ondan əldə edir. Həmçinin Fərabi fəlsəfəsində "feyz" (فيض) anlayışı varlığın Tanrıdan birbaşa deyil, mərhələli şəkildə ortaya çıxaraq bütün kainata doğru yayılması prosesini bildirir. Bu konsepsiya neoplatonizmdəki emanasiya ideyasının İslam fəlsəfi düşüncəsində yenidən işlənmiş forması kimi dəyərləndirilir.

Bu kimi əsərlərdə çoxsaylı fəlsəfi terminlər mövcuddur və onların tərcüməsi zamanı düzgün terminoloji seçim yalnız dil bilikləri ilə kifayətlənmir, eyni zamanda tərcüməçidən ciddi fəlsəfi hazırlıq tələb edir. Bu seçimlər isə mətnin ümumi məzmununun və mənasının formalaşmasında həlledici rol oynayır.

**Ədəbiyyat siyahısı**

**نظرية الدولة عند الفارابى- د. مصطفى سيد أحمد صقر** – الناشر: مكتبة الجلاء الجديدة 1989

**كتاب آراء أهل المدينة الفاضلة– أبو نصر الفارابي** – الناشر: دار المشرق 1986

**Pərviz Ağayev**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Elmi işçi*
*E-mail: agayev_parviz@mail.ru*
*ORCİD: 0009-0004-3156-5319*

# İMADƏDDİN İSFAHANİNİN TARİXİ ALİ SƏLCUQ SALNAMƏSİ NUSRATUL-FATRA VA USRATUL-FİTRA ƏSƏRİNİN PARİS ƏLYAZMASI ƏSASINDA

**Xülasə**

İmadəddin İsfahaninin "Tarixi Ali Səlcuq" əsəri XII əsr şərq və islam tarixşünaslığının ən mühüm nümunələrindən biridir və Səlcuq dövlətinin siyasi, ideoloji və mədəni həyatını özündə əhatəli şəkildə əks etdirir. Müəllif o dövrə aid hadisələri təkcə xronoloji ardıcıllıqla təqdim etmir, eyni zamanda onları bədii üslubla zənginləşdirərək oxucuya canlı və təsirli şəkildə çatdırır. Onun bu əsərində sultanlar qəhrəman obrazında, vüzəra isə ağıl və hikmətin təcəssümü kimi dəyərləndirilir. Ədibin saray mühitində dövlət xadimi olaraq fəaliyyət göstərməsi ona hadisələri birbaşa müşahidə etmək imkanı vermiş, bu isə əsərin həm etibarlılığını artırmış, həm də müəyyən subyektiv yanaşmalara səbəb olmuşdur. Əsər Səlcuq dövlətinin yüksəlişi, idarəçilik sistemi, saray çəkişmələri və zəifləmə mərhələsini geniş şəkildə təsvir edir. Bununla yanaşı, dövlətin siyasi legitimliyi, din-dövlət münasibətləri əsərin əsas prioritet mövzulardandır. Klassik ərəb nəsrinin yüksək üslubunda yazılmış, təşbehlər və dini istinadlarla zənginləşdirilmişdir. Bu xüsusiyyət əsəri sadə xronikadan fərqləndirərək ədəbi-tarixi abidəyə çevirir. Müasir tədqiqatçılar üçün etibarlı mənbə olan bu əsər həm də orta əsr siyasi düşüncəsinin və tarix yazıçılığı ənənələrinin öyrənilməsində mühüm əhəmiyyət daşıyır.

***Açar sözlər**: İmadəddin İsfahani, Tarixi Ali Səlcuq, Səlcuq dövləti, XII əsr tarixşünaslığı*

# IMADADDIN AL-ISFAHANI'S NUSRAT AL-FATRA WA ʿUSRAT AL-FITRA: THE CHRONICLE OF THE GREAT SELJUKS. A LITERARY AND SCHOLARLY ENGLISH TRANSLATION BASED ON THE PARIS MANUSCRIPT

**Abstract**

Imadaddin al-Isfahani's work *Tarikh-i Āl-i Seljuq* (*The History of the Great Seljuks*) is one of the most significant examples of 12th-century Eastern and Islamic historiography, providing a comprehensive reflection of the political, ideological, and cultural life of the Seljuk State. The author does not merely present the events of his time in chronological order; he also enriches them with an eloquent literary style, conveying them to the reader in a vivid and impactful manner. In this work, sultans are portrayed as heroic figures, while viziers are presented as embodiments of intellect and wisdom. The author's service as a statesman within the court environment enabled him to directly observe many events, which enhanced the reliability of the work while also leading to certain subjective interpretations. The work extensively describes the rise of the Seljuk State, its administrative system, court conflicts, and the period of decline. In addition, the political legitimacy of the state and the relationship between religion and government are among the central themes of the work. Written in the refined style of classical Arabic prose and enriched with metaphors and religious references, the work goes beyond a simple chronicle and becomes a literary-historical monument. As a valuable source for modern researchers, this work holds great significance for the study of medieval political thought and the traditions of historical writing.

***Key words**: Imadaddin al-Isfahani, Tarikh-i Āl-i Seljuq (The History of the Great Seljuks), the Seljuk State, 12th-century historiography*

**Giriş**

Tarix bəzən quru hadisələr silsiləsi deyil, zamanın isti nəfəsini içində daşıyan bir dastandır. Bu dastanı yaşadan isə yalnız fatehlərin qılıncı deyil, salnaməçilərin mürəkkəbi və qələmidir. XII əsr islam dünyasının ən parlaq qələm sahiblərindən biri olan İmadəddin İsfahani məhz belə bir missiyanı öz üzərinə götürmüş, Ali Səlcuq dövlətinin siyasi və mənəvi taleyini sözün incə ipi ilə toxumuşdur. İmadəddin İsfahani təkcə tarixçi deyildi. O, sözün sehrinə inanan, nəsri poeziya ilə qovuşduran, hadisələri sadəcə qeyd etməklə kifayətlənməyib, onları oxucunun gözləri önündə canlandıra bilən bir yazar idi. İsfahaninin Səlcuqlara dair tarixi əsərləri, xüsusilə dövlətin yüksəliş və ehtişam dövrlərini əks etdirən salnamələri rəsmi xronika çevrəsini aşaraq ədəbi abidəyə çevrilmişdir. Ali Səlcuq dövləti islam dünyasında, ələlxüsus da türk dünyasında dövlət nizamının, siyasi gücün və mədəni dirçəlişin simvolu idi. İsfahani bu dövləti sadəcə idarəçilik mexanizmi kimi deyil, tarixin iradəsi ilə yoğrulmuş canlı bir varlıq kimi təqdim edir. Sultanlar onun qələmində təkcə hökmdar deyil, taleyin ağır yükünü daşıyan qəhrəmanlardır. Əsərlərində adını tez-tez sadaladığı vəzir Xacə Nizamülmülk isə sadəcə dövlət adamı yox, ağıl və hikmətin təcəssümü olaraq dəyərləndirilmişdir. İsfahaninin istifadə etdiyi ədəbi-bədii üslub oxucunu sakit bir müşahidəçi olmaqdan çıxarıb hadisələrin içinə, tam mərkəzinə çəkir. Qanlı döyüş səhnələri onun dilində təkcə qılınc səsi ilə deyil qürur, fəxarət, bəzən də qorxu ilə təsvir edilir. Saray çəkişmələri bəsit bir məlumat kimi yox, insanların siyasi ehtiraslarının səhnəsi kimi təqdim edilir. Bu və ya digər baxımdan İmadəddin İsfahaninin tarixi nəsri, klassik şərq ədəbiyyatının ənənələri ilə yoğrulmuş bədii bir salnamədir. Onun dili ağır, lakin ehtişamlıdır. Hər cümlə sanki mərmər üzərinə nəqş edilmiş silinməz yazını xatırladır. Təşbehlər, metaforalar, Quran ayələrinə və klassik poeziyaya işarələr, incə toxunuşlar mətni sadə oxunuşdan çıxarıb insan zehnini estetik səyahətə daşıyır. İsfahani üçün tarix Allahın yer üzündəki iradəsinin təcəssümüdür və bu baxış onun hər sətirində hiss olunur. Əsərin ən qiymətli cəhətlərindən biri də müəllifin şahid mövqeyidir. O, hadisələri təkcə uzaqdan və ya başqalarının dilindən eşidən tarixçi deyil əksinə saray mühitində yaşamış, dövlət işlərinin içində olmuş bir ziyalıdır. Bu isə onun yazdıqlarına canlılıq, səmimilik və bəzən də kədərli bir nostalji qatır. Səlcuq dövlətinin zəifləməyə doğru getdiyi məqamlar İsfahaninin qələmində sanki bir dövrün süqutu kimi təsvir olunur, həm siyasi həm də mənəvi bir itki kimi qiymətləndirilir. İmadəddin İsfahaninin Ali Səlcuqa dair əsəri bu gün də tədqiqatçılar üçün yalnız tarixi mənbə deyil, ədəbi düşüncənin nümunəsi kimi dəyərlidir. O, tarix yazmağın öz-özlüyündə bir sənət nümunəsi olduğunu əməli şəkildə sübut etmişdir. Onun qələmi bizə göstərir ki, dövlətlər çökə bilər, taxtlar dağıla bilər, lakin söz əgər qiymətli və dəyərlidirsə, sənətkarlıqla yazılıbsa demək o zamanın fövqündə yaşamağı bacarır və hər zaman da bacaracaq. Ona görə də İsfahaninin Səlcuq salnaməsi keçmişin tozlu səhifəsi deyil, bu gün də oxucunu düşündürən, hiss etdirən və tarixlə üz-üzə qoyan canlı ədəbi bir abidədir.

**Əsas mətn**

XII əsr tarixşünaslığında mühüm yer tutan müəlliflərdən biri olan İmadəddin İsfahani (1125–1201) Şərq ədəbiyyatında, türk və ərəb tarixşünaslığında xüsusən də Ali Səlcuq dövlətinin siyasi tarixini böyük ustalıqla qələmə alması ilə tanınır. Onun bu sahədəki əsas məqsədi yalnız hadisələri xronoloji ardıcıllıqla təqdim etmək deyil, Səlcuqluların hakimiyyətinin ideoloji əsaslarını, saray mühitini və dövlət idarəçiliyinin mexanizmlərini qələmə almaq və yazılı şəkildə gələcək nəsillərə ötürmək olmuşdur. İsfahaninin Səlcuqlara dair tarixi əsərləri orta əsr islam tarixşünaslığının həm

mənbə, həm də ədəbi-tarixi nümunəsi kimi xüsusi əhəmiyyət daşıyır. Əsər əsasən Ali Səlcuq dövlətinin yüksəliş və qüdrət dövrünü özündə ehtiva edir. Müəllif hadisələri sultanların hakimiyyəti kontekstində təqdim edir və siyasi prosesləri saray mərkəzli yanaşma ilə izah edir. Dövlətin hərbi yürüşləri, idarəçilik sistemi, vəzirlik sistemi və saray daxilində baş verən münasibətlər əsərin əsas sujet xəttini təşkil edir. Bu baxımdan İsfahaninin əsəri Səlcuq dövlətinin strukturu haqqında mühüm məlumatlar verir. İmadəddin İsfahaninin tarix yaradıcılığında diqqət çəkən əsas cəhətlərdən biri müəllifin hadisələrə şahid mövqeyindən yanaşmasıdır. O, uzun müddət Səlcuq sarayında katib və məmur kimi fəaliyyət göstərdiyi üçün dövlət işlərinin bilavasitə içində olmuşdur. Bu amil onun verdiyi məlumatların dəqiqliyini, konkretliyini və detallılığını artırmaqla yanaşı, bəzən subyektiv yanaşmanın da meydana çıxmasına səbəb olmuşdur. Müəllif bəzi sultanları və dövlət xadimlərini idealizə edir, onlarda olan üstünlükləri və məziyyətləri bir örnək kimi təqdim edir. Müxalif mövqedə olan fiqurlara isə tənqidi münasibət sərgiləyərək bunu açıq şəkildə öz yazılarında ifadə edir.

Əsərin dili və üslubu klassik ərəb nəsrinin yüksək nümunələrindən hesab olunur. İsfahani tarixi məlumatları bədii ifadə vasitələri ilə zənginləşdirir, lakin bu bədii üslub məlumatın əsas mahiyyətinə xələl gətirmir. Əksinə, onun ritorik dili siyasi hadisələrin təsvirini daha sistemli və ideoloji baxımdan əsaslandırılmış şəkildə təqdim edir. Bu xüsusiyyət əsəri sırf xronika olmaqdan çıxarıb ədəbiyyatla tarix arasında keçid mətninə çevirir. Mənbəşünaslıq baxımından İmadəddin İsfahaninin əsəri Ali Səlcuq dövləti dövrünü öyrənən tədqiqatçılar üçün ilkin və etibarlı mənbələrdən biri hesab olunur. Əsər Səlcuq idarəçilik ənənələrinin, siyasi legitimlik anlayışının və din-dövlət münasibətlərinin öyrənilməsində mühüm rol oynayır. Bunu da xüsusi olaraq vurğulamaq lazımdır ki, araşdırma və tədqiqat zamanı müəllifin mövqeyi nəzərə alınmalı, əsər digər mənbələrlə müqayisəli şəkildə təhlil edilməlidir. Çüki qeyd olunan əksər tarixi hadisələrə subyektiv yanaşma əsərdə daha çox üstünlük təşkil edir. İsfahaninin Ali Səlcuq dövlətinin tarixinə dair əsəri orta əsr islam tarixşünaslığında həm faktoloji zənginliyi, həm də üslubi xüsusiyyətləri ilə seçilir. Əsər yalnız Səlcuq siyasi tarixinin öyrənilməsi üçün deyil, eyni zamanda orta əsr tarix yaradıcılığının metodoloji və ideoloji xüsusiyyətlərini anlamaq baxımından da mühüm elmi dəyərə malikdir.

Müəllif İmadəddin İsfahani XII əsr islam dünyasının tanınmış katib, tarixçi və ədibidir. O, Səlcuq və daha sonra Zəngi, Əyyubi saraylarında yüksək vəzifələrdə çalışmış, dövlət idarəçiliyinin mərkəzində yer almışdır. Bu mövqe ona Ali Səlcuq dövləti ilə yanaşı Abbasi xilafətinin eləcə də Zəngi və Əyyubi dövətlərinin tarixinə dair məlumatlar vermək həmçinin siyasi həyatlarını yaxından müşahidə etmək imkanı vermişdir. Müəllifin Səlcuq sülaləsinin tarixini sistemli şəkildə təqdim etmək məqsədi ilə qələmə aldığı bu əsər əsasən böyük Səlcuq dövlətinin XI–XII əsrlərdəki siyasi mühitini özündə ehtiva edir. Əsər həm sifariş xarakteri daşıyır, həm də Səlcuq hakimiyyətinin legitimliyini əsaslandırmaq məqsədi güdür.

Elmi ədəbiyyatda həmin əsər əsasən aşağıdakı adlar ilə tanınır:

- زبدة النصرة ونخبة العصرة **“Zubdatul-Nusra və Nuxbətul-Usra”**
- تأريخ آل سلجوق **“Tarixi Ali Səlcuq”**
- نصرة الفترة و عصرة الفطرة **“Nusratul-Fatra va Usratul-Fitra”**

Bu ad fərqliliyi orta əsr əlyazma ənənəsi ilə bağlıdır. Məzmun baxımından isə söhbət Ali Səlcuq sülaləsinin siyasi tarixini əks etdirən vahid bir əsərdən gedir.

Əsər klassik ərəb dilində, yüksək ritorik üslubda yazılmışdır. İmadəddin İsfahani katiblik (inşa) məktəbinin nümayəndəsi kimi: mürəkkəb cümlə quruluşundan, bədii təşbehlərdən, Quran ayələri və ədəbiyyat nümunələrindən bədii təsvir və ifadə vasitələrindən geniş istifadə etmişdir. Bu üslub

əsəri sırf xronoloji salnamə olmaqdan çıxarır və ona ideoloji, ədəbi estetik gözəllik və xarakter qazandırır. Bununla belə, əsərin əsas məqsədi tarixi məlumatı oxucuya çatdırmaq və faktoloji zənginliyi qorumaqdır. Demək olar ki, əsər əsasən sultanların hakimiyyəti əsasında qurulmuşdur. Əsərdə aşağıdakı mövzular geniş yer tutur:

- Səlcuq sülaləsinin mənşəyi və hakimiyyətə gəlişi
- Sultan Toğrul bəy və Alp Arslanın fəaliyyəti
- Məlikşah dövründə dövlətin siyasi və ərazi baxımından zirvəyə çatması
- Vəzir Nizamülmülkün rolu və idarəçilik sistemi
- Saray daxili mübarizələr və taxt çəkişmələri
- Ali Səlcuq dövlətinin zəifləmə mərhələsi

Müəllif yuxarıdakı bəndlərdə qeyd edilən hadisələri yalnız sadalamır, onların siyasi səbəblərini və nəticələrini tək-tək şərh edir. Sonda isə dövlət nizamının pozulmasını mənəvi və inzibati amillərlə əlaqələndirir.

İsfahaninin "Nusratul-Fatra va Usratul-Fitra" əsəri Səlcuq sülaləsinin tarixi baxımından orta əsr tarixşünaslığında birbaşa müşahidələrə əsaslanan ilk mənbə kimi xüsusi önəm daşıyır. İmadəddin İsfahani həmin dövrü yaşadığı üçün bu əsər Səlcuq dövlətinin siyasi, inzibati və sosial strukturuna dair şəxsən müşahidə edilmiş məlumatları özündə cəm etmişdir. Beləliklə bu əsər digər çoxsaylı xronikalar ilə müqayisədə istənilən tədqiqatçıya və ya oxucuya hadisələrin içindən gələn bir baxış təəssüratı qazandırır. Çünki əsər Ali Səlcuq hakimiyyətinin və dövlət idarəçiliyinin məhz öz vaxtında yazılmış əsas mənbəsi hesab olunur. Əsər bizlərə sadəcə xronoloji hadisələrin ardıcıllığını vermir, həmçinin dövlətin:

- saray məntiqi və siyasi legitimliyi,
- vəzirlik institutu və məmur hierarxiyası,
- sultanların xarici və daxili siyasəti,

kimi struktur elementlərini özündə əks etdirir. Beləliklə o dövr üçün əsər həm tarixi hadisələrin salnaməsi, həm də siyasi sistemin təsviri rolunu oynayırdı.

Müasir dövrdə əsərin tam tənqidi mətni nəşr olunmuşdur və bu da həmin mənbəni alimlər üçün əlçatan etmişdir. Buna örnək olaraq tədqiqatçı alim Essam Mustafa Okleh tərəfindən redaktə olunmuş iki cildlik nəşr "The History of the Seljuks" əsərinin tam mətni əsasında hazırlanmışdır ki, bu da öz növbəsində Səlcuqların tarixi üzrə yeni tədqiqatlara ciddi stimul vermişdir. Bu nəşr İsfahaninin əsərini yalnız qısa versiyalardan ibarət olan xüsusilə də əl-Bundari ixtisarından deyil, orijinal mətndən oxumaq imkanı yaradır. Mənbənin anlaşılan olması onun elmi istifadəsini əhəmiyyətli dərəcədə artırmışdır. İsfahaninin əsərini Səlcuq dövrünün tədqiqatında əsas mənbə kimi qəbul edən müasir tarixçilərdən Andrew Peacock (St Andrews Universiteti) Səlcuq tarixini araşdırarkən bu əsəri "Səlcuq dövləti tarixi üzrə ən vacib mənbə" kimi xarakterizə etmişdir. Bu cür müasir tədqiqatçılar İsfahaninin əsərini Səlcuqların siyasi legitimliyi, mərkəzi hakimiyyətin strukturu və dövrün siyasi münaqişələri kimi məsələlərin tədqiqində obliqator mənbə kimi istifadə edirlər. Bu həm də onu göstərir ki, əsər müasir tarixşünaslığın metodoloji bazasında da əhəmiyyətli yer tutur. Əsər müqayisəli tarixşünaslıq baxımından da xüsusi yerə malikdir.

Çünki "Nusratul-fatra" kitabı digər çağdaş salnamələrlə müqayisədə (məsələn, İbn əl-Əsir və digər ərəb tarixçiləri) daha çox detallı siyasi təhlil və saray hadisələrini açır. Bu isə müasir tarixçilərə:

- Səlcuq dövrünün siyasi aktyorlarını
- Dövlət idarəçilik mexanizmlərini
- Regionlararası münasibətləri

daha dərindən anlamaq üçün zəngin analitik material verir. Beləliklə əsər müasir müqayisəli tarixi araşdırma metodlarının tərkib hissəsinə çevrilmişdir. Əsər yazıldığı dövrdə Ali Səlcuq hakimiyyətinin siyasi legitimliyini möhkəmləndirmək, sultanların hakimiyyətini ilahi iradə çərçivəsində olduğunu əsaslandırmaq və bunu insanlara aşılamaq funksiyası daşıyırdı. İsfahani sultanları "nizam yaradan" və "fitnəni aradan qaldıran hökmdarlar" kimi təqdim edirdi. Bu da öz növbəsində orta əsr islam siyasi düşüncəsinin əsas prinsiplərinə uyğun idi. Beləliklə, əsər yalnız tarix kitabı deyil, eyni zamanda ideoloji-siyasi manifest xarakteri daşıyırdı. Bundan əlavə, "Tarixi Ali Səlcuq" öz dövrü üçün dövlət idarəçiliyinin yazılı modeli rolunu oynamışdır. Vəzirlik institutu, məmur iyerarxiyası, saray etiket qaydaları və siyasi qərarların qəbul mexanizmi əsərdə sistemli şəkildə əks olunmuşdur. Bu xüsusiyyət onu Səlcuq dövrü tarixinin əsas mənbəsinə çevirmişdir.

Müasir dövrdə həmin əsər bir çox tarixçi və yazarın xüsusən Səlcuqlular, Abbasilər, Əyyubilər və Zəngilər dövrünü tədqiq edən mütəxəssislər üçün yeni üfüqlər açmışdır. İsfahaninin "Tarixi Ali Səlcuq" əsəri aşağıdakı tanınmış müasir tarixçi və tədqiqatçıların araşdırmalarında əsas mənbə kimi istifadə olunmuşdur:

**Claude Cahen**
Səlcuqların sosial və siyasi tarixi üzrə fundamental tədqiqatlarında

**Carole Hillenbrand**
İslam orta əsrləri və Səlcuq–Abbasi münasibətləri kontekstində

**Andrew C.S.Peacock**
Böyük Səlcuq dövləti və legitimlik ideologiyası mövzusunda

**A. K. S. Lambton**
Orta əsr İran və Səlcuq idarəçilik sistemi araşdırmalarında

**D. S. Richards**
Səlcuq mənbələrinin tərcümə və təhlilində
Bu tədqiqatçılar İsfahaninin əsərini həm siyasi, həm tarixi, həm də mənbəşünaslıq baxımından etibarlı və əvəzolunmaz qaynaq kimi qiymətləndirmişlər.

Əsərin orijinal əlyazma nüsxələrinin saxlanmasına gəlincə əsərin Paris şəhərində unikal nüsxəsi ən məşhur və etibarlı mənbə kimi "Bibliotheque Nationale de France" kitabxanasında saxlanılır. Bu nüsxə ərəb dilində tam mətni əks etdirən "MS arabe 2145" işarəli əlyazmadır və əsər uzun müddət itmiş hesab olunurdu. Müasir tədqiqatlar və nəşrlər məhz bu Parisdəki əlyazma əsasında həyata keçirilib. Bu nüsxənin mövcudluğu İsfahaninin əsərinin tam mətni üçün birinci mənbə kimi əvəzsizdir və orta əsr tarixşünaslığı üçün izahlı, faktoloji məlumatı qoruyub saxlamaq baxımından böyük əhəmiyyət kəsb edir.

**Nəticə**

Son nəticədə onu xüsusi qeyd etmək lazımdır ki, müasir dövrümüzdə əsərin tənqidi mətni "Al-Furqan İslamic Heritage Foundation" tərəfindən mükəmməl və nəfis tərtibatda redaktə edilmiş və nəşr olunmuşdur. 2019-cu ildə Essam Mustafa Okleh tərəfindən redaktə olunmuş "Nusrat al-Fatrah wa-Usrat al-Fitrah (The History of the Seljuks)" adlı iki cildlik nəşr hazırlanmışdır ki, bu da əsərin tam mətni üzrə akademik istifadəyə geniş imkanlar yaradır. Bu nəşr Parisdəki orjinal əlyazma üzərində qurulub və elmi tədqiqatlarda ona çoxlu istinadlar olunur. Həmin bu elmi nəşr həm fiziki, həm də rəqəmsal formatda mövcuddur və bu da müasir zamanımızda araşdırmaçılara

ələlxüsus da orta əsr tədqiqatçılarına Səlcuq tarixini birbaşa əsas mənbədən oxumaq imkanı yaradır.

**Ədəbiyyat siyahısı**

خريدة القصر و جريدة العصر \ الطبعة الأولى \ العام 1999 \ تحقيق الدكتور عدنان محمد آل طعمه
نصرة الفترة و عصرة الفطرة \ الطبعة الأولى \ العام 2019 \ تحقيق الدكتور عصام مصطفى عقلته

**Yeganə Pirəliyeva**
*Azərbaycan Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktoru*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı*
*E-mail: piraliyevayegana@mail.ru*
*ORCİD: 0009-0007-2268-6196*

# QƏDİM MÜALİCƏ ƏNƏNƏLƏRİ HAQQINDA ƏLYAZMALAR İLKİN TİBBİ İNFORMASİYA RESURSLARI KİMİ

**Xülasə**

Qədim müalicə ənənələri və tibbi əlyazmalar bəşəriyyətin elmi-mədəni irsinin ən mühüm tərkib hissələrindən biridir. İlk tibbi biliklər qədim Misir, Yunanıstan, Hindistan, Çin və digər sivilizasiyalarda formalaşaraq əlyazmalar vasitəsilə qorunmuş və gələcək nəsillərə ötürülmüşdür. Ebers Papirusu, Hippokrat Korpusu, Charaka Samhita, Sushruta Samhita və Huangdi Neijing kimi mənbələr tibbi biliklərin sistemləşdirilməsində mühüm rol oynamışdır. Qədim müalicə ənənələri xəstəliklərin diaqnostikası, müalicəsi və profilaktikasına dair ilkin elmi yanaşmaların formalaşmasına şərait yaratmışdır. Xüsusilə Hippokrat məktəbi tibbdə müşahidə və təcrübəyə əsaslanan metodologiyanın əsasını qoymuş, sonrakı dövrlərdə klinik təbabətin inkişafına təsir göstərmişdir. Bizans dövründə və Orta əsrlərdə tibbi əlyazmaların köçürülməsi və qorunması qədim elmi biliklərin yaşadılmasına xidmət etmişdir. İslam dünyasının alimləri, xüsusilə İbn Sina, Əl-Razi və Əl-Zəhrawi antik tibbi irsi zənginləşdirərək dünya təbabətinin inkişafına mühüm töhfələr vermişlər. Müasir dövrdə qədim müalicə ənənələrinin bir sıra elementləri, o cümlədən fitoterapiya, meditasiya və holistik yanaşmalar tamamlayıcı tibb sahəsində tətbiq olunmaqdadır. Tibbi əlyazmalar yalnız tarixi mənbə deyil, həm də tibbi biliklərin inkişaf mərhələlərini əks etdirən qiymətli informasiya resursları kimi mühüm əhəmiyyət daşıyır.

***Açar sözlər:*** *tibbi əlyazmalar, qədim tibb, Hippokrat, Ayurveda, Ebers Papirusu, Bizans elmi, tibb tarixi, müalicə ənənələri*

# ANCIENT HEALING TRADITIONS IN EARLY MEDICAL MANUSCRIPTS AS PRIMARY INFORMATION SOURCES

**Abstract**

Ancient healing traditions and medical manuscripts constitute an essential part of humanity's scientific and cultural heritage. Early medical knowledge emerged in ancient civilizations such as Egypt, Greece, India, and China and was preserved and transmitted through manuscripts. Sources such as the Ebers Papyrus, the Hippocratic Corpus, the Charaka Samhita, the Sushruta Samhita, and the Huangdi Neijing played a significant role in the systematization of medical knowledge. These traditions contributed to the development of early scientific approaches to the diagnosis, treatment, and prevention of diseases. In particular, the Hippocratic school established a methodology based on observation and experience, which later influenced the development of clinical medicine. During the Byzantine and medieval periods, the copying and preservation of medical manuscripts ensured the survival of ancient scientific knowledge. Scholars of the Islamic Golden Age, especially Avicenna, Al-Razi, and Al-Zahrawi, enriched the classical medical heritage and made substantial contributions to world medicine. In the modern era, several elements of ancient healing traditions, including herbal medicine, meditation, and holistic

approaches, continue to be applied within complementary medicine. Medical manuscripts are not only valuable historical documents but also important informational resources reflecting the evolution of medical knowledge and practice throughout history.
***Key words:*** *medical manuscripts, ancient medicine, Hippocrates, Ayurveda, Ebers Papyrus, Byzantine science, history of medicine, healing traditions*

**Giriş**

Qədim tibbi əlyazmalar bəşəriyyətin sağlamlıq və xəstəliklərə dair topladığı ilkin biliklərin sistemləşdirilmiş şəkildə əks olunduğu ən mühüm informasiya mənbələrindən hesab edilir. Bu mənbələrdə əks olunan müalicə ənənələri sonrakı dövrlərdə tibbi nəzəriyyələrin və praktik yanaşmaların formalaşmasına əhəmiyyətli təsir göstərmiş, dünya tibb irsinin əsasını təşkil etmişdir.

II əsrin sonlarından etibarən yeni din olan xristianlığın təsiri altında və dərin sosial-mədəni dəyişikliklər nəticəsində formalaşan yeni cəmiyyət şəraitində İsgəndəriyyədə və Aralıq dənizi hövzəsinin digər elm mərkəzlərində yaradılan elm artıq Ellinizm dövründəki kimi deyildi. Bununla belə, bu prosesi tamamilə tənəzzül kimi qiymətləndirmək nə dərəcədə doğrudur? Bir tərəfdən ideoloji və mənəvi transformasiyalar, digər tərəfdən isə siyasi və etnik qarışıqlıqlar bir çox elm tarixçilərinin xüsusilə II əsrin sonlarından başlayaraq "ümumi geriləmə" haqqında danışmasına səbəb olmuşdur. Siyasi qeyri-sabitlik alimlərin ehtiyaclarına uyğun təhsil proqramlarının formalaşmasına mane olur və yeni elmi ideyaların yaranmasını çətinləşdirirdi (A Companion to Byzantine Illustrated Manuscripts, 2017: 2).

Lakin intellektual marağın zəifləməsinə baxmayaraq, Bizans alimləri qədim mətnləri köçürməyə, şərh etməyə və bəzən yenidən işləməyə davam etmişlər. Bizans elmi əsasən antik dövrün çoxsaylı traktatlarından, həmçinin İsgəndəriyyə, Afina və Suriya məktəblərinin elmi ənənələrindən qaynaqlanan şərhlərdən ibarət idi. Bu zəngin bilik irsi ərəb, latın və ivrit dillərində yazılmış qeyri-yunan əsərləri ilə də zənginləşdirilmişdir. Orijinal əsərlər yaradan bir neçə görkəmli Bizans alimi istisna olmaqla, alimlərin böyük əksəriyyəti elmi sahələri tam mənimsəməyən və izah etdikləri mövzunu hər zaman dərindən anlamayan şəxslər hesab olunurdu (A Companion to Byzantine Illustrated Manuscripts, 2017: 2).

Bununla belə, mövcud biliklərin qorunması Bizanslılar üçün müqəddəs bir vəzifə idi və kitabların taleyi onları ciddi şəkildə narahat edirdi. Bizans mənbələrində kitablara xüsusi dəyər verilməsi onların mədəniyyətin və kollektiv yaddaşın əsas daşıyıcısı kimi qəbul edildiyini göstərir. Bizanslılar kitabları öz sivilizasiyalarının qoruyucuları hesab edir, əcdadlarından qalan biliklərin məhz onların vasitəsilə yaşadığını düşünürdülər. Buna görə də yeni əlyazmaların köçürülməsi və bu biliklərin tədris yolu ilə gələcək nəsillərə ötürülməsi mühüm missiya sayılırdı.

Əslində, yunan elminin "tənəzzülü" daha çox qədim dünyanın dini və ictimai strukturlarının tədricən dağılması ilə əlaqədar ümumi tarixi prosesin əksi kimi qiymətləndirilə bilər. İnstitusional quruluşlar və dəyər sistemləri dəyişdikcə, kainat və təbiət haqqında elmi təsəvvürlər də dəyişirdi. Yeni dövrdə alimlər təbiəti xristian dünyagörüşü çərçivəsində izah etməyə və ya qədim biliklərdən dini-tərbiyəvi məqsədlərlə istifadə etməyə çalışırdılar.

Bu meyllər müxtəlif elm sahələrində özünü göstərirdi. Məsələn, IV əsrdə yaşamış Panopolisli Zosimosun əlkimya ilə bağlı əsərləri çox vaxt mürəkkəb, təmtəraqlı və elmi ardıcıllıqdan uzaq hesab olunurdu. Eyni vəziyyət əvvəlcə yunan dilində yazılmış "Physiologus" əsərində, daha sonra isə onun latın versiyalarında və illüstrasiyalı bestiarilərdə də müşahidə edilirdi. Bəzi tədqiqatçılar hesab edirlər ki, erkən Bizans cəmiyyəti qədim elmi bilikləri tam

şəkildə qoruyub saxlamaq imkanına malik deyildi. Bundan əlavə, John Philoponus kimi alimlərin bütpərəst mənbələrdən əldə edilən biliklərə qarşı tənqidi münasibəti bu prosesin sürətlənməsinə təsir göstərmişdir (A Companion to Byzantine Illustrated Manuscripts, 2017: 3).

Tibbi əlyazmalar insanlıq tarixində tibb elminin formalaşmasını əks etdirən ən qədim yazılı mənbələrdir. Bu mənbələr yalnız xəstəliklərin təsviri və müalicə üsullarını deyil, həm də dövrün fəlsəfi, dini və elmi dünyagörüşünü özündə birləşdirir. Qədim Misirdən başlayaraq Yunan-Roma sivilizasiyası, İslam Qızıl Dövrü, Hindistan və Çin tibbi məktəblərinə qədər müxtəlif coğrafiyalarda yaradılan əlyazmalar müasir tibbin inkişafına əsaslı təsir göstərmişdir (Medieval Manuscripts at the National Library of Medicine URL: https://www.nlm.nih.gov/hmd/topics/medieval/index.html).

Ən qədim tibbi yazılı mənbələrdən biri Qədim Misirə aid Ebers Papirusudur ki, təxminən e.ə. 1550-ci ilə aiddir. Bu papirusda minlərlə tibbi resept, bitki mənşəli müalicələr və xəstəliklərin təsnifatı yer alır. Digər mühüm mənbə Edwin Smith Papirusudur və bu sənəd daha çox travmatologiya və cərrahiyyə ilə bağlı sistemli biliklər təqdim edir. Bu tip əlyazmaların bir hissəsi Almaniyada Leipzig Universitet Kitabxanasında, orijinalları isə Qahirə Misir Muzeyində qorunur (Metwaly A.M. ET al, 2021: 5825).

Qədim Yunanıstanda tibbin inkişafı xüsusilə Hippokratın adı ilə bağlıdır. Hippokrat və onun məktəbinə aid "Hippokrat Korpusu" klinik müşahidəyə əsaslanan tibbin başlanğıcını qoymuşdur və bu mətnlər uzun müddət Avropa tibb məktəblərində əsas dərs vəsaiti kimi istifadə edilmişdir. Daha sonralar Roma dövründə Qalen anatomiya və fiziologiyanı sistemləşdirərək tibbi biliklərin strukturlaşdırılmasına böyük töhfə vermişdir. Bu əlyazmaların mühüm nüsxələri Britaniya Kitabxanası və Fransa Milli Kitabxanası kimi böyük elmi mərkəzlərdə saxlanılır (Elendu, 2026: 2).

Qədim müalicə təcrübələri insan cəmiyyətlərinin tarixində mühüm yer tutmuş, müasir tibbin yaranmasından çox əvvəl insanların sağlamlığının qorunmasında və xəstəliklərin müalicəsində əsas rol oynamışdır. Bu ənənələr şaman ayinlərindən başlayaraq Hippokrat tibbinin sistemli yanaşmalarına qədər müxtəlif müalicə üsullarını əhatə etmişdir. Minilliklər keçməsinə və elmi biliklərin sürətlə inkişaf etməsinə baxmayaraq, qədim müalicə təcrübələri bu gün də müasir səhiyyə sistemlərinə, tibbi fəlsəfəyə, müalicə üsullarına və sağlamlıq anlayışına əhəmiyyətli təsir göstərməkdə davam edir.

Qədim Hindistanda isə Ayurveda insanın bədən, ağıl və ruh harmoniyasına əsaslanan bütöv bir tibbi sistem kimi inkişaf etmişdir. "Charaka Samhita" və "Sushruta Samhita" kimi klassik Ayurveda mətnlərində diaqnostika, müalicə və profilaktika prinsipləri, bitki mənşəli preparatlar, qidalanma qaydaları və yoqa təcrübələri ətraflı şəkildə təsvir edilmişdir. Bu əsərlər minilliklər boyu Şərq təbabətinin əsas qaynaqları olmuşdur.

Tibbi elmin inkişafında qədim yunan alimlərinin xidmətləri xüsusilə böyükdür. Klassik dövrdə yaşamış Hippokrat və Qalen tibbi biliklərin sistemləşdirilməsində mühüm rol oynamışlar. Hippokrat tibbi müşahidəyə, xəstəliklərin təbii səbəblərlə izahına və peşə etikası prinsiplərinə əsaslanan yeni yanaşma formalaşdırmışdır. Onun adı ilə bağlı olan "Hippokrat Korpusu" klinik tibbin əsaslarını qoyaraq simptomların sistemli şəkildə öyrənilməsini, proqnozun müəyyən edilməsini və müalicə nəticələrinin qiymətləndirilməsini təşviq etmişdir. Sonralar Roma imperiyasının görkəmli həkimi Qalen anatomiya, fiziologiya və farmakologiya sahələrində mühüm tədqiqatlar apararaq Hippokratın ideyalarını daha da inkişaf etdirmişdir.

Klassik qədim yunan dövründə insan meyitlərinin yarılması (autopsiya) qadağan edilmişdi. Bu səbəbdən qədim həkimlərin anatomik bilikləri əsasən müşahidələrə və təcrübəyə əsaslanırdı.

Qədim Hindistanda cərrahiyyə sahəsinin inkişafı bir çox hallarda Qədim Yunanıstandakı inkişaf səviyyəsini üstələyirdi. Bununla belə, qədim dövr təbibləri sarğı və bağlama üsullarını öyrənən desmurgiya sahəsində yüksək nailiyyətlər əldə etmişdilər. Cərrahiyyəyə dair qədim yunan mətnlərində sarğı texnikalarının təkmilləşdirilməsi, cərrahi əməliyyatlar, sınıqların, yaraların, çıxıqların və baş travmalarının, o cümlədən üz-çənə nahiyəsinin zədələrinin müalicəsi haqqında ətraflı məlumatlar verilmişdir. "Çıxıqlar haqqında" adlı əsərdə çıxıqların yerinə salınması üçün istifadə edilən mexaniki qurğu – "Hippokrat skamyası" təsvir edilmişdir.

Klassik qədim yunan dövründə insan meyitlərinin yarılması (autopsiya) qadağan edilmişdi. Bu səbəbdən qədim həkimlərin anatomik bilikləri əsasən müşahidələrə və təcrübəyə əsaslanırdı. Qədim Hindistanda cərrahiyyə sahəsinin inkişafı bir çox hallarda Qədim Yunanıstandakı inkişaf səviyyəsini üstələyirdi. Bununla belə, qədim dövr təbibləri sarğı və bağlama üsullarını öyrənən desmurgiya sahəsində yüksək nailiyyətlər əldə etmişdilər. Cərrahiyyəyə dair qədim yunan mətnlərində sarğı texnikalarının təkmilləşdirilməsi, cərrahi əməliyyatlar, sınıqların, yaraların, çıxıqların və baş travmalarının, o cümlədən üz-çənə nahiyəsinin zədələrinin müalicəsi haqqında ətraflı məlumatlar verilmişdir. "Çıxıqlar haqqında" adlı əsərdə çıxıqların yerinə salınması üçün istifadə edilən mexaniki qurğu – "Hippokrat skamyası" təsvir edilmişdir (Константинова А.А. и др., 2023: 90).

Autopsiyanın qadağan olunmasına baxmayaraq, tibbin atası hesab edilən Hippokratın əsərləri arasında "Hippokrat andı" xüsusi yer tutur. Bu sənəd həkimlərin peşə etikası prinsiplərini müəyyən edir və hər bir həkimin öz həmkarları və gələcək nəsillər qarşısında mənəvi məsuliyyətini vurğulayır. Əslində, bu and Hippokratdan daha qədim dövrlərdə şifahi ənənə kimi formalaşmış, sonradan yazılı şəkildə qorunaraq bu günədək tibb peşəsinin mənəvi simvoluna çevrilmişdir (Золотарёва, 2019: 361-363).

Hippokrat məktəbinin davamçıları tibbdə dini və mistik yanaşmalardan uzaqlaşaraq xəstəliklərin səbəblərini fövqəltəbii qüvvələrin təsiri ilə izah etməyi rədd etmişlər. Onlar tibbin yalnız xəstələrin diqqətli müşahidəsinə, müayinəsinə və praktiki təcrübənin ümumiləşdirilməsinə əsaslanmalı olduğunu müdafiə edirdilər. Empirik induksiya metodunun tətbiqi Hippokrat təbabətinin əsas prinsiplərindən birinə çevrilmişdir.

Ellinizm dövründə daha dərin və etibarlı biliklərə olan ehtiyac elmlərin ixtisaslaşmasına və fəlsəfədən ayrılaraq müstəqil sahələr kimi inkişaf etməsinə səbəb olmuşdur. Bu prosesdən ilk faydalanan sahələrdən biri tibb olmuşdur. Ellinistik tibb Şərq ölkələrinin tibbi biliklərini, praktiki müalicə təcrübəsini və yunan fəlsəfəsinin elmi yanaşmalarını birləşdirərək yüksək inkişaf səviyyəsinə çatmışdır.

Ellinizm dövründə anatomiya və cərrahiyyə elmləri sürətlə inkişaf etmişdir. İsgəndəriyyə anatomiya məktəbinin banisi kimi Xalkedonlu Herofil qəbul edilir. O, Kos adasından olan Praqsaqorun tələbəsi olmuş, Kos tibb məktəbinin ənənələrini davam etdirmiş və humoral nəzəriyyənin tərəfdarı olmuşdur. Herofil insan meyitlərinin anatomik tədqiqini aparan ilk yunan alimlərindən biri hesab edilir. Onun "Anatomiya" adlı əsərində beyin qişaları, beyin payları və xüsusilə beyin mədəcikləri ətraflı təsvir edilmiş, dördüncü mədəciyin ruhun yerləşdiyi yer olduğu qeyd olunmuşdur. Müasir anatomiyada istifadə olunan bir sıra terminlər – onikibarmaq bağırsaq, torcular Herophili, xorioid kələf, venoz sinus və digər anatomik quruluşların adları onun fəaliyyəti ilə əlaqələndirilir. "Gözlər haqqında" əsərində şüşəyəbənzər cismi və göz qişalarını təsvir etmiş, "Nəbz haqqında" adlı əsərində isə qan damarlarının anatomiyası və fəaliyyəti ilə bağlı fikirlərini irəli sürmüşdür (Зубенко А.Н. и др, 2020: 83-87).

Qədim yunan təbabəti bəşəriyyətin elmi irsinin ən mühüm hissələrindən biridir və onun təsiri bu gün də tibbin inkişafında hiss olunur. Homerin poemalarından başlayaraq məbəd təbabətinin formalaşmasına qədər qədim yunanlar zəngin tibbi biliklər toplayaraq gələcək nəsillərə ötürmüş, bununla da müasir səhiyyə sisteminin və xəstəliklərin müalicəsinə dair anlayışların formalaşmasına mühüm töhfə vermişlər (Беляева, 2018: 36-40).

Bununla yanaşı, qədim müalicə ənənələrinin qorunması və yenidən canlandırılması müəyyən çətinliklərlə üzləşir. Sosial-iqtisadi amillər, mədəni stereotiplər və hüquqi tənzimləmələr ənənəvi müalicə üsullarının səhiyyə sistemlərinə inteqrasiyasını məhdudlaşdıra bilir. Eyni zamanda, yerli xalqların biliklərinin kommersiyalaşdırılması və mədəni mənimsənilməsi kimi problemlər etik müzakirələrə səbəb olur. Bununla belə, ənənəvi və müasir tibb arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində aparılan işlər davam edir və müxtəlif müalicə ənənələrinin sağlamlığın qorunması və həyat keyfiyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyəti getdikcə daha çox qəbul edilir.

Beləliklə, qədim müalicə təcrübələri bəşəriyyətin tibbi irsinin ayrılmaz hissəsini təşkil edir. Bu ənənələr təkcə tarixi bilik mənbəyi deyil, həm də müasir tibbin inkişafına təsir göstərən və insan sağlamlığına daha kompleks yanaşmanın formalaşmasına kömək edən qiymətli elmi və mədəni irsdir.

Müasir tibbin elmi əsaslar üzərində inkişaf etməsinə baxmayaraq, qədim müalicə təcrübələrinin bir çox elementləri bu gün də aktuallığını qoruyur və tamamlayıcı tibb sahəsində geniş tətbiq olunur. Qədim tibbi irsin öyrənilməsi tibb tarixinin daha dərindən anlaşılmasına, müxtəlif mədəniyyətlərin elmi töhfələrinin qiymətləndirilməsinə və gələcək səhiyyə yanaşmalarının təkmilləşdirilməsinə imkan yaradır. Buna görə də qədim müalicə ənənələri bəşəriyyətin ümumi elmi-mədəni irsinin dəyərli hissəsi kimi qorunmalı və gələcək nəsillərə ötürülməlidir.

Orta əsrlərdə İslam dünyasında tibbi elmin böyük inkişaf mərhələsi yaşanmışdır. İbn Sinanın "Əl-Qanun fit-Tibb" əsəri əsrlər boyu Avropa universitetlərində əsas dərslik kimi istifadə olunmuşdur. Əl-Razi və Əl-Zəhrawi kimi alimlər isə klinik təcrübə və cərrahiyyə sahəsində mühüm yeniliklər etmişlər. Bu dövrə aid əlyazmalar Vatikan Kitabxanasında, Süleymaniyə Kitabxanasında və London Wellcome Collection kimi mərkəzlərdə qorunur.

Eyni zamanda Çin və Hindistanda da paralel tibbi ənənələr formalaşmışdır. Çin tibbinin əsas mənbələrindən biri "Huangdi Neijing" hesab olunur ki, bu əsər ənənəvi Çin tibbinin nəzəri əsaslarını izah edir. Hindistanda isə Ayurveda məktəbinə aid "Charaka Samhita" və digər mətnlər təbii müalicə və bədən balansı konsepsiyalarını inkişaf etdirmişdir. Bu əlyazmaların nüsxələri Çin Milli Kitabxanası və Hindistan Milli Kitabxanasında saxlanılır (Cavalieri, 1997: 541).

Ümumilikdə tibbi əlyazmaların böyük hissəsi bu gün dünyanın aparıcı kitabxana və muzeylərində qorunur. Bunlara Britaniya Kitabxanası, Vatikan Kitabxanası, Fransa Milli Kitabxanası, ABŞ Milli Tibb Kitabxanası, eləcə də Qahirə Muzeyi və Asiyanın müxtəlif milli arxivləri daxildir. Bu mərkəzlər tibbi irsin qorunması və tədqiqi baxımından mühüm rol oynayır (Alakbarli, 2006: 1-2)

Nəticə etibarilə tibbi əlyazmalar təkcə tarixi sənədlər deyil, həm də müasir tibbin formalaşmasının intellektual təməlini təşkil edən mənbələrdir. Onlar müxtəlif mədəniyyətlərin tibbi biliklərini birləşdirərək qlobal elmi inkişafın əsasını qoymuşdur.

Qədim müalicə təcrübələri insan cəmiyyətlərinin tarixində mühüm yer tutmuş, müasir tibbin yaranmasından çox əvvəl insanların sağlamlığının qorunmasında və xəstəliklərin müalicəsində əsas rol oynamışdır (Cook, 2011: 102). Bu ənənələr şaman ayinlərindən başlayaraq Hippokrat

tibbinin sistemli yanaşmalarına qədər müxtəlif müalicə üsullarını əhatə etmişdir. Minilliklər keçməsinə və elmi biliklərin sürətlə inkişaf etməsinə baxmayaraq, qədim müalicə təcrübələri bu gün də müasir səhiyyə sistemlərinə, tibbi fəlsəfəyə, müalicə üsullarına və sağlamlıq anlayışına əhəmiyyətli təsir göstərməkdə davam edir.

Qədim sivilizasiyalar şaman ənənələri ilə paralel olaraq öz tibbi sistemlərini formalaşdırmış, bu sistemlər əksər hallarda dini inanclarla sıx bağlı olmuşdur. Qədim Misirdə müalicə dini və sehrli praktikalarla əlaqələndirilir, kahinlər həm dini lider, həm də həkim funksiyasını yerinə yetirirdilər. Təxminən e.ə. 1550-ci ilə aid olan Ebers Papirusu Misir təbabətinin səviyyəsini əks etdirən ən mühüm mənbələrdən biridir. Bu əlyazmada cərrahiyyə, farmakologiya, mamalıq və müxtəlif xəstəliklərin müalicəsi haqqında dəyərli məlumatlar yer almışdır (McVay MR., 2002: 488).

Qədim Hindistanda isə Ayurveda insanın bədən, ağıl və ruh harmoniyasına əsaslanan bütöv bir tibbi sistem kimi inkişaf etmişdir. "Charaka Samhita" və "Sushruta Samhita" kimi klassik Ayurveda mətnlərində diaqnostika, müalicə və profilaktika prinsipləri, bitki mənşəli preparatlar, qidalanma qaydaları və yoqa təcrübələri ətraflı şəkildə təsvir edilmişdir (Mueller PS., 2001, s. 1225). Bu əsərlər minilliklər boyu Şərq təbabətinin əsas qaynaqları olmuşdur (Tsagkarliotis I., 2023: 1).

**Nəticə**

Tibbi elmin inkişafında qədim yunan alimlərinin xidmətləri xüsusilə böyükdür. Klassik dövrdə yaşamış Hippokrat və Qalen tibbi biliklərin sistemləşdirilməsində mühüm rol oynamışlar. Hippokrat tibbi müşahidəyə, xəstəliklərin təbii səbəblərlə izahına və peşə etikası prinsiplərinə əsaslanan yeni yanaşma formalaşdırmışdır. Onun adı ilə bağlı olan "Hippokrat Korpusu" klinik tibbin əsaslarını qoyaraq simptomların sistemli şəkildə öyrənilməsini, proqnozun müəyyən edilməsini və müalicə nəticələrinin qiymətləndirilməsini təşviq etmişdir. Sonralar Roma imperiyasının görkəmli həkimi Qalen anatomiya, fiziologiya və farmakologiya sahələrində mühüm tədqiqatlar apararaq Hippokratın ideyalarını daha da inkişaf etdirmişdir (Sallam, 2010: 11).

Qədim müalicə təcrübələrinin təsiri yalnız tarixi əhəmiyyət daşımır, onların izləri müasir səhiyyə sistemlərində də aydın şəkildə müşahidə olunur. Son onilliklərdə ənənəvi müalicə üsullarının müasir tibbi praktikaya inteqrasiyasına maraq artmışdır. Akupunktura, fitoterapiya və meditasiya kimi qədim ənənələrə əsaslanan üsullar xroniki ağrı, stress, depressiya və digər xəstəliklərin müalicəsində əlavə vasitə kimi geniş tətbiq olunmağa başlamışdır (Kulkarni AP. Et al. 2022: 1).

Bununla yanaşı, qədim müalicə ənənələrinin qorunması və yenidən canlandırılması müəyyən çətinliklərlə üzləşir. Sosial-iqtisadi amillər, mədəni stereotiplər və hüquqi tənzimləmələr ənənəvi müalicə üsullarının səhiyyə sistemlərinə inteqrasiyasını məhdudlaşdıra bilir. Eyni zamanda, yerli xalqların biliklərinin kommersiyalaşdırılması və mədəni mənimsənilməsi kimi problemlər etik müzakirələrə səbəb olur. Bununla belə, ənənəvi və müasir tibb arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində aparılan işlər davam edir və müxtəlif müalicə ənənələrinin sağlamlığın qorunması və həyat keyfiyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyəti getdikcə daha çox qəbul edilir (Guyatt, 1991: 1).

Beləliklə, qədim müalicə təcrübələri bəşəriyyətin tibbi irsinin ayrılmaz hissəsini təşkil edir. Bu ənənələr təkcə tarixi bilik mənbəyi deyil, həm də müasir tibbin inkişafına təsir göstərən və insan sağlamlığına daha kompleks yanaşmanın formalaşmasına kömək edən qiymətli elmi və mədəni irsdir.

**Ədəbiyyat siyahısı**


Alakbarli, F. (2006). Medieval manuscripts of Azerbaijan in the Memory of the World Programme of UNESCO. In *Proceedings of the First International Conference "Traditional Medicine and Materia Medica in Medieval Manuscripts"* (pp. 1–2). Baku, Azerbaijan.

Беляева, С. В. (2018). Значение древнегреческих и древнеримских медицинских школ для развития медицинских знаний. *Клиническая медицина и фармакология, 4*(4), 36–40.

Золотарёва, К. С. (2019). Мифология и медицина в Древней Греции. In Д. А. Михеева (Ed.), *Молодой исследователь: от идеи к проекту: Материалы III студенческой научно-практической конференции* (pp. 361–363).

Зубенко, А. Н., & Каспрук, Л. И. (2020). Первые врачи-профессионалы Древней Греции. *Моя профессиональная карьера, 1*(10), 83–87.

Константинова, А. А., & Ненахов, И. Г. (2023). Наследие древнегреческой медицины: изучение богатства и исторических аспектов медицинской практики в Древней Греции. *Молодежный инновационный журнал, 12*, 86–91.

Cavalieri, S., & Rotoli, M. (1997). Huangdi Neijing: Un classico della medicina tradizionale cinese [Huangdi Neijing: A classic book of traditional Chinese medicine]. *Recenti Progressi in Medicina, 88*(11), 541–546.

Cook, H. J. (2011). The history of medicine and the scientific revolution. *Isis, 102*(1), 102–108.

Elendu, C. (2026). The evolution of ancient healing practices: From shamanism to Hippocratic medicine: A review. *Medicine, 105*(4), 1–17.

Guyatt, G. H. (1991). Evidence-based medicine. *ACP Journal Club, 114*(2), A-16.

Kulkarni, A. P., & Mishra, R. C. (2022). Can we reconcile evidence-based medicine with personalized medicine: Poised on a cusp! *Indian Journal of Critical Care Medicine, 26*(Suppl. 2), S1–S2.

McVay, M. R. (2002). Medicine and spirituality: A simple path to restore compassion in medicine. *South Dakota Journal of Medicine, 55*, 487–491.

Metwaly, A. M., Ghoneim, M. M., Eissa, I. H. et al. (2021). Traditional ancient Egyptian medicine: A review. *Saudi Journal of Biological Sciences, 28*(10), 5823–5832.

Mueller, P. S., Plevak, D. J., & Rummans, T. A. (2001). Religious involvement, spirituality, and medicine: Implications for clinical practice. *Mayo Clinic Proceedings, 76*(12), 1225–1235.

National Library of Medicine. (n.d.). *Medieval manuscripts at the National Library of Medicine*. Retrieved June 16, 2026, from https://www.nlm.nih.gov/hmd/topics/medieval/index.html

Sallam, H. N. (2010). Aristotle, godfather of evidence-based medicine. *Facts, Views & Vision in ObGyn, 2*(1), 11–19.

Tsagkarliotis, I., & Rachaniotis, N. P. (2023). A holistic approach in epidemics. *Frontiers in Public Health, 11*, Article 1263293.

Tsamakda, V. (Ed.). (2017). *A companion to Byzantine illustrated manuscripts*. Brill. 80 p.

**Nuranə Çələbiyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Tərcüməçi*
*E-mail: nurane-815@mail.ru*
*ORCİD: 0009-0004-5827-6218*

# MƏTNŞÜNASLIQ ELMİ HAQQINDA

**Xülasə**

Mətnşünaslıq, bəşəriyyətin intellektual irsini qoruyan, hər hansı bir yazılı abidənin, bədii əsərin və ya tarixi sənədin yaranma tarixini, müəllifliyini, strukturunu və orijinal variantını araşdıran fundamental bir sahədir. Bu sahənin əsas məqsədi, zamanla müxtəlif səbəblərdən təhrif olunmuş mətnləri bərpa edərək, onları müəllifin iradəsinə uyğun formaya gətirməkdir.

Çağdaş çap kitablarının sələfləri olan əlyazma kitablarının yaranma tarixi keçmiş yüzilliklərin dərin qatları ilə bağlıdır. Yaranma tarixinin qədimliyi ilə fərqlənən Azərbaycan əlyazma kitabı həm də olduqca böyük coğrafi, ərazidə meydana gəlmiş və inkişaf etmişdir. Avropadan tutmuş Hindistana və Çinə qədər, Mədinədən başlayaraq Kazana qədər böyük bir ərazidə yaranmış Azərbaycan-türk yazılı abidələri türk və Şərq xalqlarının mədəniyyət tarixinin öyrənilməsində başlıca qaynaqlardır (Şərifov, 2009).

***Açar sözlər:*** *Əlyazma, mətnşünaslıq, qədim abidə, araşdırma, bərpa*

# ABOUT THE SCIENCE OF CONTENT STUDIES

**Abstract**

Textual studies is a fundamental field that preserves the intellectual heritage of humanity, studying the history of the creation, authorship, structure and original version of any written monument, artistic work or historical document. The main goal of this field is to restore texts that have been distorted over time for various reasons and bring them into a form consistent with the author's will.

The history of the creation of manuscript books, the predecessors of modern printed books, is connected with the deep layers of past centuries. The Azerbaijani manuscript book, distinguished by the antiquity of its creation, also emerged and developed in a fairly large geographical area. Azerbaijani-Turkic written monuments, which were created in a large area from Europe to India and China, from Medina to Kazan, are the main sources in the study of the cultural history of the Turkic and Eastern peoples (Sharifov, 2009).

***Key words:*** *Manuscript, textual studies, ancient monument, research, restoration*

## Giriş

Dövrünün ayrı-ayrı şəxsiyyətlərinin və sənət adamlarının fitri istedadı və böyük zəhməti sayəsində meydana gəlmiş əlyazma kitabı həm də türk xalqlarının ölməz mədəniyyət abidələridir. Xalqımızın Cənubi Azərbaycandan Şimali Qafqaza qədər olan tarixi ərazisində meydana gəlmiş yazılı abidələr müxtəlif dillərdə və əlifbalarda yaradılmışdır. Bu abidələr yalnız Azərbaycan və başqa türk xalqlarının deyil, eyni zamanda qonşu xalqların mədəni inkişafının ayrı-ayrı mərhələlərini öyrənmək baxımından da çox dəyərli mənbələrdir. Katib və xəttatlar, eləcə də bir sıra alim və filoloqlar tərəfindən üzü köçürülərək çoxaldılmış əlyazma kitabları Şərq ölkələrində

yayılaraq, ayrı-ayrı kolleksiya və kitabxanalarda toplanmış, mühafizə edilmiş, dövrünün alimləri, filoloqları və oxucuları tərəfindən istifadə edilmişdir. Bununla bərabər həmin kolleksiya və kitabxanalar vasitəsilə Azərbaycan xalqının mənəvi irsi nəsildən-nəslə verilərək, zamanımıza qədər çatdırılmışdır. Bu kitabxanaların bir qismi Orta çağların müharibələri, təbii fəlakətləri, dini və siyasi fanatizm nəticəsində məhv edilsə də əsas hissəsi qorunub saxlanmışdır. Əlyazma kitabları günümüzədək gəlib çıxmış lakin, yenilənməyə bərpaya ehtiyac duymuşlardır (Şərifov, 2009).

Mətnşünaslıq klassik adəbi abidələrin mətnləri üzərində aparılan kompleks araşdırmalar nəticəsində meydana gəlmişdir. Mətnşünaslıq filologiyanın ən mühüm və geniş vüsat tapmış müstəqil elm sahələrindən biridir. Bu elmin əsas tədqiqat obyekti avtoqrafları əlimizdə olmayan, ayrı-ayrı dövrlərdə üzü köçürülmüş katib nüsxələrində gəlib bizə çatmış orta əsrlərin yazılı abidələrin mətnləridir. Ədəbiyyatşünaslıq, dilçilik, tarix, paleoqrafiya və s. sahələrlə bağlı olan mətnşünaslıq müəyyən metod və prinsiplər əsasında həmin abidələrin mətnlarinin tarixini öyrənir. Mətnşünaslığın əsaslandığı tədqiqat metodu müqayisəli-tarixi araşdırma üsuludur. Bu üsula əsasan tekstoloji tədqiqata cəlb edilmiş abidənin əlyazma nüsxələrinin hər biri ayrılıqda yox, onların hamısı müqayisəli şəkildə, köçürülmə tarixlərinə uyğun araşdırılır. Eyni zamanda tekstoloji tədqiqatlar, mətni araşdırılan əsərin miüəllifinin hayatı, yaradıcılığı və dövri ilə bağlı şəkildə aparılır. Bununla da əsrlər boyu nüsxədən-nüsxəyə köçürülərək çoxaldılmış əsərin hansı təhriflərə və dəyişmələrə məruz qaldığı aydınlaşdırılır.

Mətnşünaslıq yalnız ədəbiyyat tarixi üçün yox, eyni zamanda mədəniyyət tarixi üçün də böyük əhəmiyyət kəsb edən bir elmi sahədir. Ədəbiyyat və mədəniyyət tarixinin düzgün, obyektiv şəkildə öyrənilməsi, klassik mətnlər üzarində aparılan tekstoloji tədqiqatların dəqiqliyindən az asılı deyildir. Tədqiq edilən əsərlər ayrı-ayrı müəlliflərin dünyagörüşlərini, istedadlarını, bədii sənətkarlıqlarını, elmə verdikləri yenilikləri va s. əks etdirən yazılı abidələr olmaqla bərabər, həm də mədəniyyət tarixini işıqlandıran başlıca məxəzlərdir. Klassiklərin ayrı-ayrı yüzilliklərdə yaratmış olduqları əsərlərin düzgün elmi mətnlərini tərtib etmək və onları öz müəlliflərinə mənsub etmək, hər şeydən öncə ədəbiyyat və mədəniyyət tarixinin düzgün öyrənilməsi deməkdir.

Orta yüzilliklərdə mətbəə üsulu ilə kitab çapı olmadığına görə şair, yazıçı və alimlərin yaratdıqları elm va adabiyyat abidələri katib nüsxələrində yayılıb, intişar tapırdı. Onların əsərləri müxtəlif məktəblərdə, ayrı-ayrı ədəbi və fəlsəfi cərəyanlara, dini təriqətlərə mənsub olan, bilik səviyyəsi baxımından biг-birindən fərqlənən katiblər və xəttatlar tərəfindən üzü köçürülüb yayılarkən müxtəlif xarakterli təhriflərə, ixtisarlara, əlavələrə və s. məruz qalmışdır. Bunun nəticəsində də bir müəllifin ayrı-ayrı dövrlərdə üzü köçürülmüş əsərinin bir-biгindən fərqlənən müxtəlif nüsxələri meydana gəlmişdir. Hətta bir sıra Azərbaycan və başqa Şərq klassikləri hələ öz sağlıqlarında əsərlərinin üzünü köçürən katib və xəttatların əlindən şikayətlənmişlər (Şərifov, 2011).

Bu təhrifləri görən və köçürülən əlyazma kitablarına gəlir mənbəyi kimi yox, xalqın mədəniyyət tarixinin başlıca daşıyıcıları kimi baxan orta yüzilliklərin bir sıra qabaqcıl alimləri və ziyalıları katib təhriflərinin qarşısını almağa başlamışlar. Onlar abidələri hər cür təhriflərdən qorumaq məqsədilə bir əsərin iki, üç və daha artıq nüsxələri əsasında onun müəllif iradəsinə uyğun mətnini hazırlamağa çalışmışlar. Beləliklə də, çağdaş mətnşünaslıq elminin ilk rüşeymləri və qaynaqları yaranmağa başlamışdır. Hər hansı bir elmin, o cümlədən mətnşünaslığın da indiki və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün onun tarixi köklərini və günümüzədək keçdiyi inkişaf yollarını öyrənmək olduqca zəruridir.

Zəngin bədii və elmi irsə yiyələnən Azərbaycan ədəbiyyatının uzun yüzilliklər ərzində yaradılmış abidələrinin mətnşünaslıq baxımından araşdırılması və onların elmi-tənqidi mətnlərinin

tartibi sahəsində alimlərimizin xidmətləri olduqca böyükdür. Məhz onların gərgin və şərəfli əməyi sayəsində Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai və neçə-neçə başqa Azərbaycan və Şərq klassikləri əsərlərinin dəyərli elmi-tənqidi mətnləri tərtib edilmiş, onların əsasında mükəmməl kütləvi nəşrlər həyata keçirilmişdir. Hər bir əsərin elmi-tənqidi mətni tərtib və nəşr edilərkən ona yazılmış müqəddimələrdə tədqiqat prosesində müəyyənləşdirilmiş nüsxə fərqləri və araşdırmalara cəlb edilmiş alyazma nüsxələri ilə bağlı şərhlər və izahlar verilmiş, elmi-tənqidi mətnin tərtib prinsipləri aydınlaşdırılmışdır. Bununla yanaşı klassiklərin əsərlərinin mətnləri üzərində tekstoloji araşdırmalar aparan Azərbaycan alimləri mətnşünaslığın bu və ya digər məsələləri ilə bağlı müxtəlif elmi və elmi-kütləvi nəşrlərdə çıxış etmişlər.

Lakin təəssüfləndirici haldır ki, keçmiş yüzilliklərin yazılı abidələrinə söykənərək klassik mətnşünaslığın ilkin qaynaqları və inkişaf yolları, onun metod və üsulları yalnız son dövrlər bu sətirlərin müəllifi tərəfindan aparılmış tekstoloji araşdırmalar sayəsində öyrənilməyə başlanmışdır.

Uzun əsrlərdən bəri zəngin elmi ənənələr yaratmış Azərbaycan mətnşünaslığı haqqında yalnız Azərbaycanda deyil, eyni zamanda dünya şərqşünaslığında da indiyədək heç bir monoqrafik tədqiqat aparılmamış və bu elm sahəsi sistemli şəkildə işıqlandırılmamışdı. Yalnız K.Şəriflinin "Azərbaycan mətnşünaslığının təşəkkülü və inkişafı", "Mətnşünaslıq" və "Mətnşünaslığın əsasları" adlı tədqiqat əsərləri işıq üzü gördükdən sonra bu elmin tarixi köklərinə, inkişaf yollarına, metod və prinsiplərinə aydınlıq gətirilmişdir.

Çağdaş mətnşünas alimlərin klassik mətnlərin tədqiqi və nəşrə hazırlanması sahəsində əldə etdikləri zəngin təcrübədə ümumiləşdirilərək, geniş araşdırmalarla müasir Azərbaycan mətnşünaslığı və onun nəzəri problemləri də kompleks şəkildə öyrənilməmişdir.

Bununla da Azərbaycan tədqiqatçıları mətnşünaslığın nəzəri problemlərini öyrənməkdən çox, ayrı-ayrı abidələrin elmi-tənqidi mətninin tərtibinə və nəşrinə daha çox yer vermişlər. Bu tədqiqat əsəri çağdaş mətnşünaslıq elmi, onun metod və prinsiplərinin öyrənilməsi istiqamətində də atılmış ilk addımdır.

Beləliklə, Azərbaycan mətnşünaslığı bir növ praktiki fəaliyyətlə əhatə olunmuşdu. Hər bir mətn zamanrn süzgəcindən keçərkən müəyyən dəyişikliklərə məruz qalır. Xüsusilə orta əsrlər divan ədəbiyyatı və qədim yazılı abidələr köçürülmə zamanı katiblərin subyektiv yanaşması, texniki səhvləri və ya mətni "təkmilləşdirmək" cəhdləri nəticəsində orijinaldan uzaqlaşır.

1. *Arxiv Tədqiqatı:* Mətnşünasın ilk vəzifəsi mövcud olan bütün əlyazma və çap nüsxələrini aşkar etməkdir.

2. *Kanonik Mətn:* Tədqiqatın əsas məqsədi müəllifin iradəsinə ən yaxın olan, təhriflərdən uzaq "kanonik mətni" bərpa etməkdir.

Mətnşünaslığın ən mürəkkəb sahələrindən biri atribusiyadrr (yəni əsərin kimə aid olduğunu müəyyən etmək). Anonim əsərlərin və ya bir neçə müəllifə aid edilən mətnlərin həqiqi sahibini tapmaq üçün aşağrdakr metodlardan istifadə olunur:

Leksik-statistik analiz, ideoloji və üslub uyğunluğu, tarixi kontekst.

1. *Leksik-statistik analiz:* Müəllifin söz bazasr və tez-tez istifadə etdiyi ifadələrin təhlili.
2. *İdeoloji və üslub uyğunluğu:* Əsərdəki fikirlərin müəllifin dişər məlum əsərləri ilə nə dərəcədə səsləşməsi.
3. *Tarixi kontekst:* Əsərdə adı çəkilən hadisələrin və şəxslərin müəllifin yaşadığı dövrlə uzlaşması.

Mətnşünaslıq sadəcə ədəbiyyatşünaslıq deyil, o, bir neçə köməkçi elmin sintezidir:

1. *Paleoqrafiya:* Qədim yazı növlərini, xətt formalarını (nəsx, təliq, şikəstə və s.) araşdıraraq mətni oxuyur.

2. *Daktiloqrafiya:* Mətnin yazıldığı kağızın növü, su nişanlarr və mürəkkəb tərkibi vasitəsilə əlyazmanın yaşını təyin edir.

3. *Filoloji tənqid:* Mətndəki məna pozuntuları və məntiqsizlikləri müəyyən edərək onları elmi şərhlərlə düzəldir.

Azərbaycan ədəbiyyatının min illik tarixi zəngin əlyazma irsinə malikdir. Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Nizami Şəncəvi kimi dahi sənətkarlarrn əsərlərinin elmi-tənqidi mətnlərinin hazırlanması milli mətnşünaslığımızın böyük nailiyyətidir. Xüsusilə, AMEA Məhəmməd Füzuli adrna Əlyazmalar İnstitutu bu sahədə qlobal əhəmiyyətli işlər şörür. Əlyazmalarrn kataloqlaşdırılması və rəqəmsallaşdırılması bu şün də prioritet məsələdir.

Milli-mənəvi dəyərlərin qorunması və qədim yazılı abidələrin gələcək nəsillərə ötürülməsi hər bir xalqın mədəni varlığı üçün həyati əhəmiyyət kəsb edir. Azərbaycan elmində bu missiyanı şərəflə daşıyan, ömrünü tozlu əlyazmaların və unudulmuş mətnlərin bərpasına həsr edən nadir şəxsiyyətlərdən biri də Azərbaycanın görkəmli mətnşünas alimi, filologiya elmləri doktoru, professor Kamandar Şərifovdur (Şərifli).

Kamandar Şərifov (Şərifli) təkcə bir tədqiqatçı deyil, həm də Azərbaycan mətnşünaslıq elminin nəzəri əsaslarını sistemləşdirən bir alimdir. Kamandar Kazrm oğlu Şərifov 20 yanvar 1940-cr ildə Qərbi Azərbaycanın Ləmbəli kəndində anadan olmuşdur. Onun gənclik illəri zəhmət və bilik axtarışı ilə keçmişdir. O, ərəb dili və ədəbiyyatını dərindən mənimsəmək üçün Misirin Qahirə Universitetində də təhsilini davam etdirmişdir. Bu beynəlxalq təcrübə ona orta əsr ərəbdilli Azərbaycan irsini birbaşa mənbələrdən oxumaq və təhlil etmək bacarığı qazandırmışdır.

Alimin elmi fəaliyyəti demək olar ki, bütünlüklə AMEA-nrn Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə bağlıdır. 1970-ci illərdən başlayaraq burada kiçik elmi işçidən şöbə müdiri vəzifəsinə qədər ucalan K. Şərifov, institutun "Ərəbdilli əlyazmalarrn tədqiqi" şöbəsinə rəhbərlik edərək yüzlərlə nadir nüsxənin elmi təsvirini və kataloqlaşdırılmasını həyata keçirmişdir.

Kamandar Şərifovun elmi yaradıcılığı bir neçə mühüm istiqaməti əhatə edir:

1. Əbdülqəni Nuxəvi Xalisəqarızadə İrsi: Alim XIX əsrin görkəmli mətnşünası və kitabşünası olan Ə. Nuxəvinin elmi fəaliyyətini ilk dəfə sistemli şəkildə tədqiq etmiş, onun metodologiyasını gün işığına çıxarmışdır.

2. Mətnşünaslığın nəzəri əsasları: Onun "Mətnşünaslıq" (2011) və "Azərbaycan mətnşünaslığının təşəkkülü və inkişafı" adlı əsərləri bu sahədə yazılmış ilk fundamental dərsliklər və monoqrafiyalardır. O, mətnin orijinalının bərpası, nüsxə fərqlərinin analizi və atribusiya məsələlərini elmi prinsiplərlə izah etmişdir.

3. Kataloqlaşdrrma: K. Şərifov ərəbdilli əlyazmalarrn bir neçə cildlik kataloqlarının tərtibçisidir. Bu iş tədqiqatçılar üçün qaranlıq qalan bir çox mənbələrin yolunu işrqlandırmışdır.

4. Pedaqoji Fəaliyyət və Kadr Hazırlığı: Professor Şərifovun xidmətləri təkcə yazılı əsərlərlə bitmir. O, uzun illər Bakı Dövlət Universiteti və Qafqaz Universitetində dərs deyərək yeni nəsil şərqşünas və mətnşünas kadrların yetişməsində böyük rol oynamışdır.

5. Mükafatlar və Milli İrsə Sadiqlik: Elmi fəaliyyətinə şörə dövlət tərəfindən yüksək qiymətləndirilən Kamandar Şərifov AMEA-nrn Fəxri fərmanlarr və dişər mükafatlarla təltif olunmuş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü adına layiq görülmüşdür.

Professor Kamandar Şərifov Azərbaycan elmi üçün sadəcə bir filoloq deyil, min illik yazılı mədəniyyətimizin keşiyində duran bir "hafiz"dir. Onun tədqiqatları göstərir ki, mətnşünaslıq

sadəcə mətni oxumaq deyil, keçmişin ruhunu bu günə daşımaq sənətidir. Bu gün onun əsərləri gənc tədqiqatçılar üçün əsas istinad mənbəyi olmaqda davam edir.

XXI əsrdə mətnşünaslıq yeni bir mərhələyə qədəm qoymuşdur. İndi artıq süni intellekt vasitəsilə mətnlərin müqayisəli analizi saniyələr içində həyata keçirilir.

1. Rəqəmsal bərpa: Zədələnmiş əlyazmaların optik texnologiyalarla oxunması.
2. Plagiatın müəyyən edilməsi: Müasir alqoritmlər mətndəki kənar müdaxilələri və başqasından götürülmüş hissələri dərhal aşkar edə bilir.

**Nəticə**

Mətnşünaslıq keçmişlə gələcək arasında bir körpüdür. O, bizə tarixin səhifələrini olduğu kimi, təhrif olmadan oxumaq imkanı verir. Əgər bir xalqın yazılı abidələri düzgün tədqiq olunmursa, onun tarixi və mədəniyyəti haqqında gəlinən nəticələr həmişə şübhə altında qalacaqdır. Buna görə də mətnşünaslıq sadəcə filoloji deyil, həm də milli kimlik məsələsidir.

**Ədəbiyyat siyahısı**

Şərifov, K. (2009). Azərbaycan əlyazma kitabı və kitabxanaları. Bakı.
Şərifov, K. (1996). Azərbaycan mətnşünaslığının təşəkkülü və inkişafı. Bakı.
Şərifov, K. (2001). Mətnşünaslıq. Bakı.
Şərifov, K. (2003). Mətnşünaslığın əsasları. Bakı.
Şərifov, K. (2011). Mətnşünaslığın nəzəri əsasları, Bakı.
https://az.wikipedia.orş/wiki/Kamandar_%C5%9E%C9%99rifov
https://science.şov.az/az/forms/doktora-nauk-instituta-rukopisey/489
http://web2.anl.az:81/read/paşe.php?bibid=77453&pno=3&zoom=3

**Aysel Əhmədova**
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: aysel901120@gmail.com*
*ORCİD: 0000-0003-0904-2998*

# QƏDİM UYĞUR ABİDƏSİ "MAYTRISİMİT"DƏ MÜRƏKKƏB İSMİ BİRLƏŞMƏLƏR

**Xülasə**

"Maytrısimit" digər qədim uyğur abidələrinə nisbətən daha qədim hesab olunsa da, artıq bu abidədə mürəkkəb ismi birləşmələrin müxtəlif formalarına təsadüf olunur. Mürəkkəb söz birləşmələrinin dilin və təfəkkürün inkişafını göstərən amillərdən olduğunu nəzərə alsaq, artıq həmin dövrdə türk dillərinin sintaktik quruluşunun yüksək inkişaf etdiyini söyləmək olar. Adətən feili tərkiblərin mürəkkəbliyindən, onların tərkibində işlənən komponentlərin sayının çoxluğundan danışılır, mürəkkəb ismi birləşmələrə isə kifayət qədər diqqət yetirilmir. Halbuki hələ türk dillərinin qədim yazılı abidələrində mürəkkəb ismi birləşmələr çox geniş yayılmışdı. Burada təyini birləşmələrin hər üç növünün mürəkkəb variantları qeydə alınmışdır. Mürəkkəb ismi birləşmələrdə sintaktik əlaqələrin bütün növlərinə rast gəlinir. Qədim uyğur abidələrində mürəkkəb ismi birləşmələrdə komponentlərin sırasının müasir türk dillərindəkindən fərqləndiyi hallara da rast gəlinir. Bu xüsusiyyət adətən sifət və işarə əvəzliklərində özünü göstərir.
***Açar sözlər:*** *qədim türk yazılı abidələri, sintaksis, söz birləşmələri, sintaktik əlaqələr*

# COMPLEX NOMINAL PHRASES IN THE OLD UYGHUR MONUMENT MAYTRISIMIT

**Abstract**

Although *Maytrisimit* is considered as older than the other Old Turkic texts, this text already had various forms of complex nominal phrases. Considering that complex phrases are factors indicating the development of language and thinking, it can be said that the Turkic syntactic structure has already been highly developed by that time. Usually, the complexity of verbal phrases and the large number of their constituents is discussed, while the complex nominal phrases do not draw enough attention. However, complex nominal phrases have been wide-spread even in the ancient written monuments of Turkic languages. Complex variations of each three kind of nominal phrases have been registered here. We come across with every types of syntactic relations. In the Old Uyghur texts, there are also cases when the order of constituents are different from the modern Turkic languages. This feature is frequently seen in adjectives and demonstrative pronouns.
***Key words:*** *Old Turkic written monuments, syntax, phrases, syntactic relations*

Mürəkkəb söz birləşmələrinin formalaşması dilin inkişafını göstərən amillərdən biridir. Bu da fikrin mürəkkəbləşməsi, dərinləşməsi və dilin həmin mürəkkəb fikirləri ifadə etmək üçün mürəkkəb formalar tapması yolu ilə baş verir.

Mürəkkəb söz birləşmələri sadə söz birləşmələrinin əlavə sözlər və söz birləşmələri ilə zənginləşməsi hesabına meydana çıxır: "Sadə birləşməyə əlavə edilən hər bir müstəqil mənalı yeni söz ona məna zənginliyi gətirir və onun sadə birləşmələrdən həm formaca, həm də məzmunca fərqlənməsinə səbəb olur" (Kazımov, 2007: 71).

Türk dillərinin sintaktik quruluşu ilə bağlı aparılan tədqiqatlarda adətən feili birləşmələrin mürəkkəb variantlarından – üç və ya daha artıq sözdən ibarət olan feili tərkiblərdən söz açılır. Ancaq söz birləşmələrində mürəkkəbləşmə özünü daha çox feili tərkiblərdə göstərsə də, ismi birləşmələrin də mürəkkəb formalarına tez-tez rast gəlinir.

Söz birləşmələrinin sadə və mürəkkəb növlərinin müəyyənləşdirilməsində əsas cəhət onların tərkibindəki sözlərin miqdarıdır. İki sözdən ibarət olan söz birləşmələri sadə, üç və ya daha artıq sözdən ibarət olan söz birləşmələri isə mürəkkəb söz birləşmələridir. Bunu yalnız sözlərin çoxluğu kimi qəbul etmək, əlbəttə ki, məsələyə birtərəfli yanaşmaq olardı. Burada söz birləşmələrini mürəkkəbləşdirən sözlərin sayı deyil, bu sözlərin hər birinin öz arasında və birləşmənin digər tərəfləri ilə yaratdığı sintaktik əlaqələrin səciyyəsidir. Belə ki, birləşməyə daxil olan hər bir yeni söz birləşmənin digər tərəfləri ilə əlaqəyə girir, adətən bu tərəflərdən biri ilə sadə ismi və ya feili birləşmə əmələ gətirir ki, bu da mürəkkəb birləşmənin tərkibində sadə söz birləşmələrinin meydana çıxmasına səbəb olur. Bu proses söz birləşməsində ifadə olunan fikrin də mürəkkəbləşməsinə, mərhələli və çoxqatlı ifadəsinə təkan verir. Bu halda bir neçə söz birləşməsi ilə ifadə olunacaq fikir bir mürəkkəb söz birləşməsi daxilində ifadə olunur. Bunu cümlə növləri arasında mürəkkəb cümlələr, xüsusilə də qarışıq tipli mürəkkəb cümlələrdə fikrin ifadə forması ilə müqayisə etmək olar.

Qədim türk yazılı abidələri ilə bağlı tədqiqatlarda mürəkkəb söz birləşmələrinə və onların struktur formalarına az hallarda yer verilir, bu formalar, demək olar ki, tədqiqatdan kənarda qalır. Y.Seyidovun da qeyd etdiyi kimi, "türkologiyada da söz birləşməsi təlimi, bütövlükdə götürüldükdə sadə birləşmələrə əsaslanır" (Seyidov, 1992: 164). Bu cəhətdən Ə.Rəcəblinin "Göytürk dilinin sintaksisi" və "Qədim türk yazısı abidələrinin dili" adlı kitabında mürəkkəb ismi birləşmələri fərqləndirməsi və onları ayrıca tədqiq etməsini xüsusi qeyd etmək lazımdır. M.Erdalın "Qədim türk dilinin qrammatikası" adlı kitabında da mürəkkəb ismi birləşmələrə xüsusi bölmə ayrılmışdır.

"Maytrısimit" buddizm məzmunlu qədim uyğur abidələrinin ilkin nümunələrindəndir, toxar dilindən tərcümə olunmuşdur. Burada mürəkkəb ismi birləşmələrin müxtəlif növ və formaları qeydə alınmışdır.

Mürəkkəb ismi birləşmələrdə tərəflərin sıralanmasına müəyyən fərqlər özünü göstərir. Təyini söz birləşmələrində, xüsusən də yanaşma əlaqəli birləşmələrdə söz sırası nitq hissələrinin yaranma ardıcıllığı ilə izah olunur. Məsələn, Q.Kazımov *dağdakı həmin iki soyuq bulaq* birləşməsi əsasında bel qənaətə gəlir: "Ən yaxında yerləşəni sifətdir, sonra say və nəhayət əvəzlik gəlir. Bunlar bu – bu sıra, əslində, nitq hissələrinin təkamül tarixidir. Deməli, maddi varlığın dərkindən sonra ilk növbədə onun əlaməti insanın nəzərini cəlb edib" (Kazımov, 2019: 36).

Qədim uyğur abidələrində buna uyğun gəlməyən bir söz sırasının olduğu da görünür: Amrak mənin öz kişilərim (Maytrısimit, X, 33, 57-58) "mənim öz sevimli adamlarım". Azərbaycan türkcəsinə tərcümədən də göründüyü kimi, burada *amrak* sifətinin yeri müasir dövrdəkindən fərqlidir. Müasir dövrdə sifətlər birləşmənin əsas tərəfinə, yaxud ümumi birləşməyə aid olduğundan əsas tərəfdən əvvəl işlənir. Qədim uyğur abidələrində isə belə bir qayda yoxdur. Sifətlər, əvəzliklər, yaxud saylar ümumi birləşməyə də aid olsa, birləşmədən əvvəl işlənə bilir. Bu da onların birləşməni vahid bütöv kimi qavraması və ona aid olan təyini də əvvəldə verməsi ilə bağlıdır.

Bunu müxtəlif amillərlə əlaqələndirmək mümkündür:

1. Ola bilər ki, həmin abidələr daha qədim dövrlərə aid olduğu üçün, türk dillərinin inkişafının sonrakı mərhələlərindən fərqlənir.

2. Bunu qədim uyğurlara məxsus dialekt xüsusiyyəti hesab etmək olar.

3. Yaxud qədim uyğur abidələrinin əksəriyyəti, o cümlədən "Mayrısimit" başqa dillərdən edilmiş tərcümələr olduğu üçün, tərcümə edildiyi dilin söz sırasının təsirinə uğramış ola bilər.

Mürəkkəb ismi birləşmələri də sadə birləşmələr kimi müxtəlif növlərə ayırmaq mümkündür. Ancaq bunlar daha çox komponentə malik olduğu üçün, növlərə bölünməsi bir qədər çətinlik törədir və tədqiqatçılar arasında fikir ayrılıqlarına səbəb olur. Məsələn, Ə.Rəcəblinin göytürk yazısı abidələrində işlənən mürəkkəb söz birləşmələrinin növlərini müəyyənləşdirməsi və bu zaman tutduğu prinsip mübahisə doğurur. Belə ki, görkəmli tədqiqatçı I növ təyini birləşmələrə *türk bodun atı* "türk xalqının adı", *Türgiş kağan süsi* "Türgiş xaqanının qoşunu", II növə *ər başı saŋun* "qoşun başçısı general" birləşmələrini nümunə göstərir (Rəcəbli, 2006: 69-72). Fikrimizcə, mürəkkəb ismi birləşmələrin təsnifində birləşmənin ümumi quruluşuna, daha dəqiq desək, asılı tərəflə əsas tərəf arasında sintaktik əlaqələrə əsaslanmaq lazımdır. Bu yanaşmada *türk bodun atı* II növ, *ər başı saŋun* isə I növ təyini birləşmədir.


Mürəkkəb ismi birləşmələrinin tərəflərinin ifadə vasitələrinə də diqqət yetirmək lazımdır. Burada da bəzən mübahisəli məqamlar meydana çıxır. Məsələn, Ə.Şükürlü *türk bodunuŋ ili törüsi* birləşməsini birinci tərəfi I növ ismi birləşmə, ikinci tərəfi isə III növ ismi birləşmədən ibarət olan söz birləşmələrinə daxil edir (Şükürlü, 1993: 174). Əslində, burada birinci tərəf I növ təyini söz birləşməsi ilə ifadə olunsa da, ikinci tərəf qoşa sözdür, birləşmə isə ümumilikdə III növ təyini söz birləşməsidir.

Mürəkkəb ismi birləşmələr tərəfləri arasında sintaktik əlaqələrin rəngarəngliyi ilə də fərqlənir. Məsələn, *kop yıŋaktakı kut vaxşiklər* (Maytrısimit, XIV, 39, 7-8) "hər tərəfdəki yaxşı ruhlar" birləşməsində bütün sözlər arasında yalnız yanaşma əlaqəsi müşahidə olunur. *Tözün maytrınıŋ bilgə biligiŋə* (Maytrısimit, XI, 38, 22-23) "nəcib Maytrının hikmətinə" birləşməsində tabelilik əlaqəsinin hər üç növünə rast gəlinir. *İsig amrak köŋüli* (Maytrısimit, X, 33, 14-15) "isti, sevimli hisslər" birləşməsində isə *isig* və *amrak* sözləri arasında tabesizlik əlaqəsi var.

"Maytrısimit"də qeydə alınmış mürəkkəb ismi birləşmələri aşağıdakı kimi qruplaşdırmaq olar:


**1. I növ mürəkkəb təyini söz birləşmələri:**

*vayturi öŋlüg taluy ögüz suvı* (Maytrısimit, V, 28, 4-5) "vaidurya rəngli okean suyu". Burada *vayturi öŋlüg* ifadəsi I növ təyini söz birləşməsinin *-lığ* şəkilçisi qəbul etməsi ilə əmələ gəlmiş və birinci tərəfi mürəkkəb olan II növ təyini söz birləşməsinə (*taluy ögüz suvı*) yanaşaraq ümumilikdə I növ təyini söz birləşməsi əmələ gətirmişdir. *-lığ* şəkilçili sözlərin özündən əvvəl təyin qəbul etməsi qədim uyğur abidələrində tez-tez müşahidə olunur (Erdal, 2004: 385).




*yüz bir türlüg boduğın bodumış osuğluğ hua çeçekin yaratağlağ tümən birə kiŋ çmbudvip uluşluğ* (Maytrısimit, V, 28, 15-19) "yüz bir növ rənglə boyanmış kimi gül-çiçəklə bəzənmiş eni on min mil olan jambudivipa dünyalı". Bu nümunədə I növ təyini söz birləşməsinin birinci tərəfləri qeyri-həmcins təyinlərdən ibarətdir. Bunlardan birincisi feili sifət tərkibi olub (*yüz bir türlüg boduğın bodumış osuğluğ hua çeçekin yaratağlağ*), onun da asılı tərəfi feili sifət tərkibi ilə (*yüz bir türlüg boduğın bodumış osuğluğ*) təyin olunmuş qoşa sözdür (*hua çeçekin*). İkinci təyin ölçü bildirir: *tümən birə kiŋ*. Əsas tərəf isə I növ təyini söz birləşməsidir: *çmbudvip uluş*. Birləşmənin sonuncu sözü *-lığ* şəkilçisi qəbul edərək təyin olma xüsusiyyəti qazanmışdır.


*tört erdnilig kərpiçlərin yapmış yiti kat karımları* (Maytrısimit, V, 29, 5-6) “dörd gövhərli kərpiclərlə bəzədilmiş yeddi qat hovuzları”. Burada da birləşmənin asılı tərəfləri qeyri-həmcins təyinlərdir. Birincisi (*tört erdnilig kərpiçlərin yapmış*) feili sifət tərkibidir və onun da asılı tərəfi (*tört erdnilig kərpiçlərin*) I növ təyini söz birləşməsidir. İkinci təyin özü də I növ təyini söz birləşməsi formasındadır: *yiti kat*.




*yarım birə kiŋ yarım birə təriŋ tört erdinin itilmiş çldar atlığ yul* (Maytrısimit, V, 31, 8-11) “eni yarım mil, dərinliyi yarım mil olan, dörd qiymətli daşla bəzədilmiş Jaladhara adlı göl”. Burada I növ təyini söz birləşməsi (*çldar atlığ yul*) 3 müxtəlif təyin qəbul etmiş və ümumilikdə yenə I növ təyini söz birləşməsi formalaşmışdır. Təyinlərdən ikisi həmcinsdir və ölçü bildirən birləşmələrdən ibarətdir: *yarım birə kiŋ, yarım birə təriŋ*. İkincisi isə feili sifət tərkibidir: *tört erdnin itilmiş*.


*kamağ biş ajun tınlığlarığ* (Maytrısimit, X, 33, 2-3) “bütün beş aləm canlıları”, yaxud “beş aləmin bütün canlıları”. Tərcümədən göründüyü kimi tərəflər şəkilçi qəbul edib III növ təyini söz birləşməsinə çevrildikdə *bütün* sözü onların arasına girir. Nümunədə şəkilçi olmadığı üçün *kamağ* sözü birləşmədən əvvəldə verilmişdir. Bu halda I növ mürəkkəb təyini söz birləşməsinin (*biş ajun tınlığlarığ*) təyinlə genişləndirilməsi baş vermişdir.

*alku sansar içintəki tınlığığ* (Maytrısimit, X, 33, 10) “samsara içindəki bütün canlıları”. Eyni xüsusiyyət burada da özünü göstərir. Buradan anlaşılır ki, qədim uyğur abidələrində “bütün” mənası bildirən sözlər ismi birləşmələrin əvvəlində işlənir. Müasir dilimizdə isə həmin formada “bütün” sözü ümumi birləşməyə yox, asılı tərəfə aid olacağından, həmin söz birləşmənin iki tərifinin arasında daxil olur, daha doğrusu, əsas tərəfdən əvvəl gəlir.




*Ol antağ tınlığ oğlanı* (Maytrısimit, X, 33, 44-45) “elə bir canlı oğlu”. Burada I növ təyini söz birləşməsinin əsas tərəfi II növ təyini söz birləşməsi ilə (*tınlığ oğlanı*), asılı tərəfi isə yaxın mənalı 2 müxtəlif işarə əvəzliyi ilə (*ol, antağ*) ifadə olunur.

*Bu yağız yir üzəki koğ toprak* (Maytrısimit, XI, 38, 26-27) “Bu qəhvəyi yerin üstündəki toz-torpaq”. I növ təyini söz birləşməsinin əsas tərəfi qoşa söz (*koğ toprak*), asılı tərəfi isə mürəkkəb ismi birləşmədir: *bu yağız yir üzəki*. Yuxarıdakı nümunələrdən də görünür ki, *-kı, -dakı, -lığ* şəkilçiləri söz birləşmələrinin əsas tərəfinə artırılıb onların təyin kimi işlənməsinə imkan yaradır.




Nümunələrdən də göründüyü kimi, I növ mürəkkəb yəni təyini birləşmələrdə asılı tərəf adətən feili sifət tərkibi ilə ifadə olunur və həmin tərkibin asanlıqla genişləndirilə bilməsi ismi birləşməni daha da mürəkkəbləşdirir. Mürəkkəb ismi birləşmələrin tərəflərinin feili sifət tərkibləri ilə ifadə olunması "Maytrısimit"də geniş yayılmış xüsusiyyətlərdən biridir. Belə birləşmələr barədə Q.Kazımovun mülahizəsi diqqəti cəlb edir: "Feili sifət asılı tərəf kimi, əksərən tərkib şəklində olub, birləşmənin həcmini genişləndirmiş, cümlə daxilində cümləyə bərabər əlavə bir fikrin ifadəsinə imkan yaratmışdır" (Kazımov, 2019: 40). "Maytrısimit"dəki nümunələrdə də feili sifət tərkiblərinin ismi birləşməyə qatdığı informasiya yükünün böyüklüyü aydın görünür.

**2. II növ mürəkkəb təyini söz birləşmələri:**

*Nırvan bulmak küsüşin* (Maytrısimit, X, 34, 10) "nirvanaya çatmaq arzusunu". Burada birləşmənin birinci tərəfi (*nırvan bulmak*) sadə feili sifət tərkibi ilə ifadə olunmuşdur.

*Üç eŋim sansardakı nızvanılar oğrınta* (Maytrısimit, XV, 41, 24-25) ""üç hissəli samsaradakı ehtiraslar uğrunda". Burada maraqlı cəhət II növ təyini söz birləşməsinin birinci tərəfinin (*nızvanılar*) təyinə malik olmasıdır: *üç eŋim sansardakı*. Başqa sözlə, II növ təyini söz birləşməsinin birinci tərəfi I növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur.





Mürəkkəbləşmə II növ təyini söz birləşmələrində az hallarda müşahidə olunur. Bu həm onların şəkilçisiz olması və bununla bağlı tərəflərin bir-birinə yaxın yerləşməsindən, həm də qeyri-müəyyənlik bildirən belə birləşmələrin başqa sözlərlə genişləndirilməsinin onları müəyyənlik bildirən birləşməyə, yəni III növ təyini söz birləşməsinə çevirməsindən qaynaqlanır.

**3. III növ mürəkkəb təyini söz birləşmələri:**

*Ol ok tınlığlarnıŋ isig kanların* (Maytrısimit, X, 33, 53-55) "məhz o canlıların isti qanlarını". Burada III növ təyini söz birləşməsinin hər iki tərəfi I növ təyini söz birləşməsi ilə ifadə olunur: *ol ok tınlığlarnıŋ* və *isig kanların*. Birinci birləşmədə tərəflərin arasına *ok* ədatı da daxil olmuşdur.

*Munuŋbilgəbiligniŋsanınsakışın* (Maytrısimit, XI, 38, 28-29) "Bunun hikmətinin sayını-hesabını". Burada isə III növ təyini söz birləşməsinin əsas tərəfi qoşa söz (*sanın sakışın*), asılı tərəfi mənsubiyyət şəkilçisiz III növ təyini söz birləşməsidir (*munuŋ bilgə biligniŋ*). Burada *bilgə bilig* isə I növ təyini söz birləşməsidir və qədim uyğur abidələrində dini termin kimi sabitləşmişdir.




Nəticə olaraq demək olar ki, qədim uyğur abidələrində o cümlədən "Maytrısimit"də mürəkkəb ismi birləşmələr geniş yayılmışdır. Burada I növ mürəkkəb təyini birləşmələr, xüsusilə asılı tərəfi feili sifət tərkibləri ilə ifadə olunmuş birləşmələr üstünlük təşkil edir. Bu da onların mürəkkəbləşmə imkanlarının genişliyi ilə bağlıdır. II növ təyini söz birləşmələri isə əksinə bir-biri ilə daha yaxın əlaqədə olan tərəflərdən ibarət olduğu və qeyri-müəyyənlik bildirdiyi üçün adətən mürəkkəb olmur. Qədim uyğur abidələrində mürəkkəb ismi birləşmələrdə söz sırası müasir türk dillərindəkindən fərqlənə bilir. Burada mürəkkəb birləşmələrin tərkibində tabelilik əlaqəsinin müxtəlif növləri ilə yanaşı, tabesizlik əlaqəsinə də rast gəlinir.

**Ədəbiyyat siyahısı**

Erdal, M. (2004). *A grammar of Old Turkic*. Leiden: Brill.
Kazımov, Q. (2007). *Müasir Azərbaycan dili*. Sintaksis. Bakı: Təhsil.
Kazımov, Q. (2019). *Azərbaycan dilinin tarixi sintaksisi*. Bakı: Elm.
Rəcəbli, Ə. (2003). *Göytürk dilinin sintaksisi*. Bakı: Nurlan.
Rəcəbli, Ə. (2006). *Qədim türk yazısı abidələrinin dili*. Bakı: Nurlan.
Seyidov, Y. (1992). *Azərbaycan dilində söz birləşmələri*. Bakı: Bakı Universiteti Nəşriyyatı.
Şükürlü, Ə. (1993). *Qədim türk yazısı abidələrinin dili*. Bakı: Maarif.
Tekin, Ş. (1976). *Maytrısimit. Burkancıların Mehdisi Maitreya ile Buluşma. Uygurca iptidai bir dram.* Ankara: Sevinç Matbaası.

**Günay Quliyeva**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Baş müəllim*
*E-mail: gunay-verdiyeva@mail.ru*
*ORCİD: 0009-0006-7825-7799*

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FEİLLƏRDƏN FEİLLƏRİN DÜZƏLMƏSİ YOLLARI

**Xülasə**

Hazırkı məqalədə Azərbaycan və ingilis dillərində feildən yeni feillərin düzəlməsi yolları, bu prosesin iki müxtəlifsistemli dillərdə oxşar və fərqli cəhətləri müəyyən olunur. Hər iki dildə feillərdən feillərin yaranması, əsasən, onların təsirlik və növ kateqoriyası daxilində baş verir. Tədqiqat göstərir ki, bu sahədə əmələ gələn feillər yeni mənalı sözlərdir və bu sözlər Azərbaycan dilində morfoloji, sintetik üsullarla; ingilis dilində isə daha çox analitik, sintaktik yollarla əmələ gəlir. Bəzən də ingilis dilində feillərdən əmələ gələn yeni sözlər tamam başqa köklü leksemlərlə ifadə olunur. Hər iki dildə feillərdən yeni feillərdən əmələ gəlməsi az məhsuldardır.
***Açar sözlər:*** *söz yaradıcılığı; təsirli / təsirsiz feillər; feilin növ kateqoriyası, xüsusi mənalı yeni feillər; sintetik və analitik sözyaratma*

# WAYS OF FORMING VERBS FROM VERBS IN AZERBAIJANI AND ENGLISH

**Abstract**

The current article identifies the ways in which new verbs are formed from existing verbs in the Azerbaijani and English languages, highlighting the similarities and differences of this process across these two linguistically distinct systems. In both languages, the derivation of verbs from other verbs primarily occurs within the categories of transitivity and voice. Research indicates that the verbs formed in this area are lexemes with new meanings; in the Azerbaijani language, these words are formed through morphological and synthetic methods, whereas in English, they are predominantly created through analytical and syntactic means. Occasionally, new verbs derived from other verbs in English are expressed through lexemes with entirely different roots. In both languages, the formation of new verbs from existing verbs is considered a low-productivity process.
***Key words:*** *word formation; transitive and intransitive verbs; the category of voice of the verb; newly formed verbs with specific meanings; synthetic and analytic word formation.*

Müasir derivatologiyanın aktual problemlərindən biri müxtəlif nitq hissələrinin, o cümlədən feilin sözyaratma potensialının təyin olunmasıdır. Dilçi alimlərin müşahidəsinə görə, bütün nitq hissələri arasında feil daha çox sözyaratma imkanına malikdir. Məşhur rus dilçisi N.Y.Şvedovanın söylədiyinə görə, „bu, daha çox onunla izah olunur ki, feil leksikanın dominantasıdır və sadəcə çoxşaxəli, geniş sözlər sinfi yaratmır, o, digər siniflərin sahəsinə də çox fəal surətdə daxil olmağa cəhd edir, onlarda yeni sözlər yaratmağın yollarına və daxili qruplaşmaların yaranmasına hökm edir“ (Шведова, 1995: 414).

Hazırkı məqalədə Azərbaycan və ingilis dillərində feillərdən yeni feillərin yaranma xüsusiyyətləri müqayisəli şəkildə təqdim olunur.

Müasir Azərbaycan dilində feildaxili söz yaradıcılığı, yəni feillərdən feillərin əmələ gəlməsi başqa sözyaratma sahələrinə (istiqamətlərinə) nisbətən o qədər də məhsuldar deyildir. Bu istiqamətdə əsasən təsirsiz feillərdən təsirli feillərin, təsirli feillərdən isə təsirsiz feillərin *(qorxmaq – qorxutmaq, bitmək – bitirmək, çıxmaq – çıxarmaq, gülmək – güldürmək, dönmək – döndərmək, açmaq – açılmaq, çəkmək – çəkinmək, vurmaq – vuruşmaq, vurnuxmaq, udmaq – uduzmaq, udqunmaq* və s.*)* əmələ gəlməsi halları nəzərdə tutulur. Xüsusilə son zamanlar eyni kökdən olan feillərin təsirlik və növ dəyişmələri sözdəyişmə kimi yox, sözyaratma prosesi kimi təyin olunur (Hacıyev, 2025: 544; Kazımov, 2010: 400). Bu cür yanaşma, fikrimizcə, məntiqə uyğundur, çünki bu zaman tamamilə başqa təsəvvür və semantik struktura malik dil vahidləri (törəmə sözlər) yaranır və onlar haqlı olaraq artıq uzun illərdir ki, Azərbaycan dilinin izahlı lüğətlərində ayrıca söz məqaləsi başlığı altında tədqim olunur. Məsələn: ***yerimək –*** ayaqlarını işə salaraq hərəkət etmək; addımlamaq. İrəli yerimək. Bərk yerimək. Yeriyə bilməmək. Çox yeriməkdən yorulmaq. – *Yeriyən* at özünə qamçı vurdurmaz (Atalar sözü) ... ; ***yeritmək*** – yeriməyə, hərəkət etməyə məcbur etmək. // Yeriməsinə kömək etmək, gəzdirmək. Ayaq açan uşaqları *yeridirlər. ...*; ***yeritdirmək*** – yeriməyə məcbur etmək; ***yeridilmək*** – «yeritmək»dən məch.; ***silmək*** – dəsmal və s. ilə qurulamaq. Əl-üzünü silmək. Bədəni silmək. − [Tahir] yaylıqla Alının yanaqlarını və alnını *silib* təmizlədi (M.Hüseyn) ... ; ***pozmaq*** – üstündən xətt çəkmək, çıxarmaq. Siyahıdan silmək. Dəftərdən adını silmək. – Elə ki müəllimin adını *sildilər*, sədr dedi: Adam verin, kandidat qoyaq (M.Cəlal) ... ; ***silinmək*** – məchul feil. Yuyularaq, sürtülərək və ya silinərək təmizlənmək. Stollar, pəncərələr *silinmişdir.* – Kitab şkafının şüşələri tərtəmiz *silinmişdi* (M.Cəlal) ... Qayıdış feil. Öz bədənini, əlini-üzünü və s. silmək; qurulamaq. Xidmətçi əlində aftafa-ləyən içəri girdi: Mərsiyəxan əllərini *yuyub-silindi* (Y.Çəmənzəminli) ... .

Göründüyü kimi, ***yerimək*** təsirsiz feildən ***yeritmək*** təsirili feili, ***yeritmək*** təsirli feildən ***yeritdirmək*** icbar növ feili, həm də ***yeridilmək*** məchul növ feili; ***silmək*** təsirli feildən ***silinmək*** möchul növ və ***silinmək*** qayıdış növ feili düzəlmişdir ki, bunların da hər birinin fərqli leksik mənaları vardır, yəni bunları sözformalar kimi yox, yeni sözlər kimi qəbul etmək lazımdır.

Qeyd olunduğu kimi, feildaxili söz yaradıcılığı, yəni feildən feilin düzəlməsi həm də feilin müxtəlif növ formaları arasında baş verir. Feilin növ kateqoriyası hərəkətin onun subyektinə və obyektinə olan münasibətini bildirir. Hərəkətin subyektə olan münasibətinə görə, yəni işin icrası zamanı subyektin fəal (aktiv) və qeyri-fəal (passiv) olmağına görə bütün dillərdə feilin iki növü qeyd olunur: məlum (aktiv) və məchul (passiv). Hərəkətin həm onun subyektinə, həm də obyektinə olan münasibətinə görə Azərbaycan dlində feilin 6 (məlum növ, məchul növ, qayıdış növ, qarşılıq növ, icbar növ, müştərək), rus dilində 3 (действительный, страдательный, возвратный: общевозвратный, собственно-возвратный, взаимно-возвратный, косвенно-возвратный, безобъектно-возвратный) (Насибов, 2008: 13-14), ingilis dilində isə yenə də yalnız 2 növü (məlum, məchul) haqqında danışılır.

Hərəkətin subyektə olan münasibətinə görə son zamanlar bəzi Azərbaycan dilşünasları həm də «şəxssiz» növ feillərindən danışırlar, hansılar ki təsirsiz feillərin əsasına ***-ıl, -il, -ul, -ül*** şəkilçisini artırmaqla düzəlir: *get(mək) → ged-il-mək, yat(maq) → yat-ıl-maq, inan(maq) → inan-ıl-maq, qulaq as(maq) → qulaq as-ıl-maq* və s. Həmin dilşünasların dediyinə görə, «bu feillərlə ifadə olunan hərəkətin məntiqi subyekti yoxdur və onu təsəvvür etmək mümkün deyil» (Kazımov, 2010: 400). Bu gecə *yatılmırdı*; Şəhərdən rayona çətin *gedilir*; Tapşırığa əməl *edildi*; Sizin ərizənizə *baxıldı*.

Bizə belə gəlir ki, bu feillər (şəxssiz kimi) şəxsli feillərin qarşılığıdır və başqa feillərdə olduğu kimi, Azərbaycan dilində də feilin şəxs kateqoriyası tərkibində öyrənilməlidir. Növ

baxımından isə onları, fikrimizcə, məchul növə aid etmək mümkündür, çünki əgər məlum növə həm təsirli, həm də təsirsiz feillər aid olursa, məchul növə təsirli və təsirsiz feillərdən yaranan passiv hərəkət formalarını da aid etmək olar. Müqayisə et: *mən kitab oxuyuram – kitab oxunur; mən yol gedirəm – yol çətin gedilir; o, tapşırığa əməl edir – tapşırığa əməl edilir.*

Göründüyü kimi, semantik struktur baxımından verilmiş ifadələr bir-birindən fərqlənmir: onların leksik-qrammatik subyekti olmasa da, onu təsəvvür etmək mümkündür, onların bəzilərindəki qrammatik mübtəda rolunda obyektin olmaması da, fikrimizcə, məsələnin mahiyyətini dəyişdirmir, onların hər birində obyekt hər hansı bir subyekt tərəfindən passiv hərəkətə məruz qalır. Ona görə də biz, bir çox dilşünaslar kimi, hesab edirik ki, feilin «şəxssiz» adlanan növü yoxdur, məchul növün şəxssiz feilləri vardır ki, onlara məhz adıçəkilən feillər aiddir.

Azərbaycan dilində, məlum növdən savayı, feilin hər bir növü xüsusi şəkilçilər vasitəsilə düzəlir.

Məchul növ feilləri subyekti fəal olmayan, mübtəda kimi işlənməyən feillərə deyilir. Onlar yalnız təsirli feillərə ***-ıl, -il, -ul, -ül, -ın, -in, -un, -ün, -n; -nıl, -nil, -yıl*** şəkilçilərini artırmaqla düzəlir: *al(maq) → al-ın-maq, sil(mək) → sil-in-mək, yaz(maq) → yaz-ıl-maq, oxu(maq) → oxu-n-maq, öldür(mək) → öldür-ül-mək, təyin et(mək) → təyin ed-il-mək, soruş(maq) → soruş-ul-maq, dinlə(mək) → dinlə-nil-mək* və s. Bakıya ikinci dəfə rəsmi məktub *yazıldı*; Bu əsər çox ağır *oxunur*; Rayona yeni başçı təyin *edildi*.

Qayıdış növ feilləri işin subyektin öz üzərində görüldüyünü bildirir, yəni subyekt həm də obyekt kimi iştirak edir. Qayıdış növ feilləri də məchul növ kimi təsirli feillərdən ***-ın, -in, -un, -ün, -n, -ıl, -il, -ul, -ül*** şəkilçiləri vasitəsilə düzəlir: *yu(maq) → yu-yun-maq, gizlə(mək) → gizlə-n-mək, at(maq) → atıl-maq, sor(maq) → sor-ul-maq, başla(maq) → başla-n-maq, çək(mək) → çək-in-mək, qapa(maq) → qapa-n-maq* və s. Uşaqlar evin arxasında *gizləndilər*; O, turnikdə əlli dəfə *çəkindi*; Dərslər *başlandı.*

Məşhur Azərbaycan dilşünası Qəzənfər Kazımovun fikrincə, qayıdış növ mənasında feillər həm də ***-ıx, -ik, -ux, -ük*** şəkilçilərinin *(gör(mək) → gör-ük-mək, dur(maq) → dur-ux-maq, döy(mək) → döy-ük-mək* və s.*)*, ***-ış, -iş, -uş, -üş*** şəkilçilərinin *(büz(mək) → büz-üş-mək, yığ(maq) → yığ-ış-maq, sor(maq) → sor-uş-maq* və s.*)* köməyi ilə yaranır (Kazımov, 2010: 400).

Qarşılıq növ feilləri «müxtəlif subyektlər tərəfindən qarşılıqlı icra olunduğunu bildirən» feillərdir. Onlar təsirli feillərdən əsasən ***-ış, -iş, -uş, -üş, -ş*** şəkilçisi vasitəsilə yaranır: *yaz(maq) → yaz-ış-maq, sev(mək) → sev-iş-mək, vur(maq) → vur-uş-maq, döy(mək) → döy-üş-mək* və s.: İndi insanlar daha çox telefon vasitəsilə *yazışırlar*; Onlar tez-tez *görüşürlər*; Azərbaycan dilində bu şəkilçilər həm də təsirsiz feillərə birləşərək hərəkətin müştərək şəkildə icra olunduğunu bildirən birgəlik növ feilləri yaradır: *mələ(mək) → mələ-ş-mək, uç(maq) → uç-uş-maq, gül(mək) → gül-üş-mək, qaç(maq) → qaç-ış-maq, ağla(maq) → ağla-ş-maq* və s. Uşaqlar *gülüşdülər;* Quşlar müxtəlif yana *uçuşdular.*

İcbar növ «subyektin tapşırığı, əməli, xahişi, göstərişi ilə işin, hərəkətin başqasına icra etdirildiyini bildirən feillərə» deyilir. Onlar təsirli feillərə ***-dır, -dir, -dur, -dür*** və ***-t*** şəkilçilərinin artırılması yolu ilə yaranır: *al(maq) → al-dır-maq, sil(mək) → sil-dir-mək, sor(maq) → sor-dur-maq, böl(mək) → böl-dür-mək; saxla(maq) → saxla-t-maq, gözlə(mək) → gözlə-t-mək, yoxla(maq) → yoxla-t-maq, çağır(maq) → çağır-t-maq* və s. Oğlum mənə maşın *aldırdı*; Müəllim yazı taxtasını *sildirdi*; Sən məni çox *gözlətdin*.

Azərbaycan dilində feildən düzələn feillər arasında, təsirlik və növ mənalı törəmə sözlərdən savayı, həm də xeyli sayda hərəkəti kəmiyyət-keyfiyyət baxımından səciyyələndirən düzəltmə feillər vardır. Onlar ***-la-/-lə-, -ala-/-ələ, -mala/-mələ; -ıx-/ -ix/-ux/-üx-; -sın-/-sin-/-sun-/-sün-;***

***-ımsın-/-ümsün-/-msın-; -ışdır-/-işdir-/-uşdur-/ -üşdür; -marla-; -əclə-; -qun-; -xul-; -cut-cux-; -nux-; -xan-; -əzi-; -ümsə-; -tala-; -naş-; -cala-*** kimi az məhsuldar və yaxud qeyri-məhsuldar şəkilçilərin köməyi ilə əmələ gəlir. Məsələn: *eş(mək) → eş-ələ-mək, büz(mək) → büz-mələ-mək, bas(maq) → bas-marla-maq, vur-maq → vur-nux-maq, ax(maq) → ax-naş-maq, öl(mək) → öl-əzi-mək, bur(maq) → bur-cut-maq* və s. Bunlardan iki cütün məna fərqlərinə nəzər yetirək: ***büzmək*** – 1) daraltmaq, yığıb sıxmaq, yığmaq. Kisənin ağzını büzmək. 2) paltarın, parçanın və sairənin bir yerini yığıb tikmək, qatlaya-qatlaya tikib daraltmaq. Ağzını büzmək – bax. ***ağız***. Dodaq büzmək – bax ***dodaq***; ***büzmələmək*** – büzmə şəklində tikmək, yığmaq, sıxmaq; ***vurmaq*** – çoxmənalı sözdür, bir neçə ilk mənası: 1) əli ilə və ya əldə tutulan bir şeylə çırpmaq, zərbə endirmək Ağacla vurmaq; 2) bir şeylə toxundurmaq. Elxan Həsənin çiyninə vurdu; 3) çalmaq, çaxmaq, qaxmaq, soxmaq. Mıx vurmaq və s.; ***vurnuxmaq*** − boş-boşuna o tərəf-bu tərəfə getmək, qurdalanmaq, yerində hərəkət etmək, boş-boşuna daim hərəkətdə olmaq, əlləşmək, çalışıb-çabalamaq. Səhərdən axşamadək vurnuxmaq; 4) təşvişə düşmək, tələşə düşmək, nə edəcəyini bilməmək, özünü ora-bura vurmaq. ... Gördüyümüz kimi, həm ***büzmələmək,*** həm ***vurnuxmaq*** törəmə feilləri əmələ gəldiyi *büzmək, vurmaq* feillərinin ifadə etdiyi hərkəti müxtəlif keyfiyyət baxımdan xarakterizə edir.

İngilis dilində də feilin təsirlik və növ kateqoriyaları mövcuddur, lakin onların formaları Azərbaycan dilində olduğu kimi sintetik, morfoloji yolla deyil, analitik, sintaktik üsullarla ifadə olunur, bu da həmin dillərin müxtəlifsistemli olduğundan irəli gəlir. Əgər Azərbaycan dilində təsirsiz feillərdən müxtəlif şəkilçilərlə təsirli feil, təsirli feillərdən təsirsiz feil və yaxud bir feil növündən şəkilçilər vasitəsilə digər növ formalarını yaradırıqsa, ingilis dilində bunları etmək olmur. Bu dildə adıçəkilən sözlərin, sözformaların hamısı ya tamam başqa leksemlərdən ibarət olur, ya da eyniköklü feillərin analitik formaları ilə düzəlir. Bunu aydın təsəvvür etmək üçün ingilis dilində də yuxarıda təhlil olunmuş feildaxili söz yaradıcılığına nəzər salaq. İngilis dilində *to fly (uçmaq)*, Azərbaycan dilində olduğu kimi, təsirsiz feildir, onun təsirli mənası həmin feillə yox, ***to smash*** + vasitəsiz tamamlıq birləşməsi ilə ifadə olunur; *to play (oynamaq)* təsirsiz feildir, onun təsirli *(oynatmaq)* mənası *to ask/ to cause somebody* feilləri ilə ifadə olunur; *to boil, to be boiling / cooking; to bake, to be baking* feili «bişmək» deməkdir, təsirsizdir, onun təsirli *(bişirmək)* mənası *to cook / to make* feilləri, ya da *to boil* (suda) feilinin özü ilə yaranır: *sup bişirmək − to cook / to make soup, tərəvəz bişirmək − to boil vegetables; to burn, to catch fire, to be on fire (yanmaq)* feili həm təsirsiz (yaş odun yanmaz − damp wood will not *burn*), həm də təsirlidir (kağız yandırmaq – *to burn* a paper). Bu feilin təsirli ekvivalenti həm də *to consume* feili olur (Alov taxta binaları yandırdı − The fire *consumed* the wooden buildings); *to get up, to rise, to stand (qalxmaq)* təsirsiz feillərdir, onların təsirli variantları isə *to lift, to raise, to heave, to pick up (qaldırmaq, qalxızmaq)* feilləridir. Müqayisə edək: *stoldan qalxmaq – to rise / to get up from the table; bir şeyi qaldırmaq – to give something, başını qaldırmaq – to lift / raise one's head, kitabı qaldır – pick up the book* (Rəhimov, Cəfərova, 2012: 224).

Təsirli feillərdən təsirsiz feillərin yaranması Azərbaycan dilində, adətən, ***-ıl, -il, -ul, -ül; -ın, -in, -un, -ün, -n; -ış, -iş, -uş, -üş*** şəkilçilərinin köməyi ilə reallaşır. Məsələn: *an(maq) → an-ıl(maq), ver(mək) → ver-il(mək), vur(maq) → vur-ul(maq); çal(maq) → çal-ın(maq), gör(mək) → gör-ün(mək), qoru(maq) → qoru-n(maq); yaz(maq) → yaz-ış(maq), çək(mək) → çək-iş(mək), vur(maq) → vur-uş(maq)* və s. Bu şəkilçilər həm də eyniköklü feillərin məchul, qayıdış, qarşılıq növlərini əmələ gətirir.

İngilis dilində isə, qeyd etdiyimiz kimi, feilin yalnız iki növü (məlum, məchul) mövcuddur. Məlum növ sadə təsirli feillərdən ibarətdir. Məchul növ feilləri onlardan ***to be*** köməkçi feilinin və ***-en, -ed*** şəkilçilərinin vasitəsilə düzəlir. Məsələn: *to write, to spell (yazmaq) → to be written, to*

*be spelled (yazılmaq), to call, to invite (çağırmaq) → to be called, to be invited (çağırılmaq), to give, to hand (vermək) → to be given, to be handed (verilmək), to kill (vurmaq) → to be killed (vurulmaq)* və s. (Bauer, 1983: 311).

Qayıdış, qarşılıq mənalı feillər ingilis dilində ya elə məlum növ feillərin özü ilə, ya da tamam başqa köklü feillərlə ifadə olunur. Məsələn: *to throw* feili həm «atmaq» kimi işlənir *(to throw the stones – daş atmaq)*, həm də «atılmaq» mənasını daşıyır *(to throw* oneself at each other – bir-birinin üstünə *atılmaq)*; *to begin* həm «başlamaq» mənasında *(to begin working / to work – işə başlamaq)*, həm də «başlanmaq» mənasında işlənir (The word *begins* with the letter C – Söz C hərfi ilə *başlanır*); *to write* «yazmaq» mənasını daşıyır, «yazışmaq» isə ingilis dilində *to correspond (with), to keep up a correspondence (with), to be in correspondence (with)* kimi feili birləşmələrlə ifadə olunur: qardaşı ilə *yazışmaq – to correspond* with brother; *to kiss* həm «öpmək», həm də «öpüşmək» mənasında işlənir: Onlar görüşəndə *öpüşdülər* – They *kissed* when they met; *to beat, to whip, to kick (d*) «vurmaq» mənasını daşıyır, «vuruşmaq» mənasında isə ingilis dilində *to fight* feili ifadə olunur: Vətən uğrunda *vuruşmaq – to fight* for one's country (Heynen, 2008: 322).

İngilis dilində icbar növün də xüsusi şəkilçisi yoxdur. Bu növ feillər də ya məlum növdə, ya da başqa bir feillə öz ifadəsini tapır. Məsələn: *to hand* «asmaq» təsirli feil mənasındadır, Azərbaycan dilində həmin feildən ***-dır*** şəkilçisi ilə əmələ gələn «asdırmaq» icbar növ feili ingilis dilində *to make, to hand up, to order / to ask* feillərində öz əksini tapır; *to check, to verity, to examine, to correct* «yoxlamaq» deməkdir, «yoxlatdırmaq» icbar növ feili isə ingilis *dilində to ask / to cause somebody* kimi tərcümə olunur: xəstəni həkimə *yoxlatdırmaq – to ask / to cause* the doctor to examine the patient.

Beləliklə, Azərbaycan və ingilis dillərində feildaxili (feildən feil) söz yaradıcılığının qısa araşdırması göstərdi ki, hər iki dildə bu proses ondan digər nitq hissələrinin yaranmasına nisbətən az məhsuldardır. İngilis dilində feildaxili sözyaratma daha çox morfoloji, sintetik yolla deyil, ya leksik, ya da sintaktik, analitik yolla həyata keçirilir.

**Ədəbiyyat siyahısı**

Hacıyev, T.M. Müasir Azərbaycan dilinin qrammatikası. Morfologiya (dərslik). Bakı: Elm və təhsil, 2025. 544 s.

Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010. 400 s.

Rəhimov, İ.M., Cəfərova, S.M. Azərbaycanca-ingiliscə lüğət. Bakı: Şərq-Qərb. 2012. 224 s.

Bauer, L. English Word-Formation. Cambridge: Cambridge University Press, 1983. 311 p.

Heynen, B. Recent trends in English word-formation. München: GRIN Verlag, 2008. 322 p.

Насибов, В.Б. Глагольное словообразование в русском и азербайджанском языках. Bakı: Mütərcim, 2008. 264 с.

Шведова, Н.Ю. Глагол как доминанта русской лексики // Филологический сборник: к 100-летию со дня рождения акад. В.В.Виноградова. Москва, 1995. с. 409-414.

**İlahə Ələkbərova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Elmi işçi*
*E-mail: ilahelekberova@gmail.com*
*ORCİD: 0009-0007-0760-4084*

# AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN TARİXİ MƏNBƏLƏRƏ SÖYKƏNƏN İNKİŞAFI

**Xülasə**

Məqalədə Azərbaycan ədəbi dilinin formalaşması və inkişafında tarixi mənbələrin əhəmiyyətinə geniş şəkildə nəzər salınır. Ədəbi dilin xalqın milli kimliyini, mədəni irsini və tarixi yaddaşını yaşadan mühüm vasitə olduğu önə çəkilir. Onun təşəkkülü uzunmüddətli tarixi prosesin nəticəsi olaraq qədim yazılı abidələr, klassik ədəbiyyat nümunələri, salnamələr, rəsmi sənədlər və zəngin şifahi xalq yaradıcılığı arasında qarşılıqlı təsir əsasında baş vermişdir. Orxon-Yenisey yazıları və qədim türk mətnləri Azərbaycan dilinin tarixi köklərinin araşdırılması baxımından əsas qaynaqlar kimi qiymətləndirilir. Oğuz və qıpçaq dillərinə aid mətnlər isə dilin fonetik və morfoloji xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynamışdır.

"Kitabi-Dədə Qorqud" dastanı xalq danışıq üslubu ilə ədəbi dil arasında körpü rolunu oynamış, dilin poetik və obrazlı ifadə imkanlarını daha da zənginləşdirmişdir. Klassik Azərbaycan söz sənətkarları – Nizami Gəncəvi, Xaqani Şirvani və Məhəmməd Füzuli yaradıcılığı əsasında ədəbi dilin fəlsəfi dərinliyi, poetik gücü və emosional təsir imkanlarının genişləndiyi göstərilir. Xanlıqlar dövrünə aid salnamələr və rəsmi-dini mətnlər isə ədəbi dilin inzibati və rəsmi üslubunun formalaşmasına mühüm təsir göstərmişdir.

Maarifçilik dövrü, mətbuatın inkişafı və XX əsrdə həyata keçirilən dil siyasəti Azərbaycan ədəbi dilinin normallaşması və geniş kütlələr arasında yayılmasında mühüm rol oynamışdır. Bütün bu proseslərin nəticəsi olaraq tarixi mənbələr Azərbaycan ədəbi dilini milli kimliyin, mədəni irsin və mənəvi dəyərlərin əsas daşıyıcısı səviyyəsinə yüksəltmişdir.

***Açar sözlər**: Azərbaycan ədəbi dili, tarixi mənbələr, yazılı abidələr, klassik ədəbiyyat, şifahi xalq yaradıcılığı*

# THE ROLE OF HISTORICAL SOURCES IN THE FORMATION OF THE AZERBAIJANI LITERARY LANGUAGE

**Abstract**

The article examines the importance of historical sources in the formation and development of the Azerbaijani literary language. It is emphasized that literary language is an important tool that preserves the national identity, cultural heritage and historical memory of the people. Its formation took place as a result of a long-term historical process on the basis of interaction between ancient written monuments, samples of classical literature, Chronicles, official documents and rich oral folk art. Orkhon-Yenisei writings and ancient Turkic texts are regarded as the main sources for the study of the historical roots of the Azerbaijani language. The texts of Oguz and Kipchak languages played an important role in the formation of phonetic and morphological features of the language.

The epic "Kitabi-Dede Gorgud" served as a bridge between the style of folk speech and the literary language, enriching the poetic and imaginative expressive possibilities of the language.

Based on the works of classical Azerbaijani masters of the word – Nizami Ganjavi, Khagani Shirvani and Muhammad Fuzuli - the expansion of philosophical depth, poetic power and possibilities of emotional impact of literary language is shown. Chronicles and official religious texts of the Khanate period had an important influence on the formation of the administrative and official style of the literary language.

The age of Enlightenment, the development of the press and the language policy pursued in the 20th century played an important role in the normalization and dissemination of the Azerbaijani literary language among the masses. As a result of all these processes, historical sources have elevated the Azerbaijani literary language to the level of the main carrier of national identity, cultural heritage and spiritual values.
***Key words:*** *Azerbaijani literary language, historical sources, written monuments, classical literature, oral folk art*

**Giriş**

Ədəbi dilin inkişafında tarixi mənbələrin rolu xüsusilə böyükdür, çünki bu mənbələr dilin müxtəlif üslublarını – poetik, rəsmi, dini və publisistik üslubları – formalaşdıraraq onu çoxşaxəli bir ifadə vasitəsinə çevirmişdir. Yazılı mənbələr dilin sabitləşməsinə, şifahi xalq yaradıcılığı isə onun emosional və obrazlı gücünün artmasına xidmət etmişdir. Beləliklə, Azərbaycan ədəbi dili əsrlər boyu həm tarixi hadisələrin, həm də mədəni irsin daşıyıcısı olmuş, gələcək nəsillərə milli kimliyi, mənəvi dəyərləri və mədəni zənginliyi ötürən ən güclü vasitə kimi formalaşmışdır.

Orxon-Yenisey yazıları və qədim türk abidələri türk xalqlarının dil tarixində mühüm mərhələ hesab olunur və bu abidələr Azərbaycan dilinin tarixi köklərini öyrənmək baxımından əvəzsiz mənbədir. Onlarda işlənən sözlər, ifadələr və sintaktik quruluşlar dilimizin ilkin inkişaf mərhələlərini, onun leksik fondunun formalaşmasını və qrammatik quruluşunun əsaslarını anlamağa imkan verir. Bu yazılar vasitəsilə Azərbaycan dilinin qədim türk dilləri ilə bağlılığı, ortaq kökləri və tarixi inkişaf xətti aydın görünür. Qıpçaq və oğuz dillərində yazılmış mətnlər də Azərbaycan dilinin fonetik və morfoloji xüsusiyyətlərinin formalaşmasına mühüm təsir göstərmişdir. Oğuz dillərindəki leksik elementlər və qrammatik quruluşlar Azərbaycan dilinin əsasını təşkil etmiş, qıpçaq dillərindəki bəzi fonetik xüsusiyyətlər isə dilimizin zənginləşməsinə və müxtəlif dialekt çalarlarının yaranmasına səbəb olmuşdur. Beləliklə, qədim türk abidələri və yazılı mətnlər Azərbaycan ədəbi dilinin tarixi inkişafında yalnız başlanğıc nöqtəsi deyil, həm də onun fonetik, morfoloji və sintaktik əsaslarının möhkəmlənməsində həlledici rol oynamışdır.

**Əsas mətn**

Azərbaycan ədəbi dilinin inkişafında tarixi mənbələrin rolu təkcə dilin strukturunun formalaşması ilə məhdudlaşmır. Bu mənbələr həm də xalqın milli şüurunun, mədəni yaddaşının və mənəvi dəyərlərinin qorunub saxlanmasında mühüm vasitə olmuşdur. Hər bir dövrün ədəbi nümunələri öz dövrünün ictimai-siyasi, mədəni və fəlsəfi düşüncəsini əks etdirərək dilin zənginləşməsinə və inkişafına təkan vermişdir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanı yalnız dilin poetik imkanlarını genişləndirməklə qalmayıb, həm də xalqın dünyagörüşünü, həyat fəlsəfəsini və milli kimliyini formalaşdıran əsas mənbə kimi çıxış etmişdir. Eyni zamanda, klassik ədəbiyyatın böyük nümayəndələrinin yaradıcılığı dilin həm estetik, həm də intellektual səviyyədə inkişafına xidmət etmiş, ədəbi dilin müxtəlif funksiyalarını – bədii, fəlsəfi, ictimai-siyasi – bir araya gətirmişdir. Bu baxımdan, Azərbaycan ədəbi dili yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın mədəni və mənəvi sərvətlərinin qoruyucusu kimi dəyərləndirilməlidir.

Ədəbi dil mütəxəssisləri bu gün bir əsas müddəanı təsdiqləyirlər. Azərbaycan ədəbi dilinin ilk öncə şifahi təzahürü olmuş, onun əsasında XI əsrdən (son tədqiqatlara görə "Kitabi-Dədə Qorqud" kamil şəkildə ilk dəfə yüzillikdə yazıya alınmışdır) üzü bəri yazılı variantı inkişaf tapmışdır və yazılı ədəbi dilin əsası şifahi ədəbi dilin əsasında yaranmışdır. [Dəmirçizadə, 1909-1979: 9].

XI əsrdə yazıya alınmış "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan ədəbi dilinin formalaşmasında misilsiz rol oynamışdır. Bu əsərdəki dil nümunələri xalq danışıq dilinə yaxın olmaqla yanaşı, poetik üslubun əsaslarını da yaratmış, sonrakı dövrlərdə ədəbi dilin inkişafına möhkəm zəmin hazırlamışdır. Dastan yalnız ədəbi dilin deyil, həm də milli düşüncə tərzinin formalaşmasında mühüm əhəmiyyət kəsb etmiş, xalqın dünyagörüşünü, mənəvi dəyərlərini və həyat fəlsəfəsini özündə əks etdirmişdir. Burada yer alan atalar sözləri, məsəllər və obrazlı ifadələr xalq dilinin poetik gücünü, bədii imkanlarını və dərin hikmətini nümayiş etdirir. Eyni zamanda, dastanda işlədilən dialekt elementləri ədəbi dilin zənginləşməsinə, müxtəlif bölgələrin dil xüsusiyyətlərinin qorunmasına və ümumxalq dilinin bütövləşməsinə xidmət etmişdir. Beləliklə, "Kitabi-Dədə Qorqud" həm dil, həm də düşüncə baxımından Azərbaycan xalqının milli kimliyinin formalaşmasında əvəzsiz bir abidə olmuşdur. [Əlizadə, 1988: 52]

Azərbaycan klassik ədəbiyyatı Azərbaycan ədəbi dilinin formalaşmasında və zənginləşməsində mühüm rol oynamışdır. Orta əsrlərdə yaranmış yazılı mənbələr, xüsusilə Nizami Gəncəvi, Xaqani Şirvani və Məhəmməd Füzuli kimi böyük söz ustalarının əsərləri dilin poetik gücünü, üslubi çalarlarını və ifadə imkanlarını genişləndirmişdir. Nizami Gəncəvi öz əsərlərində yüksək poetik üslub, fəlsəfi dərinlik və obrazlı ifadələrdən istifadə edərək Azərbaycan dilinin bədii imkanlarını yeni bir mərhələyə yüksəltmişdir. Onun "Xəmsə"si yalnız poetik bir zirvə deyil, həm də dilin fəlsəfi düşüncəni ifadə etmək gücünü nümayiş etdirən möhtəşəm bir abidədir. Xaqani Şirvani isə satirik üslubu ilə dilin ictimai-siyasi fikir ifadə gücünü artırmış, sözün tənqidi və publisistik funksiyasını ön plana çıxarmışdır. Onun əsərlərində dil yalnız bədii təsvir vasitəsi deyil, həm də sosial problemlərin, ictimai ədalətsizliklərin ifadə forması kimi çıxış etmişdir. Məhəmməd Füzuli isə Azərbaycan ədəbi dilinin klassik zirvəsi hesab olunur. Onun əsərlərində dilin emosional dərinliyi, poetik zənginliyi və üslubi incəliyi özünü göstərmiş, sevgi, kədər, həsrət kimi hisslər incəliklə ifadə olunmuşdur. Füzuli dilin poetik gücünü ən yüksək səviyyəyə çatdıraraq onu həm emosional, həm də intellektual ifadə vasitəsinə çevirmişdir. Bu klassiklərin əsərləri birgə şəkildə Azərbaycan ədəbi dilinin zənginləşməsinə, üslubi müxtəlifliyinin formalaşmasına və dilin həm bədii, həm fəlsəfi, həm də ictimai-siyasi məzmun daşımaq gücünə nail olmasına səbəb olmuşdur. Beləliklə, klassik ədəbiyyat Azərbaycan dilini sadə ünsiyyət vasitəsindən yüksək bədii ifadə forması səviyyəsinə yüksəltmiş, onun çoxşaxəli və zəngin bir ədəbi dil kimi formalaşmasına həlledici təsir göstərmişdir.

Xanlıqlar dövründə yazılmış salnamələr Azərbaycan ədəbi dilinin rəsmi üslubunun formalaşmasında mühüm rol oynamışdır. Bu salnamələrdə istifadə olunan dil nümunələri dövlətçilik ənənələrinin, siyasi hadisələrin və ictimai münasibətlərin yazılı şəkildə ifadə olunmasına xidmət etmiş, nəticədə dilin rəsmi üslubu daha da möhkəmlənmişdir. Dövlət yazışmaları və dini mətnlər isə dilin hüquqi və inzibati funksiyalarını inkişaf etdirərək onun yalnız bədii ifadə vasitəsi deyil, həm də idarəçilik və hüquqi münasibətlərin daşıyıcısı olduğunu göstərmişdir. "Tarixi-Rəşidiyyə", "Şahnamə" tərcümələri və digər yazılı mənbələr Azərbaycan xanlıqları dövründə dilin rəsmi üslubunun formalaşmasına xidmət etmiş, həm leksik fondun zənginləşməsinə, həm də üslubi müxtəlifliyin yaranmasına səbəb olmuşdur. Bu mənbələr dilin yalnız poetik gücünü deyil, həm də rəsmi və dini üslublarını inkişaf etdirərək onu çoxşaxəli bir

ifadə vasitəsinə çevirmişdir. Yazılı abidələr, şifahi xalq yaradıcılığı və salnamələr birgə şəkildə Azərbaycan dilinin inkişafına yön vermiş, onu müasir dövrə qədər gətirmişdir. Beləliklə, tarixi mənbələr yalnız dilin tarixi üçün deyil, həm də milli kimliyin qorunması baxımından əvəzsiz dəyərə malik olmuş, xalqın mədəni yaddaşını və mənəvi irsini nəsildən-nəsilə ötürən əsas vasitələrdən birinə çevrilmişdir. [Xudiyev, 2012: 374]

Azərbaycan ədəbi dilinin inkişafında şifahi xalq yaradıcılığı xüsusi yer tutmuşdu. Bayatılar, nağıllar, dastanlar və digər folklor nümunələri xalq dilinin canlı ifadələrini qoruyaraq nəsildən-nəsilə ötürmüş, dilin leksik fondunu zənginləşdirmişdir. Bu nümunələrdə işlənən sözlər, deyimlər və obrazlı ifadələr ədəbi dilin poetik gücünü artırmış, onu daha emosional və təsirli etmişdir. Xalq yaddaşı tarixi hadisələri şifahi şəkildə saxlamış, qəhrəmanlıq dastanları, tarixi rəvayətlər və əfsanələr vasitəsilə dilin emosional və obrazlı ifadə imkanlarını genişləndirmişdir. Nağıllarda sadə xalq danışıq üslubu, dastanlarda qəhrəmanlıq və milli kimlik motivləri, bayatılarda isə dərin hiss və duyğular dilin müxtəlif üslublarını formalaşdıraraq ədəbi dilin zənginləşməsinə xidmət etmişdir. Beləliklə, şifahi xalq yaradıcılığı həm dilin tarixi yaddaşını qorumuş, həm də onun bədii-estetik gücünü artıraraq müasir ədəbi dilin formalaşmasına möhkəm zəmin yaratmışdır.

XIX əsrdə Azərbaycan cəmiyyətində maarifçilik hərəkatı güclənmiş və bu dövr ədəbi dilin inkişafında yeni bir mərhələ açmışdır. Maarifçi ziyalıların fəaliyyəti ilə dilin sadələşdirilməsi, xalq üçün daha anlaşıqlı hala gətirilməsi prosesi başlamış, bu da ədəbi dilin geniş kütlələr arasında yayılmasına şərait yaratmışdır. Mirzə Fətəli Axundzadə bu istiqamətdə önəmli addımlar ataraq dilin sadə və aydın olmasının vacibliyini vurğulamış, xalqın maariflənməsi üçün ədəbi dilin əlçatan olmasını əsas prinsip kimi irəli sürmüşdür. [Axundzadə, 1987: 45]. Onun ideyaları dilin yalnız ziyalıların deyil, bütün xalqın ünsiyyət vasitəsinə çevrilməsinə xidmət etmişdir. Bu dövrdə Həsən bəy Zərdabi də mühüm rol oynamışdır. O, "Əkinçi" qəzetini nəşr etməklə Azərbaycan dilinin mətbuatda geniş yayılmasına nail olmuş, dilin ictimai-siyasi fikir ifadə gücünü artırmışdır. "Əkinçi" sadəcə bir qəzet deyil, həm də milli dilin inkişafı, xalqın maariflənməsi və milli kimliyin qorunması üçün mühüm bir tribuna olmuşdur. Beləliklə, maarifçilik dövrü və mətbuat Azərbaycan ədəbi dilinin sadələşməsinə, normallaşmasına və geniş kütlələr arasında möhkəmlənməsinə böyük töhfə vermişdir. [Məmmədov, 1999: 78]

XX əsr Azərbaycan ədəbi dilinin inkişafında dönüş nöqtəsi olmuşdur. Sovet dövründə Azərbaycan dili rəsmi status qazanaraq dövlət idarəçiliyində, təhsil sistemində və mətbuatda geniş tətbiq edilməyə başlamışdır. Bu, dilin ədəbi norma kimi möhkəmlənməsinə, yazılı üslubun sabitləşməsinə və geniş kütlələr arasında yayılmasına şərait yaratmışdır. Sovet ideologiyasının təsiri ilə dilin leksik fonduna yeni terminlər daxil olmuş, elmi və texniki üslub inkişaf etmişdir. Bununla yanaşı, bəzi məhdudiyyətlər olsa da, Azərbaycan dili milli kimliyin qorunmasında mühüm vasitə olaraq öz mövqeyini saxlamışdır.

Müstəqillik dövründə isə dilin dövlət dili statusu təsdiqlənmiş, onun inkişafı üçün yeni imkanlar açılmışdır. Bu mərhələdə Azərbaycan dili yalnız mədəniyyətin deyil, həm də dövlətçilik ideologiyasının əsas dayağına çevrilmişdir. Dilin normalaşdırılması, orfoqrafiya qaydalarının yenilənməsi, terminoloji bazanın zənginləşdirilməsi və tədris sistemində geniş tətbiqi müasir ədəbi dilin formalaşmasına böyük töhfə vermişdir.

Müasir dövrdə Azərbaycan ədəbi dili həm mətbuatda, həm təhsildə, həm də rəqəmsal mühitdə geniş şəkildə istifadə olunur. İnternet, sosial media və rəqəmsal texnologiyalar dilin yeni üslublarını formalaşdıraraq onun dinamik inkişafına səbəb olmuşdur. Ədəbi dil bu gün yalnız yazılı və şifahi ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin qorunması, mədəni irsin yaşadılması və qlobal informasiya mühitində Azərbaycan xalqının özünüifadəsi üçün güclü bir alətə

çevrilmişdir. Beləliklə, XX əsrdən müasir dövrə qədər Azərbaycan dili həm tarixi, həm siyasi, həm də mədəni proseslərin təsiri ilə möhkəmlənmiş, zənginləşmiş və milli varlığın ayrılmaz hissəsi olmuşdur.

Tarixi mənbələr Azərbaycan ədəbi dilinin formalaşmasında həlledici rol oynamış, onun zənginləşməsi və inkişafı üçün möhkəm təməl yaratmışdır. Qədim yazılı abidələr, klassik poeziya nümunələri, salnamələr və şifahi xalq yaradıcılığı bir-birini tamamlayaraq dilin müxtəlif üslublarını formalaşdırmış, həm poetik, həm rəsmi, həm də gündəlik ünsiyyət üslubunun inkişafına şərait yaratmışdır. Bu mənbələr vasitəsilə dil yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli düşüncənin, mədəniyyətin və mənəvi dəyərlərin daşıyıcısı kimi möhkəmlənmişdir.

Ədəbi dilin tarixi inkişafında yazılı abidələr dilin leksik fondunu zənginləşdirərək yeni söz və ifadələrin yaranmasına səbəb olmuş, klassik poeziya isə onun poetik gücünü və emosional dərinliyini artırmışdır. Salnamələr və rəsmi mətnlər dilin hüquqi və inzibati funksiyalarını inkişaf etdirmiş, şifahi xalq yaradıcılığı isə xalqın yaddaşını, tarixi təcrübəsini və mənəvi dünyasını dil vasitəsilə nəsildən-nəsilə ötürmüşdür. Beləliklə, tarixi mənbələr dilin həm bədii-estetik, həm də rəsmi-inzibati üslublarını formalaşdıraraq onu çoxşaxəli bir ifadə vasitəsinə çevirmişdir.

**Nəticə**

Bu mənbələrin əhəmiyyəti yalnız dil tarixi ilə məhdudlaşmır. Onlar milli kimliyin qorunması, xalqın mədəni irsinin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından da əvəzsizdir. Azərbaycan xalqı öz tarixi mənbələri vasitəsilə dilini, mədəniyyətini və mənəvi dəyərlərini qoruyaraq müasir dövrə qədər gətirmiş, bu gün də həmin irs üzərində yeni inkişaf mərhələləri qurmaqdadır. Nəticə etibarilə, tarixi mənbələr Azərbaycan ədəbi dilinin formalaşmasında yalnız keçmişin izi deyil, həm də gələcəyin yolunu işıqlandıran mühüm bir bünövrədir.

Azərbaycan ədəbi dilinin tarixi inkişafı zəngin və çoxşaxəlidir. Bu inkişaf müxtəlif tarixi mənbələrə, xalqın dil ənənələrinə və sosial dəyişikliklərə söykənir. Dilin formalaşması və zənginləşməsi Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafında əsas amillərdən biri olmuşdur. Gələcəkdə də bu dilin qorunması və inkişafı üçün tarixi mənbələrdən faydalanmaq vacibdir.

**Ədəbiyyat siyahısı**

Axundzadə M.F. (1987). *Seçilmiş əsərlər*. Bakı: Maarif.
Əlizadə, Ə. (1988). *Kitabi-Dədə Qorqud və Azərbaycan dili.* Bakı: Elm.
Dəmirçizadə, Ə. M. (1958). *Azərbaycan ədəbi dilinin inkişaf yolları*. Bakı: Maarif.
Məmmədov, M. (1999). *Azərbaycan ədəbi dili tarixi (XIX əsr).* Bakı: Bakı Universiteti Nəşriyyatı.
Xudiyev, N. (2012). *Azərbaycan ədəbi dili tarixi: Seçilmiş əsərləri*. Bakı: Elm və təhsil.

**Kübra Vəliyeva**
*AMEA Naxçıvan Bölməsi*
*Laboratoriya rəhbəri*
*E-mail: kubra.valiyeva@yahoo.com*
*ORCİD: 0000-0001-5557-494X*

# AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNƏN BƏZİ ƏRƏB MƏNŞƏLİ TİBBİ TERMİNLƏR: MƏXMƏRƏK, SƏTƏLCƏM, ZÖKƏM

**Xülasə**

Tibbi terminlərin leksik və semantik mənalarının tədqiqi dilçilikdə əsas və vacib məsələlərdən biridir. Azərbaycan dilində mövcud olan tibbi terminlərin tarixi, yaranma üsulları və işlənmə xüsusiyyətləri linqvistik aspektdən mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dilinin leksikası tibbi terminlərlə zəngindir və bu terminlərin böyük əksəriyyətini türk, latın, yunan, ərəb, qismən isə fars və rus mənşəli sözlər təşkil edir. Bununla yanaşı, digər Avropa dillərindən (ingilis, italyan, fransız və s.) alınmış terminlərə də rast gəlinir.

Məqalədə Azərbaycan dilinin tibbi terminologiya sistemində işlənən bəzi ərəb mənşəli terminlərin etimoloji və semantik xüsusiyyətləri araşdırılmışdır. "Məxmərək", "sətəlcəm" və "zökəm" tibbi terminləri nümunə kimi seçilərək onların mənşəyi, formalaşma yolları və dilimizdə qazandığı semantik çalarlar təhlil edilmişdir. Müəyyən edilmişdir ki, bu terminlər ərəb dilindən alınaraq Azərbaycan dilinin fonetik və qrammatik qaydalarına uyğunlaşmış, zamanla sabit terminoloji vahidlərə çevrilmişdir.

Tibbi terminlərin yaranmasında xəstəliklərin klinik əlamətləri, xüsusilə zahiri görünüş və anatomik xüsusiyyətlər mühüm rol oynayır. Eyni zamanda bəzi terminlərin izahında müşahidə olunan qeyri-dəqiqliklər onların semantik baxımdan yenidən qiymətləndirilməsini zəruri edir. Məqalədə bu məsələlər də diqqət mərkəzinə çəkilmiş və bəzi mübahisəli fikirlərə aydınlıq gətirilmişdir.

Müəllif təhlilə cəlb etdiyi tibbi terminlərə və digər faktlara əsaslanaraq belə qənaətə gəlmişdir ki, Azərbaycan dilində tibbi terminologiyanın formalaşmasında dillərarası əlaqələrin, xüsusilə ərəb dilinin mühüm rolu olmuşdur. Bu cür tədqiqatlar terminoloji sistemin daha dəqiq və sistemli şəkildə öyrənilməsinə, həmçinin elmi ünsiyyətdə terminlərin düzgün istifadəsinə xidmət edir.

***Açar sözlər:*** *Azərbaycan dilçiliyi, ərəb dili, tibbi terminologiya, məxmərək, sətəlcəm, zökəm.*

# SOME ARABIC-ORIGIN MEDICAL TERMS USED IN THE AZERBAIJANI LANGUAGE: MAHMARAK (RUBELLA), SATALJAM (PLEURİSY), ZOKAM (COMMON COLD)

**Abstract**

The study of the lexical and semantic features of medical terms is one of the important and relevant areas of linguistics. The historical development, formation processes, and usage characteristics of medical terminology in the Azerbaijani language are of particular significance from a linguistic perspective. The lexical system of the Azerbaijani language is rich in medical terms, the majority of which originate from Turkic, Latin, Greek, and Arabic sources. In addition,

there are also terms borrowed from Persian and Russian, as well as from other European languages (such as English, Italian, French, etc.).

The article examines the etymological and semantic characteristics of certain Arabic-origin medical terms used in the Azerbaijani medical terminology system. The medical terms “mahmarak,” “sataljam,” and “zokam” are selected as case studies, and their origins, mechanisms of formation, and the semantic nuances they have acquired in the Azerbaijani language are analyzed. It has been determined that these terms, having been borrowed from Arabic, have undergone adaptation to the phonetic and grammatical norms of the Azerbaijani language and, over time, have evolved into stable terminological units.

Clinical manifestations of diseases, particularly external appearance and anatomical features, play a significant role in the formation of medical terminology. At the same time, certain inaccuracies observed in the interpretation of some terms necessitate their semantic reassessment. These issues are also brought into focus in the article, and clarification is provided regarding several controversial viewpoints.

Based on the medical terms and other evidence examined, the author concludes that interlingual interactions – particularly the influence of the Arabic language – have played a significant role in the formation of medical terminology in the Azerbaijani language. Such studies contribute to a more precise and systematic understanding of the terminological system, as well as to the accurate use of terms in scientific communication.
***Key words:*** Azerbaijani linguistics, Arabic language, medical terminology, mahmarak, sataljam, zokam.

**Giriş**

Hər bir dilin leksik sisteminin zənginləşməsi və inkişafı yalnız onun daxili potensialı ilə deyil, həm də digər dillərlə qarşılıqlı əlaqə nəticəsində formalaşan alınma sözlərin hesabına baş verir. Bu proses xüsusilə terminologiya sahəsində, o cümlədən tibbi terminologiya sistemində daha qabarıq şəkildə müşahidə olunur.

Azərbaycan ədəbi dilinin leksik tərkibində qədim türk mənşəli sözlərlə yanaşı, müxtəlif dillərdən keçmiş terminoloji vahidlər də mühüm yer tutur. Bu baxımdan latın, yunan, ərəb və fars mənşəli tibbi terminlər dilimizin terminoloji fondunun formalaşmasında və zənginləşməsində əhəmiyyətli rol oynayır.

**Ərəb mənşəli tibbi terminlər**

Ərəb mənşəli bir sıra tibbi terminlər yalnız regional səviyyədə deyil, həm də beynəlxalq tibbi terminologiyada geniş istifadə olunur. Bu terminlər tarixi inkişaf prosesində elmi, mədəni və intellektual əlaqələr nəticəsində müxtəlif dillərin terminoloji sisteminə daxil olmuş, Azərbaycan və türk dillərində də işlək terminlər kimi sabitləşmişdir.

Azərbaycan dilinin tibbi terminologiya sistemində ərəb mənşəli sözlərin xüsusi yeri vardır. Bunların içərisində “məxmərək”, “sətəlcəm” və “zökəm” terminlərini götərmək olar.

**Məxmərək** *(lat. Rubeola).* Tibbi termin kimi məxmərək yoluxucu xəstəliklər qrupuna aid olub, əsasən dəri səpgiləri ilə müşayiət olunan infeksion xəstəliyin adını bildirir. Məxmərək xəstəliyi hava-damcı yolu ilə (asqırma, öskürmə, danışma) yayılan virusdur və qızılcaya bənzər əlamətlərlə xarakterizə olunur. “Qızılcaya bənzər məxmərək xəstəliyinin törədicisi viruslardır. Adından göründüyü kimi, bu xəstəliyin bütün əlamətləri qızılcadakına müvafiqdir, amma ondan

zəif təzahür edirlər; səpgilər solğun, birləşməyə meylli, gedişi qısa, nəticə həmişə yaxşıdır" (Məmmədov, 2012: 575).

Düzəltmə söz ərəb dilindən boğaz samiti olan "ha" (ح) səsinin "xə" (خ) ilə əvəzlənməsi yolu ilə yaranmışdır. "Ərəb dilində boğaz samiti olan "ha"nın "x" ilə əvəzlənməsinə gəlincə qeyd etmək lazımdır ki, nəinki dilimizin tələffüz məxrəcinə uyğun olmayan "ha" boğaz samitinin, hətta Azərbaycan dilindəki "h" samiti ilə eyni məxrəc təşkil edən "hə" samitinin də "x" kimi deyiliş və yazılışına rast gəlinir" (Əhmədov, 1990: 35).

Azərbaycan dilində işlənən qədim türk mənşəli "qızılca", italyan mənşəli "skarlatin"və ərəb mənşəli "məxmərək" terminlərinin mənşəyi müxtəlif olsa da, hər üç termin semantik baxımdan "qırmızı" rəng anlayışı ilə bağlıdır. Bunun səbəbi həmin xəstəliklərdə dəridə yaranan xarici dəyişikliklər nəticəsində zahiri əlamətlərin bir-birinə bənzəməsidir. Qeyd edildiyi kimi, "xəstəliklərin müəyyən qismi, o cümlədən də dəri xəstəlikləri, dəridə əmələ gələn dəyişikliklərə və zahiri əlamətlərinə görə adlandırılmışdır. Bu xüsusiyyət təkcə Azərbaycan dilinə deyil, ümumilikdə bütün dünya dillərinə xasdır" (Əhmədov, 1990: 34). Onuda əlavə etmək lazımdır ki, latın dilində "məxmərək" termini "rubeola" şəklində işlənir və etimoloji baxımdan "qırmızı" mənasını bildirən "ruber" kökünə əsaslanır.

İzahlı lüğətdə göstərilir ki, "məxmərək" sözü ərəb mənşəli *"məxmər"* (örtük) sözünə fars mənşəli son şəkilçi *"-ək"* kiçiltmə şəkilçisinin artırılması yolu ilə yaranmışdır. Lakin bu izah terminin həqiqi etimologiyasını tam və dəqiq şəkildə əks etdirmir. "Məxmərək. *tib.* Qırmızı səpki şəklində yoluxucu uşaq xəstəliyi" (*Azərbaycan dilinin izahlı lüğəti, 2006a: 328*).

Qeyd etmək lazımdır ki, "məxmərək" termini ərəb dilinin özündə bu formada mövcud deyil. Məxmərək termini ərəbcədə "qırmızı" mənası verən kökdən yaranmış "humeyra" (حُمَيْرَاُ) sözü ilə ifadə olunur. Terminin etimoloji kökü (حُمْرَةٌ) حَمُرَ-حَمِرَ feilinə gedib çıxır və "qırmızı olmaq" mənasını ifadə edir. Ərəb mənbələrində حُمَيْرَاُ (humeyra) sözü belə izah olunur: "1. حَمْرَاء [həmra – qırmızı] sözünün kiçiltmə forması. 2. (Tib.) epidemik qızdırma" (Əhməd, 2008: 558; Əl-Mucəmul-Vasit, 2004: 197; Məsud, 1992: 316).

Ərəb dilində "فُعَيْلاء" vəznində olan bu tip sözlər adətən xüsusiyyətin kiçildilmiş və ya incə çalarını bildirmək üçün işlədilir. حُمَيْرَاُ (humeyra) sözü klassik ərəb ədəbiyyatında çox vaxt ağ dərili, yanaqları qırmızı olan qadın mənasında işlədilir. Qeyd etmək lazımdır ki, ərəb dilində bu xəstəliyin "حَصْبَةٌ أَلْمَانِيَّةٌ" (həsbə əlmənivyə) – "Alman qızılcası" mənasını bildirən sinonim termini də mövcuddur.

Beləliklə, "məxmərək" termininin yaranmasını yalnız "məxmər + -ək" modeli ilə izah etmək kifayət etmir. Daha doğru yanaşmaya görə, bu termin ərəb dilində "qırmızılıq" semantikasını ifadə edən köklə bağlı olub, sonradan fars dilinə məxsus kiçiltmə şəkilçisi ک – (-ək / -k-) vasitəsilə formalaşmış və Azərbaycan dilinə keçərək tibbi termin kimi sabitləşmişdir.

**Sətəlcəm** *(yun. Pleuritis)*. "Əslində iki sözdən (zət-əl-cənb) ibarət olan bu termin Azərbaycan dilində sadə söz kimi işlənir. "Sətəlcəm" termini dilimizdə (istər yazılı, istərsə də şifahi) ərəb tələffüzündən çox uzaqlaşmışdır. Bu sözün orjinala yaxın formasına bədii ədəbiyyatda təsadüf olunur: "Əgər zatəlcənb də tutmasan, yəqin ki, bir zökəm tutacaqsan".

Bu terminin mənası bəzən lüğətlərdə təhrif olunur. Belə ki, bəzən sətəlcəm "восполение легких" bəzən də "pnevmaniya" kimi təqdim edilir. "Ağ ciyər iltihabı" termininin rusca və yunancaya tərcüməsi olan bu terminlər heç də "sətəlcəm" sözünün qarşılığı deyildir. "Sətəlcəm" əslində ağ ciyərin qişasının iltihabı deməkdir. Son zamanlar tibbi ədəbiyyatda bu terminin yunanca qarşılığı olan "plevrit" sözü daha çox işlədilir." (Əhmədov, 1990: 35).

İzahlı lüğətdə isə “sətəlcəm” belə izah olunur: “Sətəlcəm – bərk soyuqdəymə nəticəsində ağ ciyərdə əmələ gələn iltihab – xəstəlik. ” (Azərbaycan dilinin izahlı lüğəti, 2006b: 98). Bu izah müəyyən qədər qeyri-dəqiqdir, çünki burada plevrit ilə pnevmoniya anlayışları qarışdırılır.

“Plevrit – plevranın (ağciyər pərdəsinin) iltihabı xəstəliyi olub plevral boşluqda mayenin yığılması, və ya plevra vərəqlərinin üzərində fibrinli çöküntülərin əmələ gəlməsi ilə müşahidə olunur. Plevrit quru və eksudativ olmaqla iki yerə bölünür. Əmələgəlmə səbəblərinə görə plevritlər infeksiya və qeyri-infeksiya (aseptik) mənşəli olur. Xəstəlik uzun müddət davam etdikdə gələcəkdə plevra boşluğunda bitişmələr, pay arası və plevra boşluqlarının bitişməsi, kütləvi fibrin düyünlərinin əmələ gəlməsi, plevra vərəqlərinin qalınlaşması, plevroskleroz və tənəffüs çatışmazlığının inkişafı, diafraqma günbəzində hərəkətlərin məhdudlaşması əmələ gələ bilər” (“Plevrit”).

“Plevrit” terminin şərhi izahlı lüğətdə belədir: “Plevrit. (yun.). tib. Plevranın iltihabı. Plevra (yun.). Anat. Ağciyər və döş boşluğunun divarını örtən pərdə. (Azərbaycan dilinin izahlı lüğəti, 2006a: 611).

Bunun əksinə olaraq, “Pnevmoniya ağciyərlərdə yaranan bakterial, virus və ya göbələk mənşəli iltihab prosesidir. Bu xəstəlik zamanı ağciyərlərin alveol adlanan hava kisəcikləri maye və ya irinlə dolur, nəticədə nəfəs darlığı və bədəndə oksigen çatışmazlığı yaranır.” (“Pnevmoniyanın əsas əlamatləri”).

Ərəb dilində “zət-əl-cənb” termini iki hissədən ibarətdir. ذاتُ (zət) və الجَنْب (cənb) sözlərindən. “ذات” (zət/zat) sözü kontekstdən asılı olaraq həm “malik olmaq, sahib olmaq”, həm də “mahiyyət/öz” anlayışlarını ifadə edən çoxfunksiyalı ərəb mənşəli termindir. ذاتُ (zət) sözü əksər hallarda isimdən əvvəl gələrək “…-lı, …-ə malik olan” mənasını yaradır. Məsələn, ذاتُ الجنب – (zət-əl-cənb) “böyür (yan) ilə bağlı olan” (yəni xəstəlik adı kimi), plevrit. ذاتُ الرِّئَة – (zəturrə) Ağciyər iltihabı, pnevmoniya.

Həmçinin ذاتُ (zət) sözü müəyyənləşdirici söz kimi işlənir və özündən sonra gələn sözə bağlı olur (izafət tərkibi yaradır). “Mahiyyət, zat, öz, substansiya” mənalarında işlənir. Məsələn, fəlsəfədə: “şeyin zatı” – onun daxili mahiyyəti. ذاتية – (zətiyyə) subyektivlik (özünəməxsusluq).

”جنب“ sözü əsasən “yan, böyür” mənasını ifadə etsədə, müxtəlif sahələrdə (tibb, dilçilik, dini terminologiya) fərqli mənaçalarları qazanır. Leksik mənası “yan tərəf, böyür, tərəf” deməkdir. "الَّذِينَ يَذْكُرُونَ اللَّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ"– Onlar ayaq üstə, oturarkən və yanları üstə uzanarkən (hər zaman) Allahı xatırlayarlar (Əli İmran surəsi, ayə 191).

Anatomik (tibbi) mənasında isə insan bədənində döş qəfəsinin yan hissəsi (qabırğalar nahiyəsi) kimi başadüşülür. Bu mənada “ذاتُ الجنب” ifadəsində işlənərək plevra ilə bağlı ağrını və ya xəstəliyi bildirir.

Ərəb dili lüğətlərində ذَاتُ الجَنْبِ (zət-əl-cənb) termini aşağıdakı kimi izah olunur:

1. (جَنَبَ / يَجْنُبُ) feilindən yaranan ”جنب“ (cənb) sözü (cəm forması أجْناب və جُنُوب) “uzaqlaşdırmaq, çəkinmək, yankeçmək” mənalarını verir. 2. جنب (Anat.) yan, tərəf – bədənin sağ və ya sol hissələrindən biri; qoltuqaltından başlayaraq böyrək (yan) nahiyəsinə qədər olan hissə. “نام على جنبه”: yan üstə (yanı ilə) yatdı. 3. “ذاتُ الجنب” (zət-əl-cənb) (tib.) – Ağciyəri əhatə edən pərdənin iltihabıdır (yəni plevrit). Bu xəstəlik öskürək, qızdırma və böyür nahiyəsində sancı ilə müşayiət olunur; bu sancı nəfəs alarkən daha da artır” (Əhməd, 2008: 402; Əl-Mucəmul-Vasit, 2004: 138; Məsud, 1992: 283).

Beləliklə, “ذات الجنب” (zət-əl-cənb) birləşməsi sözün həqiqi mənasında “yan (böyür) ilə əlaqəli olan (xəstəlik)” deməkdir və tibbi termin kimi plevranın iltihabını – yəni Plevrit ifadə edir.

**Zökəm** (*yun. Rhinitis*). Bu termin dilimizdə geniş şəkildə işlənərək həm elmi, həm də gündəlik ünsiyyət mühitində özünə möhkəm yer tutmuşdur. Bu söz zamanla fonetik və semantik baxımdan uyğunlaşaraq Azərbaycan dilinin terminoloji sistemində sabitləşmişdir.

"Zökəm və ya tumov – burun selikli qişasının iltihabıdır. Xəstəlik iki formada keçir: xroniki və kəskin. Kəskində xəstəlik öz-özünə və ya bəzi infeksiyalardan yaranır. Xroniki zökəmin allergik, adi, hipertrofik, atrofik növləri var. Allergik zökəm mövsümi və ya daimi olur. Əsas simptomları asqırma, burun, ağız boşluğunda gicişmə ilə keçir. Allergik forma zamanı individual olaraq orqanizmə qıcıqlandırıcı təsirləri, məsələn, yun xalça, ev heyvanları, toz və ya allergiya yaradan qidalar kənarlaşdırılmalıdır ("Zökəm"). Müalicədə damardaraldıcı, antihistamin və harmonal preparatlardan istifadə edilir. Eyni zamanda, fiziki aktivlik, təmiz hava və su prosedurları orqanizmin müqavimətini artırır.

Azərbaycan dilinin izahlı lüğətində termin belə izah olunur: "Burnun daxili qişasının iltihabı nəticəsində burundan selik axma və tez-tez asqırma şəklində təzahür edən xəstəlik" (Azərbaycan dilinin izahlı lüğəti, 2006b: 690).

"Dilimizdə "zökəm" və "tumov" sözləri də xəstəlik adı kimi işlənməkdədir. Əslində bu sözlərin hər ikisi eyni xəstəliyi bildirir. Bunlardan birincisi ərəb mənşəli olduğu halda, ikincisi dilimizin öz sözüdür. "Tumov" sözü daha qədim tarixə malik olub, ümumtürk yazılı abidələrində "tumağu" şəklində işlənmişdir. Özü də "soyuq" mənasındakı "tum" (tom) kök morfemindən törəmişdir. Yəqin ki, xəstəlik soyuqdəymə nəticəsində meydana gəldiyindən belə adlandırımışlar.

Semantikasında soyuqdəymə mənası olan "zökəm" sözü isə dilimizdə "tumov"dan daha sonra işlənməyə başlamışdır. Buna baxmayaraq, elmi ədəbiyyatda "zökəm" bir termin kimi sabitləşmişdir. Hazırda "tumov" sözünə daha çox danışıq dilində və Azərbaycan dilinin dialektlərində rast gəlirik" (Əhmədov, 1990: 36).

Ərəb dili lüğətlərində "زُكام" (zökəm) sözü belə izah olunur: "1. Söz زُكِمَ – "qrip olmaq, soyuqlamaq" mənalarını verən feildən törəmişdir. 2. (Tib.) Burun selikli qişasının kəskin iltihabıdır. Bu zaman asqırma, göz yaşarması və burundan bol sulu selik ifrazı müşahidə olunur. Buna "soyuqdəymə (zökəm)" də deyilir" (Əhməd, 2008: 988; Əl-Mucəmul-Vasit, 2004: 396; Məsud, 1992: 418).

"Zökəm" termini Azərbaycan dilində işlənən ərəb mənşəli tibbi terminlərdən biri kimi həm etimoloji, həm də semantik baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu söz ərəb dilindən dilimizə keçərək zamanla fonetik və leksik uyğunlaşmaya uğramış və terminoloji sistemdə sabitləşmişdir.

**Nəticə**

Beləliklə, aparılan etimoloji və semantik təhlil göstərir ki, Azərbaycan dilinin tibbi terminologiya sistemi müxtəlif dillərlə qarşılıqlı əlaqə nəticəsində formalaşmış və zənginləşmişdir. Xüsusilə ərəb mənşəli terminlər bu sistemdə mühüm yer tutur və tarixi inkişaf prosesində dilimizdə sabit terminoloji vahidlərə çevrilmişdir.

Təhlil edilən "məxmərək", "sətəlcəm" və "zökəm" terminləri göstərir ki, bu sözlər yalnız leksik alınma deyil, eyni zamanda fonetik və semantik uyğunlaşma nəticəsində Azərbaycan dilinin daxili qanunauyğunluqlarına uyğun şəkildə formalaşmışdır. Bu terminlərin etimoloji kökləri əsasən xəstəliklərin klinik əlamətləri, xüsusilə də zahiri görünüş və ya anatomik xüsusiyyətlərlə bağlıdır. Araşdırma nəticəsində aydın olur ki, bəzi hallarda bu terminlərin lüğəvi izahlarında müəyyən qeyri-dəqiqliklər mövcuddur.

Ümumilikdə, tibbi terminlərin yaranması və formalaşması prosesində dillərarası əlaqələr, semantik motivasiya və klinik əlamətlər mühüm rol oynayır. Azərbaycan dilində işlənən bu tip

terminlərin araşdırılması həm dilçilik, həm də tibb sahəsində terminoloji sistemin daha düzgün anlaşılmasına və standartlaşdırılmasına xidmət edir.

**Ədəbiyyat siyahısı**

*Azərbaycan dilinin izahlı lüğəti*. (2006a). Dörd cilddə (III cild). Bakı: Şərq-Qərb. *Azərbaycan dilinin izahlı lüğəti*. (2006b). Dörd cilddə (IV cild). Bakı: Şərq-Qərb.
Əhməd, M. Ö. (2008). *Mucəmul-lugatil-arabiyyətil-Məasirati*. Qahirə: Aləmul-kutub.
Əhmədov, M. (1990). "Bəzi tibb terminlərinin linqvistik təhlili". Terminologiya məsələləri, 92, 34-36.
*Əl-Mucəmul-Vasit*. (2004). Qahirə: Məktəbətuş-şuruqil-duvaliyyə.
Məsud, C. (1992). *Ər-Raidu mucəmun luğaviyyun asriyyun*. Beyrut: Dərul-ulumi lilmələyyin.
Məmmədov, A.Q. (2012). *Tibbi biliklərin əsasları (dərslik).* Bakı: Təknur.
Plevrit. Wikipediya. https://az.wikipedia.org/wiki/Plevrit
Pnevmoniyanın əsas əlamatləri. Livhospital.az.
https://www.livhospital.az/pnevmaniya-elametleri qoyulma tarixi: 14.11.2024.
Zökəm. Wikipediya. https://az.wikipedia.org/wiki/Z%C3%B6k%C9%99m

**Çinarə Əkbər**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Mütəxəssis*
*E-mail: chinara.akbar96@gmail.com*
*ORCİD: 0009-0003-2582-046x*

# TÜRK DİLLƏRİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Xülasə**

Bu məqalədə dilçilik elminin tarixi inkişaf prosesi İntibah dövrü kontekstində sistemli şəkildə təhlil olunur. Dilçilik tarixinin dövrləşdirilməsində istifadə edilən "subyektiv" və "obyektiv" prinsiplər elmi-metodoloji baxımdan şərh edilir və bu prinsiplərin dil haqqında elmin inkişaf mərhələlərinin izahında oynadığı rol müqayisəli şəkildə göstərilir. Subyektiv prinsip ayrı-ayrı dilçilik məktəblərinin, nəzəri cərəyanların və görkəmli dilçilərin metodoloji mövqelərinə əsaslandığı halda, obyektiv prinsip dilin tədqiqi metodlarının daxili inkişaf məntiqini və elmi qanunauyğunluqlarını ön plana çıxarır.

Məqalədə dilçilik elminin təşəkkülü, təkamülü və klassik dilçiliyin nisbi tənəzzülü mərhələləri ümumi elmi çərçivə daxilində təqdim olunur. Xüsusilə İntibah dövrü dilçiliyin inkişafında dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu dövrdə dilçilik tədqiqatlarının predmet dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, dil artıq ayrı-ayrı qrammatik hadisələrin məcmusu kimi deyil, bütöv və dinamik bir sistem kimi dərk olunmağa başlanmışdır. Canlı milli dillərin qrammatikalarının və lüğətlərinin yaradılması, dillərin mənşəyi və qohumluğu məsələlərinə artan maraq, eləcə də dilin ilahi mənşəyi ideyasının elmi əsaslarla inkarı İntibah dövrü dilçiliyinin əsas xüsusiyyətləri kimi səciyyələndirilir.

Nəticə etibarilə göstərilir ki, İntibah dövrü dilçilik elminin müasir mərhələyə keçidində həlledici rol oynamış, dilçiliyin müstəqil, nəzəri əsaslara malik elm sahəsi kimi təşəkkül tapmasına güclü təkan vermişdir.

***Açar sözlər:*** *dilçilik, intibah dövrü, dilçilik tarixi, dil fəlsəfəsi, nəzəri dilçilik*

# HISTORICAL STAGES IN THE DEVELOPMENT OF THE TURKIC LANGUAGES

**Abstract**

This article systematically analyzes the process of historical development of the science of linguistics in the context of the Renaissance. The "subjective" and "objective" principles used in the periodization of the history of linguistics are interpreted from a scientific and methodological point of view and the role that these principles play in explaining the stages of the development of the science of language is comparatively shown. While the subjective principle is based on the methodological positions of individual linguistic schools, theoretical movements, and prominent linguists, the objective principle highlights the logic of internal development and the scientific regularity of language research methods.

The article presents the stages of formation, evolution of linguistic science and the relative decline of classical linguistics within the general scientific framework. In particular, the Renaissance is considered as a turning point in the development of linguistics. During this period, the subject range of linguistic research expanded significantly, and language was no longer understood as a set of individual grammatical phenomena, but as an integrated and dynamic

system. The creation of grammars and dictionaries of living national languages, increased interest in the issues of the origin and kinship of languages, as well as the scientifically based denial of the idea of the divine origin of language are characterized as the main features of Renaissance linguistics.

Consequently, it is shown that the Renaissance played a decisive role in the transition of linguistic science to the modern stage, and gave a powerful impetus to the formation of linguistics as an independent branch of science with a theoretical basis.
***Key words**: linguistics, Renaissance, history of linguistics, philosophy of language, theoretical linguistics*

**Giriş**

Dil haqqındakı elmin tarixinin birinci dövrü dilçiliyin təşəkkülü adlanır. Dilçiliyin təşəkkülü yazının meydana çıxmasından, xüsusilə "qrammatika" və "filologiya"dan müqayisəli dilçiliyə qədərki dövrü əhatə edir. Dilçiliyin təkamülü ümumi dilçiliyin banisi V.fon Humboldtdan F.de Sössürə qədər gəlir. Dil haqqındakı elmin təkamülü F.de Sössürün şəxsində pik nöqtəyə çatdı. F.de Sössür "dili necə varsa, o cür öyrənmək lazımdır" tezisini irəli sürməklə dilə "təmiz dilçilik" baxışı formalaşdırdı. Dilçiliyin "tənəzzülü" struktur dilçilik məktəblərindən dilçiliyin müxtəlif elm sahələri ilə əməkdaşlığına əsaslanan müasir multidissiplinar sahələrə qədərki dövrü əhatə edir. "Tənəzzül" məhz klassik dilçiliyin tənəzzülü olub, müasir multidissiplinar sahələrin isə tərəqqisidir. Dilçiliyin təşəkkülündən təkamülünə doğru irəliləməsində alman alimi, filosofu, dövlət xadimi Vilhelm fon Humboldtun müstəsna rolu vardır.

**Əsas mətn**

V.fon Humboldtla başlayan təkamül dövründə bir sıra dilçilik məktəbləri də yarandı ki, onlardan 1) naturalizm; 2) psixoloji dilçilik; 3) gənc qrammatiklər; 4) "Sözlər və şeylər" ; 5) estetizm; 6) neolinqvistika məktəbləri daha məşhurdur. Bu dilçilik məktəbləri dahi dilçinin hər hansı bir ideyasını davam etdirsələr də, onların özünəməxsus cəhətləri vardır.

Dil haqqındakı elmin təkamülü XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədərki dövrü əhatə edir. Təkamül dövründə dil haqqındakı elmin predmet axtarışları intensiv xarakter daşıyıb. Bu dövr dilçiliyi daha çox dil fəlsəfəsinin yaradıcısı V.fon Humboldt və sırf dilçi statusuna malik F.de Sössürün dilçilik təlimləri əsasında inkişaf edib. Ümumən dil haqqındakı elmin, yaxud ümumi (nəzəri) dilçiliyin yaranması dilçiliyin təkamülünü şərtləndirib.

Dilçiliyin təşəkkülündə hindlilərin müstəsna xidmətləri olmuşdur. Qədim hind qrammatikasından sonra qədim yunan qrammatikasının dilçilik tarixində mühüm rolu vardır. Qədim yunan dilçiliyinin (İskəndəriyyə qrammatikasının) qədim hind dilçiliyi (qrammatikası) ilə əlaqəsinin olub olmaması mübahisəlidir. Dilçiliyin təşəkkülü dövründə ən mühüm inqilab müqayisəli dilçiliyin yaranması oldu. Həm genealoji, həm də tipoloji tərəfləri ilə meydana çıxan bu dilçiliyin ümumi (nəzəri) dilçiliyin formalaşmasında həlledici rolu olmuşdur.

Qədim hind dilçiliyinin, bir növ, tədqiqat obyektini eramızdan 1500 il əvvəl yarandığı ehtimal edilən vedalar-dini-fəlsəfi-kitabələr təşkil edirdi. Həmin kitabələr bunlar idi: 1) Riq-veda (Himnlər vedası), 2) Sama-veda (Şeirlər vedası), 3) Yacur-veda ( Qurban vedası), 4) Atharva-veda (Ovsunlar vedası). Bu vedalardan ən qədimi və əhəmiyyətlisi Riq-veda hesab olunur ( Axundov, 2011: 280).

Bundan əlavə, qədim hindlilər qrammatika sahəsində bir sıra araşdırmalar aparmışlar ki, bu sahədə də Panininin xidmətləri müstəsnadır. O, sözləri nitq hissələrinə görə adlara və feillərə bölmüşdür. Eləcə də sözün əsası, kök və şəkilçini bir-birindən fərqləndirmiş, hal, şəkil və zaman

kateqoriyalarından bəhs etmişdir. Bütün bunlardan başqa, Panini dilçiliyə sıfır morfem anlayışını gətirmişdir. O həm də dili sistem kimi başa düşürdü. Qədim hindlilər samit səsə nisbətən saitə böyük üstünlük verir, onu danışıq səsləri içərisində daha vacib hesab edirdilər. Bunun səbəbi, qədim hind dilçilərinə görə, saitin heca yaratmaq qabiliyyəti idi. Samitlərdə bu keyfiyyət olmadığından onlar qeyri-müstəqil danışıq səsləri hesab edilirdi.

Qədim hind dilçiləri nitq hissələrini adlar və feillərə ayırdıqlarından hallanma və təsriflənmə qrammatik hadisələrinə xüsusi fikir verirdilər. Onlar sanskritdə ismin yeddi halını göstərmişdilər. 1. Adlıq. 2. Təsirlik. 3. Birgəlik 4. Yönlük. 5.Çıxışlıq. 6.Yiyəlik. 7.Yerlik.

Hind qrammatikalarında sintaksisə də müəyyən yer verilmişdir. Bu bölmədə hal, zaman və şəkil formalarının işlənmə qaydaları göstərilmişdir (Axundov, 2011: 280).

Ərəb xilafətinin təşəkkülü ilə yaranmağa başlayan ərəb-müsəlman dilçiliyi özünün təkamül mərhələsinə IX-X əsrlərdə çatmışdır. Müxtəlif adlarla ("Şərq ölkələri üçün qədim dilçilik", "ərəb dilçiliyi", "ərəb-müsəlman dilçiliyi") adlandırılan bu dilçilik "Qurani-Kərim"in dili olan ərəb dili əsasında təşəkkül tapmış və ilk növbədə, bu dilin xüsusiyyətlərinin tədqiqinə əsaslanmışdır (Cəfərov, 2020: 168).

Ərəb-müsəlman dilçiliyi dinin dili olan ərəb ədəbi dilini çoxlu sayda ərəb dialektlərinin təsirindən qorumaq zərurətindən meydana gəlmişdir.

Ərəb-müsəlman dilçiliyinin fonetika, qrammatika, xüsusilə leksikoqrafiya sahəsində maraqlı tədqiqatları olmuşdur. Onlar səs və hərfi bir-birindən kəskin şəkildə ayırmış, sait və samitləri bir-birindən fərqləndirərək, hələ o zamanlar samitlərin on altı əmələgəlmə yerinin mövcudluğundan danışmışlar. Lakin ərəb-müsəlman dilçiliyində əsas diqqət leksikoqrafiyaya verilmişdir. Türk dilçiliyi, eləcə də Azərbaycan dilçiliyi XIX əsrə qədər ərəb-müsəlman dilçiliyinin tərkib hissəsi olaraq inkişaf etmişdir ki, bu dilçiliyin ən görkəmli nümayəndəsi, şübhəsiz ki, M.Kaşğaridir. O, ərəblərə türk dilini tanıtmaq üçün məşhur "Divani-lüğatit-türk"ü (XI əsr) qələmə almışdır, burada həm türkcənin müxtəlif ləhcələri, həm də türk dili ilə ərəb dili fonetik, leksik, qrammatik səviyyədə müqayisə edilmişdir.

Orta əsrlər müxtəlif elm sahələri kimi, dilçilik sahəsində də durğunluq dövrü olmuşdur. Dilçilik nəzəriyyəsi sahəsində orta əsrlər üçün diqqəti cəlb edə biləcək hadisə kimi yalnız realistlərlə nominalistlər arasındakı fikir mübarizəsini qeyd etmək olar. Əslində, realistlər və nominalistlər daha çox fəlsəfə elmini təmsil edirdilər. Lakin fikir ixtilafı əşya və məfhum üzrə olduğunundan, dilçilik üçün müəyyən dərəcədə maraqlı ola bilər ( Axundov, 2011: 280).

Realistlərin əksinə olaraq, nominaslistlər yalnız əşyaların real surətdə mövcud olduğunu göstərirdilər. Nominalistlərin fikirləri din xadimlərinin kəskin hücumlara məruz qalır, onlar özləri ciddi təqib olunurdular.

Orta əsrlərdə sırf dilçiliyə aid mövcud olanlar yalnız latın dili üzrə yazılmış dərsliklər və qrammatikalar idi. Katolik kilsəsinin dili olan latın dilinə çoxlu miqdarda praktik məqsəd daşıyan dərsliklər həsr olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, həmin dərsliklərdə heç də latın dilinin qrammatik quruluşu təsvir edilmirdi; yalnız bu dilə aid məcburi qaydalar göstərilirdi. Bu ondan irəli gəlirdi ki, latın qrammatikaları üzrə olan təlimatlar, bir qayda olaraq, qrammatikanı düzgün danışmaq və yazmaq sənəti hesab edirdilər. Hər şeydən əvvəl, latın dili ölü dil olduğu üçün onun səs cəhətinə əhəmiyyət verilmirdi. Bu hal, öz növbəsində, fonetikanın tamamilə inkarına aparıb çıxarırdı.

Avropa ölkələrində XIV-XVI əsrlər intibah dövrü hesab olunur. Bu dövrün dilçiliyində nəzərə çarpan cəhətlərindən biri də ayrı-ayrı canlı dillərin qrammatikası üzərində geniş iş aparılması idi. İntibah dövrü, tarixə böyük coğrafi kəşflər və səyahətlər dövrü kimi daxil olmuşdur.

Bu kəşflər və səyahətlər zamanı bir sıra yeni dillər məlum olmuş, onlara aid zəngin material toplanmışdır. Həmin materiallar XVI-XVIII əsrlərdə çap olunsa da, intibah dövrünün məhsulu idi (Axundov, 2011: 280).

XVII-XVIII əsr dilçiliyinin ümumi icmalını vermək üçün aşağıdakı məsələləri izah etmək lazım gəlir:

1) intibah dövrünün davamı kimi təcrübi qrammatika sahəsində görülən işlər;
2) lüğət sahəsindəki işlər; toplanmış zəngin dil materiallarının çapa hazırlanması;
3) rasionalizm və sensualizm ideyalarının meydana çıxması
4) müqayisəli və tarixi dilçilik baxışlarının yaranması

İntibah dövrünün davamı kimi görülən işlərə misal olaraq, İngiltərənin Oksford universitetinin həndəsə professoru Uollisin 1653-cü ildə çapdan çıxmış "İngilis dili qrammatikası" əsərini göstərmək olar. Tam təcrübi səpkidə yazılmış bu əsərdə ingilis dilinin hərtərəfli və dəqiq təsvir olunmuş fonetikası ilə qarşılaşırıq (Axundov, 2011: 280).

1696-cı ildə Henri Vilhelm Ludolfun latın dilində yazdığı "Rus dili qrammatikası" kitabı həmin dövrün məhsuludur.

Lüğət sahəsində görülən ilk işlərdən italyan (1612), fransız (1694) lüğətlərinin adını çəkmək olar. Bu lüğətlərin prinsipləri əsasında tərtib olunmuş "Rusiya Akademiyası lüğəti" XVIII əsr leksikoqrafiyası sahəsində mühüm hadisədir.

XVII-XVIII əsr dilçiliyində əlamətdar hadisələrdən biri də toplanmış zəngin materiallar əsasında müxtəlif dillərin lüğətlərinin hazırlanması idi. Belə lüğətlərdən birincisi kimi, 1786-1791-ci illər arasında Peterburqda nəşr olunmuş dörd cildlik lüğəti göstərmək olar.

XVII-XVIII əsr dilçiliyində maraqlı hadisələrdən biri də dilçilikdə rasionalizm və sensualizm ideyalarının meydana çıxmasıdır (Axundov, 2011: 280).

Sensualizm dilçilik sahəsində psixoloji baxışların, xüsusən fərdi psixologizmin meydana gəlməsinə səbəb olmuşdu. Sensualistlər dildə fərdi cəhətlərə, idiomatik ifadələrə daha çox fikir verirdi.

Dillərin müqayisəli öyrənilməsinə isə qədim hindlilərin dili olan sanskritlə avropalıların tanış olması ilə başlanmasıdır. Sanskrit dili haqqında ilk məlumatı italyan taciri Filippo Sasseti vermişdir. Sankritlə Avropa dilləri arasındakı oxşarlıq dillərin qohumluğu ideyasının yaranması üçün əsas olmuşdur. Avropa dilləri ilə sanskritin genealoji əlaqəsi 1767-ci ildə fransız ruhanisi Kerdu tərəfindən qeyd edilmişdi.

Dil tarixi və dillərin müqayisəsi sahəsindəki tədqiqat işləri, xüsusən F.Şlegelin 1808-ci ildə nəşr edilmiş "Hindlilərin dili və müdrikliyi haqqında" adlı məşhur əsəri müqayisəli-tarixi dilçiliyin təməl daşı kimi çox qiymətlidir.

İntibah dövründə dilçilik tədqiqatları əvvəlki dövrlərə nisbətən çox-çox genişlənmişdi. XVI–XVIII əsrlərdə misli görünməmiş şəkildə dilçilik faktları toplanmışdır. Adətən, dilçilik tarixində bu əsrlər dil materiallarının toplanması dövrü adlandırılır. Bu dövrdə əldə edilmiş materialların şərhinə fəlsəfi cəhətdən yanaşılırdı. Dilçiliyin əsas problemləri daha çox o dövrün görkəmli filosoflarından Russo, Dekart, Leybnits, Viko və başqalarının əsərlərində öz həllini tapmışdır. XVI–XVIII əsrlərdə dilçiliyin inkişafını aşağıdakı kimi ümumiləşdirmək olar:

1) Klassik filologiyaya marağın artması. İntibah dövründə latın və yunan dillərindəki dini kitabların dili üzərində aparılan mətnşünaslıq işi klassik filologiyaya marağı gücləndirirdi. Həmin işlərin nəticəsində əldə edilmiş materiallar isə yeni-yeni filoloji əsərlərin meydana çıxmasına səbəb olurdu;

2) Dilin bütövlüklə obyektə çevrilməsi. Keçmiş dövrlərdə dilçiliyin obyekti ancaq dilin bu və ya digər hadisələri – söz, nitq hissələri, cümlə və sair idi. Lakin İntibah dövründə tədqiqatçılar dilin ayrı-ayrı hadisələri üzərində düşünməklə məhdudlaşmayıb, dili təşkil edən bütün vahidlərin və bu vahidlərə aid olan hadisələrin məcmusu ilə maraqlanmağa başlamışlar. Buna görə də dil bütövlükdə tədqiqat obyektinə çevrilmişdir (Qurbanov, 2019: 448).

3) Dilin mənşəyi probleminin diqqəti cəlb etməsi. Alimlər tərəfindən dilin mənşəyi haqqında əvvəlki dövrlərdən fərqli olan çox cəsarətli elmi-nəzəri fikirlər, mülahizələr yürüdülmüşdür. İntibah dövrünün alimləri dilin ilahi qüvvə tərəfindən yaradılması fikrinə qarşı çıxaraq onu əsaslı surətdə inkar etmişlər. Dil məsələsinə dair "İlahi nəzəriyyə"nin inkarı o dövrün elmində irəliyə doğru proqressiv və ən böyük addım idi;

4) Öyrənilən dillərin sərhədinin genişlənməsi. Dövrün tarixi hadisələri, o cümlədən coğrafi kəşflər, ticarətin inkişaf edib genişlənməsi, dünya səyahətləri yeni-yeni dillərlə tanışlığa səbəb olurdu. Bunun nəticəsində isə dilçilikdə bir çox dilin əhatə olunması üçün imkan yaranırdı. Ayrı-ayrı dillərlə tanışlıq get-gedə artdıqca dilçilik məsələlərinə maraq da güclənirdi. Ümumiyyətlə, dilçilik elmi birinci dəfə olaraq İntibah dövründə dillərin müxtəlifliyi problemi ilə qarşılaşmış və bu əsrlərdə həmin məsələnin elmi həllində müəyyən işlərin bünövrəsi qoyulmuşdur;

5) Dillərin qohumluğunun öyrənilməsi. Dillər arasındakı qohumluq, qohumluğa görə dillərin təsnifi dövrün alimlərinin diqqətini özünə cəlb edən ən aktual məsələlər idi;

6) Dilin inkişaf etməsi anlayışının meydana çıxması. Dilin inkişaf prosesi haqqında ilk dəfə görkəmli İtaliya filosofu Cambatist Viko fikir söyləmişdir. O özünün "Millətin ümumi təbiəti haqqında yeni elmin bünövrəsi" (1725) adlı əsərində dilin inkişafında 3 əsas mərhələ müəyyən etmişdir. C.Viko dilin tarixini cəmiyyətin tarixi ilə əlaqələndirmişdir1 . Dilin tarixi inkişaf prosesi haqqında Viko tərəfindən irəli sürülmüş ideya XVIII əsrin məşhur alimlərindən Jan Jak Russo, Adam Smit və başqalarının əsərlərində daha da inkişaf etdirilmişdir;

7) Canlı milli dillərin yeni tipli lüğətlərinin meydana çıxması. İntibah dövründə dilçiliyin coşqun inkişafına səbəb olan tarixi hadisələrdən biri lüğətlərin yaradılması idi. XVII-XVIII əsrlərdə bir çox dillərin lüğətləri yaradılmışdır.

Məlumdur ki, lüğət hələ lap qədim dövrlərdə, hətta eramızdan əvvəl meydana çıxmışdı. Lakin XVII–XVIII əsrlərin lüğətləri xarakterinə, həcminə, məqsədinə və s. görə keçmiş dövrlərin lüğətlərindən çox-çox fərqlənirdi. XVII–XVIII əsrlərdə yaranmış lüğətlər xarakter və tipinə görə iki yerə bölünür: a) normativ izahlı lüğətlər, b) çoxdilli kataloq lüğətlər.

XVII əsrin sonu və XVIII əsrin əvvəllərində meydana çıxan lüğət tiplərindən biri normativ izahlı lüğət adlanır. Bu tipli lüğətlər, adətən, yalnız ədəbi dil sözlərini əhatə edirdi.

İlk normativ izahlı lüğət 1612-ci ildə çap olunmuş İtaliya dilinin lüğəti hesab edilir. Bundan sonra 1694-cü ildə fransız dilinin lüğəti meydana çıxmışdır. 1726–1739-cu illərdə ispan lüğəti, 1789–1794-cü illərdə isə rus dilinin lüğəti nəşr edilmişdir. XVII–XVIII əsrlər dilçiliyinin inkişafında bu lüğətlərin xüsusi əhəmiyyəti olmuşdur. Məlumdur ki, belə lüğətlərin yaranması tarixdə həm elmi, həm də mədəni əhəmiyyət kəsb edir (Qurbanov, 2019: 448).

Çoxdilli kataloq lüğətləri tərtib edilərkən, adətən, iki-üç, bəzən daha artıq söz götürülür və onların bir neçə yüz dildə qarşılığı (müqayisəsi) verilirdi. Buna görə də onlar kataloq lüğət adlanırdı. Bu tipli lüğətin ilk nümunəsi Peterburqda meydana çıxmışdır. Rus səyyahı Pyotr Simon Pallas özünün 4 cildlik "Bütün dillərin və ləhcələrin müqayisəli lüğəti"nə (1787–1789) Avropa, Asiya, Amerika və Afrikanın 272 dil və dialektinin materialını daxil etmişdi. İspan alimi Lorenso Ervasın 1784-cü ildə "Məlum dillərin kataloqu və onların qohumluğu və fərqləri haqqında

qeydlər” adlı əsəri nəşr olunmuşdur. Altı cilddən ibarət olan bu əsərdə 307 dilin materialı əhatə olunmuşdur [3. s.65].

Milli dillərin qrammatikalarının yaradılması. İntibah dövründə canlı dillərə və onların keçmişinə müraciət nəticəsində Avropanın bir sıra milli dillərinin, o cümlədən ingilis, fransız, alman, ispan, macar, çex, polyak və s. dillərin qrammatikaları meydana çıxmışdır. XVI–XVIII əsrlərdə yaradılmış qrammatikalar xarakterinə görə iki tipə bölünür: a) normativ qrammatika, b) ümumi rasional qrammatika.

a) Normativ qrammatikalar. İntibah dövründə milli dillərin normativ qrammatikalarının tərtibi və nəşri xüsusi əhəmiyyət kəsb edirdi. Yazılı ədəbi dillər inkişaf etdikcə onların normativ qrammatikalarının yaradılmasına xüsusi ehtiyac hiss olunurdu. M.V.Lomonosovun (1711–1765) “Rusiya qrammatikası” adlı məşhur əsəri yeni tipli, yəni təsviri normativ – üslubi qrammatika idi. Bu
orijinal qrammatika rus dilçiliyinin tarixində xüsusi əhəmiyyətə malikdir (Qurbanov, 2019: 448);

b) Ümumi rasional qrammatika. Məlum olduğu kimi, XVII əsrdə başlıca fəlsəfi cərəyan rasionalizm idi. Rasionalizm əqlə inanır, fakta bir o qədər əhəmiyyət vermirdi. XVII əsrin ortalarında rasionalizm Avropanın bir sıra ölkələrində, xüsusilə Fransada daha geniş yayılıb inkişaf etmişdi. Bütün sahələri əhatə edən rasionalizm məntiq elmi vasitəsilə dilçiliyə də daxil olmuşdur. Rasionalizmin tələbi əsasında dilçilikdə ümumi, rasional qrammatika yaratmaq ideyası meydana çıxmışdı. Dünyada mövcud olan yüzlərlə dildən elə biri tapılmaz ki, onda başqa dillərdə olan ümumi cəhətlərə təsadüf edilməsin. Deməli, dillərin varlığını şərtləndirən fərqli cəhətlərlə bərabər bütün dillərdə olan ümumi cəhətlər də mövcuddur. XVII əsrdə dillərin bu ümumi cəhətləri nəzərə alınıb, 1660-cı ildə Fransada ən böyük elm və maarif mərkəzi olan Por-Royal monastırında monax məntiqşünas Anton Arno və dilşünas Klod Lanslo tərəfindən ilk rasional qrammatika yaradılmışdır. Bu qrammatika “bütün dillərdə ümumi nə varsa” ona əsaslanmağı qarşıya məqsəd qoymuşdu. Öz həcminin böyüklüyü ilə diqqəti cəlb edən “Por-Royal qrammatikası” iki hissədən ibarətdir. Birinci hissəyə – fonetika məsələlərinə 6 fəsil, ikinci hissəyə – qrammatika problemlərinə isə 24 fəsil həsr edilmişdir. “Por-Royal qrammatikası”nda dilin quruluşunun dərin təhlili verilmiş, yeni dilçilik ənənəsinin bünövrəsi qoyulmuşdur. Bu əsər yarandığı tarixdən dilin geniş elmi tədqiqi başlanmışdır. “Por-Royal qrammatikası”nın qaldırdığı məsələlər dilçiliyin aktual problemləri olmuşdur.

Son illər Azərbaycan dilçiliyi yenidən öz intibahını yaşamaqdadır. Bu intibahda AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu öndə gedir. Heç şübhəsiz, Azərbaycan dilçiliyinin inkişafında özünəməxsus yeri olan Dilçilik İnstitutunun son 3-4 il ərzində çap etdiyi monoqrafik tədqiqatlar arasında dünya dilçilik elmi üçün örnək ola biləcək əsərlər də az deyil (Heydərov, 2025: 14).

Dilçilik İnstitutunun son illər dünya dilçilik elminə, türkologiyaya verdiyi töhfələrdən biri, heç şübhəsiz, akademik İsa Həbibbəylinin ön sözü və professor Nadir Məmmədlinin tərtibi, geniş giriş məlumatla 3 cilddə çap olunmuş Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" ensiklopediyasıdır. XX əsrin 30-cu illərində Dilçilik İnstitutunda işləmiş özbək əsilli dilçi alim Xalid Səid Xocayev tərəfindən dünyada ilk dəfə orijinaldan doğma dilimizə tərcümə olunmuş bu əsər 86 il sonra professor Nadir Məmmədli tərəfindən Dilçilik İnstitutunun arxivindən tapılıb və ciddi redaktə edilib. Bu möhtəşəm əsərin 2024-cü ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunda orijinaldan tərcümədə nəşri "Divan"ın 950 illiyinə təsadüf etmiş, akademiyanın prezidenti və professor Nadir Məmmədli xüsusi dəvətlə bu barədə Parisdə UNESCO-nun mənzil-qərargahında məruzə etmişlər. Əsərin dünyanın bir çox ölkəsində təqdimatı keçirilib, cildlər nüfuzlu alimlərə,

kitabxanalara hədiyyə olunub. "Divan"ın işıq üzü görməsi dilçiliyimizin dünyada tanınmasında özünəməxsus rol oynayır (Heydərov, 2025: 14).

**Nəticə**

Dilçilik İnstitutunun nailiyyətlərindən biri də, heç şübhəsiz, türk dilləri ilə bağlı aparılan tədqiqatların artmasıdır. Bu tədqiqatlar içərisində "Türk dillərinin funksional morfologiyası" adlı monoqrafiyanı xüsusi ilə vurğulamaq lazımdır. Türk dilləri ilə bağlı aparılan tədqiqatlara müasir dünya elminin son nailiyyətlərindən faydalanaraq yazılan bu fundamental əsər, türk dillərinin öyrənilməsinə funksional yanaşma baxımından müasir dilçiliyimiz üçün mühüm önəm daşıyır.

İnstitutun Terminologiya şöbəsində terminologiyanın elmi-linqvistik məsələlərinin araşdırılmasına həsr olunmuş əsərlər, tədqiqatlar da sanbalı ilə seçilir. Tətbiqi dilçilik şöbəsində Azərbaycan dilinin izahlı lüğəti və Orfoqrafiya lüğəti ilə əlaqəli işlər genişləndirilmiş, texnoloji vasitələrin tətbiqi ilə "Orfoqrafiya lüğəti"nin yeni nəşri hazırlanır.

**Ədəbiyyat siyahısı**

Axundov, A.A. (2011). Ümumi dilçilik. Bakı: “Şərq-Qərb”.
Cəfərov, Q. Ümumi dilçilik etüdləri (2020). Bakı: “Elm və təhsil”.
Qurbanov, A.M. Ümumi dilçilik (2019) / - I cild. – Bakı.
Heydərov, R.A Azərbaycan dilçiliyinin yeni intibah dövrü (2025) / 525-ci qəzet.

**Gülşən Rzayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Mütəxəssis*
*E-mail: gulsen.rzayeva35@gmail.com*
*ORCID: 0009-0001-9981-1828*

# AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA DİLÇİ ALİMLƏRİN ROLU

**Xülasə**

Azərbaycan dilinin yüksək səviyyədə inkişaf etməsində və müasir ədəbi norma qazanmasında dilçi alimlərin rolu həlledicidir. Onların apardıqları genişmiqyaslı elmi araşdırmalar dilin tarixi, strukturu və funksional imkanları haqqında dərin biliklərin formalaşmasına şərait yaratmışdır. Dilçilik üzrə aparılan tədqiqatlar həm dilin elmi əsaslarını müəyyən etmiş, həm də onun qorunması, normalaşdırılması və gələcək nəsillərə sağlam şəkildə ötürülməsini təmin etmişdir. Azərbaycan dilçiliyi XIX əsrin sonlarından etibarən müstəqil elmi istiqamət kimi formalaşmağa başlamış, XX əsrdə isə sistemli şəkildə və kompleks şəkildə inkişaf etmişdir.

Dilçi alimlərin ilk və ən mühüm xidmətlərindən biri Azərbaycan dilinin tarixi inkişafının sistemləşdirilməsidir. Onlar qədim türk yazılı abidələrini, "Kitabi-Dədə Qorqud"u, klassik Azərbaycan ədəbiyyatı nümunələrini öyrənərək dilin müxtəlif mərhələlərdə keçdiyi yol, fonetik və leksik dəyişikliklər, qədim söz qatları barədə ətraflı elmi əsaslar hazırlamışlar. Bu tədqiqatlar dilin köklərini müəyyən etməklə yanaşı, müasir dilçilik üçün etibarlı baza yaratmışdır.

Dilçi alimlərin digər mühüm fəaliyyəti ədəbi dil normalarının formalaşdırılması və standartlaşdırılmasıdır. Azərbaycan dilinin qrammatik sistemi,imla qaydaları,orfoqrafiya və orfoepiya normaları, terminologiya prinsipləri məhz onların hazırladığı elmi əsərlər və dövlət səviyyəsində qəbul edilən sənədlər əsasında işlənib. Bu normalar dilin təhsil, media, hüquq, elm zvə rəsmi idarəetmə kimi sahələrdə vahid şəkildə istifadəsini təmin etmişdir.

***Açar sözlər:*** *Azərbaycan dili, dilçilik, dilçi alimlər,qrammatika, orfoqrafiya, terminologiya, elmi araşdırmalar.*

# THE ROLE OF LINGUISTS IN THE DEVELOPMENT OF THE AZERBAIJANI LANGUAGE

**Abstract**

The role of linguists is decisive in the development of the Azerbaijani language at a high level from the past to the present day and in gaining a modern literary norm.Their large-scale scientific research has contributed to the formation of deep knowledge about the history, structure and functional capabilities of the language. Studies in linguistics have both established the scientific foundations of the language and ensured its preservation,normalization and healthy transmission to future generations.Azerbaijani linguistics began to form as an independent scientific direction since the end of the XIX century,and in the XX century it developed systematically and in a complex way.

One of the first and most important services of linguists is the systematization of the historical development of the Azerbaijani language. They studied ancient Turkic written monuments, "Kitabi-Dede Gorgud", samples of classical Azerbaijani literature and prepared detailed scientific foundations on the path of the language at different stages, phonetic and lexical

changes, ancient word layers.These studies not only identified the roots of the language, but also created a reliable base for modern linguistics.

Another important activity of linguists is the formation and standardization of literary linguistic norms.The grammatical system of the Azerbaijani language,spelling rules,spelling and orthoepy norms, terminology principles were developed on the basis of scientific works prepared by them and documents adopted at the state level. These norms have ensured the uniform use of language in areas such as education,media, Law, Science and formal administration.

***Key words:*** *Azerbaijani language, linguistics,linguists,grammar, spelling,terminology, scientific research.*

**Giriş**

Azərbaycan dili minilliklər boyu formalaşmış, zənginləşmiş və inkişaf etmiş qədim türk dillərindən biridir. Bu inkişaf prosesində yalnız xalq yaradıcılığı, ədəbiyyat və ictimai-siyasi amillər deyil, eyni zamanda dilçi alimlərin elmi fəaliyyəti, tədqiqatları və pedaqoji xidmətləri xüsusi əhəmiyyət kəsb etmişdir. Dilçilik elmi Azərbazycan dilinin fonetik, leksik, qrammatik sistemini araşdırmaqla yanaşı, onun tarixi inkişaf yolunu müəyyənləşdirilmiş, normativ qaydalarını hazırlamış, müasir dövrdə isə dilin texnologiya, təhsil və kommunikasiya mühitinə uyğunlaşdırılmasına şərait yaratmışdır

Orta əsrlərdə yazıb-yaratmış klassik Azərbaycan şair və mütəfəkkirləri-Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Füzuli-hər nə qədər ədəbiyyat nümayəndələri kimi tanınsalar da, əsərlərində Azərbaycan türkcəsinə leksik və poetik imkanlarını göstərərək dilin inkişafında mühüm rol oynamışlardır.

**Əsas mətn**

Azərbaycan dilinin elmi şəkildə öyrənilməsi XIX əsrin sonu - XX əsrin əvvəllərində başlayır. Bu dövr dilçilik elminin əsaslarının qoyulduğu mərhələlərdəndir. Bu mərhələdə alimlərin rolu:

–Azərbaycan türkcəsinin fonetik və leksik xüsusiyyətləri tədqiqi;

–Dilin strukturunun öyrənilməsinə dair ilk elmi əsərlər yazılmışı;

–Ana dili şüurunun formalaşması, maarifçilik ideyalarının yayılması ilə xarakterizə olunur [2, s.101-129].

Bu dövrün görkəmli alimləri: Mirzə Kazım bəy, Firudin bəy Köçərli, Bəkir Çobanzadə, Afad Qurbanov, Əbdüləzəl Dəmirçizadə, Üzeyir Hacıbəyli dilcilik elminin inkişafında xeyli rol oynamışlardır.

Mirzə Kazım bəy XIX əsrin ən tanınmış Şərqşünas, türkoloq, dilçi, tarixçi və maarifçi alimlərindən biridir. O, həm Azərbaycan, həm də dünya türkoloji elminin inkişafında böyük rol oynamışdır.

O, ilk dəfə olaraq türk dillərini sistemli şəkildə təsnif etmiş alimlərdəndir. Onun bu sahədəki əsərləri Avropa şərqşünaslığında dönüş nöqtəsi hesab olunur [4]. Onun ən məşhur əsərlərindən biri "Tatar dilinin qrammatikası"dır ki, bu əsər də türkoloji elmin inkişafında böyük rola malikdir. Kitabın əsas məqsədi: [1, s.43-48].

–Türk dillərinin qurluşunu elmi əsaslarla izah etmək;

–Türk dillərinin ümumi qanunauyğunluqlarını göstərmək;

–Tatar, Azərbaycan, Osmanlı, Qazax, Başqırd, Türkmən kimi türk dillərinin ortaq cəhəhətlərini müəyyənləşdirməkdir. Bu əsər ilk dəfə olaraq türk dillərini xalq dilləri kimi deyil,

elmi sistem kimi təqdim etdi. Kitab bir neçə türk dilini müqayisə edərək qarşılaşdırır. Bu, sonradan türkoloji tədqiqatların əsas metoduna çevrildi.

*Firudin bəy Köçərli*–ədəbi dilin inkişafı, xalq dili və klassiklərin dilinin tədqiqi ilə məşğul olub. Azərbaycan dil tarixi üçün dəyərli mənbələr yaradıb. Ana dili təliminin vacibliyini və qız övladlarının təhsilini müdafiə edib. Həmçinin, yeni təlim metodları və dərsliklər hazırlayıbdır.

Firudin bəy Köçərli ana dili aşiqi idi.Onun 1913-cü ildə qələmə aldığı "Ana dili"məqaləsi o dövr üçün çox böyük əhəmiyyət kəsb etdi.Bir sıra qələm sahibləri müxtəlif jurnallarda qəliz bir dildə yazılan məqalələr dərc etdirərək Azərbaycan dilini korlayırdılar.Həmin vaxt Firudin bəy mətbuata qarşı amansız mübarizə aparırdı. Ensiklopedik biliyə malik görkəmli pedaqoq-alim Firudin bəy Köçərli istiqamətlərinin hər biri ayrıca tədqiqatın predmeditidir.Onun pedaqoji və ədəbiyyatşünaslıq sahələrində fədakar, yorulmaz fəaliyyəti, publisistik irsi Azərbaycan elmi-mədəni inkişafında mühüm iz qoyub.

O, yazılarında ağır ərəb-fars elementlərinin məhdudlaşdırılmasını, xalqın danışıq dilinə yaxın ədəbi dilin formalaşmasını müdafiə edib; bu, fikir dil islahatlarının ideoloji təməlinə yaxın idi. Ana dilinin məktəblərdə tədrisi, dərslik və metodik materialların hazırlanması sahəsində praktik töhfələri olub; bu da dilin standartlaşmasına dolayısı ilə təsir göstərib.

Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığını sistemləşdirən, folklor və klassik irsi elmi əsaslarla toplayan və nəşr edən alim kimi qəbul edilir; onun materialları sonrakı nəsil ədəbiyyatşünas və dilçilər üçün əsas qaynaq olmuşdur.

Bəkir Çobanzadə Azərbaycan dilçiliyində elmi yanaşmanın banilərindən biri hesab olunur.O,türk dillərinin müqayisəli tədqiqi sahəsində fundamental araşdırmalar aparmışdır. Çobanzadə Azərbaycan dilini ümumtürk dil sistemi konteksində araşdıraraq onun tarixi köklərini və inkişaf qanunauyğunluqlarını elmi əsaslarla izah etmişdir

Onun fonetika və qrammatika sahəsindəki tədqiqatları Azərbaycan dilçiliyinin beynəlxalq elmi mühitə inteqrasiyasına imkan yaratmışdır.Çobanzadənin elmi irsi bu gün də aktual əhəmiyyət daşıyır.

Bir çox görkəmli Azərbaycan dilçi alimləri öz tədqiqatlarında Çobanzadənin elmi baxışlarına istinad etmişlər.

Azərbaycan dilçiliyində xüsusi yeri olan tanınmış alim,Azərbaycanda onomastika məktəbinin banisi Afad Qurbanovun xüsusi bir yeri var. Dilçiliyin elə bir sahəsi yoxdur ki,alimin tədqiqatından kənarda qalsın.Dilçiliyin üfüqlərini genişləndirmək, onun inkişaf sahələrini müəyyənləşdirmək baxımından onomastik tədqiqatların rolu böyükdür.Dilin lüğət tərkibində xüsusi yeri olan onomastik leksikanın dərindən araşdırılması, təhlili, elmi şəkildə ümumiləşdirilməsi dilimizin,tariximizin,mürəkkəb və zəruri məsələlərinin həllinə kömək edir.Azərbaycan dilçiliyində ilk dəfə olaraq onomastika məsələlərinin sistemli şəkildə həlli Afad Qurbanovun adı ilə bağlıdır.Onun onomalogiyaya dair 100-ə qədər məqaləsi var.

Afad Qurbanov dilçiliyin, demək olar ki, bütün sahələrini əhatə edən elmi yaradıcılığa malik alimdir.Onun tədqiqatlarının istiqamətlərindən biri də türkoloji dilçilikdir.

Afad Qurbanovun mühüm nailiyyətlərindən biri də latın qrafikalı yeni Azərbaycan əlifbası ilə baglı göstərdiyi misilsiz xidmətlərdir.Ölkəmiz müstəqillik əldə etdikdən sonra istedadlı alim, bacarıqlı təşkilatçı olan A.Qurbanov bütün qüvvə və səylərini xalqın arzu və istəyi olan Azərbaycan əlifbasının latın qrafikasına keçməsinə həsr etmişdir.

Afad Qurbanovun orta əsr dilçiləri sırasında Mahmud Kaşqarlıya geniş yer verməsi və onu türk dilçisi hesab etməsi təqdirəlayiqdir.A.Qurbanovun orijinal mövqeyi onda özünü göstərir ki,

bir sıra alimlər ərəbcə yazdığı üçün M.Kaşqarlını ərəb dilçiliyi nümayəndəsi hesab etdikləri halda,o, Kaşqarlının türk oğlu olub,əsərlərini türk dillərinə həsr etdiyini göstərir.

*Əbdüləzəl Dəmirçizadə* XX əsr Azərbaycan dilçiliyinin əsas simalarından biridir. Onun tədqiqatları fonetika, orfoepiya, dil tarixi, qrammatika, etimologiya və stilistika kimi sahələri köklü şəkildə inkişaf etdirmişdi [3,c.1,s. 66].

Dəmirçizadə Azərbaycan dilinin fonetikasını elmi cəhətdən ilk dəfə tam sistemləşdirən alimlərdəndir. O, sait və samitlərin təsnifatını geniş şəkildə araşdırmış, Azərbaycan dilində ahəng qanununu, səs dəyişmələrini, fonetik prosesləri izah etmişdir. Azərbaycan dilində ədəbi tələffüz normaları ilk dəfə Dəmirçizadə tərəfindən sistemləşdirilmişdir.

Dəmirçizadənin "Azərbaycan dilinin orfoqrafiyası" əsəri Azərbaycan dilində yazı qaaydalarını, əlifba normalarını, sözlərin düzgün yazılış prinsiplərini elmi şəkildə əsaslandırmaq üçün yazılmışdır. Dəmirçizadə bu kitabla Azərbaycan dili üçün vahid, sabit və standart orfoqrafiya qaydalarının formalaşmasına böyük töhfə vermişdir. Dəmirçizadə sübut etmişdir ki, Azərbaycan dilinin yazı sistemi əsasən səs əsasında qurulur və sözlərin yazılışında kök və şəkilçilər morfoloji cəhətdən dəyişdirilmədən saxlanılır. Dəmirçizadənin bu işi dilin normallaşması, tədrisi və praktik istifadəsi üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycan dilinin inkişafında mühüm dilçilik fəaliyyəti olan ziyalılardan biri də Nəriman Nərimanovdur. O, dilin ağır, anlaşılmaz, fars və ərəb sözləri ilə yüklənmiş formasına qarşı çıxmışdı. Alim yazılarında və çıxışlarında:

–Dil xalq üçün başa düşülən olmalıdır;

–Yazı dili danışıq dilinə yaxınlaşmalıdır;

–Ədəbiyyat dili xalqın gündəlik danışıq dilindən uzaq düşməməlidir –fikirlərini təbliğ edirdi. Bu fikirlər sonrakı dövrdə müasir Azərbaycan ədəbi dilinin formalaşmasına ciddi təsir etmişdi.

Nərimanov dilçilik sahəsində ən mühüm fikirlərini əlifba islahatı mövzusunda irəli sürmüşdür. O, latın qrafikasını keçidin ilk tərəfdarlarından biri idi [5,s.23]. Onun fikrincə Azərbaycan dili öz milli xüsusiyyətlərini qorumalıdır və həddindən artıq alınma sözlər dili zəiflədir. Bir sözlə, Nərimanov türk xalqlarının dil birliyini müdafiə edirdi. Türk dillərinin ortaq söz ehtiyyatı və qrammatik yaxınlığını daim vurğulayır və Azərbaycan türkcəsinin türk dünyasının mühüm qolu olduğunu göstərirdi. Bu fikirlər XX əsrin əvvəllərində türk dünyasında dilçilik ideyalarının inkişafına böyük təsir etmişdir. Onun irsi Azərbaycan dilçilik tarixində maarifçi-dilçi kimi mühüm yer tutur.

Dilçi alimlər Azərbaycan dilinin səs sistemini tədqiq edərək sait və samitlərin fonetik xüsusiyyətlərini müəyyənləşdirmiş, düzgün tələffüz qaydalarının formalaşmasına şərait yaratmışlar.

Azərbaycan dilinin qrammatik quruluşu dilçi alimlərin tədqiqatları nəticəsində elmi şəkildə təsnif edilmişdir.Söz növləri, şəkilçilər sistemi, sadə və mürəkkəb cümlə tipləri məhz bu araşdırmalar əsasında müəyyənləşdirilmişdir.

Azərbaycan dilinin söz ehtiyatının qorunması sahəsində dilçi alimlərin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir, izahlı, terminaloji və dialektoloji lüğətlərin hazırlanması dilin zənginliyini qorumaqla yanaşı, onun elmi və texniki sahələrdə istifadəsini də təmin etmişdir.

Azərbaycan dilinin inkişafında əlifba islahatları mühüm mərhələ təşkil edir.Ərəb əlifbasından latın qrafikasına keçid, daha sonra kiril elifbası dövrü və müstəqillikdən sonra yenidən latın əlifbasının bərpası dilçi alimlərin elmi əsaslandırmaları ilə həyata keçirilmişdir. Orfoqrafiya qaydalarının hazırlanması da dilin normallaşmasında mühüm rol oynamışdır.

Dilçi alimlər Azərbaycan dilini yalnız elmi obyekt kimi deyil, milli kimliyin əsas sütünu kimi qiymətləndirmişlır.Onların fəaliyyəti ana dilinin qorunması, yad dili təsirlərinə qarşı mübarizə və milli şüurun formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması uçun əlverişli zəmin yaradılmışdır.Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksədilməsini tələb edir.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması,ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Latın qrafikasında kütləvi nəşrlərin meydana çıxması bunun parlaq göstəricisidir.Ümumiyyətlə, Azərbaycan xalqının Ümummilli liderinin siyasəti Azərbaycanda ana dilinin-ümumxalq dilinin tərəqqisi üçün elə bir tarixi şərait yaratdı ki, biz həmin siyasətin uzun illər uğurla davam edəcəyinə tam əminik.

Təqdirəlayiq haldır ki, Ümumilli liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə,milli adət-ənənəliriməzə,qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır.Azərbaycan ədəbiyyatını,azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz dövlət başçısının təşəbbüsü ilə baş tutdu. Prezidentin 2004-cü il yanvarın 12- də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"Sərəncamı, həm də, əlifba ilə baglı problemləri tamamilə həll etdi.Bununda nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu.Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyat kitabxanası", 100 cilidlik "Dünya uşaq ədəbiyyatı kitabxanası",100 cilidlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında"Sərəncam oldu.Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqət çəkərək deyib.

Ölkə başçısı, həmçinin,2012-ci mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında"Sərəncam imzalayıb.Sərəncamda deyilir:"Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir.Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauygunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir"

Beləliklə minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimiz uğurların əsasını təşkil edir.

Heydər Əliyev və dil mədəniyyətimiz haqqında yazını böyük şairimiz B. Vahabzadənin "Ana dili" şeiri ilə tamamlamaq istiyirəm.

*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizlə əhdi-peymanımızdır.*
*Bu dil əcdadımızın bizə miras verdiyi*
*Qiymətli xəzinədir...onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək.*

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Və bu gün ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin - Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağrışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktorlardan biri kimi çıxış etməsini şərtləndirib.

Dövlət başçımızın dediyi kimi:"Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik."

**Nəticə**

Azərbaycan dilinin inkişafında dilçi alimlərin rolu tarixi, nəzəri və praktik baxımdan son dərəcə mühüm və həlledici əhəmiyyət daşıyır. Bu alimlərin əsrlər boyu apardığı araşdırmalar, irəli sürdüyü elmi ideyalar, hazırladıqları lüğətlər, qrammatika kitabları, terminoloji sistemlər və dil siyasəti ilə bağlı tövsiyyələr Azərbaycan dilini həm regional, həm də dünya miqyasında mükəmməl bir dil kimi formalaşdırmışdır. Onların fəaliyyəti nəticəsində Azərbaycan dili yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli kimliyin, mənəvi irsin, mədəni dəyərlərin daşıyıcısı kimi möhkəmlənmişdir.

Dilçi alimlərin tarixi fəaliyyətinə nəzər saldıqda, ilk növbədə onlar dilimizin fonetik,leksik və qrammatik xüsusiyyətlərini elmi əsaslarla tədqiq etmiş, bu sahədə ilk nəzəri təsvirləri yaratmışlar. Mirzə Kazım bəy kimi alimlər ümumtürk dilçilik ənənəsinin inkişafında mühüm rol oynayaraq Azərbaycan dilinin də dünya elminə çıxışını təmin etmişlər. Bundan əlavə, dilçi alimlər Azərbaycan dilinin ictimai-siyasi statusunun yüksəldilməsində də mühüm rol oynamışlar.Onların elmi və publisistik fəaliyyəti ana dilinin dövlət dili kimi tanınması, qorunması və inkişaf ideyasının cəmiyyətdə möhkəmlənməsinə xidmət etmişdir. Bu baxımdan dilçilik yalnız elmi fəaliyyət sahəsi deyil, həm də milli şüurun formalaşmasında mühüm amil olmuşdur.

Nəticə etibarilə demək olar ki, Azərbaycan dilinin bu günkü zəngin, sabit və funksional vəziyyətə çatmasında dilçi alimlərin rolu həlledicidir. Onların elmi irsi müasir dilçilik tədqiqatları üçün möhkəm baza rolunu oynayır və gələcək nəsillər üçün ana dilinin qorunması, inkişafı və təbliği istiqamətində dəyərli yol xəritəsi yaradır.

Dilçi alimlərin fəaliyyəti Azərbaycan dilinin qorunması, inkişafı və dünya dilləri sirasında layiqli yer tutması istiqamətində davamlı və əhəmiyyətli bir missiya kimi qiymətləndirilməlidir. Onların yaratdığı elmi irs yalnız keçmişin nailiyyəti deyil, eyni zamanda müasir və gələcək dilçilik tədqiqatları üçün möhkəm dayaq nöqtəsidir. Bu baxımdan dilçilik fəaliyyəti milli dövlətçilik ideyasının ayrılmaz tərkib hissəsi olmuşdur.

**Ədəbiyyat siyahısı**

Axundov, A.A.(1984). Azərbaycan dilinin fonetikası. Bakı: Elm
Axundov, A.A.( 1988) Ümumi dilçilik. Bakı: Maarif

Dəmirçizadə, Ə.F.( 1979) Azərbaycan ədəbi dilinin tarixi (I-IV cild). Bakı: Elm.
Mirzə Kazım bəy, Türk-tatar dilinin ümumi qrammatikası / [Elektron resurs]- https://kaspi.az/az/azerbaycan-dilinin-ilk-elmi-qrammatikasi/?action=disablemobile
Nərimanov, N. (19870) Ədəbiyyat və mədəniyyət haqqında məqalələr. Bakı:Yazıçı.
Hacıbəyli, Ü.( 1985) Seçilmiş əsərləri (felyetonlar; miniatürlər; satirik hekayələr). Bakı: Elm.

**Nərminə Salmanlı**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Mütəxəssis*
*E-mail: narmina.salman@mail.ru*
*ORCİD: 0009-0009-9917-6447*

# TÜRKOLOGİYANIN TARİXİ-MÜASİR İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Məqalədə türkologiyanın XX əsrin əvvəllərindən etibarən formalaşması, inkişaf mərhələləri və müasir dövrdəki perspektivləri tarixi, metodoloji və geosiyasi kontekstdə təhlil olunur. Xüsusilə 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın türkoloji elmin inkişafında mühüm dönüş nöqtəsi olduğu vurğulanır. Qurultay ortaq türk dili, əlifba və terminologiya məsələlərinin sistemli şəkildə müzakirəyə çıxarılmasına, elmi əməkdaşlığın güclənməsinə və ümumtürkoloji təfəkkürün formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Sovet dövründə ideoloji məhdudiyyətlər türkologiyanın inkişafını müəyyən qədər ləngitsə də, 1960–70-ci illərdən etibarən elmi tədqiqatların yenidən canlanması müasir Azərbaycan türkologiyasının əsaslarını möhkəmləndirmişdir. Müstəqillik dövründə isə türkologiya yeni geosiyasi reallıqlar fonunda genişlənmiş, türk dövlətləri arasında əməkdaşlıq elmi inteqrasiyanı gücləndirmişdir.

Məqalədə türk xalqlarının coğrafi, linqvistik, dini və siyasi prinsiplər əsasında təsnifatı ümumiləşdirilir, diferensiasiya və inteqrasiya proseslərinin paralel inkişaf etdiyi göstərilir. Eyni zamanda əlifba islahatları, ortaq dil məsələsi və müasir problemlər – terminoloji uyğunsuzluq, rəqəmsal resurs çatışmazlığı və metodoloji fərqlər – araşdırılır. Nəticə olaraq, türkologiyanın müasir dövrdə elmi və mədəni inteqrasiyada mühüm rol oynadığı qənaətinə gəlinir.

***Açar sözlər:*** *türkologiya, aktual problemlər, dil tədqiqatları, əlifba islahatları, rəqəmsal türkologiya*

# HISTORY OF TURKOLOGY-MODERN DEVELOPMENT PROSPECTS

**Abstract**

The article analyzes the formation of Turkology since the beginning of the twentieth century, the stages of its development and prospects in modern times in the historical, methodological and geopolitical context. In particular, the first Turkological Congress held in Baku in 1926 was an important turning point in the development of turkological science. The Congress had a significant impact on the systematic discussion of the common Turkic language, alphabet and terminology issues, strengthening scientific cooperation and the formation of general Turkic thinking.

Although ideological restrictions in the Soviet period somewhat slowed down the development of Turkology, the revival of scientific research since the 1960s and 70s strengthened the foundations of modern Azerbaijani Turkology. In the period of independence, Turkology expanded against the background of new geopolitical realities, and cooperation between Turkic states strengthened scientific integration.

The article summarizes the classification of Turkic peoples on the basis of geographical, linguistic, religious and political principles, shows that the processes of differentiation and

integration develop in parallel. At the same time, Alphabet reforms, the issue of common language and modern problems – terminological inconsistency, lack of digital resources and methodological differences – are being investigated. Consequently, it is concluded that Turkology plays an important role in scientific and cultural integration in modern times.
***Key words:*** *Turkology, current problems, linguistic studies, alphabet reforms, digital Turkology*

**Giriş**

XX əsrin sonlarından etibarən türk xalqlarının milli müstəqillik yoluna qədəm qoyması türkologiya tədqiqatlarının həm miqyasını, həm də metodoloji imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bu gün artıq hər hansı bir türk xalqını onun dilini, ədəbiyyatını, tarixini və mədəniyyətini bütöv etnik-mədəni sistem kontekstində araşdırmadan təsəvvür etmək mümkün deyil. Hər bir türk xalqının özünəməxsusluğunun dərindən tədqiqi nəticə etibarilə ümumtürkoloji təfəkkürün zənginləşməsinə və möhkəmlənməsinə xidmət edir.

Azərbaycanda ümumtürkoloji araşdırmaların başlanğıcı XX əsrin əvvəllərinə təsadüf edir. Bu mərhələdə türk kimliyi, türk xalqlarının tarixi-mədəni birliyi və dil məsələləri fundamental elmi problem kimi gündəmə gətirilmişdir. Xüsusilə XX əsrin 20–30-cu illərində türkologiya daha konkret elmi istiqamətlər üzrə formalaşmağa başlamış, dil, əlifba, etnoqrafiya və tarix məsələləri geniş müzakirə obyektinə çevrilmişdir Həmin dövrdə dünya türkologiyasının görkəmli nümayəndələrinin iştirakı ilə aparılan müzakirələr Azərbaycan elmi mühitinin beynəlxalq səviyyədə tanınmasına zəmin yaratmışdır.

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay bu prosesin məntiqi zirvəsi kimi çıxış etmişdir. Qurultay təsadüfi hadisə deyil, mürəkkəb tarixi-ictimai şəraitin, milli özünüdərk prosesinin və elmi axtarışların nəticəsi idi. Onun qərarları və qəbul etdiyi qətnamələr türk xalqlarının dil, əlifba və yazı məsələlərinin sistemli şəkildə həllinə yönəlmiş, ortaq elmi platformanın formalaşmasına mühüm təsir göstərmişdir.

**Əsas mətn**

XX əsrin 30–50-ci illərində ideoloji təzyiqlər nəticəsində türkologiya müəyyən geriləmə mərhələsi yaşasa da, 60–70-ci illərdən etibarən (Cəfərov, 2018: 292) Azərbaycan yenidən türkologiyanın mühüm mərkəzlərindən birinə çevrilmişdir. Bu dövrdə formalaşan elmi məktəblər, hazırlanmış dərslik və monoqrafiyalar, aparılan müqayisəli və tipoloji tədqiqatlar müasir Azərbaycan türkologiyasının əsaslarını möhkəmləndirmişdir.

Müstəqillik dövründə isə türkologiya yalnız filoloji çərçivədə deyil, həm də geosiyasi, mədəni və strateji kontekstdə yeni mərhələyə qədəm qoymuşdur. Ortaq türk dili və əlifbası məsələləri, dil siyasəti, türk dövlətləri arasında iqtisadi və kommunikasiya əlaqələri, eləcə də qarşılıqlı elmi məktəblərin formalaşması (Məmmədov, 2015: 63) bu gün aktual müzakirə istiqamətlərindəndir.

Təqdim olunan məqalə I Türkoloji Qurultayın tarixi-elmi irsini, ortaq türk dili və əlifba məsələlərinin müasir perspektivlərini, türk dünyasının yeni geosiyasi reallıqlarını, eləcə də müqayisəli və multidissiplinar yanaşmalar fonunda türkologiyanın aktual problemlərini sistemli şəkildə təhlil etməyi qarşıya məqsəd qoyur.

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay türkoloji elmin beynəlxalq miqyasda formalaşmasına mühüm təkan vermişdir. Qurultayın ideyaları sonrakı mərhələdə xüsusilə Türkiyədə sistemli şəkildə davam etdirilmiş və yeni elmi-siyasi kontekstdə inkişaf etdirilmişdir.

XX əsrin sonlarına doğru dünya türkologiyasının əsas mərkəzi rolunu təbii şəkildə Türkiyə öz üzərinə götürmüşdür. Burada ardıcıl olaraq türkologiya qurultayları, konqreslər və elmi

müşavirələr təşkil edilmiş, həmin toplantıların təsiri bütün türk dünyasında hiss olunmuşdur. Türkiyə tədricən türk dünyasının və türkologiya elminin əlaqələndirici mərkəzinə çevrilmişdir.

Bu prosesdə Mustafa Kemal Atatürkün dil və millət quruculuğu siyasəti xüsusi əhəmiyyət kəsb etmişdir. Onun təşəbbüsü ilə 1930-cu illərdən etibarən Türkiyədə genişmiqyaslı dil islahatları həyata keçirilmiş, türk dilinin tarixi köklərinin araşdırılması və milli terminoloji sistemin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Atatürkün irəli sürdüyü Günəş Dil nəzəriyyəsi dövlət və millət quruculuğunda dil faktoruna verilən önəmin göstəricisi idi. Bu nəzəriyyə türk dillərinin vahid mənbədən yayıldığı ideyasını irəli sürərək onların geniş coğrafiyada yayılmasını izah etməyə çalışırdı. Lakin qeyd etmək lazımdır ki, bu nəzəriyyə elmi ictimaiyyətdə birmənalı qarşılanmamış, bir sıra dilçi alimlər tərəfindən metodoloji baxımdan mübahisəli hesab edilmişdir.

Bu nəzəriyyə türk dillərinin vahid mənbədən yayıldığı ideyasını irəli sürərək onların geniş coğrafiyada yayılmasını izah etməyə çalışırdı. Məhz belə geniş coğrafi arealda formalaşma və müxtəlif sivilizasiya mühitləri ilə təmas nəticəsində türkdilli xalqlar tarix boyu müxtəlif əlifba sistemlərindən istifadə etmişlər. Bu proses onların dini dünyagörüşü, ictimai-siyasi şəraiti və digər xalqlarla mədəni əlaqələri ilə bilavasitə bağlı olmuşdur. (Zeynalov, 1981: 343) Uyğur əlifbası ilə yazılmış abidələrin bir qismi qədim Çin, Tibet, hind və toxar dillərindən tərcümə edilmişdir. Sonralar bu əlifbadan monqollar və tunqus-mancur xalqları da istifadə etmişlər.

İslamın qəbulundan sonra ərəb əlifbası türk xalqları arasında geniş yayılmış və X–XX əsrlər ərzində Şərq xalqları tərəfindən intensiv şəkildə işlədilmişdir. Lakin bu əlifba türk dillərinin fonetik quruluşunu tam şəkildə əks etdirmirdi. Saitlərin müstəqil şəkildə ifadə olunmaması, samitlərin çoxluğu, eyni səsin bir neçə qrafik variantla göstərilməsi və hərflərin mövqeyə görə formasının dəyişməsi yazı prosesində müəyyən çətinliklər yaradırdı.

VIII–XI əsrlərdə uyğurlar Manı yazısından istifadə etmişlər. Həmin dövrdə budda dini mətnlərinin yazılmasında brahmi yazısı tətbiq olunmuşdur. Hind mənşəli bu əlifba 56 hərfdən ibarət idi. Soqd əlifbası isə əsasən dini mətnlərin yazılmasında işlədilmiş, İran mənşəli olub sağdan sola yazılmış və 22 hərfdən ibarət olmuşdur.

XX əsrin əvvəllərində əlifba islahatları türkdilli xalqların yazı mədəniyyətində yeni mərhələ yaratmışdır. 1928–1929-cu illərdə türkdilli xalqların əksəriyyəti latın qrafikalı əlifbaya keçmişdir. Latın qrafikalı əlifbaya keçid təşəbbüsləri türk xalqları arasında elmi, mədəni və informasiya mübadiləsini asanlaşdırmaq məqsədi daşıyırdı. Bu istiqamətdə atılan addımlar sonrakı dövrdə Azərbaycan, Qazaxıstan, Türkmənistan və digər türk respublikalarında latın qrafikasına keçid prosesinə ideoloji və elmi zəmin yaratmışdır. Müasir Türkiyə türkcəsində bu gün də latın əlifbasından istifadə olunmaqdadır. Lakin Sovetlər Birliyi tərkibində yaşayan türkdilli xalqlar 1938–1940-cı illərdə latın qrafikasından imtina edərək rus (kiril) qrafikası əsasında tərtib edilmiş yeni əlifbalara keçmişlər. Bununla belə, hər bir türk dilinin özünəməxsus sait və samit fonemlərini ifadə edən xüsusi hərflər həmin əlifbalarda müəyyən dərəcədə qorunub saxlanılmışdır.

Beləliklə, türkdilli xalqların istifadə etdikləri əlifba sistemləri onların tarixi inkişafı, dini mühiti və siyasi şəraiti ilə sıx bağlı olmuş, bu dəyişikliklər türk dillərinin qrafik və fonetik xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynamışdır.

XX əsrin sonu – XXI əsrin əvvəllərində yaranmış yeni geosiyasi şərait türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsini zəruri etmişdir. Enerji layihələri, nəqliyyat dəhlizləri və iqtisadi inteqrasiya təşəbbüsləri türk dünyasının strateji əhəmiyyətini daha da artırmışdır.

Xüsusilə Azərbaycan Cənubi Qafqaz regionunda regional və beynəlxalq təşəbbüslərin fəal iştirakçısı və təşəbbüskarı kimi çıxış edir. Transregional nəqliyyat və dəmir yolu layihələri yalnız

iqtisadi deyil, həm də geosiyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Bu proseslər türk dövlətləri arasında siyasi-diplomatik münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

Müasir türk dünyası, ilk növbədə, heç şübhəsiz, tarixi təkamülün, insan cəmiyyətinin müxtəlif dövrlərdən, mərhələlərdən keçən inkişafının məhsulu olduğu kimi, böyük perspektivlərə də malikdir.

Türk dünyasını biri digərini tamamlayan iki fundamental proses səciyyələndirir ki, onlardan birincisi diferensiasiya, ikincisi isə inteqrasiyadır.

Müasir dünyada mövcud olan türk xalqlarının tam bir siyahısını təqdim etmək o qədər də asan deyil, bir sıra etnoqrafik, eləcə də sosial-siyasi problemlərlə bağlı olaraq müəyyən pərakəndəlik və ya sistemsizlik yaradır. Hər şeydən əvvəl ona görə ki, a) bəzi türk xalqlarında etnosiyasi təmərküzləşmənin mükəmməl olmaması; b) bu və ya digər türk xalqı daxilində fərqli tayfaların və ya etnik birliklərin "müstəqilliyi", yaxud müstəqillik iddialarının mövcudluğu; c) qeyri-türk mənşəli etnosiyasi cəmiyyətlər tərkibində olduğundan öz müqəddəratanı normal şəkildə təmin etməmiş türklərin yaşaması və s. kimi hallar vardır.

Türk xalqlarının təsnifi zamanı həmin hallar ciddi maneçiliyə səbəb olmaqla tamamilə mükəmməl bir təsnifatın verilməsini, demək olar ki, qeyri-mümkün edir.

Ümumiyyətlə isə, türkologiyada müasir türk xalqlarının aşağıdakı təsnif prinsipləri təcrübəsi özünü göstərir:

1) coğrafi prinsip;

2) linqvistik prinsip;

3) dini mənsubiyyət prinsipi;

4) siyasi prinsip.

Coğrafi prinsipə görə, türklər aşağıdakı regionlara ayrılırlar: (Hacıyev, 2017: 180)

I. Sibir türkləri: saxalar, tuvalar, xakaslar, altaylar, şorlar.

II. Türküstan türkləri: uyğurlar, özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, qaraqalpaqlar.

III. Ural-Volqaboyu türkləri: tatarlar, çuvaşlar, başqırdlar.

IV. Şərqi Avropa türkləri: qaqauzlar, qaraimlər.

V. Şimali Qafqaz türkləri: qumıqlar, qaraçaylar, balqarlar, noqaylar.

VI. Azərbaycan-Kiçik Asiya türkləri: Türkiyə türkləri, azərbaycanlılar.

Linqvistik prinsipə görə, türklər aşağıdakı dil qruplarına bölünürlər:

I. Oğuzdillilər: Türkiyə türkləri, azərbaycanlılar, türkmənlər, qaqauzlar.

II.Qıpçaqdillilər: qazaxlar, tatarlar, qırğızlar, başqırdlar, qaraqalpaqlar, qumıqlar, qaraçaylar, balqarlar, altaylar, noqaylar.

III. Karluqdillilər: uyğurlar, özbəklər.

IV. Ümumi bölgüdən kənarda qalanlar: çuvaşlar, saxalar, tuvalar, şorlar.

Türk xalqları, əsasən, aşağıdakı dinlərə mənsubdurlar:

1. İslam dini: Türkiyə türkləri, azərbaycanlılar, uyğurlar, özbəklər, tatarlar (əksəriyyəti), türkmənlər, qırğızlar, başqırdlar, qaraqalpaqlar, qumiqlar, qaraçaylar, balqarlar, noqaylar.
2. Xristian dini: çuvaşlar, qaqauzlar, şorlar (əksəriyyəti).
3. İudaizm: qaraimlər.
4. Şamanizm: saxalar, tuvalar, xakaslar, altaylar.

Siyasi prinsipə görə türk xalqlarını aşağıdakı şəkildə təsnif etmək mümkündür:

I. Müstəqil (yəni öz dövlətləri olan) türk xalqları: Türkiyə türkləri, azərbaycanlılar, özbəklər, qazaxlar, türkmənlər, qırğızlar.

II. Yarımmüstəqil (yəni bu və ya digər dövlətin tərkibin- muxtariyyəti olan) türk xalqları: uyğurlar, tatarlar, çuvaşlar, başqırdlar, saxalar, qaraqalpaqlar, tuvalar, qaraçaylar, xakaslar, balqarlar, altaylar.

III. Müstəqil olmayan türk xalqları: qaqauzlar, qumıqlar, noqaylar, şorlar, qaraimlər.

Türk dünyasında slavyan dillərinin və mədəniyyətinin öyrənilməsi, eləcə də slavyan ölkələrində türkoloji tədqiqatların aparılması qarşılıqlı elmi əlaqələrin formalaşmasına şərait yaratmışdır. Türk və slavyan xalqları arasında tarixi, ədəbi və mədəni münasibətlər müqayisəli tədqiqatlar üçün zəngin material verir. (Əliyev, 2018: 202)

Eyni zamanda, yox olmaq təhlükəsi altında olan türk dillərinin sənədləşdirilməsi və araşdırılması müasir türkologiyanın prioritet istiqamətlərindəndir. Qarşılıqlı elmi məktəblərin təşəkkülü və tədqiqat ənənələrinin davam etdirilməsi bu sahədə sistemli əməkdaşlığın vacibliyini göstərir.

**Nəticə**

Lakin bütün bu müsbət tendensiyalarla yanaşı, türkologiyanın müasir inkişafı bir sıra problemlərlə müşayiət olunur ki, onların həlli elmi tədqiqatların keyfiyyətini və sistemliliyini artırmaq baxımından vacibdir. Türkologiya bu gün də dinamik inkişaf edən elmi sahədir, lakin terminoloji vahidlik məsələsi hələ tam həll olunmayıb: müxtəlif türk dillərində elmi terminlər fərqli qarşılıqlarla verilir və bu, müqayisəli tədqiqatlarda uyğunsuzluq yaradır. Rəqəmsal resurs çatışmazlığı da ciddi problemdir; dil korpusları, elektron lüğətlər və rəqəmsal arxivlər bəzi türk dillərində yetərincə inkişaf etməyib, bu isə müasir tədqiqatların imkanlarını məhdudlaşdırır. Dialekt və şivələrin sənədləşdirilməsi məsələsi də aktualdır, çünki bir çox dialekt materialı sistemli şəkildə toplanmayıb və bu, dil tarixinin öyrənilməsini çətinləşdirir. Metodoloji fərqlər müqayisəli türkologiyada nəticələrin interpretasiyasına təsir göstərir; ortaq tədqiqat prinsiplərinin formalaşdırılması vacibdir. Bundan başqa, gənc tədqiqatçıların sayının azalması sahənin gələcəyi üçün risk yaradır; maliyyələşmə və motivasiya mexanizmləri bu problemi qismən həll edə bilər. Türkoloji tədqiqatların beynəlxalq elmi mühitdə görünürlüğü də kifayət qədər yüksək deyil, məqalələrin indeksli jurnallarda nəşri və beynəlxalq layihələrdə iştirak bu istiqamətdə mühüm addımdır. Rəqəmsal texnologiyaların tətbiqi, açıq məlumat bazalarının yaradılması və beynəlxalq əməkdaşlıq türkologiyanın inkişafını sürətləndirə bilər. Bu sahə yalnız keçmişin öyrənilməsi deyil, həm də müasir dil və mədəniyyət siyasətinin formalaşmasında mühüm rol oynayır; problemlərin həlli isə türk dillərinin elmi tədqiqini yeni mərhələyə çıxara bilər.

**Ədəbiyyat siyahısı**

Cəfərov, N., Qəribli, A., Qəribli, E. (2018). Türkologiya. Bakı: STV-TRANS
Əliyev R. (2018). Türk dillərinin tarixi inkişafı. Bakı: Şərq-Qərb
Hacıyev F. (2017). Dil və mədəniyyət əlaqələri. Bakı: ADPU
Məmmədov A. (2015). Müqayisəli türkologiyanın əsasları. Bakı: Elm və təhsil
Zeynalov, F.R. (1981). Türkologiyanın əsasları. Bakı: Maarif

**Leyla Məmmədzadə**
*Gəncə Dövlət Universiteti*
*Doktorant*
*E-mail: mammadzade74@gmail.com*
*ORCİD: 0009-0002-4123-5415*

# PAREMİOLOJİ VAHİDLƏRİN SİNTAKTİK TƏŞKİLİ VƏ OBRAZLILIQ PROBLEMİ

**Xülasə**

Tədqiqat Azərbaycan və türk dillərində paremioloji vahidlərin sintaktik-üslubi xüsusiyyətlərini müqayisəli şəkildə araşdırır və göstərir ki, atalar sözləri və məsəllər yalnız sabit leksik vahidlər deyil, eyni zamanda ümumiləşdirici semantika, obrazlılıq və ekspressivlik yaradan mürəkkəb sintaktik-semantik strukturlardır. Bu vahidlərin formalaşmasında söz birləşmələri və cümlə modelləri əsas rol oynayır, məcazi məna və üslubi çalarlar isə sintaktik mühit daxilində reallaşaraq eyni leksemin müxtəlif kontekstlərdə fərqli semantik çalarlar qazanmasına şərait yaradır.

Eyni zamanda təyini söz birləşmələri, sintaktik paralellik, antonimik qarşılaşdırmalar və fonetik uyğunluq paremioloji vahidlərin struktur bütövlüyünü gücləndirməklə yanaşı, onların üslubi-ekspressiv təsir gücünü də artırır. Bu elementlər atalar sözlərinin ritmik təşkili, yadda qalma asanlığı və emosional təsirinin formalaşmasında mühüm rol oynayır. Müqayisəli təhlil Azərbaycan və türk dillərində ortaq sintaktik modellərin mövcudluğunu üzə çıxarır və bu da paremioloji sistemlərin tipoloji yaxınlığını təsdiqləyir. Nəticə etibarilə, paremioloji vahidlərin sintaktik-üslubi xüsusiyyətləri onların kommunikativ, didaktik və estetik funksiyalarını gücləndirir və dilin obrazlı ifadə imkanlarının sistemli şəkildə formalaşmasında mühüm rol oynayır.

***Açar sözlər:*** *Paremioloji vahidlər, sintaktik-üslubi xüsusiyyətlər, məcazi məna, struktur-semantik təhlil, obrazlılıq*

# THE SYNTACTIC STRUCTURE AND THE PROBLEM OF FIGURATIVENESS IN PAREMIOLOGICAL UNITS

**Abstract**

The study comparatively examines the syntactic and stylistic features of paremiological units in Azerbaijani and Turkish languages, demonstrating that proverbs and sayings are not merely fixed lexical units but complex syntactic-semantic structures that generate generalizing semantics, imagery, and expressiveness. In their formation, word combinations and sentence patterns play a central role, while figurative meaning and stylistic nuances are realized within the syntactic environment, enabling the same lexical unit to acquire different semantic shades in different contexts.

At the same time, various types of attributive word combinations, syntactic parallelism, antonymic oppositions, and phonetic harmony not only strengthen the structural integrity of paremiological units but also significantly enhance their stylistic and expressive power. These elements play an important role in the rhythmical organization of proverbs, their memorability, and emotional impact. The comparative analysis reveals the existence of common syntactic models in Azerbaijani and Turkish, confirming the typological proximity and structural universality of paremiological systems. Consequently, the syntactic-stylistic features of paremiological units

enhance their communicative effectiveness, strengthen their didactic and aesthetic functions, and play an important role in the systematic formation of the figurative expressive capacity of language.
***Key words**: paremiological units, syntactic-stylistic features, figurative meaning, structural-semantic analysis, imagery*

Paremioloji vahidlər xalqın tarixi təcrübəsini və dünyagörüşünü yığcam və obrazlı şəkildə ifadə edən sabit dil vahidləridir; atalar sözləri və məsəllər dilin leksik və sintaktik səviyyələrinin qarşılıqlı əlaqəsi əsasında formalaşaraq həm didaktik, həm də üslubi funksiyalar yerinə yetirir, Azərbaycan və türk dillərinin paremioloji sistemində söz birləşmələri və sintaktik modellər isə məcazi məna və ekspressivliyin əsas yaradıcısı kimi çıxış edir, beləliklə leksik vahidlərin semantik imkanları məhz daxil olduqları sintaktik mühitdə reallaşır və kontekstdən asılı olaraq yeni məna çalarları qazanır.

Paremioloji vahidlərin sintaktik-üslubi xüsusiyyətləri dilin müxtəlif səviyyələrinin qarşılıqlı əlaqəsi nəticəsində formalaşır və əsasən söz birləşmələri, cümlə quruluşları və sintaktik fiqurlar çərçivəsində üzə çıxır. Bu baxımdan ismi və feili söz birləşmələri paremiyalarda yalnız adlandırma funksiyası daşımır, həm də məcazi məna və obrazlı ifadənin formalaşdığı əsas dil mühiti kimi çıxış edir.

Leksik vahidlərin semantik imkanları isə onların müstəqil şəkildə deyil, sintaktik mühit daxilində digər sözlərlə əlaqəsi nəticəsində reallaşır; beləliklə, məcazilik və çoxmənalılıq strukturdan asılı olaraq yaranır və onun dəyişməsi ilə semantik çalarlar da dəyişir.Bu xüsusiyyət eyni leksemin müxtəlif kontekstlərdə fərqli məna yükü qazanması ilə aydın görünür. Məsələn, «dadsız» sifəti «Dadsız şorbaya duz kar etməz» (*Atalar sözləri*, 1985, p. 236) nümunəsində konkret, birbaşa mənanı ifadə etdiyi halda, «Dadlı söz dinlənər, dadsız söz əsnədər» (*Atalar sözləri*, 1985, p. 236) paremiyasında artıq metaforik məna qazanır və nitqin keyfiyyətini qiymətləndirən üslubi vahidə çevrilir.

Bu yanaşma elmi ədəbiyyatda da təsdiqini tapır. İ.Məmmədovun qeyd etdiyi kimi, sözün konkret sintaktik mühitdə işlənməsi və digər leksik-qrammatik vahidlərlə əlaqəyə girməsi onun kommunikativ dəyərini müəyyən edir və funksional imkanlarını genişləndirir (Məmmədov, 2006, p. 277) Bu baxımdan sintaktik mühit, xüsusilə söz birləşməsi, paremioloji vahidlərdə məna quruculuğunun əsas dayaqlarından biri hesab oluna bilər.

Paremiyalarda məcazi mənanın formalaşması çox vaxt söz birləşmələrinin daxilində baş verir. Belə birləşmələrdə sözlər arasında yaranan semantik əlaqələr ümumi məna bütövlüyünü təmin edir və ifadəyə obrazlılıq qazandırır. Məsələn: «Əyri dil baş yarar» (əyri dil); «Dil yarası, il yarası» (il yarası); «Qara günün ağ günü də var» (qara gün, ağ gün); «Boş sözlə qarın doymaz» (*Atalar sözləri*, 1985, p. 180; *Atalar sözləri*, 2004, pp. 90, 111, 147) (boş söz); «Arife günü yalan söyleyenin bayram günü yüzü kara çıkar» (yüzü kara); «Acı söz insanı dininden çıkarır, tatlı söz yılanı ininden çıkarır» (acı söz, tatlı söz); «Büyük lokma ye büyük söz söyleme» (büyük söz); «Paranın yüzi sıcaktır» (Aksoy, 1988, pp. 95, 67; *Atasözü ve deyim avçıları*, 2017, pp. 20, 53) (paranın yüzi) və s. Bu nümunələr göstərir ki, məcazi məna ayrı-ayrı sözlərdə deyil, onların qarşılıqlı əlaqəsi nəticəsində yaranan semantik sistemdə formalaşır.

Digər tərəfdən, söz birləşmələri paremiyalarda üslubi-ekspressiv funksiyalar da yerinə yetirir. Onlar ifadənin yığcamlığını təmin edir, fikrin qısa və təsirli şəkildə ifadəsinə imkan yaradır, paralel və balanslı konstruksiyalar vasitəsilə ritm və ahəng yaradır. Bu isə atalar sözlərinin yadda qalmasını asanlaşdırır və onların şifahi nitqdə geniş yayılmasına şərait yaradır.

Beləliklə, paremioloji vahidlərin sintaktik quruluşu yalnız formal xüsusiyyətlərlə məhdudlaşmır. Söz birləşmələri bu vahidlərdə həm məcazi məna yaradan əsas mexanizm kimi çıxış edir, həm də üslubi təsir gücünü artıraraq onların kommunikativ və estetik dəyərini müəyyənləşdirir.

Paremioloji vahidlərin sintaktik təşkili Azərbaycan və türk dillərində sabit modellər üzərində qurulur və bu modellər, xüsusilə, söz birləşməsi strukturlarının təkrarı ilə səciyyələnir. Sintaktik paralelliyə əsaslanan mürəkkəb cümlə tipli atalar sözlərində birinci komponentdə işlənən söz birləşməsi modeli ikinci komponentdə də eyni struktur prinsipi ilə təkrarlanır. Bu cür təkrarlılıq paremiyaların formal bütövlüyünü qorumaqla yanaşı, onların semantik ardıcıllığını və ümumiləşdirici xarakterini də gücləndirir.

Müqayisəli baxımdan yanaşıldıqda, Azərbaycan dilində atalar sözlərinin quruluşunda daha çox I və III növ, türk dilində isə II və III növ təyini söz birləşmələri üstünlük təşkil edir. Bu fərqlilik hər iki dilin sintaktik sisteminin daxili imkanları ilə bağlı olub, paremiyaların lakonik, yığcam və məna baxımından sıxlaşdırılmış ifadə formasını təmin edir. Məsələn, Azərbaycan dilində: «Almaz üzük, dar barmaq»; «Arvadsız ev, susuz dəyirman»; «Ağılsız uşaq - damsız ev»; «Aləmin malı, mülkü, Qəmbərin yırtıq kürkü»; «Atanın duası, ananın ahı» (*Atalar sözləri*, 1985, pp. 58, 67, 79, 52) və s. Türk dilində isə: «Çam sakızı çoban armağanı»; «Karı malı kapı mandalı»; «Atın dorusu yigidin delisi»; «Kadının sofusu şeytanın maskarası» (Aksoy, 1988, pp. 137, 219, 102) və s. Bu strukturlarda təkrar həm paralellik, həm də məna ardıcıllığı yaradır və ifadənin kommunikativ təsirini gücləndirir.

I növ təyini söz birləşmələrində əlaqə əsasən leksik-semantik uyğunluqla müəyyənləşir; tematik yaxınlıq və səsləşmə struktur bütövlüyünü möhkəmləndirir. Antonimlərin yanaşı işlənməsi isə qarşılaşdırma effekti yaradaraq ifadənin həm üslubi təsirini, həm də ritmik ahəngini gücləndirir. Məsələn: «Ağıllı arvad kamala, ayğılsız arvad camala güvənər»; «Cahilin dostluğundan alimin düşmanlığı yegdir» (*Atalar sözləri*, 2004, p. 25; Aksoy, 1988, p. 133). Azərbaycan dilində isə antonimlərin çarpaz şəkildə təqdim olunması üslubi effektin daha da güclənməsinə xidmət edir: «Ağıllı kasıba «dəli» deyərlər, dövlətli dəliyə «bəli» deyərlər» (*Atalar sözləri*, 2004, p. 25).

Bu nümunələr göstərir ki, antonimlik paremioloji vahidlərdə yalnız semantik ziddiyyət funksiyası daşımır, həm də sintaktik quruluşun ritmik və paralel təşkilini təmin edən mühüm struktur vasitə kimi çıxış edir.

Təyini söz birləşmələrinin formalaşmasında fonetik uyğunluq və qafiyəlilik də mühüm üslubi faktor kimi çıxış edir. Bu elementlər komponentlər arasında səs harmoniyası yaradaraq ifadənin ritmik strukturunu gücləndirir və onun yadda qalma imkanlarını artırır. Belə fonetik paralellik aşağıdakı nümunələrdə aydın şəkildə müşahidə olunur: «Arsız kişidən ərsiz arvad yaxşıdır» (*Atalar sözləri*, 2004, p. 37); «Karı malı kapı mandalı»; «Kar yılı var yılı»; «Armudun önü, kirazın sonu» (Aksoy, 1988, pp. 223, 224, 96).

Ümumilikdə, Azərbaycan və türk dillərinin paremioloji sistemində söz birləşmələri həm sintaktik strukturun əsas elementi, həm də semantik-üslubi yükü formalaşdıran mühüm vasitədir. Onların təkrarı, antonimik qarşılaşdırılması və fonetik uyğunluğu atalar sözlərinin struktur sabitliyini və ekspressiv-estetik gücünü təmin edən əsas mexanizmlərdəndir.

Atalar sözlərinin sintaktik sistemində II növ təyini söz birləşmələri ümumiləşdirici məna ifadə edərək xüsusi yer tutur. Bu konstruksiyalar konkret faktı deyil, ümumi qanunauyğunluğu əks etdirir və paremioloji mətnlərdə nəsihət xarakterli fikirlərin formalaşmasına, semantik abstraktlığın yaranmasına xidmət edir.

Belə konstruksiyalarda ümumilik anlayışı sabit və ya kontekstə görə dəyişən xarakter daşıya bilər. Məsələn, «Ayaq büdrəməsi dil büdrəməsindən yaxşıdır»; «Ayı yuvasında qoz axtarmazlar» (*Atalar sözləri*, 1985, pp. 46–47); «Arslan kocayınca siçan deliği gözetir»; «Kırk gün taban eti bir gün av eti» (Aksoy, 1988, p. 97; *Atasözü ve deyim avçıları*, 2017, p. 45) nümunələrində ifadə olunan fikir fərdi subyektlə məhdudlaşmır, daha geniş sosial davranış modelinə yönəlir. Bu isə II növ təyini söz birləşmələrinin ümumiləşdirici semantikanı gücləndirdiyini göstərir.

Ç.Hüseynzadənin fikrində də bu struktur xüsusiyyət aydın şəkildə izah olunur: daimi ümumilik bildirən yiyəlik hallı birləşmələrdə birinci tərəf formal olaraq yiyəlik hal şəkilçisi qəbul etmir, sahiblik münasibəti isə ikinci tərəfdəki mənsubiyyət göstəricisi vasitəsilə ifadə olunur. Bu halda əsas semantik yük ikinci komponentin üzərinə düşür, birinci komponent isə daha çox məntiqi əlaqə funksiyası daşıyır (Hüseynzadə, 2004, p. 140). Bu yanaşma göstərir ki, belə birləşmələrdə qrammatik formadan çox semantik münasibət ön plandadır.

Daimi ümumilik ifadə edən bu tip birləşmələrdə konkretlik zəif olduğuna görə yiyəlik halın bərpası tələb olunmur və struktur sabit şəkildə II növ təyini söz birləşməsi kimi qalır. Bu xüsusiyyət aşağıdakı nümunələrdə də müşahidə edilir: «Çürüntü aşı qarın doyurmaz» (*Atalar sözləri*, 2004, p. 78) (çürüntü aşı); «Keçiye can kaygısı kasaba yağ kaygısı» (can kaygısı, yağ kaygısı); «Arife günü yalan söyleyenin bayram günü yüzü kara çıkar» (*Atasözü ve deyim avçıları*, 2017, p. 43; Aksoy, 1988, p. 95) (Arife günü, bayram günü).

Bununla yanaşı, Azərbaycan və türk dillərində II növ təyini söz birləşmələri yalnız ümumiləşdirici məna yaratmaqla kifayətlənmir, həm də ifadənin obrazlılığını və üslubi təsir gücünü artırır. Bu konstruksiyalar vasitəsilə fikir daha sıx, daha yığcam və eyni zamanda daha ekspressiv şəkildə təqdim olunur. Məsələn, «Alt dodağı yer süpürür» (alt dodağı); «Dəlinin başında qoz ağacı bitməz» (*Atalar sözləri*, 1985, p. 58; *Atalar sözləri*, 2004, p. 84) (qoz ağacı); «Al gününde al, ver gününde ver» [1, s.85] (al günü, ver günü) nümunələrində həm semantik ümumiləşmə, həm də üslubi ifadəlilik paralel şəkildə reallaşır. Nəticə olaraq, II növ təyini söz birləşmələri paremioloji sistemdə qrammatik sabitliklə yanaşı ümumiləşdirici və obrazlı semantikanı formalaşdıran mühüm model kimi çıxış edir, atalar sözlərinin didaktik və funksional-üslubi effektivliyini artırır. Birinci tərəfin xüsusi isimlə ifadəsi isə xüsusi semantik yük yaradır və formal olaraq II növ saxlanılsa da, məna baxımından III növə yaxınlaşma göstərir. Bu hal aidiyyətin daha çox kontekstual-semantik yolla ifadəsi ilə bağlıdır.

Tarixi mətnlərdə bu tip konstruksiyalar geniş yayılmışdır. H. Mirzəzadənin qeyd etdiyi kimi, formal II növ olsa da, semantik baxımdan III növ kimi qavranılan bu birləşmələrdə xüsusi isim yiyəlik şəkilçisini tələb etmir, çünki aidiyyət münasibəti artıq mətn daxilində aydınlaşır (Mirzəzadə, 1990, p. 257).

Y.Seyidovun yanaşmasına görə isə bu tip birləşmələrdə komponentlər arasındakı əlaqə sadə sahiblik münasibətindən çıxaraq daha dərin semantik inteqrasiya səviyyəsinə yüksəlir. Burada sözlər artıq ayrı-ayrı sintaktik vahidlər kimi deyil, vahid məna kompleksinin tərkib elementləri kimi çıxış edir və nəticədə struktur daxilində semantik bütövlük güclənir (Seyidov, 1992, p. 182)

Paremioloji sistemdə xüsusi isimlərin bu mövqedə işlənməsi onların referensial funksiyasını zəiflədir və simvolik məna yükünü artırır. Beləliklə, konkret adlar fərdi göstəricilikdən çıxaraq ümumiləşmiş sosial təcrübəni ifadə edir və paremiyalarda məna daha geniş və abstrakt şəkildə kodlaşdırılır. Nümunələrdə bu xüsusiyyət aydın görünür: «Aləmə it hürər, bizə Mazandaran çaqqalı» (Mazandaran çaqqalı); «Kırlanğıç bir zararsız kuş, git Yemen iline danış»

(*Atalar sözləri*, 1985, p. 52; Aksoy, 1988, p. 233) (Yemen ili); «Əli aşından da olduq, Vəli aşından da» (Əli aşı, Vəli aşı); «Allah Halil İbrahim bereketi versin» (*Atalar sözləri*, 2004, p. 107; *Atasözü ve deyim avçıları*, 2017, p. 10) (Halil İbrahim bereketi).

Eyni semantik mexanizm peşə, sənət, dini və ümumi anlayış bildirən sözlərdə də müşahidə olunur. Yiyəlik hal göstəricisi olmadan işlədildikdə məna ümumiləşir, fərdi aidiyyət zəifləyir və ifadə daha universal xarakter alır. Beləliklə, semantik yük fərdi subyektdən kollektiv təcrübə və ümumi norma səviyyəsinə keçir. Məsələn, «Balcı kızı daha tatlı» (balcı kızı); «Tilkinin dönüp dolaşıp gedeceği yer kürkcü dükkanıdır» (Aksoy, 1988, p. 112; *Atasözü ve deyim avçıları*, 2017, p. 59) (kürkcü dükkanı); «Dərzi yaxası cırıq olar, başmaqçı ayağı yalın» (dərzi yaxası, başmaqçı ayağı); «Allaf xoruzuna bənzəyir» (*Atalar sözləri*, 2004, p. 87; *Atalar sözləri*, 1985, p. 53) (allaf xoruzu); «Komşu hakkı Tanrı hakkı» (Tanrı hakkı); «Allah əli hamı əldən ucadır» (Alkayış, 2009, p. 290; *Atalar sözləri*, 1985, p. 55) (Allah əli).

Beləliklə, bu tip II növ təyini söz birləşmələri yalnız sintaktik sabitlik deyil, eyni zamanda güclü semantik transformasiya potensialı nümayiş etdirir. Onlar paremiyalarda mənanın daha ümumiləşdirilmiş, daha simvolik və daha təsirli şəkildə ifadə olunmasını təmin edən əsas struktur modellərdən biri kimi çıxış edir. Ç. Hüseynzadənin «qeyri-sabit birləşmələr» adlandırdığı (Hüseynzadə, 2004, p. 141) yiyəlik quruluşlarının bir hissəsində kontekstə əsasən yiyəlik şəkilçisini bərpa etmək mümkündür. Bu birləşmələr paremiyalarda qeyri-müəyyən sahiblik ifadə edir: «Dağ quşu dağa yaraşar», «El gözü aydın görər», «Aslanlar yurdunda tülkülər gəzir», «Komşu ekmeği komşuya borç» və s. (*Atalar sözləri*, 2004, pp. 72, 79, 99; *Atasözü ve deyim avçıları*, 2017, pp. 47, 49, 100, 139).

Kontekstdən asılı olaraq bu formalar müəyyən yiyəliyə keçə bilir (*Ata dostu – Atanın dostu*). A. Əsədovanın qeyd etdiyi kimi, qeyri-müəyyən yiyəlik daha çox dil faktıdır, məcaziliyə meyillidir və tez-tez mürəkkəb sözə çevrilir; buna görə də çox vaxt onun müəyyən qarşılığı olmur (itburnu, danadişi və s.) (Əsədova, 2007, p. 17).

Paremioloji vahidlərin sintaktik-üslubi xüsusiyyətləri onların həm qrammatik quruluşunu, həm də semantik dərinliyini müəyyən edir. Söz birləşmələri və cümlə modelləri atalar sözlərində məcazi məna yaradan və fikri yığcamlaşdıran əsas vasitə kimi çıxış edir, sintaktik mühit isə leksik vahidlərin müxtəlif məna çalarları qazanmasına şərait yaradır. Azərbaycan və türk dillərində ortaq sintaktik modellər – təkrarlar, paralel quruluşlar və fonetik uyğunluq – paremioloji vahidlərin həm struktur bütövlüyünü, həm də üslubi təsir gücünü artırır.

**Ədəbiyyat siyahısı**


Aksoy, Ö. A. (1988). *Atasözleri, deyimler sözlüğü*. İnkılap Kitabevi.

Alkayış, F. (2009). Din içerikli atasözleri üzerine. *Elektronik Sosyal Bilimler Dergisi, 8*(27), 287–292.

*4 Atalar sözləri*. (1985). Yazıçı. (B. Tahirbəyov, Ed.).

*3 Atalar sözləri*. (2004). Öndər. (İ. Abbaslı, Ed.).

*Atasözü ve deyim avçıları*. (2017). Milli Eğitim Müdürlüğü.

Əsədova, A. (2007). *Azərbaycan dilində qrammatik hallar* [Avtoreferat, filologiya üzrə fəlsəfə doktoru dissertasiyası].

Hüseynzadə, Ç. (2004). *Azərbaycan dilində morfoloji norma*. Nurlan.

Məmmədov, İ. (2006). *Azərbaycan dilinin semantikası*. Xəzər.

Mirzəzadə, H. (1990). *Azərbaycan dilinin tarixi qrammatikası*. Azərbaycan Universiteti Nəşriyyatı.

Seyidov, Y. (1992). *Azərbaycan dilində söz birləşmələri*. Bakı Universiteti Nəşriyyatı.

**Fərman Xəlilov**
*AMEA Naxçıvan bölməsi*
*Filologiya elmləri doktoru*
*E-mail: fermanhalilov@yahoo.com*
*ORCİD: 0009-0004-9597-7507*

# MİRZƏ SADIQ FANİNİN ÖYRƏNİLMƏ TARİXİNƏ BİR NƏZƏR

**Xülasə**

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış Mirzə Sadıq Fani (1840-?) ibtidai siniflərdə Azərbaycan dilinin tədrisinə aid dərsliklərin müəllifi olmaqla yanaşı, həm də uzun illər Təbrizdə və Gəncədə bu fənnin tədris edən tanınmış pedaqoqlardan biri olub.

Bədii yaradıcılıqla da məşğul olan Mirzə Sadıq Faninin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan "Ağıl, bəxt və dövlət", "Hekayəti-əmiri-Bəlx və eşqi-pak" adlı poemaları, şeirlərindən bəzi nümunələr, 1893-cü ildə çapdan çıxan "Dəftəri-dovvomi-ədəbiyyə" və əlyazma şəklində olan Azərbaycan dilinin tədrisinə aid dərslikləri onun həyatı, ədəbi-bədii irsi və pedaqoji fəaliyyəti haqqında söz açmağa imkan verən materiallardır.

Təəssüf ki, indiyədək bu mövzu bütöv və sistemli şəkildə öyrənilməyib. Lakin həmin istiqamətdə az da olsa, müəyyən araşdırmalar aparılıb.

Məruzədə Mirzə Sadıq Faninin öyrənilmə tarixinə nəzər salınır, onun haqqında yazan müəlliflərin fikir və mülahizələri diqqətlə öyrənilir və dəyərləndirilir.

Nəticə olaraq müəllif belə qənaətə gəlir ki, indiyədək aparılan araşdırmalar Mirzə Sadıq Faninin bədii və pedaqoji irsini, həmçinin müəllimlik fəaliyyətini tam və sistemli şəkildə əhatə etmir. Bu mövzunun yenidən azərbaycançılıq ideologiyası mövqeyindən bütöv şəkildə öyrənilməsi üçün araşdırmaların davam etdirilməsinə ehtiyac vardır.

**Açar sözlər:** *Mirzə Sadıq Fani, tədqiqat tarixi, Firidun bəy Köçərli, bədii yaradıcılıq, məktəbdarlıq*

# A REVIEW OF THE HISTORY OF THE STUDY OF MIRZA SADIQ FANI

**Abstract**

Mirza Sadiq Fani (1840–?) who lived at the end of the 19th century and the beginning of the 20th century, was not only the author of textbooks for the teaching of the Azerbaijani language in primary classes, but also one of the prominent educators who taught this subject for many years in Tabriz and Ganja.

In addition to his pedagogical activity, Mirza Sadiq Fani was also engaged in literary creativity. The poems "Aghil, Bakht va Davlat" ("Mind, Fortune and State") and "Hekayati-amiri-Balkh va Eshqi-Pak", preserved at the Institute of Manuscripts named after M. Fuzuli of the Azerbaijan National Academy of Sciences, selected samples of his verses, the work titled "Daftari-dovvomi-adabiyya" published in 1893, as well as manuscript textbooks on the teaching of the Azerbaijani language provide valuable material for understanding his life, literary and artistic heritage, and pedagogical activity.

Unfortunately, this subject has not yet been studied comprehensively and systematically. Nevertheless, a number of studies, albeit limited, have been conducted in this direction.

The report examines the history of the study of Mirza Sadiq Fani, carefully analyzes and evaluates the views and opinions of authors who have written about him.

As a result, the author concludes that existing research does not fully and systematically cover the literary and pedagogical heritage of Mirza Sadiq Fani, as well as his teaching activity. Therefore, further research is necessary to study this topic in a complete manner from the perspective of Azerbaijani studies ideology.
**Keywords:** *Mirza Sadiq Fani, history of research, Firidun bey Kocharli, literary creativity, school education.*

Adı Azərbaycan ədəbiyyatı və maarif tarixinə düşən Mirzə Sadıq Fani haqqında ilk məlumat elə onun özü tərəfindən verilib. Bu məlumata onun AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan bir dərsliyinin avtoqrafında rast gəlmişik: "Bəndeyi-cani Mirzə Sadıq Fani zəhmətlərimin nə qədər artmasını nəzərdə tutmayıb övladi-vətənlərimin tez tərəqqi etməyin mənzur etdim. Hər gün bu dəftərdə yazılan məlumatdan vaxta görə deyib, bir-bir baxıb qələtlərin və imlaların səhih etmişəm, bəlkə, iqtidar olarsa, təb etdirdim" (Fani, 1882-1911: 1).

Bu yığcam məlumatlardan və əlyazmanın məzmunundan aydın olur ki, Mirzə Sadıq uzun illər müəllimliklə məşğul olub, şagirdlərə "asan və tez" yazmağın qaydalarını öyrədən dərsliklər yazıb.

**Həyat və fəaliyyəti haqqında məlumat verən mənbələr.**

Mirzə Sadıq haqqında ilk nisbətən əhatəli məlumatın verilməsi ədəbiyyatşünas Firidun bəy Köçərliyə nəsib olub. O, "Azərbaycan ədəbiyyatı tatixi materialları" kitabına "Mirzə Sadıq Fani" sərlövhəli kiçik bir mətn və onun "Cana, sənə bu yazdığım əsrar nihandır" misrası ilə başlayan 13 beytlik bir qəzəlini daxil edib (Köçərli, 1926: 267-268).

F.Köçərlinin Mirzə Sadıqla bağlı məlumatı həcmcə kiçik olsa da, onun təvəllüd tarixi, təhsili, bədii yadıcılığı, pedaqoji fəaliyyəti və əsərləri haqqında o vaxta qədər heç bir mənbədə rast gəlmədiyimiz faktlarla oxucuları tanış etmək baxımından çox əhəmiyyətlidir. O, bu məlumatları verərkən qeyd edir ki, .Mirzə Sadıq hələ sağdır, yaşı "yetmişə baliğdir". Çox güman ki, F.Köçərli onun haqqında verdiyi məlumatların hamısını Mirzə Sadığın özündən alıb.

Bu etibarlı məlumatlar sonrakı təzkirəçi və tərtibçilər üçün bir söykənəcək olub. M.Tərbiyyətin "Danişməndani-Azərbaycan" (Tərbiyət, 1987: 344), Əziz Dövlətəbadinin "Süxənvərani-Azərbaycan" (Dövlətəbadi, 1377=1988: 579), Pənahi Makulunun "Ədəbi məlumat cədvəli" (Pənahi, 1962: 381), Aybəniz Rəhimovanın "Qulam Məmmədli təzkirəsi" (Rəhimova, 2012: 198) adlı kitablarında Mirzə Sadıq haqqında verdiyi məlumatlar öz qidasını F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları"ndan alıb.

F.Köçərlinin kitabında gəncəli şair Ağaismayıl Zəbihə həsr etdiyi mətndə Mirzə Sadıq Fani haqqında da müəyyən məlumatlar vardır. Bu məlumatlardan aydın olur ki, Zəbihin Mirzə Sadıq Fani ilə mənzum yazışmları olub və müəllimlik fəaliyyətini yüksək qiymətləndirərək onu "pərvəriş verənlərin böyüyü" adlandırıb (Köçərli, 1925: 614).

Mirzə Sadıq Faninin əsərlərinin adlarının müxtəlif illərdə çap olunan kataloqlarda göstərilməsinin də tədqiqatçılar üçün mühüm istiqamətverici əhəmiyyəti olub. Bu katalaqlara onun fars dilində "Əql, bəxt və dövlət" (Sultanov, 1963: 441), "Əmiri-Bəlx və eşqi-pak" (Sultanov, 1963: 441; Naqiyeva, 2007: 69) poemaları, Azərbaycan dilində "Münşəat", (Sulatanov, 1963: 441; Musabəyli, 2018: 326-327), "Kitabçeyi-ədəbiyyə" (Məmmədov, 2008: 210; Xəlilov, Vəliyeva, Eylazov, 2025: 226) adlı nəsr əsərləri və "Xavərnamə" adlı tərcüməsinin (Musabəyli, 2018: 330) qısa biblioqrafik təsviri verilib.

**İlk mənbələrə əsaslanan araşdırmalar.**

Mirzə Sadıq Faninin yuxarıda adı çəkilən əsərlərinin hamısı Bakıda Əlyazmalar İnstitutunda saxlanılır. Həmin institutun elmi işçisi filologiya elmləri namizədi Əkrəm Bağırov "Azərbaycan müəllimi" qəzetində dərc etdirdiyi "Mirzə Sadıq Fani" adlanan məqaləsində (Bağırov, 1986: 4) onun institutda saxlanan əlyazmaları üzərində dayanır. Mirzə Sadıq Faninin "Ağıl, bəxt və dövlət", "Hekayəti-əmiri-Bəlx və eşqi-pak" adlı məsnəviləri haqqında Əlyazmalar İnstitutunun 1963-cü ildə çap etdirdiyi kataloqda məlumat verilsə də, Ə.Bağırov öz məqaləsində həmin əsərlərlə bağlı bəzi yeni faktları diqqətə çatdırır. İlk növbədə müəllif hər iki məsnəvinin məzmunu haqqında təsəvvür yaradır. "Əql, bəxt və dövlət" məsnəvisinin yazılma tarixini kataloqdakından fərqli olaraq 1910-cu il yox, 1894-1895-ci illərə aid edir. Ə.Bağırov Mirzə Sadığın "ellipis şəkilli möhürü" əlyazmasına çəkdiyi iki miniatürü, dəftər vərəqələrinə yazdığı müxtəlif mətnlər və onların məzmunu haqqında verdiyi məlumatlar da yeni və maraqlıdır.

Ə.Bağırovun Mirzə Sadıq Fani haqqında elmi dövriyyəyə ilk dəfə daxil etdiyi bir məlumat isə daha çox diqqəti cəlb edir. Bu, Mirzə Sadığın imam Əlinin yürüşlərinə həsr edilmiş "Xavərnamə" adlı fars dilində olan dastanı Mirzə Sadığın Azərbaycan türcəsinə tərcümə etməsinə aid məlumatın verilməsidir.

Hazırda Mirzə Sadıq Faninin tərcümə etdiyi "Xavərnameyi-türki" adlandırılan kitabın biri 1899-cu (Fani, 1899: VII-333/2513), digəri isə 1910-cu ildə (Fani, 1910: VI-407/2288) çap olunan iki ayrı-ayrı nəşri həmin institutda saxlanılır. Əsərin 1962-ci ildə Murtəza vələdi Kərbəlayi Mirzəli tərəfindən üzü 105 səhifəlik bir dəftərə köçürülən əlyazması isə AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondundadır (Fani, 1962: B-234/397). Murtəza vələdi Kərbəlayi Mirzəlinin yazdığına görə, o bu dastanın üzünü 1912-ci ildə nəşr olunan bir nüsxəsindən köçürüb. Deməli, "Xavərnameyi-türki" 1912-ci ilə aid bir nəşri də var imiş. Çox ehtimal ki, Mirzə Sadıq Faninin özü də həmin ildə həyatda imiş.

Ə.Bağırovdan 26 il sonra 2012-ci ildə Əlyazmalar İnstitutunun elmi işçisi (indi tarix üzrə fəlsəfə doktoru) Aynur Hacıqədirlinin Mirzə Sadıq Faninin həmin institutda saxlanılan və "Münşəat" adlandırılan avtoqraf əlyazmasına həsr olunan məqaləsində isə onun səciyyəvi paleoqrafik xüsusiyyətləri, tərkib hissələrini təşkil edən mətnlərin yazılma tarixləri, səhifələnmə üsulu, həmçinin buraya daxil edilən şeir və hekayələrin mövzu dairəsi, müxtəlif məzmunlu yazışma, məktub, şəxsi qeydlər və digər sənəd nümunələri haqqında müəyyən məlumatlar verilməklə yanaşı, həm də həqiqətə yaxın olan belə bir iddia irəli sürülür ki, "müəllimliklə məşğul olmaq onun ehtiyaclarını ödəmədiyi" üçün "gözəl xəttə malik" olan Mirzə Sadıq "Gəncədə mirzəlik də etmişdir" (Hacıqədirli, 2012: 464).

A.Hacıqədirlinin "Münşəat" haqqında gəldiyi ümumiləşdirilmiş qənaət isə belədir. "Münşəat"la tanışlıq zamanı XIX əsrdə Gəncənin sosial mühiti, əhalisi haqqında, cəmiyyətdəki münasibətlərlə bağlı maraqlı məlumatlar əldə etmək mümükündür (Hacıqədirli, 2012: 465).

Mirzə Sadıq Faninin "Dəftəri-dovvomi-ədəbiyyə" adlı mətbu və sonradan "Münşəat" adlandırılan qeyri-mətbu dərslikləri ilk dəfə olaraq dosent Ağaməmməd Abdullayev tərəfindən tədqiqata cəlb edilib. (Abdullayev, 1958: 97-103). O bu dərsliklərin quruluşu, məzmunu, müəllifinin pedaqoji səriştəsi və səmərəli metodikası haqqında təhlillər aparıb, onların Azərbaycan dilinin tədrisi tarixində rolu və əhəmiyyətini aşkara çıxarıb.

**Son ümumiləşdirilmiş araşdırma işi.**

Mirzə Sadıq Fani haqqında ilk dəfə bir qədər geniş araşdırmaların aparılması keçən əsrin 80-ci illərinə təsadüf edir. Bu araşdırmalar filologiya elmləri namizədi (sonralar elmlər doktoru, professor) Sadıq Şükürova məxsusdur. Onun araşdırmalarının nəticələri 1983-cü ildə çap etdirdiyi

“Mirzə Sadıq Fani” sərlövhəli məqaləsində (Şükürov, 1983: 6) və “Gəncə məktəblərinin tarixindən” (Şükürov, 1990: 208) adlı monoqrafiyasında öz əksini tapıb. Adı çəkilən monoqrafiyada müəllif 1983-cü ildə dərc etdirdiyi məqaləsindəki məlumatları yeni faktlarla bir qədər dolğunlaşdırıb. O, əvvəlcə F.Köçərliyə istinad edərək Mirzə Sadığın tərcümeyi-hal göstəricilərini xatırladır, sonra onların izi ilə gedərək Faninin bəzi şeirlərinə əsaslanıb şairliyini dəyərləndirir, eyni zamanda müasiri şair Ağaismayıl Zəbihlə münasibətlərindən söz açır.

S.Şükürovun 1983-cü ildə “Ədəbiyyat və incəsənət” qəzetində “lakin bütün bunlara baxmayaraq *(nümunə gətirdiyi şeirləri nəzərdə tutur – F.X.)* , Mirzə Sadıq Fani Azərbaycan ictimai fikir tarixində şair kimi deyil, müəllim kimi tanınır” (Şükürov, 1983: 6) yazsa da, bundan yeddi il sonra işıq üzü görən monoqrafiyasında həmin fikri bir qədər dəyişərək “lakin bütün bunlarla yanaşı, Mirzə Sadıq Fani Azərbaycn ədəbiyyatı tarixində bir şair kimi də tanınır” (Şükürov, 1990: 46) yazır.

Müəllifin axırıncı elmi qənaəti “Mirzə Sadığın şairliyi ilə müəllimliyi biri-digərindən üstün deyil” anlamına gəlir ki, bizcə, bu fikir daha doğru və obyektivdir.

S.Şükürov Mirzə

S.Şükürov monoqrafiyasında F.Köçərli, A.Abdullayev və Ə.Bağırovun məlumatlarından istifadə etməklə yanaşı, Mirzə Sadıq haqqında mövcud olan bəzi faktları da elmi dövriyyəyə daxil edib. Məsələn, sən demə Gəncədəki Nizami-Puşkin kitabxanasının (*Hüseyniyyə məscidinin – F.X.*) mehrabının qərb tərəfindəki ərəb və Azərbaycan dillərində yazılan kitabə Mirzə Sadığın xəttilə imiş. “Abidənin divar yazılarının birində isə göstərilir ki, 1320-ci (1902) ildə Mirzə Sadıq Fani abidənin mehrabında bərpa işləri aparmışdır.Bu, sübut edir ki, Mirzə Sadıq Fani XX əsrin birinci onilliyində yaşayırmış. Digər tərəfdən onun memarlıqdan da başı çıxırmış. O, xəttat, memar və şair imiş” (Şükürov, 1990: 45).

S.Şükürovun monoqrafiyasında Mirzə Sadıq Faninyə həsr olunan səhifələr bu istiqamətdə aparılan hələlik son ümumiləşdirilmiş araşdırma işidir.

**Bir yanlışlığa münasibət.**

Mirzə Sadıq Faninin 103 səhifədən ibarət olan dərsliyini ilk dəfə tədqiqata cəlb edən hörmətli professor A.Abdullayev 1958-ci ildə çap etdirdiyi “Azərbaycan dilinin tədrisi tarixindən” adlı monoqrafiyasında həmin əsərin Mirzə Sadıq Əsədulla oğlunun qələminə məxsus olduğunu təxmin edə bilməyib. Onun fikrincə, “bu adam *(Mirzə Sadıq Fani – F.X.)* Məhəmməd ağa Müctəhidzadənin “Riyazül-aşiqin” əsərinin birinci cildində haqqında danışdığı Mirzə Sadıqdır ki, vaxtilə Şuşada müəllimlik etmişdir” (Abdullayev, 1958: 103).

Təəssüf doğuran bir hal da odur ki, professor A.Abdullayevin 8 il sonra çap edilən eyni adlı, lakin təkmilləşdirilmiş monoqrafiyasında bu yanlış iddia təkrar olunur (Abdullayev, 1966: 235).

A.Abdullayevin bu yanlışlığa yol verməsinin əsas səbəbi Mirzə Sadıq Əsədulla oğlunun “Fani” təxəllüsü ilə şeirlər yazmasından xəbərsizliyi və F.Köçərlinin “Azərbaycan ədəbiyyatıtnın tarixi materialları”na müraciət etməməsi olub.

A.Abdullayevin həmin əsəri vaxtilə Şuşada müəllimlik edən Miizə Sadığın yazmasına aid “gümanına” gəlincə isə, bu da həqiqətə uyğun deyil. Çünki elə professorun istinad etdiyi “Riyazül-aşiqin”də verilən məlumatlardan aydın olur ki, əslən şuşalı olan Mirzə Sadıq ixtisasca həkim idi. Tibbi təhsilini Təbrizdə həkimbaşı Mirzə Əbülhəsən və bir alman həkimindən almışdı. Vətəninə qayıtdıqdan sonra... edadi (*o vaxt ibtidai və rüşdiyyə məktəblərindən bir pillə yuxarı oln və şagirdləri ali məktəblərə hazırlayan məktəblər belə adlandırılırdı – F.X.)* müəllimxanasında elmi-

ilahi müəllimliyinə dövlət tərəfindən nəsb və təyin olunmuşdu"dur (Müctəhidzadə, 1328=1910: 243).

İxtisasca həkim olan və fəaliyyəti boyu Azərbaycan dili fənni ilə əlaqəsi olmayan bir şəxsin həmin fənnə aid dərslik yazması ağılabatan deyil.

Gələk haqqında bəhs etdiyimiz dərsliyin Mirzə Sadıq Əsədulla oğlu Faninin qələminə məxsusluğu məsələsinin üzərinə. Bunu sübut etmək üçün uzağa getməyə ehtiyac yoxdur. Elə dərsliyin özündə onun müəllifinin kimliyinə aid çoxlu işarələrin olması fikrimizi əsaslandırmaq üçün kifayətdir: "Mən Mirzə Sadıq Fani ki, neçə illər müəllimlikdə ömürlər sərf edib uşaqlardan ötrü yazmaq və oxumağı dəxi tez və asan dərk etməkdə neçə dəftər yazmışam, o cümlədən bu kitabət dəftərində türki vəfarsi kağızlar yazmaq qaydaların sadə Azərbaycan və Qafqaz dili ilə yazdım" (Fani, 1882-1911: 34) Abdullayev s. 233.

Beləliklə, göstərilən faktlar sübut edir ki, haqqında bəhs edilən dərsliyin müəllifi şuşalı Mirzə Sadıq yox, əslən təbrizli olub uzun illər Gəncədə müəllimlik edən Mirzə Sadıq Əsədulla oğlu Fanidir.

**Nəticə**

Mirzə Sadıq Faninin öyrənilmə tarixi XX əsrin əvvəllərindən başlasa da, burada bir ardıcıllıq olmayıb. Tədqiqatçılar təsadüfdən-təsdfə həmin mövzuya müraciət ediblər. Aparılan araşdırmalar Mirzə Sadıq Faninin bədii və pedaqoji irsini, həmçinin müəllimlik fəaliyyətini tam və sistemli şəkildə əhatə etmir. Fikrimizcə, əldə olan və axtarışlar nəticəsində aşkara çıxarılması ehtimal olunan materiallar bu mövzunun fəlsəfə doktorluğu dissertasiyası səviyyəsində işlənməsinə imkan verə bilər.

**Ədəbiyyat siyahısı**


Abdullayev, A. (1958). *Azərbaycan dilinin tədrisi tarixindən*. Bakı: "Maarif" Nəşriyyatı

Abdullayev, A. (1966). *Azərbaycan dilinin tədrisi tarixindən*. Bakı: "Maarif" Nəşriyyatı

Bağırov, Ə. (1986). *Mirzə Sadıq Fani* // "Azərbaycan müəllimi" qəz., 16 iyul

Dövlətəbadi, Ə. (1377=1988). *Süxənvərane-Azərbaycan*. Celde-dovvom. Təbriz: Enteşərate-"Setude"

Fani, M.S. (1899). *Xavərnameyi-türki.* AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifr: VII-333/2513

Fani, M.S. (1910). *Xavərnameyi-türki.* AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifr: VI-407/2288

Fani, M.S. (1962). *Xavərnamə (üzü 1962-ci ildə Murtəza vələdi Kərbəlayi Mirzəli tərəfindən köçürülən əlyazma).* AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu. Şifr: B-234/397

Fani, M.S. (1882-1911). *Münşəat (əlyazma)*. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Şifr: B-692/II/2311

Hacıqədirli, A. (2012). *Mirzə Sadıq Faninin "Münşəat"ı haqqında bir neçə söz // Filologiya məsələləri*. №6, s.462-466

Xəlilov, F. Vəliyeva, K. və Eylazov, F. (2025). *Naxçıvan Əlyazmalar Fondundakı fars, ərəb və türkdilli əlyazma və çap kitabları kataloqu*. Bakı: "Elm" Nəşriyyatı

Köçərli, F. (1925). *Azərbaycan ədəbiyyatı tarixi materialları*. I cild II hissə. Bakı: Azərnəşr

Köçərli, F. (1926). *Azərbaycan ədəbiyyatı tarixi materialları*. II cild I hissə. Bakı: Azərnəşr

Məmmədov, Ə. (2008). *Əski çap kitabları kataloqu. I cild. Türkdilli kitablar.* Bakı: "Nurlan" Nəşriyyatı

Musabəyli, A. (2018). *Əlyazmalar İnstitutundakı türkdilli əlyazmaların toplu kataloqu. III cild*. Bakı: "Elm" Nəşriyyatı
Müctəhidzadə, M. (1328=1910). Riyazül-aşiqin. "Qarabet" mətbəəsi
Naqiyeva, Dj. (2007). *Kataloq persidskix rukopisey*. Tom III. Baku: İzdatelstvo "Nurlan"
Pənahi, M. (1962). *Ədəbi məlumat cədvəli (on məşhur Şərq mənbəyi əsasında)*. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı
Rəhimova, A. (2012). *Qulam Məmmədli təzkirəsi*. Bakı: "Elm və təhsil" Nəşriyyatı
Sultanov, M. (1963). *Əlyazmaları kataloqu*. *I cild*. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı
Şükürov, S. (1983). Mirzə Sadıq Fani // "Ədəbiyyat və İncəsənət" qəz., 6 may
Şükürov, S. (1990). Gəncə məktəblərinin tarixindən. Bakı: "Maarif" Nəşriyyatı
Tərbiyət, M. (1987). *Danişməndani-Azərbaycan*. Bakı: Azərnəşr

**Könül Bağırova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: bagirova.konul@yahoo.com*
*ORCİD: 0009-0004-3064-1404*

# "QILINC VƏ QƏLƏM" ROMANININ TEKSTOLOJİ VƏ FİLOLOJİ ASPEKTLƏRİ

**Xülasə**

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda görkəmli yazıçı M.S.Ordubadinin 1091 saxlama vahidindən ibarət 14 saylı şəxsi arxivi mühafizə edilir. Yazıçının zəngin yaradıcılıq nümunələri, o cümlədən bir çox roman, povest, hekayələrinin orijinal əlyazma qaynaqları zaman-zaman çap edilmişdir. Məqalədə "Qılınc və qələm" əsərinin avtoqraf nümunəsinin birinci hissəsi fərqli illərin nəşr variantları ilə müqayisəli şəkildə təhlil edilərək təqdim edilmişdir. Araşdırma prosesində müxtəlif nəşrlərdə mətnin strukturunda, ifadə tərzində və leksik seçimlərdə təzahür etmiş bəzi fərqliliklər, eləcə də redaktə müdaxilələri nəticəsində məzmun çalarlarında qismən dəyişikliklər müşahidə olunmuşdur. Aşkarlanmış fərqliliklər sistemli şəkildə qruplaşdırılaraq müxtəlif başlıqlar altında sadalanmışdır. Nəticə olaraq, Ordubadinin yaradıcılığının sistemli şəkildə nəşri və tədqiqi onun ədəbi irsinin elmi dövriyyədə daha dolğun təqdim olunmasına şərait yaratmışdır. Bu baxımdan yazıçının əsərlərinin nəşr tarixi və mətnşünaslıq xüsusiyyətlərinin araşdırılması Azərbaycan ədəbiyyatı üçün aktual istiqamətlərdən biri hesab edilə bilər. Onun zəngin yaradıcılıq yolu həm bədii-estetik, həm də mətn prinsipləri baxımından çoxqatlı tədqiqat imkanları açır və gələcək araşdırmalar üçün geniş perspektivlər yaradır.

Qeyd etmək lazımdır ki, digər yazıçıların yaradıcılıq nümunələrinin tədqiqində müşahidə olunduğu kimi, M.S.Ordubadi irsinin təhlili zamanı da məlum olur ki, əgər əsər yazıçının sağlığında nəşr edilibsə mətn və nəşr nümunələrinin müqayisəsi zamanı ciddi qüsurlara daha az təsadüf edilir.

***Açar sözlər:*** *əlyazma, nəşr, avtoqraf, arxiv, roman*

# TEXTUAL AND PHILOLOGICAL ASPECTS OF THE NOVEL "THE SWORD AND THE PEN"

**Abstract**

The personal archive of the prominent writer M.S. Ordubadi (Archive No. 14, comprising 1,091 items) is housed at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Original manuscript versions of the writer's rich body of work—including numerous novels, novellas, and short stories—have been published over time. This article presents a comparative analysis of the first part of the autograph manuscript of the work "The Sword and the Pen" alongside its published versions from various years. The study reveals differences in text structure, phrasing, and lexical choices across editions, as well as subtle shifts in content nuances resulting from editorial interventions. These identified differences have been systematically categorized and listed under various headings. Ultimately, the systematic publication and study of Ordubadi's work have facilitated a more comprehensive presentation of his literary legacy within the scholarly community. In this context, investigating the publication history and textual characteristics of the

writer's works constitutes a significant area of research in Azerbaijani literature. His rich body of work opens up opportunities for multifaceted research—encompassing both artistic-aesthetic and textual principles—and creates broad prospects for future studies. It is worth noting that, as observed in the study of works by other writers, the analysis of M.S. Ordubadi's legacy reveals that when a work was published during the author's lifetime, fewer significant discrepancies are encountered upon comparing the text with the published editions.
***Key words:*** *manuscript, publication, autograph, archive, novel*

Məmməd Səid Ordubadi XX əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri olaraq, yaradıcılığında tarixi-realist roman ənənələrinə əsaslanmış və milli şüurun formalaşmasında mühüm rol oynamışdır. Yazıçı bədii nəsr irsində Azərbaycan klassik və müasir ədəbiyyat ənənələrini uğurla birləşdirərək tarixi mövzuları realist üslubda təqdim etməsi ilə fərqlənir. Azərbaycan ədəbiyyatının çoxşaxəli inkişaf mərhələsində zəngin yaradıcılıq yolu keçmiş sənətkarlardan biri olaraq onun ədəbi fəaliyyəti müxtəlif janrların paralel inkişafı ilə səciyyələnir. Əsasən tarixi roman janrına üstünlük verən yazıçının əsərləri bu gün də aktuallığını itirməyən sənət nümunələridir. "Tarixi roman tarixdə həlledici əhəmiyyətə malik dönüş nöqtəsi olan konkret hadisələr, xalqın taleyində böyük rol oynamış real tarixi şəxslər, mənbələr və sənədlər əsasında qələmə alınmalıdır. Həm də tarixi inkişafın müəyyən dövrü üçün olub-bitmiş hadisələr əks edilməli, janrın fəlsəfi əsası kimi tarixilik prinsipi gözlənilməli və təsvir olunan dövrün koloriti verilməlidir" (Axundlu, 2005:30). Yazıçının yaradıcılıq təkamülü erkən publisistik yazılardan başlayaraq tarixi roman, dram və nəsr nümunələrinə qədər geniş bir istiqaməti əhatə etmişdir. "Məmməd Səid Ordubadi orta əsrlər Azərbaycan ədəbiyyatı nümayəndələrinin həyat və fəaliyyəti ilə yanaşı yaşadığı dövrün ədəbi hadisələrini də təhlil süzgəcindən keçirmiş, müxtəlif mövzuları əhatə edən məqalələr qələmə almışdır" (Ordubadi, 2022:8). Yazıçının əsərlərində milli kimliyin, azadlıq ideallarının və ictimai ədalət məsələlərinin önə çıxarılması onun ədəbiyyat tarixində xüsusi mövqe tutmasına səbəb olmuşdur. M.S.Ordubadinin yaradıcılıq irsi yalnız oxucu marağını cəlb etməsi ilə hüdudlanmır, həm də Azərbaycan ədəbiyyatının inkişaf tarixinin elmi təhlilində əsas mənbə rolunu oynayır.

Ustad sənətkarın müxtəlif dövrlərdə qələmə alınmış əsərlərinin nəşrə hazırlanması prosesləri mərhələli şəkildə həyata keçirilmiş, ayrı-ayrı illərdə tədqiqatçılar və redaktorlar tərəfindən mətnlərin yenidən işlənməsi və sistemləşdirilməsi aparılmışdır.

Ordubadi irsinin yorulmaz tədqiqatçılarından biri də ədəbiyyatşünas alim Nailə xanım Səmədovadır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunda M.S.Ordubadinin zəngin şəxsi arxivində qorunan avtoqraf nümunələri müxtəlif dönəmlərdə müasir əlifbaya çevirən alim əlyazma nümunələrini geniş oxucu kütləsinə gərgin zəhməti sayəsində təqdim edə bilmişdir. Yazıçının institutun xəzinəsində saxlanıldığı materialları ilk dəfə olaraq fərqli zaman kəsiklərində 2002, 2008, 2013, 2020, 2021 və 2022-ci illərdə müasir əlifbaya transfoneliterasiya olunaraq nəşr olunmuş, həmçinin "Məmməd Səid Ordubadi memuarı: həyatım və mühitim" adlı monoqrafiya da dərc edilmişdir. (Səmədova, 2022). Ümumiyyətlə yazıçının ədəbi-bədii irsi demək olar ki, bütöv bir şəkildə işlənərək müxtəlif istiqamətlərdə araşdırılmış, yaradıcılığı ictimaiyyətə tam şəkildə çatdırılmışdır. Sevindirici haldır ki, bəzi müasirlərindən fərqli olraq, ədibin əlyazılarına etinasız yanaşılmamış müxtəlif illərdə əsərləri təkrar nəşrlərə sövq edilmişdir. Yazıçının tarixi romanlarından sonuncusu olan böyük Azərbaycan şairi Nizami Gəncəvinin yazıb yaratdığı dövrün ümumi mənzərəsini ehtiva edən "Qılınc və qələm" əsəri bir neçə dəfə nəşrlərə cəlb edilmişdir. Əsər yazıçının sağlığında və vəfatından sonra həm kiril, həm də latın qrafikasında ictimaiyyətə

təqdim edilmişdir. Nümunə olaraq, yazıçının sağlığında 1946, 1948, 1949-cu illər nəşrlərini, vəfatından sonra isə 1957, 1966, 1983, 2005, 2013, 2021 ci illər buraxılışlarını, həmçinin rus dilində 1963, 1976-cı illər kitablarını qeyd etmək olar.

Yazıçıların bədii nəsr irslərinin çap tarixçələri göstərir ki, bir çox hallarda mətnlərin dil xüsusiyyətləri və orfoqrafiyası dövrün norma tələblərinə uyğunlaşdırılmışdır. Bəzi hallarda isə əsərlərin elmi prinsiplərlə nəşrə hazırlanması zamanı əlyazma variantları ilə çap mətnləri arasında müqayisələr aparılmış, fərqli oxunuşlar müəyyənləşdirilmişdir. Bu cür filoloji yanaşma müəllif mətninin orijinallığının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Elmi-tənqidi nəşrlərin hazırlanması zamanı şərhlər, izahlar və qeydlər vasitəsilə mətnin tarixi-mədəni konteksti də açıqlanmışdır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinələrində mühafizə edilən əlyazmalar qeyd edilən qüsurların aradan qaldırılması üçün dəyərli mənbələrdir. Yazıçının şəxsi arxivində qeydiyyata alınan "Qılınc və qələm" romanının müxtəlif hissələri saxlama vahidi 2-dən saxlama vahidi 14-ə qədərdir. Əsər Azərbaycan dilində ərəb əlifbasında avtoqraf nümunədə 13 hissədən ibarətdir. Hər bir qovluqdakı materialların sayı isə təqribən 100 vərəq və bir qədər də çoxdur. Həcminə görə zəngin olan əsərin hər bir hissəsinin ayrıca təhlili mətnşünaslar üçün müəyyən problemlər yaratsa da, əlyazma nümunəsində olan bəzi hissələrin mətbu nümunələrə salınmaması və yaxud müəyyən təhrif, əlavələrlə daxil edilməsi avtoqraf nümunələrə yenidən qayıtmaq zərurətini yaradır. Tədqiqatda yazıçının həm sağlığında həm də vəfatından sonra nəşr edilmiş kitablarla arxivində saxlanılan romanın yalnız birinci hissəsi müqayisə edilmiş və əldə edilmiş nəticələr sadalanmışdır.

*Cümlə və ya ifadə dəyişiklikləri:* "Bu şadlığı dərin bir kədərlə qarşılayırdı" (Ordubadi,1) - "Bu şadlığı dərin bir kədər kimi qarşılayırdı" (Ordubadi, 2005:15), (Ordubadi, 1946:3); "Ağ Süngər Əhmədin əlində idi" (Ordubadi,1) -"Ağ Süngər Əhmədin əlində qalmışdı" (Ordubadi, 2005:15), (Ordubadi, 1946:3); "Atabəy Məhəmməd Azərbaycanın xüsusən onun mühüm bir hissəsi sayılan aran xalqını səfərbərliyə alıb Təbriz və Marağanı qurtarmaq üçün müharibə aparırdı" (Ordubadi,1) - "Atabəy Məhəmməd azərbaycanlıları, xüsusən aranlıları, səfərbərliyə alaraq Təbrizlə Marağanı qurtarmaq üçün uzunmüddətli bir müharibə təşkil etmişdi" (Ordubadi, 2005:1), (Ordubadi, 1946:3); "O, Marağa və Təbrizi ələ keçirəndən sonra bütün ölkələrə qasidlər göndərib öz qələbəsini bayram etmək üçün elan vermişdi" (Ordubadi, 1) -"Atabəy Məhəmməd Marağa və Təbrizi alandan sonra şəhərlərə qasidlər göndərib rəiyyətlərinə böyük qələbənin xəbərini elan edirdi" (Ordubadi, 2005:15), (Ordubadi, 1946:3); "Nə də ölənlərdən danışmağa imkan yox idi" (Ordubadi, 2) -"Nə də ölənlərdən danışmağa imkan var idi" (Ordubadi, 2005:15), (Ordubadi, 1946:3); "Ərəb-fars nüfuzu artmaqdadır" (Ordubadi, 3) -"Ərəb-fars nüfuzu çoxalmaqdadır" (Ordubadi, 2005:16), (Ordubadi, 1946:4); "Gəncə Xətibinin intizarını çəkirdi" (Ordubadi, 3) - "Gəncə Xətibinin gəlməsini gözləyirdi" (Ordubadi, 2005:16, (Ordubadi, 1946:4); "Yanında danışma" (Ordubadi, 4) - "Yanında demə" (Ordubadi, 2005:17), (Ordubadi, 1946:4); "Fəxrəddin təəccüblə ona sual verdi" (Ordubadi, 4) - "Fəxrəddin təəccüblə soruşdu" (Ordubadi, 2005:17), (Ordubadi, 1946;4); "Lakin onu bilməlisən" (Ordubadi, 4) - "Elə isə onu bilməlisən ki" (Ordubadi, 2005:17), (Ordubadi, 1946:5); "Səncər camiyəsinə daxil oldular" (Ordubadi, 5) - "Səncər məscidinə daxil oldular" (Ordubadi, 2005:17), (Ordubadi, 1946:5); "Çox fəna təsir bağışladı" (Ordubadi, 5) - "Çox pis təsir bağışladı" (Ordubadi, 2005:18), (Ordubadi, 1946:5); "Ağzını İlyasın qulağına söykəyib" (Ordubadi, 6)-"Ağzını İlyasın qulağına uzadıb" (Ordubadi, 2005:18), (Ordubadi, 1946:5); "Bir hörmətsizlik kimi məna edildi" (Ordubadi, 6) - "Bir hörmətsizlik kimi nümayiş edildi" (Ordubadi, 2005:18), (Ordubadi, 1946:5); "Oxunan rübailərin

hər bir kəlməsini və çalınan udun hər bir həzin pərdəsini eşitmək üçün əhali bütün diqqətini səfərbər etmişdi" (Ordubadi, 7) - "Oxunan rübailərin hər bir kəlməsini və çalınan udun naləsini eşitmək mümkün idi" (Ordubadi, 2005:19), (Ordubadi, 1946:6); "Onu öz ruhunda həzm etmək üçün bütün varlığını öz qulaqlarında səfərbərlik etmişdi" (Ordubadi, 7) - "Onu öz ruhunda həzm etmək üçün bütün varlıqları ilə qulaq asırdılar" (Ordubadi, 2005:19), (Ordubadi, 1946:6); "Fahişədir, kafirdir" (Ordubadi, 9) - "Kafirdir, ədəbsizdir" (Ordubadi, 2005:20), (Ordubadi, 1946 :7); "Biz onlara rəhbərlik edərsək onlar da tez üsyan dəstələrinə qoşula bilər" (Ordubadi, 11) - "Biz onlara rəhbərlik etmiş olsaq, onlar üsyana tez qoşula bilərlər" (Ordubadi, 2005:21), (Ordubadi, 1946:7); "İlyas bir az düşünərək danışdı" (Ordubadi, 11) - "İlyas bir az düşünərək dedi" (Ordubadi, 2005:21), (Ordubadi, 1946:7); "Şəmsəddin ibn Süleyman bizim daşıdığımız fikri daşıyan bir gəncdir" (Ordubadi, 12) -"Şəmsəddin İbn Süleyman bizimlə həmfikir bir gəncdir" (Ordubadi, 2005:22), (Ordubadi, 1946:8); "İlyas evə qayıdıb paltarını geymək istədikdə" (Ordubadi, 22) - "İlyas evə gedib paltarını dəyişmək istərkən" (Ordubadi, 2005:22), (Ordubadi, 1946:9); "Pir Osman məhəlləsinə gedirdilər" (Ordubadi, 14) - "Pir Osman məhəlləsinə tərəf yollandılar" (Ordubadi, 2005:22), (Ordubadi, 1946:9); "Qəliz toz təbəqələri məhəllənin ətrafını bürümüşdü" (Ordubadi,14) - "Toz məhəllənin ətrafını bürümüşdü" (Ordubadi, 2005:23), (Ordubadi, 1946:9); "Onlar tükləri bir-birinə qarışmış bir qadını" (Ordubadi, 14), (Ordubadi, 1946:9) -"Onlar saçları bir-birinə qarışmış bir qadını" (Ordubadi, 2005:23); "Əmir İnanc Gəncə çayına hakim olan uca köşkündə oturub arxasını yumşaq balışlardan ibarət bağlamaya söykəmişdi" (Ordubadi, 18) - " Əmir İnanc Gəncə çayına hakim olan uca köşkündə oturub dalını yumşaq balışlara söykəmişdi" (Ordubadi, 2005:24), (Ordubadi, 1946:10); "Anam da mən körpə ikən vəfat etmişdir" (Ordubadi, 26) -""Anam da mən körpə ikən ölmüşdür" (Ordubadi, 2005:29), (Ordubadi, 1946:14); "Sanki o gözləmədiyi bir hadisənin qarşısında durmuşdu" (Ordubadi, 30) -"Sanki onu amansız bir hadisə gözləyirdi" (Ordubadi, 2005:32), (Ordubadi, 1946:16); "Bir o qədər də şairin məharət və sənətkarlığı ilə bağlıdır" (Ordubadi, 35) - "Bir o qədər də şairin məharət və sənətkarlığı ilə əlaqədardır" (Ordubadi, 2005:34), (Ordubadi, 1946:19); "Dediklərini təsdiq edərək əlavə etdi" (Ordubadi, 35) - "Söylədiklərini təsdiq edərək dedi" (Ordubadi, 2005:35), (Ordubadi, 1946:19); "Çünki bu nəğmələr Əmirinin qadınının və yaxud qızının meşə səyahətinə çıxdığını bildirirdi" (Ordubadi, 47) - "Bu nəğmələr Əmirinin arvadının və yaxud qızının meşə səyahətinə çıxdığını bildirirdi" (Ordubadi, 2005:41), (Ordubadi, 1946:24); "Hüsaməddini diqqətlə eşidirdi" (Ordubadi, 61) - "Hüsaməddini diqqətlə dinləyirdi" (Ordubadi, 2005:50), (Ordubadi, 1946:32); "Lakin Hüsaməddinin bir saatdan bəri ortalığa savurduğu məsələlərin heç birisi Qətibəyə eşidilməmiş məsələ deyildi" (Ordubadi, 61) - "Lakin Hüsaməddinin bir saatdan bəri ortalığa atdığı məsələlərin heç birisi Qətibənin eşitməmiş olduğu məsələ deyildi" (Ordubadi, 2005:50), (Ordubadi, 1946:32); "Ancaq mənim babamın qılıncları nəticəsində" (Ordubadi, 63) -"Ancaq mənim babamın qılıncı sayəsində" (Ordubadi, 2005:52), (Ordubadi, 1946:33); "Həddindən artıq sərxoş idi" (Ordubadi, 76) - "Həddindən artıq içmişdi" (Ordubadi, 2005:58), (Ordubadi, 1946:39); "Yenə Şərqdə vücuda gələn siyasi hadisələrin incəliklərini" (Ordubadi, 85) - "Yenə Şərqdə baş verən siyasi hadisələrin incəliklərini" (Ordubadi, 2005:64), (Ordubadi, 1946:44); "Qorxu altında qoymuşdu" (Ordubadi, 85) - "Qorxu altına salmışdı" (Ordubadi, 2005:64), (Ordubadi, 1946:44); "Bunun üçün də fürsətdən istifadə edən qonşular" (Ordubadi, 100) - "Fürsətdən istifadə edən əcnəbilər" (Ordubadi, 2005:73), (Ordubadi, 1946:5); "Dəh kəz kəfən" (Ordubadi, 7) - "Yek kəz kəfən" (Ordubadi, 2005:19), (Ordubadi, 1946:6).

*Əlyazmadan ifadə ixtisarları:* "Buna görə də xalq cəbhədən qayıdan qalibləri qarşılamaq üçün küçələrə çıxmışdı" (Ordubadi, 1) - "Xalq cəbhədən qalib bir surətdə qayıdan ordunu

qarşılamaq üçün küçələrə çıxmışdı" (Ordubadi, 2005:15), (Ordubadi, 1946:3); "Bu ev məşhur şairə Məhsəti xanımın evidir" (Ordubadi, 9) - "Bu ev məşhur şairə Məhsəti xanımındır" (Ordubadi, 2005:19), (Ordubadi, 1946:7); "Qarşısına çıxmaq siyasi savadsızlıqdır" (Ordubadi, 11) - "Qarşısına çıxmaq savadsızlıqdır" (Ordubadi, 2005:21), (Ordubadi, 1946:8); "Fəxrəddin ağızucu olaraq dedi" (Ordubadi, 13) - "Fəxrəddin ağızucu dedi" (Ordubadi, 2005:22), (Ordubadi, 1946:8); "Səncər camiyəsinin minarəsindən "Allahu Əkbər" səsi eşidildiyi zaman Əmir İnanc da özünü düzəltdi və "Allahu Əkbər Kəbirən Kəbira"dedi" (Ordubadi, 18) - "Sultan Səncər cameəsinin minarəsindən "Allahu Əkbər" səsi eşidildi və "Allahu əkbər kəbirən kəbira" dedi" (Ordubadi, 2005:24), (Ordubadi, 1946:10); "Əmir İnanc öz əyanları ilə bərabər qalxıb fəvvarəli hovuzun kənarında" (Ordubadi, 18) - "Əmir İnanc qalxıb fəvvarəli hovuzun kənarında" (Ordubadi, 2005:24), (Ordubadi, 1946:10); "Xidmətçi qadın içəri girdi" (Ordubadi, 19) -"Xidmətçi içəri girib" (Ordubadi, 2005:25), (Ordubadi, 1946:11); "Atabəy Məhəmmədin atabəyliyə təsdiq edilməsini" (Ordubadi, 30) - "Atabəy Məhəmmədin təsdiq edilməsini" (Ordubadi, 2005:32), (Ordubadi, 1946:16); "Öz ögəy oğlu Toğrulun atabəyliyində vəzifəsini əlinə almış Şəmsəddin Eldəniz təzə ölmüşdü" (Ordubadi,1) -"Azərbaycan hakimi Şəmsəddin Eldəniz təzəcə ölmüşdü" (Ordubadi, 2005:15), (Ordubadi, 1946:3).

*İfadələrin yerdəyişməsi:* "Bu iki yoldaş Gəncə mühitini titrədən bu süni şadlığı görüncə ürəklərində Atabəy Məhəmməd və onun Gəncə hakimi Əmir İnanca qarşı dərin bir nifrət bəsləyirdilər" (Ordubadi, 2) - "Gəncə mühitini titrədən bu süni şadlığı görüncə bu iki yoldaşın ürəyində Atabəy Məhəmmədə və onun Gəncə hakimi Əmir İnanca qarşı dərin bir nifrət oyandı" (Ordubadi, 2005:16), (Ordubadi, 1946:4).

*Əlyazmaya söz əlavələri:* "Boğazdan yuxarı yaşasın deyən xalqın içərisində bir nəfər də olsa xoşbəxt olan və Atabəy Məhəmmədin xoşbəxt olmasını istəyən adam göstərə bilrsənmi?" (Ordubadi, 3) - "Sən mənə, bogazdan yuxarı "yaşasın" deyən bu xalqın içərisində bir nəfər də olsa xoşbəxt olan və Atabəy Məhəmmədin xoşbəxt olmasını istəyən adam göstərə bilərsənmi?" (Ordubadi, 2005:16), (Ordubadi, 1946:4); "Qapı bərkdən vuruldu" (Ordubadi, 22) - "Birdən qapı bərk döyüldü" (Ordubadi, 2005:22), (Ordubadi, 1946:8); "Allahı xatırlayaraq gözəl rəqqasələrin qədəmləri dəyən" (Ordubadi, 18) - "Namaz qılanlar Allahı xatırlayaraq gözəl rəqqaəslərin qədəmləri dəyən" (Ordubadi, 2005:24), (Ordubadi, 1946:11).

Əsərin əlyazma nüsxəsilə qarşılaşdırılması zamanı müəyyən edilmişdir ki, 1946-cı il nəşrində səhifə 16-da, 2005-ci il nümunəsində səhifə 31-də dərc edilmiş "Bahar" başlıqlı hissədə müəyyən cümlələr var ki, orijinal nüsxədə bu fikirlərə təsadüf olunmur. Ehtimal ki, müəllif bu hissələri əlyazmaya daxil etməsə də, nəşrə gedən zaman kitab nümunəsinə əlavə etmişdir.

*Nəşrlərdən yayınmış cümlələr:* "Nəhayət Əmir İnanc əsgərləri və nökərləri müridlərin köməyinə gəldi. Qanlı vuruşma başlandı. Atabəy Məhəmmədin qələbə bayrağı Gəncə xalqının üsyan bayramına çevrildi. Üsyan və vuruşmalar üç gün üç gecə dəvam etdi" (Ordubadi, 10) – (Ordubadi, 2005:20), (Ordubadi, 1946:7); "Vəziyyət onun müridlər tərəfindən şiddətlə döyüldüyünü göstərirdi" (Ordubadi, 14) – (Ordubadi, 2005:23), (Ordubadi, 1946:9); "Kəmanın səsi və udun pərdələri sakit oldu" (Ordubadi, 18) – (Ordubadi, 2005:24), (Ordubadi, 1946:10).

*İfadələrin tərcümələri ilə əvəzlənməsi:*

"Təntənə ilə gedən bu dəstə hökumət sarayına getmək üçün yaxın bir yol intixab etməyə məcbur idi" (Ordubadi,7) - "Təntənə ilə keçən bu dəstə hökumət sarayına getmək üçün yaxın bir yol seçməyə məcbur idi" (Ordubadi, 2005:18), (Ordubadi, 1946:6).

M.S.Ordubadinin "Qılınc və qələm" romanının tekstoloji tədqiqi göstərir ki, əsərin ideya-məzmun bütövlüyü yalnız bədii-estetik çərçivədə deyil, həm də mətnin formalaşma tarixi və

redaktə mərhələləri kontekstində dərk olunmalıdır. Romanın müxtəlif nəşrləri və variantları arasındakı fərqlər müəllifin yaradıcılıq fəaliyyətini, mətn üzərində aparılan redaktələrin istiqamətini və ideya yükünün dəqiqləşdirilməsi prosesini üzə çıxarır. Bu baxımdan tekstoloji təhlil yalnız texniki müqayisə xarakteri daşımır, həm də əsərin semantik qatlarının açılmasına müəllif mövqeyinin daha dolğun anlaşılmasına xidmət edir. Nəsr əsərlərinin elmi-tənqidi mətnlərinin hazırlanması və variantlarının sistemli şəkildə öyrənilməsi yazıçıların yaradıcılıqlarının daha etibarlı və akademik əsaslarla təqdiminə imkan yaradaraq mətnşünaslıq və ədəbiyyatşünaslıq tədqiqatları üçün möhkəm nəzəri baza formalaşdırır.

**Ədəbiyyat siyahısı**

Axundlu, Y. (2005). Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930-2000). Bakı: Adiloğlu nəşriyyatı.
Ordubadi, M.S. Qılınc və qələm. I hissə. – AMEA ƏYİ, f.14, s.v.2.
Ordubadi, M.S. (1946). Qılınc və qələm. Bakı: Azərnəşr.
Ordubadi, M.S. (2005). Qılınc və qələm. I hissə. Bakı: Şərq-Qərb nəşriyyatı.
Ordubadi, M.S. (2022). Ədəbiyyatımız haqqında. (Məqalələr toplusu – III kitab). Bakı: Elm nəşriyyatı.
Səmədova, N. (2022). Məmməd Səid Ordubadi memuarı: Həyatım və mühitim. Bakı: Elm və təhsil nəşriyyatı.

**Gülər Abdullayeva**
*Bakı Türk Anadolu liseyi*
*Filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: guler32114@gmail.com*
*ORCİD: 0000-0003-1879-0226*

# "RUHNAMƏ"DƏN DOĞAN "HÜSN VƏ EŞQ"

**Xülasə**

Öz dövrünün fövqündə dayanan Məhəmməd Füzuli əsərlərindən bəhrələnmə ənənəsi XIX yüzilliyin əvvəlinə qədər davam etmiş, Türk xalqları ədəbiyyatında samballı əsərlərin meydana gəlməsinə səbəb olmuşdur. Bu bədii əlaqə və təsir ən çox da Osmanlı ədəbiyyatında bariz şəkildə görülür. Məhəmməd Füzulinin davamçılarından olan Şeyx Qalib iki əsr sonra şairin yaradıcılığına müraciət edərək "Hüsn və Eşq" kimi dəyərli bir əsər yazmışdır. "Hüsn və Eşq" istər mövzu, məzmun, ideya, alleqorik süjetə xəttinin olması baxımından, istərsə də bədii təsvir və ifadə vasitələrindən istifadə baxımından dahi sənətkar Füzulinin "Səhhət və Mərəz" əsərini xatırladır. Təsəvvüf ədəbiyyatının görkəmli şəxsiyyətlərindən olan Şeyx Qalib davamçısı olduğu dahi sənətkarın ənənəsinə sadiq qalaraq qələmə aldığı "Hüsn və Eşq" əsərində təsəvvüf fəlsəfəsinin incəliklərinə toxunmuş, ustadı Füzuli kimi təsəvvüf ədəbiyyatı şairləri içərisində öz imzasını ata bilmişdir.

***Açar sözlər:*** *Şeyx Qalib, M.Füzuli, "Səhhət və Mərəz", "Hüsn və Eşq", təsəvvüf*

# "HUSN AND ESHQ" BORN FROM "RUHNAMEH"

**Abstract**

The tradition of benefiting from the works of Muhammad Fuzuli, who stood above his time, continued until the beginning of the 19th century, and led to the emergence of works with a similar meaning in the literature of the Turkic peoples. This artistic connection and influence are most clearly seen in Ottoman literature. Sheikh Ghalib, one of the followers of Muhammad Fuzuli, turned to the poet's work two centuries later and wrote a valuable work called "Husn and Love". "Husn and Love" reminds the work of the great artist Fuzuli "Health and Disease" in terms of its theme, content, idea, allegorical plot line, as well as the use of artistic imagery and means of expression. Sheikh Ghalib, one of the prominent figures of Sufi literature, remained faithful to the tradition of the great artist he followed and touched upon the subtleties of Sufi philosophy in his work "Husn and Love" and, like his master Fuzuli, was able to leave his mark among the poets of Sufi literature.

***Key words:*** *Sheikh Galib, M.Fuzuli, "Sahhat and Maraz", "Husn and Eshq", mysticism*

## Giriş

Hər ədəbi dövrün məhəng daşı olan, yaradıcılığı ilə ədəbiyyata möhürünü vurmuş, özünü təsdiq etmiş sənətkarları, unudulmaz şəxsiyyətləri var. XVI əsrin belə söz xiridarlarından biri də Məhəmməd Füzulidir. Məhəmməd Füzuli qələmə aldığı əsərləri ilə Azərbaycan ədəbiyyatı tarixində ən parlaq şəxsiyyət olmuş və özünə əbədiyyət qazanmışdır. Yazdığı əsərlərdə dövrün aktual problemlərinə, dini-fəlsəfi, ictimai-siyasi məsələlərinə toxunan dahi sənətkarın söylədiyi fikirlər, gündəmə gətirdiyi mövzular təkcə o dövr üçün deyil, müasir dövrümüz üçün də önəm

daşıyır. Azərbaycanın dəyərli elm xadimlərindən professor Əlyar Səfərlinin sözləri ilə desək: *"Özündən əvvəlki Şərq mədəniyyətinin ən yaxşı ənənələri əsasında tərbiyələnən sənətkar özündən sonrakı ədəbiyyata güclü təsir göstərmişdir. Əsrlər boyunca şairlər Füzulini ötmək yox, ona yaxınlaşmaqla fəxr etmişlər"* ( Füzuli, 2005:22).

**Əsas mətn**

M.Füzuli "Səhhət və Mərəz" əsərini yazarkən Teymurilər dövləti zamanında yaşamış tanınmış farsdilli şair Fəttahi Nişapurinin (... ö. 1448) fars dilində qələmə aldığı "Hüsnü del" ("Gözəllik və ürək") əsərindən təsirləndiyi məlumdur. "Səhhət və Mərəz" əsərini şair həm də "Ruhnamə" adlandırmış, Ruhun eşq vasitəsilə özünütərbiyə yolu ilə həqiqətə yüksəlməsini sufizm fəlsəfəsi ilə yoğrulmuş düşüncə zəminində mənalandırmışdır.

"Səhhət və Mərəz" əsərini şair Orta əsrlər ənənəsinə uyğun olaraq *"Hədsiz şükür bədən bağçasını can suyu ilə bəsləyib, hüsnü eşq məzhəri, eşqi də hüsnün zinəti edən tək Allaha layiqdir. Saysız salam elmi əqlə bəzək, əqlə elmi sərmayə olan bir inanılmışa yaraşır"* (Füzuli, 2005:65) şəklində Allaha sonsuz şükürlə başlayır. Hadisələrin əsas hissəsində Cəbərut (əzəmət) aləmində doğulan Lahut (ilahilik) fəzasının sakini olan Ruhun Nasut ( insan) aləminə qədəm basmasından söhbət açılır. Bu aləm Mizac (sağlamlıq) adlı bir qıza məxsus idi. Ruh bu aləmdə gəzərkən bədəndə Qan, Səfra, Bəlğəm və Sevda adlanan dörd qardaşın varlığını öyrənir. Bədən diyarını sevir, bu diyarın sahibi Mizacla evlənir və onların Səhhət adlı övladları olur. Ruh Mizac və Səhhətin köməyi ilə bədən mülkündə Dimağ qalasını, Ciyər və Ürək şəhərlərini gəzir.

Ürək mülkündə məclis qurub Sevda, Qan, Bəlğəm və Səfranı dəvət edir. *"Sevda dalaqda yerləşdi, Səfra öd (kisəsinə) doğru yönəldi. Qan (qara) ciyərdə yurd saldı, Bəlğəm ağ ciyərdə qərar tutdu"* (Füzuli, 2005:67). İfrat şəkildə yeyib içmələri bunlar arasında mənəm-mənəmlik iddiasının baş qaldırmasına səbəb oldu. Hər kəs özünü tərifləyib bədən mülkünün onsuz yaşaya bilməyəcəyindən dəm vurdu. Ruh bu halı görüb oradan uzaqlaşdı. Sevda, Səfra, Bəlğəm və Qanın birliyi pozulduğundan Səhhətin halı pisləşdi. Ədavət dövrəyə girdi, Bədən mülkü zəiflədi, Mərəz başladı. Ruh Səhhəti Hüsn( Gözəllik), Eşq və Əqli köməyə çağırmaq üçün göndərdi. Hüsn Eşq və Əql olmayan yerə, Eşq isə Hüsnə aşiq olduğundan Hüsn olmayan yerə getməyəcəyini söylədi. Əql mərhəmət edib Ruha yardım edəcəyinə razılıq verdi. Ruh qarşılaşdığı hər çətinliyi Əqlin yardımı ilə dəf etdi. Ruh bu mübarizədə uzun bir yol qət edib kəmali-əzəmətə çatdı. Hüsn dostu Fərəhin təkidi ilə Ruhla tanışlığı qəbul etdi. Fərəh Ruhun Əqllə yoldaş olduğunu, ona yaxınlaşmanın asan olmayacağını Hüsnə bildirdi. Amma o bildiyi bir əfsunu oxumaqla Ruhu ələ ala biləcəyini söylədi. Ruh Hüsnün gözəlliyi qarşısında aciz qaldı, Eşqə tutuldu. Əql getdi, Eşq Ruhun yolgöstərəni oldu. Birlikdə Məşuqluq səhrasına üz tutdular. Burada "Nazənin Ayağının Altı" adlandırılan yerə gəldilər. *"Təsəvvüf ədəbiyyatında ağıl aşiqə müəyyən məqama qədər kömək edib, onunla yoldaşlıq edir. Müəyyən sərhəddən sonra aşiqə ağıl yox, eşq yardımçı olur. İlahi eşqə qovuşma "bir ilə bir olmaq" məqamında ağıl aradan qalxaraq aşiq ikilik halından çıxıb bir olur"* (Abdullayeva,2024: 111).

Bundan sonra Füzuli Ruhu bədən mülkünün daxilində gəzdirdiyi kimi, xaricində də gəzdirib onun aşiqliyini mükəmməl şəkildə təsvir etmiş olur. Xaricə yolçuluğu zamanında Eşq ona yoldaşlıq edir. Ruh bu yolçuluğun sonunda: *"Ey sərv göstərişli Eşq! Ey rəyi güzgün olmayan azğın! Bu qədər avara dolaşdım, söylədiyin Hüsn cilvəgahına çatmadım?"* (Füzuli, 2005:77) deyərək Eşqə şikayətlənir. Eşq isə: *"Ey qafil! Və ey mərifət ləzzətindən bixəbər! Gördüklərin ( hamısı) Hüsnün cilvəgahı idi; o (Hüsn) bunların hamısında özünü göstərdi. Sənin bəsirətn olmadığından Hüsnün nə olduğunu bilmədin. Əgər onu anlamaq istəyirsən, (əvvəlcə) gərək*

*nəzərini saflaşdırasan. (Qabaqca) özünü korluqdan qurtar, gözlərini dostluq sürməsinə yetir! O sürmədən məşuqluq mülkündə yoxdur, onun mədəni Aşiqlik diyarındadır. Lakin məşuqluq mülkünü səyahət etməyincə Aşiqlik ölkəsinə çatmaq olmaz"* (Füzuli, 2005:77). İki yoldaş Aşiqlik diyarına yollandılar. Aşiqlik diyarında Könül şəhəri dağılmış, Sevda Ciyər və Dimağı yandırmış, Qan, Səfra və Bəlğəmdə qüvvət qalmamış, bu istirabdan Səhhət zərər görmüşdü. Ruh onu xanimanından ayırdığı, başına məhəbbət iztirabları gətirdiyinə görə Eşqə şikayət edir. Eşq Ruha İdrak xəznəsindəki surətdən ibrət almağı tövsiyyə edir. Ruh bu məqamda öz surətini görmək istəyir. Ruh Səfa aynasının möhüründə öz surətinə baxır və özünü tanımır. *"Ruh dedi: Ey Eşq, bu surət o surət deyildir. Mənə bildir görüm, nə idi, bəs bu nədir? Eşq dedi: Ey Ruh, bu, lövh səfa aynasıdır. Nəzər əhlinin şəklini özündə əks etdirəndir. Burada gördüyün birinci surət sən idin, indi də gördüyün surət sən özünsən. Əvvəlcə özünə baxdığın zaman qafil idin! Özünü tanımayıb öz arzunla yüyürürdün. Axırda özünə çatdın. Həm Aşiqliyə məzhər sənsən, həm də Məşuqluğa zinət sənsən! Mərifət aşinalığın (həqiqəti tanımağın) sürməsidir və bu mənzilə yaxınlaşmaq üçün əlaqələrdən ayrılmaq lazımdır"* ( Füzuli, 2005:78).

*Ruhun bu məqamda nə Əqlə, nə Eşqə, nə də Hüsnə ehtiyacı qalmamışdı. Əsərin sonunda dahi Füzulinin də dediyi kimi "ruh bu məqama yetişəndə "Cəbərut" və "Lahut" aləmlərini gördü. Əsl mənzilinə çatdı və yolkəsənlərin qeydindən qurtardı. İşin sonunda özünü özünə çatdırdı, Məşuqluq və Aşiqlik o xəlvətdən xaricdə qaldılar"* (Füzuli, 2005:78). Bu sonluqdan məlum olur ki, Ruh aradığını tapmış, ilahi eşqə qovuşmuşdur. Ruhu yenidən Cəbəruta qaytarmaqla şair onun ölməzliyini göstərməyə çalışmışdır.

"Səhhət və Mərəz" həmçinin Füzulinin tibbi görüşlərini fəlsəfi məzmunda önə çıxarmış mükəmməl bəddi nümunədir. Əsərdə çox yemənin sağlamlığa zərərinə toxunulmuş, həddən artıq qida qəbulunun orqanizmdə xəstəliklərə yol açа biləcəyindən bəhs edilmişdir. Xəstənin pəhrizlə sağalacağı fikri vurğulanmışdır. Qədim tibb elmində də pəhrizin bəzi xəstəliklərin müalicəsi üçün faydası göstərilmişdir. Müqəddəs dinimizdə oruc tutmanın tibbi nöqteyi-nəzərdən nə qədər faydalı olduğu hər kəsə məlumdur. Hz. Məhəmməd peyğəmbərin "Acmadan yemə, doymadan qalx" kəlamı da orqanizmin sağlam qalmasında çox yemənin zərərli olduğunu bir daha təsdiq edir. Təsəvvüf ədəbiyyatında da mənəvi yolçuluğa (seyrü-süluka) çıxan insan az yeyər, az içər, gününü ibadətlə keçirər, dünya nemətlərindən imtina etməklə səbrlə öz nəfsini tərbiyə edir. Bütün imtahanlardan keçdikdən sonra mənəvi kamilliyə çatmış olur.

Füzuli ənənələrini yaşadan, onun müraciət etdiyi mövzulardan bəhrələnən şairlərdən biri də XVIII əsr Türk divan ədəbiyyatının son nümayəndələrindən olan Şeyx Qalibdir. Yaradıcılığında özünəqədərki divan şeirinin sirlərinə bələd olub ondan yetərincə bəhrələnən sənətkar əsərlərində yeni söz söyləməyi, ardıcılı olduğu dahi sənətkar M.Füzuli kimi sözün mənasına enməyi, fikri cilalayıb məzmunu rəngləndirməyi bacarmışdır. Türk divan ədəbiyyatında elə bir zirvəyə ucalmışdır ki, özündən sonra yazıb-yaradan söz ustadları onun zirvəsinə çata bilmədikləri üçün sonuncu divan şairi olaraq qəbul edilmişdir. Hər iki söz sənətkarının yaradıcılıqlarında oxşar cəhətlər çoxdur. Şeyx Qalibin M.Füzulidən bəhrələndiyini "Hüsn və Eşq" əsərində aydın şəkildə görürük. M. Füzulinin "Səhhət və Mərəz" əsərində cərəyan edən hadisələr, əsərin inkişaf xətti, obrazlar, sufi-fəlsəfi fikirlərin təbliği "Hüsn və Eşq" əsəri boyunca gözlənilmişdir. *"Hüsn və Eşq"də "Munisül-uşşaq"ın təsirində qalaraq Füzuli tərəfindən yazılmış olan "Ruhnamə" və "Hüsn və Eşq"də deyilən Səhhət və Mərəzin də təsiri görülməkdədir. Burada keçən Hüsn və Eşq ruhun iki sifətidir. Bir sıra hadisələrdən sonra Eşq Hüsnü görür , həqiqətə çatır"* (Alpaslan, 1964: 28).

Şeyx Qalib Orta əsrlərin divan poeziyasında özünəməxsus dəstxətti olan şair kimi yetişmiş, Türk ədəbiyyatında yeni yaranmaqda olan "Səbki-hindi" tərzinin yayılmasında və oxucu kütləsi tərəfindən sevilməsində xidmətləri olan sənətkarlardandır. Sözə yeni anlam, yeni ehya vermək, sözü sözün gücü ilə canlandırmaq "Səbki- hindi" üslubunun əsas özəlliklərindəndir. Şair bu tərzi həm lirik yaradıcılığında, həm də poema janrında qələmə aldığı "Hüsn və Eşq" məsnəvisində gözləmişdir. Odur ki, təkrarsız bir sənət əsəri meydana gətirə bilmişdir. İsveç alimi və orientoloqu Elias Con Vilkinson Gibb "Hüsn və "Eşq" əsəri haqqında demişdir: *"Bu nəcib şeir sanki zamandan kənarda doğulmuş, romantik dövrün bayağılıqları arasında gecə kölgəsi və baldıran çöllərində saf və əzəmətli zanbaq kimi görünür"* (Gibb, 1900-1907:180).

Şeyx Qalib də Orta əsrlər divan ədəbiyyatı ənənələrini qoruyaraq "Hüsn və Eşq" əsərini Allaha sonsuz şükürlə başlamışdır:

*Hamd ana ki qıldı halka rahmət,*
*Tahmidde acze verdi ruhsat.*

*Acz olmasa hal olurdu müşkil,*
*Pay-i kec-i kilk olurdu der-gil.*

*Ger hamdinə yoksa haddü- ihsa,*
*Şükr et ki, zeban-ı acz guya.*

*Hamd eyle ki, verdi şer-i mana,*
*Tahmid-i Xudada acze fətva (Okay, Ayan, 2005: 51*).

"Hüsn və Eşq" əsərində də ilahi eşqə ucalmaq konsepsiyası əks olunmuşdur. Bəni Məhəbbət qəbiləsində doğulan iki uşaq- Hüsn(sevgili, gözəl, Allah) və Eşq(dərviş) qəbilə böyükləri tərəfindən bir-birinə göbəkkəsti edilir. Sonra bu iki uşaq böyüyür, "Məktəbi-ədəb"ə yollanır. Molla Cünun onların müəllimi olur. Orada Hüsn Eşqə aşiq olur. Əsas məsələ- Qəlb ölkəsinə yolçuluq, seyrü-süluk da buradan başlayır. Qəbilə böyükləri Eşqin Hüsnə qovuşması üçün Qəlb ölkəsinə gedib "Kimya"nı gətirməyi, mənəvi kamilliyə yetişməyi şərt qoyurlar.

Eşq yol göstərəni -lələsi Qeyrət ilə birlikdə seyrü-süluka çıxır, atəş dənizi, qəm xərabəsi kimi yerlərdən keçib cadugərlər və divlərlə döyüşür. Bu yolçuluqda Sühan (söz) da Eşqə yardım edir.

Əsərin sonunda Eşq Qəlb qalasına çatır, sevgilisi Hüsnə qovuşur. Bu çətin və məşəqqətli yolçuluqda nəfslərini tərbiyyə edərək ikisinin də bir olduğu "Birlik" məqamına yüksəldiklərini anlayırlar. Hüsnün Eşq Eşqin də Hüsn olduğunu dərk edirlər.

Hər iki əsərin- həm "Səhhət və Mərəz", həm də "Hüsn və Eşq" əsərinin süjet xətti alleqoriya üzərində qurulmuşdur. Əsərlərdə iştirak edən obrazların adları alleqorik simvollar şəklində təqdim olunur. "Səhhət və Mərəz" əsərində istifadə olunan Qan, Bəlğəm, Səfra, Sevda, Eşq, Hüsn, Heyrət, Ürək, Səhhət, Pəhriz, Ruh, Ümid, Əql, Fərəh, Mərəz, Ədavət, Qorxu,Qəm və s. "Hüsn və Eşq" əsərində istifadə olunan Eşq, Hüsn, Qeyrət, Süxən, Heyrət, İsmət, Məna məclisi, Feyz hovuzu, Qəlb diyarı, Qəm xərabələri və s. kimi obrazlar hər iki əsərin alleqorik xətt baxımından kəsişdiyini göstərən məqamdır. "*Simvolik obraz ədəbi mətndə insanın mənəvi qüdrətinin səfərbər edilməsi, onun ağlını varlığın ali həqiqətlərini dərk etməyə istiqamətləndirmək üçün vacibdir. Simvol fikirlərin elə ifadə formasıdır ki, hadisə (görünmə, təzahür, şəkil) özü adlandırılmır, ancaq hər hansı bir sadə şeyin şərhi ilə daha dərin "həqiqi" mənaya işarə edilir*" (Бычков, 1981: 273-274).

"Hüsn və Eşq" əsərinin qəhrəmanı da müxtəlif maneələrdən keçərək Hüsnə qovuşur. Eşq kimyanı tapmaq üçün Qeyrətlə birlikdə "Qəlb diyarı"na səfər edir. "*Yolçu olan Eşqin Hüsn ilə evlənmək üçün aradığı kimyanın yoldakı bəlaları aşarak yaşadığı daxili transformasiyasının sirri olduğu anlaşılır, bu metaforik kosmoqrafiyaya qapı açılır.* (Holbrook, 1996: 76). "Səhhət və Mərəz" əsərində Ruh Əqlin yardımı ilə qələbə qazanır. "Hüsn və Eşq" əsərində də baş qəhrəman Eşq Qeyrətin yardımı ilə çətin işlərin öhdəsindən gəlir.

Füzulinin qələmə aldığı "Səhhət və Mərəz" əsərində Hüsn və Eşq ilahi eşqə gedən yolda Ruha yoldaşlıq etdilər. Əql Ruhun yolgöstərəni olsa da, Eşqin yönləndirməsi ilə Hüsnü gördü, Əql əhəmiyyətsiz oldu. Şeyx Qalibdə də Eşqin Hüsnə qovuşması üçün Qeyrət əlindən gələni edir. Süxən Eşqin yanlış yolda olduğunu, əslində Eşqin Hüsn, Hüsnün də Eşq olduğunu söyləyir:

*Kim Eşq Hüsndür, eyni Hüsn Eşq*
*Sən rahi- qalatda eylədin məşq. (Okay, Ayan, 2005:380).*

**Nəticə**

Hər iki əsərdə həqiqətə çatmaq üçün seyrü-süluka yolçuluqdan bəhs edilir ki, bu da təsəvvüf ədəbiyyatında vəhdətə - cananı bulub bir olmağa,birliyə, vahidə gedən uzun bir yolçuluqdur. Bu yolçuluqda özünü tanıyan salik -Ruh və Eşq kamilləşmə mərhələsində dünyanı dərk etmiş, özünə dönmüş olur. Maddini- dünyanı dərk edən yolçular mənəvi zənginliyə ucala bilirlər. Bu hər iki poemada məhəbbətlə mümkün olur.

**Ədəbiyyat siyahısı**


M, Füzuli. (2005). *Əsərləri VI cilddə, IV cild.* Bakı: Şərq Qərb nəşriyyatrı

M, Füzuli. (2005). *Əsərləri VI cilddə, V cild.* Bakı: Şərq Qərb nəşriyyatrı

Gülər, A. (2024). *Şeyx Qalib yaradıcılığında Füzuli ənənələri , Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi. Bakı: AMEA*

Ali, A. *Şeyx Qalib. (*1964). İstanbul: Kültür və turizm bakanlığı yayınları: Türk böyükləri dizisi: 101

Gibb, E. (1900-1907). *A History of Ottoman Poetry, 6 vols.* London: Luzac 4:180

Orhan, O, Hüseyin, A. (2005). *Şeyx Galib Hüsn ü Aşk.* İstanbul: Dergah Yayınları, 3. baskı.

Бычков, В.В. (1981).*Эстетика поздней античности,* Москва: Наука.

Holbrook, V. (1996). *Alegori'nin Ölümü, Hüsn və Aşk'ın Özgünlüğü.* İstanbul

**Rəna İskəndərli**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: iskenderlirena@gmail.com*
*ORCİD: 0009-0009-0192-206X*

# TƏNZİMAT DÖVRÜNDƏ MAARİFÇİ CƏMİYYƏTLƏR, TƏHSİL VƏ ƏDƏBİYYAT

**Xülasə**

XIII əsrdən etibarən Osmanlı dövləti tənəzzülə uğramağa başladı. Böhranlı vəziyyətdən çıxmaq üçün 1839-cu ildə Türkiyə Tənzimat islahatları elan etdi. Doğrudur, bu islahatlar Türkiyəni Qərbin nüfuzundan azad edə bilməsə də, ölkənin ictimai-siyasi həyatında bir sıra yeniliklər baş vermişdir ki, onlar yeni cəmiyyətin yaranmasına səbəb olmuşdur. Məqalə yığcam şəkildə Tənzimat dövrü maarifçi dərnəklər, o cümlədən yeni nəşr olunan qəzet və dərgilər haqqında məlumat cəm edir. Eyni zamanda, Tənzimat ədəbiyyatına da qısa nəzər salınmışdır. Son olaraq, məruzədə belə qənaətə gəldik ki, Tənzimat zamanı Qərbin təsiri nəticəsində yaranan yeniliklər (maarifçi dərnəklərlər, qəzet və dərgilər, elm ocaqların təsisi və s.) o dövr üçün daha inkişaf etmiş cəmiyyətin formalaşmasına əsas amil olmuşdur.
***Açar sözlər:*** *Tənzimat, dərnək, ədəbiyyat, Avropa, elm, alim, Türkiyə*

# ENLIGHTENED SOCIETIES, EDUCATION, AND LITERATURE IN THE TANZIMAT ERA

**Abstract**

From the XIII century, the Ottoman state began to decline. To get out of the crisis situation, in 1839 Turkey announced regulatory reforms. True, although these reforms could not free turkey from the influence of the West, a number of innovations took place in the country's socio-political life, which led to the creation of a new society. The article concisely contains information about educational associations of the regulatory period, including newly published newspapers and magazines. At the same time, a brief review of the Tanzimat literature was also made. Finally, in the report, we came to the conclusion that the innovations created during the regulation as a result of the influence of the West ( educational associations, newspapers and magazines, the establishment of scientific centers, etc. the) was a key factor in the formation of a more developed society for that time.
***Key words:*** *Tanzimat, publik association, literature, Europe, science, scientist, Turkey*

XVI-XVII əsrlərdə dünyanın ən qüdrətli imperiyası – Osmanlı dövləri artıq XVIII əsrdən etibarən siyasi və iqtisadi cəhətdən tənəzzülə uğramağa başladı. Böhrandan çıxmaq üçün Tənzimat islahatları həyata keçirildi. Başda ictimai-siyasi xadim Mustafa Rəşid Paşa (1798-1858) olmaqla bir sıra görkəmli ziyalıların təhriki ilə 1839-cu ildə Gülxanə adlanan yay sarayı qarşısında "Gülxanə xətti-şərif" adlanan islahat fərmanı verildi (Tənzimatin I dövrü (1839-1853), 2016; Aydın, 2017: c.40, 2). Onu da qeyd edək ki, Tənzimat II Mahmudun ölümündən sonra Əbdülməcidin taxta gəlməsi zamanında elan edilmişdir.

Gülxanə fərmanına əsasən əmlak təhlükəsizliyi, vergilərin düzgün yığılması, hərbi qulluq müddətinin 5 ilədək azaldılması, əyalətlərin ədalətli idarə olunması, məhkəmə sistemində köklü

dəyişikliklər və bu kimi digər yeniliklər baş verməli idi. Fərman dini etiqadından asılı olmayaraq bütün vətəndaşlara tam hüquq bərabərliyi vəd edirdi. Qanunları pozan şəxsləri isə ağır cəza tədbiri gözləyirdi (Tənzimatin I dövrü (1839-1853), 2016).

Lakin Tənzimat islahatları da Türkiyəni siyasi cəhətdən Avropa dövlətlərinin nüfuzundan azad edə bilmədi və onun Avropa dövlətlərindən yarımasılı vəziyyətə salınmasını əsaslandırmış oldu (Krım müharibəsi və tənzimatın II dövrü (1856-1876),2016).

Buna baxmayaraq, Tənzimat dövrünün ictimai-ədəbi həyatına xeyli müsbət yeniliklər baş vermişdi: Mədrəsələrin yanında çoxsaylı məktəblər açılmış, Darulfününun təməli qoyulmuş, Avropaya gənclər göndərilmiş, yeni açılan Darulfünuna yeni kitabları nəşrə hazırlamaq məqsədi ilə "Əncüməni-daniş" meydana gətirilmiş, maarifləndirmə məqsədi ilə "Məkatibi ümumiyyə nəzarəti", daha sonra "Məarif nəzarəti" qurulmuşdur. Meydana ilk qəzet və dərgilər çıxdı. Nəşr olunan qəzetlər arasında "Hadiqa", "İbrət", "Bəsirət" kimi dövrü mətbuat önəmli yer tutmuşdur**.**

İlk dərgilər sırasına Münif Əfəndinin rəhbərlik etdiyi "Cəmiyyəti İslamiyyəyi-Osmaniyyə"nin nəzdində dərc edilən "Məcmuəyi-fünun" dərgisini və 1849-cu ildə nəşr olunan "Vəqayeyi-tibbiyə" jurnallarını daxil etmək olar (Aydın, 2007: c.2, 38). Ümumiyyətlə, "Təkcə XIX yüzillikdə iki yüzə qədər qəzet və jurnal nəşr olunmuşdur" (Aydın, 2007: c.2, 38). Təbii ki, bu qəzet və jurnallar Avropa ölkələrindən bəhrələnərək onların təsiri altında idilər.

Bu dövrdə bir sıra dərnəklər də fəaliyyət göstərmişdir ki, onların Türkiyə cəmiyyətinin inkişaf və maariflənməsində rolu misilsiz idi. Əldə olan ədəbiyyat əsasında həmin dərnəklərin siyahısını xronoloji şəkildə tərtib edərək təqdim edək:

1) "Cəmiyyəti-ilmiyyə" – hələ II Mahmud dönəmində Ortaköydə İsmayıl Fərrux tərəfindən yaranan bu cəmiyyətin əsas məqsədi ziyalılar arasında şeir, ədəbiyyat və digər elmlər üzərində disputlar aparmaq idi. Bektaşilərin təqib edildiyi zaman İsmayıl Fərrux cəmiyyətin digər üzvləri ilə bərabər Manisaya sürgün edilmişdir (Sırrı, 1969: 20).

2) "Cəmiyyəti-ilmiyyəyi-osmaniyyə" – Rəşid Paşa tərəfindən 1851-ci ildə kitab hazırlamaq üçün Darulfününda açılacaq "Əncüməni-daniş"dən sonra xalqa yararlı olmaq məqsədi ilə təsis olunan ilk dərnəyin rəhbəri Münif Əfəndi idi. 1861-ci ildə təsis olunmuş bu dərnək bir yandan "Məcmuəyi-fünun"u çıxarmış, digər tərəfdən isə xalqa sərbəst dərslər verərək, konfranslar təşkil etmişdir. Qeyd etmək vacibdir ki, Azərbaycan ədibi, görkəmli xadim Mirzə Fətəli Axundzadə tərəfindən hazırlanan əlifba sənəd kimi burada araşdırılmışdır (İskəndərli, 2020: 77-78; Sırrı, 1969: 20).

3) "Cəmiyyəti-kitabət" dərnəyi 1862-ci ildə təsis olunmuşdur. Həmin dərnək adına "Məcmuəyi-iberi-intibah" dərgisi çıxarılmışdır. Məcmuə yalnız doqquz ay işıq üzü gördü (Sırrı, 1969: 20).

4) "Cəmiyyəti-ədəbiyyə" – cəmiyyəti 1866-cı ildə "Məcmuəyi-maarif" adında bir dərgini nəşr etmişdir .

5) "Cəmiyyəti-tədrisiyyəyi-osmaniyyə" – 1865-ci ildə qurulan cəmiyyət, adından bəlli olduğu kimi, mərkəzlərdə dərslər verməklə əhalini maarifləndirirdi. Bu dərnəyin əsas xidmətlərindən biri, 1873-cü ildə Daruş-şəfa kimi böyük məktəblərin qurulması idi. Qurucuları Yusuf Ziya Paşa, Esat Paşa, Qazi Əhməd Muxtar Paşa, Vidinli Tevfik Paşadır.

6) "Cəmiyyəti-tibbiyyəyi-osmaniyyə" – cəmiyyət 1866-cı ildə əsli Krımdan olan doktor Əziz bəy və dostları tərəfindən qurulmuşdur. İlk iş olaraq bu dərnək özündə tibbi terminləri ehtiva edən lüğət nəşr etmişdir .

7) “Məmaliki islamiyyəyi-coğrafiyyə” – dərnək 1872-ci ildə Hoca Təhsin Əfəndi tərəfindən qurulmuşdur. İslam ittihadı məqsədi ilə qurulan bu dərnəyin fəaliyyəti çox çəkmədi və yalnız iki-üç toplantı keçirə bildi.

8) “Cəmiyyəti-ilmiyyə” – dərnəyin məqsədi elm, incəsənət və maliyyə qaydaları sahəsində xidmət göstərməkdir (Sırrı, 1969: 20).

9) “Cəmiyyəti-ilmiyyəyi-arnavudiyyə” – 1879-cu ildə qurulan bu dərnəyin əsas məqsədi arnavud aydınlarının arnavudca yazılmış, ya da başqa dillərdən arnavud dilinə tərcümə edilmiş yararlı əsərlərin yayımı idi (Sırrı, 1969: 20).

Yuxarıda qeyd etdiyimiz kimi, ilk qəzet və dərgilər, o cümlədən təşkil olunan dərnəklər xalqı maarifləndirmək, oyandırmaq yolunda atılan ilk addım idi. Eyni zamanda, Qərb mədəniyyətinə açılmış bir pəncərə idi. Bu qurum və mətbu orqanların çoxsaylı yazılarında məmləkətin problemləri, o cümlədən iqtisadiyyat, mədəniyyət sahələri ilə bağlı müxtəlif fikir və mülahizələr öz əksini tapırdı.

Türk xalqının tərəqqisinə xidmət edən bir çox ali məktəbin yaranması da bu dövrlərə təsadüf edirdi. 1827-ci ildə açılan Tibbxanə 1838-ci ildə “Məktəbi-Tibbiyə” adını almışdır. 1838-ci ildə “Məktəbi-Hərbiyyə” yaranmışdır. Digər ali məktəblərdən “Məktəbi-Mülkiyyə”, “Darulfünuni-Osmani”, “Məktəbi-Sultaniyyə”ni də qeyd etmək olar (Kabaklı, 2008: c.3, 13; Sırrı, 1969: 25).

Tənzimat dönəmində elm sahəsində də müsbət dəyişikliklər baş vermişdir. Belə ki, Türkiyə və Avropada təhsil almış gənclər tibb, riyaziyyat, fizika, kimya kimi elmləri türk vətəndaşlarına tanıdırdılar (İskəndərli, 2020: 78; Sırrı, 1969: 25-26). Tənzimatın yetişdirdiyi alimlərdən riyaziyyatçı Krım əsilli Hüseyn Rıfkı Əfəndi, Hoca İshak Əfəndi, kimyaçı Dərviş Paşa, tibb sahəsində Salih Əfəndi, Hüseyn Rəmzini qeyd etmək olar. Əhməd Cevdət Paşanın “Əncüməni-daniş”in ilk əsəri olaraq hazırladığı 12 cildlik tarixi, Hayrullah Əfəndinin 5 cildlik tarixi, Mehmet Feyzinin “Xəbəri-səhih”i, Mustafa Nuri Paşanın “Nətayicül-vüquat”ı, Süleyman Paşanın “Tarixi-aləm”i bu dövrün önəmli tarix əsərlərindəndir. Dil və sözlük sahəsində “Əncüməni-daniş”də Əhməd Cevdət Paşa ilə Fuad Paşanın birgə hazırladığı “Mədhali-qəvaid” əsəri, Abdullah Ramiz Paşanın, Səlim Sabitin, Süleyman Paşanın “Qəvaid” kitabları, Əhməd Vefik Paşanın “Ləhçəi-osmani”si bu dövrün ən tanınmış nümunələrdəndir. Hüquq sahəsində 1855-ci ildə öncə Rüştü Mollanın, sonra Əhməd Cevdət Paşanın rəhbərliyi altında toplanan “Məcəlləyi-əhkam” ədliyyə cəmiyyətinin hazırladığı məcəllə də böyük bir yenilik olmuşdur (İskəndərli, 2020: 78; Sırrı, 1969: 27).

Ölkədə baş verən ictimai-siyasi hadisələr, o cümlədən islahatlar ədəbiyyata da təsir etmişdir. Belə ki, Tənzimatı həm də Avropa mədəniyyətini qəbul etdirmək yolunda dövlətin atdığı addım kimi qiymətləndirmək olar. Nəticədə Avropa ədəbiyyatı türk ədəbiyyatına forma və məzmun baxımından daxil olaraq Tənzimat ədəbiyyatını formalaşdırdı. Bu dövrdə ədəbiyyatın inkişafı nəticəsində meydana yeni janr – nəsr və dramaturgiya gəlir (Quliyev, 2009: 56).

Nəsr əsasən xalq ədəbiyyatı və divan ədəbiyyatı yolu ilə inkişaf etmişdir. Onu da qeyd etmək vacibdir ki, yeni, XIX əsr nəsrinin yaranmasında mətbuatın da böyük rolu olmuşdur.

Yeni nəsrin ilk nümunələri tərcümə əsərlərindən sonra yarandı. Türk dilində ilk nəsr tərcümə əsəri Yusif Kamil Paşa (1808-1876) tərəfindən çevrilən Fransanın din xadimi və yazıçısı Fransua Fenelonun “Telemaksın sərgüzəştləri” adlı fəlsəfi romanıdır. Türk dilinə çevrilən digər önəmli əsər Viktor Hüqonun “Səfillər” romanıdır. İlk dəfə bu əsər imzasız olaraq “Cərideyi-həvadis”də 1862-ci ildə “Hekayeyi-məğdurin” adı ilə çap olunmuşdur. Daha sonra, 1880-ci ildə Şəmsəddin Sami tərəfindən “Səfillər” adıyla tam mətn olaraq çevirmişdir (Özgül, 2010: c.1, 279).

Mətbuat ədəbi-publisist janrın yaranmasına təkan vermişdir. Türkiyədə publisist nəsr nümunələrinin banisi İbrahim Şinasi hesab olunur. Belə ki, mütəfəkkirin 1860-cı ildə "Tərcümənii-əhval" və "Təsviri-əfkar" qəzetlərində çıxan geniş yazıları əhali arasında milli şüurun oyanmasında böyük rol oynamışdır (Aydın, 2007: c.2, 39). İlk bədii nəsr əsərlərinin yaradıcısı Əhməd Mithət hesab olunursa da, bu nəsrin inkişafında mətbuatın yaranması əsas səbəb olmuşdur (Aydın, 2007: c.2, 39).

Tənzimat ədəbiyyatına ilk romanı ensiklopediyaçı, dilçi alim Şəmsəddin Sami bəxş etmişdir. Onun "Təəşşüqi-Tələt və Fitnət" romanı 1872-ci ildə nəşr olunmuşdur (Kabaklı, 1975: c.2, 290).

Yeni ədəbiyyat sayəsində Türkiyədə teatr həyatı da yaranır. XIX əsrin 60-cı illərinin ortalarında hökumətin icazəsi ilə "Şərq teatrı" və "Osmanlı teatrı" adı ilə tanınan "Gedik Paşa teatrı" yaranır. Burada çalışan aktyorlar üçün isə maaş təyin olunur (Aydın, 2007: c.2, 33).

Teatrın açılışı yeni əsərlərin yaranmasına, eləcə də qərb dillərindən tərcümələrin edilməsinə səbəb oldu. Belə ki, Əhməd Vefiq Paşa (1823-1891) fransız yazıçısı Molyerinin on altı komediyasını tərcümə edərək tamaşaçılara çatdırmışdır. Tədqiqatçı Abi Aydın Abi öz əsərində qeyd etdiyi kimi, ədəbiyyatda dram və faciə janrında yaranan əsərlər komediya janrından sayca daha çox idi (Aydın, 2007: c.2, 33). Bu janrda fəaliyyət göstərən yazıçılardan Şəmsəddin Samini, Namiq Kamalı, Həsən Bədrəddini, Manastrlı Rüfəti, Əbdülhəq Hamidi misal olaraq göstərmək olar. Əsərlərin çoxluğuna baxmayaraq ölkədə teatrlar ciddi nəzarət altında idi. Siyahıya alınmış mövzular var idi ki, bunlardan yazan müəllif sürgün olunurdu, teatrlar isə bağlanırdı.

Tənzimat dövrü ədəbiyyatda satira da böyük əhəmiyyət kəsb edirdi. Belə ki, türk satirikləri ümumdünya satira təcrübəsindən geniş istifadə edərək zamanın nəbzini tutmuş və dövlətin ictimai-siyasi hadisələrinə yumor vasitəsi ilə münasibət bildirmişlər. Satira nümayəndələrinin əksəriyyəti (Şinasi, Əli Bəy, Ziya Paşa, Əşrəf və s.) Avropa mədəniyyəti ilə yaxından tanış olan adamlar idi (Aydın, 2007: c.2, 50). Bu isə Türkiyədə satiranın forma və məzmununa, o cümlədən inkişafına təsir edən başlıca amillərdən biri idi. Belə ki, ilk pamflet, məqalə, felyeton, satirik roman, hekayə, publisistika Tənzimat dövrünə təsadüf edir.

Sonda söyləmək istərdik ki, Tənzimat dövrü (1839-1876) Osmanlı imperiyasının ictimai-sosial mühiti Avropanın təsiri nəticəsində modernləşmə, mətbuatın inkişafı və təhsil islahatları ilə xarakterizə olunur. Belə ki, sosial strukturun hər sahəsində də Qərb təsirinin artması müşahidə olunurdu. Bu amil isə müasir Türkiyə cəmiyyətinin təməlini yaratdı.

**Ədəbiyyat siyahısı**

Aydın, A. (2011), "Tanzimat", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, C.40, İstanbul, s. 2.
Kabaklı, A. (2008). Türk edebiyatı [5 ciltte], c.2. İstanbul: Türk Edebiyatı Vakfı Yayınları
İskəndərli, R. (2020). "Şəmsəddin Sami: ədəbi mühiti və irsinin tədqiqi tarixindən". AMEA Filologiya və sənətşünaslıq, – **№2**, 268, 75-82.
Kabaklı, A. (2008). Türk edebiyatı [5 ciltte], c.3. İstanbul: Türk Edebiyatı Vakfı Yayınları
Quliyev, E. (2009). Türk xalqları ədəbiyyatı. Bakı: Qismət Nəşriyyatı
Özgül, Q. (2010). Türk ədəbiyyatı tarixi: [2 cilddə], c.1. Bakı: MBM-Bengü
Aydın, A. (2007). Türkiyə ədəbiyyatı tarixi (müqayisəli) dərslik: [2 cilddə], c.2. Bakı: Bakı Universiteti Nəşriyyatı
Sırrı, A. (1969). Şemseddin Sami. Ankara: Ankara Üniversitesi Basımevi
Tənzimatin I dövrü (1839-1853): [Elektron resurs] / Türkiyəşünas. https://turksunas.wordpress.com/2016/11/11/t%C9%99nzimatin-i-dovru-1839-1853/ qoyulma tarixi: 11.11.2016

Krım müharibəsi və tənzimatın II dövrü (1856-1876): [Elektron resurs] - URL: https://turksunas.wordpress.com/2016/11/11/krim-muharib%C9%99si-v%C9%99-t%C9%99nzimatin-ii-dovru-1856-1876//
qoyulma tarixi: 11.11.2016

**Aysel Acalova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: ayselacalova@yahoo.com*
*ORCİD: 0009-0005-2967-8493*

# FƏRHAD AĞAZADƏ VƏ DİGƏR TÜRK MAARİFÇİLƏRİNİN ƏLİFBA İSLAHATINA BAXIŞLARI

**Xülasə**

XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycan ictimai fikrində köklü dəyişikliklərlə səciyyələnən mürəkkəb və çoxşaxəli bir dövr kimi xarakterizə edilir. Bu mərhələ yalnız siyasi və iqtisadi islahatlarla məhdudlaşmayıb, eyni zamanda mədəni, intellektual və ideoloji yenilənmə prosesləri ilə müşayiət olunmuşdur. Xüsusilə dil və yazı məsələləri milli oyanışın əsas komponentlərindən birinə çevrilmiş, cəmiyyətin modernləşməsi və maariflənməsi istiqamətində aparıcı rol oynamışdır. Əlifba islahatı bu kontekstdə sadəcə texniki dəyişiklik deyil, maarifçilik ideologiyasının formalaşması, milli kimliyin yenidən dərk olunması və yeni düşüncə modelinin təşəkkülü baxımından strateji əhəmiyyət kəsb etmişdir.

Ümumi gedişata nəzər saldıqda Mirzə Fətəli Axundzadə, İsmayıl Qaspıralı və Fərhad Ağazadə kimi maarifçilərin əlifba məsələsi ilə bağlı baxışlarının bir-birini tamamlayan tərəfləri olduğu aydın görünür. M.F.Axundzadə əlifba islahatı ideyasını ilk dəfə cəsarətlə irəli sürərək onun nəzəri əsaslarını qoymuş, İsmayıl Qaspıralı bu ideyanı daha ehtiyatlı və mərhələli şəkildə inkişaf etdirərək cəmiyyət üçün qəbul edilə bilən model üzərində düşünmüş, Ağazadə isə bu ideyaların həyata keçirilməsi mərhələsində çıxış edərək konkret dəyişikliklərin zəruriliyini əsaslandırmışdır. Beləliklə hər üç maarifçinin fəaliyyətində ideyadan tətbiqə doğru bir inkişaf xətti müşahidə olunur.

Təqdim olunan məqalədə Fərhad Ağazadənin əlifba islahatına dair baxışları sistemli şəkildə təhlil edilir, onun ideyaları Mirzə Fətəli Axundzadə və İsmayıl Qaspıralının yanaşmaları ilə müqayisəli şəkildə araşdırılır və bu ideyaların Türkoloji qurultay kontekstində formalaşma dinamikası elmi əsaslarla şərh olunur.

***Açar sözlər:*** *Axundzadə, Ağazadə, maarifçi, Qaspıralı, əlifba*

# FARHAD AGHAZADEH AND OTHER TURKISH INTELLECTUALS' VIEWS ON ALPHABET REFORM

**Abstract**

The late 19th and early 20th centuries in Azerbaijani public thought are characterized as a complex and multifaceted period marked by radical transformations. This milestone was not limited solely to political and economic reforms, but was also accompanied by processes of cultural, intellectual, and ideological renewal. Particularly, language and writing systems emerged as fundamental components of the national awakening, playing a pivotal role in the modernization and enlightenment of society. Within this context, the alphabet reform was not merely a technical alteration, but held strategic importance for the formation of enlightenment ideology, the re-conceptualization of national identity, and the emergence of a new paradigm of thought.

When examining the overall trajectory, it becomes evident that the perspectives of intellectuals such as Mirza Fatali Akhundzadeh, Ismail Gaspirali, and Farhad Aghazadeh on the

alphabet question possessed complementary dimensions. M.F.Akhundzadeh boldly pioneered the idea of alphabet reform by establishing its theoretical foundations; Ismail Gaspirali developed this concept through a more cautious and phased approach, conceptualizing a model acceptable to society; and Aghazadeh operated within the implementation phase, substantiating the necessity of concrete modifications. Thus, a developmental trajectory spanning from theory to practice is observed across the endeavors of all three intellectual scholars.

This paper systematically analyzes Farhad Aghazadeh's views on alphabet reform, comparatively investigates his ideas alongside the approaches of Mirza Fatali Akhundzadeh and Ismail Gaspirali, and scientifically elucidates the dynamics of how these concepts took shape within the context of the Turkological Congress.
***Key words:*** *Akhundzadeh, Aghazadeh, enlightener, Gaspirali, alphabet*

**Giriş**

Əlifba hər bir xalqın mədəni yaddaşını qoruyub saxlayan və nəsillərarası mədəni irsin ötürülməsini təmin edən əsas mexanizmlərdən biri olmaqla yanaşı, həm də təhsil, ünsiyyət və intellektual fəaliyyətin strukturunu müəyyənləşdirən fundamental vasitə kimi çıxış edir. Bu baxımdan yazı sistemi yalnız dilin qrafik ifadəsi deyil, eyni zamanda düşüncə formalarının təşəkkülündə iştirak edən mühüm amildir. Tarixi inkişaf prosesində Azərbaycan türklərinin uzun müddət ərzində ərəb qrafikalı əlifbadan istifadə etməsi, dini və klassik ədəbiyyatla əlaqələrin qorunmasında müəyyən rol oynamışdır. Lakin bu yazı sisteminin Azərbaycan dilinin fonetik və morfoloji xüsusiyyətlərinə uyğunlaşmaması zaman keçdikcə ciddi çətinliklər yaratmışdır. Ərəb əlifbasının struktur xüsusiyyətləri, xüsusilə sait səslərin qeyri-sabit və çox vaxt işarəsiz ifadə olunması, oxu prosesində qeyri-müəyyənlik yaradırdı. Bununla yanaşı, bir qrafik işarənin müxtəlif fonetik dəyərlər daşıması yazılı mətnlərin düzgün və sürətli qavranılmasını çətinləşdirirdi. Yazı sisteminin kontekst asılılığı oxucudan əlavə dil təcrübəsi və təxmin etmə bacarığı tələb edir, bu isə ilkin savadlanma mərhələsində olan fərdlər üçün ciddi maneəyə çevrilirdi. Nəticədə yazı ilə danışıq dili arasında müəyyən uyğunsuzluq yaranır, bu da dilin tədrisində metodoloji problemlərə səbəb olurdu. Digər tərəfdən, qrafik mürəkkəblik və ortoqrafiyada qeyri-sabitlik yazı vərdişlərinin formalaşmasını ləngidir, tədris prosesində vaxt və resurs itkisinə gətirib çıxarırdı. Bu vəziyyət xüsusilə kütləvi təhsil modelinin formalaşmağa başladığı dövrdə daha qabarıq şəkildə özünü göstərirdi. Belə ki, sadə və sürətli öyrənilə bilən yazı sisteminin olmaması təhsilin inkişafını məhdudlaşdıran amillərdən birinə çevrilmişdir.

Məhz bu səbəbdən XIX əsrin sonu – XX əsrin əvvəllərində fəaliyyət göstərən maarifçi ziyalılar, əlifba məsələsini dar dilçilik çərçivəsindən çıxararaq daha geniş ictimai kontekstdə qiymətləndirməyə başlamışdılar. Onların yanaşmalarında əlifba islahatı təhsil səviyyəsinin yüksəldilməsi, ictimai şüurun formalaşdırılması və ümumilikdə cəmiyyətin modernləşməsi prosesinin ayrılmaz tərkib hissəsi kimi təqdim olunurdu. Bu baxımdan əlifba problemi yalnız yazı texnikasının təkmilləşdirilməsi deyil, həm də sosial inkişafın sürətləndirilməsi üçün zəruri şərt kimi dərk edilirdi.

**Əsas mətn**

Əlifba islahatını yalnız qrafik yenilənmə deyil, həm də dil, maarifçilik və milli şüurun vəhdətindən ibarət kompleks bir məsələ hesab edən ziyalılardan biri də Fərhad Ağazadə idi. Onun üçün əlifba dəyişikliyi yalnız vizual yenilik deyil, həm də dilin inkişafına və milli şüurun yüksəlişinə xidmət edən genişmiqyaslı bir mədəniyyət hadisəsi idi. Bu baxımdan F.Ağazadə əlifba islahatını intellektual yüksəlişin zəruri şərtlərindən biri kimi qəbul edirdi.

Ağazadənin konseptual baxışları bir neçə əsas istiqamətdə ümumiləşdirilə bilər. İlk növbədə, o, fonetik uyğunluq prinsipini əlifba quruculuğunun fundamental meyarı kimi irəli sürürdü. Onun fikrincə, yazı sistemi dilin səs tərkibini maksimum dəqiqliklə əks etdirməli, hər bir fonem üçün aydın və sabit qrafik qarşılıq təqdim etməlidir. Əks halda, yazı ilə danışıq arasında yaranan uyğunsuzluq tədris prosesində əlavə çətinliklər yaradır və ilkin savadlanma mərhələsini ləngidir. İkinci mühüm istiqamət maarifçilik yönümlü idi. Ağazadə əlifba islahatını geniş kütlələrin təhsilə cəlb olunması baxımından strateji vasitə kimi qiymətləndirirdi. Onun yanaşmasına görə, sadə, sistemli və öyrənilməsi asan olan yazı sistemi kütləvi savadlanmanın əsas şərtlərindən biridir. Bu mövqe onu əlifba məsələsini yalnız filoloji problem deyil, sosial inkişaf və mədəni tərəqqi kontekstində şərh edən maarifçilər sırasında ön sıralara çıxarır. Üçüncü istiqamət isə praktik yanaşma ilə bağlıdır. Fərhad bəy nəzəri mülahizələrlə kifayətlənməyərək, əlifba dəyişikliklərinin konkret tarixi və ictimai şəraitdə necə tətbiq oluna biləcəyini əsas götürürdü. Bu baxımdan onun mövqeyi ideyaların reallaşdırılmasına yönəlmiş praqmatik mahiyyət daşıyırdı. O, islahatın mərhələli şəkildə həyata keçirilməsinin, müəllim hazırlığının, dərslik bazasının yenilənməsinin və ictimai maarifləndirmənin vacibliyini xüsusi vurğulayırdı.

Bu ideyaların praktik müstəviyə daşınmasında Ağazadənin pedaqoji fəaliyyəti, xüsusilə 1906- cı ildə keçirilən ilk Azərbaycan Müəllimlər Qurultayı çərçivəsində iştirakı diqqətəlayiqdir. (İsaxanlı, 2011: 48) Həmin qurultay dövrün qabaqcıl müəllim və maarifçilərini bir araya gətirərək təhsil sisteminin yenidən təşkili, tədris metodlarının təkmilləşdirilməsi və əlifba məsələsinin müzakirəsi üçün mühüm platforma rolunu oynamışdır. Ağazadə buradakı çıxışlarında yazı sisteminin sadələşdirilməsinin tədris prosesinə birbaşa təsirini əsaslandırmış, yeni əlifbaya keçidin müəllimlərin işini asanlaşdıracağını və şagirdlərin savadlanma tezliyini artıracağını vurğulamışdır. Onun bu mövqeyi əlifba islahatının pedaqoji əsaslarının formalaşmasına mühüm töhfə kimi qiymətləndirilə bilər (Qasımov, 2019: 33).

XX əsrin əvvəllərində əlifba məsələsi artıq nəzəri müzakirə səviyyəsindən çıxaraq konkret qərarların qəbul edildiyi mərhələyə qədəm qoymuşdur. Bu kontekstdə F.Ağazadə latın qrafikasına keçidi açıq və əsaslandırılmış şəkildə müdafiə edən ziyalılardan biri kimi çıxış etmişdir. Onun fikrincə, latın əlifbası fonetik prinsipə daha uyğun quruluşu ilə Azərbaycan dilinin səs sistemini daha dəqiq əks etdirə bilir. Bu isə yazı və oxu prosesinin sadələşdirilməsi ilə yanaşı, təhsil sisteminin ümumi effektivliyinin yüksəlməsinə xidmət edir.

F.Ağazadə latın qrafikasının üstünlüklərini yalnız daxili dil amilləri ilə məhdudlaşdırmırdı. O, bu əlifbanın beynəlxalq elmi mühitə inteqrasiyanı asanlaşdırdığını, müxtəlif xalqlar arasında intellektual mübadiləni sürətləndirdiyini də qeyd edirdi və beləliklə cəmiyyətin müasirləşməsi ilə əlaqələndirirdi. Onun əlifba islahatına münasibəti həm nəzəri əsaslandırma, həm də praktik tətbiq baxımından sistemli xarakter daşıyır. Onun Müəllimlər Qurultayındakı fəaliyyəti isə bu ideyaların yalnız elmi müzakirə səviyyəsində qalmadığını, real təhsil siyasətinə təsir göstərmək potensialına malik olduğunu nümayiş etdirir. Fərhad bəyin fikrincə, yazı sistemi sadəcə ünsiyyət vasitəsi deyil, həm də insanların düşüncə tərzini formalaşdıran güclü bir mədəniyyət alətidir. Məhz bu səbəbdən, o əlifba dəyişikliyini cəmiyyətin intellektual baxımından da yenilənməsi üçün ən vacib addımlardan biri sayırdı.

Əlifba islahatı məsələsinin Azərbaycan ictimai fikrində təkamülü ardıcıl və mərhələli xarakter daşıyır. Bu prosesdə Mirzə Fətəli Axundzadə və Fərhad Ağazadə kimi ziyalıların fəaliyyəti bir-birini tamamlayan iki fərqli mərhələni təmsil edir. Əgər Axundzadə əlifba problemini ilk dəfə nəzəri və konseptual səviyyədə formalaşdıraraq onu ictimai müzakirə predmetinə çevirmişdirsə, Ağazadə həmin ideyaların konkret tarixi şəraitdə həyata keçirilməsi

üçün mübarizə aparmışdır. Buna görə də, onların düşüncələrində sadəcə fərqliliklər yox, həm də bir-birini tamamlayan güclü bir fikir bağlılığı görünür.

Mirzə Fətəli Axundzadə əlifba islahatı məsələsinə sərt yanaşma sərgiləyərək ərəb qrafikalı yazı sisteminin Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğun gəlmədiyini əsaslandırmış və onun köklü şəkildə dəyişdirilməsini təklif etmişdir. O, yeni əlifbanın fonetik prinsip əsasında qurulmasını zəruri hesab edir, hər səsin ayrıca qrafik işarə ilə ifadə olunmasının həm dilin tədrisini, həm də ümumilikdə maarif səviyyəsini yüksəldəcəyini irəli sürürdü. Bununla belə, onun təklifləri daha çox nəzəri xarakter daşıyır, mövcud ictimai-siyasi şəraitdə geniş tətbiq imkanları mümkünsüz idi. M.F.Axundzadənin əlifba islahatı konsepsiyasının ilkin mənbələr əsasında daha ətraflı öyrənilməsi məqsədilə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondunda mühafizə olunan materiallar tədqiqata cəlb edilmişdir. Həmin materiallarda mütəfəkkirin ərəb əlifbasının qrafik quruluşu, hərflərin yazılış və oxunuş xüsusiyyətləri, nöqtə və sait işarələrinin yaratdığı çətinliklər, eləcə də bu çatışmazlıqların savadlanma prosesinə təsiri ilə bağlı qeydləri əks olunmuşdur. Arxiv materialları göstərir ki, Axundzadə ərəb qrafikasının qüsurlarını yalnız nəzəri mülahizələrlə deyil, həm də konkret qrafik və pedaqoji misallarla əsaslandırmağa çalışmışdır. Bu materiallarda müəllif ərəb əlifbasında saitlərin qeyri-sabit ifadə olunmasını, nöqtələrin həlledici rolunu, şəmsi və qəməri hərflərin oxunuş zamanı yaratdığı çətinlikləri, eləcə də hərflərin sözün əvvəlində, ortasında və sonunda müxtəlif formalarda yazılmasının ilkin savadlanma prosesini mürəkkəbləşdirdiyini konkret nümunələrlə izah edir. Bu mülahizələr Axundzadənin əlifba islahatı konsepsiyasının praktik əsaslarını nümayiş etdirməklə yanaşı, sonrakı dövrdə Fərhad Ağazadənin irəli sürdüyü pedaqoji arqumentlərlə də səsləşir (Axundov, sax. vah. 41: 5-8; Axundov, sax. vah. 43: 3-4; Axundov, sax. vah. 44: 2-3). Məhz bu nöqtədə Fərhad Ağazadənin mövqeyi xüsusi əhəmiyyət kəsb edir. O, Axundzadənin irəli sürdüyü ideyaları qəbul etməklə yanaşı, onları praktik müstəviyə uyğunlaşdırmağa çalışmışdır. Hər iki maarifçinin baxışları arasında mühüm oxşarlıqlar mövcuddur. Onlar əlifba islahatını zəruri hesab edir, yazı sisteminin təkmilləşdirilməsini maarifin inkişafı ilə sıx əlaqələndirir və dilin sadələşdirilməsinin cəmiyyətin intellektual tərəqqisinə xidmət etdiyini vurğulayırdılar. Bununla yanaşı, fərqli cəhətlər də diqqət çəkir: Axundzadə daha çox ideyanın nəzəri əsaslarını qurur və radikal dəyişiklik modelini irəli sürür, Ağazadə isə bu ideyanı konkret tarixi reallıqlara uyğunlaşdıraraq mərhələli və tətbiq yönümlü yanaşmanı üstün tutur.

Beləliklə, əlifba islahatı məsələsinin inkişaf dinamikası kontekstində Axundzadə ilə Ağazadə arasında münasibət ideyadan praktikaya doğru keçidin məntiqi ardıcıllığını əks etdirir. Bu ardıcıllıq göstərir ki, hər hansı sosial-mədəni yeniliyin reallaşması yalnız nəzəri əsaslandırma ilə deyil, həm də onun tətbiq imkanlarının düzgün qiymətləndirilməsi ilə mümkün olur.

Əlifba islahatı məsələsinin inkişaf trayektoriyası yalnız fərdi baxışların toplusu kimi deyil, həm də müxtəlif tarixi mərhələlərdə formalaşmış yanaşmaların qarşılıqlı əlaqəsi kimi dərk olunmalıdır. Bu kontekstdə İsmayıl Qaspıralı və Fərhad Ağazadənin əlifba məsələsinə fərqli mövqeləri eyni zamanda bir-birini müəyyən mənada tamamlayan iki yanaşma kimi diqqət çəkir. Əgər əvvəlki bölmədə Axundzadə ilə bağlı ideyadan praktikaya keçidin daxili məntiqi izlənilirdisə, burada artıq həmin ideyaların türk dünyası miqyasında necə fərqli mənalar qazandığı aydın görünür.

İsmayıl Qaspıralı əlifba dəyişməsini milli tərəqqinin əsas şərti hesab etmirdi. O, M.F.Axundzadə və M.Şahtaxtlının müdafiə etdiyi yeni əlifba layihəsinə ehtiyatla yanaşır, problemin həllini ilk növbədə məktəbin, müəllimin və mətbuatın inkişafında görürdü. “Mətbuat millətin dilidir”, “Bir insanın dili nədirsə, millətin də mətbuatı odur” fikirləri də bunun bariz

nümunəsidir. Onun yanaşmasının əsasını cəmiyyətin mövcud mədəni və mənəvi dəyərlər sisteminə uyğunlaşma prinsipi təşkil edirdi. İsmayıl bəy Qaspıralı ərəb əlifbasının dərhal ləğv edilməsinin sosial müqavimət doğura biləcəyini nəzərə alaraq, onun islah olunmasını daha real və qəbul edilə bilən variant kimi qiymətləndirirdi. Bu mövqe onun ümumi maarifçilik strategiyası ilə də uzlaşırdı: dəyişikliklər kəskin deyil, tədricən həyata keçirilməli, cəmiyyət yeni əlifbaya uyğunlaşmaq üçün zaman qazanmalıdır (Tahirli, 2012: 2-4).

Buna qarşılıq olaraq Fərhad Ağazadə artıq daha fərqli tarixi mərhələnin nümayəndəsi kimi çıxış edirdi. XX əsrin əvvəllərində ictimai-siyasi şərait, təhsil sistemində baş verən dəyişikliklər və modernləşmə prosesinin sürətlənməsi daha qəti qərarların qəbulunu aktuallaşdırmışdı. Bu kontekstdə Ağazadə latın əlifbasına keçidi zəruri və gecikdirilməz addım kimi qiymətləndirir, yazı sisteminin köklü şəkildə yenilənməsinin maarifin inkişafına daha effektiv təsir göstərəcəyini əsaslandırırdı. Onun yanaşması məsələni artıq bir an belə vaxt itirmədən, səmərəli və paktik şəkildə həll etmək idi.

Bu iki mövqe arasındakı fərq yalnız fərdi baxışların müxtəlifliyi ilə deyil, əksinə, onların formalaşdığı ictimai-siyasi mühitlə sıx bağlıdır. Qaspıralının fəaliyyət göstərdiyi dövrdə milli oyanış hələ ilkin mərhələdə idi və ənənəvi dəyərlərlə uzlaşma vacib sayılırdı. Ağazadənin dövründə isə modernləşmə ideyaları daha geniş yayılmış, təhsil sistemində islahatların həyata keçirilməsi üçün sosial baza müəyyən dərəcədə formalaşmışdı. Beləliklə, Qaspıralı ilə Ağazadənin əlifba məsələsinə münasibəti ümumi inkişaf xəttində bir-birini istisna etməyən, əksinə, tamamlayan mərhələlər kimi qiymətləndirilə bilər. Birinci mərhələ adaptasiya və hazırlıq, ikinci mərhələ isə sistemli və məqsədyönlü dönüşüm mərhələsi kimi çıxış edir. Bu baxımdan əlifba islahatı prosesi təkcə ideyaların deyil, həm də tarixi şəraitin diktə etdiyi qərarların nəticəsi kimi dərk olunmalıdır.

**Nəticə**

Araşdırmalar göstərir ki, bu üç maarifçinin baxışları eyni məqsədə – milli maarifin inkişafına xidmət etsə də, yanaşmaları müxtəlif olmuşdur. Sadaladığımız proseslərin kulminasiya nöqtəsi kimi 1926-cı ildə keçirilən Bakı Türkoloji Qurultayı xüsusi əhəmiyyət kəsb edir. Fərhad Ağazadənin baxışları da məhz bu qurultay çərçivəsində aydın ifadə olunmuşdur. Qurultayda əlifba məsələsinin müzakirəsi onun müdafiə etdiyi praktik yanaşmanın aktuallığını təsdiqləyirdi. Bu platforma vasitəsilə əlifba islahatı artıq yalnız ideya səviyyəsində deyil, konkret qərarların qəbul edildiyi tarixi mərhələyə daxil olmuşdur.

Beləliklə, Bakı Türkoloji Qurultayı yalnız konkret qərarların qəbul edildiyi tədbir deyil, həm də bütövlükdə türk dünyasında dil və mədəniyyət məsələlərinin yeni mərhələyə qədəm qoymasının rəmzi kimi qiymətləndirilə bilər. Bu kontekstdə Ağazadənin fəaliyyəti və mövqeyi həmin tarixi prosesin ayrılmaz hissəsi kimi xüsusi əhəmiyyət daşıyır.

**Ədəbiyyat siyahısı**

Axundov, M. F. *Yeni əlifba layihəsindən nümunə*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, F. 2, sax. vah. 41.

Axundov, M. F. *Əlifba* [fars dilində]. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, F. 2, sax. vah. 43.

Axundov, M. F. (1838-1935-ci illər). *Risalə. Yeni əlifba layihəsinin surəti* [fars dilində]. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, F. 2, sax. vah. 44.

Axundov, M. F. (2005). *Əsərləri* (3 cilddə, III cild). Şərq-Qərb.

İsaxanlı, İ. (2011). *Azərbaycanda latın əlifbasına keçid və Fərhad Ağazadə*. Xəzər Universiteti Nəşriyyatı.
*Kaspi – maarifçilik meydanı*. (2016). Zərdabi LTD MMC.
https://ru.scribd.com/document/929088628/%C4%B0smay%C4%B1l-B%C9%99y-Qasp%C4%B1ral%C4%B1ya-Aid-Kitab
Qasımov, C. (2019). *Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər*. Gənclik.
Tahirli, A. F. (2012, 7 iyul). Köçərli: "İsmayıl Qaspıralı 'Tərcüman'ı ilə bizi ayıltdı". *Ədəbiyyat qəzeti*, (25). https://clb.az/elektron/Kocerli/meqale/65.pdf

**Nuranə Ələkbərova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: nuranaalakbarova25@gmail.com*
*ORCİD: 0009-0000-9738-3826*

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ VİLHELM TOMSEN İRSİ

**Xülasə**

Məqalə XX əsr türk dünyasının ən mühüm elmi-mədəni hadisələrindən biri olan 1926-cı il Bakı Birinci Türkoloji Qurultayının tarixi əhəmiyyətini və dahi Danimarka dilçisi Vilhelm Tomsenin elmi irsinin bu konfransdakı rolunu kompleks şəkildə tədqiq edir.

Tədqiqatda qurultayda müzakirə olunan əsas elmi istiqamətlər — ortaq türk dilinin fonetik, morfoloji və leksik problemləri, latın qrafikasına keçidlə bağlı əlifba islahatı və terminologiyanın standartlaşdırılması məsələləri təhlil olunur. Məqalənin əsas elmi yeniliyi 1893-cü ildə Orxon-Yenisey abidələrini deşifrə edərək müasir elmi türkologiyanın əsasını qoyan Vilhelm Tomsenin fəaliyyətinin qurultay platforması ilə konseptual əlaqəsini ortaya qoymasıdır. 84 yaşlı alimin qurultayın Rəyasət Heyətinə fəxri üzv seçilməsi həm onun türkologiya qarşısındakı xidmətlərinin rəsmi tanınması, həm də konfransın beynəlxalq elmi statusunun göstəricisi kimi qiymətləndirilir.

Sonda məqalədə sovet repressiyalarının qurultay nümayəndələrinə vurduğu ağır zərbələr fonunda, müasir dövrdə — 2026-cı ildə bu tarixi hadisənin 100 illik yubileyinin Azərbaycan Respublikası Prezidentinin rəsmi Sərəncamı və Türk Dövlətləri Təşkilatının qərarları çərçivəsində dövlət səviyyəsində yenidən aktuallaşması və ümumtürk inteqrasiyasına töhfələri şərh edilir.

***Açar sözlər:*** *Birinci Türkoloji Qurultay, Vilhelm Tomsen, Orxon-Yenisey abidələri, əlifba islahatı, Türkologiya, 100 illik yubiley, Dövlət Sərəncamı*

# THE FIRST TURKOLOGICAL CONGRESS AND VILHELM THOMSEN'S HERITAGE

**Abstract**

The article comprehensively analyzes the historical significance of the First Turkological Congress held in Baku in 1926, which was one of the most crucial scientific and cultural events of the 20th-century Turkic world, and investigates the conceptual role of the prominent Danish linguist Wilhelm Thomsen's academic legacy within this conference.

The study examines the main scientific trajectories discussed at the congress, including the phonetic, morphological, and lexical problems of the common Turkic language, alphabet reform regarding the transition to the Latin script, and the standardization of terminology. The core academic contribution of the article lies in establishing the theoretical connection between the congress and the work of Wilhelm Thomsen, who laid the foundation of modern scientific Turkology by deciphering the Orkhon-Yenisey inscriptions in 1893. The election of the 84-year-old scholar as an honorary member of the Presidium of the Congress is evaluated both as an official recognition of his merits to Turkology and as an indicator of the international scientific status of the conference.

Finally, against the backdrop of the severe blows dealt to the congress delegates by Soviet repressions, the article interprets the contemporary revival of this historical event on its 100th

anniversary in 2026. This revival is contextualized within the framework of the official Decree of the President of the Republic of Azerbaijan and the declarations of the Organization of Turkic States, highlighting its contributions to modern pan-Turkic integration.
***Key words:*** *First Turkological Congress, Wilhelm Thomsen, Orkhon-Yenisey inscriptions, alphabet reform, Turkology, 100th anniversary, Presidential Decree*

**Giriş**

I Türkoloji Qurultay 1926-cı ildə Bakı şəhərində keçirilmişdir. Cəmi 9 il əvvəl yaradılmış Sovetlər Birliyinin, keçmiş imperiyanın ərazisində yenicə bərqərar olmuş Türkiyə Cümhuriyyətinin (cəmi 2 illik), eləcə də Avropadakı ideoloji mübarizənin mühüm bir hissəsi sayılan I Türkoloji Qurultay türkologiya elminin tarixində ilk növbədə siyasi bir hadisə kimi yadda qalıb. Sovet imperiyasında slavyanlardan sonra kəmiyyətcə ikinci olan türklərə qarşı yönəlmiş dil, əlifba,mədəniyyət pərdəli manqurtlaşdırma, soyqırım və emiqrasiya siyasəti, Türkiyə Cümhuriyyətinin türk xalqları ilə birgə türk xalqlarının birliyinin konsepsiyası olacaq dil, əlifba, mədəniyyət siyasəti və Avropanın (konkret olaraq Fransanın, Almaniya və İngiltərənin) Şərqə və Sovetlərə qarşı strategiyasının müəyyənləşməsində I Türkoloji qurultayın müstəsna rolu və əhəmiyyəti var (Nərimanoğlu və Ağakişiyev, 2006: 5).

**Əsas mətn**

Qurultayda müxtəlif ölkələrdən türkoloqlar, alimlər və ziyalılar iştirak etmişdilər. Birinci Türkoloji Qurultay türkologiya elmin inkişafında mühüm mərhələ kimi çıxış edərək türk dillərinin elmi tədqiqi və sistemləşdirilməsi sahəsində yeni bir istiqamətin formalaşmasına zəmin yaratmışdır. Qurultayda əsas müzakirə mövzularından biri türk dillərinin ortaq problemləri olmuşdur. Bu məsələyə yanaşma zamanı dillər arasında fonetik, morfoloji və leksik fərqliliklərin səbəbləri, eləcə də onların tarixi inkişaf prosesində qazandığı xüsusiyyətlər diqqət mərkəzinə çəkilmişdir. Eyni zamanda, ortaq dil bazasının müəyyənləşdirilməsi və müqayisəli tədqiqatların genişləndirilməsi zərurəti xüsusi vurğulanmışdır.

Qurultayın digər mühüm istiqaməti əlifba islahatı məsələsi olmuşdur. Latın qrafikasına keçid ideyası türk dillərinin fonetik strukturuna daha uyğun yazı sisteminin yaradılması məqsədi daşıyırdı. Bu yanaşma yazı ilə tələffüz arasında mövcud olan uyğunsuzluqları aradan qaldırmaq, eyni zamanda türk xalqları arasında yazı ünsiyyətini asanlaşdırmaq məqsədi ilə irəli sürülmüşdür. Əlifba məsələsi yalnız texniki bir problem kimi deyil, həm də mədəni və ideoloji transformasiyanın tərkib hissəsi kimi dəyərləndirilmişdir. Türk maarifçilərinin XIX yüzillikdən bəri apardığı yeni əlifba məsələsiiki qola şaxələnmişdi: ərəb və latın qrafikası əsasında türk əlifbası (Nərimanoğlu və Ağakişiyev, 2006: 9). Qızğın mübahisə və müzakirələrdən sonra səs çoxluğu ilə latıncılar qalib gəldi.

Terminologiyanın standartlaşdırılması da qurultayın əsas elmi istiqamətlərindən biri olmuşdur. Termin məsələsində 4 qrupa ayrılan alimlərin əsas mübahisəsi ərəbləşmə, farslaşma, Avropalaşma, türkləşmə, demokratlaşma istiqamətində idi (Nərimanoğlu və Ağakişkiyev, 2006: 10). Müxtəlif türk dillərində elmi və texniki terminlərin fərqli formalar alması ünsiyyət və tədris prosesində müəyyən çətinliklər yaratdığından, bu sahədə ortaq yanaşmanın formalaşdırılması vacib hesab edilmişdir. Terminoloji vahidlik ideyası türk dilləri arasında elmi inteqrasiyanı gücləndirmək və müasir elmi biliklərin daha effektiv şəkildə ötürülməsini təmin etmək məqsədi daşımışdır.

Budan əlavə, türk xalqları arasında elmi və mədəni əlaqələrin inkişafı qurultayın ümumi konsepsiyasında mühüm yer tutmuşdur. Bu istiqamət müxtəlif türk toplumları arasında tarixi,

mədəni və elmi bağların gücləndirilməsinə xidmət edirdi. Qurultay iştirakçıları hesab edirdilər ki, ortaq mədəni irsin öyrənilməsi və təbliği türk dünyasında inteqrasiya proseslərinin dərinləşməsinə mühüm töhfə verə bilər.

Ümumilikdə, Birinci Türkoloji Qurultay türkoloji elmin inkişafında dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu tədbir türk dillərinin sistemli şəkildə öyrənilməsinə ciddi təkan vermiş, ortaq əlifba ideyasını elmi müzakirə predmetinə çevirmiş və türk xalqları arasında mədəni-elmi inteqrasiyanın güclənməsinə şərait yaratmışdır. Qurultaydan sonra bu istiqamətlərdə aparılan tədqiqatlar daha sistemli və institusional xarakter almışdır.

1926-cı ildə Birinci Türkoloji Qurultay çərçivəsində təşkilati strukturun formalaşdırılması zamanı türkologiya elminin görkəmli nümayəndələri Rəyasət Heyətinin fəxri üzvləri kimi seçilmişdilər. Bu sıraya Əli bəy Hüseynzadə, Vilhelm Banq, Mustafa Quliyev, Nikolay Marr, Anatoli Lunaçarski və Vilhelm Tomsen kimi nüfuzlu alim və ictimai xadimlərin daxil edilməsi qurultayın həm elmi, həm də ideoloji çəkisini artıran mühüm amillərdən biri olmuşdur. Bu heyətin tərkibi müxtəlif elmi məktəbləri və yanaşmaları təmsil etməklə yanaşı, türkoloji tədqiqatların beynəlxalq xarakter daşıdığını da nümayiş etdirirdi. Xüsusilə Tomsen və Banq kimi Avropa alimlərinin, eləcə də Marr və Lunaçarski kimi sovet ideoloqlarının eyni platformada təmsil olunması qurultayın yalnız akademik deyil, həm də siyasi və mədəni dialoq məkanı olduğunu göstərirdi. Bu baxımdan, fəxri Rəyasət Heyətinin tərkibi türkoloji elmin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində simvolik və praktik əhəmiyyətə malik olmuşdur.

Danimarka Kral Elmlər Cəmiyyətinin prezidenti, professor Vilhelm Tomsen (Wilhelm Thomsen, 1842–1927) XIX əsrin sonu və XX əsrin əvvəllərində dünya dilçilik elminin və müqayisəli-tarixi dilçiliyin ən parlaq simalarından biri olmuşdur. Tomsen Kopenhagen Universitetində təhsil alarkən ilkin olaraq teologiya ilə maraqlansa da, sonradan diqqətini tamamilə klassik dillər, hind-avropa dilçiliyi və fin-uqor dillərinin tədqiqinə yönəltmişdir. Onun 1869-cu ildə müdafiə etdiyi doktorluq dissertasiyası German dillərinin fin dillərinə təsiri mövzusuna həsr olunmuş və bu əsər Avropa dilçiliyində böyük əks-səda doğurmuşdur. Lakin Tomsenin adını dünya elm tarixinə qızıl hərflərlə yazan və onu bəşəriyyətin ən dahi dilçilərindən birinə çevirən hadisə qədim türk run yazılarının sirrini açması olmuşdur.

XVIII əsrin əvvəllərindən etibarən Sibirdə, xüsusilə Yenisey çayı vadisində və sonradan Monqolustanda, Orxon çayı hövzəsində üzərində naməlum işarələr olan nəhəng daş abidələr aşkar edilmişdi. Avropa alimləri uzun illər boyu bu yazıların kimə məxsus olduğunu müəyyənləşdirə bilmirdilər. 1889-cu ildə Rus Coğrafiya Cəmiyyətinin Şərqi Sibir şöbəsi N.M.Yadrintsevin başçılığı ilə Monqolustana elmi ekspedisiya təşkil edir, bu ekspedisiya ilə Orxon-Yenisey abidələrinin öyrənilməsinin yeni dövrü başlanır (Rəcəbəv və Məmmədov, 1993: 9). Yadrintsev tərəfindən Orxon vadisində tapılan və üzərində həm naməlum qədim runik yazılar, həm də Çin heroqlifləri olan iki nəhəng abidə (Kül tigin və Bilgə xaqan abidələri) sirrin açılması üçün mühüm açar rolunu oynadı. Dünyanın aparıcı elmi mərkəzləri bu yazını oxumaq üçün rəqabətə girsələr də, həlledici uğuru məhz Vilhelm Tomsen qazandı.

Tomsen dahiyanə bir kombinatorika və riyazi-linqvistik analiz metodu tərəfindən yazının strukturunu dərindən araşdırdı. O müəyyən etdi ki, bu əlifba 38 işarədən ibarətdir və ən əsası, burada türk dilinin ən fundamental qanunauyğunluğu — səs ahəngi qanunu tam dəqiqliyi ilə nəzərə alınmışdır. Əlifbada qalın və incə samitlər üçün fərqli işarələr tətbiq olunmuşdu. 1893- cü il noyabr ayının 25-də V.Tomsen Orxon-Yenisey yazısı abidələrinin oxunmasına açar tapdı. Tomsen Çin mətnlərindəki xüsusi adlarla run mətnindəki təkrar olunan işarə qruplarını müqayisə edərək, ilk

olaraq mətndəki ilk sözü — "Tengri" (Tanrı) kəlməsini oxumağa müvəffəq oldu. Bunun ardınca isə "Türk" və "Kül tigin" sözlərini deşifrə etdi.

Həmin ilin dekabr ayının 15-də Danimarka Kral Elmlər Akademiyasının iclasında V.Tomsen run yazılarının (Orxon-Yenisey yazılarının) açılması haqqında məlumat verdi (Rəcəbli, 2006: 27).

Bu kəşf dünya elmi mühitində partlayış effekti yaratdı. Çünki o dövrə qədər Avropada hakim olan avrosentrist baxış, köçəri həyat sürən türk xalqlarının qədim dövrlərdə yüksək mədəniyyətə və özünəməxsus mükəmməl yazı sisteminə malik ola biləcəyini qətiyyən qəbul etmirdi. Tomsen isə sübut etdi ki, hələ VIII əsrdə (və ondan daha əvvəl) türklərin zəngin ədəbi-fəlsəfi dili, dövlətçilik ənənəsi və xüsusi yazı mədəniyyəti mövcud olmuşdur.

Tomsen 1896-cı ildə özünün fundamental əsərini — "Inscriptions de l'Orkhon déchiffrées" (Açılmış Orxon kitabələri) kitabını nəşr etdirdi. Alim bununla da kifayətlənmədi, qədim mətnlərin qrammatik strukturunu, fonetikasını və leksikasını dərindən tədqiq edərək müasir elmi türkologiyanın əsasını qoydu. Onun bu araşdırmaları dilçilik elmində müqayisəli-tarixi metodun ən uğurlu tətbiqi nümunəsi hesab olunur. Tomsen həmçinin Şərqi Türkistandan (Turfandan) tapılmış qədim uyğur mətnlərinin və xristian-türk abidələrinin öyrənilməsində də yaxından iştirak etmiş, türk dillərinin təsnifatı sahəsində qiymətli mülahizələr irəli sürmüşdür.

Qurultayın keçirildiyi il Tomsenin artıq 84 yaşı var idi, o qurultayda şəxsən iştirak etməsə də, onun elmi nüfuzu səbəbilə fəxri üzv seçilməsi onun türkoloji elmdəki yerinin rəsmi şəkildə tanınması idi. Tomsenin tətbiq etdiyi müqayisəli-tarixi metod və filoloji dəqiqlik prinsipləri sonrakı türkoloji tədqiqatların metodoloji bazasını formalaşdırmış, bu sahədə aparılan araşdırmalar üçün etibarlı elmi çərçivə yaratmışdır.

Tomsen bu qurultayda fiziki olaraq iştirak etməsə də, onun elmi irsi və ideyaları müzakirələrin mərkəzində dayanmış, bir çox çıxış və tezislərdə istinad nöqtəsi kimi istifadə olunmuşdur. Bu baxımdan, Tomsenin rolu birbaşa iştirakdan daha çox, nəzəri və konseptual təsir səviyyəsində özünü göstərmişdir.

Qurultay çərçivəsində türk dillərinin genezisi, tarixi inkişaf mərhələləri və struktur xüsusiyyətləri ilə bağlı aparılan müzakirələrdə Tomsenin araşdırmaları əsas elmi dayaqlardan biri kimi çıxış etmişdir. Onun Orxon abidələri üzərində apardığı tədqiqatlar türk dillərinin qədim və müstəqil dil ailəsi kimi mövcudluğunu sübut etmiş, bu isə qurultay iştirakçıları üçün mühüm nəzəri əsas yaratmışdır. Türk dillərinin vahid kökə malik olması və onların sistemli şəkildə müqayisəli analizinin aparılması ideyası Tomsenin elmi yanaşmasının birbaşa təsiri ilə formalaşmışdır.

Bununla yanaşı, qurultayda müzakirə olunan əlifba və dil islahatı məsələlərində də Tomsen irsinin dolayı təsiri hiss olunurdu. Onun qədim türk yazı sistemlərinə dair araşdırmaları yazı ilə dil arasındakı münasibətin tarixi dinamikasını ortaya qoymuş, bu isə yeni əlifba layihələrinin hazırlanmasında fonetik uyğunluq prinsipinin ön plana çəkilməsinə səbəb olmuşdur. Xüsusilə latın qrafikasına keçid ideyasının əsaslandırılmasında dilin səs sisteminə uyğun yazı modelinin seçilməsi zərurəti Tomsenin elmi prinsipləri ilə uzlaşırdı.

Tomsenin irsinin digər mühüm cəhəti onun türk mədəniyyətinə kompleks yanaşmasında özünü göstərir. O, dil materiallarını yalnız linqvistik obyekt kimi deyil, həm də tarixi və mədəni məlumat daşıyıcısı kimi qiymətləndirmişdir. Bu yanaşma qurultay iştirakçıları tərəfindən də davam etdirilmiş, dil, tarix və mədəniyyət arasında qarşılıqlı əlaqə türkoloji tədqiqatların əsas istiqamətlərindən birinə çevrilmişdir. Beləliklə, Tomsenin elmi mirası türkologiya elmində interdisiplinar yanaşmanın formalaşmasına da mühüm təsir göstərmişdir.

Qurultayda Vilhelm Tomsenin Rəyasət Heyətinin fəxri üzvlərindən biri seçilməsi onun türkoloji elm qarşısındakı xidmətlərinin rəsmi şəkildə tanınmasının göstəricisi idi. Bu fakt eyni zamanda göstərir ki, Tomsenin təsiri yalnız konkret elmi nəticələrlə məhdudlaşmır, o, bütövlükdə türkoloji düşüncənin istiqamətini müəyyənləşdirən simvolik fiqurlardan biri kimi qəbul olunurdu. Onun qurultayda fiziki iştirak etməməsinə baxmayaraq, elmi nüfuzu və ideyaları bu mötəbər toplantının intellektual mühitində mühüm yer tutmuşdur.

Müasir dövrdə, xüsusilə 2026-cı ildə bu mühüm tarixi hadisənin 100 illiyi qeyd olunarkən, Birinci Türkoloji Qurultayın elmi və mədəni irsi yenidən aktuallaşmışdır. Bu yubiley çərçivəsində müxtəlif elmi konfranslar və simpoziumlar təşkil edilir, türk dünyasının ortaq mədəni irsi daha geniş şəkildə tədqiq və təbliğ olunur. Eyni zamanda, gənc tədqiqatçılar üçün yeni elmi layihələr və əməkdaşlıq imkanları təşviq edilir ki, bu da qurultayın ideyalarının müasir elmi mühitdə davamlılığını təmin edir.

Azərbaycan Respublikası bu tarixi və intellektual irsə dövlət səviyyəsində yüksək qiymət verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam bu sahədə strateji yol xəritəsi rolunu oynayır  Sərəncamın preambula hissəsində qurultayın tarixi missiyası və mütərəqqi ideyaları xüsusi qeyd olunur:

"Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır" (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2025)

Sərəncamda, eyni zamanda, qurultaydan sonrakı dövrdə repressiyaların vurduğu ağır zərbələr və müstəqillik dövründə bu ideyaların yenidən dirçəlməsi prosesi belə ifadə olunur:

"Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır" (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2025).

Prezidentin sərəncamında qarşıya qoyulan konkret tapşırıqlar və icra mexanizmləri isə növbəti hüquqi bəndlərlə təsbit edilmişdir:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Bu sərəncam həm Birinci Türkoloji Qurultayın, həm də onun fəxri rəyasət heyətində təmsil olunan Vilhelm Tomsen kimi dahi şəxsiyyətlərin elmi irsinin gələcək nəsillərə ötürülməsi və ümumtürk inteqrasiyasının möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

**Nəticə**

Nəticə etibarilə, Vilhelm Tomsen irsinin Birinci Türkoloji Qurultaydakı rolu çoxşaxəli və dərin xarakter daşıyır. Onun elmi yanaşması, metodoloji prinsipləri və əldə etdiyi nəticələr qurultayın elmi məzmununun formalaşmasına, müzakirə istiqamətlərinin müəyyənləşdirilməsinə və türkoloji tədqiqatların gələcək inkişaf yoluna mühüm təsir göstərmişdir. Bu baxımdan, Tomsen yalnız türkoloji elmin banilərindən biri deyil, həm də onun institusionallaşması prosesində dolayı, lakin həlledici rol oynayan alim kimi qiymətləndirilməlidir.

**Ədəbiyyat siyahısı**

Nərimanoğlu, K. V. və Ağakişiyev, Ə. (2006). *1926-cı il I Bakı Türkoloji Qurultayı*. Bakı: Çinar-Çap.

Rəcəbli, Ə. (2006). *Qədim türk yazısı abidələrinin dili* (I hissə). Bakı: Nurlan.

Rəcəbov, Ə. və Məmmədov, Y. (1993). *Orxon Yenisey Abidələri.* Bakı: Yazıçı

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2025, 22 oktyabr). *Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi haqqında*. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https://president.az/az/articles/view/70396

**Səadət Mürşüdova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük elmi işçi*
*E-mail: konsuello79@mail.ru*
*ORCİD: 0009-0005-1434-4319*

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ A.N.SAMOYLOVİÇİN TÜRKOLOJİ BAXIŞLARI

**Xülasə**

Məqalədə XX əsrin birinci rübündə türkologiya elminin ictimai-siyasi və ideoloji şəraiti, 1926-cı ildə Bakıda keçirilmiş Birinci Ümumittifaq Türkologiya Qurultayının tarixi əhəmiyyəti və bu kontekstdə görkəmli şərqşünas-türkoloq, akademik Aleksandr Nikolayeviç Samoyloviçin elmi baxışları və faciəvi taleyi araşdırılır. Tədqiqatda əlifba islahatları (ərəb qrafikasından latın qrafikasına keçid) ətrafında gedən elmi-ideoloji mübarizələr, sovet totalitar rejiminin latınlaşdırma siyasətinin pərdəarxası məqamları təhlil olunur. Arxiv sənədlərinin, xüsusilə alimin NKVD arxivində qorunan № P-9502 saylı istintaq işinin materialları əsasında A.N. Samoyloviçin ölüm tarixi və səbəbi ilə bağlı sovet dövründə yaradılmış uydurma faktlar təkzib edilir. Məqalədə şərqşünaslıq elminin aparıcı simalarının, o cümlədən Azərbaycan intellektual elitasının (B. Çobanzadə, H. Cavid, S.M. Qənizadə və b.) "Böyük Terror" illərində saxta ittihamlarla (pantürkizm, xarici casusluq) məhv edilməsi prosesi institusional və sənədli müstəvidə işıqlandırılır.

***Açar sözlər:*** *Birinci Türkologiya Qurultayı, A.N. Samoyloviç, əlifba islahatı, latınlaşdırma, repressiya, NKVD istintaq işi, Böyük Terror, şərqşünaslıq*

# THE TURKOLOGICAL PERSPECTIVES OF A.N. SAMOYLOVICH IN THE CONTEXT OF THE FIRST CONGRESS OF TURKOLOGY

**Abstract**

The article examines the socio-political and ideological conditions of Turkology in the first quarter of the 20th century, the historical significance of the First All-Union Turkological Congress held in Baku in 1926, and, in this context, the scientific views and tragic fate of the prominent Orientalist and Turkologist, Academician Aleksander Nikolayevich Samoylovich. The study analyzes the scientific and ideological struggles surrounding the alphabet reform (transition from Arabic to Latin script) and the behind-the-scenes motives of the Soviet secularization policy through Latinization. Based on archival documents, particularly the materials of the scholar's NKVD interrogation file No. P-9502, the fabricated facts created during the Soviet era regarding the date and cause of A.N. Samoylovich's death are thoroughly refuted. Furthermore, the article sheds light on the institutional and documentary aspects of the liquidation of leading figures in Oriental studies, including the Azerbaijani intellectual elite (B. Chobanzade, H. Javid, S.M. Ganizade, etc.), under false accusations (Pan-Turkism, foreign espionage) during the years of the Great Terror.

***Key words:*** *First Turkological Congress, A.N. Samoylovich, alphabet reform, Latinization, repression, NKVD investigation file, Great Terror, Oriental studies*

XX əsrin əvvəlləri, xüsusilə 1920-ci illər Avrasiya məkanında köklü geosiyasi dəyişikliklər, imperiyaların çökməsi və yeni ideoloji sistemlərin qurulması dövrüdür. Bu tarixi kəsikdə Rusiya imperiyasının süqutundan sonra türk xalqlarının mədəni, dil və siyasi intibah meyilləri yeni bir müstəviyə qədəm qoydu. 1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulması türk dünyasında milli dil siyasətinin və elmi düşüncənin institusionallaşması üçün təməl daşı oldu. Baxmayaraq ki, 1920-ci ilin aprelində Azərbaycan bolşevik XI Qırmızı Ordusu tərəfindən işğal edildi və ölkədə kommunist rejimi bərqərar oldu, milli ziyalıların başlatdığı mədəni və dil islahatları dalğasını tamamilə dayandırmaq mümkün olmadı.

Yeni sovet rəhbərliyi ilk onillikdə yerli xalqların rəğbətini qazanmaq və "şərq siyasətini" yürütmək üçün müəyyən mədəni islahatlara göz yummağa, hətta onları öz ideoloji maraqları çərçivəsində dəstəkləməyə məcbur idi. Bu dövrdə sovet şərqşünaslığı və türkologiyası həm çar dövründən qalan fundamental akademik ənənələri qoruyub saxlayır, həm də sovet dövlətinin regional idarəçilik və "mədəni inqilab" layihələrinə cəlb olunurdu.

Məhz belə bir ziddiyyətli və dinamik tarixi fonda 1926-cı ildə Bakıda keçirilən Birinci Ümumittifaq Türkologiya Qurultayı dünya elm tarixinə qızıl hərflərlə yazıldı. Bu qurultay təkcə dilçilik və antropologiya problemlərinin müzakirə edildiyi elmi forum deyil, həm də türk xalqlarının gələcək mədəni-tarixi inkişaf istiqamətini müəyyən edən strateji bir platforma idi.

1920-ci illərdə Bakı şəhəri sadəcə nəhəng bir sənaye və neft mərkəzi deyil, həm də sovet məkanında və onun hüdudlarından kənarda türk xalqlarının elmi, ədəbi və mədəni intibah ocağına çevrilmişdi. Bu status təsadüfi qazanılmamışdı. Cümhuriyyət dövründə atılan addımlar – Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil şəbəkəsinin milliləşdirilməsi, Bakı Dövlət Universitetinin təsisi və savadsızlığın ləğvi istiqamətindəki planlar Bakıda güclü bir elmi mühit və intellektual potensial formalaşdırmışdı.

1926-cı il fevralın 26-da saat 19:00-da Bakıdakı Türk Mədəniyyət Sarayında I Ümumittifaq Türkologiya Qurultayının təntənəli açılışı baş tutdu. Bu forum dünya miqyasında analoqu olmayan bir elmi hadisə idi. Qurultayın rəsmi açılışını Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (AzMİK) və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu etdi. O, öz nitqində fəxrlə qeyd etdi ki, dünya tarixində ilk dəfə olaraq bu miqyasda elmi türkologiya qurultayı məhz Azərbaycan torpağında (ərazisində) keçirilir.

Qurultayın coğrafiyası və iştirakçı heyəti heyranedici idi. Forumda SSRİ-nin bütün ittifaq və muxtar respublikalarından, türk dilli vilayətlərindən 131 alim-nümayəndə, habelə dünyanın müxtəlif ölkələrindən 30 xarici alim iştirak edirdi. SSRİ-nin mərkəzi elmi ocaqlarından (Leninqrad, Moskva, Kazan, Kiyev) ən görkəmli şərqşünaslar Bakıya axışmışdı:

V.V. Bartold – dünyaşöhrətli tarixçi və islamşünas;

S.F. Oldenburq – Rusiya Elmlər Akademiyasının daimi katibi, görkəmli indoloq;

N.Y. Marr – dilçi, yeni dil təliminin banisi;

A.N. Samoyloviç – türkologiyanın lideri;

E.D. Polivanov, N.F. Yakovlev, V.A. Qordlevski, N.K. Dmitriyev və başqaları.

Xarici nümayəndə heyətinin tərkibi isə qurultayın beynəlxalq nüfuzunu birə-beş artırırdı. Türkiyə Respublikasını Məhəmməd Fuad Köprülüzadə, Əlibəy Hüseynzadə, Sami Rufət, Nəcib Asim, Fuad Raif kimi nəhənglər təmsil edirdi. Avropa elmi elitasından Teodor Menzel, Paul Vitek, Valter Radbold, V. Banq, Q. Yakob (Almaniya), Yuliuz Meysaroş, B. Munkaçi (Macarıstan), J. Deni (Fransa), L. Bonelli (İtaliya), Setələ (Finlandiya), Sven Hedin (İsveç) və İrandan Məcid Soltanə, İbrahim Şəbistari kimi alimlər Bakıdakı müzakirələrdə yaxından iştirak edirdilər.

Qurultayın Rəyasət Heyətinə 22 nəfər seçilmişdi ki, onların arasında S. Ağamalıoğlu, R. Axundov, V.V. Bartold, A. Krımski, C. Qorqumasov, B. Çobanzadə və A.N. Samoyloviç var idi. Həmçinin Əlibəy Hüseynzadə, N. Marr, A. Lunaçarski və V. Tomsen rəsmi olaraq fəxri üzvlər elan edilmişdilər. Nümayəndələr arasında qadınların – Ayna Sultanova və Məryəm Bayraməlibəyovanın olması dövrün mədəni tərəqqisinin göstəricisi idi. (Керимова, 2016 ;25) Almaniyanın nüfuzlu *"Der Islam"* jurnalı bu hadisəni "dünya tarixində görünməmiş elmi möcüzə" kimi qiymətləndirirdi. (İnqilab və mədəniyyət, 1930; 34)

9 gün davam edən qurultayın gündəliyi olduqca geniş idi: türk xalqlarının tarixi, etnoqrafiyası, antropologiyası, arxeologiyası, folkloru, dialektologiyası, terminologiyası və qrammatikası. Lakin bütün bu məsələlərin fövqündə duran, ən kəskin elmi və siyasi mübahisələrə səbəb olan mərkəzi mövzu yeni əlifba – ərəb qrafikasından latın qrafikasına keçid problemi idi.

Məlum olduğu kimi, türk xalqlarının latın qrafikasına keçid ideyası sovet dövrünün tapıntısı deyildi. Azərbaycanda bu ideyanın kökləri XIX əsrə – böyük mütəfəkkir Mirzə Fətəli Axundovun layihələrinə gedib çıxırdı. Sonrakı dövrdə Firidun bəy Köçərli, Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtinski, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə kimi simalar ərəb əlifbasının islahatını və ya tamamilə latın qrafikası ilə əvəzlənməsini müdafiə etmişdilər. 1918-1920-ci illərdə AXC hökuməti bu istiqamətdə ilk rəsmi addımları atmış, xüsusi hökumət komissiyası yaratmışdı. 1919-cu il Bakı müəllimlər qurultayı latınlaşdırma layihəsini bəyənmiş və məsələ parlamentin müzakirəsinə çıxarılmışdı, lakin bolşevik işğalı bu prosesi yarımçıq qoydu.

1922-ci ildə sovet rəhbərliyinin daxili icazəsi ilə S. Ağamalıoğlunun rəhbərliyi və N. Nərimanovun dəstəyi ilə Bakıda "Yeni Türk Əlifbası Komitəsi" (YTƏK) yaradıldı. Komitənin tərkibində F. Ağazadə, X. Məlik-Aslanov, A. Pepinov, M. Əfəndizadə kimi mütəxəssislər yer alırdı. 1923-cü ildə latın qrafikası ərəb əlifbası ilə bərabərhüquqlu, 1924-cü ildə isə yeganə məcburi dövlət əlifbası elan olundu.

Lakin qurultayda bu məsələ ümumittifaq səviyyəsinə qaldırıldıqda ciddi fikir ayrılıqları ortaya çıxdı. Qurultayda iki əsas cəbhə formalaşmışdı:

1.**Latınistlər:** Latın qrafikasını tərəqqi, qərb mədəniyyətinə inteqrasiya və savadsızlığın tezliklə ləğvi üçün yeganə yol hesab edənlər.

2.**Ərəbistlər (və ya islahatçılar):** Ərəb qrafikasının sistemləşdirməsini müdafiə edənlər (məsələn, qazax alimi Əhməd Baytursunov).

Səsvermə zamanı latın qrafikası tərəfdarları böyük üstünlüklə qalib gəldi: 101 lehinə, 7 əleyhinə, 9 bitərəf. Maraqlıdır ki, bitərəf qalanlar əsasən xarici alimlər və bəzi rus akademikləri idi. Teodor Menzel başda olmaqla xarici şərqşünaslar bəyan etdilər ki: "Əlifba məsələsi xalis elmi problem deyil, milli-siyasi qərardır. Biz kənar şəxslər olaraq türk xalqlarının daxili işinə qarışmaq və səs vermək hüququna malik deyilik". (Первый Всесоюзный Тюркологический Съезд, 1926; 361)

Əslində, sovet dövlət aparatının latınlaşdırma siyasətinin arxasında gizli ideoloji hədəflər dayanırdı. Rəsmi təbliğat bunu "savadsızlığın ləğvi" şüarı ilə pərdələsə də, partiya funksionerləri ərəb əlifbasını İslam dininin, müsəlman birliyinin və dini keçmişin simvolu hesab edirdilər. Onların əsas məqsədi türk xalqlarını öz çoxəsrlik tarixi-dini ədəbiyyatından, klassik irsindən qoparmaq və yeni ateist-kommunist ideologiyasını tətbiq etmək idi.

Qurultayın ən parlaq, nüfuzlu və elmi baxımdan fundamental fiqurlarından biri isə şübhəsiz ki, akademik Aleksandr Nikolayeviç Samoyloviç idi. Samoyloviçin elmi baxışları, qurultaydakı məruzəsi və sonrakı taleyi sovet elminin keçdiyi parlaq, lakin bir o qədər də faciəvi yolun bariz göstəricisidir.

Aleksandr Nikolayeviç Samoyloviç 1926-cı il Bakı qurultayına gələrkən artıq Rusiya və Avropa miqyasında türkologiyanın "patriarxı" hesab olunurdu. Peterburq şərqşünaslıq məktəbinin yetirməsi olan alim, türk dillərinin tarixi qrammatikası, dialektologiyası, mətnşünaslığı və klassifikasiyası sahəsində fundamental əsərlərin müəllifi idi. O, kabinet alimi deyildi; Krımdan Altaya, Türkmənistandan Qafqaza qədər geniş bir coğrafiyada canlı türk ləhcələrini yerindəcə araşdırmış, qədim abidələri tədqiq etmişdi.

Rusiyada hələ 1913-cü ildə Aleksandr N. Samoyloviç türkologiya qurultayı keçirilməklə bağlı fikirlər irəli sürmüş, lakin kifayət qədər mənəvi dəstək almamışdı. Sovet dönəmində, 1922-ci ildən bu ideya yenidən gündəmə gətirilmişdir. Samoyloviç 1923-cü ildən etibarən məsələ ilə bağlı dəstək tapmaq üçün Ankara və Bakıya üstünlük vermiş, onların etimadını qazanmağa xüsusi diqqət göstərmişdi. Bu o zaman idi ki, Radlovun yetirməsi A.N. Samoyloviç həmin ildə Leninqradda Canlı Şərq Dilləri İnstitutuna rektor təyin olunmuşdu. 1924-cü ildə rus şərqşünaslarının Leninqradda keçirdikləri 21 mart toplantısında mövzu ətraflı şəkildə müzakirə edilmiş, Samoyloviç bir daha bu fikri səsləndirmiş, çoxdan bəri həyata keçirmək istədiyi türkdilli xalqların qurultayını təşkil etmək barədə düşüncələrini açıq şəkildə bildirmişdi. (Məmmədli, 2026; 10)

Samoyloviçin Bakı qurultayındakı elmi mövqeyi və məruzəsi həm yüksək akademik ənənənin qorunması, həm də dövrün tələblərinin dərk edilməsi baxımından unikal idi. Alim yaxşı başa düşürdü ki, türkologiya artıq xalis filoloji elm çərçivəsindən çıxaraq dövlət quruculuğunun və mədəni siyasətin alətinə çevrilir. Məhz buna görə də onun çıxışları iki mühüm xətt üzərində qurulmuşdu.

Yeni dövrdə Sovet Rusiyasında türkologiya sahəsindəki ilk əhəmiyyətli əsərlərdən biri A. Samoyloviçin türk dilinin fonetikasına və qrammatik quruluşuna dair yazıları olmuşdur. O türk dillərinin elmi təsviri və sinifləndirilməsi sahəsindəki sxematik, subyektiv yanaşmaları kəskin tənqid edirdi. Qeyd edirdi ki, dil islahatları apararkən, terminologiya yaradarkən və dərsliklər tərtib edərkən konkret bir dilin fonetik, morfoloji və leksik xüsusiyyətləri tarixi kontekstdə dərindən öyrənilməlidir. Alim, türk dillərini bir-birinin eyni olan dialektlər qrupu kimi deyil, ortaq kökdən gələn, lakin daxili inkişaf qanunauyğunluqlarına malik mürəkkəb, zəngin bir sistem kimi təqdim edirdi.

Samoyloviç latınlaşdırma hərəkatına kor-koranə ideoloji fanatizmlə yanaşmırdı. Bir filoloq-mətnşünas kimi onu ən çox narahat edən məsələ – yeni qrafikaya keçidin çoxtəsirli yazılı mədəniyyət ənənəsini və varisliyi qoparmaması idi. O, ekspert qismində çıxış edərək tələb edirdi ki, qəbul olunacaq yeni latın qrafikalı əlifbalar hər bir türk dilinin spesifik səs sistemini (məsələn, ahəng qanununu, saitlərin zənginliyini) tam əks etdirməlidir. Samoyloviç elmi ekspertizanın siyasi konyunkturaya qurban verilməsinin əleyhinə idi.

Qurultayda Samoyloviç həm də böyük bir diplomat və vasitəçi rolunu oynadı. O, çar dövrünün akademik şərqşünaslığı ilə sovet dövrünün "milli dil quruculuğu" layihələri arasında elmi birlik yaratmağa çalışırdı. Qurultaydan sonra onun elmi və inzibati nüfuzu daha da artdı. O, SSRİ-də türkologiya araşdırmalarının əsas koordinatoruna çevrildi, 1929-cu ildə Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçildi, 1934-cü ildə isə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə gətirildi. Lakin bu yüksəliş onu gözləyən dəhşətli faciənin astanası idi.

1930-cu illərin ortalarından etibarən Stalin rejimi ölkədə mütləq ideoloji nəzarət yaratmaq və potensial müxalif düşüncəni kökündən qurutmaq üçün "Böyük Terror" (Yejovşina) dalğasını başlatdı. 1926-cı ildə Bakıda keçirilən və türk xalqlarının birliyini, elmi-mədəni potensialını

nümayiş etdirən qurultay indi sovet xüsusi xidmət orqanlarının (NKVD) nəzərində "əks-inqilabi, pantürkist, millətçi və casus yuvası" kimi qiymətləndirilməyə başladı.

Tarixçilər F.D. Aşnin və V.M. Alpatovun araşdırmalarında haqlı olaraq qeyd edildiyi kimi, Bakı qurultayı yaddaşlarda "repressiya olunmuşların qurultayı" kimi qaldı. (Ашнин, Алпатов, Насилов, 2002; 5) Çünki bu forumun demək olar ki, bütün aktiv iştirakçıları və təşkilatçıları sonradan "xalq düşməni" damğası ilə məhv edildilər. Azərbaycanda yerli təhlükəsizlik orqanları tərəfindən açılan 12493 nömrəli istintaq işi (buna tarixdə "milli ziyalıların işi" və ya "türkoloqların işi" də deyilir) çərçivəsində elmin bütöv bir nəsli sıradan çıxarıldı. (Xudiyev, 2016) İttihamnamələr tamamilə absurd və şablon xarakter daşıyırdı. Alimlərə verilən ittihamlar sırasına bunlar daxil idi:

- 1926-cı il Türkologiya qurultayında iştirak etmək və orada "pantürkist" ideyaları yaymaq;
- Digər türk dilli respublikalara elmi ezamiyyətlərə getmək;
- Türk xalqlarının tarixi, etnoqrafiyası və ədəbiyyatı sahəsində araşdırmalar aparmaq;
- Ali məktəblərdə türkologiya fənlərini tədris etmək.

İslam tarixi və ya türk keçmişi ilə bağlı hər hansı bir elmi mövzu avtomatik olaraq "əks-inqilabi fəaliyyət" kimi tövsif olunurdu. Bu qanlı dalğanın qurbanları arasında Azərbaycan elminin fəxrləri var idi: Çobanzadə B., Cavid H., Qənizadə M., Axundov R., Cəbiyev H., Sultanova A. və başqaları.

Repressiya təkcə yerli türk ziyalılarını deyil, Bakı qurultayında iştirak edən tanınmış rus alimlərini də bürüdü. Professor E.D. Polivanov, N.F. Yakovlev və akademik A.N. Samoyloviç də bu amansız maşının dişləri arasında məhv oldular.

1937-ci ildə Elmlər Akademiyasının həqiqi üzvünü (akademiki) həbs etmək SSRİ-də fövqəladə, sıradankənar bir hadisə idi. Çünki akademik rütbəsi sovet sistemində hələ də çar dövründən qalan yüksək toxunulmazlıq və beynəlxalq nüfuz statusunu qoruyurdu. Dövlət beynəlxalq arenada rüsvay olmamaq üçün alimlərin yaratdığı məktəbləri (məsələn, F.İ. Şerbatski, P.K. Kokovtsov, qismən V.M. Alekseyevin məktəbləri) məhv etsə də, akademikin özünə toxunmağa hər zaman cəsarət etmirdi.

Ən mühüm tarixi fakt ondan ibarətdir ki, bir akademikin həbsi üçün mütləq şəkildə İosif Stalinin şəxsi razılığı (sanksiyası) tələb olunurdu (müqayisə üçün: müxbir üzvlərin həbsinə yerli NKVD sərəncam verə bilərdi). Məhz Stalinin şəxsi sanksiya verməməsi səbəbindən vaxtilə barələrində istintaq işi açılmış akademiklər V.I. Vernadski və N.S. Kurnakov həbsdən xilas ola bilmişdilər. Lakin Samoyloviç məsələsində Stalin bu sanksiyanı imzaladı.

Uzun illər sovet rəsmi elmi salnamələrində A.N. Samoyloviçin ölüm tarixi və səbəbi saxtalaşdırılaraq 29 dekabr 1940-cı il kimi göstərilirdi. Bu uydurma tarix cəmiyyətdə elə bir illüziya yaradırdı ki, sanki alim həbs olunsa da, "ömrünün son illərini" haradasa düşərgədə və ya həbsxanada elmi fəaliyyətlə keçirib, təbii əcəllə ölüb. Yalnız yenidənqurma (perestroyka) dövründə tarixçi F.D. Aşnin Moskvada FSB-nin Mərkəzi Arxivində qorunan № P-9502 saylı istintaq işi ilə tanış olduqdan sonra acı həqiqət ortaya çıxdı.

İstintaq işi cəmi 1 cilddən və 197 vərəqdən ibarətdir. Müəlliflər bu qovluğu minlərlə digər repressiya işləri ilə eyniləşdirən "straşnaya obıdennost" (dəhşətli adilik) ifadəsi ilə xarakterizə edirlər. Qovluqda tamamilə standart, mexaniki şəkildə doldurulmuş sənədlər yer alıb: həbs haqqında qərar, order, axtarış protokolu, məhbusun anket vərəqi, ittiham aktı, 6 vərəqdən çox olmayan dindirmə protokolları, məhkəmə sənədləri, hökm və hökmün icra olunduğunu təsdiqləyən akt.

İşin materiallarından məlum olur ki, Samoyloviçin həbsi 12 sentyabr 1937-ci ildə Kislovodsk şəhərində (alimin sanatoriyada müalicə və ya istirahət etdiyi vaxt) baş tutub.

Kislovodsk Şəhər Daxili İşlər Şöbəsinin rəisi, dövlət təhlükəsizliyi kapitanı Silanov tərəfindən təsdiqlənən "1 nömrəli sənəd"də deyilir:

"Mən, dövlət təhlükəsizliyi əməliyyat müvəkkili Vorobyov, Ordjonikidze diyarının NKVD idarəsindən daxil olmuş 27/X (mətndə sentyabr əvəzinə oktyabr yazılması sənədlərin hansı tələskənliklə tərtib olunduğunu göstərir) tarixli 279 nömrəli teleqramı nəzərdən keçirərək müəyyən etdim: Kislovodskda olan Samoyloviç Aleksandr Nikolayeviç həbs edilsin və məhbus mərhələsi ilə Moskvaya, SSRİ NKVD-sinin mərkəzi təcridxanasına göndərilsin. Həbs üçün mərkəzi sanksiya mövcuddur".

Samoyloviç həbsindən sonra cəmi dörd ay yarım yaşadı. Heç bir "son illər" olmamışdı, o, qısa dindirmələrdən sonra dərhal güllələnmişdi.

Alimin məhz nəyə görə hədəf seçilməsi və məhv edilməsi barədə sənədlər olmasa da, dövrün siyasi mənzərəsi və NKVD-nin iş metodları müəyyən fərziyyələr irəli sürməyə imkan verir.

Akademik dairələrdə gəzən şayiələrə görə, Samoyloviç guya zadəgan mənşəyinə və Ukrayna hetmanının nəslindən olmasına görə cəzalandırılmışdı. Lakin arxiv materialları bunu təkzib edir; o dövrdə akademiklər arasında zadəgan köklü şəxslər az deyildi və işdə heç bir "Ukrayna millətçiliyi" ittihamı yoxdur.

Digər daha ağlabatan fərziyyə "Türkiyə izi" ola bilərdi. Samoyloviç Türkiyə elmi mühiti ilə sıx əlaqədə idi, bu ölkəyə dəfələrlə səfər etmişdi və Türkiyə alimləri ilə dostluq edirdi. Lakin sənədlərin təhlili göstərir ki, Türkiyə məsələsi istintaqda çox periferik (ikinci dərəcəli) yer tutub. Bunun əsas səbəbi o idi ki, Türkiyə Prezidenti Mustafa Kamal Atatürkün vəfatına qədər (noyabr 1938) sovet-türk diplomatik münasibətləri rəsmi olaraq kifayət qədər müsbət xarakter daşıyırdı və Türkiyə ilə əlaqələrə görə birbaşa casusluq ittihamı irəli sürmək siyasi baxımdan hələ tam formalaşmamışdı.

Bəs NKVD hansı absurd ssenariyə əl atdı? İstintaq işində akademik rəsmən "Yapon casusu" elan edildi! Onun Yaponiya və yapon alimləri ilə olan minimal, epizodik elmi təmasları ön plana çıxarıldı.

Bu absurdluğun arxasında duran institusional mexanizm belə idi: 1937-ci ilin avqust-oktyabr aylarında SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun böyük bir əməkdaş qrupu kütləvi həbslərə məruz qaldı. Həbs olunanların mütləq əksəriyyəti Uzaq Şərq – Yaponiya, Çin, Koreya, Monqolustan, Mancuriya və Tibet şöbələrinin mütəxəssisləri idilər (kəmiyyət etibarilə türkoloqlar mərkəzdə hələ az zərər görmüşdülər). İstintaq orqanları "aşkar etdikləri" bu xəyali geniş yapon agentura şəbəkəsinə daha böyük, qlobal miqyas vermək istəyirdilər. NKVD-nin məntiqinə görə, nəhəng bir casus şəbəkəsinin başında mütləq yüksək ranqlı, strateji bir fiqur durmalıdır. Şərqşünaslıq İnstitutunun direktoru, akademik A.N. Samoyloviç bu rol üçün ən ideal namizəd idi.

Beləliklə, xalis elmi fəaliyyəti türk dünyası ilə bağlı olan, Şərq elminin korifeyi sayılan Samoyloviç, rəhbərlik etdiyi institutun digər əməkdaşlarının uydurma işlərini tək bir "Yapon casusluğu" ssenarisində birləşdirmək üçün qurban verildi.

1926-cı ildə Bakıda keçirilən Birinci Ümumittifaq Türkologiya Qurultayı türk xalqlarının mədəni inteqrasiyasının, dil elminin və intellektual potensialının zirvə nöqtəsi, sovet türkologiyasının isə şəksiz triumfu idi. Lakin bu triumf totalitar bolşevik rejiminin gözündə həm də böyük bir təhlükə siqnalı idi. Qurultayın doğurduğu elmi enerji və azad düşüncə meyilləri çox keçmədən 1937-ci ilin qanlı terroru ilə boğuldu.

Akademik Aleksandr Nikolayeviç Samoyloviçin taleyi bu qorxunc tarixi paradoksun simvoludur. Bakı qurultayında elmi ciddiyyəti, praqmatizmi və yüksək akademik mədəniyyəti

müdafiə edən, dil islahatlarının xalqın tarixi yaddaşını məhv etməməsi üçün çalışan böyük alim uydurma "Yapon casusluğu" ittihamı ilə güllələndi. Onun ölümü ətrafında yaradılan "1940-cı ildə təbii ölüm" mifi isə sovet rejiminin öz cinayətlərini gizlətmək üçün tətbiq etdiyi mənəvi saxtakarlığın bariz nümunəsidir.

Bu gün həm Bakı qurultayının tarixi dərsləri, həm də A.N. Samoyloviç, Bəkir Çobanzadə, Hüseyn Cavid kimi alimlərin elmi irsi müstəqil türk dövlətlərinin dil, mədəniyyət və elm siyasətində yenidən canlanmaqdadır. Arxiv sənədlərinin işığında üzə çıxan həqiqətlər sübut edir ki, elmi düşüncəni və millətin ruhunu repressiya protokolları ilə tamamilə yox etmək qeyri-mümkündür. I Türkologiya Qurultayı və onun fədakar iştirakçıları bəşər tarixində elmi cəsarətin və faciəvi, lakin şərəfli bir yolun rəmzi olaraq qalacaqlar.

**Ədəbiyyat siyahısı**

Керимова, Т. (2016). “Съезд, объединивший тюркский мир”. Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, (3).

İnqilab və mədəniyyət. (1930). (No. 4).

Первый Всесоюзный Тюркологический Съезд. 26 февраля – 6 марта 1926 г. (Стенографический отчет). (1926). Baku.

Məmmədli, N. (2026). 1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda. Elm və Təhsil.

Ашнин, Ф. Д., Алпатов, В. М., и Насилов Д. М. (2002). Репресированная тюркология. Восточная литература.

Xudiyev, B. (2016, May 2). Birinci Türkoloji Qurultaydan sonra repressiya: Xalid Səid Xocayev – III yazı. *Modern.az*. https://modern.az/az/medeniyyet/102473/birinci-turkoloji-qurultaydan-sonra-repressiya-xalid-seid-xocayev-iii-yazi/ qoyulma tarixi: 2 may 2016

**Böyükxanım Əsgərova**
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*Elmi işçi*
*E-mail: xanim.esgerova53@gmail.com*
*ORCID: 0000-0001-9241-8604*

# TÖVRATDA VƏ QURANİ-KƏRİMDƏ ORTAQ ŞƏXS ADLARI

**Xülasə**

İslam dininin təsiri ilə müxtəlif türk dillərinə, o cümlədən Azərbaycan dilinə Qurani-Kərimdən çox sayda şəxs adları keçmişdir. Bu adların əksəriyyətini Allahın, peyğəmbərlərin və digər dini şəxslərin adları təşkil edir. Qurandakı adların bir çoxunu paralel şəkildə Tövratda da görmək olar. Çünki ərəb dili və yəhudi dili sami dillər qrupuna daxil olub, qohumluq təşkil edir. Adəm, Davud, Habil, Harun, Həcər, Həvva, İbrahim, İsa, İshaq, İsmayıl, İsrail, Kənan, Qabil, Məryəm, Musa, Nəbi, Nuh, Yaqub, Yəhya, Yunus, Yusif, Züleyxa və digər adları həm Qurani-Kərimdə, həm də Tövratda görmək mümkündür. Tövratdakı şəxs adları Qurani-Kərim vasitəsilə müsəlman xalqlarına, türk dillərinə yayılmışdır. Həmin müqəddəs adlar daxil olduğu dilin fonetik sisteminə uyğunlaşdırılmışdır. Nəticədə bir adın müxtəlif variantları meydana gəlmişdir. Adların paralellərinin yaranmasına dini amillərlə yanaşı, mədəniyyətlərin bir-birinə qarşılıqlı təsiri və inteqrasiyası da təsir etmişdir. Tarix boyu müxtəlif etnoslar miqrasiya etmişdir. Miqrasiyalar zamanı xalqların dili də bir-birinə müəyyən dərəcədə təsir etmiş və söz mübadiləsi baş vermişdir. Köç edən xalqlardan biri də yəhudilər olmuşdur. Bu səbəbdən də bir çox türk və avropa dillərində Tövratdakı adları görmək olar. Məqalədə həmin şəxs adları ətraflı şəkildə tədqiq olunmuşdur.
***Açar sözlər:*** *Qurani-Kərim, Tövrat, şəxs adları, türk dilləri, onomastika*

# COMMON PERSONAL NAMES IN THE TORAH AND THE QURAN

**Abstract**

Under the influence of Islam, many personal names from the Quran have passed into various Turkic languages, including the Azerbaijani language. Most of these names are the names of God, prophets, and other religious figures. Many of the names in the Quran can be seen in the Torah in parallel. Because the Arabic language and the Hebrew language belong to the Semitic language group and are related. Adam, David, Abel, Aaron, Hagar, Havva, Abraham, Jesus, Isaac, Ismael, Israel, Kanan, Kain, Maryam, Moses, Nabi, Noah, Jacob, Yahya, Yunus, Joseph, Zuleikha, and other names can be seen in both the Quran and the Torah. Personal names in the Torah have spread to Muslim peoples and Turkic languages through the Quran. These sacred names have been adapted to the phonetic system of the language in which they are included. As a result, various variants of one name have emerged. The emergence of parallels of names has been influenced not only by religious factors, but also by the mutual influence and integration of cultures. Throughout history, various ethnic groups have migrated. During migrations, the languages of the peoples have also influenced each other to some extent and word exchange has taken place. One of the migrating peoples was the Jews. For this reason, names from the Torah can be seen in many Turkic and European languages. The article examines these names in detail.
***Key words:*** *Quran, Torah, personal names, Turkic languages, onomastics*

**Giriş**

Tarixi mənbələrdən bildiyimiz kimi, ərəblərin Azərbaycana yürüşündən və işğalından sonra xalqımız islam dinini qəbul etmişdir. İslam dininin təsiri ilə Azərbaycan dilinə Qurandan bir çox müsəlman adları keçmişdir. Bu adların əksəriyyətini peyğəmbərlərin, onların övladlarının, nəvə-nəticələrinin və həyat yoldaşlarının adları təşkil edir. Quran Azərbaycan mədəniyyəti tarixində, ədəbi dilin inkişafında son dərəcə böyük rol oynamışdır. Bu gün də Azərbaycanda uşaqlara Quranda rast gəldiyimiz adların əksəriyyəti verilir. Həsən Əliyev "Azərbaycan antroponimikasının inkişaf mərhələləri" adlı kitabında islam dininin qəbulundan sonra Azərbaycan antroponimikasına daxil olan adları aşağıdakı kimi qruplaşdırmışdır:

1. Allah və onun epitetləri ilə əlaqədar verilən şəxs adları.
2. Məhəmməd Peyğəmbər və onun epitetləri ilə əlaqədar olanlar.
3. Məhəmmədə qədər olan dini kitablarda ("İncil" və "Tövrat") adı çəkilən peyğəmbərlərin adları və onların epitetlərinin xatirinə qoyulan şəxs adları.
4. Əli və digər imamların xatirələrini əbədiləşdirmək məqsədilə verilən adlar.
5. Müsəlman qəməri aylarının adları ilə əlaqədar yaranan adlar.
6. Başqa ərəb sözləri və dini məfhumlar ilə bağlı yaranan şəxs adları [Əliyev, 2004: 149].

Qurandakı adların bir çoxunu paralel şəkildə Tövratda da görürük. Müəyyən fonetik dəyişikliklərlə Tövratdakı adlar ərəb dilinin təsiri və Qurani-Kərim vasitəsilə müxtəlif xalqlara yayılmışdır. Təbii olaraq, hər bir ad daxil olduğu dilin fonetik sisteminə uyğunlaşdırılmışdır. Nəticədə bir adın müxtəlif fonetik variantları meydana gəlmişdir.

Tövratda olan müxtəlif şəxs adlarının əksəriyyətinin Qurani-Kərimdə olmasının digər səbəbi ərəb dili və yəhudi dilinin sami dillər qrupuna daxil olub, qohumluq təşkil etməsidir. Yəhudilər və müsəlman cəmiyyətləri arasındakı münasibətlər islamın ilk dövrlərinə gedib çıxır. Bu uzun tarixi proses boyunca yəhudilər bəzən sülh və rifah içində, bəzən isə qarışıq və təhlükəli mühitdə yaşamışlar. Lakin bu dəyişkən vəziyyət yəhudilərin yaşadıqları cəmiyyətdən ayrı bir həyat sürməsinə səbəb olmadı, əksinə, onların həmin cəmiyyətin mədəni quruluşuna inteqrasiyası ilə nəticələndi. Yəhudilərin digər xalqlarla inteqrasiyası Tövratdakı adların müxtəlif dillərdə istifadə olunmasına yol açmışdır.

Yəhudilərin müqəddəs dini kitabı olan Tövrat şəxs adları ilə olduqca zəngindir. Xüsusilə, Tövratın birinci və ikinci kitabı olan ספר בראשית-"Seyfer Breyşit" – *Yaradılış kitabı* və ספר שמות -"Seyfer Şmot" – *Çıxış kitabında* çoxlu sayda antropoloji vahidlərə rast gəlirik. Həmin adlar hər hansısa hadisələr əsasında meydana gəlmişdir. Məsələn, Allah, Adəm, İbrahim, İsmayıl, Yusif, İsrail, Musa və digər adların hər biri müxtəlif hadisə və əhvalatlar əsasında yaranmışdır. Bu adların yaranması, mənşəyi və mənaları ilə bağlı müxtəlif fikirlər və fərziyyələr mövcuddur. Lakin Tövratda bir çox müqəddəs adın hansı əhvalat ilə bağlı yarandığını görmək və həmin hadisələr əsasında adların ifadə etdiyi mənanı müəyyən etmək mümkündür. Məsələn, dilçilikdə Adəm adının mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bu adın türk, yəhudi və ərəb mənşəli olması barədə fərqli fikirlər söylənilir. "Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti"ndə göstərilir ki, Adəm ərəbcə "insan" deməkdir [Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti, 2007: 120]. Bildiyimiz kimi, ilk insanın adı Adəm olmuşdur. Lakin bu o demək deyil ki, Adəm adının mənası "insan"dır. A.Paşayev və A.Bəşirova "Azərbaycan şəxs adlarının izahlı lüğəti"ndə isə Adəm adının yəhudi mənşəli olduğunu və "torpaq" mənasını ifadə etdiyini göstərirlər [Paşayev və Bəşirova, 2011: 95]. Əslində Adəm qədim yəhudi mənşəli söz olub, mənası "torpaqdan yaranan" deməkdir. Çünki Allah ilk insanı torpaqdan yaratmış və ona Adəm, yəni "torpaqdan yaranmış" adını vermişdir. "Torpaq" mənasını yəhudi dilində *adama* sözü ifadə edir. Tövratda göstərilir ki,

Allah Adəmi torpaqdan yaratdı və burnuna həyat nəfəsini üflədi. Beləliklə, Adəm yaşayan varlıq oldu. Qurani-Kərimdə Ali-İmran surəsinin 59-cu ayəsində də göstərilir ki, Allah Adəmi torpaqdan yaratdı. Sonra ona: "ol"- dedi, o da oldu [Bünyadov və Məmmədəliyev, 2015: 56].

**Əsas mətn**

İslamiyyət dövründə Məhəmməd peyğəmbərin "Uşaqlarınıza peyğəmbərlərin adlarını verin" kəlamından faydalanan insanlar Qurani-Kərimdə olan dini adları öz uşaqlarına verməyə həvəs göstərmişdilər. Zaman keçdikcə bu adların həm eyni dil mühitində, həm də müxtəlif sistemli dillərin antroponimikalarında fonetik, orfoqrafik, morfoloji və leksik variantları yaranmışdır. Adəm, Davud, Habil, Harun, Həcər, İbrahim, İsa, İshaq, İsmayıl, İsrail, Kənan, Qabil (Kayin), Məryəm, Musa, Nəbi, Nuh, Rəhilə, Yaqub // Yəqub, Yəhya, Yunis // Yunus, Yusif, Züleyxa və digər dini şəxslərin adına həm Tövratda, həm də Qurani-Kərimdə rast gəlirik. Hətta bu adlara müxtəlif epitetlər də əlavə edilmişdir. Məsələn, Adəm adına Səfiulla "Allah tərəfindən", "Allahın nümayəndəsi", "Allahın qarşısında pak" kimi epitetlər verilmişdir. Nuh adına Nəbiullah – "Allahın peyğəmbəri" epiteti əlavə edilmişdir. Nəbi adı yəhudi dilindəki navi- נביא sözündən olub, mənası "peyğəmbər" deməkdir və Tövratdakı əsas adlardan biridir. Yəhudilərin müqəddəs yazılarını özündə ehtiva edən Tanaxa daxil olan üç hissədən birində peyğəmbərlərdən bəhs olunduğu üçün həmin bölmə נְבִיאִים – *Neviim – Peyğəmbərlər* adlandırılmışdır. Bundan başqa Musa adına Kəlimullah epiteti verilmişdir. Dini rəvayətlərə görə, Musa Tur dağında Allah ilə danışmışdır. Buna görə də ona Kəlimullah, yəni "Allah ilə söhbət eləyən", "Allahla kəlmə kəsən" deyilir. İbrahim peyğəmbərin adının epiteti isə Xəlilullah – "Allahın dostu" olmuşdur.

Quranın "Məryəm" surəsində göstərilir ki, İsa atası olmadan dünyaya gəlmişdir. O, müqəddəs ruhdan yaranmış, həm də onun nəfəsində ölüləri dirildən bir kəramət varmış. Ona görə də onun adına Ruhullah, yəni "Allahın ruhu" epiteti əlavə edilir.

Beləliklə, Adəm – Səfiullah "Allahın nümayəndəsi", Nuh – Nəbiullah "Allahın peyğəmbəri", Musa – Kəlimullah "Allah ilə söhbət edən", İsa – Ruhullah "Allahın ruhu", İbrahim – Xəlilullah "Allahın dostu" kimi leksik variantlar yaranmış, bunlar da türkdilli xalqların ad sistemində müxtəlif formalarda müəyyən yer tutmuşdur.

Tövratın birinci kitabı olan Breyşitdə ("Yaradılış" kitabı) göstərilir ki, Allah Adəmin qabırğasından Həvvanı yaratmışdır. Həvva yəhudi dilindəki "Yeva // Xeva" adının ərəb forması olub "diri, canlı" deməkdir. Bibliyada adı çəkilən ilk peyğəmbər Adəmin arvadının adı Həvva olmuşdur. Biz Həvva adına ilk dəfə Tövratda rast gəlirik. O, dünyada yaradılan ilk qadın olduğuna görə bütün insanlığın anası hesab olunur. Tövratda göstərilir ki, Allah Adəmə dərin bir yuxu verdi. Adəm yatarkən Allah onun qabırğa sümüklərindən birini götürüb yerini ətlə bağladı. Adəmdən götürdüyü qabırğa sümüyündən bir qadın yaradaraq onu Adəmə gətirdi [Tövrat-Zebur, 2001: 2].

Adəmlə Həvvanın övladları olan Qabil və Habil qardaşlarından Tövratda və Quranda bəhs olunur. Quranda əl-Maidə surəsinin 27-32-ci ayələrində onlar haqqında söhbət gedir. Burada öz nəfsinə aldanan Qabilin Habili öldürməsi təsvir olunur. Qabil Tövratda Kayin adı ilə verilmişdir. Göstərilir ki, Kayin əkinçi, onun kiçik qardaşı Habil isə çoban idi. Bir gün Kayin torpaqdan əldə etdiyi məhsullardan Allaha bəxşiş gətirdi. Habil də sürüsündə ilk doğulan heyvanlardan bəzilərini gətirmişdi. Allah Habili və onun gətirdiyi bəxşişləri qəbul etmiş, Kayini isə rədd etmişdir. Bundan qəzəblənən Kayin qardaşı Habili öldürdü. Beləliklə, torpağa qardaş qanı tökülmüş oldu və torpaq lənətləndi [Tövrat-Zebur, 2001: 3]. Kayin adı "dünyaya gətirmək, qazanmaq" mənasında olan *kani* kəliməsindəndir. Habil adının mənası isə "kədər", "qəm", "qüssə"; "meh", "yel", "nəsim" deməkdir.

Tövratda İbrahim adının necə yaranması da geniş təsvir olunur. *İbrahim* yəhudi dilindəki *Avraam* adının ərəb variantıdır. *Avraam* antroponimi üç müstəqil mənalı sözün *av+ra+am* birləşməsindən meydana gəlmişdir. Bu sözlərin mənası isə *av* "ata", *ra* "böyük", *am* "xalq" deməkdir. Deməli, İbrahim adının mənası "böyük xalqın atası, ulu ata, xalqların atası"dır. Tövratda göstərilir ki, Allahın elçisi bir gün İbrahimin gözünə görünür və ona Saradan bir oğlu olacağını, soyundan böyük xalq törəyəcəyini və adının bundan sonra Avram deyil, Avraam olacağını deyir.

İbrahimin həyat yoldaşı Saranın Həcər adlı kənizi olmuşdur. Saranın övladı olmadığı üçün o, İbrahimlə Həcəri evləndirir. İbrahimin Həcərdən olan oğlunun adı İsmayıl idi. İsmayıl ibranicə iki sözün *lişmo+el* birləşməsindən əmələ gəlmişdir. Nəzərə çatdıraq ki, yəhudi dilində sözlər fleksiyaya uğradığından məsdər forması **לשמוע** – *lişmo* olan bu sözün dilimizdəki mənası "eşitmək", *el* isə "Allah" mənasındadır. Allah Həcərin yalvarışlarını və fəryadını eşitdiyi üçün o oğlu dünyaya gələndə uşağa həmin adı qoymuşdur. Buna görə də, adın mənası "Allah eşidir, xəbər tutur" deməkdir. Tövratda göstərilir ki, Allahın mələyi Həcərə dedi: Sənin bir oğlun olacaq, adını İsmayıl qoyarsan, çünki Allah sənin fəryadını eşitdi.

İbrahimin Saradan olan oğlunun adı isə də *İshaqdır*. İshaq adının mənası iki cür izah oluna bilər. Birincisi, Tövratda yazıldığı kimi, *İshaq* "gülüş, gülmək" sözü ilə əlaqəli olaraq uşağa verilmiş addır. İbranicə **לצחוק**- *litsxok* "gülmək" mənası verir. Allahın mələyi İbrahimin həyat yoldaşı Saraya övlad müjdəsi verərkən, Sara qocaldığı üçün oğlunun olacağına inanmamış, bu xəbərə xeyli gülmüşdü. Buna görə də, Sara oğlu dünyaya gələrkən Allah üzümü güldürdü deyərək uşağa "gülüş" mənası ifadə edən *İshaq* adını vermişdir. İkinci mənası isə, *İshaq* adı yəhudi sözü olan *Yotse haqq* sözündən olub, "haqq çıxdı" mənasını ifadə edə bilər. Belə ki, Saranın oğlu dünyaya gələrkən haqq çıxmış, uzun illərdən sonra onun övladı olmuşdu.

A.Aydın "Mənşəyinə görə şəxs adları lüğəti"ndə göstərir ki, İshaq adının əsli "Yişhaq"dır, "çox danışma, gəvəzəlik"; "artıq tamah"; "müxtəlif rənglərə düşmə, hal dəyişmə"; "isti fəsillərdə oxuyan isaq-musaq quşu" mənalarını bildirir [Aydın, 2010: 140]. Azərbaycan dilinin böyük izahlı onomastik lüğətində isə bu adın yalnız bir mənası verilmişdir. Göstərilir ki, İsaq qədim yəhudi adı olub, İshaq adının ərəb formasıdır və mənası "gülüş, təbəssüm" deməkdir [Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti, 2007: 162].

İshaqın Fəddan-Aramdan olan arami Bətuilin qızı Rəfəqədən olan övladlarının adı Eys və Yaqub idi. Yaqub peyğəmbər İbrahimin nəvəsi, İshaqın oğlu, əfsanəvi gözəlliyi ilə şöhrət tapmış Yusifin atasının adıdır. Klassik ədəbiyyatda Yaqub oğul həsrəti çəkən kədərli ata kimi xatırlanır. Həmçinin bu adın "vəfalı ata" mənası da var [Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti, 2007: 340]. Tövratda qeyd olunur ki, Yaqub peyğəmbər Tanrıya qarşı gəldiyi üçün ona İsrail adı verilmişdir. İsrail qədim yəhudicə *Şaul* adının ərəb forması olub, "Allaha qarşı çıxan, Tanrıya zidd olan" deməkdir. A.Aydın yazır ki, İsrail adının əsli "Yisrael"dir. "Allah hakimdir" mənasını ifadə edir. Bunun "Allahın köləsi, qulu" kimi anlamı da vardır. Bibliyaya görə yəhudi xalqı İsrail peyğəmbərin on iki oğlundan törəmişdir [Aydın, 2010: 141].

Tövratda və Quranda rast gəlinən ortaq adlardan biri də İsrafil adıdır. İsrafil adı qədim yəhudi dilindəki "Saraf", "Seraf" adının ərəb forması olub "odlu, atəşli, yandırıcı" deməkdir. İslam dininə görə dörd mələkdən birinin adı İsrafildir. Xristianlığa görə isə İsrafil birinci dərəcəli səmavi ruhdur. Əfsanəyə görə, İsrafil qiyamət günü şeypuru ilə ölüləri dirildəcək mələyin adıdır.

Qurani-Kərimdə Əs-Saffat surəsinin 19-cu ayəsində, Ənbiya surəsinin 103-cü ayəsində, Rum surəsinin 25-ci ayəsində və bir neçə ayələrdə İsrafilin şeypuru (suru) üfürməsi ilə ölülərin qəbirdən dirilərək çıxacağı deyilir [Bünyadov və Məmmədəliyev, 2015: 445, 330, 406].

Tövratda və Quranda rast gəlinən ortaq adlardan biri də Nuh peyğəmbərin adıdır. Nuh adı qədim yəhudi dilində *Nooh* sözündəndir, "təsəlli", "təskinlik", "rahatlıq", "fərəh" anlamını bildirir. Qurani-Kərimin ayələrinə görə, Nuhun zamanında bərk yağmur olur, dənizlər daşıb dünyanı basır. Nuh Allaha inananları və digər canlıların nəslinin törəyib yaşamasını təmin etmək üçün hərəsindən bir cüt götürüb böyük gəmiyə mindirərək, onlara nicat vermişdir [Bünyadov və Məmmədəliyev, 2015: 569].

Tövratda və Quranda adı çəkilən əfsanəvi peyğəmbərlərdən biri də Əyyubdur. Bu adın əsli "Oieb"dir, ərəbləşmiş forması isə "Əyyub"dur, "düşmən", "yağı" mənasını ifadə edir. Çox səbirli və dözümlü olduğu üçün adı səbirliliyin rəmzi kimi də qalmışdır. "Əyyub səbri" deyimi zərbi-məsəl olaraq indi də işlənməkdədir.

Qurani-Kərimin bəzi surələrinin adı da xüsusi ad kimi uşaqlara verilir. Məsələn, Furqan adı. Furqan "haqqı batildən ayıran" mənasındadır və Quranın 25-ci surəsidir. Furqan eyni zamanda Quranın tamamına da deyilir, yəni "Kitab" kimi. Quranın 20-ci surəsinin adı olan Taha, Quranın 36-cı surəsinin adı olan Yasin və s. Nur surəsinin adı həm ayrılıqda, həm də müxtəlif sözlərlə birləşərək işlənir: Nuray, Nuranə, Aynur, Nurlan və s. Kövsər, Şəms – bu surənin adının mənası "günəş" deməkdir və ibranicə *günəş* mənasını שמש – [şemeş] sözü ifadə edir, "Qələm", "Məryəm", "Yunus", "Yusuf", "Loğman", "Nuh", "İbrahim", "Məhəmməd", "Rəhman" və s. adları da buraya aid etmək olar.

**Nəticə**

Dünya xalqları tarixində şəxs adları ilə bağlı müxtəlif ənənələr meydana gəlmişdir. Türk, ərəb, yəhudi, çin, rus, gürcü və başqa xalqları buraya aid etmək olar. Həmin xalqlarda, o cümlədən Azərbaycanda şəxs adlarına böyük əhəmiyyət verilmiş, adı insanın ruhu adlandırmışlar. Adı gec verilən körpələrə ruhu olmayan varlıq kimi baxılmış və adın vaxtında verilməsi çox vacib vəzifə hesab edilmişdir. Hər bir xalqın ad anlayışı ilə bağlı mülahizələri, fikirləri və advermə ənənələri bir-birindən fərqli və müxtəlif olmuşdur. Qədim türk yazılı abidələri və tarixi faktlardan görürük ki, qədim dövrlərdə uşaqlara 15-16 yaşına qədər ad verilmirdi. "Kitabi-Dədə Qorqud" dastanından da məlum olduğu kimi, qəhrəmanlıq və şücaət göstərməyən gənclərə ad verilmirmiş. Ad almaq üçün uşaqlar müəyyən yaşa çatmalı, qabiliyyətlərini nümayiş etdirməli idilər. Lakin islam dininin yayılmasından sonra advermə ənənəsi dəyişmiş və uşaqlara Qurani-Kərimdəki adlar verilmişdir. Beləliklə, deyə bilərik ki, şəxs adlarının öyrənilməsi hər hansı bir xalqın mədəniyyətinin, dini görüşlərinin, adət-ənənəsinin, etnik tarixinin, düşüncə tərzinin, dil tarixinin və s. məsələlərin aydınlaşdırılmasında mühüm rol oynayır. Ad insanın taleyində, onun həyatında və psixologiyasında böyük rol oynayır. Şəxs adlarında mifoloji və dini təsəvvürlər də əks oluna bildiyindən, bir xalqın dini baxışlarını tədqiq edərkən həmin xalqın ad sistemi də öyrənilməlidir. Hər bir ad mənşə etibarı ilə hansı dilə məxsusdursa, həmin dilin xüsusiyyətlərini də özündə qoruyub saxlayır. Xalqlar arasındakı söz mübadiləsinin və mədəni əlaqələrin müəyyənləşdirilməsində onomastik vahidlərin, o cümlədən antroponimlərin tədqiqi də vacib amillərdəndir.

**Ədəbiyyat siyahısı**

Aydın, A. (2010). *Mənşəyinə görə şəxs adları lüğəti.* Bakı: Şirvannəşr

*Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti* (2007). I kitab, Antroponimlər. Bakı: Nafta-Press

Bünyadov, Z. və Məmmədəliyev, V. (2015). *Qurani-Kərim*. Bakı: Nurlan Nəşriyyatı

Əliyev, H. (2004). *Azərbaycan antroponimikasının inkişaf mərhələləri*. Bakı: İqtisad Universiteti Nəşriyyatı

Paşayev, A. və Bəşirova, A. (2011). *Azərbaycan şəxs adlarının izahlı lüğəti*. Bakı: Mütərcim Nəşriyyatı
*Tövrat-Zebur* (2001). The Bible Society in Turkey

**Gülüş Səfərzadə**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Elmi işçi*
*E-mail: gulushsafarzada@gmail.com*
*ORCİD: 0009-0001-9359-4105*

# ƏLİ SƏRKAROV MAARİFÇİ REALİZM ƏDƏBİ CƏRƏYANININ NÜMAYƏNDƏSİ KİMİ

**Xülasə**

Məqalədə XİX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifçi realizminin nümayəndələrindən biri olan Əli Sərkarovun hekayə yaradıcılığı təhlil olunur. Tədqiqatın əsas məqsədi müəllifin "Əlvahi-həyat", "Yarələrim" silsilələri, eləcə də "İki həyat" hekayəsi əsasında yaradıcılığında əks olunan sosial problemləri və maarifçilik ideyalarını üzə çıxarmaqdır.

Məqalədə Ə. Sərkarovun əsərlərində cəhalətə qarşı mübarizə, təhsil və tərbiyə məsələləri, qadının cəmiyyətdəki mövqeyi, sosial bərabərsizlik və mühitin insan taleyinə təsiri kimi mövzuların bədii və publisistik vəhdətdə təqdim olunduğu göstərilir. Həmçinin müəllifin əlyazmaları, çap olunmuş əsərləri və dövri mətbuatdakı fəaliyyəti əsasında onun maarifçi-ziyalı portreti müəyyənləşdirilir.

Tədqiqat nəticəsində müəyyən edilir ki, Əli Sərkarovun hekayələri Azərbaycan maarifçi realizminin bir parçasıdır və onun yaradıcılığı ictimai problemlərin bədii təhlili baxımından mühüm mənbədir.

***Açar sözlər***: *Əli Sərkarov, maarifçi realizm, Azərbaycan ədəbiyyatı, hekayə janrı, sosial problemlər, qadın təhsili*

# ALİ SARKAROV AS A REPRESENTATIVE OF THE LITERARY MOVEMENT OF ENLIGHTENED REALISM

**Abstract**

The article analyzes the short story creation of Ali Sarkarov, one of the representatives of Azerbaijani enlightened realism in the late 19th and early 20th centuries. The main goal of the study is to reveal the social problems and ideas of enlightenment reflected in the author's work, based on his series "Alvahi-hayat", "Yarelarim", as well as the story "Two Lives".

The article shows that in A. Sarkarov's works, topics such as the fight against ignorance, issues of education and upbringing, the position of women in society, social inequality, and the influence of the environment on human destiny are presented in artistic and journalistic unity. Also, based on the author's manuscripts and activities in the periodical press, his portrait as an enlightener-intellectual is determined.

The research results show that Ali Sarkarov's stories are part of Azerbaijani enlightened realism and that his work is an important source in terms of artistic analysis of social problems.

***Key words****: Ali Sarkarov, enlightened realism, Azerbaijani literature, story genes, social problems, women's education*

## Giriş

XIX əsrin sonu XX əsrin əvvəllləri Azərbaycan ictimai-mədəni həyatında dərin dəyişikliklər, ideya toqquşmaları və maarifçilik düşüncəsinin fəallaşması ilə səciyyələnir. Bu dövr milli özünüdərk, təhsil, mətbuat və ədəbiyyat vasitəsilə cəmiyyətin inkişafı ideyasının ön plana çəkildiyi bir mərhələ kimi ədəbiyyat tariximizdə mühüm yer tutur. Maarifçilik hərəkatının nümayəndələri bədii yaradıcılığı yalnız estetik məqsədlə deyil, həm də ictimai problemlərin ifşası, cəhalət və mövhumata qarşı mübarizə vasitəsi kimi dəyərləndirmişlər.

Bu mənada maarifçi yazıçı, publisist və ictimai xadim Əli Sərkarovun yaradıcılığı dövrün sosial-mənəvi mənzərəsini əks etdirən mənbələrdən biridir. O, XX əsrin əvvəllərində Azərbaycan maarifçi realizminin formalaşmasında iştirak edən, lakin yaradıcılığı uzun müddət tədqiqatdan kənarda qalmış simalardandır.

Əli Sərkarovun bioqrafiyası haqqında məlumatlar məhdud olsa da, onun xatirə xarakterli mətnləri, publisistik yazıları və dövrün mətbu materialları əsasında müəllifin maarifçi-ziyalı portretini müəyyənləşdirmək mümkündür. Sərkarovun yazılarından aydın olur ki, o, müəllim mühitinə yaxından bələd olmuş, təhsil sistemindəki problemləri balavasitə yaşamış və qələmə aldığı mövzuları real müşahidələr üzərində qurmuşdur.

Ədib XIX əsrin sonlarında Şuşada anadan olmuş, ilk təhsilini də burada almışdır. Daha sonra təhsilini Qori Müəllimlər Seminariyasında davam etdirmişdir. Azərbaycan xalq maarifi tarixində mühüm yer tutan, yeni tipli məktəblərin təşkili və pedoqoji fikrin formalaşmasında fəal iştirak etmiş görkəmli maarifçi Həsən bəy Sultanovla, "Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi, şair, dramaturq Abbas Səhhətlə dostluq münasibətləri onun dövrün qabaqcıl ziyalı çevrəsinə daxil olduğunu göstərir. H. Sultanov eyni zamanda Əli Sərkarovun müəllimi olmuşdur. Abbas Səhhətin 1915-ci ildə ona itfahən qələmə aldığı "Bəradərim Əli Sərkarov cənablarına" adlı şeiri təkcə iki ziyalının dostluğunu deyil, maarifçi ideallar ətrafında formalaşmış mənəvi qardaşlığı ifadə edir. "Bəradərim" müraciətilə Abbas Səhhət Əli Sərkarovu sadəcə dost deyil, öz maarifçi mövqeyinin silahdaşı kimi təqdim edir.

Əli Sərkarov dövri mətbuatda, xüsusilə "İqbal" qəzetində təlim, təhsil və tərbiyə məsələlərinə dair məqalələrlə çıxış etmişdir. Qəzetdə müəllifin bir şeirinin dərc olunması onun yaradıcılığının janr baxımından da rəngarəng olduğunu göstərir.

**Əsas mətn**

Ə. Sərkarovun bədii yaradıcılığı əsasən hekayələrdən ibarətdir. Onun hekayələri dövrün ictimai problemlərinə biganə qalmayan, xalq həyatını bütün ağrıları və ziddiyyətləri ilə təqdim edən realist yazı nümunələridir.

Əlyazmalar İnstitutunun arxivində Əli Sərkarovun iki əlyazması saxlanır. Bunlardan biri "Əlvahi-həyat" adlı hekayələr toplusudur. Buraya müəllifin "Bağladılar", "Mələksima", "Şərifə bacı" və "Məişətimizdən bir nəbzə" hekayələri daxildir. Hekayələr 1911-1912-ci illərdə Qoridə qələmə alınmışdır.

Toplunun "Əlvahi-həyat" adlandırılması təsadüfi deyil: hər bir hekayə həyatın ayrıca bir "lövhəsi", bir ictimai vəziyyətin bədii təsviridir. Burada hadisələrdən daha çox insan taleləri, sosial mühitin fərdlər üzərində yaratdığı psixoloji və mənəvi təzyiq ön plana çıxır.

Toplunun ilk əsəri "Bağladılar" hekayəsidir. Hekayə maarifçi realizmin ən kəskin mövzularından birini – məktəbin və müəllimin cəhalət qarşısında aciz vəziyyətini əks etdirir. Burada müəllim Molla Cabbar obrazı ictimai laqeydliyin qurbanı kimi təqdim edilir və bu vəziyyət maarifçiliyin qarşılaşdığı real maneələri üzə çıxarır. Molla Cabbarın faciəli həyatı vasitəsilə cəhalətə qarşı mübarizə, yeni məktəb ideyalarının yayılması və köhnə düşüncə ilə ziddiyyət

məsələləri qabardılır. Müəlliminə həsr etdiyi bu hekayədə Ə. Sərkarovun Molla Cabbara olan rəğbəti açıq-aydın hiss olunur.

"Molla Cabbar, vücudu, ruhu, bütün fikir və amalı dərs verdigi məktəbdə olan bir şəxs idi". (Sərkarov, 1455/3080: 7) O, şagirdlərinə qarşı sonsuz mərhəmət və sevgi hissi, təhsil eşqi ilə yaşasa da, cəmiyyətin laqeydliyi və maddi sıxıntılar içində tənha qalır. Hekayənin sonunda məktəbin bağlanması hadisəsi simvolik məna daşıyır: bu həm cəmiyyətin maarifə qarşı biganəliyinin, həm də ziyalının mübarizəsinin nəticəsiz qalmasının ifadəsidir. Əslində müəllif Molla Cabbarın dili ilə xalqın geriliyinə acı bir etiraz səsləndirir, lakin ümidsizliyə düşmür – onun sükutunda gələcək nəsillərə ünvanlanan bir çağırış vardır. (Səfərzadə, 2025: 60)

Topluya daxil edilən ikinci hekayə "Mələksima" adlanır. Bu hekayə maarifçi nəsrdə poetik və sentimental istiqamətin təzahürüdür. Burada müəllifin diqqəti insanın mənəvi aləminə, təmiz duyğulara və uşaqlıq xatirələrinə yönəlir. Mələksima obrazı həyatın faniliyi, təbiətin və insan hislərinin gözəlliyi kimi romantik motivləri özündə birləşdirir. Bu əsərdə də maarifçi ruh duyulur: müəllif sevgi və saf duyğuları mənəvi tərbiyənin, zərifliyin və insani kamilliyin ifadəsi kimi təqdim edir. Hekayənin humanist ruhu Sərkarovun mənəvi-əxlaqi tərbiyə ideyaları ilə səsləşir.

"Şərifə bacı" hekayəsi "Xalalarıma hədiyyeyi-acizanəmdir" (Sərkarov, B-1455/3080: 21) ithafnaməsi ilə başlayır. Hekayədə müəllif xalq arasında kök salmış batil inancları və saxta "həkimlik", "tas qurmaq" kimi mövhumat formalarını tənqid edir. Şərifə bacı obrazı bir tərəfdən nadanlığın məhsulu, digər tərəfdən yoxsulluğun qurbanıdır. Müəllif bu obraz vasitəsilə maarifsizliyin həm mənəvi, həm də sosial fəsadlarını göstərir. Hekayənin sonunda müəllif qəhrəmanın vəziyyətinə ironik, lakin mərhəmətli münasibət bildirərək göstərir ki, cəhalət çox vaxt aclıq və səfalət fonunda meydana çıxır.

"Məişətimizdən bir nəbzə" hekayəsi isə əsərin ruhuna uyğun olaraq Avni bəydən (Yenişehirli Avni bəy (1826-1883)) sitat gətirilmiş "Rəst payı bağlıdır, biçarə qurban neyləsin!.." (Sərkarov, 1455/3080: 21) epiqrafı ilə başlayır. Hekayədə maarifçilik ideyaları ailə-məişət müstəvisində təqdim olunur. Hekayənin əsas ideyası qadın təhsili məsələsidir. Firidun obrazı elmli, Avropa təhsilli gənc ziyalı kimi Zəlixa adlı savadsız qızla evlənməkdən imtina edir. Müəllif bu qarşıdurma ilə iki müxtəlif dünyagörüşünü – köhnə ailə ənənələri ilə yeni maarifçi düşüncə tərzini üz-üzə qoyur. Müəllif bu qənaətdədir ki, iki gənc bir-birini nə qədər sevirsə sevsin, onların arasında dünyagörüşü, inkişaf fərqi varsa, bu evlilik uğursuzluğa məhkumdur.

Müəllifin Əlyazmalar İnstitutunda qorunan ikinci əlyazması "İki həyat" hekayəsidir. "İki həyat" hekayəsi Ə. Sərkarovun dünyagörüşünü, sosial problemlərə münasibətini və maarifçilik idealını dolğun şəkildə əks etdirən bir nəsr nümunəsidir. Hekayə həm həcm, həm də problematika baxımından Ə. Sərkarovun digər hekayələrindən fərqlənir. Əsər müəllif tərəfindən təkxətli şagird dəftərində qələmə alınmışdır, həcmi 43 vərəqdir.

Hekayə bir-birindən fərqli, lakin ideya baxımından qarşılaşdırılan iki həyat xətti üzərində qurulmuşdur. Bu paralel süjet xətti yazıçıya imkan verir ki, eyni sosial mühitdə böyüyən uşaqların taleyinin hansı amillərdən asılı olaraq tamamilə fərqli istiqamətlərə yönəldiyini nümayiş etdirsin. Əsərin adındakı "iki həyat" anlayışı da məhz bu qarşılaşdırmanı simvolizə edir.

"İki həyat" hekayəsində Əli Sərkarov yoxsulluq və sosial bərabərsizlik, savadsızlıq və cəhalətin fəsadları, uşaqların tərbiyəsində mühitin həlledici rolu, qadının cəmiyyətdəki vəziyyəti və təsəttür problemi, maarifin insanın taleyində xilasedici qüvvə kimi çıxış etməsi kimi bir sıra mühüm sosial problemlər qaldırır.

Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalarından başqa Əli Sərkarovun 1914-cü ildə "Kaspi" mətbəəsində çap olunmuş "Yarələrim" adlı hekayələr kitabı da vardır. Kitab Milli

Kitabxananın arxivində saxlanılır. Kitaba daxil edilən 1912-ci ildə Qoridə qələmə alınmış "O da fərəhləndi", "Xatiratımdan", "Bayram xatiratımdan" hekayələri müəllifin xatirə janrına meylini və publisistik üslubunun güclənməsini nümayiş etdirir.

"O da fərəhləndi" hekayəsində Sərkarov cəmiyyətin mənəvi reaksiyalarını, kiçik və zahirən əhəmiyyətsiz görünən hadisələrin insan psixologiyasında yaratdığı təsiri ön plana çəkir. Burada "fərəh" anlayışı təkcə sevinc yox, ümid və intizarın simvolu kimi işlədilir. Müəllif sosial mühitdə uzun müddət sıxıntı içində yaşayan insanın ani sevincə belə necə ehtiyac duyduğunu göstərir. Bu hekayə maarifçi realizmdə psixoloji müşahidə elementlərinin gücləndiyini nümayiş etdirir.

"Xatiratımdan" mətnində müəllif artıq hadisələrin "kənar müşahidəçisi" deyil, birbaşa iştirakçısı və şahidi kimi çıxış edir. Burada xatirə şəxsi yaddaşdan çıxaraq ictimai yaddaşa çevrilir. Müəllif öz həyat yolunda rastlaşdığı mənzərələri təqdim etməklə, maarifçi ziyalının gündəlik mübarizəsini – maddi çətinlikləri, laqeyd mühiti, cəmiyyətin müqavimətini – dolayısı ilə ifşa edir.

Müəllimi Həsən bəy Sultanova həsr etdiyi "Bayram xatiratımdan" hekayəsi "Yarələrim" silsiləsinin sonuncu və ideya baxımından ən yüklü əsəridir. Bayram anlayışı burada zahiri şənlikdən çox, istimai ziddiyyətlərin fonunda insan talelərinin təzadlı mənzərəsi kimi təqdim olunur. Müəllifin bu mətndə Həsən bəy Sultanovu ehtiramla yad etməsi və görkəmli pedaqoq və xalq maarifinin ilk təşkilatçılarından biri kimi təqdim etməsi Sərkarovun ideoloji mövqeyini açıq şəkildə ortaya qoyur. Bu hekayədə xatirə janrı maarifçilik tarixinin şəxsi şahid dili ilə yazılmış sənədinə çevrilir.

Əli Sərkarov bu hekayədə qız məktəbinin yaranması, kənd ağsaqqallarının, din xadimlərinin, ümumilikdə kənd camaatının bu işə nəinki qarşı çıxmadıqlarını, əksinə, bacardıqları köməyi göstərməyə hazır olduqlarını təəccüb, heyranlıq, qürur və məmnuniyyətlə təsvir edir. Müəllif bunu Həsən bəy Sultanovun simasında müəllimin şəxsiyyəti və nüfuzu ilə əlaqələndirir və hesab edir ki, belə fədakar müəllimlərin sayı artarsa kəndlərdə savadlı, gözüaçıq insanların sayı artar: Ə. Sərkarovun fikrincə: "Kəndin həyatı kənd müəllimindən asılıdır, hər bir kənd müəllimi istəsə, xərabəzar bir kəndi abad, əhalisini də təlim və tərbiyəyə təşviq edə bilər". (Sərkarov, 1914: 16)

"Xatiratından" və "Bayram xatiratımdan" hekayələri Sərkarovun bioqrafiyasının tədqiqi baxımından əhəmiyyətli mənbədir.

Ümumilikdə "Yarələrim" silsiləsində Əli Sərkarovun yaradıcılığında emosional dərinliyin artdığını, publisistik təfəkkürlə bədii təsvirin daha sıx vəhdət təşkil etdiyini görürük. Bu hekayələr müəllifin daxili iztirablarını deyil, maarifçi ziyalının cəmiyyət qarşısında daşıdığı mənəvi məsuliyyəti əks etdirən "yaralar"dır.

Dil və üslub xüsusiyyətləri

Əli Sərkarovun dili dövrün mətbuat və maarifçi ədəbiyyat dili ilə sıx bağlıdır. Onun hekayələrində publisistik üslubla bədii təsvir bir-birini tamamlayır. Uzun, emosional cümlələr, xalq danışıq elementləri, arxaik və dövrə məxsus leksika mətni həm tarixi, həm də estetik baxımdan qiymətli edir. Bu dil yalnız hadisəni deyil, dövrün düşüncə tərzini də əks etdirir.

**Nəticə**

Əli Sərkarovun hekayə yaradıcılığı Azərbaycan maarifçi realizminin bir parçasıdır. Onun əsərləri dövrün ictimai-mənəvi problemlərini – cəhalət, savadsızlıq, sosial bərabərsizlik, qadın təhsili və müəllim nüfuzu kimi məsələləri bədii ümumiləşdirmə səviyyəsində əks etdirir.

"Əlvahi-həyat" silsiləsinə daxil olan hekayələr həyatın müxtəlif sosial lövhələrini təqdim etməklə cəmiyyətin daxili ziddiyyətlərini üzə çıxarır. "Yarələrim" silsiləsində müəllifin publisistik

üslubu daha da güclənir, şəxsi müşahidə ictimai ümumiləşdirmə səviyyəsinə yüksəlir. "İki həyat" hekayəsi isə müəllifin yaradıcılığında həm struktur, həm də problematika baxımından kulminasiya nöqtəsi kimi çıxış edir və sosial mühitin insan taleyinə təsirini dolğun şəkildə nümayiş etdirir.

Əli Sərkarovun yaradıcılığı maarifçi ideyaların bədii ifadəsi kimi Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutur və onun əsərləri gələcək tədqiqatlar üçün zəngin material verir.

**Ədəbiyyat siyahısı**

(АЗЕРТАДЖ,) qoyulma tarixi: 12 апреля 2014
Hacıyev T. (2012) *Azərbaycan ədəbi dilinin tarixi*. Bakı: Elm Nəşriyyatı
Həbibbəyli İ. (2017). "Maarifçilik və realizm: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri". 525-ci qəzet,, 16 dekabr, 8-9.
https://525.az/news/17381-gorkemli-maarifci-hesen-bey-sultanovla-bagli-elmi-praktik-konfrans-olub qoyulma tarixi: 15 aprel 2014
Qarayev Y. (1980). *Realizm: sənət və həqiqət (Azərbaycan realizminin mərhələləri).* Bakı: Elm Nəşriyyatı
Qasımov Cəlal. (2011). *Bolşevik qurşununun qurbanları*. Bakı: ADPU-nun Mətbəəsi
Mir Cəlal və Hüseynov, F. (2018). *XX əsr Azərbaycan ədəbiyyatı*. Bakı: Elm və təhsil Nəşriyyatı
Seyidov F. Ə., *Qori seminariyası və onun məzunları*. (1988). Bakı: Maarif Nəşriyyatı
Sərkarov Ə. M. Əlvahi-həyat. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu B-1455/3080
Sərkarov Ə. M. İki həyat. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu B-1099/2722
Sərkərov Ə. M (1914). . *Yarələrim*. Bakı: Kaspi Mətbəəsi ANL Azərbaycan ədəbiyyatının arxivi şöbəsi
Səfərzadə G. (2025). "Əli Sərkarovun "Əlvahi-həyat" hekayələr toplusu: marifçilik ədəbi fikrinin davamı kimi" . Əlyazmalar yanmır, 2 (21), 59-63.
Səfərzadə G. (2025). "Əli Sərkarov və onun "İki həyat hekayəsi". Filologiya və sənətşünaslıq, 2, 72-76

**Jalə Hüseyn Rüstəmova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Elmi işçi*
*E-mail: jalerustemova90@gmail.com*
*ORCİD: 0009-0000-3226-5730*

# HƏSƏN İMANOVUN FƏALİYYƏTİ VƏ DÖVRÜN İCTİMAİ-SİYASI REALLIQLARI

**Xülasə**

Məruzə Azərbaycan ictimai fikrində xüsusi yerə sahib olan tarixçi, jurnalist və tərcüməçi Həsən Həşim oğlu İmanov, eləcə də onun faciəli taleyindən – repressiya qurbanı olmağından və elmi fəaliyyətindən bəhs edir. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, onun yaradıcılığı uzun müddət lazımi qiymətini almasa da, müstəqillik dövründə tədqiqatçılar tərəfindən yenidən araşdırılmışdır. Bu istiqamətdə prof. Ədalət Tahirzadə, prof. Asif Rüstəmlinin H.İmanov haqqındakı məqalələri, həmçinin mərhum prof. Cəlal Qasımovun tədqiqatları xüsusi çəkiyə və əhəmiyyətə malikdir.

Prof. Ədalət Tahirzadənin 2004-cü ildə nəşr etdirdiyi ikihissəli "Dosent Həsən Həşim oğlu İmanov" adlı geniş məqaləsi alimin həyat və elm yolunu işıqlandırmaqla yanaşı, repressiyaya məruz qalaraq haqsız təqiblərlə üzləşməsindən, ona qarşı irəli sürülən əsassız ittihamlardan, cinayət işinin gedişatından və sonda ən yüksək cəzaya – güllələnməyə məruz qaldığından bəhs edir.

Prof. Asif Rüstəmli 2018-ci ildə işıq üzü görən "Əlyazmalar xəzinəmizin ilk rəhbəri" adlı yazısında Həsən İmanovu AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun sələfi, ilk qurucusu təqdim edərək zəngin mənəviyyat xəzinəmizin rəsmi təməlini qoyanlardan birincisi kimi yüksək qiymətləndirir.

Prof. Cəlal Qasımov isə "Bolşevik qurşununun qurbanları" (2011), "Birinci Türkoloji Qurultay: Şahidlər və Şəhidlər" (2019), "Siyasi Repressiya: Həyatda və Ədəbiyyatda" (2020) kimi tədqiqat əsərlərində repressiya illərini əhatə edən cinayət proseslərini işıqlandıran zaman yeri gəldikcə Həsən İmanov haqqında dəyərli məlumatlar vermişdir.

***Açar sözlər:*** *Həsən İmanov, Əlyazmalar İnstitutu, Qurultay, repressiya*

# HASAN IMANOV'S ACTIVITIES AND THE SOCIO-POLITICAL REALITIES OF HIS ERA

**Abstract**

The report focuses on Hasan Hashim oglu Imanov, a historian, journalist, and translator who occupies a distinguished place in the history of Azerbaijani intellectual thought. It also examines his tragic fate as a victim of Stalinist repression and highlights his scholarly contributions. Regrettably, although his academic legacy remained largely overlooked for many years, it has been re-evaluated by researchers during the period of Azerbaijan's independence. Among the most significant studies devoted to H. Imanov are the works of Professor Adalat Tahirzade, Professor Asif Rustamli, and the late Professor Jalal Gasimov.

Professor Adalat Tahirzade's comprehensive two-part article, "Associate Professor Hasan Hashim oglu Imanov" (2004), not only sheds light on the scholar's life and career but also provides

a detailed account of his political persecution, the unfounded accusations brought against him, the course of his criminal investigation, and his eventual execution by firing squad.

In his article “The First Director of Our Manuscript Treasury” (2018), Professor Asif Rustamli presents Hasan Imanov as the founder and first head of the institution that later became the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences (ANAS). He highly appreciates Imanov as one of the pioneers who laid the institutional foundations for preserving Azerbaijan’s rich manuscript heritage.

The late Professor Jalal Gasimov also provides valuable information about Hasan Imanov in several of his scholarly works, including “Victims of the Bolshevik Regime” (2011), “Literary Trials” (2012), “The First Turkological Congress: Witnesses and Martyrs” (2019), and “Political Repression: In Life and Literature” (2020). In these studies, while examining the criminal prosecutions and political repression of the Soviet period, Gasimov frequently refers to Imanov’s life, persecution, and scholarly legacy.

***Key words:*** *Hasan Imanov, Institute of Manuscripts, Congress, repression*

**Giriş**

Həsən Həşim oğlu İmanov Azərbaycan tarixşünası, jurnalisti, tərcüməçisi, prof. Ədalət Tahirzadənin təbirilə desək, “NKVD”nin sındıra bilmədiyi məhbus və 1930-cu illərdə formalaşan Azərbaycan elmi mühitinin nümayəndələrindən biri olmuşdur. O, 30 may 1901-ci ildə Şuşada dünyaya göz açmış, ibtidai təhsilini yerli mədrəsədə aldıqdan sonra Şuşa Realnı Məktəbinə qəbul olmuş və 1919-cu ilə qədər burada təhsilini davam etdirmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1920-ci ildə Bakıya köçmüşdür. Elmə və dilçiliyə olan böyük marağı onu Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərq fakültəsinə gətirmişdir. 1921-1926-cı illərdə bu fakültədə təhsil alaraq tarixçi ixtisasına yiyələnmişdir. Ali təhsilini başa vurduqdan sonra elmi fəaliyyətini daha da dərinləşdirmək məqsədilə 1928-ci ildə Xalq Maarif Komissarlığı xətti ilə Moskvaya, Şərq Xalqları İnstitutunun aspiranturasına göndərilmişdir.

**Əsas mətn**

Həsən İmanov təkcə tarix sahəsi ilə məhdudlaşmamış, dövrün ictimai-siyasi və mədəni hadisələrində yaxından iştirak etmişdir. Onun fəaliyyətini bir neçə əsas istiqamətə bölmək olar:

**1. Əlifba İslahatı və Mətbuat**

Universitet illərindən etibarən latın qrafikalı yeni əlifbaya keçid prosesində fəal rol oynamış, Yeni Türk Əlifbası Komitəsində çalışmışdır. O, dövrün nüfuzlu mətbuat orqanlarında ("Yeni yol", "Kommunist" qəzetləri və s.) əlifba hərəkatı, dilçilik və teatr tənqidinə dair məqalələrlə çıxış etmişdir.

**2. Tarixşünaslıq və Arxeoqrafiya**

Moskvada təhsilini tamamlayıb geri döndükdən sonra elmi fəaliyyətini SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında (AzFAN) davam etdirmişdir. 1935-1937-ci illərdə bu qurumun arxeoqrafiya şöbəsinin elmi əməkdaşı və müdiri vəzifəsini icra etmişdir. O, Azərbaycan tarixinin mənbəşünaslıq və tarixşünaslıq problemlərinə dair fundamental tədqiqatların müəllifidir.

**3. Tərcüməşünaslıq**

Əlifba, terminologiya və imla məsələləri üzrə işlərdən başqa ruscadan türkcəyə tərcüməylə də məşğul olan H.İmanovun tərcümə etdiyi böyük işlər içərisində V.İ.Leninin “Rusiyada kapitalizmin inkişafı”nın (əsərlərinin III cildi) tərcüməsini göstərmək olar. Çevirmə 1930-cu ildə başa çatıb və onun bir bölümü Azərnəşrin nəşr etdiyi altıcildlik Lenin əsərlərində verilib. Bundan

başqa, türk dilinə "Lenin Komintern haqqında" toplusunu, eləcə də siyadi iqtisada, tarixə və b. dair bir sıra işləri də çevirib (Tahirzadə, 2004: 27).

Həsən İmanovun dövri mətbuatda və elmi məcmuələrdə işıq üzü görən, ictimaiyyətə bəlli olan yazıları isə aşağıdakılardan ibarətdir:

1. **Hökumət Türk Dram Tiyatrosunun bir illiyi.** Yeni yol, 27 yanvar, 1923, № 4;
2. **"Ölülər" qəhrəmanı İsgəndərin məhkəməsi münasibətilə.** Yeni yol, 10 mart, 1923, № 9
3. **Tənqid və biblioqrafiya. Türküstan kitabları.** Yeni yol, 31 mart, 1923, № 11
4. **Tənqid tiyatrosunda.** Yeni yol, 19 aprel, 1923, № 14
5. **Acınacaq bir hal (baş məqalə).** Yeni yol, 24 aprel, 1924, № 9
6. **Крымский фонетический алфавит.** Изв. Общества обследования и изучения Азербайджана. Баку, 1926, № 2
7. **Yeni ərəb əlifbası.** Kommunist qəzeti, 18 şubat (fevral), 1926, № 42, s. 4–5
8. **N. B. Vəzirov (nekroloq).** Yeni yol, 12 iyul, 1926, № 159
9. **Birinci Türkoloji Qurultay.** Yeni yol qəzetinə əlavə, 7 noyabr, 1927, s. 13–14
10. **Вопросы историографии Азербайджана: наши достижения и ближайшие задачи.** Труды АзФАНф. XXX том. Баку, 1936, с. 161–164
11. **Вопросы историографии Азербайджана.** Наука АзССР за 15 лет. Б, 1936 (wikipedia.az)

Dosent İmanovun konfransımızın mövzusu ilə səsləşən "Birinci Türkoloji Qurultay" məqaləsinə diqqəti çəkmək istərdik ki, alim Qurultayın türk-tatar xalqları üçün necə böyük və mədəni bir hadisə olduğunu dönə-dönə qeyd edir: *"Şübhəsiz, keçən 1926-cı ilin mart ayında Bakıda çağırılmış Türkoloji Qurultay yalnız Şuralar İttifaqında yaşayan türk-tatar xalqları deyil, bəlkə, Qızıl xətt xaricində yaşayan türk və başqa Şərq millətləri üçün də böyük mədəni və tarixi bir hadisə idi. İnqilabdan qabaq ən ağır şəraitdə yaşayan hər bir mədəni və maarif təşəbbüsündə böyük təzyiqlərə düçar olan və "inorodets" (yabançı xalq) adı daşıyan türk-tatar millətləri öz mədəni ehtiyacları haqqında ucadan danışmağa və onların çarəsini düşünməyə imkan buldu.*

*Professor Pavloviç pək haqlı olaraq, Qurultayı təbrik edərkən söylədiyi nitqində onun əhəmiyyəti haqqında aşağıdakı sözləri demişdi:*

*"Bu Qurultay yalnız ziyalıların deyil, bəlkə, bütün geniş türk kütləsinin nəzərini türk-tatar xalqlarının mədəniyyətə doğru irəliləməsinə mümanəət törədən istilah, əlifba və imla məsələsinin nöqsanlarına cəlb etməlidir. Bu Qurultay, türk-tatar xalq kütlələrinin savadlanmasına və maariflənməsinə əngəl törədən nadanlıq Port-Artur və Cəbəl-Tariklərinə türk-tatar xalqlarının inqilab taborları tərəfindən yapılan böyük hücumun başlanğıcıdır". "İndiyə qədər yalnız kapitalistlərin deyil, öz zəncirlərilə belə bağlanmış və bəşəriyyətin mədəni hərəkatından uzaqda durmuş türk-tatar xalqları üçün bu Qurultay böyük mədəni bir əsas düzəldir. İmdi türk-tatar xalqları bu zəncirləri qıraraq başqa mədəni xalqlar sırasına keçir" (Ağamalıoğlu yoldaşın Qurultay bağlanarkən söylədiyi nitqindən).*

*Doğrudan da, Qurultayda müzakirə edilən məsələlərin hamısı türk-tatar xalqlarının mədəni tərəqqisi ilə sıkı surətdə əlaqədar olan məsələlər idi: əlifba imla istilah, ana dili tədrisi və bu başqa bu kimi məsələlər. Təbii bunların həpsi dünən meydana atılan məsələlər deyil idi. Bunlardan bəzisinin, məsələn əlifba məsələsinin uzun tarixi vardır. Fəqət bu kimi əskiliyə baxmayaraq, bu məsələlərin heç birisi imdiyə qədər həll edilə bilməmişdi. Çünki bunun üçün nə tarixi zəminə, nə də başqa lazımi şərait var idi. Fəqət inqilabdan sonra bu məsələlərin hamısı meydana atıldı və həll edilməsi üçün tədbirlər görünməyə başladı"* (İmanov, 1927: 13).

Ərəb əlifbasının yaratdığı problemləri, insanların bu əlifbada yazıb-oxuma çətinliyini hər zaman dilə gətirən və işıqlandıran alim sözügedən məqaləsində də ənənəsinə sadiq qalaraq Qurultayın ən mühüm məsələsi – əlifba islahatı qərarını tam şəkildə dəstəkləyərək gələcəyə ümidlə baxır: *"Söz yox, Qurultay tərəfindən müzakirə edilən məsələlərin ən mühümü əlifba məsələsi idi. Qurultaydan qabaq əlifba məsələsi ətrafında olan bu mübahisələr bu məsələnin nə qədər mühüm olduğunu göstərmişdi. Odur ki, Qurultay tərəfindən də bu məsələ çox ciddi və ətraflı surətdə müzakirə edildi. Nəhayət, Qurultay yeni, latın sistemi üzrə qurulmuş əlifba haqqında öz tarixi qərarını çıxardı. Qurultay bu qərar ilə türk-tatar xalqlarının həyatında, şübhəsiz, yeni bir dövr açdı və əsrlərcə türk xalqının tərəqqisinə mane olan ərəb əlifbasının artıq yeni həyata uymadığını göstərdi.*

*Türkoloji Qurultay tərəfindən çıxarılan qərarlar tez bir zamanda böyük nəticələr verdi. İndi türk-tatar ölkələrində həmin bu qərarlar əməli olaraq həyata keçirilir. Yeni əlifba məsələsi artıq mübahisə dövrünü bitirib əməli məsələlər şurasına keçmişdir. Hal-hazırda yalnız Azərbaycan deyil, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Şimali Qafqaz və başqa yerlərdə yeni əlifba dövlət orqanları tərəfindən təsdiq edilərək dövləti əlifba elan edilmişdir. Bu yaxınlarda Moskvada çağırılmış Rusiya Cümhuriyyətində yaşayan xırda türk-tatar xalqları maarif xadimlərinin konfransı yeni əlifbanı qəbul edərək bunun əməli surətdə həyata keçməsi üçün tədbirlər hazırlamışdır.*

*Əlifba məsələsilə əlaqədar olaraq Türkoloji Qurultayda imla və istilah haqqında çıxarılan qərarlar da yavaş-yavaş həyata keçməyə başlayır. Bu yaxınlarda Krımda çağırılmış və 1928-ci ilin yanvar ayında Azərbaycanda çağırılacaq imla konfransları bu məsələnin də Türkoloji Qurultayın qərarı ilə artıq əməli surətdə həll ediləcəyini göstərir. Bununla əlaqədar olaraq istilah məsələsinin də əməli surətdə həll edilməsi hazırda növbəyə qoyulmuş mühüm məsələlərdəndir. Şübhəsiz, Türkoloji Qurultay tərəfindən qəbul edilən elmi prinsiplər bu məsələnin də kolaylıqla həll edilməsinə imkan verəcəkdir.*

*İştə, Türkoloji Qurultayın Şuralar İttifaqında yaşayan türk-tatar xalqları arasında bağışladığı birinci təsirlər.*

*Şübhəsiz ki, Türkoloji Qurultayın böyük qərarları Şərq ölklərinə də siraət etməmiş deyildir. Türkoloji Qurultaydan sonra qonşu Şərq məmləkətlərində əlifba reformasına doğru atılan addımların həpsi bu və ya başqa cəhətcə Türkoloji Qurultayın qərarları ilə əlaqədardır"* (İmanov, 1927: 14).

Bəhsikeçən mövzudakı fikirlərində sabitqədəm olan H.İmanov ərəb əlifbası ilə yanaşı, rus əlifbasının da işə yaramadığı qənaətində olub qurtuluşu yalnız latın əlifbasının qəbulunda görürdü ki, bu işdə Türkoloji Qurultaya güvəni sonsuz idi: *"Türkoloji Qurultay qarşısında duran məsələlər arasında ən əhəmiyyətlisi, şübhəsiz, əlifba məsələsidir. Artıq hər kəscə bəlli olmuş ki, əlifba məsələsi həll edilmədən nə imla, nə sərf və nə də ana dili tədrisi kibi mühüm məsələlər həlli mümkün deyildir. Hazırda Şuralar İttifaqında yaşayan türk-tatar xalqları arasında əlifba haqqında iki cərəyan vardır ki, bunlardan biri və ən qutlusu latın əlifbası cərəyanı, o biri isə ərəb əlifbasının islahı cərəyanıdır. Rus əlifbasının qəbul edilməsi lehinə bəzi danışıqlar varsa da, bunlar bir qədər qutlu və əhəmiyyətlisi deyildir. Çünki bu cərəyanın tərəfdarları pək azdır. Azərbaycanda latın əlifbasının 4 il içərisində tətbiq edilməsi bizə göstərdi ki, latın əlifbası gərək elmi, gərəksə pedaqoji və texniki cəhətdən ərəb əlifbasının islah edilmişindən qat-qat yaxşıdır. Bu məsələ mətbuatımıza elmi-pedaqoji yığıncaqlarımızda ətraflıca danışılıb məin fikirlər toplanmışdır* (İmanov, 1926: 4).

1926-cı il fevralın 26-dan martın 5-dək Bakıda keçirilən Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyası, ortaq əlifbaya (latın qrafikasına) keçid və dilçilik elminin inkişafı baxımından tarixi bir zirvə nöqtəsi idi. Lakin bu möhtəşəm elmi-mədəni hadisənin pərdəarxası və sonrakı illərdə gətirdiyi nəticələr həm Azərbaycan ziyalıları, həm də bütün türk dünyası üçün böyük bir milli faciəyə çevrildi.

Sovet imperiyası bu qurultay vasitəsilə əvvəlcə türk xalqlarının elmi və ideoloji potensialını üzə çıxardı, xəritəsini cızdı və cəmi 10 il sonra, 1937-ci il repressiyalarında bu elmi elitanı tamamilə məhv etdi. Qurultayın ən acı və birbaşa nəticəsi onun təşkilində, gedişatında, eləcə də qərarlarının icrasında iştirak edən, qurultayın qərarlarını dəstəkləyən demək olar ki, bütün böyük alimlərin, dilçilərin və ictimai xadimlərin repressiya qurbanı olması idi. Stalin rejimi qurultay iştirakçılarını "pantürkizm", "əks-inqilabi fəaliyyət" və "xarici kəşfiyyata işləmək" kimi saxta ittihamlarla damğaladı. Əlbəttə ki, bu hadisələr birdən-birə baş vermədi. Dövrün mövcud rejimi "qurbanlarını" bir yerə yığmaq, onları bir-birinin üzünə durdurmaq üçün sanki ən "əlverişli" zamanı gözlədi. Bir fakta diqqət edək! *1933-cü il dekabrın 4-də professor Vəli Xuluflu SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsinin Rəyasət Heyətinə (Az.-OZFAN) dəvət olundu və İctimai Elmlər şöbəsinin müdiri, akademik İ.İ.Meşaninovun rəhbərliyi ilə sektor və seksiyalarda kadr və struktur dəyişikliyi həyata keçirildi. Əli Nazim Ədəbiyyat Sektorunun və Ədəbi abidələrin nəşri seksiyasının, Ruhulla Axundov Dil Sektorunun, Salman Mümtaz Ədəbi irs, Hənəfi Zeynallı Şifahi ədəbiyyat, professor Bəkir Çobanzadə Milli azlıqlar və Həsən İmanov Əlyazma qaynaqlar seksiyasının rəhbəri təyin edildi* (Rüstəmli, 2018: 4).

Nə təsadüf ki, sözügedən vəzifəyə təyin olunan alim və ədiblərin hamısı repressiyaya məruz qalıb əsassız ittihamlarla üzləşərək ya güllələnmiş, ya da sürgün edilmişdir. İşin ən acınaqlı tərəfi isə həmin insanları bir-birilərinin ifadələri əsasında təqsirləndirərək "günahlarını" sübuta yetirməyə çalışırdılar. Lakin dosent İmanovun məhkəmə proseslərinə nəzər saldıqda görürük ki, o nəinki ittihamları rədd etmiş, hətta heç bir qələm yoldaşını, əməkdaşı, bir sözlə, təqsirli sayılan kimsəni "ələ verməmişdir". Prof. Ədalət Tahirzadə 15-16 may 1937-ci il dindirməsini belə şərh edir: *"15-16 may tarixli dindirməni də S.Məmmədov aparıb. O, Hənəfi Zeynallı, Vəli Xuluflu və İbrahim Eminbəylidən Həsən İmanova qarşı zorlan alınmış ifadələri oxuyaraq bunların doğruluğunu təsdiqlətməyə çalışsa da, "qəti inkar edirəm!"dən başqa cavab ala bilmir. Bu zaman müstəntiq V.Xuluflunun sözlərinə əsasən bildirir: "Siz qeyri-azərbaycanlıların instituta işə götürülməsinə müqavimət göstərmisiniz". H.İmanov müstəntiqdən fakt tələb edir. Bu yazını evində, yaxud iş yerində rahatlıqla, çay içə-içə, televizora baxa-baxa oxuyan indiki oxucum, görəsən, təsəvvür edə bilirmi ki, "NKVD" müstəntiqiylə hər "söhbət" dustağın sümükləri qırılınca döyülməsi, dırnaqlarının çıxarılması, dırnaqlarının altına iynə yeridilməsi, onun günlərlə ac, susuz və yuxusuz saxlanılması... kimi dəhşətli cismani əzablarla, ailəsinin, qohumlarının məhv ediləcəyi hədəsiylə müşayiət olunurdu? Görəsən, o, ağlına gətirə bilirmi ki, 4 istintaqda heç bir ittihamı boynuna almamaq, eyni zamanda heç kəsin də adını pisliyə çəkməmək qəhrəmanlığın ən yüksək zirvəsiydi?!* (Tahirzadə, 2004: 4).

Ümumilikdə 9 dəfə dindirilən H.İmanova qarşı 17 mart 1937-ci ildə başlanan istintaq 27 sentyabr 1937-ci ildə faciə ilə sona çatdı. Dosent İmanov isə aşağıdakı ittihamlarla təqsirli bilinərək 15 dəqiqə çəkən məhkəmə iclasının bitməsindən sonra – oktyabrın 12-dən 13-nə keçən gecə güllələnmişdir:

1. 1 dekabr 1934-cü ildə yol. Kirovu vəhşicəsinə qətlə yetirən və sonrakı illərdə (1934-37) partiyasının və sovet hökumətinin rəhbərlərinə qarşı terror aktları hazırlamış əksinqilabi trotskiçi-zinovyevçi terrorçu təşkilatın üzvü olub.

2. 1935-ci ildə Azərbaycan əksinqilabi terrorçu (bu söz mətnə göy mürəkkəblə sonradan artırılıb – *Ə.T.*) millətçi təşkilatının tərkibinə daxil olub, onun fəal üzvü olub və Azərbaycan əksinqilabi millətçi təşkilatının rəhbər heyətiylə – Ruhulla Axundovla təşkilati əlaqə saxlayıb.
3. Əksinqilabi millətçi təşkilatın rəhbəri R.Axundovla və bu təşkilatın fəallarıyla birlikdə Elmlər Akademiyası Azərbaycan Filialı xəttiylə elm cəbhəsində ziyankarlıq işi aparıb...

Özünü müqəssir bilməyib.

Müttəhimlər R.Axundov, Xuluflu, Zeynallı, Əminbəyli, Tixomirov, Nikolayev, Çobanzadə, Qubaydullin, Sami Kamal, Mahmudzadə, Salamzadənin ifadələriylə və Çobanzadə və Qubaydullinlə üzləşdirilmələrlə ifşa olunur (Tahirzadə, 2004: 4).

**Nəticə**

Həsən İmanovun gənc yaşda kəsilən ömrü, yandırılaraq it-bata düşən əsərləri və məhv edilən elmi potensialı, XX əsr Azərbaycan elminin və 1920-30-cu illər milli intibah hərəkatının ən böyük itkilərindən biridir. Onun taleyi Birinci Türkoloji Qurultay ətrafında formalaşmış ziyalı nəslinin faciəvi aqibətinin bir hissəsi idi.

**Ədəbiyyat siyahısı**

1. Həsən İmanov. (2017). https://az.wikipedia.org/wiki/H%C9%99s%C9%99n_%C4%B0manov Əlavə edilmə tarixi: 31 iyul 2017. Saat: 18:02. Baxılma tarixi: 06.07.2026.
2. İmanov, H. (7 noyabr, 1927). Birinci Türkoloji Qurultay. Yeni yol qəzetinə əlavə.
3. İmanov, H. (18 fevral, 1926). Yeni ərəb əlifbası. Kommunist qəzeti, №42.
4. Rüstəmli, A. (15 noyabr, 2018). Əlyazmalar xəzinəmizin ilk rəhbəri. Kredo qəzeti.
5. Tahirzadə, Ə. (11 dekabr, 2004). Dosent Həsən Həşim oğlu İmanov. 525-ci qəzet.
6. Tahirzadə, Ə. (14 dekabr, 2004). Dosent Həsən Həşim oğlu İmanov. 525-ci qəzet.

**Afaq Hacıyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: afaq.aslanova92@gmail.com*
*ORCİD: 0009-0002-0967-248X*

# "KİTABİ-DƏDƏ QORQUD"DA FƏLSƏFİ BAXIŞLAR VƏ MÜASİR TÜRK BİRLİYİ

**Xülasə**

Məqalənin birinci hissəsində Türk xalqlarının keçdiyi tarixi yol, yaşadıqları məkan sadəcə xronoloji ardıcıllıq kimi deyil, "Kitabi-Dədə Qorqud" dastanı əsasında Türk xalqının olmaq istədikləri və olduqları məkan utopik və anti-utopik baxımdan səciyyələndirmişdim. Burada Oğuz xalqlarının bir-birlərinə, qonşu xalqlarla münasibəti fəlsəfi baxış şəkildə göstərilir və eyni zamanda Klassik ədəbiyyatımızın zirvəsi Nizami Gəncəvi əsərlərində də utopik və anti-utopik mövzulara toxunmaq məqalədə bu mövzunu daha da maraqlı etmişdir. Mövzumuzun ikinci hissəsində "Kitabi-Dədə Qorqud" abidəsi əsasında Türk xalqlarının dili, coğrafiyası, rəqəmsallaşmanın müasir dövrümüzə təsiri məsələsi vurğulanır.
***Açar söz:*** *Kitabi-dədə Qorqud, utopiya, anti-utopiya, dil məsələsi, rəqəmsallaşma, coğrafi məkan*

# PHILOSOPHICAL PERSPECTIVES IN THE "BOOK OF DEDE KORKUT" AND MODERN TURKIC UNITY

**Abstract**

İn the first part of the article, I charaterized the historical paths of the turkic peoples and the places they lived not only in chronological order, bat also the places where the Turkic people wanted to be and where they stood from a utopian and anti-utopian prism based on the epic "Kitabi-Dede Gorgud". Here, in addition to showing the relationship of the Oghuz peoples to each other and neigh boring peoples from a philosophical prism, the article also touches on utopian and anti-utopian themes in the work of Nizami Ganjavi, the pinnacle of our classical literature, which made this topic even more interesting. In the second part of our topic, the language, geography of the Turkic peoples, and thr introduction of digitalization to our modern era are emphasized based on the monument of Kitabi-Dede Gorgud
***Key words:*** *Kitabi-Dede Korkud, utopia, anti-utopia, languge issue, digitalization, geographical space*

## Kitabi-Dədə Qorqud əsərində fəlsəfi baxış

Əsərə başlamazdan öncə utopiya sözünün nə olduğunu vurğulamaq istərdim. Bu söz bir növ həyatda olmayan, amma ola biləcək yaxşı hisslərdir. Bunu biz xəyali bir hiss kimi qəbul etsək də, bu cür həyatı yaxşı hökümdarın, cəmmiyyətin nəticəsində gerçəkləşdirmək mümkündür. İnsan utopiyanı xəyal edir o cür dünyada yaşamaq istəyir. Amma belə bir dünyanın olması bir az da xəyali görünür. Mənəvi abidəmiz sayılan Kitabi-Dədə Qorqud dastanında da belə həyat mövcuddur. Əsərdə Dədə Qorqudun sehirli gücü utopik baxımdan maraqlı sənət əsəridir. O, qopuz çalmaqla müharibələri və xaosu aradan qaldırması, hamını bir yerə toplayaraq məsləhətlər verməklə problemlərin həll olunması utopiya mövzusunun gözəl göstəricisidir. Qorqud atanın ölümsüzlük axtarışı da utopik baxımdan maraqlı sənət abidəsidir. Onun ölümsüzlük axtarışına

çıxması, amma hara getsə də qəbrqazanlara tast gəlməsi bir növ belə dünyanın olmamasından xəbər verir (Kitabi-Dədə Qorqud ensiklopediyası, 2004; 315). Müəllif əsərdə bununla qeyd etmək istəmişdir ki, insan nə qədər ölümdən qaçsa da sonda ona məhkumdur. Lakin sən yaxşı əməllərinlə, gördüyün işlərlə yaddaşlarda yaşayaraq ölümsüz ola bilərsən. Biz burada Qorqudun utopik baxışlarıyla yanaşı antiutopik baxışlara da rast gəlirik. Utopik yanaşma baxımdan yanaşmaya diqqət yetirsək görərik ki, yazıçı xəyali ölümsüz həyat axtarmışdır bu müsbət haldır, amma belə bir həyat mövcud deyildir. Buna görə də bu cümlədə utopiya ilə yanaşı antiuropiya da mövcuddur, çünki insan nə edirsə etsin sonda ölümə məhkumdur. Bu da real həyatın acı nəticəsinin göstəriciri olaraq dastanda göstərilmişdir.

Dədə Qorqudun göstərişilə hökümdar Salul Qazanının vergiləri azaltması, torpaqlarının düşmən tapdağından qorunması, ac camaatın doyuzdurulması, oğuz xalqlarının bir yerə toplanılaraq yeyib-içmək təşlil edilməsi insanların şad-firəvan yaşamaları utopik baxımdan yaxşı səciyyələndirilə bilər. Utopiya mövzusuna Şərq intibahının qurucusu Nizami Gəncəvinin bir çox əsərlərində də rast gəlmək mümkündür, çünki dahi şairimiz real həyatda da bu cür həyatı arzu edən böyük sənətkarlarımızdan olmuşdur. O, əsərlərində belə bir həyatı əks etdirərək cəmiyyətin belə olmasını bir növ sətraltı hökümdarlara bildirməyə çalışmış, belə əsərlərdən ibrət götürmələrini arzu etmişdir. Şairin İskəndərnamə əsərində xoşbəxtlər ölkəsinə gedərək oradakı insanların hökümdar, pul olmadan xoşbəxt firəvan, bərabər şəkildə yaşamaları İskəndəri heyrətə gətirir. Belə ölkədə nə oğurluq, nə vergi, nə də müharibə vardır. İskəndər belə bir hətatın öz ölkəsində də olmasını arzu edir.

Anti-utopiya isə insanın real həyatda gördüyü pis hadisələrin göstəricisidir. Yəni belə hallar real həyatda var və bundan da pis ola bilər mənasında işlədilir. Anti-uropik mövzuya bir çox əsərlərimizdə olduğu kimi Dədə Qorqud əsərində də rasr gəlinmişdir. Qazan xanın evinin yağmalanaraq tanınmaz hala salınması, qadın və uşaqların düşmənlər tərəfindən əsr alınaraq zəncirlənməsi, müharibələrin olması, Təpəgözün insanlara hücumu və insanların öz övladlarını qurban vermələri kimi hallar antiutopik nümunə baxımdan əhəmiyyətlidir. Bütün bunlar ədəbiyyatda göstərilən real həyatda ola biləcək pis hadisələrin göstəricisidir. Prof. Qorxmaz Quliyevin sözləri ilə dedək "Hər bir utopiyanın içərisində bir anti-utopiya gizlənmişdir (Quliyev, 2011: 96). Əsərdə təpəgözü bu baxımdan da izah etmək doğru olardı. Basat Təpəgözü öldürməsi boyunda da Q.Quliyevin dediyi kimi utopiyadan anti-utopiya yaranmışdır. Oradakı təpəgöz real insan deyildir, amma bunu ədəbiyyatşünaslıq baxımdan fəlsəfi yanaşmaq olar. Təpəgöz çobanın pəridən olan övladıdır. Onu Aruz qoca Basatla birgə böyüdür. O, Basatın süd qardaşı olur. Ən pisi də odur ki, çobanın səhvi üzündən oğuzların içində böyüyüb boya- başa çatmış daxili düşməndir. Ona heç kəsin gücü çatmır. Yalnız Basat ona qalib gəlir **(**Kitabi-Dədə Qorqud ensiklopediyası, 2004: 258). Real həyatda təpəgözü düşmənlə əlaqələndirə bilərik düşməni ancaq maraqlandıran nədir? Dinc insanları soymaq, insanların canını almaq bax bu oğuzların düşdüyü çarəsiz vəziyyət anti-utopiyadır. Basatın təpəgözü öldürməsi utopiyanın bariz nümunəsidir. Basat bununla dinc camaatı düşdükləri bəladan qurtarır.

Türk dastanı olan "Kitabi-Dədə Qorqud" dastanında fəlsəfi baxışlarla yanaşı türk xalqlarımızın birliyindən, müasir dövrdə rəqəmsallaşmasından danışmaq mühim əhəmiyyətə malikdir. Əsərin müasir dövrümüzlə əlaqəli rəqəmsallaşma baxımdan qiymətləndirilməsi Türk dilinin sadəcə bir ünsiyyət vasitəsi deyil, nəhəng bir coğrafiyanın mənəvi xəritəsi olduğunu qeyd edə bilərik. Günel Cənnətovanın tədqiqatında vurğulandığı kimi, dastanımızda "zaman və məkan" kateqoriyaları Türk təfəkküründün hüdudlarını cızır (Cənnətova, 2022; 17). Bu gün Altaydan Anadoluya qədər coğrafiya parçalansa da, toponimik yaddaşımız və dastan dilimizin semantik

qatları hələ də bütövdür. Bizim ən böyük vətənimiz dilimizdir. Məkan anlayışı etnik kimliyimizi göstərən bir məkandır. Bu da müasir dövrümüzdə Türk xalqları üçün mühümdür. Müasir rəqəmsallaşma dövründə Türk dastanlarındakı hadisələri, məkanları, dillərini sosial şəbəkələr vasitələr izləyərək daha asan və dərindən öyrənə bilirlər. Dastanda Türklərin coğrafiyası ilə bağlı bir sıra adların Ağrıdağı, Dərbənd, Alaqapı, Anadolu və s. kimi real Azərbaycan və Türk torpaqları ilə nə dərəcədə üst-üstə düşməsini canlı şəkildə göstərməklə yanaşı Türk xalqları öz torpaqlarını rəqəmsal sosial şəbəkələr vasitəsiylə hətta Türklərin yurd saldıqları məkanları, Dədə Qorqud boylarının hansı ərazilərdə baş verdiyini müasir peyk vasitəsiylə izləyə bilirlər. Buna misal olaraq "Salul Qazanın evinin yağmalanması"nı göstərə bilərik. Müasir rəqəmsal dövrdə biz rəqəmsallaşma vastəsilə Türk yurdunu həm də hadisələrin baş verdiyi yerləri görə bilirik. Rəqəmsallaşma vasitəsiylə biz nəyinki coğrafi məkanlarımızı Dədə Qorqudun danışıqlarını, çaldığı qopuzu tədqiqatıçı, akttyorlar tərəfindən rəqəmsallaşdırılaraq dinlənilməsini mümkün etmişdirlər. Onu da qeyd edək ki, tək kitablar, sosial vasitələr, filimlər, QR kod vasitəsiylə orada baş verən hadisələr izləmək mümkündür.

Dədə Qorqud dastanı Türklərin ortaq dastanlarındandır. Burada yurd anlayışı ilə yanaşı dil məsələsinə də toxunmaq mühüm məqamlardan biridir. Dastana əsaslanaraq qeyd edə bilərik ki, onların yaşayış yerləri bir olduğu kimi ortaq dilləri də olmuşdur. Lakin, zaman keçdikcə siyasi səbəblərdən müxtəlif dil qurupları yaranmışdır. Bu dil qrupları bir-birlərindən uzaqlaşsa da onlar arasında oxşarlıqlar hələ də mövcuddur. 1926-cı il Bakı Qurultayında yarımçıq qalmış dil intibahı və Türk dillərinin müasir problemlərindən danışarkən, 100 il əvvəl məhz burada, Bakıda keçirilmiş Birinci Türkoloji Qurultaya müraciət etməmək mümkün deyil, bu qurultay Türk xalqlarının coğrafi pərakəndiliyini "ortaq əlifba" və "ortaq terminologiya" ilə aradan qaldırmaq üçün atılmış ən cəsartli addım idi. Lakin tarixin bizə məlum olan "görünməyən tərəfləri" – siyasi represiyalar bu təbii təkamül prosesini süni şəkildə dayandırdı. Bu gün yaşadığımız dialekt parçalanması həmin tarixi qırılmanın nəticəsidir. Türk dillərinin gələcəyi coğrafi uzaqlıqda deyil, dilin dərin qatlarında gizlənən o ortaq kodları tapmaqdır. Bizim vətənimiz klassik qorqudşünaslıq irsini müasir dil siyasəti ilə sintez edərək, vahid və keçilməz bir Türk dil məkanı formalaşdırmaqdır.

Türk xalqlarının dil məsələsini vaxtilə qeyd edən Əhməd bəy Ağamalıoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Cavid və İsmayıl bəy Qasprinski, Mir Cəlil, Ömər Faiq Nemanzadə digər XIX əsr ziyalılarımız türk xalqlarının birliyi üçün dil məsələsini vurğulamış və bunun üçün mütləq əlifbanın hazırlanmasını qeyd etmişdirlər. Əli bəy Hüseyinzadə Türkçülük idealogiasının ən böyük davamçılarından olmuşdur onun o dövrün məşhur jurnallarından olan "Füyuzat" və digər jurnal və qəzetlərdə dərc etdirdiyi "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" adı altında şüarı vasitəsiylə türk xalqlarını birliyə səsləyir. Əli bəy Türkləşmək deyərkən onun sadə caamatda gördüyü səhv yanaşmalarara aydınlıq gətirmək istəyirdi. Sadə cammat din və milliyət olaraq özlərini tam ifadə edə bilmədiklərini qeyd edən Əli bəy Hüseynzadə bunu bu cür qeyd edir: o bir sadə adamdan soruşur: sənin milliyətin nədir? Şəxs ona müsəlman olduğunu deyir. Əli bəy Hüseyinzadə isə deyir: Yox mən səndən dinini soruşmuram milliyətini deyirəm . Onun hansı dildə danışdığını soruşanda sadə adam tərəddüdlə türk dili olduğunu deyir. Bu sözdən sonra Əli bəy onun din başqa din başqa olduğunu izah edir.

Mütəfəkkirin bildirmək istədiyi o idi ki, Bizim sadə insanlar dini dildən tam ayıra bilmirlər. O, bu cür əsərlər vasitəsiylə öz milli kimliklərini tanıtmağa çalışmışdır. Azərbaycan xalq cumhiriyyətinin qurucusu, İstiqlal hərəkatının qurucusu, Məhəmməd Əmin Rəsulzadə Türk xalqlarının həm mədəni həm də siyasi baxımdan birliyi məsələsinə toxunaraq bunu sadə insanlara çatdırmaq məqsədiylə bu barədə müxtəlif dərgilərdə əsərlər çap etdirmişdir.

Öz bədii əsərlərində Turan birliyini təbliğ edən Hüseyn Cavid romantik şəkildə zirvəyə qaldıraraq insanlara birlik məsələsini bədii şəkildə çatdırmağa çalışmışdır. H.Cavidin Turançılıq idealogiasından danışarkən onun "Turan" adlı xüsusi bir şeirini mütləq vurğulamalıyıq:

*Al rəngli üfüqlərdə parıldar uca bir ad.*
*Səsləndikcə ruhu eyləyər qüssədən azad.*
*Qoy sarsıla dünya, dayansın zaman,*
*Biz qardaşıq, ey türk, yaşasın böyük Turan.*

Dövrün bir çox acı nəticələrinə görə bir müddət Krımda mühacir həyatı yaşayan İsmayıl bəy Qasprinski də Turan idealogiasının təbliğına dair bir çox işlər görmüş Kırımdan Kaşğara qədər olan bir coğrafiyada yaşayan Türk xalqlarına öz əsərləri vasitəsiylə milli kimliklərini tanıtmağa çalışmış onlara bu barədə bilgilər vermişdir. Krımda olarkən İsmayıl bəy belə bir situasiya ilə qarşılaşır. O bir şəxsdən milli kimliyini soruşarkən belə cavab verir: "Mən dildə, təfəkkürdə bir olan türk övladıyam" deməsi İsmayıl bəy Qasprinskini çox sevinərək bu fikri 1884-cü ildə Kırımdsa Tərcüman qəzetində dərc etdirir. O, bu fikrə üç müstəvidə: Dildə birlik, fikirdə birlik, işdə birlik müstəvisində izah edərək Türk xalqlarının dil, fikir, iş birliyi məsələlərini ortaya qoymuşdur.

**Nəticə**

Yekun olaraq qeyd etmək istərdim ki, dastan abidələrimizdən olan Kitabi-Dədə Qorqud kimi əsərlər nə qədər araşdırılsa da öz milli kimliyimizin araşdırılması baxımdan hələ də mühüm əhəmiyyətə malikdir. Yenilik ondan ibarətdir ki, Biz müasir terminalogiya bazamızı xarici dillərin (ing, rus) sürəti üzərinə qurmaqla yanaşı eyni zamanda daha çox dastanlarımızın unudulmuş, lakin çox funksional kökləri üzərində də qurmaqdır. Müasir dövrdə süni intelekt və rəqəmsal platformalar coğrafi sərhədləri sıradan çıxarır. Bu, bizə 1926-cı il ruhunu rəqəmsal müstəvidə bərpa etmək üçün tarixi şans verir. Bu gün bir elmi işçi kimi qarşımıza qoyduğumuz hədəflərdən biri də keçmişin arxaik gücünü gələcəyin texnologiyası ilə necə birləşdirməyimizdir.

**Ədəbiyyat siyahısı**

Bartold,V.V(t.y). Türk dastanları haqqında mühazirələr.
Cənnətova, G.(2022). Türk qəhrəmanlıq dastanlarında zaman və məkan. Elm və Təhsil.
Folklor İnstitutu.(2016). Birinci Türkoloji Qurultay: Görünən və Görünməyən Tərəfləri. Bakı.
Folklor İnstitutu.(2020). Azərbaycan Qorqudşünaslığı. Bakı. Elm və təhsil
Kitabi -Dədə Qorqud (ensiklopediyası).(2004).Azərbaycan nəşriyyatı.
Qasımlı, M. (1993). Ozan-aşıq sənəti. Uşaq gənclik nəşriyyatı.
Quliyev, Q. (2011). XX əsr xarici ədəbiyyat tarixi. Bakı.
Zeynalov, F. və Əlizadə S. (1988). Kitabi-Dədə Qorqud. Bakı.

**Mələkxanım Əliyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: melekmustafazade@gmail.com*
*ORCİD: 0009-0007-0580-6467*

# MİRZƏ BAXIŞ NADİM VƏ XIX ƏSR AZƏRBAYCAN SATİRİK ƏDƏBİYYATI

**Xülasə**

XIX əsrdə Azərbaycan torpaqlarının Rusiya imperiyasının tərkibinə daxil edilməsi öz təsirini həyatın bütün sferalarında olduğu kimi, mədəniyyət və ədəbiyyat sahəsində də göstərir. Bu dövrdə poeziyada klassik ənənələr davam edərkən, həm də maarifçilik və realizm kimi yeni ədəbi istiqamətlər də meydana çıxırdı.Dövrün ab-havası, işğalçılıq siyasəti, tarixi şərait ilə əlaqədar olaraq şair və yazıçıları artıq məhəbbət, gözəllik, eşq mövzuları deyil, cəmiyyətin sosial problemləri, savadsızlıq, insan haqları kimi mövzular narahat edirdi.

Həmin dövrdə Azərbaycanda satirik şeirin qüvvətlənib inkişaf etməsi Qasım bəy Zakir, Baba bəy Şakir və Mirzə Baxış Nadimin adı ilə bağlıdır. Haqqında bəhs edəcəyimiz Mirzə Baxış Nadim tənqidi-satirik düşüncə tərzinin formalaşmasında mühüm rol oynayan sənətkarlarımızdandır. O, dövrünün açıq fikirli, xalqını sevən, həqiqəti çəkinmədən dilə gətirən şairlərindən idi. . Haqsızlıqlara qarşı susmadığı, fikirlərini açıq-aydın ifadə etdiyinə görə yerli bəylər və məmurlar onu həmişə incitmiş və sevməmişlər. Nadim özü dini təhsil almasına rəğmən şeirlərində cəhaləti, mövhumatı, dini mövqelərindən sui-istifadə edən, xalqı aldadan avam, ikiüzlü mollaları kəskin tənqid atəşinə tutmuşdur.

Bu baxımdan Nadimin yaradıcılığı yalnız ədəbi deyil, həm də mənəvi, ictimai əhəmiyyət daşıyır. Onun poeziyası XIX əsr Azərbaycan ədəbiyyatında satirik düşüncənin inkişafına təsir göstərmiş və həmin dövrün ədəbi mühitində özünəməxsus yer tutmuşdur.

***Açar sözlər**: Mirzə Baxış Nadim, 19-cu əsr, satirik ədəbiyyat, şeir, maarifçilik.*

# MİRZA BAKHİSH NADİM AND 19TH CENTURY AZERBAİJANİ SATİRİCAL LİTERATURE

**Abstract**

In the 19th century, the incorporation of Azerbaijani lands into the Russian Empire had its impact on all spheres of life, including culture and literature. During this period, while classical traditions continued in poetry, new literary trends such as enlightenment and realism emerged. Due to the atmosphere of the era, the policy of occupation, and historical circumstances, poets and writers were no longer concerned with themes of love, beauty, and romance, but with topics such as social problems of society, illiteracy, and human rights.

The strengthening and development of satirical poetry in Azerbaijan at that time is associated with the names of Gasim bey Zakir, Baba bey Shakir, and Mirza Bakhish Nadim. Mirza Bakhish Nadim, whom we will talk about, is one of our artists who played an important role in the formation of critical-satirical thinking. He was one of the poets of his time who was open-minded, loved his people, and spoke the truth without hesitation. . Because he did not remain silent against injustices and expressed his thoughts openly, local beys and officials always offended and disliked him. Despite his religious education, Nadim himself sharply criticized ignorance, superstition, and

the common, hypocritical mullahs who abused their religious positions and deceived the people in his poems.

From this perspective, Nadim's work is not only literary, but also spiritual and social in importance. His poetry influenced the development of satirical thought in 19th-century Azerbaijani literature and occupied a unique place in the literary environment of that period.

***Key words***: *Mirza Bakhish Nadim, 19th century, satirical literature, poetry, enlightenment*

**Giriş**

XIX əsr Azərbaycanın həm ictimai-siyasi tarixində, həm də milli ədəbi düşüncənin inkişafında xüsusi bir mərhələ kimi qiymətləndirilir. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin nəticəsi olaraq ölkə iki hissəyə ayrılır: şimal hissəsi Rusiyanın nəzarəti, cənub torpaqları isə İranın hakimiyyəti altında qalır. Əldə edilən bölgələrdə imperiya idarəçiliyi tətbiq olunur və yeni idarəetmə sistemləri qurulur.

Beləliklə 19-cu əsrdə Azərbaycan torpaqlarının Rusiya imperiyasının tərkibinə daxil edilməsi öz təsirini həyatın bütün sferalarında olduğu kimi, mədəniyyət və ədəbiyyat sahəsində də göstərir. Bu dövrdə poeziyada klassik ənənələr davam edərkən, həm də maarifçilik və realizm kimi yeni ədəbi istiqamətlər də meydana çıxırdı.Dövrün ab-havası, işğalçılıq siyasəti, tarixi şərait ilə əlaqədar olaraq şair və yazıçıları artıq məhəbbət, gözəllik, eşq mövzuları deyil, cəmiyyətin sosial problemləri, savadsızlıq, insan haqları kimi mövzular narahat edirdi. Onlar həyatı olduğu kimi təsvir etməyə çalışır, cəhalət və geriliyi tənqid edir, elm və təhsilin əhəmiyyətini ön plana çəkir, xalqın problemlərini, sosial ədalətsizliyi, insanların gündəlik həyatını əsərlərinə gətirirdilər. Maarifçilik düşüncəsi, cəmiyyətin inkişafı, milli kimlik, milli oyanış ideyaları dövrün aparıcı mövzuları idi. Bütün bu yeniliklərin fonunda bu dövrdə milli mətbuatın yaranması (1875-ci il, Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzeti), milli dramaturgiyanın əsasının qoyulması (1873-cü il, Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının səhnələşdirilməsi ilə), müstəqil satirik əsərlərin çoxalması müasir Azərbaycan ədəbiyyatının formalaşmasına böyük təsir göstərmişdir. "Bu dövr Azərbaycan ədəbiyyatının ən mühüm nailiyyəti onda maarifçilik ideologiyasının geniş yayılması ilə bağlı olaraq yeni ədəbi növ və janrların və ədəbi-estetik prinsiplərin təşəkkül tapması, yeni yaradıcılıq metodunun – realizmin mükəmməl bir ədəbi metod kimi formalaşması və ədəbi prosesdə mühüm, aparıcı mövqe tutması, ədəbi inkişafın istiqamətini müəyyənləşdirməsi ilə əlamətdar olmuşdur". (Azərbaycan Ədəbiyyat Tarixi, 4-cü cild. 2011: 12).

**Əsas mətn**

Belə ki, 19-cu əsrin ikinci yarısında şairlərin yaradıcılığında artıq satirik təzahürlər özünü göstərməyə başlayır. Düzdür, satirik nümunələr Azərbaycan ədəbiyyatında XIX əsrdən özünü göstərməyib. Qədim və orta əsrlərdə folklor nümunələrində, klassik ədəbi irsdə də tənqidi yanaşmaların şahidi olurduq. Məsələn, folklor nümunələrindən lətifələri, nağılları, təmsilləri, atalar sözü və məsəlləri misal göstərə bilərik. Lətifələrdə yumorla yanaşı, satira və sarkazm elementləri də mühüm yer tutur. Azərbaycan şifahi xalq ədəbiyyatında Bəhlul Danəndə, Molla Nəsrəddin, Ayrım Tağı, Mirzə Bağı kimi məşhur lətifə qəhrəmanları formalaşmışdır. "İlk müşahidələr göstərir ki, Azərbaycan şifahi ədəbiyyatının müxtəlif janrlarında, o cümlədən atalar sözü və məsəllərdə satira çox güclüdür... Atı palan saxlar, padşahı yalan, Molla ilə oturub duranın axırı mürdəşir olar, Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş". (Məmmədov, 1975:5). Daha sonra Xaqaninin, Nəsiminin, Füzulinin, Saib Təbrizinin əsərlərində dövrün nadan ruhaniləri, şəriət xadimləri, mövhumat, saray əyanlarının ədalətsizliyi və s. güclü tənqid atəşinə tutulurdu. Buna

feodal münasibətlərinin, hakim təbəqələrin yaramazlıqlarının, əhalinin avamlığından istifadə edən ikiüzlü mollaların ifşasını da misal göstərə bilərik. Ancaq həmin dövrlərdə yazılmış satirik nümunələr davamlı və geniş xarakter almamış, ədəbi istiqamət kimi formalaşa bilməmişdi.

Yalnız XIX əsrin ortalarından etibarən Azərbaycan ədəbiyyatında satirik üslub geniş inkişaf yolu keçərək müstəqil bir ədəbi cərəyan səviyyəsinə yüksələ bildi. Təbii ki, məhz bu dövrdə satiranın bu qədər davamlı olmasını şərtləndirən amillər də var idi. Azərbaycan torpaqlarının bölünməsi, yeni yaradılmış çar üsuli idarəsi, rus məmurlarının əhaliyə yad münasibəti, azğınlığı, özbaşınalığı, ölkəni talan etmələri zaman-zaman cəmiyyətdə artıq narazılıqları artırırdı. Bu da öz növbəsinda satirik şer nümunələrinin ardıcıl hal almasına, artmasına, ədəbi cərəyan kimi formalaşmasına səbəb olmuşdur. 19-cu əsrin birinci yarısında Azərbaycanda satirik şeirin qüvvətlənib inkişaf etməsi Qasım bəy Zakir, Baba bəy Şakir və Mirzə Baxış Nadimin adı ilə bağlıdır.

Haqqında bəhs edəcəyimiz Mirzə Baxış Nadim tənqidi-satirik düşüncə tərzinin formalaşmasında mühüm rol oynayan sənətkarlarımızdandır. Məhəbbət mövzulu şeirlərinin olmasına baxmayaraq, biz Nadimi daha çox satirik şair kimi tanıyırıq. O, dövrünün açıq fikirli, xalqını sevən, həqiqəti çəkinmədən dilə gətirən şairlərindən idi. O, kənd mirzəsi olaraq fəaliyyət göstərmiş və buna görə də xalqın gündəlik həyat tərzinə yaxından bələd olmuşdur. Haqsızlıqlara qarşı susmadığı, fikirlərini açıq-aydın ifadə etdiyinə görə yerli bəylər və məmurlar onu həmişə incitmiş və sevməmişlər. Nadim özü dini təhsil almasına rəğmən şeirlərində cəhaləti, mövhumatı, dini mövqelərindən sui-istifadə edən, xalqı aldadan avam, ikiüzlü mollaları kəskin tənqid atəşinə tutmuşdur:

“Naseha, etmə mənə pəndü nəsihət bu qədər,
Rəhi-həqdən, belə fərz eylə, kənarəm, sənə nə?

Sən, kişi, öz işivün öhdə sərəncamını gör,
Mənə izzət olu, ya qisməti-xarəm, sənə nə?”

(Kərimov və Kərimov, 2018: 184).

Muradxan adlı bir qolçomaq Navahı və Rəncbər Navahı kəndlərindən bir qrup biçinçi toplayaraq öz taxılını biçdirir. Lakin biçin başa çatdıqdan sonra o, öz nüfuzuna arxalanaraq kəndlilərin zəhmət haqqını ödəməkdən boyun qaçırır, üstəlik özlərini də qovur. Çarəsiz, çətin vəziyyətdə qalan kəndlilərin halı, Muradxan kimi zalımların insanlara ədalətsiz münasibəti Nadimə dərindən təsir edir. Şair bu məsələyə biganə yanaşa qalmamış, Muradxanı kəskin şəkildə tənqid edərək nifrət və etirazını aşağıdakı şəkildə ifadə etmişdir:

“Ey ağalar, süzə tərif eyləyim,
Nə iş tutub yüziqarə Murad xan.
Tamam kəsdi biçinçinin həqqini,
Heç vermədi sikkə, parə Murad xan.

Pərvərdigar artıreydı cəfasın,
Görmiyəsən fərzəndivün səfasın,
Neçün kəsdün fəqirlərün bəfasın
Həqq biçmişdi o biçarə, Murad xan” (AMEA ƏYİ, D-350/10327: 10)

Nadim xalqını çox sevirdi. Onun dərdlərinə, uğradıqları fəlakətlərə, düçar olduqları müsibətlərə səmimiyyətlə şərik olurdu. Həmin dövr Azərbaycanda baş verən hərc-mərclikdən

istifadə edib xalqı talan edən, onlara qarşı amansızcasına rəftar edən qolçomaqlara, mollalara, vicdansız zülmkarlara qarşı açıq- açığına mübarizə apardığı üçün kəndlilər arasında da böyük nüfuza malik idi. Kənd əhalisi onu çox sevər, ciddi, mübahisəli məsələləri həll etmək lazım gələrsə ilk ona müraciət edərdilər. Hətta dəfələrlə Salyana, Şamaxıya, Bakıya gedərək əhalinin narahatlıqlarını hökumət qarşısında bildirmişdir.

Başqa bir şeirində Muradxan kimi Kərbəlayi adlı bir şəxs də taxılın biçilməsi məqsədilə bir dəstə biçinçini gəlib aparır. Lakin biçin prosesi başa çatdıqdan sonra müxtəlif bəhanələrlə onların haqlarını ödəmir. Bu cür ədalətsizliyi qəbul etməyən Nadim biçinçilərin dilindən zəbani-hal olaraq Kərbəlayini həcv etmişdir:

"Səni deyüb bu diyara gəlmişük,
Bizim haqqımızı say, Kərbəlayi.
Bizə haq verməknən zəmin qurtarmaz
Xudadan istərük pay, Kərbəlayi".

(Kərimov və Kərimov, 2018: 181)

Daha sonra həmin Kərbəlayi Navahıya gəlib Nadimin Kərbəlayi Salman adlı yaxın bir dostunu həcv edir. Buna görə də Nadim cavab olaraq aşağıdakı həcvi yazır:

"Günü-gündən sən çəkəsən məlamət,
Məşayixdən zahir olur əlamət,
Görüm getməyəsən evə səlamət,
Arvadun da qalsun dul, Kərbəlayi". (AMEA ƏYİ, D-350/10327: 23)

Kəndlilərin mənafeyi uğrunda həmişə mübarizə aparan Nadim, varlıların zülmlərinə heç vaxt göz yummamış, onları kəskin satirik acı dillə həcv etməkdən çəkinməmişdir. Açıq fikirli olduğundan insanların avamlığından istifadə edib onları aldadan, söyən din xadimlərini şeirlərində acı dillə tənqid etmişdir. Şairin ayrı-ayrı adamlara yazdığı həcvlər də vardır. Bunlardan Məhəmmədəli bəy Məcruh Muğanlıya, Molla İbrahim Asiyə və başqalarına yazdığı həcvləri nümunə göstərmək olar. Göründüyü kimi, Nadim ifşa etdiyi insanların çox zaman adını çəkir, onların qorxunc xüsusiyyətlərini açıq şəkildə deməkdən çəkinmirdi. Bundan əlavə onun "Misir nəvəsi İmamverdi", "Mollalar haqqında", "Rəncbər Mahmud", "Murad xan" və s. şeirləri XIX əsrdə yaranmaqda olan satiranın inkişafına kömək göstərmişdir.

Mustafa Mustafayev Sabirin "Əkinçi" satirasının Nadimin "Rəncbər Mahmud" şeiri ilə mövzu, məzmun uyğunluğunu irəli sürərək aşağıdakı kimi qeyd edir: " Hələ Mirzə Ələkbər Sabirdən xeyli qabaq mövzusu kəndli həyatından alınmış satiranı Azərbaycan poeziyasına ilk dəfə Mirzə Baxış Nadim gətirmişdir. Buna görə də o, bu qəbildən olan şeirləri ilə ədəbiyyatımızda Sabirin sələfi kimi qiymətləndirilməyə layiqdir". ( Mustafayev, 1991: 84)

**Nəticə**

Beləliklə, XIX əsr Azərbaycan ədəbiyyatı klassik ənənə ilə yeniliyin qovuşduğu, milli düşüncənin gücləndiyi və maarifçilik ideyalarının yayıldığı mühüm bir dövr olmuşdur. Bu dövrdə fəaliyyət göstərən Nadim də öz yaradıcılığı ilə gördüyü haqsızlıqları, sosial bərabərsizliyi, mənəvi çatızmazlıqları özünəməxsus satirik dillə əks elətdirmişdir. Onun satirası yalnız bədii xüsusiyyətləri ilə deyil, həm də dövrün ictimai gerçəkliklərini əks etdirməsi baxımından əhəmiyyət daşıyır. Nadim xalqı üçün çox fədakarlıq etmişdi və buna görə də, onun yaradıcılığı xalqın həyatına, sosial problemlərinə xüsusi həssaslıqla yanaşan sənətkar kimi diqqəti cəlb edir. O, xüsusilə avam camaatı dini nüfuzundan sui-istifadə edərək aldadan mollaları, xalqı talan edən, haqsız zülmlərə məruz qoyan qolçomaqlar, məmurları ifşa edərək insanları ayıq düşünməyə, öz haqlarını tələb etməyə dəvət edirdi. Bu baxımdan Nadimin yaradıcılığı yalnız ədəbi deyil, həm də

mənəvi, ictimai əhəmiyyət daşıyır. Onun poeziyası XIX əsr Azərbaycan ədəbiyyatında satirik düşüncənin inkişafına təsir göstərmiş və həmin dövrün ədəbi mühitində özünəməxsus yer tutmuşdur.

**Ədəbiyyat siyahısı**

Kərimov, P. və Kərimov, R. (2018). Mirzə Baxış Nadim. Seçilmiş əsərləri. Bakı: Alatoran nəşriyyatı.
Kərimov, P. və Kərimov, R. (2020). Mirzə Baxış Nadim. Seçilmiş əsərləri. İkinci kitab. Bakı: Alatoran nəşriyyatı.
Məmmədov, K. (1975). 19-cu əsr Azərbaycan şeirində satira. Bakı: Elm nəşriyyatı.
Mustafayev, M. (1991). XIX əsr Azərbaycan realist şeiri. Bakı: APU mətbəəsi.
Nadim, M. B. (1922). Şeirlər. AMEA ƏYİ. D-350/10327.
Nəbiyev, B. və başqaları. (2011) Azərbaycan Ədəbiyyatı Tarixi. 6 cilddə, 4-cü cild. Bakı: Elm nəşriyyatı.

**Baba Əlibabaoğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Doktorant*
*E-mail: elibabaoglu@mail.ru*
*ORCİD: 0009-0003-0322-3023*

# TÜRK DASTAN ƏNƏNƏSİNDƏ QUTUN ƏLDƏ EDİLMƏSİ: MİFOLOJİ, DİNİ-MİSTİK VƏ SİYASİ-İDEOLOJİ SƏVİYYƏLƏR

**Xülasə**

Müxtəlif tarixi dövrlərdə fərqli xalqlar və coğrafi məkanlarda yayılmış dini və mifoloji mətnlərin təhlili göstərir ki, mərkəzi fiqurun seçilmişlik statusu çox vaxt onun mənşəyinin soyluluq və sakrallıq mənbələri ilə əlaqələndirilməsi vasitəsilə əsaslandırılır. Bu kontekstdə hökmdarlar, sərkərdələr, peyğəmbərlər və ümumilikdə cəmiyyətə rəhbərlik etmək potensialına malik nüfuzlu şəxslər xüsusi yer tutur. Belə fiqurların liderliyi sadəcə fakt kimi təqdim edilmir, əksinə, onların mənəvi və sakral legitimliyinin müxtəlif narrativ mexanizmlər vasitəsilə əsaslandırılması zəruri hesab olunur.

Antik yunan mifologiyasında qəhrəmanların ilahi mənşəyə bağlanması, eləcə də Bibliya mətnlərində liderlərin müqəddəs genealogiyalar və sakral işarələr vasitəsilə təqdim olunması bu tendensiyanın tipik təzahürlərindəndir. Oxşar semantik və struktur xüsusiyyətləri türk epik ənənəsində də müşahidə olunur və burada seçilmişlik ideyası əsasən "qut" anlayışı ilə ifadə edilir. Bu baxımdan, qutun əldə edilməsi vahid mexanizmə əsaslanmır, əksinə, mifoloji, dini-mistik və siyasi-ideoloji səviyyələrdə reallaşan çoxsəviyyəli struktur təşkil edir. Bu səviyyələr qəhrəmanın sakral mənşəyini, ilahi iradə ilə əlaqəsini və sosial legitimliyini müxtəlif formalarda əsaslandırır. Məqalənin məqsədi qeyd olunan səviyyələri sistemli şəkildə təhlil etməklə qut fenomeninin türk epik düşüncəsindəki funksional və semantik mahiyyətini aydınlaşdırmaqdır.

***Açar sözlər:*** *türk dastan ənənəsi, qut, əldə edilmə, mifoloji səviyyə, dini-mistik səviyyə, siyasi-ideoloji səviyyə*

# THE ATTAINMENT OF *KUT* IN THE TURKIC EPIC TRADITION: MYTHOLOGICAL, RELIGIOUS-MYSTICAL, AND POLITICAL-IDEOLOGICAL DIMENSIONS

**Abstract**

The analysis of religious and mythological texts across different historical periods, cultures, and geographical regions demonstrates that the chosen status of a central figure is often legitimized through the association of their origin with sources of nobility and sacrality. In this context, rulers, commanders, prophets, and influential individuals capable of leading society occupy a distinctive position. Their leadership is not merely presented as a factual reality; rather, it is substantiated through various narrative mechanisms that emphasize their spiritual and sacred legitimacy. In ancient Greek mythology, the attribution of divine ancestry to heroes, as well as the presentation of leaders in Biblical texts through sacred genealogies and symbolic markers, represent typical manifestations of this tendency. Similar semantic and structural features can also be observed in the Turkic epic tradition, where the concept of chosenness is primarily expressed through the notion of kut.

From this perspective, the acquisition of kut does not rely on a single mechanism; instead, it constitutes a multi-layered structure operating on mythological, religious-mystical, and socio-political levels. These layers function to legitimize the hero's sacred origin, divine connection, and social authority. This paper aims to systematically analyze these levels in order to clarify the functional and semantic nature of the kut phenomenon within Turkic epic thought.
***Key words:*** *Turkic epic tradition, kut, attainment, mythological level, religious-mystical level, political-ideological level*

**Giriş**

Əski türk mədəni-kosmoloji sistemində "qut" anlayışı semantik baxımdan "bəxt", "tale", "ilahi bəxşiş", "sakral enerji", "kosmik nizamdan pay" və s. kimi interpretasiya olunsa da, mahiyyət etibarilə yalnız fərdi ontoloji kateqoriya deyil, eyni zamanda siyasi hakimiyyətin sakral legitimlik mexanizmini təmin edən kompleks ideoloji və semiotik konstruksiya kimi çıxış edir. Qutun əldə edilməsi ənənəsi müxtəlif formalarda təzahür etsə də, onun əsas mexanizmlərini ümumiləşdirilmiş şəkildə iki fundamental model çərçivəsində sistemləşdirmək mümkündür. Bu modellər qutun mənbəyi və legitimlik tipinə görə fərqlənərək sakral və tarixi-sosial ötürülmə formalarını əhatə edir.

Birinci model qutun birbaşa sakral mənbədən əldə edilməsini nəzərdə tutur. Bu halda qut ilahi iradənin təzahürü kimi Tanrıdan və ya müxtəlif fövqəltəbii başlanğıclardan – totemik simvollardan, kult fiqurlarından, mifoloji varlıqlardan və ya kosmik güc mənbələrindən əldə olunur. Bu tip legitimlik forması ontoloji və kosmoloji xarakter daşıyaraq qəhrəmanın və ya hökmdarın seçilmişliyini fövqəlinsani müstəvidə əsaslandırır. Burada qut sakral enerjinin birbaşa transmissiyası kimi çıxış edir və onun mənbəyi insanüstü sferaya aid edilir.

İkinci model isə qutun tarixi və ya yarı-sakral status qazanmış şəxsiyyətlər vasitəsilə ötürülməsini əhatə edir. Bu kontekstdə qut artıq birbaşa ilahi mənbədən deyil, əvvəlcədən legitimlik qazanmış nüfuzlu fiqurlar — peyğəmbərlər, müqəddəs şəxslər, böyük hökmdarlar və ya epik qəhrəmanlar vasitəsilə transfer olunur. Bu tip modeldə legitimlik mexanizmi genealoji, simvolik və ya ideoloji əlaqələr üzərindən qurularaq sosial qəbul və tarixi yaddaş vasitəsilə möhkəmləndirilir.

Beləliklə, qutun əldə edilməsinin bu iki əsas forması — sakral-transsendent və tarixi-mediativ modellər — türk epik və siyasi düşüncəsində legitimliyin müxtəlif səviyyələrdə necə qurulduğunu anlamağa imkan verir və qut fenomeninin dinamik, çoxqatlı xarakterini ortaya qoyur. Bu konseptin struktur-semantik təhlili göstərir ki, "qut" sistemi türk siyasi və mifoloji düşüncəsində üçsəviyyəli model daxilində funksionallaşır:

1. Mifoloji-arxetipik səviyyə,
2. Dini-mistik təqdis və sakrallaşdırma səviyyəsi,
3. Siyasi-ideoloji legitimləşdirmə və institusional hakimiyyət səviyyəsi.

Bu baxımdan, "qut"un yalnız leksik-semantik vahid kimi deyil, həm də geniş mədəni-kosmoloji semantik sahə və ideoloji diskurs forması kimi dəyərləndirilməsi daha adekvatdır. Bu yanaşma qut fenomenini folklorik təsvirlərdən çıxararaq, onu türk dövlətçilik düşüncəsinin əsas legitimlik kateqoriyalarından biri kimi interpretasiya etməyə imkan verir.

Müqayisəli mifologiya və struktur-antropoloji təhlil çərçivəsində aparılan araşdırmalar göstərir ki, müxtəlif sivilizasiya sistemlərində — qədim Misir teokratiyasında "ilahi firon" konsepti, şumer və akkad dini-siyasi kosmoqoniyasında "ilahi seçilmiş hökmdar" modeli, hind Vedik və post-Vedik ənənələrində "dharma ilə təyin olunmuş kral" ideyası, antik yunan

teoqoniyasında yarı-ilahi qəhrəmanlıq arxetipləri, eləcə də Bibliya narrativlərində "peyğəmbərlik mandatı" və "ilahi təyinat" kimi motivlər — struktur baxımdan qut ideyasının funksional analoqları kimi çıxış edir. Lakin bu paralellər birbaşa tarixi diffuziya və ya genealoji təsir zənciri kimi deyil, daha çox universal sakral legitimlik arxetipinin müxtəlif mədəni-simvolik formalarda reallaşması kimi interpretasiya olunmalıdır. Bu kontekstdə "qut" fenomeni türk epik və siyasi düşüncəsində sakral gücün daşıyıcısı olan subyektin legitimlik statusunu müəyyən edən əsas semiotik kodlardan biri kimi çıxış edir.

**Əsas hissə**

Qut alma inancının mifoloji səviyyəsinin ilkin və birbaşa mənbəyi kollektiv yaddaşın arxaik qatını təşkil edən folklor və mifoloji təfəkkür sistemidir. Bu səviyyədə qut anlayışı fərdi keyfiyyət kimi deyil, kosmik nizamla bağlı olan sakral enerjinin simvolik ötürülməsi kimi çıxış edir. Başqa sözlə, qut mifoloji kontekstdə insan və kosmos arasında əlaqəni təmin edən semiotik və ontoloji vasitə rolunu oynayır. Bu baxımdan, qutun mifoloji qatında arxetipik obrazlar, totemik inanclar və zoomorfik simvolika xüsusi əhəmiyyət kəsb edir.

Türk mifoloji sistemində bu tip simvolikanın ən bariz təzahürlərindən biri boz qurd (qurd arxetipi) ilə bağlıdır. VI–VIII əsrlərdə Göytürklər arasında qurd fiquru yalnız mifoloji obraz kimi deyil, həm də etnosun mənşəyini və sakral seçilmişliyini əsaslandıran ideoloji simvol kimi formalaşmışdır. Bu kontekstdə qurd obrazı sadəcə totem deyil, eyni zamanda kollektiv identiklik və sakral legitimlik kodu kimi çıxış edir. Qurdun yolgöstərən, qoruyucu və xilaskar funksiyaları qutun daşıyıcısı olan qəhrəman modelinin mifoloji əsasını təşkil edir.

Bu mifoloji konstruksiya hakimiyyət diskursunda da öz əksini tapır. Belə ki, Aşina sülaləsi öz mənşəyini qurdla əlaqələndirməklə hakimiyyətin sakral əsasını qurmağa çalışmışdır. Bu tip genealogiya yalnız mifoloji narrativ deyil, həm də siyasi legitimliyin arxaik forması kimi çıxış edir. L.Qumilyovun fikrincə, "Aşina" etnonimi də semantik baxımdan "nəcib qurd" anlayışı ilə əlaqələndirilir ki (Qumilyov, 2021: 36), bu da sülalənin özünü sakral mənşəyə bağlama strategiyasını göstərir.

Beləliklə, qut alma inancının mifoloji səviyyəsi totemik-mifoloji düşüncə ilə sıx bağlı olub, sakral mənşə, arxetipik simvolika və kollektiv yaddaş vasitəsilə qəhrəmanın və ya hökmdarın seçilmişlik statusunu əsaslandıran ilkin legitimlik mərhələsi kimi çıxış edir.

Qutun əldə edilməsi motivi inanc və ənənəvi düşüncə modeli kimi müəyyən tarixi mərhələlərdə dini-mistik səviyyədə aktuallaşaraq yeni semantik çalarlar qazanır. Bu səviyyədə qut artıq yalnız arxaik mifoloji mənşə ilə izah olunmur, əksinə, ilahi iradə, vəhy, kəramət və sakral vasitəçilik kimi dini kateqoriyalar çərçivəsində yenidən interpretasiya edilir. Beləliklə, qut fenomeni mifoloji arxetipdən çıxaraq teoloji diskurs daxilində funksionallaşan və dini legitimlik mexanizmləri ilə uzlaşan kompleks ideoloji konstruksiyaya çevrilir.

Türk epik ənənəsində bu transformasiya xüsusilə islamlaşma dövründən sonrakı mətnlərdə daha aydın müşahidə olunur. Əski türk sakral legitimlik modelində mövcud olan "qut" ideyası islam dini ilə qarşılıqlı təsirə girərək peyğəmbər və imam fiqurları vasitəsilə yenidən kodlaşdırılır və beləliklə, əvvəlki kosmoloji məzmun teoloji semantik sistem daxilində reinterpretasiya olunur. Bu proses nəticəsində qutun mənbəyi birbaşa Tanrı ilə əlaqələndirilməklə yanaşı, sakral vasitəçilər — peyğəmbərlər, imamlar və s. vasitəsilə ötürülən mənəvi legitimlik forması kimi təqdim edilir.

Bu baxımdan, "Satuk Buğra xan" dastanında qəhrəmanın Məhəmməd peyğəmbər (s.ə.s.) vasitəsilə mənəvi legitimlik qazanması (Türk Destanları: 78), eləcə də "Koroğlu" eposunun müxtəlif variantlarında qəhrəmanın Hz. Əli ilə əlaqələndirilməsi qut konseptinin islam teoloji çərçivəsində transformasiyasının tipik nümunələridir. Xüsusilə uyğur variantında Goroğlunun Hz.

Ələinin duası ilə ana bətninə düşməsi motivi (İnayet, 2001: 205-206), qəhrəmanın mənşəyinin ilahi iradə ilə əsaslandırılması və onun fövqəlinsani statusunun sakral legitimləşdirilməsi funksiyasını daşıyır.

Belə süjet elementləri göstərir ki, qut anlayışı yalnız arxaik mifoloji kateqoriya kimi deyil, eyni zamanda dəyişən dini-paradiqmatik mühitə uyğunlaşaraq öz funksional mahiyyətini qoruyan dinamik və transformativ ideoloji konstruksiya kimi fəaliyyət göstərir.

Qut əldə etmə ənənəsi yalnız mifoloji və dini-mistik sferalarla məhdudlaşmır; o, eyni zamanda siyasi-ideoloji müstəvidə funksionallaşaraq hakimiyyətin legitimləşdirilməsi mexanizminin əsas komponentlərindən birinə çevrilir. Bu səviyyədə qut anlayışı institusional hakimiyyətin əsaslandırılmasını təmin edən ideoloji və diskursiv alət kimi çıxış edir. Başqa sözlə, qut fenomeni burada sakral legitimliyin siyasi texnologiyasına transformasiya olunaraq hakimiyyətin həm mənəvi, həm də simvolik əsaslarını təmin edən konseptual çərçivəyə çevrilir.

Türk epik ənənəsində qutun əldə edilməsi və legitimləşdirilməsi kontekstində bəzi arxetipik və yarı-tarixi fiqurlar xüsusi rol oynayır. Bu baxımdan, Oğuz Kağan və Əfrasiab qutun tarixi-mediativ ötürülməsi modelində mərkəzi mövqe tutur. Bu fiqurlar yalnız epik qəhrəmanlar deyil, həm də siyasi hakimiyyət üçün sakral-tarixi legitimlik mənbəyi kimi çıxış edir.

Nizamülmülk "Siyasətnamə" əsərində hakim sülalənin mənşəyini Əfrasiyaba bağlamaqla, (Nizamülmülk, 2007; 13) bu genealogik legitimlik modelini açıq şəkildə ifadə edir. Eyni şəkildə V.Bartold Qaraxanlı hökmdarlarının "Ali-Əfrasiyab" kimi təqdim olunmasını qeyd edərək (Genç, 1981: 125) bu ənənənin siyasi müstəvidə institusionallaşdığını göstərir. M.Kaşğari və Y.Balasaquni isə Əfrasiyab ilə Alp Ər Tonqanı eyniləşdirərək (Kaşğarlı, 2006: 150-151; Balasaqunlu, 2006: 42) bu obrazın həm epik, həm də tarixi yaddaşda vahid sakral fiqur kimi qəbul edildiyini vurğulayırlar.

Xüsusilə türk-islam mədəni mühitində formalaşan oğuznaməçilik ənənəsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Rəşidəddin tərəfindən sistemli şəkildə kodifikasiya edilən bu ənənə çərçivəsində müxtəlif türk-oğuz siyasi qurumları öz hakimiyyətlərini arxaik sakral genealogiya vasitəsilə əsaslandırmaq məqsədilə mənşələrini Oğuz Kağan fiquru ilə əlaqələndirmişlər. Bu tip genealogik konstruksiyalar yalnız ideoloji legitimlik funksiyası daşımır, eyni zamanda müxtəlif xanədanlar arasında simvolik qohumluq modeli yaradaraq siyasi inteqrasiya və qarşılıqlı tanınma mexanizmi kimi çıxış edir. Beləliklə, qut anlayışı bu kontekstdə təkcə ilahi bəxşiş ideyasını ifadə etmir, həm də siyasi diskurs daxilində hakimiyyətin strukturlaşdırılmasına xidmət edən semantik və ideoloji kod funksiyası qazanır.

Bu mexanizmin konkret tarixi təzahürlərindən biri Osmanlı elçisi və tarixçisi Şükrullah tərəfindən təsvir olunur. Onun məlumatına görə, Cahan Şah sarayında keçirilən diplomatik qəbul zamanı oğuznamə mətnlərinin oxunması vasitəsilə Sultan II Murad ilə simvolik qardaşlıq münasibəti qurmuşdur (Demir, 2017: 23-24). Bu fakt göstərir ki, oğuznamə narrativləri yalnız ədəbi və ya tarixi mətnlər deyil, həm də siyasi kommunikasiya və legitimləşdirmə vasitəsi kimi fəaliyyət göstərərək qut əsaslı hakimiyyət modelinin praktik tətbiqini təmin etmişdir. Oğuznaməçilik ənənəsinin qut modelinin tarixi-siyasi transformasiyası baxımından əhəmiyyətindən danışarkən Səfəvi ideoloji diskursuna da diqqət yetirmək zəruridir. Məlum olduğu kimi, Şah İsmayıl və Şeyx Səfiəddin Ərdəbili kimi nümayəndələr türkcə yaradıcılıq ənənəsinə bağlı olsalar da, F.Sümər kimi bəzi tədqiqatçılar onların etnik mənşəyinə fərqli yanaşmışdır (Sümer, 1976: 1). Bunun əsas səbəbi Səfəvilərin ideoloji baxımdan imamiyyə (şiə) ənənəsinə daha güclü bağlılığı və öz legitimliklərini imamlar silsiləsi ilə əlaqələndirmələridir. Bu tendensiya o

dövrün “Tarix-Aləmarayi-Abbasi” kimi önəmli mənbələrində açıq şəkildə əks olunur (Türkman, 2010: 48).

Lakin Səfəvilərin oğuznaməçilik ənənəsindən tamamilə uzaq olduğunu demək doğru olmaz. Ə.Əsgər A.Olearinin əsərində Qazan xanın Dağıstan yürüşü ilə bağlı məlumatları təhlil edərək bu süjetlərin Şeyx Cüneyd və Şeyx Heydərin hərbi fəaliyyətləri ilə paralellər təşkil etdiyini göstərir. (Əsgər, 2013: 263-265) Bu isə Səfəvi ideoloji modelində oğuznaməvi narrativlərin tamamilə yox olmadığını əksinə, dini legitimlik sistemi ilə paralel şəkildə mövcud olduğunu göstərir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, qutun əldə edilməsinin mifoloji, dini-mistik və siyasi-ideoloji səviyyələri arasında sərt sərhədlər mövcud deyildir; əksinə, bu səviyyələr qarşılıqlı şəkildə bir-birini tamamlayan və üst-üstə düşən çoxqatlı struktur təşkil edir. Məsələn, Aşina sülaləsi öz genealoji legitimliyini qurd totemi ilə əsaslandırmaqla yalnız mifoloji motivə istinad etmir, eyni zamanda siyasi hakimiyyətin kosmoloji əsaslandırılmasına yönəlmiş ideoloji diskurs formalaşdırır. Bu isə göstərir ki, qut fenomeni müxtəlif səviyyələrdə eyni vaxtda fəaliyyət göstərən, sinkretik xarakterli və yüksək semantik tutuma malik kompleks legitimlik mexanizmidir.

**Nəticə**

Aparılan təhlil göstərir ki, “qut” anlayışı türk epik və siyasi düşüncəsində sadəcə mifoloji-semantik vahid deyil, çoxqatlı və funksional baxımdan dinamik legitimlik mexanizmi kimi çıxış edir. Qut fenomeninin struktur-semantik analizi onun vahid və dəyişməz modelə deyil, əksinə, müxtəlif tarixi mərhələlərdə transformasiya olunan kompleks sistemə əsaslandığını ortaya qoyur. Bu sistem daxilində qutun əldə edilməsi həm sakral-transsendent, həm də tarixi-mediativ modellər vasitəsilə reallaşaraq legitimliyin müxtəlif tip və səviyyələrini formalaşdırır.

Tədqiqat nəticəsində müəyyən edilmiş üçsəviyyəli model — mifoloji-arxetipik, dini-mistik və siyasi-ideoloji qatlar — qutun funksional təkamülünü izləməyə imkan verir. Mifoloji səviyyədə qut kosmik nizamla bağlı sakral enerjinin arxetipik simvollar (totemlər, zoomorfik obrazlar və s.) vasitəsilə ötürülməsi kimi çıxış edir və ilkin legitimlik forması yaradır. Dini-mistik səviyyədə isə bu arxaik model yeni teoloji kontekstdə reinterpretasiya olunaraq peyğəmbərlər, imamlar və övliyalar vasitəsilə sakral vasitəçilik mexanizminə çevrilir. Siyasi-ideoloji səviyyədə qut artıq institusional hakimiyyətin əsaslandırılması üçün istifadə olunan diskursiv və genealogik alət kimi funksionallaşır.

Xüsusilə oğuznaməçilik ənənəsi və onun müxtəlif tarixi modifikasiyaları qutun siyasi transformasiyasını aydın şəkildə nümayiş etdirir. Oğuz Kağan və Əfrasiyab kimi arxetipik fiqurlar vasitəsilə qurulan genealogik modellər, eləcə də sonrakı dövrlərdə formalaşan rəqabətli legitimlik sistemləri (məsələn, oğuznaməvi və imamiyyə diskurslarının paralel mövcudluğu) qutun yalnız mifoloji relikt deyil, aktiv ideoloji konstruksiya olduğunu təsdiqləyir.

Beləliklə, qut fenomeni türk mədəniyyətində sakral gücün simvolik ifadəsi olmaqla yanaşı, sosial nizamın və siyasi hakimiyyətin əsaslandırılmasında mühüm rol oynayan universal legitimlik kodu kimi çıxış edir. Onun müxtəlif səviyyələrdə paralel və qarşılıqlı təsir şəraitində fəaliyyət göstərməsi isə bu anlayışın sinkretik və yüksək adaptiv xarakterini ortaya qoyur.

**Ədəbiyyat siyahısı**

**Azərbaycan dilində**

Balasaqunlu Y. (2006). Qutadğu bilig. Bakı: Avrasiya press.
Əsgər Ə. (2013) Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil.
Kaşqarlı M. (2006). Divanü lüğat-it-türk. Dörd cilddə. III cild. (indeks). Bakı: Ozan.
Qumilyov L. (2021) Qədim türklər tərc. ed. V.Quliyev, V.Həbiboğlu. Bakı: Qanun.

Nizamülmülk. (2007). Siyasətnamə. Bakı: Çıraq.
Türkman İ.M. (2010). Dünyanı bəzəyən Abbasın tarixi. tərc. ed. Ş.Fazil. Bakı: Şərq-Qərb.

**Türk dilində**

Demir N. (2017). Oğuz kağan destanı. Ankara: Ötüken.
Genç R. (1981). Karahanlı devlet teşkilatı. Ankara: Kültür Bakanlığı Yayınları.
İnayet A. (2001). "Köroğlu destanı'nın Uygur versiyonu "Emir Göroğlu" ve onun epizot ve motif yapısı üzerine". Erdem, 13 (37), 205–225.
Sümer F. (1976). Safevi devletinin kuruluşu ve gelişiminde Anadolu Türklerinin rolu. Ankara: Güven.
Atatürk Okulu. (tarixsiz). Türk dastanları. ataturk.org.au / https://share.google/BAxzsXfiPy1Bv1dgr

**Fatimə İsayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Böyük laborant*
*E-mail: fatimeisayeva.2000@gmail.com*
*ORCİD: 0009-0004-2101-5372*

# ETNİK YADDAŞIMIZ – TÜRK FOLKLORU

**Xülasə**

Məqalədə XX əsrin mühüm tarixi hadisələrindən biri olan türkoloji qurultaydan bəhs edilir. Burada Türk xalqlarının folklorunda etnoqrafik elementlər, onların əlyazma ənənəsində qorunması və müxtəlif tədqiqatçıların bu sahəyə verdiyi töhfələr kompleks şəkildə təhlil olunur. Heydər Əliyevin türkoloji idealogiyanın inkişafındakı xidmətləri diqqətə çatdırılır. Folklorun ən geniş nümunələri olan "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları etnoqrafik və mifoloji baxımdan müqayisəli şəkildə araşdırılır.
***Açar sözlər:*** *Qurultay, türk , tarix, folklor, etnoqrafiya, totem*

# OUR ETHNİC MEMORY – TURKİSH FOLKLORE

**Abstract**

The article discusses the Turkological Congress, one of the important historical events of the 20th century. Here ethnoic elements in the folklore of the Turkish peoples, their preservation in manuscript traditions and the contributions of special researchers to this field are analyzed in a complex manner.It ideally conveys the services of Heydar Aliyev in the development of Turkology. The most extensive examples of folklore, the epics " Kitabi-DedeGorgud" and "Manas" are studied from an ethnographic and mythhological perspective.
***Keywords:*** *Congress, Turk, history, folklore, ethnography, totem*

## Giriş

Öz milli kimliyini möhkəmləndirmək, tarixdəki yerini qoruyub saxlamaq istəyən xalq üçün Türkoloji Qurultay mədəni bir çevriliş idi. 1926-cı ildə baş tutan qurultayın iştirakçı heyəti sübut edirdi ki, türk anlayışı nə qədər böyük arealı əhatə edir. Qurultayda Azərbaycan, Türkiyə, Orta Asiya respublikaları, Gürcüstan, Şimali Qafqaz, Tatarıstan, Başqırdıstan, Altay Muxtar Respublikalarından, Yakutiyadan 131 nəfər görkəmli dilçi, ədəbiyyatşünas və etnoqraf alim iştirak etmişdir. Əsas amalı əlifba islahatı, dil nəzəriyyəsi olan qurultay ilə əlaqədar olaraq 17 iclas keçirilmiş, 38 məruzə dinlənilmişdir.

Xalqa stimul verən ən böyük qələbə isə qurultayın Bakıda keçirilməsi idi. Rus alimi V.Bartold bu addımı belə şərh etmişdir: "Hal-hazırda qurultay Bakıda çağırılır. Qurultayın Bakıda çağırılmasının bir çox səbəbləri vardır... Danmaq olmaz ki, əksər əhalisi türk olan cümhuriyyətlərin hamısına nisbətən Azərbaycan Cümhuriyyəti və onun paytaxtı Bakı şəhəri universitet həyatını və ümumilikdə elmi həyatı daha yüksək dərəcədə saxlamağa müvəffəq olmuşdur" (Akimova, 2025: 10).

Türkoloji düşüncənin formalaşmasında, inkişafında danılmaz rolu olan qurultay iştirakçılarının bir çoxunun taleyi faciəvi sonlandı. Amma onlar parlaq mədəni irs tariximizə bir mayak oldular. Xalq XX əsrin 70-ci illərinə qədər türk ideoloji birliyi ifadəsini dilə gətirə bilmədi.

Yalnız Heydər Əliyevin hakimiyyəti illərində bu məsələlərə diqqət ayrılmağa başlanıldı. Mənəvi körpüləri qorumaq, milli kökə qayıdış Ulu Öndərin əsas məqsədlərindən birinə çevrildi (iki sahil.az).

Azərbaycanın olduqca mürəkkəb sınaqlar qarşısında qaldığı, müstəqilliyini qorumaq uğrunda mübarizə apardığı 90-cı illərdə belə türkologiya məsələləri arxa plana düşmədi. 1992-ci ildə Azərbaycan və Türkiyə dövlətlərinin təşəbbüsü ilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY yaradıldı.

**Əsas mətn**

1926-cı ildə keçirilən qurultayın müzakirə mövzuları digər mədəni irs nümunələrinin sistemləşməsinə də zəmin yaratdı. Qurultayda folklor və ədəbiyyat nümunələrinin, dastanlar, nağıllar, xalq şeirlərinin toplanması və sistemləşdirilməsi xüsusi vurğulanmışdır. Türk xalqlarının kollektiv yaddaşının ilkin göstəricilərindən olan folklor və etnoqrafiya bu qəbildəndir. "Etnik birliklər necə yaranıb? Məişətlərində hansı uyğunluqlar var? Fərqli cəhətləri nələrdən ibarətdir?" - suallarının cavabı etnoqrafiya anlyışında cəmlənib. Bu baxımdan etnoqrafiya bir xalq elmidir.

"Möhkəm", "qüdrətli" mənalarını ifadə edən "Türk" etnonimi dünyadakı xalqlardan biri olaraq milliyyət və ulus mənalarını daşıyır. Türk etnosunun təməlində törələr və adətlər dayanır. Həyat tərzində, inanclarında, adət-ənənələrində tarixi keçmişini yaşadan xalq bu günümüz üçün də mədəniyyətimizə dair sarsılmaz bir irs qoyur. Ənənə isə folklorun özüdür.

Xalqın mənəvi dünyasının aynası olan folklor təkcə şifahi ədəbiyyatımıza deyil, yazılı mənbələrimizə də siraət edmişdir. Folklor nümunələrinin qorunaraq əlyazma şəklinə salınması hər iki ədəbiyyat qolu arasında qarşılıqlı əlaqəni araşdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Əlyazmalar vasitəsilə folklor nümunələrinin dil xüsusiyyətlərini, üslubunu və zamanla keçirdiyi dəyişiklikləri izləmək mümkündür.

Türk xalqlarının folklor nümunələrinin müqayisəli təhlili göstərir ki, epik ənənə, mərasim folkloru, mifoloji təsəvvürlər arasında ciddi struktur oxşarlıqları mövcuddur. Bu paraleller, ilk növbədə, ortaq etnoqrafik mühit, köçəri həyat tərzi və kollektiv toplaşma ilə izah olunur. Beləliklə, folklor mədəni ifadə vasitəsi deyil, həm də etnoqrafik xəzinəmizin kodlaşdırıldığı mətnlərdir.

Yuxarıda qeyd etdiyimiz kimi, əhatə dairəsi geniş olan Türk xalqlarının folkloru da lokal hadisə olmayıb, geniş Avrasiya məkanına təsir göstərmişdir. Bəzi araşdırmaçılar bu təsirin izlərinə bir sıra slavyan mətnlərində də rast gəlindiyini qeyd etmişdir (Suleymenov, 2016: 153). Lev Qumilyov yazır ki, etnos anlayışı tarixi və təbii proseslərin əsasında formalaşır və köçəri həyat tərzi mədəniyyət və düşüncə tərzinə təsir göstərir (Qumilyov, 1993: 115). Bu baxımdan "Kitabi-Dədə Qorqud" və "Manas" dastanları xüsusi əhəmiyyət kəsb edir.

"Manas"üç hissəli möhtəşəm türk dastanıdır. 65 variantı məlum olan "Manas" Qırğız ruhunun bədii təcəssümüdür. Təsadüfü deyil ki, dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov Manas obrazını qırğız xalqının sinonimi hesab etmiişdir (türküstan.az). Dastanı ifa edən şəxs "manasçı" adlanır. Bizim qəhrəmanlıq səlnaməmizdə isə Dədə Qorqud. El ozanı Dədə Qorqud dua edən, ad qoyan hikmət sahibi olan bir obraz kimi səciyyələnir. 12 boydan ibarət olan bu oğuz eposu türkün ana kitabı hesab olunur. Ortaq mədəniyyətin əks etdiriciləri olan bu tarixi incilər həm də əxlaq daşıyıcısıdırlar.

Bu gün davam etdirdiyimiz hər bir adət-ənənənin, inancın, mərasimin kökündə tarixi yaddaşımız dayanır. Qəhrəman obrazlar vasitəsilə ideal davranış modelləri təqdim edilir və bu modellər etnosun dəyərlər sistemini əks etdirir.

Dastanlarda mövcud olan mifoloji elementlər - totemik təsəvvürlər, təbiət kultları və sakral simvollar arxaik dünya görüşünün izlərini qoruyub saxlayır. İslamdan öncəki tenqriçilik ənənələrinə

aid olsa belə bəzi motivlər islam ənənələrini xatırladır. “Duxa qoca oğlu Dəli Domrul” boyunda yer verilən yeraltı və yerüstü dünya anlayışı Domrulun Əzrayılla mübarizəsi Allahdan canını geri istədiyi səhnələr bu fikrimizə misal olaraq göstərilə bilər. Eləcə də “Manas” dastanında döyüşdə həlak olan igidlər müqəddəs sular, sehrli ayinlər vasitəsilə dirilirlər. Təbii ki oxşarlıqlar bununla da bitmir. Örnək olaraq deyə bilərik ki, heyvan kultunu səciyyələndirən Bozqurd xətti aydın cızılıb, qurd bütün türk xalqlarının əcdadı hesab olunur. Döyüş ruhunu, həyatı, gücü simvolizə edən at Beyrəyin sakral yoldaşıdır. Qırğızlarda da bu motiv çox güclü işlənilib. Manas və insan dilini başa düşən Akkula (at ) ayrılmazdır. At yaralananda qəhramanın daxili dünyası sarsılır. Heyvan kultları bununla məhdudlaşmır: aslan, şahin kimi zoomorfik bənzətmələrlə qəhrəmanın tipi səciyyələndirilir, döyüş zamanı əjdaha ruhu düşmənə vahimə salır, dəvə oğuz elinin köçündə zənginliyin rəmzi kimi xatırlanır. Bu da totemizmdən epik metaforaya keçmiş arxaik qatdır.

Dastanlarda şamanik izlər, mistik qoruma ön plana çəkilir Manasın və digər qəhrəmanların gələcəyindən xəbər verilir, Oğuz elində yuxu yozumu mistik bir bilgidir. Qəhrəmanın taleyi, döyüşlərinin nəticəsi əvvəlcədən bəlli olur. Yuxular həm xoş hadisə, həm də pis hadisə xəbərçisi ola bilər. “Salur Qazanın evinin yağmalanması” boyuda Ulaş oğlu Qazan xan yuxusunu nəql edərkən hadisələri qara rəng ilə metanimiya edir. “Qara qayğılı yuxu gördüm, qara dəvə ənsəmdən qapdı, qara bulud düşərgəmin üzərin aldı, qara saçım qarğı kimi uzandı” ifadələri obrazın daxili dünyasının təlaşını ifadə edir. Bu qara qayğılı yuxu Oğuz elindəki yağmalanmanı Salur Qazana ayan edir.

Müqayisəmizin digər tərəfi olan “Manas” dastanında isə yuxu ilahi bir təqdir ilə xalqın xilası üçün mifik bir obrazın - Manasın doğulacağını xəbər verir. Atası Cakıp xan caynaqları poladdan olan qızıl lələkli quş görür, anası Çıyırdı xatun isə göydən enən ağ əjdaha görür. Müdriklər yuxunun yozumunu nəql edərkən doğulacaq övladın döyüşkən, bütün xalqı ətrafına toplayacaq bir xan olacağını deyir.

Dastanların nəqlində yer verilən təbiət elementləri təkcə fon deyil, semantik anlam daşıyan komponentlərdir. Hər iki dastanda dağ, su, od elementlərinə yer verilir. “Manas” dastanında mühüm hadisələr Tanrı dağları fonunda verilir, dağın müqəddəs məkan kimi təsdiqini göstərir. “Kitabi-Dədə Qorqud” dastanında isə çay keçidləri, dağ səhnələri qəhrəmanın həyatında dönüş nöqtəsi kimi qeyd olunur.

**Nəticə**

On iki boyun hər birində ailə münasibətlərindən, cəmiyyət həyatından epizodlar var. Türk şifahi xalq yaradıcıllığı olduqca zəngin və hələ də araşdırılmaları davam edən bir dəryadır. Biz isə fikrimizi iki mühüm örnək əsasında çatdırmağa çalışdıq. Hər bir dastan nümunəsi yarandığı dövrün xarakterik xüsusiyyətlərini özündə daşısa da min illər öncə baş vermiş hadisələr bu günümüzlə səsləşir. Bu gün hər bir müasir Azərbaycan ailəsində qədim soy-kök ənənələrimiz qorunub saxlanılır. Ataya hörmət, vətənə sədaqət, misilsiz qonaqpərvərlik, haqq-ədələti bərqərar etmək bu gün də dəyişməyən həyat qanunlarımızdı. Gözündə qorxu olmayan, cəsur, döyüşkən, yorulmaq nədir bilməyən yurdumuzun övladları özləri haqqında ilk bu fikri formalaşdırır- “Onun damarların da türk qanı axır”.

**Ədəbiyyat siyahısı**

Akimova, E. (18.11.2025) “I Türkoloji Qurultay –türk ruhunun qələbəsi” Azərbaycan № 244- S.10
Gökalp, Z. (1976) “Türk Medeniyyeti Tarihi” İstanbul: Güneş Matbaacılık.
Qumilyov, J.(1993) “Qədim Türklər” Bakı-Gənclik.
Rüstəmov, R ; İmanov, G.(2024) “ Türk kültürü və Etnoqrafiyası” Ankara: İksad Yayınevi

Suleymenov, O. (2016) “Az-Ya” Bakı: Qanun Nəşriyyatı.
https://qebulol.az/d%C9%99d%C9%99-qorqud-tarixi-irsi-etimologiyasi-ed%C9%99biyyatda-yeri/ 20.05.2025
https://ikisahil.az/post/462578-heyder-eliyev-ve-azerbaycanda-turkologiyanin-inkishafi 11.10.2023
https://www.turkustan.az/news/authors/134721 27.01.2026

**Salidə Şərifova**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü*
*Filologiya elmləri doktoru*
*E-mail: ssharifova@rambler.ru*
*ORCİD: 0000-0001-8788-6366*

# ORXON-YENİSEY KİTABƏLƏRİNİN NƏSR VƏ NƏZM JANRLARINA AİD EDİLMƏSİ

**Xülasə**

Orxon Yenisey abidəsinin janrı haqqında bəhs edərkən, müxtəlif fikirlərin özünü göstərməsinin şahidi oluruq. Tədqiqatçılar abidədə xalq şeiri ritminin və "vəznli mənzumələrin" olması amilini vurğulamışdılar. Bununla yanaşı, kitabəni "kiçik ədəbi bir əsər", "ortaq türk tarixi qəhrəmanlıq poemaları", "epitafiya" və ya "məzar ədəbiyyatı", "qəbirstanlıq poeziyası", "ayrıca janr", "nəsr mətnləri", "əfsanələşdirilmiş tarix", "vəznli nəsr", "adi nəsr", "məzar poeziyası" kimi adlandırılması müşahidə edilir.

Orxon-Yenisey kitabələrinin mətnləri tədqiqatçılar tərəfindən bir mənalı qarşılanmamışdı. İ.V. Stebleva "VI-VIII əsrlər türklərin poeziyası" adlı kitabında Qədim Türk yazılı abidələrini "poeziya" adlandırır. V. Jirmunski kitabəni nəsr mətnləri, A. Şerbak isə nəsr əsəri kimi dəyərləndirir. Orxon-Yenisey kitabələri nəsrlə nəzmin qarışığı kimi özünü büruzə verir ki, bu da türk dastançılığında özünü qabarıq şəkildə göstərmişdir. Bu ənənəyə ümumtürk abidəsi olan "Kitabi Dədə Qorqud" dastanında da rast gəlinir. Yenisey epitafiyaları, Orxon "böngü daşları" Orxon-Yenisey kitabələrini Qədim Türk ədəbiyyatının poetikasını araşdıracağı istiqamət kimi diqqəti cəlb edir. Orxon-Yenisey abidələrinin şeir mətni kimi tədqiq edilməsinə baxmayaraq, epitafiya nümunəsi, dastan, salnamə, hekayə, mənsur roman, mənsur povest və s. kimi janrlarda təqdim edilməsi, ədəbi nümunə olması vurğulanır. Orxon-Yenisey abidələri epitafiya nümunəsi kimi qəbul edilməməlidir. Orxon-Yenisey kitabələri müxtəlif janrların janr xüsusiyyətlərini özündə cəmləşdirmiş tarixi-sənədli mənsur romandır.

***Açar sözlər:*** *Orxon-Yenisey kitabələrinin nəsr janrlarına aid edilməsi, Orxon-Yenisey kitabələrinin nəzm janrlarına aid edilməsi, Orxon-Yenisey kitabələrində nəsr və nəzmin qarışıqlığı*

# THE ATTRIBUTION OF THE ORKHON–YENISEY INSCRIPTIONS TO PROSE AND POETIC GENRES

**Abstract**

When we talk about the genre of the Orkhon-Yenisei monument, we are witnessing the manifestation of different opinions. The monument emphasized the factor of the presence of researchers in the rhythm of folk poetry and "weighty verses". In addition, the inscription is called "a small literary work", "general Turkish historical heroic poems", "epitaph" or "burial literature", "cemetery poetry", "a separate genre", "prose texts", "legendary history", "weighty prose", "ordinary prose", "burial poetry".

The texts of the Orkhon-Yenisei inscriptions were not unanimously accepted by researchers. İ.V. Stebleva in her book "Poetry of the Turks of the VI-VIII centuries" called by the ancient Turkic written monuments "poetry". V. Jirmunsky evaluated the inscription as prosaic

texts, and A. Shcherbak - as a prose work. The Orkhon-Yenisei inscriptions manifest themselves as a mixture of prose and poetry, which is characteristic of the Turkish epic. We find the most perfect example of this tradition in the epic Kitabi Dede Gorgud, a common Turkic monument. The Yenisei epitaphs, the Orkhon "Bangu stones" attract attention as the direction in which the Orkhon-Yenisei inscriptions will study the poetics of ancient Turkic literature. Although the Orkhon-Yenisei monuments were studied as texts of poems, epitaphs, epics, chronicles, stories, novels, stories, etc. Orkhon-Yenisei monuments should not be considered as an example of epitaphs. The Orkhon-Yenisei Inscriptions is a historical-documentary novel of poetry, combining genre features of different genres.
***Key words:*** *the assignment of the Orkhon-Yenisei inscriptions to prose genres, the assignment of the Orkhon-Yenisei inscriptions to poetic genres, the mixing of prose and poetry in Orkhon and poetry Yenisei inscriptions*

**Giriş**

Orxon-Yenisey kitabələrinin tapılmasının XVII əsrin sonu - XVIII əsrin əvvəllərinə təsadüf etməsinə baxmayaraq, müasir dövrümüzdə də kitabələr elmi camiənin diqqət mərkəzindədir. Orxon-Yenisey kitabələrinin dilinin araşdırılması, müasir türk dilləri ilə müqayisəli şəkildə tədqiq edilməsi, kitabələrin janrı haqqında müxtəlif fikirlərin formalaşması abidələrin elmi əhəmiyyət kəsb etməsinin göstəricisidr. Göytürk abidələri kimi məşhur olan Orxon -Yenisey kitabələri yalnız alimlər tərəfindən tədqiq edilmir, ali məktəblərdə dərs kimi tədris edilir, dərslik və dərs vəsaitləri səviyyəsində öyrədilir. "Orxon-Yenisey abidələri", "Orxon-Yenisey kitabələri", "Orhun yazıları", "Ötükən Türk Kitabələri", "əski türk yazıtları", "Orxon-Yenisey yazıtları", "qədim Türk runi[k] yazıları" və s. adlandırılmış Orxon-Yenisey kitabələrinin janrı ətrafında müxtəlif fikirlərin irəli sürülməsi maraq kəsb etdiyi kimi bu problemin hələ tam həllini tapmadığının da şahidiyik. Türkoloq, professor S.Y. Malovun Yenisey kitabələrini "epitafiya" və ya "məzar ədəbiyyatı", V.M. Jirmunskinin Orxon abidələrini "ayrıca janr", F. Korşun Orxon-Yenisey abidələrinin mətnində "vəznli mənzumələrin" olmasını, Əmin Abidin "vəznli nəsr" üslubunun olmasını, Tofiq Hacıyevin "bədii-sənədli qəhrəmanlıq dastanları", Vəli Osmanlının "daş salnamə" və s. olması kimi fikirlərini səsləndirmələri özünü göstərmişdir. Qeyd edək ki, Orxon-Yenisey kitabələrindəki mətnləri şeir nümunəsi kimi təqdim etmiş İ.V. Stebleva abidələri qəhrəmanlıq dastanları kimi də təqdim etmiş, hətta "Kitabi-Dədə Qorqud" dastanının bu abidələrə yaxın olması faktına da toxunmuşdur: "Run qəhrəmanlıq dönəminin poemalarına ən yaxını ... "Kitabi-Dədə Qorqud" dastanındakı mənzum mətnlərdir".

**Əsas mətn**

**Orxon-Yenisey kitabələrinin nəsr janrlarına aid edilməsi haqqında**

N.Cəfərov Orxon -Yenisey kitabələrini nəsr nümunəsi kimi təqdim edir: "Əminliklə demək olar ki, Göytürk nəsrinin, yaxud Göytürk dövrü türk nəsrinin əsas qəhrəmanı Tanrı (və müqəddəs Yer, Su) tərəfindən mühafizə olunan, mənsub olduğu xalqın, yaxud xalqlar birliyinin (dövlətin!) ictimai siyasi, mənəvi ideallarını müdafiə edən türk kağanı - hökmdarıdır (yaxud şahzadədir)" (Cəfərov, 2004: 242).

Orxon-Yenisey kitabələrini tədqiq edən alimlərimiz tərəfindən kitabələrin janrının konkret bir janrla, mənsur roman, mənsur povest, hekayə, salnamə və s. adlandırılması da maraq doğurur. İ.Həbibbəyli Orxon-Yenisey kitabələrinin mətnlərini sənədli bədii təfəkkürün məhsulu olan, böyük həcmə malik mənsur memuar hekayələr, kiçik həcmə malik olan miniatür mənsur şeir təəssüratı yaradan əsərlər kimi dəyərləndirir, konkret olaraq, "mənsur roman" adlandırır: "Orxon-Yenisey

mətnləri sənədli bədii təfəkkürün məhsuludur. Məzarların üzərinə bu mətnləri yazanlar həm müəyyən olmuş faktları, hadisələri və şəxsiyyətləri tarixləşdirmiş, həm də baş verən proseslərə özlərinin hiss və həyəcanlarından doğan obrazlı baxışlarını ifadə etmişlər. Orxon yazıları bir qədər böyük həcmə malik mənsur memuar hekayələridir. Kiçikhəcmli Yenisey yazıları isə miniatür mənsur şeir təəssüratı yaradır. İdeya-məzmun və dil-üslub etibarilə bir-birinə çox yaxın olan Orxon-Yenisey yazılı abidələrini bir yerdə mənsur roman adlandırmaq olar" (Həbibbəyli, 2017). Mənsur əsərdə danışıq dili sərbəst bir şəkildə özünü büruzə verir. Mənsur əsərdə danışıq dili bir cümlədən başqa bir cümləyə keçərək, müəyyən bir ahəng qanununa tabe olmadan uzana bilir. Mənsur əsər dedikdə əsasən nəsr şəklində yazılmış kiçik əsər nəzərdə tutulur. Orxon -Yenisey kitabələrinin "mənsur roman" kimi təqdimi mübahisəyə səbəb ola bilir. Çoxtərkibli janr məzmununa malik olan roman janrı yazılı ədəbiyyatın epik növünün irihəcml janrı kimi, insanın onu əhatə edən varlıqla müxtəlif əlaqələrini, insan xarakterlərinin mürəkkəbliklərini, həyat hadisələrinin inkişafını, mürəkkəb həyat hadisələrini dolğunluğu ilə əks etdirir.

Akademik İsa Həbibbəyli "Böyük Çöl Sivilizasiyası: Tonyukuk İrsi və Çağdaş Türk Dünyası" onlayn konfransında çıxışında "Tonyukuk" kitabəsinin tarixi əhəmiyyətinə və janr problematikasına toxunaraq, abidənin janrını "sənədli biblioqrafik povest" kimi dəyərləndirməsi də diqqəti cəlb etməkdədir: "...digər Orxon-Yenisey kitabələri kimi "Tonyukuk" abidəsi də ədəbiyyatşünaslıq cəhətdən az öyrənilmişdir. Özündə bir çox bioqrafik məlumatları yaşadan "Tonyukuk" abidəsi bədii-publisist uslubda yazılmış sənədli biblioqrafik mənsur povestdir". Orxon-Yenisey kitabələrini, konkret olaraq, "Tonyukuk" abidəsinin mənsur povest kimi təqdimi ədəbiyyatşünaslıqda ilk dəfə özünü göstərmişdir. Povestin bir janr kimi xüsusiyyətlərinə nəzər saldıqda, məlumdur ki, povestdə hadisələr bir neçə xətlə inkişaf edir, həyat hadisələrinin əhatə dairəsi geniş, surətlərin təsviri daha dolğun olur. Povestdə bir neçə əhvalatdan, hadisədən bəhs olunur və təsvir olunan surətlərin sayı, hadisələrin əhatə dairəsi geniş, surətlərin təsviri dolğun və təfsilatlı, süjet xətti iki, bəzən də çox olur. Fövqəladə qəhrəmanlar təsvir etməyə cəhd etməyən povest əhvalat və hadisələrin əsas iştirakçısının həyatının bütöv bir dövrünü və bu dövrün bir hadisə və əhvalatları və ictimai adətlər əks etdirilir. Povestdə əsas iştirakçı ətrafında cəmləşən və ya ona zidd cəhbədə dayanan şəxslər də əksini tapır. Povestdə əsas iştirakçının bütöv bir dövrü və yaxud bir çox dövrü təsvir edilir. Əsas iştirakçının ətrafında cəmləşən və yaxud ona zidd cəbhədə dayanan obrazlar da olur.

E.Əlibəyzadə Orxon-Yenisey kitabələrini epitafiya hesab etsə də, kitabələrin mətnlərində söylənilən hadisələri hekayə adlandırır, bunun da bir janr olmasına toxunur: "Orxon-Yenisey" mətnləri epitafıyalar, yəni qəbir daşlan üzərindəki yazılardır. Bu mətnlər, necə deyərlər, ərzi-haldır, vaxtilə yaşamış, dövran sürmüş adamlar haqqında, nəsillər haqqında etibarlı, düz sözdür. Onlar ana torpaqda yatanın kimliyi, həyat və fəaliyyəti, şəxsiyyəti, tarixdə rolu, xidməti barədə yığcam məlumatlar verir, hekayələr söyləyir. Bu da, bir növ, janrdır, o dövrün dəbdə olan yazı-yaddaş üsuludur. Adamlar haqqında, ümumilikdə el-oba, xalq haqqında az-çox söz deyir, onları təqdim edir" (Əlibəyzadə, 2009: 514). Əli bəy Hüseynzadə Orxon abidələrindən bəhs edərkən kitabələrdəki mətnlərdəki hadisələrin hekayə edilməsinə toxunmuşdur: "Bu növ yazılarda türk qövmünün vəqaiyi-tarixiyyəsi, xanların fütühatları... Bilgə xanın vəfatına qədər qayət milli və şairanə bir surətdə hekayə edilir".

Tofiq Hacıyev Orxon-Yenisey kitabələrinin epitafiya olması ilə razılaşmasına rəğmən, kitabələrin epitafiya çərçivəsinə sığmadığı faktına da toxunmuşdur: "...qəbirüstü yazılardır, şübhəsiz, bunlar epitafiya tipidir. Ancaq aşkar faktdır ki, bu əbədi daş (böngü taş) kitabələr qəbirüstü yazı anlayışına sığışmır. Məzmun da, həcm də, ifadə üslubu da epitafiya çərçivəsini

dağıdır. İfadə tərzini, fərdi xüsusiyyətləri kənara qoyub, ancaq qəbir daşında həkk olunmasına görə "epitafiyadır" deyib də dura bilmərik – bu, türk mədəniyyəti tarixində, ümumiyyətlə yazıların, xüsusilə də sənət örnəklərinin tarixiliyinə göz yummaq demək olardı" (Hacıyev, 2004: 29).

V.M. Jirmunski, A. Şerbak kimi alimlər Orxon -Yenisey kitabələrindəki mətnləri poeziya nümunəsi kimi deyil, nəsr mətnləri hesab etmişlər. V.M. Jirmunski Orxon-Yenisey kitabələrinin mətnlərinin şeir mətni deyil, nəsr mətni olmasına belə aydınlıq gətirir: "İ.V. Steblevadan fərqli olaraq mən hesab edirəm ki, Orxon və başqa əski türk runik yazıların mətnləri şeir mətnləri deyil, nəsr mətnləridir" (Тюркологический сборник, 1970: 61). Orxon-Yenisey kitabələrinin bədii əsər kimi mahiyyətini qəti şəkildə inkar edən A.M. Şerbak isə kitabələrin mətnlərinin nəsr olmasına toxunur: "Abidə mətnləri adi nəsr nümunələridir" (Тюркологический сборник, 1970: 119).

**Orxon-Yenisey kitabələrinin nəzm janrlarına aid edilməsi haqqında**

Orxon-Yenisey abidələrinin tədqiqatçılar tərəfindən şeir, nəzm örnəkləri hesab edilməsində konkret, yekun nəticənin olmaması diqqətdən yayınmır. Orxon Yenisey abidələrinin sadəcə "poeziya" adlandırılması daha çox müşahidə edilir. İ.V. Stebleva Orxon-Yenisey abidələrini "poeziya" adlandırmışdır. İ.V. Stebleva Türk yazılı abidələrini poeziya nümunəsi kimi təhlilə çəkmişdir ki, bu da bir çox həmkarları tərəfindən qəbul edilməmişdir. İ.V. Stebleva ortaq türk tarixi qəhrəmanlıq poemaları (Стеблева, 1965: 61) kimi təqdim etdiyi Orxon-Yenisey kitabələrindəki misraları şeir misraları kimi hecalara bölərək, orada ahəngi üzə çıxarmağa cəhdlər etmişdir: "Orxon əsərlərinin bədii konstruksiya vasitələrinin bütöv küllü, məna paralelliklərində ritmdən ustalıqla istifadə, alliterasiya sistemi çərçivəsində evfonik variasiyalar, ahəngdarlığın (evritmin) yüksək dərəcədə nizama salınması, məcazların əlvanlığı – bütün bunlar qədim türk poemalarını öz dövrünün şedevrləri saymağa imkan verir" (Стеблева, 1965: 68).

F.E.Korş Orxon -Yenisey abidələrinin mətnlərini poeziya kimi araşdırmış, türk xalq şeiri ritminin olmasını, türk xalq şeirinin sillabo - tonik nəzəriyyəsini bu abidəyə əsaslanaraq runik mətnlərə tətbiqinə cəhd etmişdir (Корш, 1909). F.E. Korş Orxon abidələrində mənzum parçaların olması haqqında məlumatı ictimaiyyətə çatdırmışdır:

Bilgə kağan bitigin
Yollug tikin bitigin
Bunca barkag badızın
Özi kağan atısı
Yolug tikin mən ayı
Artıgı tort gün türup
Bitidim, badıztım... ("Bilgə kağan" abidəsi, qərbi-cənub tərəfi).

Qeyd edilməlidir ki, Orxon -Yenisey abidələrindəki misralar formaca qafiyəsiz şəkildədir. Təqdim edilən nümunədə misralar formaca qafiyəsiz, yeddi hecadan ibarətdir.

Ə.Rəcəbov və Y.Məmmədov da Orxon-Yenisey kitabələrini daşlar üzərində yazılmış ilk poetik incilər kimi dəyərləndirmişlər: "Orxon-Yenisey abidələri bütün türkdilli xalqların daşlar üzərində yazılmış ilk tarixi sənədləri, türkdilli ədəbiyyatların zəmanəmizə gəlib çatmış ilk poetik incilərdir" (Rəcəbov, Məmmədov, 1993: 3). A.N. Bernştam da Orxon-Yenisey abidələrində əksini tapmış epitafiyaları poetik əsərlər kimi təqdim etmişdir.

Ədəbiyyatşünaslıqda Orxon-Yenisey kitabələrinin məzar poeziyası adlandırılması faktları ilə üzləşirik. Dörd hissədən, Orxon, Turfan, Yenisey və Talasdan ibarət olan abidə xalqın mənəvi sərvəti kimi dəyərləndirilən kitabələr epitafiya nümunəsi kimi təqdim edilmişdilər. Ə.Rəcəbov və Y.Məmmədov "Orxon Yenisey abidələri" kitabında qeyd etmişdilər ki, "çox vaxt məzar poeziyası adlandırılan bu yazılar qədim türk... bədii təfəkkürünün müqəddəs səhifələridir... Əsrlərin

imtahanından çıxmış bu daş kitabələr istər dilçilik, istər ədəbiyyatşünaslıq, istər tarixilik, istər etnoqrafik, istər fəlsəfilik... baxımından bu gün də hər hansı bir türk xalqı, türk milləti üçün aktual əhəmiyyətə malikdir" (Rəcəbov, Məmmədov, 1993: 3).

Orxon-Yenisey abidələrinin məzarlıq poeziyası kimi təqdimi yalnız Azərbaycan ədəbiyyatşünaslığında deyil, dünya ədəbiyyatşünaslığında da təqdim edilməsi diqqətdən yayınmır. Rus alimi S.E. Malov Orxon-Yenisey abidələrindəki yazıları "epitafiya" nümunəsi hesab etmiş, məzarlıq poeziyası, qəbirstanlıq poeziyası kimi dəyərləndirmişdir: "... bu məzar daş yazıları, onların dili miladi V əsrin məzarlıq poeziyasıdır".

Epitafiya və ya kitabə adətən, məzmun şəkildə mövcud olan daşlar, abidələr üzərində oyma üsulu ilə yazılmış və ya qazılmış mətn, qəbirüstü yazıları nəzərdə tutur. Sinədaşı və ya başdaşı üzərində həkk olunan kitabə dəfn edilmiş şəxsdən bəhs edir. Məzar kitabəsi, başdaşı yazısı olan epitafyanın qəbirdaşına yazılan növü olan kitabə geniş yayılmış, əksəriyyəti qədim dövrə aid olan qəbirdaşlarının bir çoxunda vəfat etmiş şəxsin təvəllüd və ölüm tarixi, atasının, babasının adı, həmçinin doğulduğu yer, sənəti də göstərilirdi. Epitafiya əsasən, dünyasını dəyişmiş insanlara aid ayinlə, vəfat etdikdən sonrakı şöhrət və xatirə qayğısı ilə bağlıdır.

Q. Aydarovun "Canlı Oğuz dilləri və Orxon yazılarının bəzi ümumi əlamətləri" əsərində epitafiyaların əsasən Oğuz dil qrupunun xüsusiyyətlərini əks etdirməsi, abidəni epitafiya nümunəsi kimi qəbul etməsi özünü göstərir: "... epitafıyalar əsasən Oğuz dil qrupunun xüsusiyyətlərini əks etdirir" (Айдаров, 1979: 3).

V.Osmanlı isə qədim epitafiyaların Yenisey yazılarında özünü göstərməsinə toxunmuşdur: "Yenisey yazılarının poetikası - qədim epitafiyalarının tipik poetikasıdır" (Osmanlı, 2008: 120).

E.Əlibəyzadə qəbirüstü nişangahda, baş daşında və ya sənduqə üzərində kitabə olan "epitafiya" anlayışına aydınlıq gətirərək, janr kimi əhəmiyyətini qabardır: "Epitafiya məzar daşları üzərində yazı bizim əcdadlarımızın, ulu babaların düşünüb kəşf etdiyi, özlərinə məxsus ilkin rəsmi fıkir qəlibi olmuş, inkişaf edib ədəbi janr səviyyəsinə yüksəlmişdir. Türk xalqları öz qədim tarixlərini yazmaq, öz həyat tərzi, ailə, məişət, dövlət işləri, ictimai-siyasi əlaqə və münasibətləri, qəhrəmanlığı, vətənpərvərliyi, ədəbi-mənəvi təfəkkürü, bədii-estetik hiss və duyğuları və s.-nin izini saxlamaq, yaşatmaq üçün bu yazılar, nəticə etibarilə fəal və orijinal janr kimi çox iş görmüşdür" (Əlibəyzadə, 2009: 569-570).

Epitafiya nümunəsi kimi təqdim edilən Orxon - Yenisey kitabələrindəki mətnlərin üç, dörd, yeddi, doqquz, on və s. sətirlərdən ibarət olmasını müşahidə edirik. Mətnləri mütaliə etdikcə onlarda bir axarlıq hiss edilməkdədir. Barlıq yerdə yerləşən abidədəki mətnlərə diqqət yetirək. Əvvəl üç sətirdən ibarət mətni və barlıqda dörd yazılı daşda verilən birinci abidəyə nəzər salaq:

İgidlər igidi adımı tapdım (qazandım) igidliyi... (üçün).

Öz Yigin Alp Turan altı qəbiləli xalqdan on üç yaşımda ayrıldım.

Bəyliyimdən sizdən ayrıldım.

Nümunədə qəhrəmanlıq motivlərinin epitafiya janrında təqdimi diqqəti cəlb edir.

Orxon-Yenisey kitabələrinin məzar poeziyasına aid edilməsini şərti olduğunu xüsusi vurğulamaq lazımdır. Bu, Orxon-Yenisey kitabələrinin qəbirüstü yazıları təmsil etməməsi anlayışı ilə bir başa əlaqədardır. Orxon-Yenisey kitabələri dəfn yerlərində, məzarlıqlarda quraşdırılmamışdır, lakin bəngü daş kimi tanınan abidələrdir. Ədəbiyyat tarixçisi N.S.Banarlı Orxon Yenisey abidələrini yazı, dil abidələri hesab etməklə yanaşı ədəbiyyat abidələrindən biri və "bengü daşları" olmasını qeyd etmişdir: "Türk dili ədəbiyyatının ilk gözəl və dəyərli verimləri, Göytürklər dövründə yazılan və dikilən benqü daşlardır... Türk ədəbiyyatının ilk yazılı örnəkləri Göy - türklər tərəfindən daşlar üzərinə yazılaraq buraxılmış əsərlərdir... Gərək bu bölgədə Yenisey

çevrəsində irili-ufaqlı daha bir çox daşlar da, bu daşlar içində yüksək bir dil, tarix, ədəbiyyat dəyəri daşıyanlar bu gün Göy türk kitabələri və ya Orhun abidələri deyilən üç böyük kitabədir" (Banarlı, 1987: 57). N.Cəfərov, Əhməd B.Ərcilasun və digər tədqiqatçılar kitabələri "böngü daşlar (əbədi daşlar)" üzərində olan kitabələr adlandırmışlar. N.Cəfərov bu amili belə açıqlayır: "Qədim türk nəsrinin şah əsərləri Göytürk imperiyasının son dövrlərində - VII əsrin son VIII əsrin ilk onilliklərində Orxon çayı hövzəsində "bənqü taşlar" ("əbədi daşlar") üzərinə həkk olunmuş kitabələrdir" (Cəfərov, 2004: 241). T.Hacıyev kitabələri mübaliğəsiz "böngü taşlar" kimi qəbul edilməsi faktına toxunmuşdur: "Orxon-Yenisey mübahisələrinin içərisində hamının mübaliğəsiz saydığı bir müəyyənlik var ki, bu böngü taşlar-əbədi daşlar kitabələr (türkcə: yazıtlar; rusca: памятники письменности "yazı abidələri") adı ilə qəbul olunur. Həqiqətən bunlar daş kitablardır, əbədiyyət kitablarıdır. Bunlar bədii kitabələr, əbədi-bədii kitablardır" (Hacıyev, 2004: 29).

**Nəticə**

Yenisey epitafiyaları, Orxon "böngü daşları" Orxon-Yenisey kitabələrinin Qədim Türk ədəbiyyatının poetikasını araşdıracağı istiqamət kimi diqqəti cəlb edir. Orxon-Yenisey abidələrinin şeir mətni (İ. Stebleva) kimi tədqiq edilməsinə baxmayaraq, epitafiya nümunəsi, dastan, salnamə, hekayə, mənsur roman, mənsur povest və s. kimi janrlarda təqdim edilməsi, həmçinin ədəbi nümunə olmaları daim vurğulanmışdır. Orxon-Yenisey abidələri epitafiya nümunəsi kimi qəbul edilməməlidir. Orxon-Yenisey kitabələri müxtəlif janrların janr xüsusiyyətlərini özündə cəmləşdirmiş tarixi-sənədli mənsur romandır. Oğuz ədəbiyyatının ilk nümunəsi olan Orxon-Yenisey abidələri türk xalqının əzəmətli keçmişini özündə əks etdirməyə qadir olan dəyərli mənbədir. Türk xalqının oyanışı və mədəni yüksəlişini əks etdirə bilən Orxon-Yenisey abidələri müasir nəslə türkün tarixi keçmişi ilə yanaşı, qədim türk dövlət quruluşu və tarixi səhnəyə çıxması haqqında məlumat vermiş, tarixi şəxsiyyətləri gözümüzdə canlandırmışdır.

Orxon-Yenisey kitabələri türk ədəbiyyatında roman janrının Avropa ədəbiyyatından daha əvvəl formalaşması və inkişaf etməsini təsdiq etdi. Avropa ədəbiyyatında romanın təşəkkülü M. Servantesin "Ağıllı zadəgan Don Kixot" və "Persilesin və Sixismundun Səyahəti. Şimali povesti" ilə bağlıdırsa, türk xalqlarının ədəbiyyatında bu Orxon-Yenisey kitabələrinin yaranması ilə bağlıdır. Orxon-Yenisey kitabələri kimi mənsur romanın mövcudluğu Şərq İntibahı dövründə məzmun romanların yaradılmasına şərait yaratmışdır. Məsələn, XII əsrdə Nizami Gəncəvinin mənzum romanları yaratması bunu təsdiq edir.

**Ədəbiyyat siyahısı**

Banarlı N.S. (1987). Resimli Türk edebiyyatı tarixi, 1, İstanbul.
Cəfərov N. (2004). Qədim türk ədəbiyyatı. Bakı.
Əlibəyzadə E. (2009). "Azərbaycan ədəbiyyatı tarixi" (ən qədim dövrlər), Bakı.
Hacıyev T. (2004). Orxon-Yenisey abidələri: janr xüsusiyyətləri // Dədə Qorqud №1.
Həbibbəyli İ. (2017). Ortaq yazılı ədəbiyyat mərhələsi // 525-ci qəzet. 13 noyabr 2017
Osmanlı V. (2008). Qədim türk ədəbiyyatı (VI-X əsrlər). Bakı.
Rəcəbov Ə., Məmmədov Y. (1993). Orxan Yenisey abidələri, Bakı.
Айдаров Г. (1979). Библиографический указатель литературы по енисейско-орхонским и таласским памятникам древнетюркской письменности, А.-А.
Зарубежная тюркология. (1986). Древние тюркские языки и литературы. Москва.
Стеблева И.В. (1965). Поэзия тюрков VI-VIII веков. Москва.
Тюркологический сборник. (1970). Москва.

**Ulduz Qəhrəmanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: ulduzkahraman1@gmail.com*
*ORCİD: 0009-0003-4418-9319*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN NƏZƏRİ GÖRÜŞLƏRİNDƏ "KİTABİ-DƏDƏ QORQUD" EPOSU TÜRK XALQLARININ MİLLİ KEÇMİŞİNİ, MİLLİ KİMLİYİNİ ÜZƏ ÇIXARAN TARİXİ SƏNƏD KİMİ

**Xülasə**

Ulu Öndər Heydər Əliyev müasir mərhələdə ümumi türkçülüyün, türk birliyinin, türk dövlətləri birliyinin aparıcı ideoloqu, böyük şəxsiyyəti idi. H.Əliyev türkçülüyü, azərbaycançılığı, dünyəviliyi və islami dəyərləri milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. Siyasi leksikona *"bir millət, iki dövlət"* tezisini irəli sürən şəxsiyyət də məhz müdrik rəhbər Heydər Əliyev olmuşdur.

Heydər Əliyevə görə, hər bir xalqın milliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, inkişaf etdirənlər yazıçılarımız, şairlərimiz olmuşdur. Çünki biz yazıçılarımızın, şairlərimizin yaratdığı bədii əsərlərdən çıxış edərək tarixi kimliyimiz, dilimiz, adət-ənənələrimiz haqqında fikirlər söyləyə bilirik. Heydər Əliyev bu qurultayda Türk xalqlarının tarixi keçmişinə yenidən qayıtmağın və yenidən təhlilinin tərəfdarı idi. Ona görə də Ulu Öndər H.Əliyevin ədəbiyyatla bağlı ədəbi-estetik görüşlərinin bir hisssəsi bütün türkdilli xalqların folklorunu, qədim abidələrini, müştərək dastanlarını öyrənməsi təşkil edirdi.

Məlumdur ki, sovet dönəmində türk xalqlarının tarixən keçdiyi yollar təhrif edilmiş, uydurulmuşdur. Təbii ki, bu Sovetlərin ideoloji təzyiqlərindən irəli gəlirdi. Belə təzyiqlərə məruz qalan türk abidələrimizdən biri "Kitabi-Dədə Qorqud" dastanı idi. XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi. Lakin H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən bu yubiley tədbiri yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu. H.Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Ulu Öndər bu eposu tarixi ədəbi milli fakt hesab etmişdir. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, tarixi sənəddir. Bu eposla H.Əliyev dünyaya belə bir mesaj vermişdir. Bu abidə sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir.

***Açar sözlər:*** *Türk, Heydər Əliyev, ortaq türk dili, konsepsiya "Kitabi-Dədə Qorqud" dastanı*

# IN THE THEORETICAL VIEWS OF THE GREAT LEADER HEYDAR ALIYEV, THE EPIC "KITABI-DADE GORGUD" AS A HISTORICAL DOCUMENT REVEALING THE NATIONAL PAST AND NATIONAL IDENTITY OF THE TURKIC PEOPLES

**Abstract**

The Great Leader Heydar Aliyev was a leading ideologist and a great personality of general Turkism, Turkish unity, and the unity of Turkish states at the modern stage. H. Aliyev raised Turkism, Azerbaijaniism, secularism and Islamic values to the level of national-ideological responsibility. It was the wise leader Heydar Aliyev who put forward the thesis of "one nation, two states" into the political lexicon.

According to Heydar Aliyev, it is its language that keeps alive and develops the nationality, moral values, and culture of every nation. Our writers and poets were the ones who kept our language alive and developed. Because we are able to speak about our historical identity, language, and traditions based on the artistic works created by our writers and poets. In this congress, Heydar Aliyev was a supporter of returning to the historical past of the Turkish people and re-analyzing it. Therefore, a part of the great leader H. Aliyev's literary-aesthetic meetings related to literature was the study of the folklore, ancient monuments, and common epics of all Turkic-speaking peoples.

It is known that during the Soviet era, the historical paths of the Turkish people were distorted and invented. Of course, this was due to the ideological pressure of the Soviets. One of our Turkish monuments subjected to such pressures was the "Kitabi-Dada Gorgud" epic. In the middle of the 20th century, Soviet ideology made this saga "popular". He branded this monument a product of feudal thinking and declared it an enemy of the working people. Under the name of this stigma, he banned the epic "Kitabi-Dada Gorgud" for a long time. However, this jubilee event, which was implemented at the initiative of H. Aliyev and organized at the level of UNESCO, renewed the "lost", "blinded" memory of the young generation, brought it back to its roots. This anniversary event was a solemn return to our spiritual world. H. Aliyev approached the epic "Kitabi-Dada Gorgud" from the perspective of nationalism, nationalism, Azerbaijaniism, statehood, and national ideology. The Great Leader considered this epic to be a historical, literary and national fact. According to H. Aliyev, the epic "Kitabi-Dade Gorgud" is a historical passport, a historical document that reveals and confirms the national past and national identity of the Turkish people. H. Aliyev gave such a message to the world with this epic. This monument proves that Azerbaijani Turks have a very ancient history.
***Key words:*** *Turk, Heydar Aliyev, common Turkish language, concept "Kitabi-Dade Gorgud" epic*

**Giriş**

Ulu Öndər Heydər Əliyev müasir mərhələdə ümumi türkçülüyün, türk birliyinin, türk dövlətləri birliyinin aparıcı ideoloqu, böyük şəxsiyyəti idi. H.Əliyev türkçülüyü, azərbaycançılığı, dünyəviliyi və islami dəyərləri milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. Siyasi leksikona “bir millət, iki dövlət” tezisini irəli sürən şəxsiyyət də məhz müdrik rəhbər Heydər Əliyev olmuşdur. Ümummilli Lider Heydər Əliyev istər Sovet dövründə Azərbaycanda rəhbər vəzifələrdə çalışdığı vaxtlarda, istər Azərbaycan Respublikasına rəhbərlik etdiyi zamanlarda, istərsə də müstəqil dövlətimizin başçısı olarkən xüsusi diqqət yetirdiyi, onun üçün prioritet olan sahələrdən biri türk xalqlarının ədəbiyyatı, mədəniyyəti, incəsənəti olmuşdur. Ulu Öndər Heydər Əliyev türk xalqlarının ədəbi-bədii, mənəvi sərvətlərinə müstəsna dərəcədə böyük dəyər vermişdir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan və bütöv Turan xalqına olan bu böyük sevgisi onun milli kökünə olan böyük sevgisindən qidalanırdı.

**Əsas mətn**

Məlumdur ki, Türk dünyası yazıçılarının qurultayı ilk dəfə 1992-ci ildə Türkiyədə Ankara şəhərində keçirilmişdir. Bu qurultayda türk dünyası qurultayının iki ildən bir keçirilməsi

qərarlaşdırılmışdır. Heydər Əliyevin də təşəbbüsü ilə 1996-cı ildə Bakıda ilk dəfə iri miqyasda türk xalqları yazıçılarının III Qurultayı keçirilir. Türk dünyası yazıçılarının III Qurultayının Azərbaycanda-Bakı şəhərində toplaşılması Ulu Öndər Heydər Əliyevdə fəxr, qürur hissi yaratmışdır. Bu qurultayda H.Əliyev *"Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir" (Novruzov, 2007: 62)* şəklində elmi məruzə ilə çıxış etmişdir.

Məlumdur ki, sovet dönəmində türk xalqlarının tarixən keçdiyi yollar təhrif edilmiş, uydurulmuşdur. Təbii ki, bu Sovetlərin ideoloji təzyiqlərindən irəli gəlirdi. Belə təzyiqlərə məruz qalan türk abidələrimizdən biri "Kitabi-Dədə Qorqud" dastanı idi. XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi. Lakin H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən bu yubiley tədbiri yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu.

Ulu Öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Bu eposu tarixi ədəbi milli fakt hesab edirdi. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, sənəddir. Bu eposla Ulu Öndər Heydər Əliyev dünyaya belə bir mesaj vermişdir. "Kitabi-Dədə Qorqud" abidəsi sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir. Həmçinin Ulu Öndər H.Əliyev bu abidənin ümumdünyaya, bəşəriyyətə Azərbaycan-oğuz türklərinə mənsubluğunun mesajını vermişdir.

H.Əliyev 2000-ci ilin 9 aprel tarixində Respublika Sarayında "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini YUNESKO səviyyəsində ümumdünya mədəniyyət salnaməsinin bir nümunəsi kimi keçirməklə dünyaya Azərbaycan xalqının çoxəsrlik tarixə malik bir xalq olduğunun mesajını da vermişdir.

H.Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Ulu Öndər bu eposu tarixi ədəbi milli fakt hesab etmişdir. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, tarixi sənəddir. Bu eposla H.Əliyev dünyaya belə bir mesaj vermişdir. Bu abidə sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir.

Məlumdur ki, Rus-Sovet imperiyası dövründə Azərbaycan türklərinə aid bir çox dastan və eposlar müştərək türk abidələri kimi öyrənilirdi. Buraya "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları da daxildir. Həmçinin mənşəcə Azərbaycan türklərinə mənsub olan Nizami, Xaqani, Füzuli, Nəsimi kimi klassik şairlər də Rus-Sovet imperiyasının siyasəti ilə ümumtürk klassik şairlər kimi öyrənilirdi. Təbii ki, klassik folklor, klassik irsin türk xalqları arasında müştərək abidə kimi öyrənilməsi istər-istəməz anlaşılmazlığa, narazılığa səbəb olurdu. Belə ki, hər bir türk xalqı həmin abidələri özlərinə aid edirdi.

H.Əliyev 2000-ci ilin 9 aprel tarixində Respublika sarayında "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini YUNESKO səviyyəsində ümumdünya mədəniyyət səlnaməsinin bir nümunəsi kimi keçirməklə dünyaya Azərbaycan xalqının çoxəsrlik tarixə malik bir xalq olduğunun mesajını vermiş oldu. *"Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley....bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan bir tarixi hadisədir. Bu bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır" (Ümummilli liderin ədəbiyyat strategiyası, 2023: 41).* Göründüyü kimi, Ulu

Öndər H.Əliyevin bu abidənin YUNESKO səviyyəsində tədbirini təşkil etməkdə əsas məqsədi ümumdünyaya, bəşəriyyətə "Kitabi-Dədə Qorqud"un Azərbaycan-oğuz türklərinə mənsubluğunun mesajını verməkdir.

"Kitabi-Dədə Qorqud"un yubiley tədbirləri elə planlaşdırılmışdır ki, Türk Dövlətlər Birliyinin IV Bakı Zirvə Toplantısı ilə bir məqama düşürdü. Bu toplantı 2000-ci il 8 aprel tarixində keçirildi. Türkdilli Dövlətlər Birliyi Türkiyə Cümhuriyyətinin lideri Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yaradılmışdır. 1997-ci il 20 aprel tarixində də Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında fərman imzalayır. 2000-ci il 9 aprel tarixində isə Respublika sarayında YUNESKO səviyyəsində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi həyata keçirilir. Bu iş o vaxtkı baş nazirin müavini Elçin Əfəndiyevə həvalə edilmişdir. Həmin gün Azərbaycanın paytaxtı Bakı dədəqorqudşünaslığın paytaxtına çevrilmişdir.

XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi. Hətta onu öyrənməyə, təhlil etməyə cəhd göstərənlərin taleyi də acınacaqlı oldu. Belə ki Azərbaycanda "Kitabi-Dədə Qorqud"un nüfuzlu tədqiqatçısı olan Əmin Abid bu eposa həsr olunmuş bir neçə əsər çap etdirdikdən sonra Sovet rejimi tərəfindən əbədi susduruldu. 1950-ci ilin may ayında "Dədə Qorqud"un kobud siyasi səhv olduğu partiya yığıncağında rəsmi elan olundu. Bu rəsmi mövqedən sonra eposun xalqa zidd bir əsər olduğu tezisi irəli sürüldü. Eposa Sovetlər İttifaqı qadağa damğası vurdu.

Sovet dövründə repressiyaya məruz qalmış bu tarixi, mənəvi dəyərimiz H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən yubiley tədbiri ilə yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu. Yubiley günlərində (2000-ci ildə) H.Əliyev "Dədə Qorqud" eposunun Drezden kitabxanasında saxlanılan nüsxəsinin surətini almaq istəsə də yubileyə qədər gəlib çata bilmədi. Lakin sonralar 2002-ci ildə Hüseyn Cavidin ev muzeyinin açılış mərasimində H.Əliyev "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin surətini Əlyazmalar Fonduna təhvil verdi. Bununla da H.Əliyev "Dədə Qorqud"u repressiyadan xilas edir və Azərbaycan xalqına geri qaytarır.

Bu yubiley tədbirində iştirak edənlər arasında Türkiyə Cümhuriyyətinin o vaxtkı prezidenti Süleyman Dəmirəl də vardı. Süleyman Dəmirəl bu tədbirdə belə bir təntənəli nitq söyləyir: *"Kitabi-Dədə Qorqud" kimi türk mədəniyyəti tarixinin çoxlu dastanları vardır. Bu dastanlar türk dünyasının bütün övladlarını-qazax, qırğız, özbək, türkmən, azəri qardaşlarımızı, Anadolu türklərini, bir sözlə, böyük türk ailəsini nəzərdə tuturam-birləşdirir, tarix içindəki hekayələrimizi gələcək nəsillərə çatdırır...Öz milli köklərini axtaran bir Türkiyə türkü, bir qazax, bir azərbaycanlı, bir türkmən və ya başqa bir qardaşımız bu əsəri mütaliə etdiyi zaman orada türk birliyini və qardaşlığını görəcəkdir" (Novruzov, 2007: 67).*

O vaxt YUNESKO-nun baş direktoru Koisiro Matsuuran idi. Bu şəxs də tamamilə türk soyundan uzaq biri idi. Koisiro Matsuura da "Kitabi-Dədə Qorqud" eposunu ümumbəşəri mədəniyyətin bir nümunəsi kimi qəbul edir, dastanı "İliada", "Mahabharata" kimi abidələrlə müqayisə edir və dastanı fəlsəfi əsər hesab edir.

Ulu Öndər Heydər Əliyev deyirdi: *"...Belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar...göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara da gedirik. Biz, beləliklə, özümüzü və varlığımızı, öz milli köklərimizi dərk edirik...Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi bir abidə bütün türk dilli*

*dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələr verəcəyik"*
*(Ümummilli liderin ədəbiyyat strategiyası, 2023: 51-52).*

Ulu Öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO çərçivəsində keçirməklə həm bu abidəni dünyaya tanıtdırırdı, həm də dastanın 1300 il yaşı olduğunu vurğulamaqla xalqımızın qədimliyini dünyaya bəyan etdi. Bu yubiley tədbiri Azərbaycan və dünya tarixində "Kitabi-Dədə Qorqud"un dəqiq və düzgün yaşını da müəyyən etdi. Bəli, bu tipli yubileyləri keçirməklə biz bir xalq olaraq öz milli köklərimizi dərk etdik.

Ulu Öndər Heydər Əliyev deyirdi: *" "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi ulu əcdadımız vardır..."Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanıdır. Biz "Kitabi-Dədə Qorqud"un vəsiyyətlərindən bu gün həyatımızda istifadə edərək xalqımızda vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik hisslərini daha da artırırıq..."Kitabi-Dədə Qorqud" insanları, xalqları sülhə, barışa dəvət edibdir. Bizim xalqımız bu gün "Kitabi-Dədə Qorqud"un bu vəsiyyətlərinə sadiqdir...Biz Dədə Qorqud yolu ilə gedirik. Biz sülh yolu ilə gedirik" (Ümummilli liderin ədəbiyyat strategiyası: 2023: 322-323).*

**Nəticə**

Ulu Öndər H.Əliyevin ədəbiyyatla bağlı ədəbi-estetik görüşlərinin bir hisssəsi bütün türkdilli xalqların folklorunu, qədim abidələrini, müştərək dastanlarını öyrənməsi təşkil edirdi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə türk mədəniyyət abidələri ilə bağlı beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi bilavasitə türk milli-mənəvi ideologiyasının dünya arenasında təbliği baxımından da əlamətdardır. Heydər Əliyev türk xalqları ədəbiyyatı problemlərindən danışarkən, ayrı-ayrı yaradıcı şəxsiyyətlərdən söhbət açarkən türk xalqlarının həm siyasi, həm də mədəni həyatında rolu olan yazıçı və şairlərin fikirlərinin bütün zamanlar üçün əhəmiyyət daşıdığını xüsusi qeyd etmişdir.

**Ədəbiyyat siyahısı**

Qurbanov A. (2004). Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı. Bakı: Gənclik
Novruzov T. (2007). Heydər Əliyev və ədəbiyyat məsələləri, Bakı: ADPU
Ümummilli liderin ədəbiyyat strategiyası. (2023). Bakı, "Elm və təhsil"

**Günel Hümmətova (Pəniyeva) Saleh**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Filologiya üzrə fəlsəfə doktoru*
*E-mail: gunelpeniyeva@mail.ru*
*ORCİD: 0000-0002-8916-3484*

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA QARŞILIQLI ƏLAQƏLƏRİN İNKİŞAFI: ORTAQ MİFOLOJİ VƏ KLASSİK ƏDƏBİYYAT ƏNƏNƏLƏRİ

**Xülasə**

Türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələr qədim dövrlərdən formalaşaraq ortaq mifoloji, folklor və klassik ədəbi ənənələr əsasında inkişaf etmişdir. Bu məqalədə xüsusilə klassik ədəbiyyat mərhələsində türk xalqları arasında yaranan ədəbi təsir və qarşılıqlı mübadilə prosesi təhlil olunur. Orta əsrlərdə formalaşan ümumtürk ədəbi mühiti müxtəlif coğrafiyalarda yaşayan şair və mütəfəkkirləri birləşdirərək ortaq poetik düşüncə sisteminin yaranmasına şərait yaratmışdır. Nizami Gəncəvi, Əlişir Nəvai və Füzuli kimi sənətkarların yaradıcılığı türk xalqları arasında ədəbi əlaqələrin güclənməsində mühüm rol oynamışdır. Qəzəl, məsnəvi və qəsidə kimi janrların ortaq şəkildə inkişafı ədəbi sistemin vahidliyini göstərir. Tərcümə, nəzirəçilik və sufi poeziyasının təsiri nəticəsində türk xalqları ədəbiyyatı ideya və forma baxımından zənginləşmişdir. Bu qarşılıqlı təsir yalnız ədəbi deyil, həm də mədəni və ideoloji inteqrasiyanı gücləndirmişdir. Nəticə etibarilə, türk xalqları ədəbiyyatı ortaq köklərə əsaslanan, lakin müxtəlif milli xüsusiyyətlərlə zənginləşən vahid ədəbi sistem kimi formalaşmışdır.

***Açar sözlər:*** *Türk xalqları ədəbiyyatı, klassik ədəbiyyat, ədəbi əlaqələr, Nizami Gəncəvi, Əlişir Nəvai, Füzuli, folklor, mədəni inteqrasiya*

# THE DEVELOPMENT OF INTERRELATİONS İN THE LİTERATURE OF TURKİC PEOPLES: COMMON MYTHOLOGİCAL AND CLASSİCAL LİTERARY TRADİTİONS

**Abstract**

Interrelations in the literature of Turkic peoples have developed since древ times on the basis of shared mythological, folkloric, and classical literary traditions. This article analyzes the process of literary interaction and mutual influence among Turkic literatures, particularly during the classical period. In the medieval era, a common Turkic literary environment emerged, connecting poets and thinkers across different geographical regions and fostering a unified system of poetic thought. The creative heritage of masters such as Nizami Ganjavi, Alisher Navoi, and Fuzuli played a significant role in strengthening literary ties among Turkic peoples. The widespread use of common genres such as the ghazal, masnavi, and qasida demonstrates the unity of the literary system. Through translation practices, the tradition of “nazira” (literary response), and the influence of Sufi poetry, Turkic literature was enriched both ideologically and artistically. These interactions contributed not only to literary development but also to cultural and intellectual integration. As a result, Turkic literature evolved as a unified system rooted in shared origins while being enriched by diverse national characteristics.

***Key words:*** *Turkic literature, classical literature, literary relations, Nizami Ganjavi, Alisher Navoi, Fuzuli, folklore, cultural integration*

**Giriş**

Türk xalqlarının ədəbi-bədii təfəkkürü çoxəsrlik tarixi inkişaf yolu keçərək, zəngin və çoxşaxəli bir irs formalaşdırmışdır. Bu irsin ən diqqətəlayiq xüsusiyyəti onun coğrafi pərakəndəliyə baxmayaraq, vahid bir mənəvi təmələ əsaslanmasıdır. Türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələrin inkişafı, təkcə tarixi qonşuluq və siyasi münasibətlərlə deyil, ilk növbədə ortaq etnik-mədəni genetikaya, eyni kosmoqonik təsəvvürlərə və kollektiv şüuraltı kodlara söykənir. Şifahi xalq yaradıcılığından yazılı ədəbiyyata qədər uzanan bu əlaqələr prosesi, türk xalqlarının dünyanı qavrama, insanı və cəmiyyəti dəyərləndirmə sisteminin eyniliyini nümayiş etdirir. Bu baxımdan, türk dünyasının ədəbi əlaqələrini öyrənmək üçün ilk növbədə həmin əlaqələrin ən fundamental və qədim qatını təşkil edən ortaq mifoloji təfəkkür sisteminə və folklor ənənələrinə nəzər salmaq zəruridir.Türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələr çox qədim dövrlərdən başlayaraq formalaşmış və bu günə qədər davam edən mürəkkəb, çoxşaxəli bir prosesdir. Bu əlaqələr həm ortaq tarixi-mədəni köklərdən, həm də müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarının qarşılıqlı təsirindən qaynaqlanır.Türk xalqlarının ədəbiyyatında qarşılıqlı əlaqələrin ən qədim təməli ortaq mifologiya və folklordur.“Oğuznamə” silsiləsi, “Dədə Qorqud” dastanları bütün türk dünyasında yayılmışdır. Qəhrəmanlıq, igidlik, vətənpərvərlik motivləri ortaq şəkildə işlənmişdir.Bu, ədəbiyyatlar arasında ilkin ideya və süjet yaxınlığını təmin etmişdir. Türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələrin ən qədim və ən fundamental qatını ortaq mifoloji təsəvvürlər və folklor irsi təşkil edir. Bu əlaqələr yazılı ədəbiyyatdan çox-çox əvvəl, şifahi ənənə şəklində formalaşmış və nəsildən-nəslə ötürülərək bütün türk dünyasında vahid mədəni kodların yaranmasına səbəb olmuşdur.

**Əsas mətn**

Türk xalqlarının geniş coğrafiyada – Orta Asiyadan Anadoluya, Sibirdən Qafqaza qədər yayılmasına baxmayaraq, onların mifoloji düşüncə sistemi, qəhrəmanlıq modelləri və folklor strukturları arasında dərin oxşarlıqlar müşahidə olunur. Bu da onların ortaq etnik mənşə və qədim dünya görüşünə malik olduğunu göstərir.Türk mifologiyası kainatın quruluşu ilə bağlı özünəməxsus model təqdim edir. Bu modeldə dünya üç əsas qatdan ibarət hesab olunur: göy (yuxarı aləm), yer (orta aləm) və yeraltı dünya (aşağı aləm). Bu üçqatlı struktur türk xalqlarının miflərində, dastanlarında və epik təfəkküründə davamlı şəkildə öz əksini tapır.Göy aləmi adətən müqəddəs sayılır və burada ali qüvvələr – Tanrı və digər ilahi varlıqlar mövcuddur. Yer aləmi insanların yaşadığı məkandır, yeraltı dünya isə daha çox qaranlıq qüvvələr, ölüm və xaosla əlaqələndirilir. Bu kosmoqonik təsəvvürlər Göy Tanrı kultu ilə sıx bağlıdır və türk xalqlarının dini-mifoloji dünyagörüşünün əsasını təşkil edir. Mifoloji sistemdə “Dünya ağacı” (Həyat ağacı) xüsusi yer tutur. Bu ağac üç aləmi birləşdirən simvol kimi çıxış edir və həm də həyatın davamlılığını, nəsillərin bir-birinə bağlılığını ifadə edir. Bu motiv Azərbaycan, qazax, qırğız, tatar və digər türk xalqlarının folklorunda müxtəlif formalarda yaşamaqdadır. Türk xalqlarının ilkin inanc sistemində totemizm və animizm mühüm yer tutmuşdur. Xüsusilə heyvan kultları folklor və mifologiyada geniş yayılmışdır. Qurd (boz qurd) türk xalqlarında müqəddəs varlıq kimi qəbul edilmiş, bəzən isə soyun əcdadı hesab olunmuşdur.Boz Qurd obrazı bir çox dastan və rəvayətlərdə yolgöstərən, xilaskar və lider kimi təqdim olunur. Bu motiv “Oğuznamə” silsiləsində, eləcə də müxtəlif türk xalqlarının epik irsində geniş yer tutur. Animistik təsəvvürlərə görə isə təbiətdəki hər bir obyekt – dağlar, çaylar, ağaclar ruh daşıyır. Bu inanc sistemi folklorda personifikasiya (canlandırma) vasitəsilə özünü göstərir. Məsələn, çayların “danışması”, dağların “qəzəblənməsi” kimi təsvirlər bu animistik düşüncənin izləridir.Türk xalqlarının qədim dini-fəlsəfi sistemlərindən biri də

şamanizmdir. Şamanlar (qamlar) yalnız dini ayinləri icra edən şəxslər deyil, həm də mifoloji biliklərin daşıyıcıları və folklorun qoruyucuları olmuşlar. Onlar musiqi, söz və ritm vasitəsilə trans vəziyyətinə keçərək ruhlar aləmi ilə əlaqə qurduqlarına inanılırdı. Şamanizm epik ədəbiyyatın formalaşmasına da ciddi təsir göstərmişdir. Epik qəhrəmanların fövqəltəbii güclərə malik olması, ruhlarla əlaqəsi, qeyri-adi doğuluş motivləri bu təsirin nəticəsidir. Qəhrəmanların səyahətləri, sınaqlardan keçməsi və qələbə qazanması mifoloji struktura əsaslanır. Türk xalqları ədəbiyyatında dastan janrı xüsusi yer tutur və qarşılıqlı əlaqələrin ən parlaq nümunələrindən biridir. Bu dastanlar həm tarixi yaddaşı, həm də mifoloji düşüncəni özündə birləşdirir.Kitabi-Dədə Qorqud türk dünyasının ən mühüm epik abidələrindən biridir. Bu dastan yalnız Azərbaycan deyil, ümumilikdə Oğuz türklərinin ortaq irsidir. Burada ailə, qəhrəmanlıq, sədaqət, vətənpərvərlik kimi dəyərlər tərənnüm olunur.Digər mühüm epik nümunələrə "Manas", "Alpamış", "Koroğlu" kimi dastanlar daxildir. Bu dastanlar müxtəlif türk xalqları arasında fərqli variantlarda mövcud olsa da, onların süjet xətti, qəhrəman tipi və ideya məzmunu böyük ölçüdə oxşardır. Bu da ədəbi qarşılıqlı təsirin və ortaq mənəvi bazanın göstəricisidir.Türk folklorunda qəhrəman obrazları müəyyən arxetiplərə əsaslanır. Bu arxetiplər müxtəlif xalqlarda fərqli adlarla təqdim olunsa da, mahiyyətcə eynidir.Fövqəltəbii doğuluş (möcüzəli şəkildə dünyaya gəlmə), erkən yaşda güc və igidlik nümayiş etdirmə, sınaqlardan keçərək kamilləşmə və cəmiyyətin xilaskarı olmaq. Bu arxetiplər kollektiv şüurun məhsulu olaraq formalaşmış və türk xalqlarının ədəbi düşüncəsində ortaq model yaratmışdır. Türk xalqlarının folklorunda nağıllar, atalar sözləri, tapmacalar, bayatılar, aşıq yaradıcılığı kimi janrlar geniş yayılmışdır. Bu janrların struktur və məzmun baxımından oxşarlığı diqqətəlayiqdir.Məsələn, nağıllarda "üçlük prinsipi" (üç qardaş, üç sınaq və s.), yaxşı ilə pisin mübarizəsi, ədalətin qələbəsi kimi motivlər bütün türk xalqlarında mövcuddur. Atalar sözləri isə xalqın həyat təcrübəsini əks etdirərək eyni məntiqi və etik dəyərləri ifadə edir.Ozan və aşıq sənəti türk xalqlarının şifahi ədəbiyyatında xüsusi yer tutur. Ozanlar dastanları ifa edən, onları nəsildən-nəslə ötürən sənətkarlar olmuşdur. Sonralar bu ənənə aşıq yaradıcılığı formasında davam etmişdir. Aşıqlar yalnız şair deyil, həm də musiqiçi və ifaçı kimi çıxış edir, saz aləti ilə müşayiət olunan poetik mətnlər təqdim edirlər. Bu ənənə Azərbaycan, Türkiyə, Türkmənistan və digər türk xalqlarında bu gün də yaşayır və ortaq mədəni irsin mühüm elementi hesab olunur.Folklor və mifoloji əlaqələrin yayılmasında müxtəlif amillər mühüm rol oynamışdır. Köçərilik və miqrasiya prosesləri, ticarət yolları (İpək yolu kimi), tayfa və tayfa birliklərinin qarşılıqlı əlaqəsi, ortaq dil və ünsiyyət vasitələridir.Bu amillər nəticəsində folklor motivləri və süjetlər geniş coğrafiyada yayılmış və müxtəlif lokal xüsusiyyətlər qazanaraq zənginləşmişdir.Bu gün də türk xalqları ədəbiyyatında mifoloji və folklor elementləri mühüm yer tutur. Müasir yazıçılar və şairlər bu motivlərdən istifadə edərək yeni bədii formalar yaradır, milli kimliyi və tarixi yaddaşı qoruyurlar. Mifoloji obrazlar və folklor süjetləri postmodern ədəbiyyatda yeni interpretasiyalar qazanaraq aktual problemlərlə əlaqələndirilir. Bu isə qədim irsin müasir dövrdə də yaşadığını və inkişaf etdiyini göstərir.Ortaq mifoloji və folklor əsasları türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələrin bünövrəsini təşkil edir. Bu əsaslar sayəsində müxtəlif coğrafiyalarda yaşayan türk xalqları arasında mənəvi və ədəbi birlik formalaşmışdır. Miflər, dastanlar, folklor janrları və arxetiplər bu birliyin daşıyıcıları kimi çıxış edərək əsrlər boyu qorunub saxlanmış və inkişaf etmişdir. Bu irs yalnız keçmişin yadigarı deyil, həm də müasir ədəbiyyatın və mədəni identikliyin formalaşmasında mühüm rol oynayan canlı bir sistemdir.

Orta əsrlərdə türk xalqları arasında ədəbi əlaqələr daha da güclənmişdir. Xüsusilə saray və elm mərkəzləri bu prosesdə mühüm rol oynamışdır.Nizami Gəncəvi, Əlişir Nəvai, Füzuli kimi sənətkarların əsərləri müxtəlif türk xalqları arasında yayılmışdır. Klassik poeziyada ortaq janrlar

(qəzəl, məsnəvi, qəsidə) və estetik prinsiplər formalaşmışdır. Türk dillərinin qohumluğu ədəbi əlaqələri asanlaşdırmışdır.Çağatay, Osmanlı və Azərbaycan türkcəsi arasında qarşılıqlı təsir güclü olmuşdur. Bir çox əsərlər müxtəlif türk dillərində yazılmış və ya uyğunlaşdırılmışdır. XIX–XX əsrlərdə milli oyanış və maarifçilik hərəkatları türk xalqları arasında ideya mübadiləsini gücləndirdi.İsmayıl bəy Qaspıralı "dildə, fikirdə, işdə birlik" ideyası ilə ümumtürk ədəbi əlaqələrini təşviq etdi. Mətbuat və tərcümə fəaliyyəti ədəbiyyatlararası inteqrasiyanı sürətləndirdi. Sovet dövründə türk xalqları arasında əlaqələr müəyyən ideoloji çərçivədə davam etsə də, ədəbi mübadilə tam dayanmadı.Müxtəlif respublikaların yazıçıları arasında tərcümə və nəşr əlaqələri mövcud idi. Müstəqillikdən sonra bu əlaqələr daha da genişlənmiş, ortaq layihələr, konfranslar və nəşrlər artmışdır. Qloballaşma və rəqəmsallaşma türk xalqları ədəbiyyatını yeni mərhələyə çıxarmışdır.Ortaq ədəbiyyat festivalları və beynəlxalq konfranslar, elektron kitabxanalar və tərcümə platformaları və ortaq mədəni kimlik axtarışları aiddir.

Türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələr ortaq köklər, dil yaxınlığı və tarixi təmaslar əsasında formalaşaraq zamanla zənginləşmişdir. Bu əlaqələr yalnız ədəbi təsir deyil, həm də mədəni identikliyin qorunması və inkişafında mühüm rol oynayır.

Türk xalqları ədəbiyyatında qarşılıqlı əlaqələrin ən mühüm mərhələlərindən biri klassik dövrə təsadüf edir. Bu mərhələ əsasən orta əsrləri əhatə edir və yazılı ədəbiyyatın inkişafı, saray mühiti, dini-mədəni təsirlər və ortaq estetik prinsiplərin formalaşması ilə səciyyələnir. Klassik ədəbiyyat türk xalqları arasında ideya, janr və üslub baxımından dərin qarşılıqlı təsir mühiti yaratmışdır.Orta əsrlərdə türk xalqları geniş coğrafiyada – Mərkəzi Asiya, İran, Qafqaz və Anadolu ərazilərində yayılmışdı. Bu ərazilərdə fəaliyyət göstərən saraylar və elm mərkəzləri (Səlcuq, Teymuri, Osmanlı və Səfəvi sarayları) ədəbi mübadilənin əsas ocaqları olmuşdur. Şairlər və alimlər müxtəlif regionlar arasında hərəkət edir, əsərlərini fərqli mədəni mühitlərdə yayırdılar.Bu dövrdə formalaşan ortaq "Şərq ədəbi məkanı" türk, fars və ərəb ədəbiyyatlarının qarşılıqlı təsiri ilə zənginləşmişdir. Türk şairləri bu mühitdə həm milli, həm də ümumşərq poetik ənənələrini mənimsəyərək özünəməxsus sintez yaratmışlar (Köprülü, 2006).Klassik dövrdə yaşamış böyük sənətkarlar türk xalqları arasında ədəbi əlaqələrin əsas daşıyıcıları olmuşdur.Nizami Gəncəvi yaradıcılığı yalnız Azərbaycan deyil, bütün Şərq ədəbiyyatına güclü təsir göstərmişdir. Onun "Xəmsə"si müxtəlif türk dillərinə tərcümə olunmuş və təqlid edilmişdir (Nizami, 1991). Əlişir Nəvai türk dilinin ədəbi dil kimi inkişafında mühüm rol oynamış, çağatay ədəbiyyatını yüksək səviyyəyə çatdırmışdır. O, türkcənin fars dili ilə rəqabət apara biləcəyini sübut etmişdir (Navoi, 1996). Füzuli isə Azərbaycan, Osmanlı və ümumşərq poeziyasının kəsişməsində dayanaraq üç dildə (azərbaycanca, farsca, ərəbcə) yazmış və geniş ədəbi təsir yaratmışdır (Fuzuli, 2005). Bu sənətkarların əsərləri müxtəlif türk xalqları arasında yayılaraq ortaq poetik düşüncə sisteminin formalaşmasına səbəb olmuşdur.Klassik türk ədəbiyyatında istifadə olunan janrlar əsasən ortaqdır. Qəzəl, qəsidə, məsnəvi, rübai kimi formalar bütün türk ədəbiyyatlarında geniş yayılmışdır. Bu janrlar yalnız forma baxımından deyil, məzmun və ideya baxımından da oxşarlıq nümayiş etdirir.Məsələn, qəzəldə məhəbbət, ilahi eşq, fəlsəfi düşüncələr əsas mövzu kimi çıxış edir. Məsnəvilərdə isə epik və didaktik süjetlər üstünlük təşkil edir. Bu formaların yayılması və sabitləşməsi türk xalqları arasında ədəbi əlaqələrin sistemli xarakter aldığını göstərir (Andrews, 2001). Klassik dövrdə türk ədəbiyyatında çoxdilli mühit mövcud idi. Şairlər əsasən türk, fars və ərəb dillərində yazırdılar. Bu isə müxtəlif ədəbi ənənələrin qarşılıqlı təsirinə şərait yaradırdı.Xüsusilə Osmanlı və Çağatay ədəbiyyatlarında ərəb-fars leksikası geniş istifadə olunmuş, lakin milli ünsürlər də qorunmuşdur. Bu sintez nəticəsində zəngin poetik dil formalaşmışdır. Eyni zamanda, müxtəlif türk dilləri arasında qarşılıqlı təsir güclənmiş, dil yaxınlığı

ədəbi əlaqələri daha da dərinləşdirmişdir (Ercilasun, 2013). Klassik ədəbiyyatda qarşılıqlı əlaqələrin əsas mexanizmlərindən biri tərcümə və təqlid (nəzireçilik) olmuşdur. Şairlər bir-birinin əsərlərinə nəzirələr yazır, məşhur süjetləri yenidən işləyirdilər.Məsələn, Nizaminin süjetləri əsasında müxtəlif türk şairləri yeni əsərlər yaratmışdır. Bu, həm ədəbi ənənənin davamlılığını təmin edir, həm də fərqli milli xüsusiyyətlərin həmin süjetlərə əlavə olunmasına imkan verirdi (Köprülü, 2006). Klassik dövrdə sufizm türk xalqları ədəbiyyatında mühüm yer tutmuşdur. Sufi şairlər ilahi eşq, insanın mənəvi kamilliyi və Tanrıya qovuşma ideyalarını tərənnüm etmişlər. Bu ideyalar bütün türk dünyasında geniş yayılmış və ortaq fəlsəfi-estetik baza yaratmışdır.Sufi poeziya müxtəlif bölgələrdə fərqli formalarda inkişaf etsə də, onun əsas ideyaları eyni qalmışdır. Bu isə ədəbi əlaqələrin ideya səviyyəsində də möhkəm olduğunu göstərir (Schimmel, 1975). Klassik dövrdə türk xalqları ədəbiyyatı ortaq mədəni məkan, dil yaxınlığı və ümumi poetik ənənələr əsasında sıx qarşılıqlı əlaqədə inkişaf etmişdir. Bu dövrdə yaranmış ədəbi sintez türk dünyasının vahid ədəbi sistem kimi formalaşmasına zəmin yaratmış və sonrakı dövrlərin ədəbiyyatına güclü təsir göstərmişdir.

**Nəticə**

Beləliklə, türk xalqlarının ədəbiyyatındakı qarşılıqlı əlaqələrin təməlini təşkil edən ortaq mifologiya, dastan yaradıcılığı və folklor janrları bütöv bir mədəniyyət sisteminin sütunlarıdır. Üçqatlı kainat modeli, "Dünya ağacı" və "Boz Qurd" kimi arxetipik rəmzlər, həmçinin "Dədə Qorqud", "Manas", "Koroğlu" kimi nəhəng epik abidələr türk xalqlarının ortaq yaddaş xəritəsini cızır. Şamanizm və ozan-aşıq sənətinin qoruyub saxladığı bu irs, fərqli coğrafiyalarda və müxtəlif dialektlərdə yaşasa da, eyni mənəvi nüvəni qorumuşdur. Bu ortaq folklor və mifologiya zəmini olmasaydı, sonrakı dövrlərdə formalaşan klassik və müasir yazılı ədəbiyyatların bir-biri ilə inteqrasiyası və qarşılıqlı təsiri bu dərəcədə təbii və harmonik ola bilməzdi. Nəticə etibarilə, qədim dövrlərdən gələn bu ortaq mədəni kodlar müasir dövrdə də türk dünyasının ədəbi və mənəvi birliyini təmin edən ən güclü vasitə olaraq qalmaqdadır.

**Ədəbiyyat siyahısı**


Andrews, W. G. (2001). *Ottoman lyric poetry: An anthology*. University of Texas Press.

Ercilasun, A. B. (2013). *Türk dili tarihi*. Akçağ Yayınları.

Fuzuli, M. (2005). *Seçilmiş əsərləri*. Şərq-Qərb Nəşriyyatı.

Köprülü, M. F. (2006). *Türk edebiyatı tarihi*. Akçağ Yayınları.

Navoi, A. (1996). *Muhakemetü'l-lügateyn*. Türk Dil Kurumu Yayınları.

Nizami Gəncəvi. (1991). *Xəmsə*. Azərbaycan Dövlət Nəşriyyatı.

Schimmel, A. (1975). *Mystical dimensions of Islam*. University of North Carolina Press.

**Bəxtiyar Tuncay**
*AMEA A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*Elmi işçi*
*E-mail: bextiyar.tuncay@yahoo.com*
*ORCİD: 0009-0006-8949-823X*

# "KURQAN ETNOSU" HAQQINDA

**Xülasə**

Hazırda elmə minlərlə kurqan məlumdur. Onlar Eneolit dövründən XIII əsrə qədər uzanan böyük bir dövrü əhatə edirlər. Avrasiyanın ən qərbindən ən şərqinə qədər geniş bir ərazidə yayılmışlar. Aparılan DNT analizləri nəticəsində bu kurqanlardan tapılmış sümük qalıqlarının, demək olar ki, hamısında R1a və R1b haploqruplarını aşkarlamışdır. Bu da "Kurqan etnosu" və ya "Kurqan xalqı" hipotezini daha da gücləndirmişdir. Hazırda bu xalqın etnik mənsubiyyəti ciddi diskussiyalar mövzusuna çevrilib.

***Açar sözlər:*** *Kür-Araz mədəniyyəti, kurqan etnosu, R1a və R1b haploqrupları, hindavropalılar, türklər*

# ABOUT THE "KURGAN ETHNOS"

**Abstract**

Currently, thousands of kurgans are known to science. They span a large period from the Eneolithic era to the 13th century. They are spread over a vast area from the far west to the far east of Eurasia. DNA analyses conducted have revealed that the bone remains found in these kurgans almost all belong to R1a and R1b haplogroups. This has further strengthened the hypothesis of the 'Kurgan ethnicity' or 'Kurgan people.' At present, the ethnic affiliation of this people has become a subject of serious discussion.

***Key words:*** *Kur-Araz culture, kurgan ethnic group, R1a and R1b haplogroups, Indo-Europeans, Turks*

Elmi ədəbiyyatda bəzən "Çöl hipotezi", bəzən də "Şərqi Avropa hipotezi" adlandırılan, müəllifləri V. Gen, O. Şrader və M. Gimbutas hesab edilən (Бурдо, 2021: 9-23) "Kurqan hipotezi" və ya "Kurqan nəzəriyyəsi", eləcə də onun tərkib hissəsi olan "Kurqan etnosu" və ya "Kurqan xalqı" adlı hipotezlər hazırda avrosentristlətlə türkoloqlar arasında əsas diskussiya mövzularından birinə çevrilib (Mallory, 1989: 185)".

"Kurqan nəzəriyyəsi" türklərin tarixdə əldə etdikləri nailiyyətləri (atın əhliləşdirilməsi, təkərin, arabanın, at nəsnələrinin icadı) və qurduqları böyük mədəniyyətləri (Məs., Samara mədəniyyəti, Xvalinsk mədəniyyəti, Çuxur mədəniyyəti, Kür-Araz mədəniyyəti, Maykop mədəniyyəti və s.), eləcə də kurqanda dəfn adətini hindavropalıların adına çıxmaq məqsədilə ortaya atılmışdır.

Gimbutas kurqan fenomeninə hindavropalı hesab etdiyi Eneolit dövrü əhalisinin şərqdən qərbə, Volqaboyu düzənliklərindən Dunay hövzəsinə, daha sonra isə Skandinaviya və Britaniyaya qədər köç marşrutlarının üzə çıxarılması vasitəsi kimi baxırdı (Gimbutas, 1956, 1977, 1991, 1994) . Onun nəzəriyyəsinə görə, dörd əsas miqrasiya dalğası olub ki, bunlardan birincisi Dnepr-Volqa bölgəsini əhatə edir və bu dalğa e.ə. IV minilliyin ilk yarısında baş vermişdir. Alimin

fikrincə, Samara və Seroqlazovo mədəniyyətlərinə Volqa hövzəsi mədəniyyətinin tərkib hissəsi kimi baxılmalıdır: "E.ə. IV minilliyin ikinci yarısında baş verən, Orta Dnestr və Maykop mədəniyyətlərini əhatə edən ikinci dalğa üçün daş kromlexlər, iki təkərli arabalar, antopomorf daş heykəllər xarakterik olub. Cuxur mədəniyyəti üçüncü dalğaya aid edilir və bu köçün e.ə. III minilliyin birinci yarısında baş verdiyi güman edilir. Həmin dalğa Ural dağları ilə Rumıniya arasındakı bütün çöl zonasını içinə alır. Daha sonra Kukuteni (Tripolye) mərhələsi gəlir. Bu mərhələdə Volqa hövzəsindən Dnepr hövzəsinə miqrasiya baş vermişdir. Həmin köçün izlərinə Vinça və Lendel mədəniyyətlərində rast gəlinir. E.ə. 3000-2800-ci illəri əhatə etdiyi düşünülən sonuncu dalğa zamanı çuxur mədəniyyəti çöl zonasının sərhədlərini aşmış, Rumıniya, Bolqarıstan və Macarıstana qədər yayılmışdır (Gimbutas, 1997).

Bu fikirlər N. Merpert, V. Danilenko, S. İvanova, V. Petrenko, N. Vetcinnikova, V. Derqaçev kimi alimlər tərəfindən dəstəklənmişdir. Lakin onu tənqid edənlər də az olmayıb. Bu baxımdan İ. Vasilyevin və F. Kolun adları ön sırada çəkilməlidir.

Hazırda "kurqan hipotezi"nin ən alovlu müdafiəçiləri qismində Adams Duqlas Kventin (dilçi), Kristiansen Kristian (arxeoloq), Mellori Ceyms Patrik (arxeoloq), Entoni Devid (arxeoloq), Haak Volfhanq (genetik) çıxış edirlər. Bununla belə, belələrinin sayı durmadan azalır. Məsələ burasındadır ki, nəzəriyyənin tərəfdarlarının əsas arqumenti skif və sarmat kurqanları idi. Bu xalqlar irandilli hesab edilirdi. Lakin aparılan genetik analizlər onların Türk olduqlarını birmənalı şəkildə ortaya qoyduqdan, eləcə də hun, xəzər, oğuz, qıpçaq və s. kurqanları barədə elmi ədəbiyyatın yayğınlaşmasından sonra "kurqan hipotezi" tədricən çökməyə başlayıb. İndi rus mənşəli ABŞ genetiki A. Klyosovun ortaya atdığı başqa bir fikir yayğınlaşdırılmağa çalışılır. A. Klyosov və tərəfdarları "Kurqan etnosu"nun sahib olduğqları iki eyni mənşəli (R1) Y xromosomlardan R1b haploqrupunun türklərə məxsusluğunu qəbul edir, fəqət R1a-nın isə guya hindavropalılara aidliyi fikrini dəstəkləyirlər. Alimin özü isə R1a haploqrupunu "ari" və "slavyan" haploqrupu kimi təbliğ edir (Клесов, 2011).

Klyosovun istinad etdiyi iki əsas arqument var:

R1a haploqrupu ruslarda dominantdır və bu xalqın təqribən yarısı sözügedən Y-xromosomun daşıyıcısıdır. R1a haploqrupu digər slavyan xalqlarında da geniş ölçüdə aşkar edilib.

R1a və R1b haploqruplarının hələlik ən qədim qazaıntı qalıqları, eləcə də ilk kurqanlar Cənubi Rus düzənliyində, başqa sözlə, şimalda Don, şərqdə Volqa, qərbdə Dnepr, cənubda Qafqaz dağları arasında yerləşən geniş bir coğrafiyada aşkarlanıb.

Bəli, elədir. Amma həmin geniş coğrafiya məhz türklərin (balkarlar, qaraçaylar, qumuklar, noğaylar, tatarlar, çuvaşlar və s) və XIX əsrdən etibarən slavyan (rus və Ukrayna) dillərini mənimsəmiş türk mənşəli kazakların hazırda sayca əksəriyyət təşkil etdikləri ərazilərdir və ruslar ora çox-çox sonralar gəliblər. Üstəlik də R1b haploqrupuna Kermanşahda (Şimal-Qərbi İran) tapılan Neolit dövrü insanlarının sümük qalıqlarında da rastlanıb.

Hərtərəfli təsəvvür yaransın deyə, sözügedən coğrafiyada yaranmış qədim mədəniyyətlərin xronologiyasına və həmin mədəniyyətlərinin qurucularının Y-xromosomlarına və mitoxondrial haploqruplarına ötəri nəzər yetərməmiz lazımdır:

1. Neolit dövrünə aid Orta Stoq (Sredniy Stoq) arxeoloji mədəniyyəti (e. ə. 5300-3300). Bu mədəniyyətin izlərinə Qara dəniz çöllərində geniş bir ərazidə - Şərqdə Dnepr çayı və Donets çayının yuxarı axarından Don çayının aşağı axarına və Azov dənizinədək, qərbdə isə Dunay çayının delatasınadək uzanan çöllük ərazilərdə rast gəlinib. Adını Ukraynadakı Orta Stoq kəndindən alır (Alexey G. Nikitin, 2024). Onun əsasını qoyanların bu ərazilərə Şimali Qafqaz və Aşağı Volqa ərazilərdən köçdükləri hesab edilir (Lazaridis, 2025: 1-11). "Orta Stoqlular arasında

türklərə xas R1b1b (R-V88) və slavyanlarda geniş rast gəlinən I2a1b1a2, I2a1b1a2a2a, I2a1b1a2a2a (I-L699) Y-xromosom haploqrupaları aşkar edilmişdir. Ukraynanın Xarkov vilayətinin Kupiansk rayonu, Aleksandriya kəndindən olan nümunədə (Oskoł çayının sol sahili, skelet №5, 7000-5500 il əvvəl və ya ~5600-5400 il əvvəl) türklərə xas R1a-Z93 Y-xromosom haploqrupu və H2a1a mitoxondrial haploqrupu müəyyən edilmişdir (Mathieson, 2018: 197–203).

2. Erkən Eneolit dövrünə aid Samara arxeoloji mədəniyyəti (e. ə. V minilliyin əvvəlləri). Ural, Don və Dnepr çayları arasındakı ərazilərdə yayılmışdı (Dergachev, 2002: 93-112). Avropa ərazisində ilk protokurqanların burada ortaya çıxdığı söylənilir. Qədim türklər üçün xarakterik olan kurqanda atla birlikdə dəfn adətinə ilk dəfə burada rast gəlinib (Todorova, 1995: 79-98). Lebyajinka kəndində tapılan və yaşı radiokarbon üsulu ilə e. ə. 5640-5555-ci illərə aid olduğu təsbit edilən kurqanda aşkar edilmiş kişi qalığının DNT analizləri onun eynən Kür-Araz mədəniyyətinin daşıyıcılarında və müasir Azərbaycan türklərində olduğu kimi R1b1a1a Y-haploqrupunun və U5a1d mitoxondrial haploqrupunun daşıyıcıs olduğunu göstərmişdir (Mathieson, 2018: 197–203).

3. Xvalınsk mədəniyyəti (həmçinin protokurqan mədəniyyəti də adlanır). Şimal Qafqaz və Orta Volqa regionununu əhatə edən, Eneolit dövrünə aid olan (e. ə. V-IV minilliklər) bu qədim arxeoloji mədəniyyətə (e. ə. 4700-ci il) aid edilən kurqanlarda aşkar edilmiş insan qalıqlarının böyük əksəriyyətində R1b1a, az bir hissəsində isə R1a Y-xromosomları və H2a1, U4a1 U4a2, U4d, U5a1i mitoxondrial (İain Mathieson, 2015) haploqrupları müəyyən edilib Mədəniyyətin yayıldığı ərazilərdə J1-CTS1026, I2a2 və Q1a hapqloqrupunun daşıyıcısı olan skletlərə də rast gəlinib (David, 2019).

4. Dnepr-Donetsk subneolitik arxeoloji mədəniyyəti (e. ə. V-III minilliklər). Sözügedən mədəniyyətə bu adın verilməsini 1956-cı ildə arxeoloq V. N. Danilenko təklif etmiş, sonralar bu təklif D. Y. Telegin və başqa arxeoloqlar tərəfindən dəstəklənmişdir (Даниленко, 1969: 30). Paleogenetik tədqiqatlar Dnepr çayından Azov dənizi sahillərinə qədər uzanan bu mədəniyyətin qurucularında iki tip Y xromosom aşkarlamışdır: R1b və I2. Onlar eyni zamanda U5, U4 və U2 mitoxondrial haploqruplarının (ana xətti) daşıyıcıları olmuşlar (Antony, 1919: 21-54). Bu haploqruplar, I2 xaric, bütünlüklə və ya qismən bölgənin Türk xalqlarında, o cümlədən Azərbaycan türklərində təmsil olunub. R1b haploqrupuna yerli slavyanlarda, yəni ruslarda və Ukraynalılarda, o cümlədən slavyanlaşmış kazaklarda rast gəlinmir. Onlar üçün R1a və I2 haploqrupları xarakterikdir.

5. Son Eneolit-Tunc dövrünə (e. ə. 3300-2600) aid Çuxur (Yamnaya) arxeoloji mədəniyyəti şərqdə Cənubi Ural, qərbdə Dnestr, cənubda aşağı Volqa arasında yayılmışdı. Adını ölülərin kurqan örtüyünü altında qazılan çuxurlarda basdırılmasından almışdır (Клейн, 1970: 297-304). Son dövrlərdə arxeoloqlar onu daha çox "Bucaq mədəniyyəti" adlandırmağa üstünlük verirlər (Иванова, 2005). Mədəniyyətin təmsilçiləri ölülərini kurqanda basdırar, kurqanlara araba və ya da onun modelini qoyardılar (Мурзин, 2018: 26-31). Çuxur mədəniyyətinin təmsilçilərinə R1b-M269, ilk növbədə, R1b-Z2103 və R1b-L23 (Kalmıkiya və Rumıniyadakı kurqanlar) haploqrupları xas olub. Bunlardan R1b-L23 subkladı Döyüş Baltaları (və ya Qaytan keramikası) mədəniyyətinin, ardınca da Halqalı Kuboklar mədəniyyətinin daşıyıcları vasitəsilə Şərqi Avropadan Şimali və Qərbi Avropaya aparılmışdır. Döyüş Baltaları mədəniyyətinin ayrı-ayrı fərdlərində R1b-Z2103 subkladına onun törəməsi olan R1b-2108 subkladı formasında rast gəlinib (İosif Lazaridis və başq., 2022: 1-11). Bolqarıstandakı kurqandan tapılan insan qalığında (nümunə I1456) isə R1a-M417 (R1a1a1) haploqrupu aşkarlanıb (Nikitin və başq., 2025: 1-8). Çuxur mədəniyyətinin yayldığı ərazilərdə I2-L699 (Don hövzəsi), G-Z42565 (G2a2a1a2b), G-L166

(G2a2a1a2a1a), Q-BZ1466 (Q1b2b1b2b), J-L283 (J2b2a1), I-Y5669 (I2a1b1a2a2a2) və Q-M25 (Q1a2) haploqruplarının daşıyıcılarının da yaşadığı məlum olub (İosif Lazaridis və başq., 2022: 1-11).

Yuxarıda hindavropaçılar tərəfindən guya hind-avropa dillərinin formalaşdığı ərazi hesab edilən geniş ərazidə mövcud olmuş bütün qədim mədəniyyətləri və həmin mədəniyyətləri qurmuş xalqın haploqruplarını təqdim etdik. Ortaya aşağıdakı nəticə çıxdı: Sözügedən mədəniyyətləri əsasən R1b haploqrupunun təmsilçiləri qurublar. Həmin haploqrup yalnız və yalnız qumuq, Azərbaycan (Dərbənd) və başqırd türklərində dominantlıq təşkil edir, yəni 50%-dən çoxdur. Kür-Araz, Arslantəpə mədəniyyətlərinin də qurucuları bu haploqrupun daşıyıcıları olublar. Bundan başqa Qaqauz türklərində 12 %, noğay türklərində isə 19,1 % R1b haploqrupu müəyyən edilib.

Bölgənin köklü hind-avropa dilli xalqlarının genetik mənzərəsinə diqqət yetirək:

| **Hind-Avropa mənşəli xalqlar** | **R1b** | **R1a** | **I2** | **J2** | **N1a** | **G2** |
|---|---|---|---|---|---|---|
| **Ruslar (şimal zolağı)** | 6,0 % | 33,4 % | 7 % | | 41 % | |
| **Ruslar (orta zolaq - kazaklar)** | 9,0 %<br>6,0 % | 47 %<br>55 % | 11 %<br>17 % | | 13 %<br>11 % | |
| **Ukraynalılar** | 8,0 % | 44 % | 22,5 % | | 7,0 % | |
| **Osetinlər (diqorlar) (ironlar)** | 10,2 %<br>2,3 % | | 9,1 % | 17,2 %<br>12,1% | ? | 55,9 %<br>72,6 % |

Yuxarıdakı cədvəldən göründüyü kimi, haqqında söhbət açdığımız qədim arxeoloji mədəniyyətlərin yayıldığı ərazidə hazırda yaşamaqda olan hind-avropa mənşəli xalqların heç birində R1b haploqrupu dominant deyil. Yəni bu xalqların sözügedən mədəniyyətləri qurmuş xalqla heç bir əlaqəsi yoxdur.

Osetinlər dışında digər xalqlarda - Ukraynalılarda, ruslarda və kazaklarda dominant rolunda R1a haploqrupu çıxış etməkdədir. Eyni zamanda onların hamısında fin-uqorlara xas N1a, eləcə də Avropanım ən qədim genlərindən olan I2 haploqrupları da müəyyən edilmişdir. I2 haploqrupuna ərazidə qurulmuş mədəniyyətlərin Yayıldığı ərazilərdə də rast gəlinmişdir (Малярчук və başq, 2008: 401). Bu o deməkdir ki, həmin haploqrupun daşıyıcıları ən qədim zamanlardan bu ərazidə yaşamışlar.

**Slavyan xalqarı arasında yayğın olan Y-xromosom (ata xətti) haploqrupları**

| **Xalq** | **Nümunə sayı** | **R1a %** | **R1b %** | **N1a1 %** | **I2a %** | **E1b1b %** | **I1 %** | **I2b %** | **G %** | **J2 %** | **J1 %** | **T %** | **Q %** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | |
| polyak | 1252 | 57,5 | 12,5 | 8,5 | 5,5 | 3,5 | 8,5 | 2 | 1,5 | 3,5 | 0 | 1,5 | 1,5 |
| belorus | 574 | 51 | 5,5 | 10 | 18 | 4 | 5 | 1 | 1 | 2 | 1 | 0 | 0 |
| rus | 1207 | 46 | 6 | 22 | 10,6 | 3,5 | 10,2 | 0 | 1 | 2 | 0 | 0 | 3,5 |

**Slavyan xalqarı arasında yayğın olan Y-xromosom (ata xətti) haploqrupları**

| Xalq | Nümunə sayı | R1a % | R1b % | N1a1 % | I2a % | E1b1b % | I1 % | I2b % | G % | J2 % | J1 % | T % | Q % |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| kazak | 484 | 55 | 6 | 11 | 17 | 3 | 5 | 0 | 2 | 5 | 0 | 0 | 5 |
| Ukraynalı | 822 | 44 | 8 | 7 | 20,5 | 6,5 | 4,5 | 0,5 | 3 | 4,5 | 0,5 | 1,5 | 2,5 |
| slovak | 70 | 43,5 | 15,5 | 3 | 17 | 6,5 | 6,5 | 1,5 | 4 | 2 | 1 | 0 | 0 |
| sloven | 70 | 38 | 18 | 0 | 23,5 | 5 | 9 | 1,5 | 1,5 | 2,5 | 0 | 0 | 0 |
| çex | 404 | 33 | 28 | 2,5 | 8,5 | 6,5 | 7,5 | 3 | 5 | 4 | 1 | 0 | 0 |
| xorvat | 604 | 24 | 8,5 | 0,5 | 37 | 10 | 5,5 | 1 | 2,5 | 6 | 1 | 0,5 | 1 |
| boşnak | 500—1000 | 24 | 8,5 | 1 | 50,5 | 11,5 | 4,5 | 0 | 1,5 | 5,5 | 1 | 0,5 | 0,5 |
| serb | 194 | 21,5 | 6 | 2,5 | 34 | 15 | 8 | 0,5 | 2,5 | 9 | 1 | 0,5 | 0 |
| bolqar | 34 | 18 | 11 | 0,5 | 20 | 21,5 | 4 | 2 | 5 | 14 | 2 | 1,5 | 0,5 |
| makedon | 150 | 15 | 12,5 | 0,5 | 23 | 21,5 | 3 | 1,5 | 4 | 14 | 2 | 1,5 | 0,5 |
| Çernoqoriya | 250 — 500 | 8,5 | 9,5 | 1,5 | 29 | 27 | 6 | 1,5 | 2,5 | 9 | 0,5 | 0 | 2 |

1. Cədvəldən də göründüyü kimi, R1a haploqrupu, demək olar ki, bütün slavyan xalqlarında dominantlıq təşkil edir. Doğrudur, qərbə getdikcə onun faizi get-gedə azalır. Elə bu fakt da A. Klyosova R1b haploqrupunu sırf türk, R1a haploqrupunu isə slavyan və ari (hind-avropa) Y-xromosomu hesab etməyə əsas vermişdir (Клесов, 2011).

Qərb slavyanlarında Şərq slavyanlarına nisbətən I2 haploqrupunun daha çox olduğunu da görməmək mümkün deyil.

I2 Y-xromosomu haploqrupu Bosniya və Herseqovina, Serbiya və Xorvatiyada yaşayanlar arasında ən yüksək konsentrasiya ilə müşahidə olunur. Bu haploqrup təxminən 27.500 il əvvəl yaşamış bir kişinin I haploqrupunun mutasiyası nəticəsində yaranmışdır. Həmin haploqrupun özünün yaranma tarixi isə eradan əvvəl 26.000 - 31,000 il arasında baş vermişdir. İndiki I2-Y283911 haploqrupunun ortaq əcdadı 21.600 il əvvəl yaşamışdır (tarixlər YFull şirkəti tərəfindən sniplər əsasında müəyyən edilmişdir). Müasir Avropanın demək olar ki, bütün ərazisində rast gəlinir, maksimum tezlik Dinar dağlarında müşahidə edilir. Orada kişilərin orta boyu dünyanın statistikasında rekord 185.6 sm-dir (Pineau, Delamarche, Bozinovic, 2012).

Beləliklə, Avropanın əsas əhalisi Üst Paleolit dövründən Neolit dövrünə qədər məhz I2 haploqrupunun daşıyıcıları olub. Mezolit dövründə Avropada bu gün Amerika hindularının əcdadları hesab edilən Q haploqrupunun daşıyıcıları peyda olmuşlar. Avropada Paleolitdən Mezolitə keçid məhz onların adı ilə bağlıdır.

Avropada Neolit inqilabının əsasını isə Qafqaz və Anadolu üzərindən Avropaya axışan J2, G2 və R1 (R1a və R1b) Y-xromosomlarının daşıyıcıları tərəfindən qoyulduğu arxeoloq və genetiklərdə heç bir şübhə oyatmır. Eneolit, Tunc və Dəmir dövrlərinə keçid, əkinçilik, dulusçuluq, mədəniyyətlərinin və metallurgiyanın yaranması, atın əhliləşdirilməsi, təkərin və arabanın kəşfi isə bilavasitə R1b və R1a haploqruplarının daşıyıcılarının adı ilə bağlı olub. Bu məsələdə də arxeoloq və genetiklər arasında tam bir fikir birliyi var.

Əldə olan məlumatlara, görə Qafqazdan ətraf bölgələrə, o cümlədən Avropanın dərinliklərinə qədər yürüyən J2 (Nax-Dağıstan xalqlarının əgdadları), G2 (abxaz-adıq qrupu xalqlarının əcdadları) və R1 (R1a və R1b) haploqruplarının daşıyıcıları ayaq basdıqları hər yerdə

kişilərin kütləvi qətli və yerli qadınların kənizə çevrilməsi baş vermişdir. Nəticədə R1a və R1b Y-xromosomları, qismən də J2 və G2 Avropanın, hətta Avrasiyanın əsas kişi genlərinə çevrilmişdir.

Tanınmış arxeoloq L. S. Kleyn R1 (R1b və R1a) haploqrupunun daşıyıcılarının Avropada yerli kişiləri məhv etdiklərini və hind-avropa dillərini Avropada yayğınlaşdırdıqlarını iddia etməkdədir (Клейн, 2007). Bu fikrində o, tək deyil. Bu sıraya V. Haak, İ. Lazaradis, N. Patterson, N. Rohland, S. Mallik, B. Llamas (Haak və başq., 2015: 207–211) kimi genetikləri də əlavə etmək lazımdır.

Onlar bir məsələdə tamamilə haqlıdırlar. R1 (R1a və R1b) haploqrupunun daşıyıcılarının Avropaya ayaq açması, eynən J2 və G2 haploqruplarının daşıyıcılarının ayaq açmaları kimi, özlərindən əvvəlki xalqların kişilərinin kütləvi qətli ilə müşayiət olunmuş və Avropanın genetik xəritəsinin önəmli şəkildə dəyişməsi ilə nəticələnmişdir. Lakin həmin alimlər bir məsələdə böyük səhvə yol vermişlər. Yeni gələnlər öz toxumlarını hər tərəfə səpsələr də, dillərini, yəni Türk dilini yayğınlaşdırmağı bacarmamışlar və ya qismən bacarmışlar. Yerli kəniz qadınlardan doğulan uşaqlar atalarının genlərini alsalar da, analarının dillərində danışmışlar. Nəticədə damarlarında Türk genləri daşıyan, fəqət yerli dillərdə danışan çox sayda xalq ortaya çıxmışdır.

**Ədəbiyyat siyahısı**


Alexey G. Nikitin. (2024) Serednii Stih culture. Internet encyclopedia of Ukraine. Müraciət tarixi: 19 sentyabr 2024. Arxivləşdirilib: 22 avqust 2024.

David W. Anthony. (2019) Archaeology, Genetics, and Language in the Steppes: A Comment on Bomhard // Volume 47, Number 1 & 2, Spring / Summer.

Dergachev V. A. (2002) Two studies in defense of the migration concept // Ancient Interactions: East and West in Eurasia (англ.) / Boyle, Katie; Renfrew, Colin; Levine, Marsha. Cambridge: McDonald Institute Monographs, s. 93-112. - ISBN 1902937198.

Gimbutas M. (1956) Prehistory of Eastern Europe, Part I. Mesolithic, Neolithic and Copper Age cultures in Russia and the Baltic area // American School of Prehistoric Research, Peabody Museum, Harvard University, Bulletin № 20 (Cambridge, Massachussetts).

Gimbutas M. (1977) The earliest wave of Eurasian Steppe Pastoralists into Cooper Age of Europe // The Journal of IndoEuropean studies. V. 5. № 4.

Gimbutas M. (1991) Civilization of the Goddess. San-Francisco.

Gimbutas M. (1994) Das Ende Alteuropas. Budapest.

Gimbutas M. (1997) The kurgan culture and Indoeuropization of Europa. Selected articles 1952–1993. Ed. Mariam Robins Dexter and Karlene // Jones-Blay Jouranl Indo- European studies. Monograph. № 18. Washington.

Haak W., Lazaridis I., Patterson N., Rohland N., Mallick S., Llamas B., Brandt G., Nordenfelt S., Harney E., Stewardson K., Fu Q., Mittnik A., Bánffy E., Economou C., Francken M., Friederich S., Pena R. G., Hallgren F., Khartanovich V., Khokhlov A., Kunst M., Kuznetsov P., Meller H., Mochalov O., Moiseyev V., Nicklisch N., Pichler S. L., Risch R., Rojo Guerra M. A., Roth C., Szécsényi-Nagy A., Wahl J., Meyer M., Krause J., Brown D., Anthony D., Cooper A., Alt K. W., Reich D. (2015) Massive migration from the steppe was a source for Indo-European languages in Europe. // Nature.

İain Mathieson, et al. (2015) Eight thousand years of natural selection in Europe.

İosif Lazaridis, et al., (2022) A genetic probe into the ancient and medieval history of Southern Europe and West Asia // Science. Aug 25.

Lazaridis Iosif, et al. (2025) The genetic origin of the Indo-Europeans // Nature, s. 1-11.

Mallory J. P. (1989) «The Kurgan solution is attractive and has been accepted by many archaeologists and linguists, in part or total. It is the solution one encounters in the Encyclopaedia Britannica and the Grand Dictionnaire Encyclopédique Larousse».
Mathieson İ. (2018) The Genomic History of Southeastern Europe. Nature. 555 (7695). Nature Research: 02-21, s. 197–203.
Nikitin A. G., et al. (2025) A genomic history of the North Pontic Region from the Neolithic to the Bronze Age // Nature, s. 1-8.
Pineau JC., Delamarche P., Bozinovic S. (2012) «Average height of adolescents in the Dinaric Alps. They are also reputed to have the tallest males in Europe. Study claims it is not complete as yet». Comptes Rendus Biologies. 328 (9).
Todorova H. (1995) The Neolithic, Eneolithic, and Transitional in Bulgarian Prehistory // Prehistoric Bulgaria (неопр.) / Bailey, Douglass W.; Panayotov, Ivan. Madison, WI: Prehistoric Press, T. 22, s 79-98.
Бурдо Н. (2021) Курганная гипотеза Марии Гимбутас: первая волна миграций V тыс. до н. э. // Tyragetia. Serie nouă. T. 30. №. 1. s. 9-23.
Иванова С. В., Петренко В. Г., Ветчинникова Н. Курганы древних скотоводов междуречья Южного Буга и Днестра. Одесса, 2005. 207 s.
Клейн Л. С. (1975) Рецензия на: Курганы степной части междуречья Дуная и Днестра. МАСП. Одесса, 1970. Вып. 6 // Советская археология. № 1. s. 297-304.
Клейн Л. С. (2007) Древние миграции и происхождение индоевропейских народов. СПб.
Клесов А. А. (2011) Происхождение славян и других народов: Очерки ДНК-генеалогии. 645 s.
Малярчук Б. А., и др. (2008) «Генетика», т.44, № 3.
Мурзин В. Ю. (2018) Города на колёсах // Мелітопольский краеведческий журнал, № 12, s. 26-31.

**Cəmilə Məhərrəmova**
*AMEA Naxçıvan bölməsi*
*Elmi işçi (dissertant)*
*E-mail: cemilenihatmeherremova@gmail.com*
*ORCİD: 0009-0007-4494-1143*

# K.N.SMİRNOVUN "NAXÇIVAN DİYARININ TARİXİ VƏ ETNOQRAFİYASINA DAİR MATERİALLAR" (1934) ƏSƏRİNDƏKİ TOPONİMLƏRİNİN ETİMOLOJİ TƏHLİLİ

**Xülasə**

Məqalədə XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış rus müəllifi K.N.Smirnovun 1934-cü ildə nəşr olunmuş "Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair materiallar" əsərindəki bəzi toponimlərin struktur-semantik təhlili aparılmışdır. K.N.Smirnov XX əsrin 30-cu illərində Naxçıvanda olmuş, yerli arxivlərdən, muzeylərdən və Kəngərli nəslinin şəxsi sənədlərindən, həmçinin yerli ziyalılardan topladığı məlumatlar əsasında əsərini yazmışdır. Onun topladığı məlumatların bir qisminin qeyri-dəqiq olsa da, XX əsrin əvvəllərində Şahbuz və Babək rayonları ərazisindəki toponimlərin yazılış formalarını müəyyənləşdirmək baxımından əhəmiyyətli mənbədir. Məqalədə Şahbuz və Babək rayonları ərazisindəki etnotoponimlər (Şahbuz, Kolanı/Kelani, Biçənək, Külüs, Badaşqan, Cəhri, Qaraxanbəyli, Nəhəcir, Sirab) təhlil edilmişdir. Araşdırmada "Şahbuz" toponiminin Smirnov tərəfindən "Şahpuz" formasında fars dili əsasında izahı tənqid edilir və onun "bus" tayfası ilə əlaqəli etnotoponim kimi "uca yerdə məskunlaşmış buslar" mənasını daşıdığı sübut edilir. Araşdırmalar "Kolanı" toponiminin türk mənşəli Kolanı tayfası ilə bağlılığını, "Biçənək" adının isə "peçeneq" etnonimindən fonetik dəyişmə nəticəsində yarandığını göstərir. "Külüs" toponimi "kol" tayfası və "uz" (oğuz) komponentləri ilə əlaqələndirilir. Nehrəm və Nəhəcir toponimləri ilə bağlı yeni etimoloji təhlillər aparılmışdır. Təhlillər Naxçıvanın qədim oğuz-türk yurdu olmasını bir daha təsdiqləyir.

***Açar sözlər:*** *Smirnov, Naxçıvan, toponim, Şahbuz, Kolanı, Biçənək, Külüs, etimologiya*

# "ETYMOLOGİCAL ANALYSİS OF SOME TOPONYMS İN K.N. SMİRNOV'S WORK 'MATERİALS ON THE HİSTORY AND ETHNOGRAPHY OF THE NAKHCHİVAN REGİON' (1934)"

**Abstract**

The article provides a structural-semantic analysis of several toponyms found in the work "Materials on the History and Ethnography of the Nakhchivan Region" (1934) by the Russian author K.N. Smirnov, who lived in the late nineteenth and early twentieth centuries. In the 1930s, Smirnov visited Nakhchivan and composed his study on the basis of materials collected from local archives and museums, as well as from the private documents of the Kangarli tribe and information obtained from local intellectuals. Although some of the data he gathered lack precision, his work remains a significant source for determining the written forms of toponyms in the territories of the present-day Shahbuz and Babek districts in the early twentieth century.

The article analyzes the ethnotoponyms located within the territories of Shahbuz and Babek districts (Shahbuz, Kolanı/Kelani, Biçənək, Külüs, Badaşqan, Cəhri, Qaraxanbəyli, Nəhəcir, Sirab). It critically reassesses Smirnov's Persian-based interpretation of the toponym "Shahbuz," which he rendered as "Shahpuz," and demonstrates that the name should instead be understood as

an ethnotoponym associated with the “Bus” tribe, meaning “the Bus settled in a high place.” The research further establishes the connection of the toponym “Kolanı” with the Turkic Kolanı tribe and argues that the name “Biçənək” emerged as a phonetic transformation of the ethnonym “Pecheneg.” The toponym “Külüs” is linked to the components “kol” (a tribal designation) and “uz” (Oghuz). New etymological analyses are also proposed regarding the toponyms Nehrəm and Nəhəcir.

The findings once again confirm Nakhchivan’s historical status as an ancient Oghuz-Turkic homeland.
***Key words:*** Smirnov, Nakhchivan, toponym, Shahbuz, Kolani, Bichenek, Kulus, etymology

Qədim oğuz-türk yurdu olan, I Türkolooji qurultayda iştirak etmiş müxtəlif alimlərin də diqqətini cəlb etmiş Naxçıvanla bağlı tədqiqatlar XX əsrin 30-cu illərində də davam etmişdir. Rus müəllifi Konstantin Nikiforoviç Smironovun Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair əsəri də məhz XX əsrin 30-cu illərinin əvvəllərində meydana çıxmışdır. Şəxsən Naxçıvanda olan K.N.Smirnov bölgəyə dair çoxsaylı məlumatlar toplamışdır. Onun Naxçıvan Mərkəzi Arxivindən, Naxçıvan Muzeyindən və Kəngərlilərin şəxsi arxivlərindən əldə etdiyi sənədlər, kameral təsvirlər, alqı-satqı müqavilələri, Məhəmməd Rasizadə, Mirzə Cabbar Bəktaşev kimi yerli ziyalılar, Kəngərli nəslinin ağsaqqallarından topladığı rəvayətlər, bölgədəki əhalinin tayfa mənşəyi barədə məlumatlar nə qədər mübahisə doğursa da bu mənbənin qiymətini azaltmır. İstifadə etdiyi materialların və məlumatların etibarlığını “qeyri-müəyyən” adlandıran K.N.Smirnovun əsərində əksini tapmış Şahbuz və Babək rayonlarına dair etnotoponimlərin struktur semantik təhlilinin aparılması mühüm əhəmiyyətə malikdir. Bu iki cəhətdən vacibdir. Birincisi o baxımdan ki, K.N.Smironov yaşayış məntəqələrinin adları, əhalisi ilə bağlı müəyyən etimoloji təhlillər vermişdir. Bu təhlillər bir qismi tarixi həqiqətləri əks etdirsə də, bir qismi doğru deyildir. Müəllifin topladığı məlumatların qeyri-dəqiqliyinin və öz təxəyyülünün məhsuludur. İkincisi ona görə ki, bir sıra toponimlərin XX əsrin əvvəllərində yazılış formalarını məhz bu əsər əsasında müəyyənləşdirmək mümkündür. Bundan əlavə qeyd etmək lazımdır ki, K.N.Smirnovun əsərində hətta etnotoponim kimi xarakterizə edilməyən bir sıra etnos mənşəli yer adları da vardır. K.N.SMirnovun yazdığı əsərə vaxtilə ön söz yazmış Əziz Mirəhmədov qeyd edir ki, kitabdakı “Naxçıvan tayfalarının siyahısı”nda olan toponimlərin izahında ən yaxından iştirak edən onların tərtibçisi görkəmli dramaturq Hüseyn Cacidin qardaşı Məhəmməd Rasizadə olmuşdur. Qeyd etmək lazımdır ki, Naxçıvanda mövcud olan yaşayış məntəqələrinin toponimik lüğəti əsərin üçüncü - əlavələr hissəsində verilmişdir.

Smirnov əsərində Şahbuz rayonu ərazisindəki (Şahbuz, Kolanı (Kelani), Biçənək, Yuxarı Remeşin (Yeremeşin), Keçili, və Babək rayonu ərazisindəki (Badaşqan (Badaşxana), Cəhri, Qaraxanbəyli, Nəhəcir, Sirab etnotomoponimlərinin adlarını qeyd etmişdir (Смирнов, 1999:19-54).

K.N.Smirnovun əsərində “Şahbuz” toponimi onun etimologiyası ilə bağlı verilən məlumat da müəllifin qeyri-dəqiq məlumatlarının nəticəsidir. “Şahbuz” toponimini “Şahpuz” formasında verən rus müəllifi yazır ki, “Puz” fars dilində “təmizlənmiş” mənasındadır. Bu toponim Şahın əmri ilə təmizlənmiş dərə mənasını verir. Müəllif toponimin digər izahının olduğunu da yazır və göstərir ki, başqa bir izaha görə bu toponim “şah buzu” mənasındadır (Смирнов, 1999: 54). O, bu kənddə tatarların (azərbaycanlıların) və xüsusi statuslu tayfalar kimi kəngərlilərin Yurdçu və Silagi yaxud Salahi boylarının adlarını çəkir. K.N.Smirnov Şahbuz ərazisində qədim qala qalıqlarının olduğunu da göstərir. A.Bağırov, A.Eminova və N.Cəfərova Şahbuz toponiminin

digər mənalarını qeyd etməklə yanaşı onu etnotoponim kimi də nəzərdən keçirmişlər. Bu yanaşmaya görə Şahbuz iki komponeninin birləşməsi və tarixi inkişaf prosesində fonetik dəyişməyə uğraması nəticəsində formalaşmışdır (Bağırov, 2008: 189; Eminova və Cəfərova, 2023: 379). Toponimi Şah + buz (bus) şəklində iki komponentə ayırmaq olar. "Buz / Bus" komponenti qədim Midiya ərazisində yaşamış bus tayfa adı ilə əlaqələndirilə bilər. Tarixi prosesdə "bus"-dan "buz"-a keçid baş vermişdir. Bu dəyişmədə səslərin assimliasiyası və səs dəyişməsi qanunauyğunluğu özünü göstərməkdərir. Bu baxımdan "buz" komponenti konkret etnik qrupu – bus tayfasını ifadə edən etnonimik element kimi çıxış edir. Toponimin ilk hissəsi olan "şah" sözü qədim türk və Şərq dillərində "uca", "yüksək", "ali", "ən üstün", "ən seçilmiş" kimi işlədirilir. Beləliklə, Şahbuz toponimini etnooykonim kimi iki cür izah etmək olar "Yüksək mövqedə məskunlaşmış buslar" yəni "dağ busları" mənasında. İkincisi isə "Ali, yüksək mənsəbli busların yurdu" mənasında. Bu cəhətdən "Şahbuz" adı həm etnik (bus tayfası), həm də məkan-keyfiyyət (uca, yüksək, seçilmiş yer) komponentlərinin birləşməsindən yaranmış kompleks toponim kimi nəzərdən keçirilə bilər.

Smirnovun əsərində adını çəkdiyi tayfalardan biri də Kolanı / Kelanidir. Smirnov yazırdı ki, bu toponim "açıq yer", "mal qara üçün hazırlanmış açıq pəyə" mənasını verir (Смирнов, 1999: 52). Təbii ki, bu cür izahla qəti şəkildə mümkün deyil və Azərbaycan onomastikasında Kolanı toponiminin türkmənşəli Kolanı tayfaları ilə bağlı olması məsələsi artıq çoxdan sübut edilmişdir. N.Hacıheydərlinin araşdırmalarına görə, kolanılar geniş coğrafiyada – Qarabağ, Naxçıvan, İrəvan, Şirvan və digər ərazilərdə məskunlaşmış tükr tayfaları olmuşlar. Bir sıra mənbələrdə Kolanı adının mənşəyinin fars, kürd və başqa dillərdə verilməsi bu türk tayfasının tarixini saxtalaşdırmaq cəhdindən başqa bir şey deyildir (Hacıheydərli, 2018: 7).

"Kolanı" toponiminin etnooykonim kimi struktur semantik quruluşuna gəlincə bu oykonim struktur baxımından iki əsas komponentdən ibarətdir: Kolan etnonimi və "-ı / -li "aidlik şəkilçisi. Bu cür forma Naxçıvanda və ümumilikdə Türk arealında oykonimlərin (kənd, məhəllə adlarının) yaranma mexanizminə uyğundur.

K.N.Smirnovun əsərində birbaşa olaraq etnotoponim kimi qeyd etdiyi yer adlarından biri Biçənəkdir. O, region əhalisinin tərkibində xüsusi yer tutan kəngərliləri peçeneqlərin və qıpçaqların bir hissəsi hesab edir. Bu zaman o özündən əvvəlki müəlliflərə xüsusən İ.Şopenə istinad etmişdir. Biçənəyi kəngərli tayfalarının qışlaq yeri kimi göstərmişdir (Смирнов, 1999: 13, 75). E.Kəlbizadə peçeneq-kəngərli əlaqələrindən bəhs edərkən yazır ki, X əsrdə yaşamış Bizans imperatoru Konstantin Porfirogennet "İmperiyanın idarə olunması haqqında" əsərində Cənubi Rusiya çöllərində erkən orta əsrlərdə mövcud olmuş peçeneq tayfalarının bir neçə alt qrupdan ibarət olduğunu göstərmiş, kəngərliləri isə onların bir qolu hesab etmişdir (Kəlbizadə, 2016: 38).

Q.Qeybullayev də "Qədim türklər və Ermənistan" əsərində kəngərliləri peçeneqlərin bir qolu kimi təsvir etmişdir (Qeybullayev, 1992 :77-80). Qeybullayevin digər bir əsərində isə peçeneqlərin oğuz mənşəli tayfa olduqları fikri qeyd olunur (Qeybullayev, 1994 :152).

Beləliklə, Peçenek etnonimində fonetik dəyişmə baş vermiş, p/b keçidi olmuş və bu ad Biçənəyə çevrilmişdir. Nəzərə almaq lazımdır ki, türk dillərində və oykonimlərdə bu cür keçidlər geniş yayılmışdır və bu dil qanunauyğunluğu ilə izah edilə bilər. Bu dəyişmə yerli dialekt və fonetik assimilyasiya nəticəsində baş vermişdir. Semantik təhlillər bu etnotoponimi "peçenek tayfasının məskəni", "peçeneklərin yaşadığı yer" kimi izah etməyə imkan verir.

K.N.Smirnovun əsərində adını çəkdiyi toponimlərdən biri də Külüsdür. O, Külüs toponiminin hansı mənanı verməsi məsələsinə toxunmur. Sadəcə qeyd edir ki, kənd ərazisində üzərində yazılar olan hündür qala və məbəd vardır (Смирнов, 1999: 53). Külüs toponiminin

etnotoponim olması ilə bağlı çoxsaylı araşdırmalar vardır. Bəzi mənbələr göstərir ki, kəndin adı tarixi baxımdan sakların kol tayfası ilə Oğuzların (Uz) məskunlaşması nəticəsində formalaşmışdır. Struktur-semantik təhlil külüs toponimini iki hissəyə ayırmağa imkan verir. Kül / Kol komponenti etnonimdir. "–Us / -Uz" komponentini həm uzlar – oğuzlarla, həm də məkan və aidlik bildirən şəkilçi kimi qiymətləndirmək olar. İkinci komponentin etnonimik ad və ya mənsubluq bildirən şəkilçi olması məsələsinin müəyyənləşdirilməsi üçün daha geniş araşdırmalara ehtiyac vardır. Bunun üçün əvvəlcə Kol və Uzların qohum və ya bir-birini əvəz edib-etməyən tayfalar olması, ittifaqda olub-olmamaları araşdırılmalıdır ki, biz bu məsələyə gələcək tədqiqatlarımızda toxunacağıq. Beləliklə, etnotoponim kimi, Külüsü həm "kol türklərinin məskəni", həm də "kol və oğuzların yurdu" kimi izah etmək olar.

Yuxarıda da qeyd etdiyimiz kimi, Smirnovun əsərində Babək rayonu ərazisində olan bir sıra toponimlər də qeydə alınmışdır.

K.N.Smirnov "Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair materiallar" əsərində "Sirab" toponimi etnooykonim kimi göstərilməmişdir. İndiyə qədər aparılmış tədqiqatların bir çoxdunra "Sirab" toponimi adətən fərqli məzmunda - "suyun bol olduğu ərazi" kimi izah edilir. Lakin aparılan təhlillər göstərir ki, bu toponimin etimologiyası Sira türkləri və ya siraklarla da bağlı ola bilər. Təsadüfi deyildir ki, Qiyasəddin Qeybullayev Azərbaycan türklərinin etnogenezində iştirak edən tayfalardan biri kimi sir/sirakların adını çəkmişdir (Qeybullayev, 1994 :148). O qeyd edir ki, Albaniya ərazilərində məskunlaşmış türkdilli Şirak tayfasının Atropatenada da yaşaması V əsr müəllifi Feofilakt Simokatta tərəfindən verilən məlumatlarla təsdiqlənir. O, Atropatenada Siraqan adlı yaşayış məntəqəsinin mövcudluğunu qeyd etmiş, bu tayfaların eyni zamanda Muğan bölgəsində məskunlaşdığını bildirmişdir (Qeybullayev, 1994 :166).

Beləliklə, Sirab toponiminin struktur-semantik təhlili onu qədim etnik və məkan komponentlərinin birləşməsi kimi izah etməyə imkan verir. Struktur təhlil göstərir ki, toponim iki hissədən ibarətdir. A) Sir / Sirak – etnonimik komponenti və B) -ab – məkan bildirən komponent. Bu baxımdan Sirab toponimini Sir + ab modelinə uyğun qurulmuş mürəkkəb toponim hesab etmək olar. Yuxarıdakı məlumatlardan da aydın olduğu kimi, birinci komponent sir/siraklarla bağlıdır. Etnonimin fonetik variantları – sirak, şirak, sir, şir, çirak və s. – indi də Cənubi Qafqaz ərazisindəki müxtəlif toponimlərdə qorunmuşdur. "-ab" elementi Azərbaycan və ümumtürk toponimiyasında müxtəlif semantik çalarlar kəsb edə bilir. Klassik fars dilində "ab" su mənasını versə də, bəzi qədim toponimik modellərdə bu komponent daha geniş məkan – ev, yaşayış yeri, məskən, vətəni ifadə edir. Bu halda "-ab" komponenti konkret olaraq bir tayfanın məskunlaşdığı ərazi, yəni yaşayış məkanı anlamında şərh oluna bilər. Semantik olaraq təhlillər onu göstərir ki, Sirab "sirakların məskəni", "sir tayfasının vətəni" mənasını ifadə edə bilər.

Sirab kəndi barədə məlumat verən K.N.Smirnov gösətərir ki, Sirab kəndində tatarlar, kəngərlilər (Kəlfur, Salahi, Bəkdili) yaşayırdılar (Смирнов, 1999: 59)

Əsərdə adı çəkilən toponimlərdən biri Nehrəmdir. Rus müəllifi bu toponimi "Nəhr" və "-üm / -əm" komponentlərinə ayıraraq onu ərəb dilində "ümumi çay" mənasında izah edir (Смирнов, 1999: 53). O yazır ki, kəndin əhalisi xanlara tabe olmur, azad əkinçi idilər və özləri suvarma kanalları qazırdılar. Ağsaqqallar torpaq mülkiyyəti barədə xanlara lazım olan ifadələri verməkdən imtina edirlər. Buna görə onların bir çoxunu Araz çayında boğmuşdular. Lakin Naxçıvan əraizisinin hələ eramızdan əvvəl VI minillikdən etibarən naxər türklərinin məskunlaşma arealına daxil olduğunu nəzərə alsaq (Rzayev, 2023: 71) Nehrəmin ilkin formasının "Naxərəm" formasında olduğunu iddia etmək olar. Toponim iki komponentdən ibarətdir: Naxər etnonimi və -əm şəkilçisi. Birinci komponent olan Naxər etnonimi qədim Nax (və ya Nuh/Nax) etnik və ya mifoloji kökü ilə

əlaqələndirilir. Bu baxımdan "Naxər" forması etnonimik xarakter daşıyaraq türk tayfa və ya etnik qrupun adını ifadə edir. İkinci komponent olan -əm isə türkmənşəli toponimlərin formalaşmasında geniş istifadə olunan morfoloji elementlərdəndir. Beləliklə, Naxərəm forması ilkin mərhələdə "Naxər tayfasına aid yer" və ya "Naxərlərin məskəni" mənasını ifadə edir. Zaman keçdikcə fonetik assimilyasiya və səs düşümü nəticəsində "x" samitinin zəifləməsi və ya tələffüzdə ixtisarı baş vermiş, nəticədə Naxərəm → Nəhrəm → Nehrəm transformasiyası yaranmışdır. Azərbaycan dilinin fonetik qanunauyğunluqları baxımından bu tip dəyişmələr (x samitinin zəifləməsi, ahəng uyğunlaşması və səs ixtisarı) mümkündür və digər toponimlərdə də müşahidə edilir.

K.N.Smirnovun kitabında adını çəkdiyi Naxərlərlə bağlı digər toponim Nəhəcirdir. Kəndin adı kəngərlilərin yaşadıqları kəndlərdən biri kimi çəkilir (Смирнов, 1999: 16). Əsərdə həmçinin göstərilir ki, Kəngərli tayfasının Salahlı tirəsinə mənsub azərbaycanlılar və Zilan kürdləri bu kənddə yaşayırlar. Mənbədən o da aydın olur ki, kəndin ərazisi dağlıqdır və burada su qıtlığı vardır. Ərazidə çoxlu köhnə yaşayış məskənlərinin xarabalıqları qalmışdır. Nehrəm sözündə olduğu kimi də, Naxçı tayfaları ilə bağlı komponent açıq aşkar görünür və bu toponimlə bağlı dərin araşdırmalar onun indiki etimologiyadan fərqli etnimoloji fərziyyələr irəli sürməyə imkan verə bilər. Tədqiqatçı Firudin Rzayev Nəhəcir toponimini məhz naxər tayfalarından biri kimi qeyd etmişdir (Rzayev, 2013: 126).

Beləliklə, aparılan təhlillər göstərir ki, K.N.Smirnovun əsərindəki toponimlərə dair məlumatların bir qismi tarixi həqiqətləri əks etdirməsə də, bu əsər XX əsrin əvvəllərində Naxçıvan bölgəsindəki yaşayış məntəqələrinin adlarını qeydə alması baxımından mühüm mənbədir. Tədqiqat göstərir ki, Şahbuz və Babək rayonlarındakı bir sıra toponimlər (Şahbuz, Kolanı, Biçənək, Külüs) etnonim əsaslıdır və qədim türk tayfalarının (bus, kolanı, peçeneq, kol, uz/oğuz) bu ərazidə yaşadığını təsdiqləyir. Bu toponimlərin struktur-semantik təhlili onların əksəriyyətinin iki komponentlidən ibarət olduğunu və fonetik dəyişmələrə uğradığını göstərir. Beləliklə, müasir dilçilik tədqiqatları K.N. Smirnovun bəzi qeyri-dəqiq izahlarını düzəldərək, bu toponimlərin həqiqi etimologiyasını üzə çıxarmağa imkan verir və Naxçıvanın qədim türk-oğuz yurdu olmasını bir daha sübut edir.

**Ədəbiyyat siyahısı**


Bağırov, A.( 2008) Naxçıvan oykonimləri, Bakı: Nurlan, 333.

Eminova, A., Cəfərova, N.(2023) "Şahbuz rayonu etnotoponimlərinin linqvistik xüsusiyyətlərinin təhlili" // Proceedings of the 2nd International Scientific and Practical Conference «Diversity and Inclusion in Scientific Area», january 26-28, Warsaw, Poland, s. 378-384.

Hacıheydərli, N. (2018) "Əski türk soylarından biri – KOLANILAR", Türküstan, 20-29 yanvar, s. 7.

Kəlbizadə, E.H. (2016) Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı) Naxçıvan: Əcəmi,. 200 s.

Qeybullayev Q. (1992), Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 140 s.

Qeybullayev, Q. (1994) Azərbaycan türklərinin təşəkkülü tarixindən , Bakı: Azərnəşr, 248 s.

Rzayev, F.H. (2013) Naxçıvan əhalisinin etnogenezi tarixindən (m.ö. VI-III minilliklər) ,Bakı, 528 s.

Rzayev, F.H.(2023) Qədim Naxçıvan-Naxər ölkəsi türklərinin mifoloji inancları və bu miflərin yayım arealı [m.ö. VIII-IV minilliklər] Bakı: ADPU, c. I, 359

Смирнов, К. Н.(1999) Материалы по истории и этнографии Нахичеванского края / Баку: Озан, 156.

**Şəmsiyyə Zalova**
*AMEA Naxçıvan Bölməsi*
*Elmi işçi*
*E-mail: wems.zal@mail.ru*
*ORCİD: 0009-0008-7370-7257*

# CAVİD İSMAYILOV ƏSƏRLƏRİNDƏ NAXÇIVAN MEMARLIQ ABİDƏLƏRİNƏ YARADICI YANAŞMA

**Xülasə**

Azərbaycan təsviri sənətinin çağdaş mənzərəsi janr və üslub axtarışlarının rəngarəngliyi, eləcə də milli ənənələrin müasir konseptual yanaşmalarla sintezi baxımından olduqca zəngindir. Bu inkişaf prosesində fərdi yaradıcılıq üslubu və mövzu genişliyi ilə seçilən sənətkarlardan biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı Cavid İsmayılovdur. Rəssamın yaradıcılıq palitrası portret, mənzərə, məişət və batal kimi müxtəlif janrları əhatə etməklə, müasir Azərbaycan rəngkarlıq məktəbinin çoxşaxəli fəaliyyətini özündə təcəssüm etdirir.

C. İsmayılovun fırçasından çıxan hər bir əsər sadəcə vizual təsvir deyil, həm də Azərbaycanın zəngin mədəni irsinin sənədləşdirilməsidir. Belə ki, rəssamın yaradıcılıq irsində mənzərə janrı, xüsusilə də tarixi memarlıq abidələrimizin təsvir olunduğu mənzərələri müstəsna yer tutur. Bu qəbildən olan əsərlərdə Naxçıvanın qədim yaşayış məskənləri, tarixi abidələri yeni bədii təfəkkür işığında təqdim olunur. Rəssamın "Aza körpüsü", "Əshabi-Kəhf mağarası", "Daşlardan gələn səslər" kimi tabloları onun tarixin dərin qatlarına sənətkar kimliyi ilə nüfuz etmək bacarığının göstəricisidir.

C. İsmayılov bu mövzularda işləyərkən həm bir sənətkar, həm də bir tədqiqatçı kimi çıxış etmiş, tarixi faktları və memarlıq detallarını sənət süzgəcindən keçirərək, onları müasir tamaşaçı üçün anlaşıqlı və təsirli bir dilə çevirmişdir. Məhz bu baxımdan, C. İsmayılovun yaradıcılığının tədqiqi həm müasir rəngkarlıq sənətimizin inkişaf dinamikasını izləmək, həm də memarlıq irsimizin təsviri sənətdəki bədii əksini dəyərləndirmək baxımından böyük aktuallıq kəsb edir.
***Açar sözlər:*** *Naxçıvan, memarlıq abidələri, rəssam, Cavid İsmayılov*

# CREATIVE APPROACH TO NAKHCHIVAN'S ARCHITECTURAL MONUMENTS IN THE WORKS OF JAVID ISMAYILOV

**Abstract**

The contemporary landscape of Azerbaijani fine arts is remarkably rich in terms of the diversity of genre and stylistic explorations, as well as the synthesis of national traditions with modern conceptual approaches. One of the artists who stands out in this developmental process with his unique creative style and thematic breadth is Javid Ismayilov, Honored Artist of the Nakhchivan Autonomous Republic. Encompassing various genres such as portraiture, landscape, genre painting, and battle scenes, the artist's creative palette embodies the multifaceted activities of the modern Azerbaijani school of painting.

Each work emerging from J. Ismayilov's brush is not merely a visual representation, but also a documentation of Azerbaijan's rich cultural heritage. Specifically, the landscape genre—particularly those portraying historical architectural monuments—occupies an exceptional place in the artist's creative legacy. In these works, the ancient settlements and historical monuments of

Nakhchivan are presented through the light of a new artistic consciousness. Paintings such as “The Aza Bridge”, “The Ashabi-Kahf Cave” and “Sounds Coming from the Stones” demonstrate his ability to penetrate the deep layers of history through his identity as an artist.

While working on these themes, J. Ismayilov acts as both an artist and a researcher, filtering historical facts and architectural details through an artistic lens to transform them into an accessible and evocative language for the modern viewer. From this perspective, the study of J. Ismayilov’s work is of great relevance, both for tracing the developmental dynamics of our contemporary painting and for evaluating the artistic reflection of our architectural heritage in the fine arts.

***Key words:*** *Nakhchivan, architectural monuments, artist, Javid Ismayilov*

**Giriş**

Azərbaycan təsviri sənətinin müasir inkişaf mərhələsində milli dəyərlərin qorunması və onların gələcək nəsillərə ötürülməsi sənətkarların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu sənət fəlsəfəsinə sadiq qalan, öz yaradıcılıq diapazonunu milli kimliyin təbliği üzərində quran fırça ustalarından biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı Cavid İsmayılovdur. Rəssamın yaradıcılıq yolunu səciyyələndirən əsas amil onun sənətkar mövqeyinin birbaşa milli, mədəni köklərə və tarixi yaddaşa söykənməsidir.

C.İsmayılovun sənətindəki janr müxtəlifliyi və zəngin rəng palitrası onun çevik sənətkar təfəkküründün göstəricisidir. Lakin rəssamı bir sənət fenomeni kimi fərqləndirən əsas xüsusiyyət onun milli kimliyimizin rəmzi sayılan komponentləri–qədim musiqi alətlərimizi, adət-ənənələrimizdən süzülüb gələn məişət səhnələrini yüksək ustalıqla kətan üzərinə köçürməsidir. Bu elementlər onun əsərlərində sadəcə dekorativ detal deyil, xalqın ruhunu və mənəvi dünyasını əks etdirən canlı obrazlar kimi çıxış edir. Rəssamın yaradıcılıq axtarışlarının ən bariz və qabaqcıl istiqamətlərindən biri də Naxçıvanın memarlıq irsinə olan yaradıcı münasibətidir. Azərbaycan rəssamlıq sənətində tarixi abidələrin təsviri ənənəsini yeni müstəviyə daşıyan rəssam, Naxçıvan memarlıq abidələrini təsvir etdiyi mənzərə rəsmlərində tarixin bədii salnaməsini yaradır. Naxçıvanın əzəmətli qalaları, türbələri, körpüləri və digər tikililəri rəssamın sənət süzgəcindən keçərək müasir sənət dilinin estetikası ilə yenidən canlanır.

**Əsas mətn**

C.İsmayılovun Naxçıvan memarlıq irsinin genetik yaddaşı sayılan, qədim mədəniyyətin vizual memuarı hesab olunan, Gəmiqaya petroqliflərini təsvir etdiyi əsəri “Daşlardan gələn səslər” adlanır. Məlumat üçün qeyd edək ki, Naxçıvanın Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsi olan Gəmiqaya petroqlifləri Ordubad rayonunun Qapıcıq adlanan zirvəsində yerləşir. Rəvayətə görə, Nuh peyğəmbərin gəmisinin son dayanacağı bu zirvə olmuşdur. Görkəmli rus tarixçi-sənətşünası K.N. Smirnovun “Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair materiallar” əsərində Nuh peyğəmbərin məzarının Gəmiqaya ətəklərində yerləşən Nuhdaban adlı qədim yaşayış məskənində olduğu qeyd edilir (Baxşəliyev və Quliyeva, 2017: 66).



**Şəkil 1**

C. İsmayılovun sözügedən əsəri qədim mədəniyyətin çağdaş sənətdə əks olunması baxımından mifopoetik əhəmiyyətə malikdir. Belə ki, rəssam Naxçıvan ərazisində yaşayan

qədim tayfaların ibtidai inanclarını ifadə edən işarələrin bir çoxunu əsərində müasir təsvir dili ilə rəsm edib.

Kompozisiyada zoomorf, antopomorf, polimorf və s. kimi komponentlər bir-biri ilə qarşılıqlı təsirdə əks olunub. Müəyyən anatomik formalar saxlanılmaqla stilizə edilmiş bu fiqurlar ikonik təsir bağışlayır. Həmin fiqurlardan biri çərxifələk şəkillidir ki, bu simvol türk xalqlarının mifologiyası arasında genetik bağlılığın olduğuna işarə edir. Əsərdə əksini tapan digər bir işarə xaçşəkillidir ki, bu simvol dünyanın dörd hissəsinin olduğunu vurğulayır. Digər tərəfdən əsərdə süjetli təsvirlər də diqqətimizi çəkir. At üzərində ox və kamanla təsvir edilən insan fiquru ov səhnəsini təcəssüm etdirir. Rəssamın əsərindən də göründüyü kimi bu işarələr hazırda Azərbaycan xalqının sənət əsərlərində, folklorunda, etnoqrafiyasında yaşamaqda davam edir.

Stilistik xüsusiyyətləri ilə seçilən əsərdəki rəng palitrası realist naturalizmə deyil, daha çox əsərin çəkildiyi üsluba uyğunlaşdırılmış abstrakt estetikaya xidmət edir (şəkil 1).

Fikrimizcə, C.İsmayılovun bu mövzuya müraciəti təsadüfi xarakter daşımır, dərin ideoloji əsaslara söykənir. Belə ki, rəssamın bu əsəri memarlıq təfəkkürünün ən qədim layihələndirmə və simvollaşdırma nümunəsi kimi çıxış edir. Qədim insanlar təbii qayaları seçərək onları dini və s. kimi simvollarla bəzəmiş, həmin ərazini xüsusi bir məkana, bir növ ziyarətgaha çevirmişlər. Digər tərəfdən isə tunc dövründə təsviri sənətin inkişafı qədim insanların ibtidai təfəkkürlərini rəsmlər vasitəsilə daha aydın ifadə etmələri üçün şərait yaratmışdır. Rəssam isə öz növbəsində müasir sənət metodları ilə ilkin təsviri sənət mədəniyyətinə aid bu rəsmləri konseptual və formal baxımdan yenidən şərh etməyi qarşısına məqsəd qoymuş və buna nail olmuşdur.

C.İsmayılov yaradıcılıq prosesində plenerə tez-tez müraciət edir, Naxçıvan diyarının müxtəlif bölgələrini ardıcıl şəkildə gəzir, buranın təbiət mənzərələrini və tarixi məkanlarını tablolarında əks etdirir. Rəssamın plenerə əsaslanan müşahidələrinin nəticəsində ərsəyə gətirdiyi əsərlərindən biri də "Ovçulartəpəsi" adlanır.

Mövzudan kənara çıxaraq qeyd edək ki, Naxçıvanın əlverişli coğrafi mövqeyi, təbii sərvətlərlə zənginliyi hələ qədim zamanlardan başlayaraq burada yaşayış yerlərinin salınmasına şərait yaratmışdır. Bu yaşayış məskənlərindən biri də Şərur rayonunun Dizə kəndinin şimal tərəfində yerləşən Ovçulartəpəsidir.

C. İsmayılovun tarixi mühitin rəngkarlıq sənətində təsvirini nümayiş etdirən bu əsəri həm estetik, həm də elmi dəyərə malikdir. Belə ki, rəssam eneolit və erkən tunc dövrünə aid olan tarixi bölgənin antropogen xarakterini təsviri sənət dili ilə təqdim edərək milli kimlik ideyasını ön plana çıxarır. Eyni zamanda, əsər texniki həlli, kompozisiya quruluşu baxımından da yüksək analitik əhəmiyyətə malikdir (Baxşəliyev, Marro və Aşurov, 2010: 4).



**Şəkil 2**

Əsərdə təpənin yüksək perspektivdə qurulması onun həm tarixi, həm də simvolik əhəmiyyətini vurğulayır. Onun üzərində əks olunan günəşin qızılı sarı rəngi əsəri işıqlandırır, torpaqla bağlı həyat tərzini və ilkin insanların məskunlaşma ideyasını simvolizə edir. Sağ tərəfdə təsvir edilən Arpaçay həmin insanlar üçün həyat mənbəyi olaraq sakit, lakin davamlı axını ifadə edir. Çayın təsviri yalnız təpənin coğrafi

mövqeyini bildirmək üçün rəsm edilməmiş, eyni zamanda ilkin məskunlaşma, təsərrüfat üçün əsas amil kimi göstərilmişdir. Digər tərəfdən çay, ağac kimi elementlər yaşayış yerinin funksional xarakterini vurğulayır. Ön planda insan fiqurunun təsvir edilməsi əsərə ölçü qazandırır, onun bu məkanla qurduğu münasibəti ifadə edir. Təpənin yaxınlığındakı ev təsvirləri isə buranın qədimdən başlayaraq yaşayış məkanı olmasının qavranılmasını gücləndirir (şəkil 2).

Nəticə olaraq deyə bilərik ki, C. İsmayılovun insan və təbiət əlaqəsinin bütövlüyünü nümayiş etdirən bu əsəri eyni zamanda regionun minilliklərə söykənən mədəni irsinin vizual salnaməsi kimi xüsusi əhəmiyyət kəsb edir. Əsər Azərbaycan təsviri sənətintə tarixi-arxeoloji mövzuların təsvirinin uğurlu örnəklərindən biri kimi yadda qalır.

C. İsmayılov "Əshabi-Kəhf mağarası" əsəri ilə yalnız tarixi obyektin görüntüsünü deyil, eyni zamanda onun ziyarət məkanı kimi mənəvi mahiyyətini də sənət dilində əks etdirmişdir. Məlumat üçün bildirək ki, Şərqin ən məşhur mağaralarından, eyni zamanda Azərbaycanın ən böyük pirlərindən olan bu tarixi yeri bir çox rəssam öz əsərlərində təsvir etmişdir.

C. İsmayılov əsəri üçün baxış bucağını dini-mədəni abidə kompleksinin damcıxana adlanan mağara hissəsindən seçmişdir. Bu mövqeyin qeyri-ənənəvi olmasına baxmayaraq işıq-kölgə balansı, realist detallar vasitəsilə məkan və mənəvi dəyərlərin vəhdəti dolğun şəkildə əks olunmuşdur. Pastel tonlu əsərdə mağaranın daxili hissəsi qaranlıq şəkildə təsvir edilsə də, giriş hissənin işıqlı təqdimatı kompozisiyada güclü kontrast yaratmış, bu isə öz növbəsində əsərə məkan dərinliyi bəxş etmişdir. Rəssam işığı qaranlıqdan tədricən aydınlığa doğru keçirməklə tamaşaçının baxışını təbii şəkildə pirə doğru yönəltməyi hədəfləmişdir. Beləliklə, mağaranın iç məkanı ilə açıq məkan arasında yaradılan bu vizual qarşıdurma kompozisiyanın əsas struktur prinsipinə çevrilmişdir. Mağaranın səthlərində həm təbiətin, həm də insan əlinin açdığı böyük oyuqların quruluş xüsusiyyətləri dəqiq müşahidə olunmuş, qaya parçalarının kobud və təbii quruluşu inandırıcı şəkildə rəsm edilmişdir. Yumşaq yaşıl, boz kimi pastel rənglər əsərə sakitlik və sirli atmosfer bəxş etmişdir. Ətrafda ziyarətə gəlmiş insanların təsviri kompozisiyaya həyatilik qatır və mövzunun sosial aspektini gücləndirir. İnsan fiqurları ölçü baxımından abidənin əzəmətinin daha da aydın dərk edilməsinə kömək edir (şəkil 3).

C.İsmayılovun əsərləri arasında doğulduğu Ordubad rayonunun təbii və memarlıq mühitini əks etdirən plener rəsmləri də az deyil. Rəssamın bu əsərləri onun yaşadığı regionun memarlıq tikililərinin rəsm əsərləri vasitəsilə sənədləşdirilməsi istiqamətində atdığı mühüm addımın nəticələridir. Ordubadın yaşıl təbiəti və tarixi memarlıq nümunələri C. İsmayılov üçün geniş müşahidə və tədqiqat imkanı yaratmışdır. Bu baxımdan Aza kənd ilə Darkəndi birləşdirən tarixi körpünün yerləşdiyi məkanın təsviri olan "Aza körpüsü" əsəri rəssamın yaradıcılığında xüsusi əhəmiyyətə malikdir. Məlumat üçün qeyd edək ki, XVII əsrə aid olan bu körpü vaxtilə mühüm ticarət-karvan yolu üzərində yerləşmiş, Böyük İpək yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət




**Şəkil 3**

karvanlarının işini asanlaşdırmaq üçün inşa edilmişdir (Baxşəliyev və Quliyeva, 2017: 186).

Əsərdə beş aşırımlı körpü yalnız memarlıq abidəsi kimi deyil, sosial və mədəni həyatın göstəricisi kimi təqdim olunmuşdur. Belə ki, çoxplanlı kompozisiyada körpü əsərin əsas struktur elementi kimi vurğulansa da, diqqətimizi çəkən digər bir detal körpünün altından axan Gilançayda çimən və istirahət edən məktəblilərin təsviridir. Körpünün ətrafında baş verən bu məişət səhnəsi əsərə hərəkət bəxş edir. Məhz buna görə də tikili əsərdə sabit obyekt deyil, sosial həyatın aktiv elementi kimi dərk edilir, onun yerləşdiyi məkanın isə istifadədə olan bir mühit olduğu göstərilir. Rəssam körpünün inşasında istifadə edilən yonulmuş qırmızı dağ daşlarının fakturasını olduğu kimi rəsm etmiş, abidənin tarixi yaşını ön plana çıxarmağı bacarmışdır. Materialın bu cür real təsviri bölgənin təbii-coğrafi xüsusiyyətlərini və Səfəvilər dövrü memarlıq ənənələrini özündə ehtiva edir. Rənglər işıqlı havada plener təsvirinə uyğun olaraq diffuz şəkildə tətbiq edilmiş, kəskin kontrastlardan qaçınılmışdır. Arxa fonda təsvir olunan yaşıl təpəliklər rayonun coğrafi xarakterini əks etdirir. Beləliklə, əsər rəssamın plener müşahidəsinə əsaslanan realist yanaşmasının əhəmiyyətini vurğulayır (şəkil 4).

**Nəticə**

Nəticə olaraq, deyə bilərik ki, C.İsmayılovun təhlil olunan əsərləri rəssamın Naxçıvan memarlıq abidələrinə olan yaradıcı münasibətini bir daha nümayiş etdirir. Qeyd edək ki, sözügedən əsərlər əvvəlki məqalələrimizdə tədqiqata cəlb etdiyimiz "Naxçıvan Atabəylər dövründə", "Böyük İpək yolu və Naxçıvan", "Möminə xatun türbəsi" və s. kimi rəsmlər qədər tarixi və mədəni əhəmiyyət kəsb edir. Rəssamın bu əsərləri onun yaradıcılıq irsində bir-birini tamamlayan vahid bir silsilə təşkil edərək, Naxçıvan memarlıq abidələrinin bədii salnaməsini yaradır. Rəssam sarsılmaz qala divarlarını, zərif naxışlı türbələri eyni peşəkarlıqla rəsm etmiş, hər bir detalda tarixin ruhunu və milli memarlıq üslubumuzun özəlliklərini böyük ustalıqla əks etdirmişdir.



**Şəkil 4**

**Ədəbiyyat siyahısı**

Baxşəliyev, V. və Quliyeva, F. (2017). Naxçıvanın tarixi abidələri. Bakı: Nurlan

Baxşəliyev, V. Marro, C. və Aşurov, S. (2010). Ovçulartəpəsi. Bakı: Elm

İsmayılov, C. (2023). Naxçıvan rəssamlarının yaradıcılığında ənənə və müasirlik. Naxçıvan: Əcəmi

Naxçıvan Rəssamlarının Ensiklopediyası. (2022). Naxçıvan: Əcəmi

**Ülkər Cəmilli**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Doktorant*
*E-mail: ulkarjamilli.uj@gmail.com*
*ORCİD: 0009-0003-6692-0627*

# XVIII ƏSRİN 20-Cİ İLLƏRİNDƏ SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCANIN GEOSİYASİ VƏZİYYƏTİ (OSMANLI TARİXŞÜNASLIĞI VƏ ARXİV SƏNƏDLƏRİ İŞIĞINDA)

**Xülasə**

XVIII əsrin 20-ci illərində Səfəvi dövləti ilə Osmanlı imperiyası arasındakı münasibətlər son dərəcə gərgin və mürəkkəb geosiyasi proseslərlə səciyyələnirdi. Bu dövr həm daxili böhranların dərinləşməsi, həm də xarici müdaxilələrin kəskinləşməsi ilə fərqlənir. Səfəvi dövlətinin tənəzzülünün pik nöqtəsi olan bu mərhələ, Azərbaycan torpaqlarının böyük dövlətlər arasında bölüşdürülməsi uğrunda mübarizənin ən kəskin dövrüdür. Artıq Səfəvi-Osmanlı münasibətləri iki bərabərhüquqlu tərəfin rəqabətindən ziyada, çökməkdə olan bir imperiyanın mirası uğrunda gedən mübarizə xarakteri daşıyırdı.

Tədqiqatda XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin yaşadığı dərin siyasi-iqtisadi böhran fonunda regionda yaranmış mürəkkəb geosiyasi vəziyyət və bu şəraitdə formalaşan Səfəvi-Osmanlı-Rusiya üçtərəfli münasibətləri təhlil edilir. Dövrün əsas xüsusiyyəti kimi Səfəvi mirası uğrunda imperiyaların qarşıdurması və Azərbaycan ərazilərinin nüfuz dairələrinə bölünməsi prosesi prioritet istiqamət olaraq araşdırılır.

***Açar sözlər:*** *Osmanlı, Səfəvi, tarixşünaslıq, arxiv, XVIII əsr*

# SAFAVID-OTTOMAN RELATIONS AND THE GEOPOLITICAL STATUS OF AZERBAIJAN IN THE 1720s (IN THE LİGHT OF OTTOMAN HİSTORİOGRAPHY AND ARCHİVE DOCUMENTS)

**Abstract**

In the 1720s, relations between the Safavid State and the Ottoman Empire were characterized by extreme tension and complex geopolitical processes. This period is distinguished by the deepening of internal crises and the intensification of foreign interventions. Marking the pinnacle of the Safavid State's decline, this stage represents the most acute phase of the struggle among great powers for the partition of Azerbaijani territories. By this time, Safavid-Ottoman relations had shifted from a rivalry between two equal parties to a struggle over the inheritance of a collapsing empire.

The research analyzes the intricate geopolitical situation in the region against the backdrop of the profound political and economic crisis of the Safavid State in the 1720s, as well as the trilateral Safavid-Ottoman-Russian relations formed under these circumstances. As a key characteristic of the period, the confrontation between empires over the Safavid legacy and the process of dividing Azerbaijani territories into spheres of influence are investigated as priority directions.

***Key words:*** *Ottoman, Safavid, historiography, archive, 20th century*

XVIII əsrin əvvəllərində Səfəvi dövləti dərin siyasi və iqtisadi böhran yaşayırdı. Xüsusilə Şah Sultan Hüseyn dövründə mərkəzi hakimiyyət zəifləmiş, əyalətlərdə üsyanlar artmışdı. Bu zəiflik Osmanlıların regionda fəallaşmasına şərait yaratdı.

1722-ci ildə əfqanların Səfəvilərin paytaxtı İsfahanı tutması və Şah Sultan Hüseynin əsir düşməsi ilə Səfəvi mərkəzi hakimiyyəti iflic oldu. Bu vəziyyət qonşu dövlətlərin, xüsusilə Rusiya və Osmanlı İmperiyasının regiona marağını artırdı.

Rusiya ilə rəqabətdə geri qalmamaq üçün Səfəvi dövlətinin zəifləməsindən istifadə edən Osmanlı sultanı III Əhməd 1723-cü ildən etibarən Azərbaycanın qərb və mərkəzi bölgələrinə qoşun yeritdi. Beləliklə, Səfəvi-Osmanlı müharibəsinin yeni dövrü başlandı.

*"Osmanlı dövlətinin bu dövrdə Səfəvilərə qarşı müharibə elan etməsinin digər bir səbəbi də Təbrizin fəthi vasitəsilə xam ipək ticarətindən əldə olunan gəlirlərə nəzarət etmək istəyi idi"* (Adıgüzel və Yıldırım, 2017: 64).

1723-1725-ci illəri əhatə edən hərbi əməliyyatlar nəticəsində Osmanlı imperiyası Şərqi Gürcüstan, Çuxursəd bəylərbəyliyi, Azərbaycanın mühüm strateji mərkəzlərini (Marağa, Xoy, Naxçıvan, Ordubad, Təbriz, Gəncə, Ərdəbil) və Qərbi İran ərazilərini nəzarət altına almışdır.

Türkiyə Respublikası Prezidenti yanında Dövlət Arxivləri İdarəsinin (Osmanlı Arxivi) sənədlərinə əsasən, Osmanlı dövləti Səfəvilərə qarşı planlaşdırılan hərbi hərəkat məsələsində təmkinli mövqe nümayiş etdirsə də, Qafqazda yaranmış geosiyasi vəziyyət imperiyanın müdaxiləsini zəruri edirdi. Bu səbəbdən, strateji prioritet olaraq Qafqaz probleminin həllinə yönəlmiş fəaliyyətə başlanılmış və ilk mərhələdə Tiflisin fəthi qərara alınmışdır. Tiflis yürüşünə səpahsalar (ordu komandanı) təyin edilən Ərzurum valisi İbrahim paşa, 1722-ci ilin oktyabrında Qars istiqamətindən hərəkətə keçmişdir. Qars və Diyarbəkir valilərinin hərbi dəstəyi nəticəsində 1723-cü ilin iyul ayında Tiflis fəth olunaraq Osmanlı idarəçiliyinə keçmişdir (Bax: BOA, No:131).

Kirmanşah 16 oktyabr 1723-cü il tarixdə heç bir müqavimət göstərmədən Osmanlı qüvvələrinə təslim oldu. Orta qol istiqamətində irəliləyən Köprülüzadə Abdullah Paşa 1724-cü ilin may ayında Xoy, Səlmas və Mərənd kimi məntəqələri ələ keçirdi, avqust ayında isə Təbrizi mühasirəyə aldı.

Şimal qolunda isə Gəncə 10 oktyabr 1723-cü ildə fəth edildi. Bundan əlavə, Naxçıvan bölgəsi və Kür çayı hövzəsi də nəzarət altına alındı. Lakin əsas hədəf olan İrəvanın fəthinə yönəlmiş hərbi əməliyyata başlamaq mümkün olmadı.

Osmanlı ekspansiyasının bu dərəcədə genişlənməsi Rusiyanın Xəzəryanı bölgədəki strateji maraqları üçün ciddi təhdid formalaşdırırdı. Xatırladaq ki, hələ 1722-1723-cü illərdə Rusiya qoşunları Xəzər dənizinin qərb sahillərini yəni, Dərbənddən Ənzəliyə qədər olan geniş ərazini işğal etmişdi. 12 sentyabr 1723-cü il tarixdə Səfəvi-Rusiya arasında imzalanmış Peterburq müqaviləsinin şərtlərinə əsasən, həmin ərazilər rəsmən Rusiyanın tərkibinə qatılmışdı.

Bölgədəki bu qarşıdurma Rusiya və Osmanlı imperiyaları arasında birbaşa hərbi münaqişə riskini artırsa da, 23 iyun 1724-cü il tarixdə imzalanmış İstanbul müqaviləsi tərəflər arasında nüfuz dairələrinin bölünməsini təmin edərək müharibə təhlükəsini müvəqqəti olaraq aradan qaldırmışdır.

*"Regionda yarana biləcək potensial hərbi-siyasi münaqişələrin qarşısını almaq məqsədilə, 1724-cü ildə I Pyotr və III Əhməd arasında Qafqaz və Azərbaycanda iki imperiya arasındakı yeni sərhədlərin müəyyənləşdirilməsinə dair qarşılıqlı razılaşma əldə edildi"* (Ozel, 2018: 8).

Osmanlı arxiv sənədlərində təsbit edilmiş müqavilə şərtlərinə əsasən qeyd olunur ki:

*"1. Kür və Araz çaylarının qovuşduğu coğrafi nöqtədən şimala doğru, Xəzəryanı sahilboyu ərazilər – Dərbənd, Bakı və Şirvanın bir hissəsi Rusiya İmperiyasının mülkiyyətinə keçir. Bu xəttin*

*qərbində qalan Gürcüstan və Şirvanın qalan hissəsi Osmanlı Dövlətinin suverenliyinə verilir. Arazdan cənubdakı Xəzəryanı torpaqlar isə Səfəvilərin ixtiyarında qalır;*

*2. Kür-Araz qovşağından cənuba, Həmədan istiqamətinə çəkilən xəttin qərbində qalan İrəvan, Qarabağ, Naxçıvan, Gəncə, Xoy, Urmiya, Marağa, Səlmas, Təbriz, Həmədan və Kirmanşah şəhərləri Osmanlı Dövlətinə ilhaq edilir;*

*3. II Təhmasib sözügedən ərazi bölgüsünü rəsmən tanıdığı təqdirdə, hər iki dövlət onun Səfəvilərin qalan əraziləri üzərindəki şahlıq legitimliyini qəbul edir. İmtina edəcəyi təqdirdə, Rusiya bu ərazilərin Osmanlı tərəfindən tutulmasına hərbi-diplomatik dəstək verməyi öhdəsinə götürür;*

*4. II Təhmasib müqavilə şərtlərini və Osmanlı işğallarını təsdiqlədiyi halda, Rusiya və Osmanlı əfqan qüvvələrinin ölkədən çıxarılması üçün ona hərbi yardım göstərməyi hədəfləyir;*

*5. Tərəflər razılığa gəlməyən hökmdara qarşı müqavilə ilə müəyyən edilmiş zonaları hərbi güclə zəbt etmək hüququnu saxlayır. Lakin Səfəvilərin daxili idarəetməsinə müdaxilə edilmir; şərtləri qəbul edən yeni bir monarxın hakimiyyətə gəlməsi gözlənilir"* (BOA, 7-11).

Nəticə etibarilə, ruslar Osmanlı dövlətindən daha öncə Qafqazda hakimiyyəti ələ keçirdilər. Eyni zamanda, Qəndəhar hakimi Mahmud xan da İsfahanı istila edərək Səfəvi sülaləsini əsir götürdü. Belə bir şəraitdə mövcud vəziyyət aşağıdakı kimi idi: Səfəvi dövlətinin şərq hissəsi tamamilə əfqanların işğalı altında idi. Bundan əlavə, dövlətin mərkəzi və idarəçiliyi də əfqan Mir Üveys oğlu Mahmudun əlinə keçmişdi, şimal-qərbi isə Rusiyanın işğalı və nəzarəti altına düşmüşdü. Səfəvi torpaqları olaraq İranın yalnız qərb hissələri, yəni Osmanlı sərhədinə yaxın bölgələrdəki bəzi şəhərlər qalmışdı. Şahlığını elan edən II Təhmasib məhz bu şəhər və bölgələrə sahib çıxmağa çalışırdı. Bu vəziyyətdə Osmanlı dövləti İrana qarşı qəbul etdiyi müharibə qərarını faktiki olaraq icra etməyə başladı və beləliklə, II Təhmasibə müharibə elan olundu.

Osmanlı dövləti uzunmüddətli strateji tərəddüdlərdən sonra İrana qarşı hərbi əməliyyatlara başlamışdır. Bu kampaniya çərçivəsində Osmanlı qoşunları İran ərazilərinə üç əsas istiqamətdən daxil olmuşdur: Qafqaz cəbhəsinin komandanı Arifi Əhməd Paşanın rəhbərliyi altında fəaliyyət göstərən şimal qolunun başlıca strateji hədəfi İrəvanın fəthi idi; Van bəylərbəyi Köprülüzadə Abdullah Paşanın komandanlığına verilmiş orta qol Təbrizi ələ keçirmək vəzifəsini daşıyırdı. Bağdad valisi Əyyublu Həsən Paşanın rəhbərlik etdiyi cənub qolunun əsas prioriteti Kirmanşahın nəzarətə götürülməsi idi.

Qeyd olunan hərbi-siyasi proseslərin tarixşünaslıqda tədqiqinə gəldikdə isə, türkiyəli tədqiqatçı Raif İvecan öz doktorluq dissertasiyasında İrəvanın Osmanlılar tərəfindən fəthi mərhələlərini, eləcə də bölgənin Osmanlı idarəçiliyi dövründəki sosial-siyasi və inzibati mənzərəsini kompleks şəkildə təhlil etmişdir:

*"1720-ci illərdə Səfəvi dövlətində baş qaldıran daxili iğtişaşlardan istifadə edilərək, İranın bir çox bölgələri kimi İrəvanın da fəth olunmasına qərar verilmişdi. Sultan III Əhmədin hakimiyyəti dövründə, 7 oktyabr 1724-cü il tarixində Osmanlı ordusunun qalaya daxil olması ilə İrəvan növbəti dəfə Osmanlı torpaqlarına ilhaq edildi. On bir il ərzində Osmanlı idarəçiliyində qalan İrəvan 1735-ci ilin yayında Nadir xan tərəfindən mühasirəyə alındı. Gəncə və Tiflis mühafizlərindən fərqli olaraq, İrəvan mühafizi qalanı təslim etməyərək müdafiəyə başladı. Lakin daha sonra bağlanan 3 oktyabr 1735-ci il tarixli müqaviləyə əsasən, İrəvan Səfəvilərə qaytarıldı. Osmanlı rəhbərliyi ilə Nadir şah arasında imzalanan 4 sentyabr 1746-cı il tarixli müqavilə ilə İrəvanın İrana verilməsi rəsmən qəbul edildi. Bu tarixdən sonra İrəvan bir daha Osmanlı hakimiyyətinə daxil olmamışdır. Şəhər, Nadir şahın ölümündən sonra qurulan İrəvan xanlığının mərkəzinə çevrilmişdir"* (İvecan, 2007: 2-3).

Həmin dövrdə İsfahanda Mahmud xandan sonra hakimiyyətə Əşrəf xan gəldi. O, öz legitimliyini təsbit etmək məqsədilə Şah Sultan Hüseynin qızı ilə nikah bağladı. Bu zaman II Təhmasib Mazandaranda qərar tutmuşdu. Əşrəf xan Osmanlı sarayına Əbdüləziz və Molla Əbdürrahim adlı elçilərini göndərərək, Səfəvi taxtının qanuni varisi olduğunu bəyan etdi. Elçilər vasitəsilə Osmanlı qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasını və sərhədlərin status-kvonun bərpası şərti ilə müqavilə bağlanmasını tələb etdi. Lakin diplomatik nümayəndələrin kəskin və iddialı çıxışları tərəflər arasındakı gərginliyi artıraraq, Osmanlı ordusunun İsfahan üzərinə yürüşü ilə nəticələndi.

Türkiyəli tarixçi Cihat Aydoğmuşoğlu, İbrahim Tellioğlunun redaktorluğu ilə işıq üzü görmüş "Başlanğıcdan günümüzədək Türkiyə-Azərbaycan əlaqələri" (Başlangıçtan günümüze Türkiye-Azerbaycan ilişkileri) (Tellioğlu, 2023) adlı kollektiv monoqrafiyada yer alan "Səfəvilər dövrü" başlıqlı tədqiqat məqaləsində həmin tarixi prosesləri belə xarakterizə edir:

*"Bu zaman kəsimində Osmanlı qoşunları Səfəvi dövlətinin daxilində hökm sürən xaosdan istifadə edərək Tiflis, Gəncə, İrəvan, Təbriz, Urmiya, Ərdəbil, Marağa, Kirmanşah, Həmədan, Ərdəbil və Nəhavənd şəhərlərində öz hakimiyyətini bərqərar etmiş və həmin ərazilərdə möhkəmlənmişdilər.*

*İstanbuldan göndərilən fərmana əsasən, geniş artilleriya (top) və təqribən 50.000 nəfərlik qoşun qüvvəsi ilə hərbi əməliyyatlara başlayan Əhməd Paşa, Əşrəf xanın sayca az, lakin yüksək manevr qabiliyyətinə malik süvari birlikləri tərəfindən dayandırılmışdır (8 noyabr 1726). Bu hadisə strateji əhəmiyyətli hərbi müvəffəqiyyət hesab olunur. Əslində, Bağdad valisi Əhməd Paşanın komandanlığı altındakı Osmanlı qoşunlarının hücum strategiyası, Əşrəf xanın diplomatik manevrləri nəticəsində iflic olmuşdu; belə ki, o, gizli kəşfiyyat yolları ilə bəzi kürd bəylərini öz tərəfinə çəkərək Osmanlı ordusunun daxili birliyini sarsıtmış və irəliləyişi ləngitmişdi."* (Tellioğlu, 2023: 231-232).

Osmanlı hökuməti tərəfindən paşanın ixtiyarına əlavə hərbi qüvvələr və sursat göndərildikdən sonra, əfqan hökmdarı Əşrəf xan mövcud vəziyyətdən təşvişə düşərək sülh danışıqlarına başlamaq qərarına gəlmişdir. Bu məqsədlə o, etimad göstərdiyi Hacı İsmayıl adlı nümayəndəsini Əhməd Paşanın yanına göndərmişdir. Qeyd edilməlidir ki, bu dövrdə Osmanlı dövləti də Səfəvi sərhədlərində davam edən qeyri-sabitliyin və ixtilafların ən qısa zamanda diplomatik yolla həllində maraqlı idi.

Bu diplomatik təmasların nəticəsi olaraq, 4 oktyabr 1727-ci il tarixində tərəflər arasında 12 maddədən ibarət sülh müqaviləsi imzalanmışdır. Müqavilənin şərtlərinə əsasən, Əşrəf xan rəsmən "Səfəvi Şahı" tituluna sahib olmuş, lakin Osmanlı dövlətinin faktiki nəzarətində olan ərazilərin status-kvosu qorunaraq geri qaytarılmamışdır. Eyni zamanda, Əşrəf xanın qənimət olaraq ələ keçirdiyi artilleriya qurğuları Əhməd Paşaya təhvil verilmişdir. Həmədan sülhü ilə Kirmanşah, Həmədan, Ərdəlan, Nəhavənd, Luristan, Mərənd, Marağa, Səlmas, Xoy, Təbriz, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Tiflis, Şirvan və mərkəzi Şamaxı olan ərazilər Osmanlı hakimiyyəti altında qalmışdır.

Osmanlı dövləti, əldə etdiyi bu ərazilər müqabilində Əşrəf xana İslam hüququ çərçivəsində öz adına xütbə oxutmaq və sikkə kəsdirmək hüququnu tanımışdır. Həmədan sülhündən qısa müddət sonra Rusiya İmperiyası da Əşrəf xanla on maddəlik bir müaqavilə bağlayaraq onu "Səfəvi Şahı" kimi tanımışdır. Tarixçi Məhəmməd Kazım Mərvinin qeydlərinə görə, bu sülh prosesindən istifadə edən Rusiya tərəfi Rəşt və Lahican şəhərlərini öz təsərrüfünə keçirmişdir. Beləliklə, bu geosiyasi şəraitdə Səfəvi mülkü əfqan tayfaları, özbəklər, Osmanlı və Rusiya İmperiyaları arasında

mühasirəyə alınmış, siyasi baxımdan olduqca mürəkkəb bir vəziyyətə düşmüşdür (Bax: Tellioğlu, 2023: 232.

II Şah Təhmasibin hakimiyyətinin böhranlı mərhələsində Nadir xan Əfşar və Fətəli xan Qacarın hərbi yardımı Səfəvi sülaləsinin siyasi mövqeyini müvəqqəti olaraq stabilləşdirdi. Nadir xan 5000, Fətəli xan isə 3000 nəfərlik qoşunla Mazandaranın Fərəhabad şəhərində şahın ordusuna daxil oldular.

Hökmdarın xidmətinə qəbul edildiyi üçün "Təhmasibqulu xan" titulu ilə təltif olunan Nadir xan, strateji üstünlüyü təmin etmək məqsədilə ilk növbədə Məşhəd və Heratın azad edilməsini təklif etdi.

1726-cı ilin oktyabrında Nadir xan siyasi rəqibi Fətəli xan Qacarı kənarlaşdıraraq ordunun yeganə baş komandanı təyin edildi. Bu dəyişiklikdən dərhal sonra başlayan hərbi kampaniya nəticəsində Məlik Mahmud Sistani məğlub edildi; 1726-1727-ci illərdə Məşhəd və Herat strateji bölgələri yenidən Səfəvi hakimiyyətinə qaytarıldı.

Tədqiqatçı Alper Yıldırım öz məqaləsində II Şah Təhmasib dövrünün bu hərbi-siyasi mənzərəsini belə şərh edir:

*"Nadir xan Əfşar Şah II Təhmasib ilə hərbi-siyasi ittifaq yaratdıqdan qısa müddət sonra Məşhəd şəhərini mühasirəyə almışdır. Uzunmüddətli hərbi əməliyyatlardan sonra strateji əhəmiyyət kəsb edən Məşhədi zəbt edən Nadir, ilk növbədə, İmam Rza kompleksinin restavrasiyası və türbəyə ikinci minarənin əlavə edilməsi barədə fərman vermişdir. Bu fəaliyyət dövlət daxilində Nadir xanın nüfuzunun artmasına və Şah II Təhmasibin ona olan etimadının möhkəmlənməsinə səbəb olmuşdur. Ardınca, tərəflər Əşrəf xan Hotaki tərəfindən mühasirədə saxlanılan Səmnan şəhərini azad etmək məqsədilə müştərək hərbi kampaniyaya başlamışlar. Görülən operativ tədbirlər nəticəsində Səmnan azad edilmiş və bölgədəki əfqan qüvvələrinin müqaviməti tamamilə qırılmışdır"* (Yıldırım, 2024: 8).

Xorasandakı qələbələrdən sonra Nadir xan əfqan qüvvələrini ölkədən tamamilə təmizləmək məqsədilə hücuma keçdi. Əfqan hökmdarı Əşrəf xanın Osmanlı imperiyasından gözlədiyi hərbi dəstək yalnız simvolik xarakter daşıdığından, əfqan qüvvələri Nadirin nizami ordusu qarşısında tab gətirməyərək İsfahandan Şiraza geri çəkildi. 1729-cu ilin sentyabr-noyabr aylarında baş vermiş həlledici döyüşlər əfqan işğalının süqutunu təmin etdi.

Əfqan qüvvələrinin tamamilə məğlub edilməsindən sonra, Nadir xan Əfşar Tehranda olan Şah II Təhmasib ilə birlikdə Səfəvi imperiyasının paytaxtı İsfahana daxil olmuşdur. Paytaxtda Şah II Təhmasibin hakimiyyətinin bərpası rəmzi olaraq onun adına xütbə oxunması və sikkə kəsilməsi ilə təsdiqlənmişdir. İsfahanın azad edilməsi və Səfəvi legitimliyinin bərpasının strateji yekunu olaraq, şahın bacısı Raziyə bəyim Nadir xan ilə nikahlanmış, beləliklə, Əfşarlar ilə Səfəvi sülaləsi arasında siyasi-ailə ittifaqı qurulmuşdur.

Bundan sonra, Səfəvi dövlətinin baş vəziri təyin edilən Nadir xan Əfşar işğal olunmuş ərazilərin azad edilməsi məqsədilə genişmiqyaslı hərbi əməliyyatlara başladı. 1730-1735-ci illəri əhatə edən bu mübarizə nəticəsində Osmanlı qüvvələri Azərbaycan torpaqlarından tamamilə çıxarıldı və ölkənin ərazi bütövlüyü bərpa edildi.

**Nəticə**

XVIII əsrin 20-ci illərində Səfəvi-Osmanlı münasibətlərinin təhlili göstərir ki, bu dövr regionun geosiyasi xəritəsinin yenidən formalaşdığı həlledici bir mərhələdir. Səfəvi dövlətinin mərkəzi hakimiyyətinin iflic olması və əfqan istilası nəticəsində yaranan "hakimiyyət vakuumu" Osmanlı və Rusiya İmperiyaları üçün geniş ekspansiya imkanları yaratmışdı. Osmanlı tarixşünaslığında və arxiv sənədlərində əks olunan faktlar təsdiq edir ki, osmanlıların bu dövrdəki

siyasəti təkcə ərazi genişləndirmək deyil, həm də strateji ipək ticarətinə nəzarət etmək və Rusiyanın Qafqazda həddindən artıq güclənməsinin qarşısını almaq məqsədi daşıyırdı.

1724-cü il İstanbul müqaviləsi və 1727-ci il Həmədan sülhü kimi diplomatik aktlar bölgənin böyük dövlətlər arasında bölüşdürülməsi cəhdinin hüquqi təsdiqi idi. Lakin bu diplomatik uğurlar Səfəvi mülkündə daxili konsolidasiyanın başlanması ilə müvəqqəti xarakter aldı. Nadir xan Əfşarın hərbi səhnəyə çıxışı, əfqan faktorunun sıradan çıxarılması və Səfəvi legitimliyinin rəmzi bərpası regiondakı qüvvələr nisbətini köklü surətdə dəyişdi.

Yekun olaraq qeyd etmək lazımdır ki, 1720-ci illərin gərgin hərbi-diplomatik mübarizəsi Səfəvi dövlətinin süqutu ərəfəsində sonuncu böyük sarsıntısı, eyni zamanda Nadir şah Əfşar imperiyasının qurulmasına aparan yolun başlanğıcı oldu. Osmanlı tarixşünaslığının təqdim etdiyi sənədlər bu dövrün sadəcə iki dövlət arasındakı müharibə deyil, həm də beynəlxalq münasibətlər sistemində Şərqi Avropa və Yaxın Şərq balansını müəyyən edən mürəkkəb bir proses olduğunu sübut edir.

**Ədəbiyyat siyahısı**

Adıgüzel, A., & Yıldırım, A. (2017). I. Mahmud Dönemi (1730-1754) Osmanlı-İran İlişkileri. *Eskişehir Osmangazi Üniversitesi İlahiyat Fakültesi Dergisi*, *4*(7), 59-96.

Başbakanlık Osmanlı Arşivi (BOA). *Mühimme Defteri*, İstanbul Sözleşmesi, ss. 7-11; 78-82.

Başbakanlık Osmanlı Arşivi (BOA). *Mühimme Defteri*, No: 131, hüküm: 504. (Tiflis kal‘asının miftahı vezir-i müşârünileyhe teslim).

İvecan, R. (2007). *Osmanlı hakimiyyetinde Revan (1724-1746)* [Doktora tezi]. İstanbul Üniversitesi. 252 s.

Tellioğlu, İ. (Ed.). (2023). *Başlangıçtan günümüze Türkiye-Azerbaycan ilişkileri*. Türk Tarih Kurumu. 864 s.

Yıldırım, A. (2024). Safevi Hanedanının Son Yüzyılı: II. Tahmasb Dönemi İç ve Dış Mücadelelerinin Bir Analizi. *Sosyal ve Beşeri Bilimler Araştırmaları Dergisi*, *25*(54), 1-13.

Ozel, N. (2018). *Ambassadors, spies, captives, merchants and travelers: Ottoman information networks in the East, 1736-1747*, İstanbul Şehir University. 306 p.